AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ HÜQUQ İNSTİTUTU

ELMİ ƏSƏRLƏR

Beynəlxalq elmi-nəzəri jurnal

№ 2 (17)

BAKI-2011

BAŞ REDAKTOR:
İham MƏMMƏDZADƏ, *fəlsəfə elmləri doktoru, professor*

BAŞ REDAKTOR MÜAVİNİ:
Bəhram ZAHİDOV, *hüquq elmləri doktoru,professor*

MƏSUL KATİBLƏR:
Həbib HÜSEYNOV, *fəlsəfə doktoru*
Zeynəddin ŞABANOV, *fəlsəfə doktoru*
Rəşad İLYASOV, *fəlsəfə doktoru*

REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:

FƏLSƏFƏ ELMLƏRİ ÜZRƏ
Səlahəddin XƏLİLOV,
fəlsəfə elmləri doktoru, AMEA-nın müxbir üzvü
Sevda MƏMMƏDƏLİYEVA,
fəlsəfə elmləri doktoru, AMEA-nın müxbir üzvü
Adil ƏSƏDOV, *fəlsəfə elmləri doktoru*
Əli ABASOV, *fəlsəfə elmləri doktoru*
Lalə MÖVSÜMOVA, *fəlsəfə elmləri doktoru*
Füzuli QURBANOV, *fəlsəfə elmləri doktoru*
Arzu HACIYEVA, *fəlsəfə elmləri doktoru*
Roida RZAYEVA, *fəlsəfə doktoru*

SOSİOLOGİYA ELMLƏRİ ÜZRƏ
Əbülhəsən ABBASOV, *fəlsəfə elmləri doktoru*
Rəna MİRZƏZADƏ, *fəlsəfə elmləri doktoru*
Rəfiqə ƏZİMOVA, *fəlsəfə elmləri doktoru*
Hüseyn QARAŞOV, *sosiologiya elmləri doktoru*
Rafael Həsənov, *sosiologiya elmləri doktoru*

SİYASİ ELMLƏR ÜZRƏ
Əlikram TAĞIYEV, *fəlsəfə elmləri doktoru*
Həsən ƏLİBƏYLİ, *tarix elmləri doktoru*
Ramiz SEVDİMALIYEV, *siyasi elmlər doktoru*
Azər MUSTAFAYEV, *fəlsəfə elmləri doktoru*

İLAHİYYAT ELMLƏRİ ÜZRƏ
Sakit HÜSEYNOV, *fəlsəfə elmləri doktoru*
Aydın ƏLİZADƏ, *fəlsəfə elmləri doktoru*
Elsevər SƏMƏDOV, *fəlsəfə doktoru*

PSİXOLOGİYA ELMLƏRİ ÜZRƏ
Bəxtiyar ƏLIYEV,
psixologiya elmləri doktoru, AMEA-nın müxbir üzvü
Kamilə ƏLİYEVA, *psixologiya elmləri doktoru, professor*
Svetlana MƏCİDOVA, *psixologiya elmləri doktoru*
Rəna İBRAHİMBƏYOVA,
psixologiya üzrə fəlsəfə doktoru

HÜQUQ ELMLƏRİ ÜZRƏ
İsaxan VƏLİYEV, *hüquq elmləri doktoru*
Mirağa CƏFƏRQULİYEV, *hüquq elmləri doktoru, professor*
Habil QURBANOV, *hüquq elmləri doktoru, professor*
Əli RZAYEV, *hüquq üzrə fəlsəfə doktoru*
Aqşin QULİYEV, *hüquq üzrə fəlsəfə doktoru*
Rauf QARAYEV, *hüquq üzrə fəlsəfə doktoru*
Mirafərim SEYİDOV, *hüquq üzrə fəlsəfə doktoru*

BEYNƏLXALQ REDAKSİYA HEYƏTİ
Aleksandr ÇUMAKOV (Rusiya)
fəlsəfə elmləri doktoru, professor
Eduard QİRUSOV (Rusiya)
fəlsəfə elmləri doktoru, professor
Oleq BAKSANSKİ (Rusiya)
fəlsəfə elmləri doktoru, professor
Valentina FEDOTOVA (Rusiya)
fəlsəfə elmləri doktoru, professor
Nizami MƏMMƏDOV (Rusiya)
fəlsəfə elmləri doktoru, professor
Fuat KEYMAN (Türkiyə)
Professor, doktor
Doğan ÖZLƏM (Türkiyə)
Professor, doktor
Taxir MAHAMATOV (Rusiya)
fəlsəfə elmləri doktoru, professor
Yuriy POPKOV (Rusiya)
fəlsəfə elmləri doktoru, professor
Mahmud Erol KILIÇ (Türkiyə)
Professor, doktor
Şaban Teoman DURALI (Türkiyə)
Professor, doktor
Cafer Sadık YARAN (Türkiyə)
Professor, doktor
Ömer Mahir ALPER (Türkiyə), *professor, doktor*
Paul BALLANFAT (Fransa)
fəlsəfə doktoru
Victor Palleja de BUSTİNZA (İspaniya)
Fəlsəfə doktoru, professor

REDAKSİYA HEYƏTİNİN ÜNVANI:
Azərbaycan Respublikası, Bakı şəhəri, Hüseyn Cavid pr.31, AMEA-nın əsas binası, IV mərtəbə.
Tel.: 537-22-79; Faks: (99412) 537-11-39; e-mail: elmieserler @gmail.com.
ISBN 9952 428-03-0
AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi Şurasının
qərarı ilə çap olunur. (protokol № 13. 16.12.2011)
Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 1704. 17.02.06
Azərbaycan Respublikası AAK-nın 30.IV.2010-cu il tarixli qərarı ilə
elmi nəşrlər siyahısına daxil edilmişdir.

THE INSTITUTE OF PHILOSOPHY, SOCIOLOGY
AND LAW OF AZERBAIJAN NATIONAL
ACADEMY OF SCIENCES

SCIENTIFIC WORKS

The International Scientific and Theoretical Journal

№ 2 (17)

BAKU-2011

EDITOR-IN-CHIEF:
Ilham MAMMADZADE, *doctor of philosophical sciences, professor*
DEPUTY EDITOR-IN-CHIEF:
Bahram ZAHIDOV, *doctor of curidic sciences, professor*
EXECUTIVE SECRETARIES:
Habib HUSEYNOV, *doctor of philosophy*
Zeynaddin SHABANOV, *doctor of philosophy*
Rashad ILYASOV, *doctor of philosophy*
EDITORIAL BOARD MEMBERS:

ON PHILOSOPHICAL SCIENCES
Salakhaddin KHALILOV, *doctor of philosophical sciences, Associate Member of the ANAS*
Sevda MAMMADALIYEVA, *doctor of philosophical sciences, Associate Member of the ANAS*
Adil ASADOV, *doctor of philosophical sciences*
Ali ABASOV, *doctor of philosophical sciences*
Lala MOVSUMOVA, *doctor of philosophical sciences*
Fuzuli GURBANOV, *doctor of philosophical sciences*
Arzu HAJIYEVA, *doctor of philosophical sciences*
Roida RZAYEVA, *doctor of philosophy*

ON SOCIOLOGOLICAL SCIENCES
Abulhasan ABBASOV, *doctor of philosophical sciences, professor*
Rena MIRZAZADEH, *doctor of philosophical sciences*
Rafiga AZIMOVA, *doctor of philosophical sciences*
Hussein GARASHOV, *doctor of sociological sciences*
Rafael HASANOV, *doctor of sociological sciences*

ON POLITICAL SCIENCES
Alikram TAGIYEV, *doctor of philosophical sciences, professor*
Hasan ALIBEYLI, *doctor of historical sciences, professor*
Ramiz SEVDIMALIYEV, *doctor of policy*
Azer MUSTAFAYEV, *doctor of philosophical sciences*

ON THEOLOGICAL SCIENCES
Sakit HUSEINOV, *doctor of philosophical sciences*
Aydin ALIZADEH, *doctor of philosophical sciences*
Elsever SAMADOV, *doctor of philosophy*

ON PSYCHOLOGICAL SCIENCES
Bakhtiyar ALIYEV, *doctor of psychological sciences, Associate Member of the ANAS*
Kamila ALIYEVA, *doctor of psychological sciences, professor*
Svetlana MAJIDOVA, *doctor of psychological sciences*
Rena IBRAHIMBEYOVA, *doctor of philosophy on psychology*

ONCURIDICAL SCIENCES
Isahan VELIYEV, *doctor of curidical sciences*
Miragha JAFARGULIYEV, *doctor of curidical sciences, professor*
Habil GURBANOV, *doctor of curidical sciences, professor*
Ali RZAYEV, *doctor of philosophy in law*
Agshin GULIYEV, *doctor of philosophy in law*
Rauf GARAYEV, *doctor of philosophy in law*
Miraferim SEYIDOV, *doctor of philosophy in law*

THE INTERNATIONAL EDITORIAL BOARD
Alexander CHUMAKOV
Doctor of philosophical sciences, professor
Eduard GIRUSOV (Russia),
Doctor of philosophical sciences, professor
Oleg BAKSANSKY (Russia),
Doctor of philosophical sciences, professor
Valentina FEDOTOVA (Russia),
Doctor of philosophical sciences, professor
Nizami MAMMADOV(Russia),
Doctor of philosophical sciences, professor
Fuat KEYMAN (Turkey), *professor, doctor*
Doghan OZLEM (Turkey), *professor, doctor*
Takhir MAKHAMMATOV (Russia),
Doctor of philosophical sciences, professor
Juriy POPKOV (Russia),
Doctor of philosophical sciences, professor
Dr. Mahmud Erol KILICH (Turkey), *professor*
Dr. Shaban Teoman DURALY (Turkey), *professor*
Dr. Cafer Sadik YARAN (Turkey), *professor*
Dr. Omer Mahir ALPER (Turkey), *professor*
Dr. Paul BALLANFAT (France)
Dr. Victor Palleja de BUSTINZA (Spain) *professor*

ADDRESS OF EDITORIAL STAFF:
Azerbaicani Rep., Baku c., Huseyn Javid ave.31, The basic building of ANAS, the IV floor.
Tel.: 537-22-79; Fax: (99412) 537-11-39; e-mail: elmieserler @gmail.com.
ISBN 9952 428-03-0
Published by Resolution of Scientific Council of theInstitute of Philosophy, Sociology and Law of ANAS(proceedings № 13. 16.12.2011)
The cournal has been registered by the Ministry of Justice. Registration № 1704. 17.02.06.
By the decision of SSC of the Azerbaicani Republic dated 30.IV.2010 was included into the list of scientific editions.

MÜNDƏRİCAT

MÜNDƏRİCAT 5

FƏLSƏFƏ BÖLMƏSİ

Əziz MƏMMƏDOV, Rüxsarə SƏMƏDOVA
Rasionallıq və qeyri-rasionallıq problemi müasir elmi fəlsəfə kontekstində 15

Светлана АДЫГЕЗАЛОВА, Али АБАСОВ
Национализм и интеграция эпохи глобализации 25

Afaq MƏMMƏDOVA
Fəlsəfə və ictimai fikir tarixində Romantizm ənənələri 35

Əyyub KƏRİMOV
Demokratik cəmiyyət quruculuğu problemi sosial-fəlsəfi təhlilin
predmeti kimi 43

Адиль АХУНДОВ
Диалог культур: о преемственности в сфере культуры между Востоком и Западом 49

Ziba AĞAYEVA
Qlobal informasiya cəmiyyətinin yeni antropoloji reallığı 56

Radif MUSTAFAYEV
Sekulyarlıq və onun mərhələləri 62

Ровшан ГАДЖИЕВ
К обоснованию гипотезы о возрастной периодизации интеллектуальной эволюции
человечества 67

Cəsarət VALEHOV
Ömürboyu təhsil anlayışı yeni təhsil paradiqması kimi 74

Novruz İMANOV
Kvant-sahə dünya mənzərəsinin formalaşması problemi 80

Nailə ƏSƏDOVA
Estetik təfəkkürün təşəkkül xüsusiyyətlərinə dair
(Azərbaycan mədəniyyətinin materialları əsasında) 88

Самира КАДИЕВА
Современный мир: философия глобализации 95

Yunis NƏSİBOV
Azərbaycanda hüquqi dövlət ideyasına fəlsəfi baxış 99

Seyid Camal GÜLŞƏNİ
Sədrəddin Konyəvinin əsərləri və onların əlyazma nüsxələri 105

Almaz AŞİROV
Konfliktlər nəzəriyyəsində zorakılığın fəlsəfi təbiəti və onun məhdudlaşdırılması yolları 111

Tünzalə AĞAYEVA
Dini şüur və onun səviyyələri 117

Elçin ƏHMƏDOV
Azərbaycanda mədəni tolerantlığın əsas xüsusiyyətləri 122

Zülfüqar İBRAHİMLİ
Bilik menecmenti idarəetmənin yeni paradiqması kimi 127

Anar HƏSƏNLİ
Milli mədəniyyətdə İslam dəyərləri 132

FƏLSƏFİ ESSE

Самед СЕИДОВ
Ода творчеству 138

XARİCİ ÖLKƏ TƏDQİQATLARI

Tom ROKMOR
Fəlsənin bərpası haqqında: 11 sentyabrdan sonrakı fəlsəfi dialoq və siyasi fəlsəfə 147

Сергей Юрьевич РАДЧЕНКО
Глобальные проблемы современности и становление культуры устойчивого развития 162

Виталий Юрьевич БЕЛЬСКИЙ
Глобализация и перспективы межкультурных коммуникаций 170

Ариз ГЕЗАЛОВ
Индивидуальная свобода и ответственность как векторы развития глобального социума 178

Гаранфиль ГУЛИЕВА
Оценка доказательств в суде и ее влияние на постановление оправдательного приговора 184

SOSİOLOGİYA BÖLMƏSİ

Telman NİFTALİYEV
Gənc zabit və əsgərlərin hərbi xidmətə münasibəti 190

Ataollah MƏSNƏVİ
Qocalıq fenomeni haqqında 198

Seyid Rəhmət MOZƏFFƏRİ
Narkomanların qrupda müalicə üsullarına dair 205

Fəriba İBRAHİMİ
Qadın rəhbərlər: reallıqlar, problemlər və perspektivlər 210

Əlaəddin Məhəmmədi MEYXOŞ
Gilan vilayətində turistlərin mobilliyinin təhlili 215

PSİXOLOGİYA BÖLMƏSİ

İlham MİRZƏYEV
Qarabağ müharibə iştirakçılarının davranışının psixo-emosional korreksiyası 222

SİYASİ ELMLƏR BÖLMƏSİ

Şahin BAĞIROV
Azərbaycan elitasının mövcud konfiqurasiyası 228

Аида ЮСИФЗАДЕ
Политическая глобалистика и особенности
сотрудничества в международных отношениях 236

Bahar HÜSEYN
Azərbaycan-ABŞ münasibətləri.....242

Nazim ƏLİYEV
Makiavelli hakimiyyət haqqında.....246

Vaqif HÜSEYN
Azərbaycan Demokratik Respublikasının Xəzər siyasəti və
onun beynəlxalq – hüquqi nəticələri (avqust 1919 - aprel 1920) 252

İLAHİYYAT BÖLMƏSİ

Nərgisi RƏMƏZANPUR
Quran və insan haqları.....260

HÜQUQ BÖLMƏSİ

Natiq MƏMMƏDOV
Seçki sisteminin anlayışı, mahiyyəti və növləri.....265

Əli RZAYEV
Hüquqi dövlət və vətəndaş cəmiyyəti: genezisi və inkişafı.....273

Şəlalə HƏSƏNOVA
Sahibkarlıq fəaliyyəti ilə bağlı cinayətkarlığın vəziyyəti və dinamikası.....279

Səidə HƏSƏNZADƏ
Ekstremal şəraitlərdə qadın və uşaq hüquqlarının mühafizəsi.....284

Bəhruz KƏRİMOV
İnsan alveri cinayət tərkibi: qanunvericiliyin təhlili, cinayət hüquq normasının təkmilləşdirilməsi 290

Mirafərim SEYİDOV
XV əsrdə Azərbaycanda dünyəvi qanunvericilik və hüquq mənbələrinin ümumi xarakteristikası 297

Fikrət NƏBİYEV
Hüquqi təfəkkürə konseptual yanaşma və azadlıq ideyası 303

Наил МАМЕДОВ
Извинительное превышение пределов необходимой обороны 309

Ильхам АЛИЕВ
К вопросу религиозных норм в обществе 314

Yunis İSMAYILOV
Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmənin subyektiv əlamətləri haqqında 319

Мирали КЯЗИМОВ
Основные виды преступлений в финансово-кредитной сфере 324

Mohammədi Soltanəli EİROVANLOU
Müasir dövrdə yetkinlik yaşına çatmayanların cinayətkarlığının səbəblərinə dair 330

Ceyhun ƏZİZOV
Hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə əməlinə görə məsuliyyət məsələləri 335

Тарана ИСАЕВА
Условия и пределы психологического воздействия при расследовании преступлений 341

Əli Yusif ŞAHBAZİ
Qətl cinayətlərinin növləri 348

Ofeliya MAHMUDOVA
Milli rejim prinsipinin Azərbaycan və Türkiyə Respublikaları arasında yaranan münasibətlərin beynəlxalq xüsusi hüquqi tənzimlənməsi prosesində rolu 355

Лала МЕХТИЕВА
Динамика и структура преступности несовершеннолетних в Азербайджанской Республике 359

Mehran Şərifi KLARİCANİ
Müsəlman hüququ anlayışı və xüsusiyyətləri 368

Rza Məhəmməd MƏSUDİFƏR
Qəsdən adam öldürmə cinayətlərinin istintaqında müstəntiqin əməliyyat-axtarış orqanları ilə qarşılıqlı əlaqəsinin xüsusiyyətləri 374

İlhamə BAYRAMLI
«Antropoloji» təlimin yaranması və inkişafına dair 379

Лала РАГИМЛИ
Предотвращение дискриминации как одно из условий обеспечения
равноправия в современном азербайджанском обществе.....385

Vəli ŞİRPUR
Vəkilin digər proses iştirakçıları ilə qarşılıqlı münasibətlərinin etik əsasları 390

Oxucu rəyi 398

Elmi həyat.....399

Yeni nəşrlər 402

C O N T E N T S

C O N T E N T S..... 5

PHILOSOPHY SECTION

Aziz MAMMADOV, Rukhsara SAMEDOVA
Problem of rationality and irrationality in a context of modern scientific philosophy..... 15

Svetlana ADYGEZALOVA, Ali ABASOV
Nationalism and integration of the epoch of globalization..... 25

Afag MAMMADOVA
Traditions of Romanticism in history of philosophy and public thought 35

Eyub KERIMOV
Basic problems of the democratic society building as an object of social
and philosophical analysis 43

Adil AKHUNDOV
Intercultural dialogue: on succession in the sphere of culture between West and East..... 49

Ziba AGAYEVA
New anthropological reality of a global informative society 56

Radif MUSTAFAYEV
Stages of the process of secularization and secularism 62

Rovshan HACIYEV
On substantiation of hypothesis of age periodisation in intellectual
evolution of humanity 67

Jasarat VALEHOV
The concept of lifelong learning as a new educational paradigm 74

Novruz IMANOV
The problem of forming the quantum-field scene of the world 80

Naila ASADOVA
On formation features of the aesthetic thinking
(on the materials of the Azerbaijani culture) 88

Samira KADIYEVA
Modern world: philosophy of globalization 95

Yunis NASIBOV
Philosophical view of idea of legal
state in Azerbaijan..... 99

Seyid Jamal GULSHANI
Sadraddin Qunawi's works and their manuscripts 105

Almaz ASHIROV
The philosophical nature of violence and ways of its restriction in the theory of conflicts 111

Tunzala AGAYEVA
Religious consciousness and its levels 117

Elchin AHMEDOV
The main features of cultural tolerance in Azerbaijan 122

Zulfugar IBRAHIMLI
Knowledge management as a new paradigm management.....127

Anar HASANLY
The values of Islam in the national culture 132

PHILOSOPHICAL ESSAY

Samed SEIDOV
Ode to creation.....138

FROM PHILOSOPHICAL THINKING OF THE FOREIGN STATES

Tom ROCKMORE
On recovering philosophy: philosophical dialogue and political philosophy after 9/11.....147

Sergey Yurievich RADCHENKO
The global problems of contemporaneity and the formation of culture of steady development.....162

Vitaliy Yurievich BELSKY
Globalization and the prospects of intracultural communications.....170

Ariz GEZALOV
Individual freedom and responsibility as vectors of development of global socium.....178

Garanfil GULIYEVA
Appraisal of the evidences in court and its influence on the resolution on a verdict of «not guilty».....184

SOCIOLOGY SECTION

Telman NIFTALIEV
An attitude of the young officers and soldiers to the military service.....190

Ataollah MASNAVI
On senility phenomenon.....198

Seyid Rahmat MOZAFFARI
About the group treatment ways the drug addicts 205

Fariba IBRAHIMI
The women-leaders: realites, problems and perspectives..... 210

Aladdin Mohammadi MEYKHOSH
Analysis of tourists′ mobility in Gilan province 215

PSYCHOLOGY SECTION

Ilham MIRZOYEV
Psycho-emotional adjustment of behavior of the participants in the Karabakh war 222

SECTION OF THE POLITICAL SCIENCES

Shahin BAGHIROV
The current configuration of Azerbaijani elite 228

Aida YUSIFZADEH
Political globalistics and characteristics of the
cooperation in the international relations 236

Bahar HUSEYN
Azerbaijan-USA relations..... 242

Nazim ALIYEV
Machiavelli on power 246

Vagif HUSSEIN
The Caspian policy of Azerbaijan Democratic Republic
and its international law results (August 1919 – April 1920) 252

DIVINITY SECTION

Nargizi RAMAZANPUR
The Koran and human rights 260

LAW SECTION

Natik MAMMADOV
Conception, essence and kinds of election system..... 265

Ali RZAYEV
Legal state and a civil society: genesis and development..... 273

Shalala HASANOVA
Condition and dynamics of the crimes connected with business activity 279

Saida HASANZADEH
Protection of the rights of women and children in extreme conditions 284

Bakhruz KARIMOV
Composition of the crime of trafficking: an analysis of legislation, improvement of the criminal law 290

Mirafirim SEIDOV
Secular legislation in Azerbaijan in the XV th century and general characteristics of law sources 297

Fikret NABIYEV
The conseptual approach to legal thinking and idea of freedom 303

Nail MAMMADOV
Excusable exceeding the limits of necessary defence 309

Ilham ALIYEV
To the issues of the religious norms in society 314

Yunis ISMAYILOV
About the subcective points of resisting and violation against government authority 319

Mirali KAZIMOV
The main kinds of crimes committed in financial-credit sphere 324

Mohammadi Soltanali EIRAVANLOU
To the reasons of criminality among the minors in the modern period 330

Jeyhun AZIZOV
Willful abandonment of unit or place of service 335

Tarana ISAYEVA
Conditions and limits of psychological impact when investigating crimes 341

Ali Yusif SHAHBAZI
The types of murder crime 348

Ofelya MAHMUDOVA
Role of the principle of national regime in the process of international-private-law regulation of the relations between the Azerbaijan Republic and Republic of Turkey 355

Lala MEKHDIYEVA
Dynamics and structure of juvenile criminality in the Republic of Azerbaijan 359

Mehran Sharifi KLARIJANI
The notion and the peculiarities of Islamic law 368

Reza Mohammad MASUDIFER
Features of interaction of the investigator with the operational-search agencies in the investigation of the murder 374

Ilhama BAYRAMLY
About creation and development of the anthropological doctrine 379

Lala RAGIMLI
Prevention of discrimination as one of condition of ensuring egual rights in modern Azerbaijan society 385

Vali SHIRPOUR
The ethical foundations of the lawyer relationship with other actors 390

Reader′s opinion 398

Scientific life 399

New editions 402

FƏLSƏFƏ BÖLMƏSİ

UOT 11

Əziz MƏMMƏDOV
BDU, f.e.d., professor
Rüxsarə SƏMƏDOVA
BDU, fəlsəfə üzrə f.d.

RASIONALLIQ VƏ QEYRI-RASIONALLIQ PROBLEMİ MÜASIR ELMI FƏLSƏFƏ KONTEKSTİNDƏ*

Məlumdur ki, idrak prosesinin sovet fəlsəfi ədəbiyyatında modelləşdirilmiş nəzəri sxemi öz mahiyyətinə görə həddən ziyadə sadə və xətti olmuşdur, belə ki, marksist idrak nəzəriyyəsində idrak prosesi praktikadan başlayır, hissi (duyğu, qavrayış, təsəvvür) və məntiqi pillələrdən keçərək yenidən praktikada tədqini tapan dialektik proses kimi təqdim olunurdu. Lakin bu halda unudulmamalıdır ki, insan idrakının gedişində duyğu, qavrayış, təsəvvür, anlayış, mühakimə və əqli nəticə kimi şüuri, rasional fenomenlərlə yanaşı insan təfəkküründən keçmədən fəaliyyət göstərən və buna görə də məzmunu aydın dərk olunmayan bir sıra şüuraltı, qeydri-rasional əməliyyatlarda (intuisiyalar, dərk olunmamış anlayışla, hissi emiosiyalar, instinktlər və s.) iştirak edir. İdrak prosesinin mürəkkəbliyinə dəlalət edən bu fakt belə qənaətə gəlməyə əsas verir ki, idrak prosesi haqqında elmi təsəvvürlər hələ intensiv və ekstensiv inkişaf etdirilməli, indrak nəzəriyyəsinə yalnız təfəkkürdən keçərək formalaşan rasional elementlərlə yanaşı idrakın ehtiva etdiyi, lakin dərki müəyyən çətinliklərlə bağlı olan şüuraltı, qeyri-rasional proseslər haqqında biliklər də daxil edilməlidir. Bu zərurətin aydın dərk edilməsi idrak nəzəriyyəsində rasional anlayışı ilə yanaşı qeyri-rasionallıq anlayışının da öz qanuni yerini almasını tələb edir. Bu tələbatı doğuran mühüm amillərdən biri bundan ibarətdir ki, bir sıra ciddi, prinsipial fərqlərinə baxma-yaraq rasional əməliyyatlar kimi qeyri-rasional əməliyyatlar da insan fəaliyyətindən kənarda deyil, bu fəaliyyətin daxili halı, atributu, zəruri və qanunauyğun tərəfi, təbii məhsulu kimi təsir göstərirlər.

Elmi idrakda rasionallıqla yanaşı qeyri-rasionallıq iştirak etsə də, bu fəaliyyətin spesifikası öncə öz ifadəsini rasionallıqda tapır. Rasional - latın sözü olub əqlə, zəkaya aid olan hadisəni bildirir. Müasir rus filosofu V.S.Şvıryevin nöqteyi-nəzərincə, «rasionallığı yalnız o yerdə axtarmaq lazımdır ki, orada dərk edən subyekt öz mövqeyilə düşdüyü real situasiya arasında bir uyğunluq tampağa çalışır» (12, s.113). Belə bir uyğunluq isə reallığın modellərini yaradan və onların əsasında reallıq haqqında versiyalar işləyib hazırlayan zəka tərəfindən aparılır. Rasional idrak – gerçəkliyin təfəkkürün məntiqi vasitələri ilə hazırlanan və məntiqi-anlayışlı quraşdırmalar formasında reallaşdırılan modelləşdirilməsidir. İdraki modellərin məntiqi quraşdırılması imkanı məntiqin və ontologiyanın, təfəkkürün və varlığın eyniyyətinin qəbul edilməsindən və zəkanın idraki imkanlarının hüdudsuzluğundan irəli gəlir. Rasional idrak, hər şeydən əvvəl, dünyanın cisim və hadisələri haqqında məntiqi və nəzəri əsaslandırılmış bilikdir. Klassik elmdə belə bir inam özünə möhkəm yer almışdı ki, gerçəkliyin məntiqi formada mənimsənilməsi öz mahiyyətinə görə rasional həqiqət, həqiqət isə idrakın idealıdır. Hegelin təbirincə rasionallıq ağıl olub insanın məntiqi kateqoriyalarla düşünmək bacarığıdır, onun meyarı isə həqiqətdir.

Rasional idrak hamı üçün əhəmiyyətli formada ifadə olunan qaydalara, normalara uyğun həyata keçirilən prosesdir. Onlardan bəzilərinə nəzər yetirək.

---

* Məqalə f.e.d., prof. A.Mustafayev tərəfindən çapa məsləhət bilinib.

Rasional elmi idrak, hər şeydən əvvəl, təfəkkürün faktları və hadisələri qavraması, ideal modellər, obyektlər quraşdırılması və onlar ilə işləyə bilmək qabiliyyətidir."İdeal qaz", maddi nöqtə", "mütləq elastiki yay"," mütləq qara cisim"və s. anlayışlar fiziki idraka yol salan ideal obyektlərdir.

Elm ideal obyektlərdən istifadə etsə də, onların qarşısına müəyyən tələblər qoyur: bu modellər, əvvəla, məntiqi əsaslara görə qurulmalıdır; onlarda gerçəklik öz mahiyyət varlığı ilə qeydə alınmalıdır; ideal modellər elə yaradılmalıdır ki, idrakın subyekti onlara nəzarət etməyə, təfəkkürün bu modellərin öyrənilməsindən alınan nəticələrini praktiki, eksperimental yoxlamağa imkan tapmalıdır (2). Klassik rasionalizmə görə yalnız bu tələblərin ödənilməsi şərti ilə ideal modellər gerçəkliyə uyğun gələ bilər, onların dərki isə illüziyaya və subyektivizmə yol vermədən reallaşa bilər, başqa sözlə, təfəkkür gerçəkliyi olduğu kimi, ona kənardan heç bir şey əlavə etmədən öyrənə bilər. Təfəkkürün ideal obyektlər və modellər üzərindəki əməliyyatları onun nəzəri fəaliyyəti ilə bağlıdır. Bu fəaliyyətin gedişində gündəlik adi təsəvvürlər üzərində dünyanın xüsusi nəzəri binası yaradılır.

Rasional idrak özünün tam və adekvat ifadəsini təfəkkürdə tapır.

Təfəkkür insanın idraki fəaliyyətinin funksiyalaşmasının və onun prosessual xarakterini əks etdirən qnoseolocı kateqoriyadır (4, s.449-450). Sovetlər birliyinin fəlsəfi ensiklopediyalarında təfəkkür kateqoriyasının mükəmməl tərifləri verilib. Həmin təriflərin birində təfəkkürün xarakteristikası belə səslənir: "Təfəkkür - obyektiv reallığın ən yüksək inikas forması, cisim və hadisələrin əlaqə və münasibətlərinin subyekt tərəfindən məqsədyönlu, bilavasitə, ümumiləşmiş idraki, hadisə və fəaliyyətlərin proqnozlaşdırılması gedişində yeni ideyaların yaradılmasıdır" (9, s.391).

Tərifdən göründüyü kimi, təfəkkür insanın gerçəkliyə rasional münasibəti olub onun mənəvi dünyasında ideyaların yaranması prosesi ilə bağlıdır. Rasionallıq gerçəkliyin təfəkkür səviyyəsində dərk olunmasıdır. Təfəkkür gerçəkliyi dərk edən subyektlə üzvi surətdə bağlı olub insanın mühüm intelektual keyfiyyətlərindən biri kimi fəaliyyət göstərir.

Elmi-fəlsəfi ədəbiyyatda təfəkkür anlayışı iki terminlə - "təfəkkür"və"məntiqi idrak" sözləri ilə ifadə olunur. Təfəkkür anlayışının bu mənalarda işlədilməsi təsadüfi olmayıb onun mahiyyətinin dərindən açılmasına imkan verən ontolojı və qnoseolojı aspektlər ilə bağlıdır. Ontolojı aspektdə təfəkkür insan beyninin elə bir qabiliyyətidir ki, insan özünün bu qabiliyyəti sayəsində dünyanın predmet və hadisələrini məntiqi formalarda - anlayışlar, mühakimələr, əqli nəticələr şəklində əks etdirir. Təfəkkürün qnoseolocı aspektinə gəldikdə isə o, gerçəkliyin şüurda bilavasitə, ümumiləşmiş, funksional inikası kimi çıxış edib, sözün həqiqi mənasında məntiqi idrakla eynilik təşkil edir.

Məntiqi idrak və ya abstrakt təfəkkür idrakın ən yüksək - sosial pilləsidir. Məntiqi idrak hissi idrakdan və canlı seyrdən özünün dörd əsas əlaməti ilə fərqlənir: məntiqi idrak bilvasitə, ümumiləşmiş, abstrakt və rasional idrakdır.

Təfəkkür prosesində insan maddi obyektlərin özləri ilə deyil, onların fikri inikası ilə iş görür. Belə ki, alim özünün iş otağını tərk etmədən, öyrəndiyi hadisələri bila vasitə qavramadan belə mühüm nəzəri nəticələr əldə edə bilər. Maddi dünyanın proses və hadisələrinin fikri obrazlar üzərində aparılan məntiqi əməliyyatlar və elmə məlum olan yoxlanılmış fikirlərin tutuşdurulması yeni elmi kəşflərə yol aça bilər. Ancaq buradan belə nəticə çıxarmaq olmaz ki, güya dərk edən təfəkkür maddi gerçəkliklə əsla bağlı deyil, bu proses güya xarici aləmin proses və hadisələrindən asılı olmayaraq alimin yalnız başında yaranan xalis fikirlər əsasında həyata keçirilməlidir. Əslində maddi gerçəkliklə əlaqələnməyən heç bir fikir aktı yoxdur. İnsan beynində təzahür edən hər cür fikir çalarları predmet və hadisələrin, onun tərəf,xassə və əlaqələrinin beyində təzahürüdür. Bu inikasın adekvat, doğru və yaxud qeyri-dəqiq, yalan, təhrif olunmuş olması isə tamamilə başqa məsələdir. Yalnız ictimai praktika, verifikasiya bizə həqiqəti yalandan, adekvat olanı təhrifdən fərqləndirməyə imkan verir.

Məlumdur ki, elementar düşünmə qabiliyyəti ali heyvanlara da xasdır, lakin heyvan təfəkkürü gerçəkliyi abstrakt, ümumiləşmiş, rasional obrazlar formasında deyil, konkret, təkcə obrazlar formasında əks etdirir. Buna görə də heyvan təfəkkürü bilavasitə idrak adlanır. Akademik İ.P.Pavlov təfəkkürün bu formasını "birinci siqnal sistemi" adlandırmışdır. Məlumdur ki, "birinci siqnal sistemi" insana da məxsusdur: insan da konkret, bilavasitə obrazlarla düşünməyi bacarır. Lakin heyvandan fərqli olaraq insanın birinci siqnal sistemi onun ikinci siqnal sistemi ilə, başqa sözlə, insanın bilvasitə, abstrakt, rasional, nəzəri təfəkkürü ilə bağlıdır.

İnsan təfəkkürü heyvanın konkret təfəkküründən həm də ümumiləşmiş olması ilə fərqlənir. İnsan təmasda olduğu cisimlərin təkcə, konkret xassələrindən sərfnəzər edərək onların ümumi, mühüm əlamətlərini seçib ayırır və bu ayırmanın nəticələrini anlayışlar vasitəsilə təsbit edir. Bu isə ona predmetlərin mahiyyətini, inkişaf qanunauyğunluqlarını dərindən açmağa imkan verir.

Hər bir sistem sonsuz xassələrə, tərəflərə, əlaqələrə malikdir. Lakin subyekt bu xassələri, əlaqələri, tərəfləri birdən-birə, bütövlüklə dərk edə bilmədiyindən o, sistemin rəngarəng əlamət və əlaqələrindən yalnız onu maraqlandıran xassələri seçib götürərək digərlərini cisimdən sərfnəzər edir. Cismin xassələri içərisindən məsələnin qoyuluşuna görə mühüm və əhəmiyyətli olanların seçilib götürülməsi, qeyri-mühüm, ikinci dərəcəli xassələrin isə ondan sərfnəzər edilməsi abstraktlaşdırma, bu prosesin nəticəsi isə abstraksiya adlanır.

İnsan təfəkkürünün abstraktlaşdırma fəaliyyətinin onun idrak prosesi və mənəvi həyatı üçün müstəsna əhəmiyyəti vardır. Biz yuxarıda insan təvəkkürünün ümumiləşdirici xarakterinə toxunduq. Təfəkkürün ümumiləşdirici əlamətindən danışarkən belə bir sualla qarşılaşırıq: ümumiləşdirmə nə deməkdir? Hadisələr çoxluğunun ümumi əlamətlərini müəyyənləşdirilməsi nə deməkdir? Ümumiləşdirmə - müqayisə olunan cisim və hadisələrin müəyyən əlamətlərə görə eyniləşdirilməsi deməkdir. Məsələn, biz metalların istilikkeçirmə xassəsini öyrənərkən, "bütün metallar istiliyi keçirir" nəticəsinə gələrkən onları istilikkeçirmə əlamətinə görə eyniləşdiririk. Halbuki bu ümumi nəticəni çıxararkən biz metallar üçün ümumi olmayan sonsuz sayda xassələrdən sərfnəzər edirik.

Abstrakt təfəkkürün mühüm xüsusiyyətlərindən biri də onun ardıcıl, məntiqli, əsaslandırılan olmasıdır (10, s.461-472). Həm də bu keyfiyyət hər cür fikri prosesin mahiyyətini təşkil edir. Bu keyfiyyətdən məhrum olan təfəkkür həqiqətə gətiribçıxara bilməz. Abstrakt, məntiqi təfəkkürün göstərilən xüsusiyyətinin mahiyyəti ondan ibarətdir ki, düzgün təfəkkür prosesində hər bir fikir digər fikirdən çıxarılmalı və bu sonuncu fikir isə əvvəlki fikrin törəməsi kimi onunla məntiqi ziddiyyətə girməməlidir. Təfəkkürün bu keyfiyyəti onun xaotikcəsinə, qaydasız şəkildə deyil, sistemli formada həyata keçməsini, beyinlərdə dəfələrlə təkrarlanaraq həqiqətə gətirib çıxaran fikir aktı formasında reallaşmasını təmin edir.Yalnız bu səpkili fikirlər beyində məntiqi görkəm alaraq ictimai praktikada yoxlanılan və möhkəmləndirilən dayanıqlı formaya çevrilə bilirlər. Təfəkkürün məntiqi strukturu öz ifadəsini onun ümumbəşəri xarakterində tapır. Tərkibinə daxil olduğu söz qilafının səsləndirildiyi dildən asılı olmayaraq insan fikirləri hökmən ümumbəşəri səciyyə daşıyır. Bunsuz müxtəlif dillərdə danışan insanların, xalqların fikir mübadiləsi və qarşılıqlı anlaşılması əsla mümkün olmazdı. Rus fizioloqu İ.M.Seçenov bu münasibətlə yazırdı ki, bütün dövrlərdə xalqların, qəbilələrin əqli inkişafının fikri söz obrazı ən sadə formada üç üzvlü cümlələrə muncər edilmişdir. Məhz bunun nəticəsidir ki, biz həm qədim insanların yazılı abidələrdə həkk olunmuş fikirlərini, həm də vəhşinin və müasir insanın fikirlərini eyni dərəcədə asanlıqla anlaya bilirik.

Biz Antik dövrlərə aparıb çıxaran fəlsəfi ənənələrdən çıxış edərək məntiqi təfəkkürün strukturunda kök salmış dərrakə və zəka kimi iki səviyyəni fərqləndirə bilərik.

Dərrakə - təfəkkürün birinci səviyyəsi, bir növ onun çıxış nöqtəsidir. Burada abstraksiyalar üzərində məntiqi əməliyyatlar dəyişməz və məhdud sxemlər, verilmiş şablonlar, birdəfəlik müəyyənləşdirilmiş sərt standartlar üzrə aparılır. Dərrakə - insanın ardıcıl və aydın düşünmək, fikirlərini dözgün qurmaq, məlum faktları dəqiq təsvir etmək, onları ciddi şəkildə sistemləşdirmək qabiliyyətidir. Burada hadisələrin və onları ifadə edən anlayışların inkişafından, qarşılıqlı

əlaqələrindən şüurlu surətdə sərfnəzər edərək onlara donuq, dəyişməz, dayanıqlı şeylər kimi baxılır. Dərrakənin başlıca qnoseolocı funksiyası tamı hissələrə bölməkdən və onların üzərində hesablama əməliyyatları aparmaqdan ibarətdir. Dərrakə olmadan bütövlükdə təfəkkürün özü mövcud olub fəaliyyət göstərə bilməzdi. Buna görə də dərrakə təfəkkür prosesinin immanent, zəruri momentidir. Bütün məziyyətlərinə baxmayaraq idrakda dərrakənin rolunu mütləqləşdirmək olmaz, zira belə mütləqləşdirmə şüurda hökmən durğunluğa, metafizikaya aparıb çıxarardı. Unutmaq olmaz ki, dərrakə olsa-olsa, insanın gündəlik təfəkkürü, necə deyərlər, onun "sağlam düşüncə" tərzidir. Təfəkkürün konkret formaları olduqca müxtəlifdir, halbuki təfəkkürün birinci pilləsi olmaq etibarilə dərrakə onun bütün formalarını deyil, yalnız anlayış və mühakimələrin yaradılmasında iştirak edən idraki əməliyyatları ehtiva edir. Bu baxımdan dərrakə təfəkkür fazasında anlayış və mühakimələrin yaradılması qaydasıdır. Lakin dərrakə səviyyəsində təsir göstərən təfəkkür anlayış və mühakimələrin dərin qatlarına enə bilmədiyindən onların genezisini, yaranma mexanizmini, dinamikasını və qarşılıqlı əlaqələrini izah etməyi bacarmır. Dərrakənin məntiqi diqqəti biliyin məzmununa və inkişaf etdirilməsinə deyil, onun hazır formalarının öyrənilməsinə yönəldiyindən o mühakimə və sübutların strukturunu öyrənən formal məntiqdən irəli gedə bilmir.

Yaradıcı təfəkkürün istər ardıcıllıq, istər tarixilik, istər mürəkkəblik, istərsə də kamillik baxımından ikinci və ən yüksək pilləsini zəka təşkil edir. Dialektik təfəkkür olmaq etibari ilə zəka rasional idrakın nisbətən daha yüksək pilləsi olub təfəkkürün idrak obyektinin daha dərin mahiyyətlərinə nüfuz etməsinə imkan yaradır. Təfəkkürdə zəka dərrakə əsasında yaranır və onun timsalında məntiqi təfəkkürün ümumiləşdirici qabiliyyəti özünün zirvə nöqtəsinə çatır. Dərrakə səviyyəsində yaradılan anlayışlar və mühakimələr zəkanın gedişində əqli nəticələrə, ideyalara, prinsiplərə, hipotezlərə və nəzəriyyələrə transformasiya edilir. Zəka idrak prosesinə dərrakə səviyyəsində daxil edilmiş, lakin mahiyyətləri dərindən dərk edilməmiş anlayış və mühakimələrə yenidən qayıdaraq onların genezisini, daxili keçidlərini, mürəkkəb çalarlarını dərindən anlamağa imkan verir. Təfəkkürün bu səviyyəsində abstraksiyalar üzərində aparılan yaradıcı əməliyyatları xeyli dərinləşərək onların məxsusi təbiətinin öyrənilməsi üçün əlverişli imkanlar yaradır. Bu proses özünürefleksiya adlanır. Təfəkkür özünün yalnız bu səviyyəsində cisimlərin mahiyyətini, inkişaf qanunlarını, əksliklərini dərk edərək onları anlayışların məntiqində adekvat əks etdirir (6, s.68-70). Zəka fəzasında məskunlaşan anlayışlar da ümumi və mühüm əlamətlərini əks etdirdikləri cisimlərin özləri kimi qarşılıqlı əlaqədə və inkişafda götürülür. İdrakda zəkanın başlıca funksiyası əksliklərin sintezinə nail olmaq, öyrənilən hadisələrin köklü səbəblərini və hərəkətverici qüvvələrini aşkara çıxarmaqdır. Zəkanın məntiqi isə özünün məzmunu və forması ilə vəhdətdə götürülən biliyin formalaşması və inkişafı haqqında təlim olan dialektik məntiqdir.

Təfəkkürün inkişafı dərrakə və zəkanın qarşılıqlı əlaqəsi və onların bir-birinə keçidləri prosesidir. Əgər dərrakənın zəkaya keçməsinin qabarıq formasını fundamental ideyalar üzərində qərarlaşan biliyin "hazır" biliklər sistemindən kənara çıxması təşkil edirsə, zəkanın dərrakəyə keçməsi formalaşdırma yolu ilə qazanılan bilik sisteminin daha dayanıqlı hala keçməsi ilə müəyyən olunur.

Dərrakə və zəkaya verdiyimiz fəlsəfi interpretasiyadan belə bir qənaətə gələ bilərik ki, təfəkkür maddi dünyanın cisim və hadisələrinin, əlaqə və münasibətlərinin insan şüurunda ardıcıl, məqsədəuyğun inikasıdır. Təfəkkür – tam bir sıra elmlərdə öyrənilən mürəkkəb, çoxcəhətli, müxtəlif səviyyələrdə təşkil olunmuş prosesdir. Təfəkkürü məntiq, idrak nəzəriyyəsi, psixologiya, fiziologiya, kibernetika, linqvistika, sinergetika və s. elmlər öyrənir. Bu elmlərin hər biri təfəkkürə öz prizmasından yanaşır. Fəlsəfi idrak nəzəriyyəsi və məntiq isə təfəkkürü onun idraki funksiyaları baxımından öyrənir. Formal məntiq başlanğıc biliyin qanun və normalarını, dialektik məntiq isə təfəkkürün ən ümumi inkişaf qanunlarını öyrənir. Həm də dialektik məntiq təfəkkürü yalnız forma baxımından deyil, eyni zamanda məzmun baxımından öyrənir. O, ideal obrazları, onların həqiqətə doğru, abstraktdan konkretə doğru hərəkətini izləyir (8, s.5-17).

Müasir elmi fəlsəfə sübut edir ki, bizi əhatə edən aləmin inkişafı dialektikcəsinə - ziddiyyətlərin meydana gəlməsi və həlli, kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi yolu ilə baş verir. Dialektik məntiq bu obyektiv dialektikanın insanların şüurunda inikasıdır.

Təfəkkürün funksiyalaşmasında və inkişafında səsli dilin də mühüm rolu vardır. Təfəkkürlə sıx bağlı olan dil onunla vahid tam təşkil edir. İnsanların ünsiyyəti yalnız dil vasitəsi ilə reallaşır. Onların fikri ayrı-ayrı sözlərdən və söz birləşmələrindən ibarət olan dil materialı əsasında meydana gəlib inkişaf edir. Dildən ayrı mövcud olan "xalis" fikir yoxdur. K.Marksın təbirincə desək, "dil fikrin həyatının ifadəsidir". Dilin iştirakı olmadan abstrakt təfəkkür mövcud olub insanlara çatdırıla bilməzdi. İnsan təfəkkürünün inkişafında dilin, sərih nitqin meydana gəlib inkişaf etməsinin böyük əhəmiyyəti olmuşdur. Dil və təfəkkür ictimai əmək prosesində formalaşıb inkişaf etmişlər. Başlanğıcını ictimai praktikadan götürən, hissi idrakdan abstrakt təfəkkürə, ondan isə yenidən praktikaya doğru istiqamətlənən idrak prosesində dil insanın daima müsafiridir. Buna görə də düşünmək tamamilə səhv olardı ki, guya dil idrakın yalnız abstrakt təfəkkür mərhələsində fəaliyyətə başlayır. Belə bir fikir sadəcə ona görə yaradılır ki, fəlsəfi ədəbiyyatda dil ancaq abstrakt təfəkkürlə bağlanır və idrak prosesində onların vəhdətinin sübuta yetirilməsi aktı ilə məhdudlaşır. Lakin bu halda unudulur ki, idrakın ixtiyarı pilləsində insan dildən istifadə etmədən keçinə bilməz.Unutmaq olmaz ki, ikinci siqnal sisteminə malik insan hadisələri hissiz, mexaniki surətdə deyil, şüurlu surətdə dərk edir. Birinci siqnal sitemi təmiz halda yalnız heyvanlarda mövcuddur. İnsanın hissi idrakı isə daima hissi materialın şüurlu dərki ilə, onun söz və cümlələr vasitəsi ilə baş verən fikri işlənməsi ilə müşayiət olunur. Bu o deməkdir ki, maddi dünyanın hissi obyektlərini, hadisələrini qavramaqla insan nəinki özündə onlar haqqında təəssürat yaradır, həm də bu sonuncuları dil formasına salaraq onların məzmununu açıqlamaqla hissi materialin xarakterini açıqlayır. İnsan yalnız bundan sonra hiss orqanlarına təsir göstərərək maddi hadisələrin mahiyyətini dərk edir. Həm də bu zaman hissi məlumatların (duyğu, qavrayış, təsəvvür) məzmunu yalnız dilin köməkliyi və söz vasitəsi ilə obyektivləşir. Buna görə də elə düşünürük ki, dil və təfəkkürün üzvi vəhdətini sözün yalnız dar mənasında deyil, daha geniş mənasında başa düşməklə dilin obyektiv gerçəkliyin insan beynində inikasının bütün mərhələlərində yerini və əhəmiyyətini açmaq və tədqiq etmək lazımdır. Burada çıxış müddəa belə bir fikirdən ibarət olmalıdır ki, dil bütün obyektlərin, proses və hadisələrin şüurlu inikasının, o cümlədən duyğu, qavrayış, təsəvvür formalarının reallığıdır (5, s.121-127). Dilin insan həyatında rolu hissi idrakdan abstrakt təfəkkürə keçiddə və abstrakt təfəkkür prosesinin özündə daha qabarıq nəzərə çarpır. İnsanın dil formasında mövcud olan fikirləri, ideyaları idrakın məhz bu pilləsində meydana çıxır. Yalnız zəngin söz ehtiyatına malik olan, yüksək dərəcədə inkişaf etmiş dil təfəkkürün mütəhərrikliyini təmin etməklə cisim və hadisələrin mürəkkəb əlaqə və münasibətlərini əks etdirməyə imkan tapır. Fikrin maddi qilafı, biliyin əldə edilməsi və möhkəmləndirilməsi, başqa adamlara ötürülməsi vasitəsi olmaq etibarıilə dilin əhəmiyyəti həm də bundadır ki, gerçəkliyin ümumiləşmiş forması öz ifadəsini anlayışları əks etdirən sözlərdə tapır. Müəyyən hadisələri əks etdirən anlayışların ifadəsi olan sözlər və söz birləşmələri təkcədən, qeyri-mühüm əlamətlərdən sərfnəzər edərək ümumini ehtiva edirlər.

Deyilənlərdən aydın olur ki, rasional- məntiqi idrak ideal obyektlər - modellər üzərində öz işini ancaq sözlər vasitəsi ilə qura bilir. Buna görə də rasional idrak - insandan definisiya mədəniyyəti tələb edən danışıq fəaliyyətidir (1, s.152).

Rasionallığa dillə yanaşı refleksiya, yəni insan təfəkkürünün özünün məxsusi formalarını və daxili aləmini dərk etmək, düşünmək, təfəkkürün gedişinə şüurlu nəzarəti də xasdır.Bu zaman rasional idrak klassik fəlsəfənin belə bir bazis tələbinə söykənir ki, şüur və təfəkkürün məzmunu özünüdərk və refleksiya üçün tamamilə "şəffafdır". İnsan intellekti, təfəkkürü özünün müqəddəm şərtlərini konkretləşdirib inkişaf etdirmək, konseptual sistemin elementləri arasında yeni əlaqələr yaratmaqla ixtiyarı problemi həll etmək, ixtiyarı proses və hadisə haqqında həqiqəti dərk etməyə

qadirdir (11, s.169). Rasional idrak prosesində subyektin zəka qabiliyyəti yüksəldikcə, obyektiv reallıq onun üçün daha "şəffaf" görkəm alır, o daha çox ideal modellər yaratmaq imkanı qazanır.

İdrakın rasionallığı həm də təfəkkürün zərurət aləmi ilə əlaqələnməsində təzahür edir. Buna görə də ideal quraşdırmalar elə tərtib olunur ki, onlar dünyada hökmranlıq edən zərurət qanunlarını açmağa kömək etsinlər.

Beləliklə, rasionallıq haqqında yuxarıda söylədiklərimiz bizə idrak prosesində psixikanın zəruri komponenti kimi iştirak edən bu əməliyyatın aşağıdaki xüsusiyyətlərini müəyyənləşdirməyə imkan verir (3):

a) idrakda iştirak edən rasional əməliyyatlar tarixi səciyyə daşıyır;

b) rasional əməliyyatlar insan praktikası ilə üzvi surətdə bağlı olub praktika əsasında inkişaf edirlər. Bu mənada ictimai praktika rasional idrakın hərəkətverici qüvvəsidir;

c) rasional əməliyyatlar insanların obyektiv reallıq hadisələrinə yiyələnmək dərəcəsini və prosesləri idarə etmək bacarığını əks etdirir;

d) rasional əməliyyatlar insan təfəkküründən keçərək fəaliyyət göstərirlər;

e) rasional əməliyyatlar təbiət qanunlarına adekvatdır;

f) rasional əməliyyatlar məntiq qanunları ilə idarə olunur. Dərrakə səviyyəsində mövcud olan rasionallıq formal məntiq qanunlarına, zəka səviyyəsində mövcud olan rasionallıq isə dialektik məntiq qanunlarına tabedir. Qəti deyə bilərik ki, məntiqsiz rasionallıq yoxdur;

g) rasionallığın məhsulları olan anlayışlar, mühakimələr, əqli nəticələr obyektivləşə bilən mənəvi fenomenlərdir. Onlar sözlər, maddi cisimlər (rəsm əsərləri, heykəllər və s.) vasitəsi ilə obyektivləşirlər;

h) rasionallıq amorf olmayıb müəyyən struktura, sistemə, təşkilə, elementlərə və səviyyələrə malikdir. Onun səviyyələri müvafiq olaraq klassik, qeyri-klassik və postqeyri-klassik rasionallıqlardır.

İdrakın real prosesləri xalis rasional formada həyata keçirilmir, bu proseslərdə rasional əməliyyatlar həmişə qeyri-rasional formalarla culğalaşır. Qeyri-rasional formalar ümumi halda zəkadan, təfəkkürdən kənarda qalan, məntiqi təfəkkürlə müqayisə edilə bilməyən, onunla vahid ölçüyə gəlməyən psixi hadisələrdir. İnsanın psixi fəzasında özünə yer alan hisslər, intuisiya, emosiyalar, instinktlər, şüuraltı şəhvətlər, ehtiraslar, həvəslər, mistik nurlanma və.s. fenomenlər qeyri-rasionallığa aid hadisələrdir. İdrakın qeyri-rasional formalarını neqativcəsinə, yəni rasional idraka isnad verilən qayda və normaların inkarı yolu ilə təyin etmək olar.

Qeyri-rasional əməliyyatların aşağıdakı xüsusiyyətlərini qeyd edə bilərik (7, s.152):

a) qeyri-rasional əməliyyatlar rasional əməliyyatlara heç də uyuşmaz deyil;

b) rasional əməliyyatlar kimi qeyri-rasional əməliyyatlar da insan fəaliyyətinin atributları olub beyində baş verən obyektiv proseslərdir;

c) qeyri-rasional əməliyyatlar da insanların şüur və iradəsindən asılı olmayan biososial qanunauyğunluqlar əsasında baş verirlər;

d) «qeyri-rasionallıq» beyində cərəyan edən psixi hadisələrin məzmununa deyil, onların yalnız formasına aiddir. Rasional əməliyyatlardan fərqli olaraq qeyri-rasional əməliyyatlar insan üçün məqsədəuyğun forma almadıqlarından, müəyyən mənada onu təmin etmirlər. Məsələn, qeyri-rasional əməliyyatlardan olan yaradıcılıq və intuisiya insanı məzmunca təmin etsələr də, formaca onu təmin etmirlər, belə ki, onların nə zaman baş verəcəyini öncədən söyləmək mümkünsüzdür.

Bütün fərqlərinə baxmayaraq qeyri-rasional əməliyyatlar da rasional əməliyyatlar kimi insan fəaliyyətindən kənarda deyil, bu fəaliyyətin atributu, zəruri, qanunauyğun komponenti və məhsulu kimi mövcuddurlar. Elmi idrakda qeyri-rasionallığın dərkində subyektin məxsusi fəallığının olmaması XX əsrin qnoseologiyasında insan zəkasının qüdrətinə şübhə yaratdı.Bu dövrdə məlum oldu ki, insan psixikasının bir sıra formalarını rasional modellərlə əvəzləmək mümkün deyil. Bu, mümkünsüzlük təcrübənin şəxsiyyət-ekzistensialist məzmununa və birinci növbədə dini

inanclara aid idi. Bu dövrdə həmçinin varlığın hər cür fikir üçün "şəffaf"olması inamı üzərində qərar tutan təfəkkürün varlıqla eyniyyəti prinsipinin də tənqidə məruz qalaraq yenidən mənalandırılmasına ehtiyac yarandı. Qeyri-şüurun mövcudluğunun təsdiqi varlığın zəkaya nəzərən "qeyri-şəffaf" olması, ona tam uyğun olmaması fikrini də ortaya qoydu. Buna görə də müasir idrak nəzəriyyələrinin heç biri rasional idrakın qeyri-rasional idrak qarşısında aşkar üstünlüyünü qəbul etmir və öz mövcudluğunda elmi biliklərlə yanaşı qeyri-rasional bilikləri, o cümlədən dini, mistik, bədii, axirət dünyası ilə bağlı formaları da qəbul edirlər. Elmi idrakda qeyri-rasionala məntiqi təfəkkürün heç bir refleksiyası olmadan problemin həlli yollarının intuitivcəsinə tapılması qabiliyyəti də mümkün sayılır.

Elmi idrakda qeyri-rasionalın yerini və rolunu aydınlaşdırmaq məqsədilə elmdə "biliksizlik" və "məlumatsızlıq" anlayışlarının məzmununa nəzər salaq.

Müasir rus filosofu M.A.Rozovun təbirincə biliksizlik "Mən bunu bilmirəm" tipli təsdiqdir. Biz nəyi bilmədiyimizi bildikdə, deməli, söhbət artıq məlum predmetdən gedir. Məsələn, biz metalların kimyəvi xassələrinin mövcud olduğunu bildiyimiz halda, onlardan birinin kimyəvi tərkibini bütünlüklə bilməyə də bilərik.

Biz bəzən mühakiməni belə də ifadə edirik: "Mən bilmirəm". Belə hallarda alim nəyi tədqiq etdiyini, nəyi axtardığını, hansı tədqiqat proqramının reallaşdığını bilə də bilər. Biliksizlik - idraki fəaliyyətin rasional planlaşdırılması sahəsidir, başqa sözlə, o rasional idrak sahəsidir. Əlbəttə, biliksizlik aktında qeyri-rasionallıq da iştirak edir, lakin onun idrakda rolu xeyli az olur.

Biliksizlikdən fərqli olaraq məlumatsızlığı aşağıdaki düsturla ifadə etmək olar: «Mən bilmədiyim şeyi bilmirəm». Belə situasiyalarda artıq idraki fəaliyyəti rasionalcasına planlaşdırmaq artıq mümkün olmur. Məsələn, pozitron adlanan elementar hissəciyi P.Dirak kəşf etsə də, o, əvvəlcədən belə bir sualı formulə edə bilməzdi ki, «pozitron nədir? və ya "Mən pozitronun nə olduğunu bilmirəm". Bu dövrdə (1928) pozitron hələlik elm üçün qeyri-varlıq idi. Halbuki yuxarıda irəli sürdüyümüz sualı cavablandırmaqdan ötrü biz əvvəlcə onu real varlığa çevirib, yalnız bundan sonra onun strukturunu, quruluşunu, xassələrini öyrənə bilərik. Qeyri-varlıq haqqında informasiyalar eksperimentlərin gözlənilməz qeyri-əsas nəticələri formasında, həm də, əksər hallarda başa düşülməyəcək bir tərzdə söylənilir. Pozitronun kəşfi tarixinə nəzər salsaq görərik ki, Vilson kamerasında aparılan təcrübədə "iz" bir nöqtədə şaxələnən iki xətt üzrə müşahidə olunmuşdur. Bu xəttlərdən biri elektrona məxsus olsa da, digəri müəmma olaraq qalırdı. Yalnız pozitronun kəşfindən sonra məlum oldu ki, ikinci "iz" pozitrona məxsus imiş.

Bu bir həqiqətdir ki, hələ indiyədək kimsə irəlicədən nəzərdə tutulan məqsədyönlü kəşf etməmişdir. Elə bir alim göstərmək olmaz ki, o, kimsənin varlığından xəbərsiz olduğu bir hadisənin kəşfini qabaqgörənliklə planlaşdırmış olsun. Əks halda bu belə bir qeyri-müəyyən situasiyanı xatırladardı ki, "mən gedirəm, ancaq hara getdiyimi heç özüm də bilmirəm". Alimlər öz kəşflərinin necə baş verdiyini ancaq "arxa planda", həm də məntiqi təfəkkürün köməkliyi ilə izah edə bilirlər. Ümumiyyətlə, elmin inkişafındaki kardinal yenilikləri yalnız rasional fəaliyyətin nəticəsi kimi təqdim etmək qeyri-mümkündür (6, s.68-70). Elmdə baş verən həqiqi kəşflər hələ elmin arsenalına daxil edilməmiş, haqqında kimsənin fikirləşməyə macal tapmadığı, mövcud biliklərdən məntiqi yolla çıxarıla bilməsi mümkün olmayan yeni biliklərdir. Məsələn, elm sürtünmə vasitəsilə elektriklənməni, radioaktivlik və elektromaqnit induksiya və s. hadisələri kəşf etmişdir. Bu fundamental kəşflər elmdə köklü dəyişikliklər yaratsalar da, onlara rasional yolla çatmaq mümkün olmamışdır. Bu hadisələr kəşf olunanadək ancaq məlumatsızlıq sferasında yerləşmiş, axtarış obyekti kimi naməlum olduqlarından onların mənimsənilməsinə aparan "rasional yollar" da naməlum qalmışdır. Məlumatsızlıq, hər şeydən əvvəl, qeyri-rasional fəaliyyət formasında mövcud olan, nəzəri mənimsənilməsi aydın məntiqi proqramlardan və metodlardan məhrum olan elmi kəşflər sferasıdır. Burada rasional idrak öz vüsətini itirərək yerini qeyri-rasionallığa: seyrə, qəfil nurlanmaya, emosiyalara və s. üstünlük təşkil edən fenomenlərə verir. Bu elementlərdən xüsusilə intuisiya qabaqcadan məntiqi idrakın güclü və uzun müddətli fəaliyyətini

tələb edir. Buna görə də çox vaxt intuisiyaya «preslənmiş», «sıxlaşdırıl»mış" məntiq kimi baxırlar. Lakin bütün hallarda intuisiya fikri prosesin qeyri-şüuri səviyyədə baş verən təfəkkür forması kimi çıxış edir. İnsan qeyri - rasionallıqda məskunlaşıb diqqətdən gizlin qalan intuisiyanın yaranma mexanizmini deyil, yalnız onun nəticəsi olan kəşfi aydın dərk edir. Şopenhauerin düşüncəsinə görə dünyanın sirli dərinliklərinə məntiqdən də daha çox, seyretmə və intuisiya vasitəsi ilə nüfuz etmək mümkündür. Dərrakəni, zəkanı, anlayışları, kateqoriyaları, ideyaları, prinsipləri ehtiva edən rasional idrak vasitələrinə yiyələnməklə hər bir insan alim adına layiq görülə bilər. Lakin elmdə fundamental yenilikləri adi alimlər deyil, yalnız dühalar reallaşdıra bilir. Dahilik - məntiqi düşüncələrin əziyyətli fəaliyyətindən daha çox, qeyri-rasional intuisiyadır.

Qeyd edək ki, bir sıra hallarda idrakda qeyri-rasionallığın qiymətləndirilməsində yol verilən ifratçılıq rasionallığın əhəmiyyətinin tamamilə inkarına gətirib çıxarır. Lakin idrakda rasionallığın rolunun və əhəmiyyətinin inkarı həqiqətdə idrakda qeyri-rasionalın rolunun və yerinin, onun rasionalla münasibətinin adekvat başa düşülməməsinin nəticəsidir. Elmi idrakda hər iki əməliyyatın - rasionallığın və qeyri-rasionallığın öz yeri, öz məxsusi funksiyası var. İdrakda rasional qeyri-rasionalı əvəz edib və ya onu sıxışdırıb aradan çıxara bilmədiyi kimi, qeyri-rasional da rasionalın əvəzləyicisinə çevrilə bilmir. Müasir mədəniyyətdə bu əməliyyatların hər birinin özünəməxsus məziyyətləri vardır.

Yuxarıda biz rasional idrakın təhlili üçün ideal model, ideal obyekt anlayışlarından istifadə etdik. Qeyd edək ki, "ideal" anlayışının mahiyyətini dərk etmədən rasionallıq probleminin adekvat anlamına nail olmaq qeyri-mümkündür (2, s.114-118). İdeal - insan şüurunun ümumi xarakteristikası olub onun xalis "təmiz halda" götürülən növlərindən, hərəkət formalarından, atributlarından asılı olmayaraq materiyaya qarşı əks qoyulmasıdır. İdeal anlayışının klassik tərifinə biz K.Marksda rast gəlirik: "İdeal insan başına köçüb orada yeni şəkil almış, dəyişdirilmiş maddidən başqa bir şey deyil". Əvvəla, burada söhbət ondan gedir ki, maddi insan başına köçərək, prof.V.P.Koxanovskinin sərrast ifadəsinə görə "qnoseolocı Robinzon" kimi deyil, "sosial varlıq" kimi mövcud olur. İkincisi, bu "köçürülmə" ictimai tarixi praktikanın gedişində, maddinin inikası prosesində baş verir. Üçüncüsü, ideal - maddinin ölgün, passiv, hərəkətsiz, güzgü inikası deyil, onun fəal sürətdə dəyişdirilməsidir.

Fon German Kayzerlinq Neoromantizmin mədəniyyət fəlsəfəsi nümayəndəsidir. O, Çemberlindən fərqli olaraq, əsərlərində məhz mədəni sintez ideyasını əsaslandırırdı. Kayzerlinqin 1911-1912-ci illərdə dünya səyahətinə çıxması onu Almaniya və Avropada "Filosofun yol gündəliyi" adlı kitabın müəllifi kimi məşhurlaşdırdı. Kitab 1919-cu ildə nəşr edildi və hətta o, Şpenqlerin "Avropanın süqutu" adlı traktatı qədər qiymətləndirildi. Kayzerlinq tərəfindən Şərqin xüsusi dəyər kimi qiymətləndirilməsi və onun məhsuldar spesifikliyinin mədəni cəhətdən əsaslandırılması romantik ənənənin davamı kimi qəbul edilə bilər.

Kayzerlinqin fəlsəfi dünyagörüşünə Romantizmin antropoloji konsepsiyasının xüsusi təsiri hiss olunur. Onun fikrincə, "İnsan yalnız tək şəxsiyyət deyil, o, hər şeydən əvvəl, cinsi varlıq, sosial məxluq və kosmosun bir hissəsidir". "Fərdidən yuxarı, fərdidən əvvəl gəlir və istənilən etikanın kökü bundan ibarətdir..." [4, s.150]. "Kosmik bəşəriyyətin reallığı mənəvi şəxsiyyətin ilkin şərti kimi" ölümsüzlük problemini tamamilə yeni şəkildə dərk etməyə, onu mütləq mahiyyətlə və nikbin realizmlə dolğunlaşdırmağa imkan yaradır. Q.Kayzerlinq fəlsəfəni sistem kimi deyil formalaşma, artım və sima (Gestalt) əldə etmə halında olmağa çalışan "yenidünyagörüşü" növü kimi nəzərdən keçirirdi. Kayzerlinq mənəvi rahatlığı mistikaya, spiritualizmə və okkult şərhlərə üz tutmaqda görürdü. Onun fikrincə, Qərb insanı öz mənəvi dünyasını məhv edərək kosmosdan xaosa doğru hərəkət edir. Kayzerlinq insanın elmi və texniki-industrial fəaliyyətinin reallaşdırılmasının natamamlığını nəzərə alaraq mühafizəkar-utopik illüziyalara qapılmır, şəxsiyyətin reallaşdırılmasının yeni, daha ali formasının tapılmasını yaxın gələcəyin işi hesab edirdi. Bu fikir onun "Dünyanın qurulması" adlı ilk əsərində ifadə olunmuşdur. İbtidai insanın idrak fəaliyyətini hazırki insanla romantik ruhda müqayisə etməklə, belə müqayisənin bədii təfəkkürlə oxşarlığını bildirmişdir. Həqiqi və uydurma olan arasındakı fərqi hiss etmək imkanından uzaqlaşlaşmaqla bağlı Kayzerlinq iddia edir ki, "real olanın həqiqətini nəzərdən keçirmək üçün nağıl dünyasını uydurmaqdansa, əvvəlcə böyük fantaziya yaratmaq lazımdır" [4, s.240]. Nağıl dünyası "öz-özündən" ortaya çıxır, özbaşınadır və subyektivliyin gücünü artırmır. Özgə reallığı, insandan kənarda olanın elə yad reallıq olduğunu dərk etmək güclü həyat qüvvələrinin və yaradıcı intellektin təzahürünü tələb edir. Kayzerlinq "Ölümsüzlük","Naturfəlsəfəyə proleqomenlər" və "Yaradıcı idrak" kitablarında özünəməxsus romantik irrasional fəlsəfi düşüncələrini şərh etmişdir. "Naturfəlsəfəyə proleqomenlər" əsəri hər şeydən əvvəl, özünün qeyri-sistemliliyi, "təbiət fəlsəfəsinin" yeni sistemini formalaşdırmaq baxımından konkret prinsiplərin mövcud olmaması ilə seçilirdi. Maraqlıdır, o, belə iddia edilirdi ki, Kantın fikirlərinə bənzər bitkin və əsaslandırılmış idrak icmalı hazırlamışdır. Kayzerlinq aqnostisizmi qəbul etmirdi. Dünyanın qeyri-həqiqiliyinə dair bütün şübhələr rədd edilməlidir. İdraki formalar vasitəsilə şərtlənən hadisələrlə qarşılaşırıqsa, bu heç də o, demək deyil ki, bizim dünya qeyri-həqiqidir. "Bizim dünyanın eyni cür təsəvvür olunması, onun tərkib hissələrə, yəni fenomenlərə malik olması ilə bağlı tənqidi təlim, bizə verilən həqiqətin mənşəyi haqqında sağlam insan ağlı ilə eyni mənaya malikdir". [4.s.249] Beləliklə, biz psixikamızın məhsulları, azad fantaziyamızın məhsulları, özümüzdə formalaşdırdığımız iradi anlayışlar dünyası ilə də

qarşılaşırıq. Bütün bunlar, xarici predmetlik kəsb edir və bərabər ölçüdə həqiqəti təşkil edirlər. Mövcud olan hər şey eyni mənada fenomendir və nəticə etibarı ilə, bərabər mənada həqiqətdirlər" [4, s.249]. Beləliklə, Kayzerlinq həqiqət haqqında təsəvvürü daha da genişləndirir.

Neoromantizm fəlsəfəsi nümayəndələrindən biri dəi alman filosofu Aloiz Vensil idi. O, mədəniyyət problemlərinə aid görüşlərini "İstedad nəzəriyyəsi" kitabında irəli sürmüşdür. Bu fikirlərin əsasını cəmiyyətin sosial və mənəvi böhranının əsas mənbəyi kimi səciyyələnən ağlın tənqidi təşkil edirdi. A.Vensil bütün antropoloji problemlərin mərkəzi olan kimi ağlın nüfuzuna qarşı etiraz edirdi. Bu filosof hesab edirdi ki, insan ağlının bütün zamanlarda tarixən formalaşan üstünlüyü məhz insanın danılmaz xüsusiyyəti və cəhətləridir. A.Vensil bildirirdi ki, İ.Kantın özünəməxsus hakimiyyətin hədlərini müəyyən etmək, mahiyyət etibarı ilə nəzəri sferanı məhdudlaşdırmaq cəhdi insanın bu cür ağlına zərər vura bilmədi. Əslində yalnız romantiklər ağıldan ali və hissdən yüksək olanı, mistik xoşbəxtliyi, axirət düşüncələrini insanın varlığı və mədəniyyətinin strukturuna aid etməklə bəşəriyyət sferasını daha da zənginləşdirmişlər. A.Vensil etiraf edir ki, XIX-XX əsrlərin astanasında, xüsusilə Birinci Dünya müharibəsi ərəfəsində "zamanın ruhunda parçalanma, rasionalizmdən imtina edilməsi və xalis zəkanın həddən artıq qiymətləndirilməsi baş verdi" [8, s.118].

Vensil insanın mürəkkəb strukturunu və mənəvi dünyasını eybəcərləşdirən mədəniyyətlərin taleyinə həyəcanlı münasibət bildirərək qeyd edirdi ki, XX əsrin irrasionalizm klassikləri tərəfindən nümayiş etdirilən ümidsizlik mövqeyi qəbul edilə bilməz: «gah Russosayağı təbiətə qayıdış» çağırışı səslənir, gah o, «başa çatmış keçmişin xoş mədəniyyətinə qayıdış» şüarına keçid baş verir, gah o inkişafın qarşısıalınmazlığının dərk edilməsi zəminində yaşamaq həyat sürmək kimi qəhrəman-pessimist müraciətə çevrilir, gah da «bütün yeniliklərə və dərk edilməmiş gələcəyə doğru» səslənən sarsılmaz iradə şəklində ifadə olunur və yalnız bəzi hallarda «dalanlardan geriyə və mədəniyyətə doğru» çağırış səslənirdi. Ağıl və intellekt (A.Vensil bu anlayışları fərqləndirməyə çalışır) insanın təbii xas olan nailiyyətlərdir, rasionalizm və intellektualizm isə mədəniyyətdə bu və ya digər cəhəti birtərəfli hipertrofik formada ifadə edir. «Biz intellekt və ziyalılığı aydın başa düşmək qabiliyyəti, dəyərlər, münasibətlər və məna əlaqələri yaratmaq qabiliyyəti kimi müəyyən edirik. Bəs intellektualizm nədir? Bu, sadə dildə desək, intellektin hakimiyyəti olmasa da onun üstünlüyüdür və bu da bütün digər təəssüratların və qabiliyyətlərin təhrif olunmasına və sıxışdırılmasına qarşı yönəlir və fərdidən yüksəkdə olan dumanlı amillərin ağla tabe etdirilməsidir» [8, s.186]. A.Vensil iddia edir ki, intellektualizm prinsip etibarilə təfəkkür prosesini o dərəcədə mexanikləşdirir və avtomatlaşdırır ki, nəticədə mahiyyətcə təfəkkürün özü ləğv edilir və "məna təəssüratı" kəsb etməyərək, yarımçıq əməliyyatlar məcmusuna çevrilir. Təfəkkür mədəniyyət prosesi kimi nəzərə çarpmır. Lakin ona kulturoloji problemlərinin hüdudları daxilində yol verilən ehtimal və abstraksiyalar sferası kimi haqq qazandırıla bilər. A.Vensilin fikrincə mədəniyyət prosesi kimi təfəkkür prosesində də nəinki psixoloji təəssüratlar, həmçinin intuisiya iştirak etməlidir: "düzgün təfəkkür prosesində biz öz qəlbimizin qeyri-şüuri qüvvələrinə istinad etməliyik" [8, s.128]. Bu təfəkkürün bütövlüyünün qorunub saxlanması, onun yalnız hissi və ağıldan yüksək duran komponentlərinin iştirakı sayəsində mövcud dəyərlərin dərk edilməsi və hiss olunmasının mümkünlüyü ilə şərtlənir. Əgər varlığın nəzərdən keçirilməsində sahəsində xalis idrak prosesi dəyərlərdən azaddırsa və ya azad olmalıdırsa, onda mücərrədləşmə qabiliyyəti dəyərlərə münasibətdə nə düşmənçiliyə, nə də dəyərlərə olan ehtiramın itirilməsinə və yaxud dəyərlərin rasional izah edilə bilməsi imkanının aradan qalxmasına səbəb ola bilməz. Beləliklə, A.Vensilin dəlillərinin və mühakimələrinin məntiqi düşüncə sistemindən ibarət olduğu üzə çıxır. Bu sistemdə "faktiki təfəkkürün" rasionalizmin təsiri altında deformasiyası dəyərləri qavramaq imkanını çətinləşdirir və "mexanikləşmə ruhu"nu əmələ gətirir [8, s.118]. Onun fikrincə, şüurun məhv edilməsi mədəniyyətin pozulmasının nəticəsidir. Vensil iddia edirdi ki, Avropa şüurunun formalaşdırılması üçün müxtəlif zəruri üsullardan istifadə olunmalıdır: onun Şərq təfəkkür tipi ilə

birləşdirilməsindən (Q.Kayzerlinq), yeni təfəkkür məntiqinin təşkili (F.Kuklyarskiy) vasitəsilə rasionaldan yüksəkdə dursa və ondan əvvəlki sferaları əhatə edən bütövlüyün bərpasına qədər. Bəzi romantik filosofların təlimində elm mədəniyyətin tənəzzülünün başlıca ümumi səbəbi kimi izah olunur. Artıq burcua sivilizasiyası mərhələsində reallaşan elmin bilavasitə yaradıcı qüvvəyə çevrilməsi ilə (K.Marks) elmi bilavasitə istehsalla əlaqələndirən texnika haqqında tənqidi təlimi yaranır (E.Yunqer). Bununla yanaşı, irrasional münasibətlərin güclənməsi şəraitində (O.Şpann) ona zidd olan yeni dəlillər irəli sürmək üçün, tərəqqi problemi yenidən gündəmə gətirilir.

Keçmiş sovet məkanında az tanınan Otmar Şpann bilavasitə fəlsəfədəki Romantizm ənənələrindən çıxış edərək tarixin mahiyyətini izah etmişdi[2]. O, Avropada tarix metafizikasının böyük nümayəndəsi Hegelə qarşı, bəşəriyyətin mənəvi və ictimai tamlığının yenidən bərpası haqqında tarix təlimi irəli sürmüşdü. Şpannın fikrincə, keçmiş insanların şüur və təəssüratlarında yaşamaqda davam edir. Müasir həyat keçmişin hazırkı dövrə qədərki mövcudluğunun sübutu kimi varlığın bütöv strukturlarında gerçəkləşmişdir. Bütövlük ierarxiyasının mənbəyi, zirvəsi və yaradıcı mühiti Allahdır. Şpann yaradılmışların Allaha münasibətini, ona qayıdışı və onun daxilində mövcudluğunu "tənhalıq, ayrılıq" adlandırır. Bütöv özü müstəqil varlığa malik deyil, o, yalnız öz struktur elementlərində mövcuddur. Şpannın təlimində tarix mənəvi və ictimai tamlığın yenidən bərpası kimi mənalandırılır. "Tarix təbiət yox, ruhdur" [7,s.323]. Şpannın fikrincə, ruh sferasında istənilən hadisənin ilk mənbəyi intuisiyadır. İntuisiya isə öz növbəsində, daha yüksək varlığa, ideyalar aləminə gətirib çıxarır. Şpann Hegelin dialektik təliminə qarşı çıxaraq yazırdı ki, "tarixdə həm azadlıq və eləcə də özbaşınalıq (istibdad), həm məntiq, həm də ruhun alogizmi (məntiqsizliyi) mövcuddur". Şpannın fikrincə, tarix "səmalarda" yaradılmır, məhz orada nəzərdə tutulur, lakin yerdə həyata keçirilir və bu zaman yerli olan üstünlük əldə edir, "qeyri-mükəmməllik qalib gəlir". [282] Tarixin dərk edilməsinin mümkünlüyü məsələsinə gəldikdə, Şpann belə bir dərkin "özünə qərq olma, mistik vəcd və ekstaz" yolu ilə reallaşdığını bildirir. Eyni zamanda Şpann dünya hadisələrinin ümumi prinsipinin dərk edilməsini mümkün hesab etmirdi, lakin, onun fikrincə, bu, yalnız fərddən çıxış etməklə mümkündür. Çünki eyni yaradıcı qüvvəyə, vahid əsasa malik olmaqla hər bir insanın fərdi daxili tarixi özündə bəşəriyyətin bütün tarixini əks etdirir. Belə bir ideya Platon, Plotin, Avqustin, Fixte, Şellinq və Hegel kimi mütəfəkkirlər üçün də səciyyəvi idi. Ancaq, Şpannın fikrincə, ümumi prinsiplərin mövcud olmasına baxmayaraq, tarix dünyadan kənarda dərk olunmazdır və Yer tarixinin gedişatı əvvəlcədən söylənilə bilinmir. Şpann öz fəlsəfəsində intuisiyaya müstəsna olaraq böyük əhəmiyyət verir: "İntuisiyada insan ruhu yaranır, o özündə yaradıcı təşəkkülü əks etdirir" [7,s.80]. Şpann insan yaradıcılığına dair öz baxışını izah edərkən hesab edirdi ki, yalnız intuisiyanın qavranılması və fəaliyyətindən sonra müstəqil yaradıcı proses başlayır. Filosofun fikrincə, ilkin olaraq yaradıcılıq dünyanın ilkin təşəkkül tapması aktında və dünyanın mənimsənilməsindən sonra da davam edən ilahi yaradıclıq fəaliyyətində mövcud olur. Yaradıcılığı yalnız mənəvi fəaliyyət kimi başa düşmək lazımdır: onu ideyaların meydana çıxması prosesi ilə müqayisə etmək olar, bu zaman bir ideya bir başqasından çıxır və ya bu zaman canlı təbiət obrazından istifadə etmək olar, bu halda söhbət təbiət yaradılışından yox, mənəvi düşüncədən gedir. Filosof hesab edirdi ki, dünya həqiqi mənada heç də Allahdan çıxmır, əksinə öz zəmini kimi onun daxilində qalır. Şpann hesab edirdi ki, Allahın əvvəl yaratdıqlarını saxlamaq və təkmilləşdirmək üçün istifadə etdiyi saxlayıcı yaradıcılıq fəaliyyəti tamamilə başqa bir istiqaməti əks etdirir [7,s.83]. Hər hansı fəaliyyətin özündən əvvəlkini şərtləndirdiyini, istənilən mövcud ideyanın yarandığı mühiti inikas etdirdiyini nəzərə alsaq ilahi yaradıcının hifzetmə, saxlayıcı fəaliyyəti əvvəlki hadisələrlə şərtlənir. Onun ilkin yaradıclıqdan fərqi ondan ibarətdir ki, o tarixidir. Allah yalnız özünü yaradır. Şpanna görə Allah yalnız qəlbi, ruhu hasil edir. Bütün yerdə qalanları isə Allah yaratmır, onları qəlb, ruh yaradır.

[2] O.Şpann özünün 1932-ci ildə nəşr etdirilmiş əsas əsəri olan "Geschichtsphilosophie" (Tarix fəlsəfəsi) kitabını aşağıdakı sözlərlə başlayır: "Tarixi yenidən yazmış Şellinq və Novalisin xatirəsinə həsr olunur".

Bütün yerdə qalanlar öz-özünə meydana çıxan nəticənin mahiyyətidir. Filosof hesab edirdi ki, bəşəriyyət dünya ruhunda olan müxtəlifliklərin, əksliklərin oyanması və müəyyən vəhdətə gəlmələri sayəsində ortaya çıxır. Allah ruhu, ruh isə mahiyyətinədəki müxtəlifliklərdən dünyanı yaradır. Bu müxtəlifliklərə mənəvi qüvvələr, onlara isə öz növbəsində ruhun predmetləri (obyektləri), hissi-cismani və maddi dünya uyğun gəlir. Bu mənəvi uyğunluqlar dünyanı formalaşdırır. Şpanın fikrincə, ruh izaholunmaz imkanların təcəssümü, sonsuz əsrarəngiz tamdır. Təfəkkür, obrazların yaradılması və həyat ruhun tamlığının təcəssümüdür. Maddi dünya isə onun fərqli təzahürü, korrelyatorudur. Filosof tam gücə çevrilmiş ruhun maddi dünya ilə əlaqəsini yüksək dərəcəli kommunikasiya adlandırır. Buna görə də yer və göy yaranarkən, bu, ruhun Ilahi təbiətinə heç bir təsir göstərmədi. Yalnız ruhun yaradılması – "qəlbin əsası", bəşəriyyətin "qığılcımları" ilkin yaradıcılıqdır. Şpann hesab edirdi ki, ilkin yaradıcılıq qeyri-müəyyən və mücərrəddir, o «indi» və «burda» məhfumlarından kənardır, hər zaman və hər yerdə mövcuddur. Şpanna görə, bu dünya sayəsində müxtəlif situasiyalar, təşəkkül formaları ortaya çıxır və onlar təkrarən bir-biriləri ilə bu və ya digər şəkildə və uyğunluq təşkil edərək kainatın məcmusunu formalaşdırırlar. Şpann özünün tarix haqqındakı metafizik təlimində hesab edirdi ki, insanlar bütün mövcudatın hadisə və predmetlərinin bilavasitə ilk səbəb ilə bağlı olduğunu bu və ya digər səpgilərdən və məqsədəmüvafiq şəkildə qavrayırlar. Insan qavrayışı zaman və məkan xüsusiyyətinə malikdir. Ancaq eyni varlıq əsasından çıxan yaradıclıq qüvvələrinin təzahürü onları qavrayan insandan asılıdır. Filosof hesab edirdi ki, müstəsna olaraq dahi sənətkar öz-özünü «ali olanın qavranılması oraqanına» [7,s.80] çevirir. Şpannın fikrincə, ilkin yaradıcılıq hər hansı vasitələr olmadan mövcud ola bilər, ilkin yaradıcılıq əbədilikdir. Filosof yazırdı ki, Allah insanlar haqqında bizim düşündüyümüz kimi "düşünmür". Allah müstəsna olaraq özündən çıxış edərək fəaliyyət göstərir, bunun sayəsində vasitə və uyğunluqlarda strukturlaşan dünya meydana çıxır. Dünyanın formalaşması idayasını izah edərkən Şpann yazırdı ki, vahid olmasına baxmayaraq, Allaha müxtəliflik, mütləq əksliklərin tamlığı xasdır və o, şəraitlə əlaqədar olaraq bir yox, sonsuz sayda dünyalar yarada bilərdi. Buna görə də dünya və dünya tarixinin yaranma səbəbi yalnız Allaha xas olan müxtəlifliklərdən törəmir. Ruhun mahiyyətində yaradılış planı mövcuddur. Ruhun müxtəlifliyi öz inkişafını, uyğunluğunu və sürəkliliyini dünyada baş verən hadisələrdə tapır". Şpann metafizikasının təməl ideyası ondan ibarətdir ki, "dünyanın layihəsi əvvəlcədən ruhun dərinliklərində qoyulmuşdur" [7,s. 82]. Onun əsasında ruha daxilən xas olan müxtəlifliklər dayanır. Buna görə də Şpanın fikrincə, dünyanın layihəsi dünyanın özü ilə müqayisədə daha yüksək sferalarda ortaya çıxır. İnsan öz daxilinə sirayət etməklə və ekstaz vəziyyətlərdə məkana bağlılığını və təcridiliyini dəf edərək sözün yüksək mənasında öz vahidliyinə, bütövlüyünə nail olur, tama qovuşur. İlk vahidin (Şpann ilkin vahidi birbaşa anlayışı ilə əvəz edir) vasitəli ifadə olunması zamanın fövqündə olanın konkretləşməsi, nəticədə tamdan elementin ayrılması və strukturlarda qərarlaşması yolu ilə baş verir. Şpann təliminə görə, bütün tarixi proses vasitə ilə ifadə olunma və vasitəsizə doğru hərəkət, keçmiş və gələcək kimi iki yerə bölünür. Filosof yazırdı ki, "keçmiş yer mənşəlidir, artıq vasitələnmişdir" [7.s.80], gələcəkdə isə bizim varlığımızın bütün dərinliyi, bizim gələcək varlığımızın mənbəyi öz əksini tapır. Şpann yazırdı: "İnsan ruhu özünə nə qədər dərindən nüfuz edirsə, tarixi əbədiyyətə bir o qədər yaxınlaşır. Çünki tarix ani, bir göz qırpımında deyil, böyük daxili əbədiyyətə qovuşaraq son çatır. Tədricən gələcək keçmiş üzərində üstünlük qazanır" [7.s.80]. Şpanna görə, tarix müdriklər və qəhrəmanlar yaradır, qalan bütün insanlar onların arxasınca getməlidirlər. Şpann belə hesab edir ki, birbaşa olanla təmas intuisiya vasitəsilə gerçəkləşir və bu təmas ruhumuzun daxilən yeni qüvvə ilə təmin edilməsinə səbəb olur. Bu ruhi güclənmə kommunikasiyalarda həyata keçirilən yaradıcılıq prosesinin əsasını anlamağa, hadisə və predmetlərin mahiyyətinə nüfuz etməyə, adi vəziyyətdən kənara çıxmağa səbəb olur. Şpannın fikrincə, indiki zaman keçmiş və gələcəyin daxili vəhdəti sayəsində mövcuddur" [7,s.81]. Beləliklə, Şpannın nəzəriyyəsində zaman xaotik, mənasız və qeyri-müəyyən hadisə olmayıb tarixin imkanlarını müəyyənləşdirən strukturlaşmış, məhdud, və nizamlı prosesdir. Tarix

gerçəkləşdirilməmiş imkanlar məcmusundan ibarətdir. Romantik filosof belə hesab edirdi ki, yaradıcı planlaşdırma və peyğəmbərcəsinə gələcəyi görmə sayəsində zamanla ötüb keçən ömrün əsas məqsədini və mənasını indiki zamana daxil etmək olar. Gələcəyi peyğəmbərcəsinə görmədən mənəvi həyat, və tarix qeyri mümkündür. Peyğəmbərcəsinə gələcəyi görmə fala baxmaqla deyil, batini bilik vasitəsi ilə mahiyyətin dərk edilməsi nəticəsində mümkündür. Romantik filosofun fikrincə, fövqəl zamana qayıdış mənəvi həyatın əsasını təşkil etdiyindən, "tarix hər an yenidən başlayır" [6, s. 281].

Romantizm ənənələrinin davamçısı kimi Şpann "insan nəslinin başlanğıcının" insanın mənəvi daxili dünyasında axtarmağı təklif edir. Filosof tarixin mənbəyini və gedişatını anlamaq üçün Delfi kahinlərinin "Özünü dərk et" çağırışını əsas götürürdü. Şpannın fikrincə, "insanın daxili dünyasını dil qədər dərindən öyrənən başqa heç bir vasitə yoxdur" [6, s.182]. O, dilin meydana çıxmasını intuitiv başlanğıcla izah edir və belə hesab edirdi ki, dil intusiyanın fərqli şəkli, müəyyən formasıdır. Şpannın bu fikrinə şərik çıxsaq, onda «dilin yanılaraq düzünü deməsi», dilin hadisəni qabaqlanması ilə bağlı olan inancların həqiqətinə varmaq olar. İlkin mahiyyət simvol və işarələrdə təzahür olunaraq, "vasitə ilə ifadə olunanın" müvafiq hadisələrdə qərarlaşdığını əks etdirir. Romantik filosofa görə, xarici təzahürlər müstəqil varlıq deyildirlər və daxili mahiyyətin fərqli şəkillərini əks etdirirlər. İşarə birbaşa olanı təzahür etdirmək, daxili olanı aşkar etmək vasitəsidir. Şpanna görə, dil ilkin mənəvi reallıq, qeyri-şüurinin işarələrdə ifadə etmək baxımından mühüm əhəmiyyətə malikdir. Onun fikrincə, «dil bəşəriyyətin ilkin daxili vəziyyətinin xarabalıqlarıdır», [6.s.181] insanın ilkin mənəvi vəziyyəti isə, mütləq ruhun bilavasitə fərdi ruhla vəhdətini əks etdirir. Romantik filosofa görə, təfəkkür və ruh yalnız dilin sayəsində inkişaf edə bilər. Şpann erkən romantiklər kimi hesab edirdi ki, bir neçə minillik ərzində "dilin müəyyən tənəzzülü, onun forma və strukturunun daxilən yoxsullaşması, zahirən isə mənimsənilməsi müşahidə olunur" və dil artıq ruh sayəsində ortaya çıxa bilmir. Şpann dilin meydana çıxması nəzəriyyəsində belə bir nəticəyə varır ki, böyük mənəvi-mədəni törəmələr - din, elm, incəsənət, əxlaq mahiyyət etibarı ilə bir sinfə mənsub olmalı və vasitəsiz ilkin varlığın, mənəvinin vasitələnməsinə əsaslanmalıdır. Bu nöqteyi-nəzərdən, tarixi proses ilk zəngin mənəvi varlığın hadisələrdə paylaşması, ilahi mahiyyətin bilvasitə, dolayı yollarla ifadəsini əks etdirir. Filosofun fikrincə, insanı ilkin daxili vəziyyətinə qaytarmaq, onun mənəvi zənginliyini hifz etmək bütün mədəniyyət sferalarının mahiyyətini təşkil etməlidir. Şpannın romantik tarixi konsepsiyasından çıxış etsək, bütün tarixin prosesi nizamlayan və idarə edən vasitələnmənin bütün aktlarında fəaliyyət göstərən ilahi ruh məhz tarixin ali qanunudur, və, bu ali tarix qanunu fəlsəfə və dinin hərəkətverici gücü ilə istiqamətləndirilir. Şpannın fikrincə, fəlsəfə tarixi və din ümumdünya tarixinin özəyini təşkil edir.

Beləliklə, Vensil, Ştirner, Çemberlin və Şpannın simasında Romantizmin fəlsəfi ənənələri XX yüzillikdə davam etməklə yeni cəhətlər qazanır, Neoromantizmin inkişafına səbəb olur.

Açar sözlər: romantizm, romantizm fəlsəfəsi, sosio-mədəni cərəyan, romantik ənənələr.

İstifadə olunmuş ədəbiyyat

1. Carl Schmitt Political Romanticism Transaction Publishers, 2010 221 p.
2. Chamberlain H.S. Richard Wagner, Munhen, 1907.
3. Chamberlain H.S. Arische Weltanschauung. Berlin, 1905.
4. Keyserling H.Prolegcmene zur Naturphilosophie. Munchen, 1910.
5. Miroir de Carl Schmitt; Herf J. Reactionary Modernism L., 1984.
6. Spann O. Kategorienlehre. Auflage. Yena, 1939.
7. Spann Otmar Geschichtspholsophie. Akademishe Druk-u. Verglags-anstalt. Graz-Austrie, 1970. P. 323.
8. Wenzl A. Theorie der Begabung. Hamburg, 1957.

Афаг МАМЕДОВА

ТРАДИЦИИ РОМАНТИЗМА В ИСТОРИИ ФИЛОСОФСКОЙ И ОБЩЕСТВЕННОЙ МЫСЛИ

Резюме

Как универсальное явление духовно-культурной жизни романтизм возник в качестве необходимого и закономерного этапа в развитии философской мысли после Просвещения. Идейно-теоретические источники философии романтизма формировались на основе классической греческой и постклассической философии.

Опираясь на предшествующее наследие, философы-романтики осуществили нетрадиционный подход к философской проблематике, возродили мифологию, мистику и пантеизм, высоко ценили в творческом процессе роль эзотерического, иррационального и ненаучного знания.

Ключевые слова: романтизм, философия романтизма, социокультурное течение, романтические традиции.

Afag MAMMADOVA

TRADITIONS OF ROMANTICISM IN HISTORY OF PHILOSOPHY AND PUBLIC THOUGHT

Summary

As a universal phenomenon of spiritual and cultural life Romanticism emerged as a necessary and natural stage in the development of philosophical thought since the Enlightenment. Ideological and theoretical sources of the philosophy of Romanticism were formed on the basis of classical Greek philosophy and postclassic philosophy. Building on previous heritage, philosophers romanicists implemented an unconventional approach to philosophical issues, revived mythology, mysticism and pantheism, highly estimated the role of esoteric, irrational and unscientific knowledge in the creative process.

Keywords: Romanticism, philosophy of Romanticism, sociocultural trend, Romanticism traditions.

UOT 101.1

Əyyub KƏRİMOV
Az.TU, fəlsəfə üzrə f.d., dosent

DEMOKRATİK CƏMİYYƏT QURUCULUĞU PROBLEMİ SOSİAL-FƏLSƏFİ TƏHLİLİN PREDMETİ KİMİ*

İdeal cəmiyyət quruculuğu problemi minilliklər boyu fəlsəfi-siyasi fikrin mərkəzində dayanmış, bəşəriyyətin qüdrəti zəka sahiblərini daima düşündürmüş, müxtəlif nəzəriyyə və konsepsiyaların yaranmasına səbəb olmuşdur. Həyatın müxtəlif (sosial, iqtisadi, siyasi və mənəvi) tərəflərinin optimallaşmasına yönəlmiş bu problem, bir növ, insanlıq tarixinin mütləq, daimi məqsədinə çevrilmiş və bəşəriyyəti cəzbedici utopiyalarla, elmi-nəzəri ideyalarla, davamlı inkişafa təminat vermək iddiası ilə çıxış edən təlimlərin mübarizəsi ilə üzləşdirmişdir.

Demokratiyanın təbiəti, mahiyyəti 2500 ildən çoxdur ki, müzakirə olunur. 25 əsr ərzində demokratiya təqdir də, tənqid də olunub, inkişaf da edib, rövnəqlənib, ləğv olunaraq aradan da qaldırılıb. İnsan hüquqlarına hörmətlə yanaşmanı və onu qorumanı, xalqın dövlət işlərində iştirak etmək hüququnu və təminatını özündə ehtiva edən demokratiya [7, 74] bəşəriyyətin tarixində kifayət qədər uzun zamanlar olmuşdur ki, praktikada mövcud olmamış, yalnız ideya şəklində bəzilərinin yaddaşında qorunub saxlanılmışdır.

Qədim Yunanıstanda meydana gələn demokratiya anlayışı kifayət qədər qədim olsa da bəşəriyyət onun təkmil formalarına XX əsrdə nail olmuşdur. Bu gün isə dünyanın əksər ölkələrində, o cümlədən Respublikamızda demokratiyanın alternativsizliyi birmənalı olaraq qəbul olunmuşdur.

Yalnız düzgünlüyünə əmin olduqdan sonra hər hansı əmri yerinə yetirən azad insanlara, demokratik cəmiyyətin üzvlərinə rəhbərlik etmək, əlbəttə, liderin istənilən əmrini sözsüz yerinə yetirməyə hazır olan insanlardan ibarət totolitar cəmiyyətin üzvlərinə rəhbərlik etməkdən müqayisəolunmaz dərəcədə çətindir. Fukidid Afina demokratiyasının rəhbəri Perikl haqqında yazırdı: «O, kütləyə ona görə rəhbərlik edə bilirdi ki, hakimiyyətə ləyaqətsiz vasitələrdən istifadə etmədən gəlmişdi; onun kütləyə yarınmağa ehtiyacı yox idi və o hörmətə malik olduğundan kütləyə qarşı kəskin şəkildə çıxa bilirdi». Sparta ilə müharibədə ilk həlak olmuş döyüşçülərin dəfn mərasimində Periklin söylədiyi və Afina tarixçisi Fukididin qələmə aldığı öz zəmanəsini min illər qabaqlamış və indinin özündə də insanları həyəcana gətirən bu nitq demokratiyanın müdafiəsinə söylənilmiş bizə bəlli olan ilk nitqidir. Fikrimizcə, Periklin demokratiyasının dövrümüzdə də aktual olan zəruri elementlərini özündə əks etdirən qeyd olunan çıxışı qiymətli mənbə kimi diqqətə layiqdir.

"Biz öz dövlət quruluşumuz üçün heç bir yadelli qanunları nümunə götürməmişik. Əksinə, biz nədəsə kimlərisə təqlid etməkdənsə özümüz başqaları üçün həmişə örnək olmuşuq. Şəhərimizi bir ovuc şəxs deyil xalqın böyük əksəriyyəti idarə etdiyinə görə dövlət quruluşumuz xalq idarəçiliyi adlanır. Bizdə şəxsi işlərdə hamı qanunlar əsasında eyni hüquqlardan istifadə edir. Dövlət işlərinə gəldikdə isə, bizdə hər bir kəs yalnız ləyaqətinə görə fəxri dövlət vəzifələrinə irəli sürülür, belə ki, həmin şəxs müəyyən zirvəyə mənsub olduğuna görə deyil, şəxsi fədakarlığına görə nə iləsə fərqlənə bilmişdir. Əgər hər hansı bir insan dövlətə xidmət göstərməyə qadirdirsə, yoxsulluq, əsil-kökün olmaması, yaxud aşağı ictimai hal onun fəxri vəzifə tutmasına mane olmur"[2, 3-4].

Periklin bu nitqində həmçinin tarixdə ilk dəfə olaraq liberalizmin başlıca ideyası – insan şəxsiyyətinə hörmət və onun şəxsi həyatına müdaxilə etməmək ideyasının mahiyyəti səslənmişdir.

---

* Məqalə f.e.d., prof. A.Mustafayev tərəfindən çapa məsləhət bilinib.

Natiq demokratik cəmiyyətin mühüm atributlarından olan qanunun aliliyi prinsipinin Afinada hansı vəziyyətdə olduğunu aşağıdakı kimi ifadə etmişdir: «Şəxsi münasibətlərimizdə biz bir-birimizin günahlarından keçsək də ictimai həyatda qanunları heç vaxt pozmuruq, başlıcası ona görə ki, biz qanunlara hörmətlə yanaşırıq, xüsusən də incidilənlərin müdafiəsi üçün qoyulmuş qaydalara. Həmçinin yazıya alınmasalar da, pozulmasını eyib saydığımız qanunlara tabe oluruq». «Biz heç də düşünmürük ki, açıq müzakirə dövlət işlərinin gedişinə ziyan vura bilər. Əksinə, biz belə hesab edirik ki, hər bir lazımı qərar lehinə və əleyhinə çıxışların köməyilə qabaqcadan hazırlıq görülməklə qəbul olunmalıdır. Çox az adam siyasətçi ola bilər, lakin siyasətçilərin əməllərinə qiymət verməyə hamının haqqı var». Bu fikirlər Afinada qərarların qəbul olunmasında kolleqiallığın olduğunu, əhalinin əksəriyyətinin qərarların qəbul olunmasında iştirakının təmin olunduğunu göstərir.

Afinalı Platon isə «Dövlət» əsərində demokratik cəmiyyətin zəruri ünsürlərini göstərməklə «Bu quruluşda bərabər olanları və olmayanları bərabərləşdirən qəribə bir bərabərlik var» deməklə heç də demokratiyanın tərəfdarı kimi çıxış etmir, əksinə «heç kəs heç vaxt-kişilər də qadınlar da başçısız qalmamalıdır» prinsipli ideal dövlət modelini irəli sürür.

Qədim yunan filosofu Aristotel e.ə. (384-322) Platonun şagirdi olmuş, Afina akademiyasında iyirmi il təhsil almışdır. O, «Politika» əsərində göstərmişdir ki, demokratiya siyasi rejimlərin (monarxiya, oliqarxiya, tiraniya və politiya ilə birlikdə) formalarından biridir. Demokratiyanı idarəetmənin ən pis formalarından ən yaxşısı kimi irəli sürən filosofun fikrincə burada hakimiyyət adətən əksəriyyət təşkil edən yoxsul və əsil-nəcabətsiz vətəndaşlara məxsus olacaqdır [3, 552]. Aristotelə görə demokratiyanın ən yaxşı forması ən az demokratik olanıdır; belə demokratiyada insanların çoxu yoxsul deyil və yoxsulların bərabər hüquqları yoxdur.

Filosof demokratiyaya müsbət münasibət bəsləməsə də onun zəruri ünsürləri haqqında «Politika» əsərində öz fikirlərini ifadə edərək yazır ki, «qanunun həlledici rol oynadığı demokratik dövlətlərdə demoqoqlara yer yoxdur, orada yaxşı vətəndaşlar birinci yerə qoyulur, qanunun aliliyi olmayan yerdə isə demoqoqiya yaranır». Afina demokratiyası tarixin səhnəsindən çıxdıqdan sonra uzun bir tarixi dövr ərzində o yalnız elmi-siyasi nəzəriyyələrdə, bir sıra zəka sahiblərinin əsərlərində mövcudluğunu qoruyub saxlamışdır.

Sonrakı dövrlərdə tarixi şərait imkan verdikcə bu və ya digər ölkələrdə xalq hərəkatı müxtəlif formalarda yüksəlib – enmiş hər dəfə də hakim siniflər tərəfindən məğlub edilmişdir. XIII əsrin əvvəllərindən etibarən isə demokratik cəmiyyət quruculuğu istiqamətində bir sıra mühüm addımlar atılır. Bu cəhətdən 1215-ci ildə İngiltərə kralı Conun imzaladığı «İngilis azadlıqlarının böyük toplusu» (Maqna Carta-böyük sənəd) adlı 63 bənddən ibarət sənəd xüsusi əhəmiyyətə malikdir [5, 3-5]. İnsan haqları, kral hakimiyyətinə qoyulmuş məhdudiyyətlər, hüquqi norma və proseduraların siyahısından ibarət olan bu topluda göstərilirdi ki, heç bir azad insan onunla bərabər hüquqlu olan insanların qanuni hökmündən və ya ölkə qanunlarından savayı heç bir əsasla tutulub həbs edilə, hüquq və ya milliyyətindən məhrum oluna, qanundan kənar qoyula, sürgün edilə, hər hansı yolla cəmiyyətdəki mövqeyindən məhrum edilə bilməz, eləcə də biz ona qarşı güc işlətməyəcəyik və başqalarını da buna məcbur etməyəcəyik (Maqna Carta – 32-ci bənd).

İnsan təfəkkürünün inkişafı, əmək bölgüsünün yaranması, istehsal vasitələrinin təkmilləşməsi nəticəsində maddi sərvətlərin istehsalı artır, varlı təbəqələr meydana gəlirdi. Sənaye və ticarətin inkişafı isə bu zənginləşməni xeyli sürətləndirirdi. Daim pula kəskin ehtiyac duyan hökmdarlar nə bu hərislikdən əl çəkə bilir, nə də ciddi müqavimətdən ehtiyatlanaraq əhalinin üzərinə vergi qoya bilirdi. Əhalinin razılığını almaq üçün hakimiyyət xalqın əsas siniflərinin nümayəndələrini yığıncağa toplamalı olurdu. Müasir qanunverici hakimiyyət orqanlarının mənşəyinin bu yığıncaqlar, parlamentlər və ya çox vaxt deyildiyi kimi «ştatlar» olduğunu təsdiq etmək mümkün olmasa da, onlar müəyyən ənənələrin əsasını qoymuş, ilk zəruri qaydaları təyin etmiş və demokratiyanın inkişafı prosesinə faydalı təsir göstərmiş ideyaları insanların şüuruna yeritmişdi [10, 26]. Nümayəndəli parlament yenicə təşəkkül tapmağa başlasa da, tədricən

idarəetmənin müasir parlament formasını və xarakterini alırdı. Orta əsrlərin İngiltərə parlamentini buna misal göstərmək olar. Bu parlament hökmdar I Eduardın (1272-1307) dövründə artıq hüquqi status aldı. Bu təkamül sonralar konstitusiya sisteminin yaradılmasına gətirib çıxardı ki, orada da Kral və parlament bir-birinin hakimiyyətini qarşılıqlı surətdə məhdudlaşdırır, parlamentin öz daxilində isə, lordlar palatasında iclas edən irsi aristokratiyanın hakimiyyəti icmalar palatasında təmsil olunan xalqın hakimiyyəti ilə tarazlaşdırılırdı.

Öz fikrini sərbəst ifadə etmək, özünüifadə azadlığı demokratik cəmiyyətlərdə mühüm azadlıqlardan biridir. İngiltərənin görkəmli ictimai xadimi, şair, alovlu mübariz Con Miltonun fəaliyyəti də demokratiya tarixinin şanlı səhifələrindəndir. Onun «parlament qarşısında mətbuat azadlığı haqqında nitq»ində (1644) irəli sürdüyü müddəalar bəşər tarixinin sonrakı illərində demokratiyanın atributlarından birinə çevrildi. Con Milton senzuranın tətbiqinin həm hüquqi həm də mənəvi cəhətdən düzgün olmadığını sağlam məntiqlə sübut edərək bildirirdi: «Mən heç də müəyyən növ azadlıqların mövcudluğunu inkar etmirəm, lakin dünyada hər şeydən çox hüququ sevirəm ki, şəxsi təhlükəsizliyimizə təminat verir. Bu mənada isə mənə hər cür azadlıqlardan əvvəl bilmək, danışmaq və öz məsləkimə uyğun olaraq sərbəst fikir yürütmək azadlığı verin».

XVII əsr İngiltərə inqilabı bəşəriyyətin həyatında Yeni Tarix dövrünü açır. Bu feodal quruluşunun sonu, kapitalist münasibətlərinin bərqərar olması, insanların bərabərlik və azadlığını bəyan etmiş liberalizm ideologiyasının çiçəklənməsi və kütləvi hərəkatlar dövrüdür. XVII əsr liberallarının dövlətin yalnız vətəndaşların ümumi razılığı ilə fəaliyyət göstərməli olduğu haqqında və hakimiyyətin insan həyatına müdaxiləsini məhdudlaşdırmaq barədəki ideyaları müxtəlif sənədlərdə – «xalq sazişi»ndə, (Agreement of the People. 1647), levelerlərin liderləri- Con Lilbern, Riçard Overton, Uilyam Uolvin, Con Uildman və s. əsərlərində öz əksini tapmışdır.

Lakin tarixi məqam düşən kimi Krallar parlamenti sıxışdırmağa çalışır, nüfuzunu aşağı salmağa cəhd göstərirdilər. Məsələn II Karlın hakimiyyəti illərində (25 illik) icma palatasına hər il keçirilməli olan seçkilər cəmisi iki dəfə keçirilmişdi [4, 331].

1689-cu ildə III Vilhelm tərəfindən parlamentin Kral hakimiyyəti üzərindəki üstünlüyünü və beləliklə də ölkədə konstitusiyalı monarxiya quruluşunu bərqərar edən «Hüquqlar haqqında qanun» qəbul olunur. Bundan başqa sənəddə parlament üzvlərinin azad seçkisi, parlamentdəki nitq və fikir söyləmək azadlığının, məhkəmədə və ya parlamentdən kənar hər hansı bir yerdə təqib olunmasının qadağan olunması, məhkəmənin hökmü olmadan cərimələrin qanunsuz sayılması və s. məsələlər öz ifadəsini tapmışdır.

İngilislərin parlamentin deputatlarına və ya monarxa ünvanladığı ərizə və şikayətlərə görə təqib olunması qadağan edildi, sonralar əvvəllər məhkəmədə verilən işgəncələrə də qadağa qoyuldu (1772-ci il qanunu).

Sonrakı dövrlərdə Tomas Hobbsun, Con Lokkun, Jan Jak Russonun ictimai müqavilə, Şarl de Monteskyenin hakimiyyətin bölünməsi haqqındakı fikirləri demokratiya uğrunda mübarizəyə edilən töhfələrdəndir.

Fransada başlanmış inqilabi hərəkat 1789-cu il iyulun 14-də Kral zülmkarlığının rəmzi sayılan Bastiliya qalasının alınması ilə nəticələndi. Məhz həmin 1789-cu ildə Fransa milli assambleyasının qəbul etdiyi «İnsanın və vətəndaşın hüquqları haqqında bəyannamə» bəşəriyyətin demokratiya uğrunda mübarizədə o vaxta qədərki, nailiyyətlərini ümumiləşdirməklə yanaşı, yeni ideyalarla da zənginləşdirdi [9, 226-252]. Sənəddə ingilis və Amerika inqilablarının təcrübəsi (azadlıq, mülkiyyət, təhlükəsizlik və zorakılığa müqavimət göstərmək hüququ; təqsirsizlik prezumsiyası) eləcə də Russonun xalq iradəsinin aliliyi haqqındakı baxışları öz əksini tapmışdır. Universal xarakter daşıyan bəyannamədə o dövr üçün yeni olan bir sıra müddəalar da vardır:

5. Qanun yalnız cəmiyyətə zərəri olan hərəkətləri qadağan etmək hüququna malikdir. Qanunla qadağan olunmayan hər şeyə icazə verilir və qanunla nəzərdə tutulmayanları etməyə heç kəsi məcbur etmək olmaz.

6. Qanun ümumi iradənin ifadəsidir. Bütün vətəndaşlar şəxsən, yaxud nümayəndələri vasitəsilə qanunun yaradılmasında iştirak etmək hüququna malikdir. Bütün vətəndaşlar qanun qarşısında bərabərdirlər. Ona görə də qabiliyyətlərinə uyğun olaraq, şəxsi keyfiyyətlərini və iş metodlarını şərtləndirən fərqlərdən başqa hər hansı fərqdən asılı olmayaraq bütün ictimai mənsəbləri, yerləri və yaxud vəzifələri tutmaq hüququna malikdirlər[5, 32-34].

XV əsrin axırlarında Amerika kəşf olunandan sonra Avropanın müxtəlif ölkələrindən təqib olunanlar, dolanışıq, azadlıq, macəra axtaranlar buraya axışmağa başladılar. Amerikanın məskunlaşması, orada ictimai müqavilə əsasında gələcək dövlətin rüşeymlərinin yaradılması o zamankı Avropanın tarixi inkişafı gedişində artıq müəyyən mərhələyə çatmış demokratiya və azadlıq ideyaları üzərində köklənmişdi. Nəzərə alsaq ki, gələnlərin əksəriyyəti hüquq və azadlıq ideyalarının daşıyıcıları olub, kilsənin və Kral hakimiyyətinin təqiblərindən qaçanlar idi, onların yaradacaqları dövlətin də xarakteri haqqında irəlicədən müəyyən fikir söyləməyin mümkünlüyü aydın olur. Hazırlanması Cefferson, Fraklin və Adamsa tapşırılmış, lakin əsasən Tomas Cefferson tərəfindən yazılmış və 1776-cı ilin 4 iyulunda ikinci Kontenental Konqres tərəfindən təsdiq edilmiş «İstiqlaliyyət Bəyannaməsi»ndə [6] də «Azadlıqların böyük xartiyası»nın, Levelerlərin «Xalq sazişi»nin və Con Lokkun ideyalarının təsiri açıq-aydın hiss olunur. Lakin məsələ burasındadır ki, əgər Britaniyada ingilis inqilabının ideyaları daim feodal münasibətlərilə əngəlləndiyi halda, Amerikada-öz vətənlərini dövlətin və kilsənin təqibi üzündən tərk etmiş insanların qurub-yaratdığı bir ölkədə yaşamaq, azadlıq və xoşbəxtliyə canatma hüquqları hamı tərəfindən alqışlanır və dəsdəklənirdi. Bu hüquqlar bəyannamədə təkcə amerikalıların deyil, həm də bütün bəşəriyyətin ayrılmaz hüquqları kimi tanınırdı.

Ceffersonun bəyannaməyə daxil etdiyi şikayətlər siyahısı amerikalıların necə dövlət qurmaq istədiyini və orada dövlətlə insanın münasibətlərinin necə olacağını aydın göstərir.

Bəyannamədə oxuyuruq «Biz bunu sübuta ehtiyacı olmayan bir həqiqət sayırıq ki, bütün insanlar bərabər hüquqlu yaradılıb və yaradan bəndələrinə müəyyən toxunulmaz hüquqlar bəxş edibdir, onların sırasına yaşamaq, azadlıq, səadətə canatma hüququ da daxildir; belə hüquqların təmin edilməsi üçün insanlar ədalətli, idarə olunanların razılığına güvənən hökumət qurur; odur ki, hər hansı dövlət həmin hüquqları pozarsa, xalqın onu dəyişməyə, ləğv etməyə, əvəzində isə həmin prinsiplərə dayanan, insanların əmin-amanlığına və güzəranına daha yüksək təminat verən yeni quruluş yaratmağa haqqı vardır».

1779-cu ildə Cefferson Virciniya ştatında dini azadlıq haqqında qanun layihəsi hazırladı, lakin bu layihə yalnız 7 ildən sonra – 1786-cı ildə Medisonun səyləri nəticəsində Virciniya ştatının qanunverici məclisi tərəfindən qəbul olundu. Sonralar qanunun surəti bir çox digər ştatlar tərəfindən çıxarılmışdı, həmçinin ABŞ Konstitusiyasının dini azadlıq haqqında müddəasının əsasını təşkil etmişdir.

1777-ci ildə 13 ştatı təmsil edən nümayəndələrin toplaşdığı Kontinental Konqres öz hərəkətlərini uzlaşdırmaq məqsədilə Konfederasiya və daimi Hökumət Haqqında əsasnaməni bəyəndi.

1786-cı ildə 5 ştat Konqresə konfederasiya haqqında əsasnaməyə düzəliş vermək tələbi ilə müraciət etdi; bundan məqsəd ittifaq üçün daha səmərəli idarəetmə formasını tapmaq idi. Federasiyanın – daha sıx ittifaq yaratmağın tərəfdarları başda Corc Vaşinqton olmaqla ölkə Konstitusiyası üzərində işə başladılar. Layihə üzərində işə Ceyms Medison rəhbərlik edirdi. O, əyləclər və balanslar və ya «qarşılıqlı nəzarət» və «əks təsir» prinsipinə əsaslanan konstitusiya layihəsi yaratdı. Layihəyə görə ittifaqı idarə edəcək qanunları Konqres qəbul edirdi; bu qanunlar əsasında ittifaqın işlərini prezident idarə edir, qanunların icrasının düzgünlüyünə isə məhkəmə nəzarət etməli idi. Bu layihə dünyanın ilk konstitusiyası olmaqla Amerika xalqının iftixar mənbəyi və bəşəriyyətin demokratiya uğrunda mübarizə tarixinin şanlı səhifəsidir.

1787-ci il 17 sentyabrda qəbul edilən Konstitusiya 4 mart 1789-cu ildə qüvvəyə mindi. Hələ Konstitusiyanın qəbulu üzrə müzakirələrin gedişində Tomas Ceffersonun başçılıq etdiyi

nümayəndələr qrupu onun mətninə dövlətin məhdudlaşdıra bilməyəcəyi insan hüquqlarının siyahısını daxil etmək tələbini irəli sürdü. Konqres 1789-cu ilin yazında Ceffersonun irəli sürdüyü düzəlişlər siyahısını dərhal qəbul etdi. Ştatlar isə 1791-ci ilə qədər bu düzəlişlərin 10-nu təsdiqlədilər. O vaxtdan bunlar ABŞ Konstitusiyasının Hüquqlar haqqında Billi adı ilə tanınır.

Ümumiyyətlə bir demokrat kimi Ceffersonun mühüm xidmətlərindən biri də ondan ibarətdir ki, o xalqın maarifləndirilərək demokratiyanın dayağı olmasını milli siyasi idealogiyanın və praktikanın başlıca vəzifəsi hesab edirdi [8, 11].

II Dünya Müharibəsi başa çatdıqdan sonra qalib dövlətlər ABŞ prezidenti Ruzveltin təşəbbüsü ilə dövlətlər arasında sülhü və bütün dünyada insan hüquqlarını təmin edə biləcək daimi beynəlxalq təşkilatı Birləşmiş Millətlər Təşkilatını yaratmaq qərarına gəldilər. BMT-nin1945-ci il iyunun 26-da qəbul edilmiş maddələrindən birində göstərilirdi ki, bu təşkilatın vəzifəsi həm də «heç bir ayrı seçkiliyə yol vermədən insan hüquqlarına və azadlıqlarına hamılıqla hörmət və əməl edilməsinə kömək etməkdir» [11, 4]. Beləliklə insan hüquqlarının beynəlxalq hüququn subyekti kimi tanınması yolunda ilk addım atıldı.

Demokratik ölkələrin təşəbbüsü ilə ABŞ prezidentinin arvadı Eleonorun başçılıq etdiyi xüsusi komitə dövlətin poza bilməyəcəyi əsas insan hüquqlarının siyahısını əks etdirməli olan beynəlxalq bəyannamə hazırladı. Bu bəyannaməni 10 dekabr 1948-ci ildə BMT-nin 48 ölkəsi qəbul etdi.

1966-cı ildə BMT Qərb ölkələrinin təzyiqi ilə «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» və «Mülki və siyasi hüquqlar haqqında» Ümumdünya Bəyannaməsinin müddəalarını inkişaf etdirən paktları qəbul edir. Bu paktların artıq beynəlxalq müqavilə statusu vardır. «Mülki və siyasi hüquqlar haqqında pakt»da bu sənədi imzalamış ölkələrdə insan hüquqları üzərində beynəlxalq nəzarət mexanizmi müəyyən edilmişdir.

Məlum olduğu kimi Sovet dövləti bu sənədləri imzalamamışdı. Lakin respublikamız müstəqillik əldə etdikdən sonra BMT-yə üzv qəbul olunmuş və yuxarıda qeyd edilən bütün beynəlxalq sənədləri imzalamışdır.

Bundan başqa 1995-ci il 12 noyabrda qəbul edilmiş Konstitusiyamızda demokratiya və insan haqları beynəlxalq normalar nöqteyi-nəzərindən qanun əksini tapmışdır. Ümummilli liderimizin aşağıdakı sözləri artıq reallaşmaqdadır.”Müstəqil Azərbaycan Respublikası yaşayacaq və demokratiya prinsipləri, insan azadlığı, demokratik iqtisadiyyat sahəsində başqa dövlətlər üçün nümunə olacaqdır”[1,6]. Hazırda ölkəmiz ulu öndər H.Əliyevin müəyyənləşdirdiyi strategiya və möhtərəm Prezidentimiz İ.Əliyevin bu strategiyaya uyğun əməli fəaliyyəti sayəsində hüquqi, demokratik cəmiyyət quruculuğu istiqamətində uğurla irəliləyir.

Açar sözlər: demokratiya, insan haqları, parlament, xalq sazişi, qanun, konstitusiya, hakimiyyətin bölünməsi.

İstifadə olunmuş ədəbiyyat

1. Əliyev H.Ə. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı: Azərbaycan Universiteti, 1997.
2. Hacızadə H. Demokratiya: gediləsi uzun bir yol. Bakı, 2001.
3. Аристотель. Политика. Соч., т.4.
4.Английская буржуазная революция XVII века. Т.2. М., 1954.
5. Великая Хартия Вольностей (Magna Carta, 1215) Международные акты о правах человека. М.: Норма, 2000.
6. Джефферсон Т. Автобиография. Заметки о штате Вирджиния. Л., 1990; Р.Дарендорф. От социального государства к цивилизованному сообществу //Полис, 1993, №5, с.31-35.

7. Демидов А.И. Ученые о политике: философские основания. М.: НОРМА, 2001.
8. Майроф Б. Лики демократии. М.: Весь Мир, 2000.
9. Ревуненков В. Великая французская революция 1789-1799. Л., 1990.
10. Даль Р. О демократии. М.: Аспект-Пресс, 2000.
11.Организация Объединенных Наций. Основные факты М.: Весь Мир, 2000.

Эюуб КЕРИМОВ

ОСНОВНЫЕ ПРОБЛЕМЫ СТРОИТЕЛЬСТВА ДЕМОКРАТИЧЕСКОГО ОБЩЕСТВА КАК ПРЕДМЕТ СОЦИАЛЬНО-ФИЛОСОФСКОГО АНАЛИЗА

Резюме

Проблема строительства идеального общества тысячелетиями была в центре философско-политической мысли, постоянно интересовала великих мыслителей и являлась причиной возникновения различных теорий и концепций. Хотя понятие демократии возникло в древней Греции, однако человечество достигло совершенных форм лишь в XX в.

В данной статье, начиная с афинской демократии, являвшейся первой практикой для её лидера Перикла, основные моменты строительства демократического общества, успехи в области прав и свобод человека и их обеспечение, были выбраны как предмет социально-философского анализа в контексте понятия «демократическое общество».

Ключевые слова: демократия, права человека, парламент, национальное соглашение, закон, конституция, разделение властей.

Eyub KERIMOV

BASIC PROBLEMS OF THE DEMOCRATIC SOCIETY BUILDING AS AN OBJECT OF SOCIAL AND PHILOSOPHICAL ANALYSIS

Summary

The problem of an ideal society building stood in the centre of philosophical and political thoughts, for millenni a always made great intellects to think and was the reason for creation of the different theories and conceptions. Though the concept of democracy emerged in the ancient Greece, the mankind reached its complete forms in the XX century.

In the present article beginning since Athenian democracy as the first historical experience for its leader Pericles, the basic moments of history of a democratic society building, and achievements in the field of human rights and freedoms and their protection, were selected as an object of social and philosophical analysis in the context of “democratic society” concept.

Keywords: democracy, human rights, the Parliament, the national agreement, law, the Constitution, division of powers.

УДК 101.1

Адиль АХУНДОВ
ИФСП НАНА, ст.н.с,
д.ф. по философии

ДИАЛОГ КУЛЬТУР: О ПРЕЕМСТВЕННОСТИ В СФЕРЕ КУЛЬТУРЫ МЕЖДУ ВОСТОКОМ И ЗАПАДОМ*

В наше время проблема диалога культур между народами, имеющий древние истоки и свою историю, приобрел особую актуальность. Еще в древности в различных регионах мира произошло формирование своей культуры и цивилизации - это Вавилонско-Шумерская цивилизация, Китайская и Индуистская цивилизации, Древнегреческая цивилизация, Персидско-Азербайджанская цивилизация, Латиноамериканская цивилизация, Православная цивилизация, Западная цивилизация и т.д.

Миф о дихотомии «Восток-Запад», созданный на Западе, которую Эдвард Сед справедливо критиковал страдает недооценкой ориентализма. Еще более ошибочно утверждение превосходства Запада над Востоком [1, с.32]. Действительно, если Синская и Индуистская цивилизации возникли по крайней мере в 1500 г. до н.э., то зарождение Западной цивилизации относят к 700 - 800 г.г. н.э. Это говорит о многом.

Культ Греции мешал европейским мыслителям эпохи Возрождения и Просвещения справедливо оценить ценности восточной культуры. Ведь народы Европы эпохи расцвета греческой культуры находились на уровне племенного строя. И не случайно римляне, пройдя через Францию, в 43 - 84 гг. н.э. захватили Англию [2, с.46].

Преклоняясь перед Грецией как перед началом интеллектуального развития Европы, такие мыслители, как Гизо, Винкельман, Ренан и др. На этой основе происходило формирование идеологии европоцентризма, нашедшей обоснование в философской системе Ф.Гегеля. Он считал, что дух Востока символичен и находится на уровне рассудка, тогда как разум - принцип только европейского духа [3, сс.64-73]. Однако наряду с поверхностным изучением Востока и противопоставлением Запада Востоку, ряд западных мыслителей справедливо признавали ценности культуры Востока. Например, Вольтер, высоко ценя «Авесту», утверждал, «что рассуждая примитивно, нам кажется, что все мы творим». Он критиковал крестовые походы европейцев средневековья. Монтескье в «Персидских письмах», Дидро в «Бесценном сокровище» также по достоинству оценили культуры Востока. Гете в своем знаменитом «Западно-восточном диване», высоко оценивая творчество ближневосточных поэтов Фирдоуси, Низами, Хафиза, Саади, Руни, Джами выразил пожелание поставить им достойные памятники [4, сс.178-189]. Ф.Шлегель также рекомендовал воспользоваться духовными ценностями таких восточных стран, как Индия, Китай, Иран.

Между тем, в Европе были авторы, которые считали древних греков учениками мыслителей Древнего Востока. Действительно, ряд древнегреческих философов и мыслителей отправлялись в Египет, Вавилонию, Иран и в Индию с целью изучения основ математики, астрологии, медицины, алхимии, а в целом восточной мудрости. Не удивительно, что первый философ Древней Греции Фалес, предприняв поездку в Египет, привез оттуда сведения по геометрии [5, с.39]. После него в Египте побывал Пифагор и почерпнул много мудростей [5, с.43]. С целью обретения новых знаний он жил там двадцать два года и учился у жрецов. Спустя определенное время он оказался в Вавилонии

* Məqalə fəls.e.d. L.Mövsümova tərəfindən çapa məsləhət bilinib.

и в течение 12 лет имел возможность учиться у жрецов… После в общем тридцатитрехлетнего обучения в Египте, Вавилонии, и, возможно, в Индии Пифагор оказывается в «Великой Греции» - в городе Кротоне, где основывает свою школу - Пифагорейский союз [6, с.140].

Античные источники сообщают также о путешествии Демокрита на Восток: в Египет к жрецам, чтобы научиться геометрии, к халдеям в Вавилон. Кроме того, он общался и с гимнософистами в Индии и якобы побывал в Эфиопии. Демокрит с гордостью заявлял: «Я объездил больше земли, чем кто-либо из современных мне людей, подробнейшим образом исследуя ее; я видел больше, чем все другие, мужей и земель, и беседовал с наибольшим числом ученых людей» [6, с.181].

В период восточных завоеваний Александра Македонского «любознательные греки ознакомились с древней наукой вавилонян, а вместе с тем и с их старыми суевериями; точно так же ознакомились с дуализмом Зороастра и в меньшей степени с религией Индии, где буддизм приобретал первенствующее значение» [5, с.212].

Поход Александра на Восток содействовал формированию и развитию эллинистической культуры, которая по сути представляет смешение древнегреческой культуры с аборигенной культурой восточных стран. Этому способствовало основание городов на землях, завоеванных Александром Македонским: Малой Азии, Сирии, Египте, Вавилонии, Персии, Бактрии, Пенджабе и т.д. [5, с.212].

Таким образом смешение культур Запада и Востока происходило еще в период эллинизма (с III в. до н.э. до V в. н.э.). Так, например, зороастрийскую богиню Митру глубоко почитали не только в римской армии, но и в самом Риме. В результате получилось взаимовлияние культур греков и других народов. Так, например, древнегреческий писатель Диоген Лаэртский сообщает о скифском поэте-философе Анахарсисе, который часто бывал в Элладе, изучал местный язык, освоил народные традиции культуры, принял участие в народных праздниках. Одним словом полюбил эту страну [7, сс.95-96].[3]

В средневековье с распространением христианства в европейских странах, а ислама на Ближнем, Среднем и Дальнем Востоке, несмотря на противостояния этих религий, взаимосвязь и взаимовлияние в сфере культур между народами продолжались. В отличие от христианства и других религий, в исламе большое значение придавалось науке и научной деятельности с целью познания природы и общественной жизни. В то время как европейские страны переживали упадок науки и философии и «философия объявлялась служанкой религии» основатель ислама Мухаммед высоко ценил труды ученых и рекомендовал идти за знаниями даже в далекий Китай. Среди хадисов (высказывания пророка) имеются и такие: «Час занятий наукой имеет большее значение, чем молебен в течение суток»; «Чернила ученого превосходят кровь шехида (патриота)»; «Уважение к ученому было бы уважением ко мне»; «Ученые – это светила земного мира» [8, с.5-6].

Во многих аятах (абзацы) Корана рекомендуется приобрести способности к учебе, обдумыванию, мышлению и т.д., которые составляют основу разума и научной деятельности.

В результате всего этого формировалась мощная исламская культура и цивилизация, были переведены труды древнегреческих ученых и философов, что способствовало их сохранности и стало в дальнейшем важным фактором при формировании Европейского Ренессанса. «Халиф аль-Мамун даже основал канцелярию переводов (Дар эль-Хикма), откуда вышло большинство сочинений Аристотеля и Птолемея» [10, с.161]. Было переведено также много персидских и индийских книг. В результате «ислам стал

[3] Эта информация почерпнута из книги Э.Алибекзаде «Из истории духовной культуры азербайджанского народа» (на азерб. языке). Баку, Гянджлик, 1996.

средоточием азиатского и европейского знаний. Вследствие этого здесь влился в общий поток ряд новых изобретений, совершенно неизвестных и недоступных греческой и римской технологии. К ним относились изделия из стали, шелк, бумага, фарфор, в свою очередь, это создавало основу для дальнейших успехов, побудивших Запад к великой революции в науке и технике XVII и XVIII вв. В основном благодаря именно такой направленности интересов случилось то, что, когда знания арабов, в свою очередь, были заимствованы Западом, они вначале ограничивались естествознанием и философией» [10, с.161].

Ученые Запада неоднократно признавали значение трудов арабских ученых, переводивших труды античных философов и ученых на арабский язык и тем самым спасли их для человечества.

История науки свидетельствует о том, что арабоязычные мыслители и ученые наряду с теологией, внесли значительный вклад в развитие точных наук, что и является вкладом исламской культуры в сокровищницу мировой культуры. Математика, астрология, физика, химия, медицина, биология, география - вот те сферы науки, в которых арабоязычным ученым принадлежит особое место в истории науки. История, философия, социология, юриспруденция, литература и другие отрасли гуманитарных дисциплин также были сферами деятельности арабоязычных ученых и мыслителей. Центрами арабоязычной науки и культуры стали такие города, как Багдад, Кахира, Андалузия, Самарканд, Бухара, Стамбул.

Арабоязычная наука опиралась на достижения древнегреческой науки в философии, медицине, геометрии, астрономии, а у египтян была перенята анатомия и химия. Европейская наука и философия эпохи Возрождения опиралась наряду с античной наукой и философией и на достижения арабоязычной науки и философии, что было отмечено такими учеными Запада, как Дж.Бернал, И.Рислер, Виардо и др. Считается, что учителями математики Европейского Возрождения были арабоязычные ученые. Не только алгебра (в том числе термины - алгебра, алгоритм, алхимия, арабские числа от нуля до девяти), но и другие математические дисциплины восприняты Европой из них. Первую книгу по алгебре написал аль-Харазми. Тригонометрию обосновал арабский ученый-математик аль-Баттани (858 - 929). Первый серьезный труд по тригонометрии был создан Насраддином Туси (1201 - 1274). Формулу Бином внес в алгебру до Ньютона (1643 - 1727), известный поэт и ученый Омар Хайям (1048 - 1123). Дифференциальное исчисление до Ньютона найдено Сабитом бин Гирра (836 - 901). Он занимался теорией чисел и нашел правило получения пар натуральных чисел. Десятичную систему чисел нашел и на эту тему создал первый труд ученый Гияседдин Джамшид (? - 1429).

Астрономия была важной сферой занятий арабоязычных ученых. Почти в каждом крупном городе восточных стран была обсерватория. Достижения этих обсерваторий были путеводителем мира науки, источником вдохновения таких ученых Запада, как Коперник (1473 - 1543), Галилей (1564 - 1642) и т.д. По мнению И.Рислера, исламские астрономы повлияли на Европейское Возрождение так же как и в сфере математики. Исламские ученые-астрономы создали и усовершенствовали некоторые приборы для наблюдения космических объектов и явлений. Среди них были такие ученые, как Машаллах (740 - 815), Заргалин (1029 - 1087) и т.д.

Следует также отметить, что некоторые исламские ученые-астрономы, в частности аль-Бируни (973 - 1050), задолго до европейцев, знали о шарообразности Земли, о ее вращении вокруг своей оси и движении вокруг солнца. Труды аль-Фаргани (Алфраганус – IX в.) в течение 700 лет использовались как учебные пособия в Европе. Астрономические таблицы, составленные выдающимся ученым-астрономом аль-Баттани были приняты в Европе как основные еще до Коперника. Он же впервые исчислил солнечный год.

Всесильный властелин Улугбек (1394 - 1449) построил в Самарканде большую обсерваторию, посвятив себя астрономическим исследованиям (наряду с государственной деятельностью). Джабир бин Афлах (XII в.) создал аппарат-измеритель (Азимут) месторасположения звезд на 300 лет раньше немецкого астронома Иоганна Мюллера (1436 - 1476).

На востоке медицина как и математика и астрономия имеет древнеисторические корни. В качестве примера можно привести «Канон» Ибн Сины (980 - 1037), который являлся настольной книгой врачебной практики средневековой в Европе и в течение 600 лет использовался в университетах как учебное пособие. По мнению некоторых специалистов, Рази (в Европе его называли Разес) (864 - 925) как врач тоже был на уровне Ибн Сины, его работы были переведены на латинский язык и сыграли большую роль на Западе [14, с.34]. Арабский ученый Ибн Нафс впервые открыл систему малого кровообращения (за 300 лет до европейцев). Медицинские факультеты европейских университетов XI - XII в.в. не могли способствовать быстрому прогрессу медицины, так как были во власти схоластики [13, с.563 - 564].

В средневековье в странах Ближнего Востока и Средней Азии имели место определенные достижения и в областях физики, химии и т.д. В «Большой Советской Энциклопедии» (т.27) отсутствует информация о развитии физики после Аристотеля вплоть до Галилея. Видимо, это объясняется незнанием истории арабоязычной науки и культуры. А ведь именно в этот период выдающийся физик Ахмед бин Муса (? - ?) в своем труде «Необыкновенные системы» приводит около ста рисунков аппаратов автоматического контроля. Ученый «Абил Исмаил аль-Сазари (? - 1206) в труде «Китабил-Хиял» изложил основы кибернетики. Основателем науки оптики был Ибн Хейсам (965 - 1051). Его труд «Книга о видимостях» в течение 600 лет являлся основным источником знаний в этой области науки.

Формулу закона отражения света в сферических зеркалах создал аль- Хазан. Абу Наср Фараби (870 - 950) дал физическое объяснение звука, Ибн Гарра (? - 1010) впервые изобрёл токарный станок. Первый опыт полета осуществил Ахмед Чалаби (XVII в.), приспособляя орлиные крылья.

Проблемой земного притяжения до Ньютона занимались арабские ученые Абу ар-Рази, аль-Хазини и др. Аль-Хазини в своем труде «Мизанул-Хикмет» привел сведения о весах и вычислил удельный вес некоторых веществ. Бируни определил удельный вес 18 веществ и плотность воды. Впервые об атоме как источнике мощной энергии и о его взрывоопасности высказался Джабир бин Хайян (пр. 721 - 815), известный под псевдонимом «отца химии».

Известно, что производство бумаги и книгопечатание впервые произошло на Востоке. Порох и пушку также открыли ближневосточные ученые. Миномет создал Султан Мухаммед Фатех (1432 - 1481). Первая ракета также была сделана в этот период.

«Отец химии» Джабир бин Хайян был знаменитым химиком. В результате проведенных лабораторных опытов он открыл структуру некоторых кислот. Выдающийся врач Абу ар-Рази одновременно был крупным химиком. Он получил серную кислоту и чистый спирт (алкоголь - алкухул). Другой химик Башир открыл фосфор намного раньше, чем европейский ученый Брандт. Альберт фон Больштед и Роджер Бекон, следуя арабским химикам, рассматривали алхимию как экспериментальную науку [9, с.279].

Арабоязычные ученые внесли определенный вклад также в развитие ботаники, зоологии, фармакологии. Крупный ученый ботаник и фармаколог Ибн Байтар (1190 - 1248) в своих трудах, которые были основным источником до XVI в., описал около 1400 видов растений и лекарств. Ученый Дамири (1349 - 1405) своим трудом намного обогатил

зоологию, изучив и описав 1069 видов фауны. Ибн Аввам (XII в.) получил известность благодаря своему труду по вопросам сельского хозяйства.

Арабоязычные ученые большое значение придавали и таким наукам, как история, география. Они создали более 2000 фундаментальных трудов в этих областях. Историки Табари (828 или 839 - 923), Масуди (конец IX в. и 956 или 957), Захаби (1274 - 1348), Абил Фида (1273 - 1331), Рашидаддин, Ибн Халдун (1332 - 1406), Мирхонд (1433 - 1498), Хондамир (1475 - 1535) (17).

Огромный вклад в средневековую арабоязычную науку и философию внесли азербайджанские ученые и философы. Хатиб Табризи, Бахманйяр, Шихабеддин Сухраверди, Айн ал-Кузат Миянеджи, Насираддин Туси, Сафиаддин Урмави, Шабустари и др.

После завоевания арабами Пирнейского полуострова - Испании в 711 – 714 г.г., создались условия для распространения достижений арабоязычной науки и философии в Западной Европе. Испания на столетия попала под арабское владычество. Несмотря на то, что население подвергалось жестокому гнету и религиозным притеснениям, экономика и культура переживали значительный подъем. Столица арабского государства Кордова, образовавшаяся в 756 г. была крупнейшим торгово-ремесленным и культурным центром не только в Испании, но и во всей Западной Европе. Молодежь европейских стран стекалась на учебу в Кордову [12, с.160].

Арабская культура оказала значительное влияние на Западную Европу [12, с.161]. С арабского языка на латинский язык были переведены труды не только арабских, но и древнегреческих ученых. В арабских университетах обучались выходцы из западноевропейских стран. Они же играли определенную роль в распространении достижений арабоязычной науки в Западной Европе. В городе Толедо уже в X в. начали производить бумагу. Большой подъем переживали города [9, сс.269-270]. В Кордове Севилье, Малаге, Гренаде были созданы сильные переводческие центры, в которых переводили труды арабоязычных и античных ученых.

В распространении арабоязычной науки в Западной Европе непосредственное участие приняли и такие арабские ученые и философы, как Ибн Баджа (конец XI в. - 1139), Ибн Туфайль (начало XII в. – 1185 - 1186) и Ибн Рушд (лат. транскрипция - Аверроэс) (1126 - 1198). Они жили и творили в Кордове. Высоко оценивая роль и значение распространения достижений арабоязычной науки в Западной Европе, выдающийся историк науки Джон Бернал отметил: «Эти ученые смогли расшевелить узкие рамки греческой математики, астрономии и медицины и тем самым создали основы алгебры, тригонометрии, оптики, химии» [10, с.735].

Распространение арабоязычной науки в Западной Европе стимулировало стремление к научному познанию, расшатывало устои религиозного мировоззрения и в конечном итоге привело к формированию нового мировоззрения, а в дальнейшем к реформаторству и возрождению новой культуры и гуманизма.

Новым этапом во взаимосвязи и взаимовлиянии между народами и регионами оказалась эпоха Просвещения – идейное движение XVII – XVIII вв. в Западной Европе. Оно было вызвано на историческую арену жизнью, с исторической необходимостью коренного преобразования общественных отношений путем распространения образования и культуры среди широчайших кругов населения. Оно было по сути антифеодальной идеологией. Наиболее выдающимися просветителями XVIII в. были мыслители французского Просвещения Ш.Монтескье, Вольтер, Ж.Ж.Руссо, Д.Д.Дидро, К.А.Гельвеций, П.А.Гольбах, в Англии Дж.Локк, в Германии П.Лессинг, Ф.Шиллер, И.Гете и др. Они отрицали сословные привилегии, вмешательство церкви в политическую жизнь государства, феодальную систему как таковую, выдвигали концепцию равенства для

всех людей. Идеи Европейского Просвещения дошли до России и Закавказья, в том числе и до Азербайджана в XIX в. Из выдающихся азербайджанских просветителей того времени, следует отметить А.Бакиханова, М.Ф.Ахундова, Г.Б.Зардаби и др. Их деятельность в этом направлении была продолжена в конце XIX и в начале XX в. со стороны С.А.Ширвани, Н.Б.Везирова, А.Ахвердиева, Н.Нариманова, С.М.Ганизаде, Р.Эфендиева и др. Они первыми заронили в общественном сознании идеи исторического прогресса, равенства, свободы, социальной справедливости, …подняли знамя борьбы с политическим и духовным деспотизмом» [11, с.76].

После распада колониальной системы в 50-х годах XX в. и возрождения и развития экономики восточных стран (Япония, Китай, Индия и т.п.) устарела идея противопоставления Запада Востоку, потерпела крах идеология европоцентризма. Возникла идея нового подхода к Востоку и вместе с тем сотрудничества с восточными странами, стали формироваться новые экономические, политические и культурные связи между Западом и Востоком. С установлением нового отношения к Востоку возник новый этап изучения сокровищницы древневосточной культуры. Было общепризнано, что всемирная цивилизация началась с Востока. Об этом заявил выдающийся западный историк С.Крамер в книге «История начинается с Шумера».

В наше время происходит процесс выхода из кризиса Европейской цивилизации (Ф.Фукуяма. «Великий разрыв») путем великого диалога культур. Этот процесс в состоянии смыть «различия религий» (Хангтингтон). Исламская толерантность к основным религиям мира открывает светлые перспективы к единению общечеловеческого сознания, общечеловеческого содержания всех культур и цивилизаций. «Нынешнюю эпоху, с нашей точки зрения, следует назвать переходным периодом: от Великого противостояния к Мировой Системе» [14, с.396].

Азербайджан находится на пути развития экономики и освоения демократии на основе принципа верховенства закона и свободы личности. «Указанные ценности составляют основу западноевропейской модели модернизации» [15, с.133]. «Однако, потеря национальной самобытности, вековых традиций стала бы пагубной для Азербайджана, да и, пожалуй, для всего мира. Смысл процессов модернизации и глобализации именно в том, чтобы единство не препятствовало культурному многообразию» [14, с.398].

Итак, продолжается великий диалог культур между Западом и Востоком.

Ключевые слова: диалог, культура, Восток, Запад, цивилизация, наука, арабоязычные учёные, современность.

Список использованной литературы:

1. Хантингтон С. Столкновение цивилизаций. М., Акт, 2006.
2. АСЕ. Т.I. Баку, 1976.
3. Гегель Г.В.Ф. Энциклопедия философских наук. Т.3.
4. Гете. Западно-восточный диван. М., Наука, 1988.
5. Бертран Р. История западной философии. М., Академ.проект, 2000.
6. Чанышев А.Н. Курс лекций по древней философии. М., Высшая школа, 1981.
7. Диоген Лаэртский. О жизни, учениках и изречениях знаменитых философов. М., Мысль, 1979.
8. 101 хадис. Высказывания Хазрата Мухаммеда, (на азерб.яз.), Баку, Гянджлик, 1990.
9. История средних веков. (Под ред. Н.Ф.Колесниченко), М., Просвещение, 1980.
10. Бернал Дж. Наука в истории общества. М., Иностранная литература, 1956.

11. Ахмедов Э.М. Философия азербайджанского Просвещения. Баку, Азерб.гос.изд-во, 1983.
12. БСЭ. Т.XV. М., 1974.
13. Бируни. (сб. статей под ред. С.П.Толстого). М.,- Л., АН СССР, 1950.
14. Гасанов Г. Цель истории. Баку, Элм, 2004.
15. Наджафов Э.А. Соотношение культуры и цивилизации в общественном развитии. Изд.-во Университета «Азербайджан». Баку, 2000.
16. Сорокин П. Человек, цивилизация, общество. М., 1992.
17. Məmmədəliyev V. Quran və elm. Bakı, 2002.

Adil AXUNDOV

MƏDƏNİYYƏTLƏRİN DİALOQU: QƏRBLƏ ŞƏRQ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ VARİSLİK

Xülasə

Tədqiqatlar göstərir ki, xalqlar arasında mədəni əlaqələr qədim tarixə malikdir. Antik dövrdə yunan filosofları (Fales, Heraklit, Demokrit və b.) Şərq ölkələrinə (Misir, Babilistan, İran və s.) gedərək oradakı elmi, fəlsəfi bilik nailiyyətlərini məniməsəklə özləri klassik elm və fəlsəfə məktəbi yaratmışlar. Orta əsrlərdə antik yunan elm və fəlsəfəsinə əsaslanan ərəbdilli yeni elm və fəlsəfə təşəkkül tapmışdır. Renessans dövründə Avropa alimləri antik elm və fəlsəfə ilə yanaşı ərəbdilli elm və fəlsəfənin nailiyyətlərindən də istifadə etmişlər. Yeni dövr Avropa maarifçilik hərəkatından (Didro, Volter, Russo və b.) bütün Avrasiya ölkələri bəhrələnmişlər.

Qloballaşma prosesi Qərb və Şərq qarşılıqlı mədəniyyət dialoqunu intensivləşdirməklə, perspektivli modernləşməyə təkan verir, bu isə meqacəmiyyətin formalaşmasına doğru aparmaqdadır.

Açar sözlər: dialoq, mədəniyyət, Şərq, Qərb, sivilizasiya, elm, ərəbdilli alimlər, müasirlik.

Adil AKHUNDOV

INTERCULTURAL DIALOGUE: ON SUCCESSION IN THE SPHERE OF CULTURE BETWEEN WEST AND EAST

Summary

The researches show that the cultural relations among the peoples trace back to the ancient times. In antique period the Greek philosophers (Phales, Heraclitus, Democritus and oth.) on visiting the eastern countries (Egypt, Babylon, Iran and etc.) mastered achievement in science and philosophical knowledge there, and later on established their classical science and philosophical school themselves. In the Middle Ages Arabic-speaking scientists began to develop a new science and philosophy, grounding on antique greek science and philosophy. In epoch of Renaissance the European scientists were using the Arabic-language science and philosophy achievements alongside with antique science and philosophy. All the countries of Euroasia used the enlightenment movement of a new period in Europe (Diderot, Voltaire, Russeau and oth.).

Globalization process gave an impulse to incentive, reciprocal cultural dialogue between West and East, perspective modernization, and this leads to formation of a megasociety.

Keywords: dialogue, culture, East, West, civilization, science, Arabic-speaking scientists,

contemporaneity.

UOT 1:002.6

Ziba AĞAYEVA
AMEA FSHİ, b.e.i., fəlsəfə üzrə f.d.

QLOBAL İNFORMASİYA CƏMİYYƏTİNİN YENİ ANTROPOLOJİ REALLIĞI*

Bəşər tarixində baş verən istənilən miqyaslı dəyişikliklər yalnız iqtisadi, sosial, mədəni reallığı deyil, bütün bunların səbəbkarı qismində çıxış edən antropoloji reallığı da transformasiyaya uğradır. İnsanların həyat tərzi, dünyagörüşü, münasibətləri, tələbatları, təsəvvürləri bu reallığın təsirinə məruz qalır. Həmin təsirin müsbət və ya mənfi nəticələri, başlanğıc səbəbləri, mümkün inkişaf perspektivləri ictimai elmin diqqət mərkəzindədir. İnsan amilinin müasir dövrdə tərəqqinin həlledici qüvvəsi kimi çıxış etdiyini nəzərə alsaq, bu məsələnin nə qədər aktual olduğunu dərk etmək olar. Çünki son nəticədə cəmiyyətin rifahı individual fəallıqdan, sosial təşəbbüsdən asılı olur. Hər bir fəaliyyət də, bütövlükdə bəşəriyyətin firavan gələcəyi də bu amillərlə sıx bağlıdır .

Qloballaşma və informasiya cəmiyyətinin antropoloji reallığı hələlik ilkin təhlil mərhələsindədir. Bu reallıq tarixdə indiyə qədər baş verən dəyişikliklərlə müqayisədə o qədər sürətli, çoxşaxəli, fövqəlmürəkkəb dinamikaya uğramışdır ki, onun birmənalı, bitkin səciyələndirilməsinə hələlik nail olunmamışdır. Hər gün yaranan yeri-yeni təzahür və meylləri də nəzərə alsaq müasir insanın mənəvi-fəlsəfi portretinin müəyyənləşdirilməsinin çətin olduğu qədər də taleyüklü, zəruri məsələ olduğunu görmək olar.

XIX və XX yüzilliklərin bir birini əvəzləməsi dönəmində olduğu kimi XXI əsrin gəlişi də insan, bəşəriyyət, onun real vəziyyəti və gələcək perspektivləri barədə deyilən qənaətlər, ümumilikdə pessimizm məzmunlu proqnozlar kimi qiymətləndirilə bilər. A.Şopenhauerlə F.Nitşe ilə başlayan «qürub» fəlsfəsi XX əsrin sonu, XXI əsrin əvvəllərində də analoji ovqatı xatırladır. Bunun inkaredilməz sübutu, əsası kimi «bəşəriyyətin qlobal problemləri» adlanan ziddiyyətlərin dünyanı təhdid etməsini göstərmək olar. Qlobal problemlərin yarım əsrdən bir qədər çox tədqiqinin gedişi onların günahkarını və eynu zamanda qurbanını - insanı tam kəskinliyi ilə elmi mübahisələrin mərkəzinə gətirdi. Demək olar ki, bütün elmlərin predmeti kimi təhlil olunan insan bu müzakirə və tədqiqatların işığında Maks Şelerin dediyi kimi çox «problemli» görünür.

Qloballaşma və informasiya cəmiyyətinin insana, onun dünyagörüşünə təsiri barədə fikirlər, şərhlər çox müxtəlif, ziddiyyətli xarakter daşıyır. Bəziləri sivilizasiyanın qədəm qoyduğu yeni cəmiyyəti «firavanlıq», «rifah» cəmiyyəti kimi, bəziləri isə V.Nitşenin «Allah ölüb» şüarına rəğmən, «İnsan ölüb» şüarını irəli sürməklə bu sözün ifadə etdiyi firavanlıqdan əsər-əlamət qalmadığı fikrindədirlər. Qloballaşma və informasiya cəmiyyətinin insan varlığı üçün gətirdiyi yeni, fərqli şərait və şərtlərin özünü nədə göstərməsini qısa diqqət mərkəzinə gətirək. Bu baxımdan təhlilimizi iki əsas məqam üzərində aparmağı məqsədəuyğun hesab edirik:

1) Qloballaşma və informasiya cəmiyyəti modelinə qədəm qoyan sivilizasiyanın antropoloji reallığında nə kimi dəyişikliklər baş vermişdir?

2) XXI əsrin insanını səciyyələndirən hansı konsepsiyalar mövcuddur? İnformasiya erasının ekzistensial ziddiyyəti özünü nədə biruzə verir? Fikrimizcə bu məsələlərə aydınlıq gətirilməsi nəinki mövzumuz kontekstində aktualdır, həm də qlobal informasiya cəmiyyətinin mahiyyətinin başa düşülməsinə məhz bu problemlərin düzgün təhlili və həllindən bilavasitə asılıdır.

Son illərdə qloballaşma problemi ən çox tədqiq edilən mövzuya çevrilmiş, onun izahı birmənalı ifadəsini hələlik tapmamışdır. Qloballaşma bəzən onun çoxsaylı təzahürlərinin bir istiqaməti kimi - ekoloji, iqtisadi, demoqrafik başa düşülür. Bəzən vahid dünya bazarının

* Məqalə f.e.d. R.Mirzəzadə tərəfindən çapa məsləhət bilinib.

formalaşması kimi səciyyələndirilir. Əksər tədqiqatlarda rast gəlinən bir ümumi mövqe də vardır ki, bu da qloballaşmanın vahid informasiya məkanını formalaşdıraraq, insanlar və dövlətlərarası əlaqələrin ən intensiv, yüksək templə gedişini təmin etməsi kimi aspektidir.

Qlobal qarşılıqlı əlaqə və asılılıq özünün ən yüksək həddinə çatmışdır. Bunları təmin edən isə ən müasir informasiya - telekommunikasiya vasitələridir. Bizim diqqətimiz məhz bu aspektin - informasiya cəmiyyətinin qlobal kommunikasiya məkanı kimi mövcudluğunu şərtləndirməsi cəlb edir. Yəni total kommunikasiya məkanı insanlararası münasibətlərə hansı məzmunlu dəyişikliklər gətirmişdir?

Bütövlükdə qloballaşmanın mənəvi konteksti özünü nədə göstərir? Ümumiyyətlə mənəvi həyatın qloballaşması mümkündürmü və bu insan varlığının mahiyyətinə uyğun prosesdirmi?

Bəşəriyyət bu gün labud olaraq informasiya erasına qədəm qoyur. İnformasiya iqtisadiyyatının xüsusi çəkisi daim artmaqdadır. İnkişaf etmiş ölkələrdə iş vaxtında onun ümumi payı 50-70% təşkil edir. Hər hansı bir ölkənin postindustrial və tədricən informasiya cəmiyyətinə keçid almasını müəyyən edən meyarlar mövcuddur. Onlardan biri əhalinin xidmət sferasında məşğulluq faizinin nisbətidir:

«- əgər cəmiyyətdə əhalinin 50 % xidmət sahəsində məşğuldursa, onda cəmiyyət postindustrial inkişaf mərhələsinə qədəm qoymuşdur;

- əgər cəmiyyətdə əhalinin 60 % çoxu informasiya xidməti sferasında məşğuldursa, onda informasiya cəmiyyətindən danışmaq olar». (1; 17-18)

Maraqlıdır ki, bu meyara əsasən ABŞ öz inkişafında postindustrial eraya 1956-cı ildə (Kaliforniya ştatı hətta 1910-cu ildə), informasiya cəmiyyəti erasına isə 1974-cü ildə qədəm qoymuşdur.

Müasir informasiya inqilabı birinci deyil, beşinci və altıncı hesab olunur. Nitqin, yazının, kitabın, radio və televiziyanın kəşvindən sonra sırada beşinci olan multimedia, komputer və İnternet bu gün altıncı nəsil informasiya inqilabının astanasındadır. İnsanın ən müxtəlif mənbəli informasiyanı toplamaq, saxlamaq, ötürmək və yaratmaq imkanlarını fövqəladə səviyyəyə çatdıraraq, informasiya inqilabı cəmiyyətin bütün səviyyələrinə nüfuz etmiş, insanı məişətdən tutmuş, işdə və asudə vaxta qədər hər yerdə əhatə edir. Multimedianın imkanları informasiyanın dialoq və kommunikasiya rejimində transformasiyasını, qəbul edilməsini təmin etməklə, yeni - virtual aləmi yaratmağı və burada insanın mövcudluğunu şərtləndirmişdir. İnformasiya inqilabı miqyas və imkanlarına görə özündən əvvəlki dörd kommunikasiya məkanı ilə heç cür müqayisə oluna bilməz, dəfələrlə onlardan üstün və əhəmiyyətlidir. Lakin bu müqayisə yeni inqilabın nəticələrinə də tətbiq edilərsə deməliyik: insana göstərdiyi mümkün sosial-mənəvi humanitar nəticələrinə görə də bu inqilab əvvəlkilərlə heç müqayisə oluna bilməz!

«Postindustrial cəmiyyət» nəzəriyyəsinin müəllifi Deniyel Bellə görə onun başlıca xüsusiyyətləri aşağıdakılardır:

- texnoloji kəşvlərin əsası olan nəzəri biliyin mərkəzi yer tutması;
- yeni inteqral texnologiyalarının yaradılması;
- bilik daşıyıcısı olan, biliyi təmsil edən təbəqə və qurumların sayının durmadan artması;
- mallar istehsalından xidmətlər istehsalına (sferasına) keçid;
- əməyin xarakterinin dəyişməsi (maddi əmək predmetlərinin sıxışdırılıb çıxarılması);
- qadınların rolu və fəallığının yüksəlməsi;
- elmi kəşflərin tətbiqi sürətinin minimuma endirilməsi;
- insanların mialik olduğu bilik və təhsil səviyyəsinə görə irəliləmək imkanı və nüfuzunun artması – meritokratiya;
- mal-əmtəə qıtlığının əvəzinə, vaxt-zaman qıtlığının gəlməsi;
- informasiya iqtisadiyyatının formalaşması». (2; 52)

Postindustrial cəmiyyət nəzəriyyəsi digər qərb alimlərinin: J.Helbreyt, J.Martin, İ.Masuda, O.Toffler, C.Furastye və s. əsərlərində geniş tədqiq edilmişdir. İnformasiya cəmiyyətinin «xidmət

edən sivilizasiya» kimi səciyyələndirilməsi C.Furastyeyə aiddir. Hansı cəmiyyətin informasiyalı cəmiyyət hesab edilməsinə dair ölkəmizdə də tədqiqatlar aparılır. Onların gəldiyi nəticəni ümumiləşdirsək informasiya cəmiyyətinin əsas əlamətlərinə dair qənaətləri belə ümumiləşdirmək olar:

- insan həyat və fəaliyyəti üçun zəruri olan istənilən inormasiyanı, istənilən vaxt və istənilən yerdə ala bilir;
- cəmiyyətdə müasir informasiya – kommunikasiya texnologiyaları tətbiq edilir;
- bütün istehsal və idarəetmə sferalarının sürətlə informasiyalaşma prosesi baş verir;
- sosial-humanitar sahələrdə bunun nəticəsi olaraq radikal dəyişikliklər baş verir.

Qloballaşma və informasiya cəmiyyətinin təhlilinə yanaşmada mövcud olan tədqiqatları bu cür qruplaşdırmaq olar:

1. Texnokratik yanaşma – informasiya texnologiyalarının cəmiyyətin inkişafı və əmək məhsuldarlığının artmasına təsirinin təhlili;
2. Humanitar yanaşma – informasiya inqilabının insan həyatına, onun varlığına təsiri və nəticələrinin öyrənilməsi;
3. Texno-humanitar – hər iki aspektin əlaqəli tədqiqinə yer verən əsərlər;

İnformasiya cəmiyyəti yeni həyat tərzini formalaşdırır. «Həyat tərzi» dedikdə məlum oluğu kimi insanın; əmək, ictimai-siyasi, sosial-mədəni, təhsil, məişət və asudə vaxt kimi fəaliyyət formaları başa düşülür. İnformasiyalı həyat tərzi odur ki, insan dörd tərəfdən kommunikasiya texnologiyaları ilə əhatə olunmuşdur. Bu məkanda sosial-fərdi kommunikasiyanın yeni növü – kağızın tətbiq edilmədiyi kompüter (elektron) fazası başlanğıcını götürür.

İnformasiya kommunikasiyasının – elektron dialoqun şəxsiyyətlərarası şifahi dialoqdan başlıca fərqi yalnız onun ekran vasitəsi ilə getməsi deyil, insanın canlı insanla üz-üzə deyil, elektron yaddaşla ünsiyyəti faktıdır.

İnsanın insanla bilavasitə, yaxud yazılı sənədlə apardığı dialoqdan fərqli olaraq, burada «insan-elektron» dialoqundan söhbət gedir. Digər məsələ budur ki, insanın əhatəsində və dünyada gedən prosesləri barədə məlumat almaq üçün bilavasitə ünsiyyətə ehtiyacı qalmır. İnsanlararası ünsiyyətin mütləq zəruriliyi arxa plana gedir. Bunun nəticəsində insanın cəmiyyətdən təcrid olunması, atomlaşması baş verir, müstəqil olması illüziyası yaranır. Məhz buna görə də informasiya inqilabının gətirdiyi mühüm müsbət nəticələrlə yanaşı onun özündə daşıdığı potensial ziddiyyət və təhlükə daha çox diqqəti cəlb etməlidir. Bunun narahatlıq doğurması bir çox səbəblərdən irəli gəlir. Qlobal texnoloji industriyanın insan üzərində hökmranlıq etməsi, onun reallıqdan uzaqlaşaraq virtual aləmə «qeyb olması», çətinliklərin həll yolunu məhz burada aparması ilk belə səbəblərdəndir.

Məşhur təbiətşünas alim N.Moiseyev bu aspekti vurğulayaraq yazırdı: «Təsəvvür edin ki, artıq yaradılmış və hər gün daha da güclənən nəhəng informasiya sistemi günlərin bir günü həyatdan bezmiş, hər şeyə biganə olan bir neçə insanın əlinə keçə bilər. Bunun nəticələrini göz önünə gətirmək çətin deyil – bu milyardlarla adamın hansısa yeni elektron oyun oynamaq, şablon hərəkətlər etmək vərdişindən irəli gələn, hər şeyə növbəti əyləncə kimi baxaraq, dəyərlər anlayışını unudan bir qrupu girovuna çevrilməsi deməkdir. Belə vəziyyətdə bəşəriyyətin qlobal zombiləşməsi (şüuru asanlıqla manipulyasiya edilən, öz «məni» olmayan insana çevrilməsi – Z.A.) baş verə bilər. Bu ən geniş informasiya totalitarizmi – bəşəriyyətə məlum olan totalitarizm növlərindən ən dəhşətlisi olacaq… Bu özünəməxsus intellektual genosid olacaq». (3; 85)

İnformasiya inqilabının problemləri özünü bütün sahələrdə göstərir. İqtisadiyyatda güclü monopoliyalar, transmilli korporasiyalar yaranır. Sonsuz sərvət, hakimiyyət əldə etməklə bərabər, informasiya oliqarxiyasını yaradırlar. Siyasi sahədə informasiya kommunikasiya texnologiyaları (İKT) ictimai rəyi manipulyasiya etmək, onu istənilən istiqamətə yönəltmək vasitəsinə çevrilir. Həmçinin siyasi sabitliyin pozulması, gərginliyin yaradılması məqsədi ilə də tətbiq oluna bilər.

İKT-larının təhlükəli sosial-mənəvi nəticələri özünü ən çox humanitar sferada, insan həyatında göstərir. Bunun fərqi ilk növbədə daha az gözə çarpmasında, lakin perspektivləri baxımından daha dərin və uzunmüddətli olmasındadır. Xüsusilə də gənc nəslin formalaşmasına onların təsiri çox genişdir. Onlar bəzən bütün günü kompüter oyunları, yaxud özlərinə xoş gələn subyektləri izləyərək, insanlarla canlı ünsiyyətdən kənarda qalırlar. Antimədəniyyət adlanan zorakılıq, qətl, dəhşət filmləri müşahidə edərək ekranın əlavəsinə çevrilirlər. Bu da öz növbəsində əsrlərlə formalaşan ənənəvi dəyərlər sisteminin çökməsinə, ondan inkar edilməsinə, ideala dair təsəvürlərin yox olmasına gətirib çıxarır. İnsanın varlığında təməl rolunu oynayan mənəvi aləm böyük təzyiqə məruz qalır. Bir tədqiqatçının uğurlu müqayisəsində olduğu kimi İKT-ların insana həm müsbət təsiri baxımında atom bombası kimi güclü, həm də mənfi nəticələrinə görə onun qədər qorxulu silahı sayıla bilər.

Mövcud mənfi meyllərdən biri də ən müasir informasiya resurslarının sivilizasiya və ölkələr arasında son dərəcə qeyri-bərabər paylanmasıdır. Belə ki, İKT-larının ən yüksək inkişaf etdiyi ölkələr ondan məhz öz siyasət, mədəniyyət və həyat tərzini yaymaq vasitəsi kimi istifadə edir, birtərəfli informasiya axınını hər vəchlə təmin edirlər.

Bütün bunların nəticəsində, fikrimizcə, informasiya cəmiyyətində insan varlığının başlıca ekzistensial ziddiyyəti formalaşır və getdikcə dərinləşir.

Bu ziddiyət özünü nədə göstərir? Hər şeydən əvvəl, qeyd etdik ki, insan mahiyyətcə bütöv varlıqdır. Onun bioloji, sosial, mənəvi-psixoloji strukturu, dünyagörüşü vəhdət təşkil etməlidir. Onun yüksək elmi, biliyi ilə yanaşı, mənəviyyatı, dəyərlər sistemi də bir-birini tamamlamalıdır. Çünki insanı insan edən ilk növbədə onun mənəviyyatıdır. Müasir fəlsəfi fikir İKT-rının təzyiqi altında bütöv şəxsiyyətin formalaşa bilməməsi probleminin mövcudluğunu təsdiq edirlər. İnformasiya cəmiyyətinin adamı sabit dayaq nöqtəsindən məhrum, informasiya axını məkanlarının birindən digərinə «köç edən», «süzən» şüura malik subyektdir. Nomadik (latınca «nomad» - «köçəri») şüurun daşıyıcısı virtual antropoloji reallığa maksimum uyğunlaşma imkanlarına malikdir. Onun bütün diqqəti bu məkana yönəldiyi üçün texnoloji-informasiya məzmununu zənginləşdirməklə paralel olaraq, analoji (dəyərlər) baxımından laqeydlik nümayiş etdirir.

Öz növbəsində bunun da məntiqi nəticəsi kimi, şüur və dünyagörüşün vəhdəti, bütövlüyü pozulur. Müasir insanın fraqmentar – natamam, alayarımçıq şüuru formalaşır. Bir tərəfdən insan öz «mən»ini, identikliyini təmin etmək istəyir, digər tərəfdən informasiyalı cəmiyyətin reallığı buna imkan vermir. Əksinə, daxili aləmin fraqmentarlığını hər gün dərinləşdirən vasitələrə geniş yer verilir. Nəticədə, insan mövcudluğunun elmi, mədəni, mənəvi, dünyagörüş parametrlərinin bir nöqtədə cəmləyə, inteqral vəhdətini təmin edə bilmir.

Dünya ilə vəhdətin zəifləməsi, şüurun parçalanmasının kəskin təzahürləri tarix boyu bütün keçid mərhələlərində mövcud olmuşdur. Müasir informasiya cəmiyyətinin imkanları bunu daha miqyaslı və dərin problemə çevirməklə zamanın ekzistensial ziddiyyətinə çevirmişdir. İKT-nın inkişafı insan varlığının səthi, dayaz inkişafını nə qədər genişləndirsə də, onu dərinliklərdən, dayaqlardan məhrum edir. Sosial varlıq kimi eklektizmi, fərdi varlıq kimi mənəvi aləminin fraqmentasiyasını şərtləndirir. Daim yeniləşmək, texniki baxımdan faydalı kəşflərin fasiləsiz mənimsənilməsi zərurəti mexaniki təlim-tədris prosesinə təkan verir. Məlumatınının sürətindən tez işlənməsinə imkan verən kompüterdən geri qalmamaq üçün insan yaratdığı maşınla rəqabətə girir. Onu tətbiq edənə qədər bu bilik köhnəlir. Tədris prosesi yorucu, mexaniki mənimsəmə effekti kəsb edərək intuitiv, eydetik (düşündürən) təfəkkür tərzini unudur. İlluzorluğu sezilməyən təhsilli, elmli olmaq meyarları, standartları intellekti birtərəfli inkişaf etdirir. Düşüncə, zəka qabiliyyətini insanlar yadırğayırlar.

Dünyagörüşdə texnoloji determinizm mövqeyi hökmranlıq edir. Cəmiyyətin istənilən sferası texnoloji sahə kimi (sosial texnologiya, siyasi texnologiya, mədəni texnologiya və s.) qəbul və şərh edilir. İnsan bu texnoloji sistemin bir hissəsi, əlavəsi kimi təsəvvür edilir. Bir insan nəsli-

nin ömrü müddətində texnologiyanın bir neçə dəfə dəyişməsi onun uyğunlaşmasını çətinləşdirir. Buna fiziki və mənəvi baxımdan, vaxt amili səbəbindən nail olmadıqda özünə inamı itirir, uğursuzluq sindromu formalaşdırır.

İnformasiya cəmiyyətində yaşayan insanı konseptual səciyyələndirməyə çoxlu cəhdlər edilir. Bunlar «avtonom, individuallaşmış insan», «öz-özünü yaradan insan (self-made-man)», «virtual insan», «insan yoxdur, yaşasın virtual obyekt», «matrisa-insan», «homo informaticus», «yarı adam – yarı kompüter – simbioz», «atomlaşmış insan», «dividuum insan» («yəni individ deyil»), «post insan», «homo currens» («qaçan insan») və s. və i.a. konsepsiyalarda öz əksini tapmışdır.

Bu baxışların formalaşmasında təbii ki, qloballaşma prosesi çox böyük təsir göstərmişdir. Ən müqəddəs sayılan mənəvi həyatın da qloballaşması meyli özünün ilk mənfi cəhətlərini göstərməkdədir. Bu hər şeydən əvvəl mənəvi sferanın, dəyərlər sisteminin universallaşdırılması və unifikasiya edilməsi meylidir. Mənəvi həyatın qloballaşması meylləri bəşər tarixinin müxtəlif mərhələlərində həmişə özünü göstərmişdir. Ölkələr arasında xalqlar qarşılıqlı təsir və bəhrələnmə məqsədi ilə mifoloji, fəlsəfi, dini baxışlar sistemi geniş yayılmış, bir ölkədən digərinə ötürülmüşdür. Lakin bu dəyərlər sistemi ümumi cəhətlərlə bərabər fərqli cəhətləri də həmişə saxlanmışdır.

Müasir qlobal informasiya erası tamamilə fərqlidir. Burada texnoloji imkanların üstünlüyünü təmin edən ölkə mədəni-mənəvi dəyərlərini bütün dünyaya qəbul etdirmək istəyir. Bu da özünü asimilyasiya meylində göstərir.

Mənəvi aləmin tənəzzülünü şərtləndirən ən qorxulu hadisə kimi nihilizmin formalaşması təhlükəsi yaranır. Qloballaşmaya məruz qalan insanın, xalqın, dövlətin varlığının mühafizə olunması bu məsələnin bütün ciddiliyi ilə təhlilini tələb edir. İnformasiya rəqabətində qərb sivilizasiyasının liderlik etməsi və onun nəticələri düşündürücüdür.

Qlobal informasiya cəmiyyətinin başlıca mənfi meyllərindən biri humanitar, mənəvi-sosial sahədə getdikcə artan individuallaşma prosesidir. Onun mahiyyəti insanı öz mühiti, başqaları, cəmiyyət və dünya ilə bağlayan davranış normalarının dəyərlər sitemini, dünyagörüşünü təmin edən kompleks əlaqə və tellərin hədsiz zəifləməsi, yox olmasıdır. İndividuallaşma inkişaf etmiş Qərb ölkələrində xüsusilə yüksək həddə çatmışdır. İndividualizm dünyagörüşündə ən ali dəyər-fərdin öz maraqlarıdır. Şəxsi uğur hər şeydən vacibdir. İndividualist ünsiyyətə çan atmır, «başı özünə qarışıqdır».

İndividuallaşmış şəxsiyyət və cəmiyyət problemi müasir dövrün məşhur Britaniyalı alimi Ziqmunq Baumanın son əsərində geniş tədqiq olunmuşdur. Z.Baumanın «İndividuallaşmış cəmiyyət» əsəri müasir insan varlığında baş verən mahiyyət dəyişikliklərini əhatəli əks etdirir. (4; 390)

Z.Bauman müasir qərb cəmiyyətində gerçəkliyə çevrilən və qlobal informasiya cəmiyyətinə qədəm qoyan hər bir ölkəni gözləyən, sosial-mənəvi sahədə baş verən dəyişikliklərin mahiyyətini aşkarlamağa cəhd etmişdir. Burada individuallaşma və onunla sıx bağlı olan fraqmentasiya, atomlaşma, nihilizm, biganəlik, tənhalıq fenomenləri xüsusi təhlil predmeti kimi müəyyənləşmişdir.

Açar sözlər: qloballaşma, informasiya cəmiyyəti, insan, həyat tərzi, ekzistensial ziddiyyət, individuallaşma, mahiyyət, inkişaf.

İstifadə olunmuş ədəbiyyat

1. Информационная революция: наука, экономика, технология. М., «УНИОН ПАН», 1998.
2. Белл Д., Грядущее постиндустриальное общество. Опыт социального прогнозирования. М, «Академия», 1999.
3. Моисеев Н.Н. Судьба цивилизации. Путь разума. М, «МН ЭПУ», 1998.
4. Бауман З. Индивидуализированное общество. (Пер. с англ. под. ред. В.Л.Иноземцева). М., «Логос», 2002.

Зиба АГАЕВА

НОВАЯ АНТРОПОЛОГИЧЕСКАЯ РЕАЛЬНОСТЬ ГЛОБАЛЬНОГО ИНФОРМАЦИОННОГО ОБЩЕСТВА

Резюме

В данной статье рассматривается проблема осмысления сущности новой антропологической реальности как глобальной проблемы современности. Обосновывая актуальность проблемы, автор разъясняет, как в глобальном информационном обществе различные формы и типы антропологической реальности, соединяясь друг с другом, превращаются в глобальную проблему человечества.

Ключевые слова: глобализация, информационное общество, человек, образ жизни, экзенстенциальное противоречие, индивидуализация, сущность, развитие.

Ziba AGAYEVA

NEW ANTHROPOLOGICAL REALITY OF A GLOBAL INFORMATIVE SOCIETY

Summary

In the given article the problem of comprehending the essence of a new anthropological reality as global problem of the modern period is considered. Substantiating urgency of the problem, the author explains, how in a global informative society the various forms and types of an anthropological reality incorporating each other turn to a global problem of human existence.

Keywords: globalization, informative society, man, way of life, existential contradiction, individualization, essence, development.

UOT 141.45

Radif MUSTAFAYEV
AMEA FSHİ, e.i., fəlsəfə üzrə f.d.

SEKULYARLIQ VƏ ONUN MƏRHƏLƏLƏRİ*

Ümümiyyətlə insan və din münasibətlərini özündə ehtiva edən sekulyarlıqdan bəhs edərkən adətən, Yeni dövrdə gerçəkləşdirilmiş din-dövlət münasibətləri, xüsusilə, xristian aləmində baş vermiş kilsə hakimiyyətinin məhdudlaşdırılması nəzərdə tutulur. Halbuki, bir tarixi proses kimi sekulyarlığın tarixi elə dini dünyagörüşün tarixi qədər qədim olub. Türk tədqiqatçısı M.A.Kirmanın qeyd etdiyi kimi, "...sekulyarlığın tarixini dinin meydana çıxdığı ilkin dövrlərə qədər aparıb çıxartmaq və onun dinin tarixindən müstəqil (ayrı) olmadığını söyləmək mümkündür" (1, s. 292). Bu baxımdan biz, sekulyarlıq prosesinə aid olan sekulyarlaşma və sekulyarizm terminlərindən məhz sekulyarlaşma prosesinin tarixinin də bu qədər qədim və həmçinin dinin meydana gəlməsi tarixi ilə əlaqədar olduğunu iddia edə bilərik. Halbuki, ədəbiyyatlarda sekulyarlıq anlamında daha çox sekulyarlaşma və sekulyarizm anlayışlarının eyni mənada, yəni dinin həyatın bütün sahələrindən kənarlaşdırılması, aradan qaldırılması anlamı ilə qarşılaşmış oluruq. Yalnız, məhz 1965-ci ildə nəşr olunan və dinin sosiologiyasına aid edilən ABŞ tədqiqatçısı H.Koksun "Dünyəvi toplum: teoloji aspektdə sekulyarlaşma və urbanizasiya" adlı əsərində bu məsələyə ilk dəfə olaraq müəyyən qədər aydınlıq gətirilmiş və sekulyarlaşma prosesi ilə sekulyarizmin bir-birindən fərqli mahiyyətə malik olduğu açıqlanmışdır.

H.Koks həmin əsərində ilk öncə sekulyarlaşma prosesinə münasibətini bildirməklə yanaşı sekulyarlaşmanı "insanın dini və metafizik sistemlərin təsirindən azad olma"sı kimi müəyyən etmişdir (2, s.33). H.Koksun sonrakı izahatlarından isə məlum olur ki, tədqiqatçı sekulyarlaşmanın Xristianlığa zidd bir proses olmadığını əsaslandırmağı qarşısına məqsəd qoymuşdur. O, bu əsərində din deyərkən mifoloji, çoxtanrılıq dini sistemlərini, başqa sözlə bütpərəstliyi inkar etmiş və təktanrılıq dini sistemini, xüsusən də İudaizm dinini nəzərdə tutmuşdur.

H.Koksa görə mifoloji dünyagörüşdə hakim olan "magiya sekulyarlığa qədərki qəbilə mədəniyyətini müəyyən edirdi"(2, s.37). Belə bir mədəniyyətdə insan bütün canlıları özünə qardaş hesab etmişdir. Belə ki, elə H.Koksun özünün qeyd etdiyi kimi, mifoloji şüurda "Həm tanrılar, həm də insanlar təbiətin bir hissəsi olmuşdular" (2, s.38). Halbuki, H.Koksa görə, məhz dünyanın yaranışı barədə qədim yəhudi rəvayətlərində təsvir edilmiş qapalı dairədən kənaraçıxmalarla səciyyəvi olmuşdur. Yəni, "bu hekayətlərdə tanrı və təbiət biri-birindən, insan isə təbiətdən ayrılmışdır"(2, s.38). Bu prosesi "dünyanın sehrdən qurtulmasının başlanğıcı" kimi qiymətləndirmiş H.Koksun bu yanaşması bizə miflərin dini təsəvvürlərdən fərqləndirilməsi üçün əsas verdiyi halda, onun bir monoteist din kimi sekulyarlaşma prosesində Xristianlıq dinini İudaizm dinindən üstün tutması isə mübahisə yaratmaya bilməz. Çünki, fikrimizcə, bu zaman söhbət ümumiyyətlə dini dünyagörüşdən getməli olduğu təqdirdə, H.Koks əksinə, müəyyən bir monoteist və yaxud politeist dini sistemlərdən bəhs etmişdir. H.Koks onu da vurğulamışdır ki, " ...təbiətin dini boyalardan azad edilməsini Maks Veber sehrdən qurtulmaq adlandırmışdır" (2, s.38). Halbuki, türk tədqiqatçısı M.Ə.Kirman qeyd edir ki, bu ifadə M.Veberdən öncə Fridrix Şiller tərəfindən istifadə edilmişdir (1, s.293). H.Koksa görə isə "dünyanın sehrlənməkdən qurtuluşu" bu cür olmadan elmi dünyagörüşün meydana gəlməsi də qeyri-mümkündür. Beləliklə

* Məqalə f.e.d. A.Əlizadə tərəfindən çapa məsləhət bilinib.

də, biz, tədqiqatçının sekulyarlaşma prosesinə verdiyi tərifə əsaslanaraq bu posesin meydana gəlməsinin məhz metafiziki sistemlərlə, yəni fəlsəfi dünyagörüşün meydana gəlməsi ilə əlaqədar olduğunu iddia edə bilərik. Lakin qeyd etməliyik ki, fəlsəfi dünyagörüş birdən birə meydana gəlmədiyi kimi sekulyarlaşma prosesi də tədricən formalaşmış və nəhayət, dünyanın müxtəlif regionlarında fəlsəfi dünyagörüşün inkişafı ilə paralel mövcud olmuşdur. Bunu H.Koksun aşağıdakı tezisi də təsdiq edir. Belə ki, o yazır: "Təbiətin sehrdən qurtulması sekulyarlaşmanın ən mühüm elementlərindən biridir" (2, s.39). Deməli, insan istər təbiətin, istərsə də tanrının "sehr"indən qurtularsa, onda o müstəqil, azad və başqa sözlə desək, sekulyar, dünyəvi insan hesab edilə bilər. Belə bir yanaşma və düşüncə tərzi isə fikrimizcə, yalnız fəlsəfi düşüncəyə sözün həqiqi mənasında şamil edilə biləcək bir cəhətdir. Deyilənləri, H.Koksun bəhs etdiyi terminlərin etimoloji cəhətdən izahından da sezmək mümkündür. Belə ki, o, ilk öncə latın dilində "dünya" anlayışının iki: "saeculum" və "mundus" məfumları ilə ifadə edildiyini xatırlatmışdır. H.Koks yazır ki, " "Saeculum" sözü zaman anlamında olub çox zaman yunan dilindəki "əsr" yaxud "epoxa" mənasını verən "eon" sözünün tərcüməsi üçün istifadə edilmişdir. "Mundus" sözü isə məkan anlamında olub, adətən onun vasitəsi ilə yunanca olan "kosmos", "kainat" yaxud "yaradılmış nizam" sözləri ifadə edilmişdir" (2, s.33). Beləliklə də, H.Koksa görə vaxtilə yunanların məkan haqqındakı təsəvvürləri ilə yəhudilərin zaman haqqındakı təsəvvürləri arasında köklü fərq olmuşdur. Yəni, əgər qədim yunanlar dünyanı yer, məkandakı sahə kimi anlayırdılarsa, Əhdi Ətiq dövrünün yəhudiləri dünyanı tarixi, başqa sözlə desək tarixən yaradılmış və sonlu bir varlıq kimi başa düşmüşlər. H.Koksun fikrincə, "Ellin dünyasında yəhudi inancının bələdçiləri olmuş ilkin xristianlar reallıq haqqında hakim olmuş təsəvvürləri "zamanlaşdırmağa" çalışmışlar" (2, s.34). Nəticədə H.Koksa görə dünya haqqındakı yunan təsəvvürləri tarixiləşdirilərək "kosmos" anlayışı "eon"a, "mundus" anlayışı isə "saeculum"-a çevrilmişdir. Bu isə tarixi kateqoriyaların məkan anlayışlarına qarışdırlması demək idi. H.Koksun fikrincə məhz b.e.-nın II əsrindən başlayaraq xristian ilahiyyatında apalogetlər buna qarşı çıxış etmişlər. Yalnız Əhdi Cədidin tədqiqatları nəticəsində xristian teologiyası "özünün başlıca səhvi"ni anlayaraq "yalnız dövrümüzdə teologiyadakı tarixi və zaman aspektlərinin bərpa edilməsi tapşırığı qarşıya qoyulmuş ciddi bir məsələdir" (2, s.33).

H.Koksun fikrincə, "lap əvvəldən "sekulyar" sözü bu dünyaya aid olan nəyisə bildirməyə xidmət etmişdir". Belə ki, sekulyarlıq "dəyişməyə məhkum olan və əbədi, dəyişməz "dini aləm"ə əks olan "bu dünya" anlamını əks etdirir" (2, s.34). Buna görə də, hətta bu mənada dini rahiblərin belə "sekulyar", yəni "dünyəvi" adlandırılmasını məqbul hesab edən H.Koksa görə, "Yunan və yəhudi təsəvvürləri arasındakı bu ziddiyyət məkanlı aləmi ali yaxud dini, dəyişən tarixi aləmi isə aşağı yaxud "sekulyar" (dünyəvi) hesab etmiş orta əsrlər sintezi ilə həll edilmişdir"(2, s.33). Amma H.Koksun fikrincə, sekulyarlaşma termininin mənası da tədricən məhdud texniki anlamlardan daha çox genişlənməyə başlamışdır. Belə ki, xristian aləmində Papa və imperator hakimiyyətlərinin bir-birindən ayrılması nəticəsində ruhani və dünyəvi bölgü institutlaşdırılmış bir forma aldı. Beləliklə də, "kilsə hakimiyyətinin bəzi funksiyalarının dünyəvi hakimiyyətə verilməsi də sekulyarlaşma adlandırılmağa başlandı" (2, s.33). Maarifçilik və Fransa inqilabı dönəmlərində də sekulyarlaşmanın məhz bu cür anlamının hökm sürərək hətta müasir dövrdə də onun belə anlaşılmasını H.Koks katolisizmin təsiri ilə əlaqələndirmişdir. H.Koks hesab edir ki, bu proses mədəniyyət və siyasət sahəsində də davam edərək "indi "sekulyarlaşma" mədəniyyətin qurulduğu din əsaslı simvolların aradan getməsini bildirir. Mədəni sekulyarlaşma isə qaçılmaz olaraq siyasi və sosial sekulyarlaşmaya gətirib çıxarır!"(2, s.34).

Sekulyarlaşma prosesinin tarixini və demək olar ki, geriyədönməz bir proses olduğunu xarakterizə edən H.Koksa görə, "sekulyarlaşma hər şeydən əvvəl insanın dinin hakimliyindən azad olmasıdır" (2, s.37). Amma sekulyarizm "əksinə, müəyyən ideologiya, sanki yeni bir din kimi fəaliyyət göstərən daha bir qapalı dünyagörüşdür" (2, s.37). Əlbəttə, bu zaman H.Koks sekulyarizmi bir növ yeni din hesab edərkən onun məhz ideoloji cəhətini nəzərə almamışdır.

Amma sekulyarizmi səciyyələndirərkən onun sekulyarizmin sekulyarlaşmadan fərqli olaraq "sekulyarlaşma nəticəsində əldə edilmiş açıqlığı və azadlığı təhdid etmə" (2, s.37) xüsusiyyətini də vurğulamışdır. H.Koks qeyd etmişdir ki, "Sekulyarizmə xüsusən də o hallarda ehtiyatla yanaşmaq lazımdır ki, sekulyarizm dünyagörüşü statusuna iddia etmədiyi halda özünün ideologiyasını dövlət orqanları vasitəsi ilə yeritməyə can atır" (2, s.37).

Məlum olduğu kimi, sekulyarizm ideyası Avropada xristian teokratiyası və doqmatik dünyagörüşünə bir alternativ kimi meydana çıxaraq cəmiyyətdəki sekulyarlaşma prosesinin məntiqi nəticəsi olmuşdur. Bunu başqa cür ifadə etsək, deyə bilərik ki, Qərb aləmində "Dini idealların yerini demokratik prinsiplər və ümumbəşəri dəyərlər tutmuş oldu" (3, s. 340). Öz növbəsində Avropadakı bütün bu sekulyar ideyalar da tədricən müsəlman aləminə keçə bilmişdir. Belə ki, müsəlman aləminin tarixində də müşahidə edilmiş sekulyarlaşma prosesi özünün məntiqi nəticəsinə gəlib çıxmasa da, Qərbi Avropa sekulyarizminə can atmaq meyilləri XIX əsrin sonu XX əsrdə müsəlman Şərqi üçün səciyyəvi bir hal olmuşdur. Bu isə özünü daha çox Avropa təcrübəsi əsasında hakimiyyətin teokratik modelinin dünyəvi, doqmatik dünyagörüşün isə dialektik dünyagörüşlə əvəz olunmasında göstərirdi. Xüsusən də, sözügedən meylin müsəlman aləminin birbaşa Avropa ölkələri ilə həmsərhəd regionlarında, eləcə də bu və ya digər səbəblərdən avropalılardan müstəmləkə asılılığına düşmüş ölkələrdə müşahidə edilirdi. Beləliklə də, Osmanlı imperiyasını, Şimali Afrikanın, Qafqazın, Mərkəzi Asiyanın bəzi regionlarını sekulyarlaşma və sekulyarizm meylləri bürümüş oldu. Az sonra isə bu sekulyar proseslər bu və ya digər dərəcədə demək olar ki, bütün müsəlman aləminə yayıldı. Belə ki, məsələn, İslam dininin hakim olduğu Türkiyə Cümhuriyyətində doktrinal nəzəriyyəsi və nəzəri səviyyədə dövlətə rəsmən dünyəvi bir idarəetmə modeli olan sekulyarizm ideologiyası (laisizm) tətbiq edildi. Demək olar ki, türk laisizmi müsəlman aləmindəki ilk fundamental dünyəvi, sekulyar idarəetmə doktrinasıdır. Halbuki, keçmiş Sovet Birliyinə daxil edilmiş müsəlman respublikalarında, o cümlədən də, ölkəmizdə yəni Azərbaycan Sovet Sosialist Respublikasında marksist-leninçi fəlsəfəyə əsaslanmış sekulyarizm ideologiyası hakim olmuşdur. Sekulyarizmin bu növünə dair başqa bir məqalə yazmaq niyyətində olub, bütövlükdə sekulyarlığın qəbul edilməsi və dövlətin dindən ayrılmasına münasibətdə müsəlman aləminə diqqət edərkən görürük ki, burada sosialist düşərgəsinə daxil edilmiş müsəlman aləmindən fərqli olan heç bir yekdil rəy hakim olmamışdır. Belə ki, müsəlman aləminin bir-çox İslam dini nəzəriyyəçilərinin, xüsusən də, ruhanilərinin fikrincə bu ideya İslama yad olub onun prinsipləri ilə ziddiyyət təşkil etdiyindən müsəlman ölkələrində tətbiq edilə bilməz. Hətta, məsələn, müasir dövr türk ilahiyyatçısı Əhməd Mərcana görə də, dövlətin həm demokratik, eləcə də dünyəvi-sekulyar idarəetmə metodları bütpərəstliyə aiddir. Belə ki, ona görə Avropa cəmiyyətləri Xristian din xadimlərinin və monarxlarının diqtələrindən azad olmaq üçün sekulyarizmi bir qurtuluş vasitəsi kimi seçmişlər (4, s.28). Halbuki onun qənaətinə görə bütün bu prinsiplər də yalnız özlərini nəzəriyyədə yaxşı göstərə bilmiş, əslində isə, bu yeni idarəetmə ilə də müxtəlif maliyyə dairələri öz maraqlarını gerçəkləşdirmək üçün müəyyən diqtələr etmişlər. Odur ki, müsəlman ölkələrində demokratiya prinsipi İslam dünyagörüşünə uyğun gəlmir. Çünki İslam ümumbəşəri və hər şeyi əhatə edən bir ilahi din olaraq Avropada insanların uydurduqları və demokratiya ideyasından uzaq olan cəmiyyətin ideal prinsiplərinin təsdiqlənməsinə can atır.

Bir-çox müsəlman analitiklərinin fikrincə də, Qərb demokratiyasının dünyəvi ideyalarının qəbul edilməzliyi məhz qanunvericilikdəki qanunların insanların ehtiras və istəklərindən qaynaqlanması ilə bağlıdır. Beləki, bu cür mühitdə qanun qəbul edilərkən yalnız insanın heç biri mütləq olmayan ağlına və biliyinə etibar edilir. Çünki istər insanın ağlı və istərsə də biliklər sistemi qeyri-kamil olaraq səhv və yanılmalara məhkumdur. Buna görə də insanlar öz qənaətləri üzündən qanunları tez-tez dəyişdirərək yenilərini dövriyyəyə buraxırlar. Bu isə əslində qanunsuzluğa gətirib çıxarır. Deməli, yalnız insanların maddi tələbatlarının və ötəri istəklərinin təmin edilməsinə yönəlmiş dəyərlər sistemi fərdi və ya cəmiyyəti ruhundan, həyatın həqiqi mənasından tədric etməyə gətirib çıxarır.

Halbuki müsəlman aləmində sekulyarizm ideyasının, yəni dinin dövlətdən ayrılması prinsipini və dünyəvi idarəetmə metodlarını qəbul edənlər də az deyildirlər. Belələri isə, Quranın 109-cu surəsi olan Əl-Kafirun ("Kafirlər") surəsinin 4-5-6-cı ayələrinə istinad etməkdədirlər. Burada isə deyilir ki, "Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm! Siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz! Sizin öz dininiz var, mənim də öz dinim!" (4, 5, 6 s.645). Bununla əlaqədar olaraq yuxarıda xatırlanmış Əhməd Mərcan müsəlman aləmində dövlətin dindən ayrılması ideyasını dəstəkləmiş dini və ictimai xadimləri kəskin tənqid etmişdir. O bildirmişdir ki, belələri dünyəvi bir dövlət qurmaq ideyasını dəstəkləmək üçün guya sekulyarizmin (laikliyin) allahsızlıq olmadığını iddia edən ideyalar təbliğ etməklə əslində allahsız hakimiyyətin nəzarət etdiyi dini nazirliklər və başqa dövlət strukturları qururlar (6, s.29). Bununla əlaqədar E.Y.Həsənovanın Türkiyə Cümhuriyyətinin sekulyarizmi barədə qeyd etdiklərindən oxuyuruq ki, "Kamalçı (burada Mustafa Kəmal Atatürk nəzərdə tutulur – R.M.) laisizm dinə qarşı deyil, türk cəmiyyətinin aşağı təbəqəsi arasında "xalq İslamı" sferasında kök atmış yalançı dinə qarşı yönəlmişdi..., bir-çox cadugər və maqların, məşhur dərvişlərin dəfn edildikləri bütpərəst sitayiş yerləri bağlandı" (7, s.131).

Müsəlman aləmində sekulyarlaşma tərəfdarlarının fikrincə, Raşidi xəlifələrin idarəetmələrindən sonra dövlətin teokratikləşdirilmə prosesi baş verərək monarxiyalı rejimlər qurulmuşdur. Bu dövlətlərin ictimai-siyasi həyatları isə əksər hallarda şəriətin qaydaları ilə deyil, ənənəvi, xalq metodları ilə nizamlanmışdır. Qanunvericilik sahəsində dini qanun tələbi adı altında monarxların istəklərinə və yaxud siyasi və iqtisadi reallıqlardan irəli gəlmiş aspektlər həlledici rol oynamışdır. Bütün bu proseslər İslamın klassik əsaslarından uzaqlaşmaya gətirib çıxararaq dövlət və ictimai institutların doqmatikləşdirilməsinə, müsəlman aləmində Raşidi xəlifələri idarə etdikləri Xilafətdən daha çox Bizans və başqa xristian dövlətlərinin siyasi idarəetməsini xatırladan teokratik rejimlərin qurulmasına gətirib çıxartmışdır. O da təbiidir ki, belə bir durum ictimai tərəqqi ilə ziddiyyət təşkil edərək müsəlman aləminin qlobal böhranına səbəb olmuşdur.

Deməli, biz iddia edə bilərik ki, XX əsrin əvvəllərindən başlayaraq müsəlman dünyasında mübahisə predmeti olan sekulyarizm ideologiyası cəmiyyətin təbii inkişafını ləngidən dövlətin teokratik-monarxiyalı idarəetmə metodlarına qarşı bir etiraz olmuşdur. Buna görə də müsəlman ölkələrinin qabaqcıl ziyalıları avropalılardan sekulyarlıq təcrübələrini götürməyə səy göstərib öz cəmiyyətlərində sekulyarlaşma prosesini genişləndirərək dövlət idarəçiliyində sekulyarizm prinsiplərini tətbiq etməyə can atmışlar. Halbuki A.Məmmədovun ümumləşdirdiyi kimi, "müsəlman reformistlərinin demokratikləşmə, rasionalizmə və sekulyarlaşmaq problemlərinə müxtəlif yanaşmalarına baxmayaraq onları bir reformist hərəkata aid edən mühüm cəhət məhz onların hamısının öz baxışlarında İslamdan çıxış etmələri və İslamı rasionallaşdıraraq qoruyub saxlamaq kimi bir məqsədi əldə rəhbər tutmaları olmuşdur" (8, s.114).

Açar sözlər: sekulyarlıq, sekulyarlaşma, sekulyarizm, butpərəstlik, monoteist, politeist, teologiya, saeculum, mundus, katolisizm, teokratiya, doqmatik, doktrina nəzəriyyəsi, laisizm.

İstifadə olunmuş ədəbiyyat

1. Kirman M.A. Sekulerleşme perspektifinden insan-din ilişkisinin dünü, bugünü ve geleceği. Dinler tarihi araştırmaları-VI. Sekülerleşme ve Dini canlanma. Sempozyum (22-23 Ekim/October), Ankara, 2008.Yayın №6.

2. Кокс Х. Мирской град: секуляризация и урбанизация в теологическом аспекте. Пер. с англ. О.Боровой и К.Туровской. М., Издв. фирм. Восточная литер., РАН, 1995, 263 с.

3. Религиоведение. /Под ред. М.М.Шахнович. СПб., Питер, 2009. Fahri M. İslam Felsefesi tarihi. İstanbul, 1998.

4. Mercan A. Devlet bilinci. İstanbul, 1998.

5. Qurani-Kərim. Ərəb dilindən tərcümə edənlər: Z.Bünyadov və V.Məmmədəliyev. Bakı, Azərnəşr, 1992.

6. Mucahid H. Farabiden Abduha siyasi dusunce. İstanbul, 1995.

7. Гасанова Э.Ю. Социология религии и мусульманского мистицизма-тасаввуфа в Турции XX в. (идейные истоки, основные проблемы, новые тенденции). Баку, «Əli nəşriyyat evi», 2006.

8. Мамедов А.М. Ислам и проблемы социально-культурного развития арабских стран (на материале АРЕ). Баку, Элм, 1986.

Радиф МУСТАФАЕВ

СЕКУЛЯРИЗМ И ЕГО СТАДИИ

Резюме

В статье автор, обращая внимание на смешение процесса секуляризации с секуляризмом как идеологией и ссылаясь на труд американского теолога Кокса, пытается внести ясность в этот вопрос. Анализируя мысли Кокса, он отмечает, что возникновение секуляризма не является результатом влияния какого-то конкретного религиозного мировоззрения, как это ранее утверждалось. Его появление непосредственно связано именно с формированием и процессом развития философского мировоззрения.

Ключевые слова: секуляризм, секуляризация, идолопоклонство, монотеизм, католицизм, теократия, догматизм, теория доктрины, лаисизм.

Radif MUSTAFAYEV

STAGES OF THE PROCESS OF SECULARIZATION AND SECULARISM

Summary

In the article the author drawing attention to mixing secularization process with secularism as ideology and referring to American theologian Kox, makes an attempt to make the question clear. The author, analysing Kox′s reflections determines that secularism arose not as a result of some concrete religious world outlook, as it was claimed earlier. Its emergence is directly bound up with namely formation and the process of development of philosophical world outlook.

Keywords: secularism, secularization, idolatry, monotheism, Catholicism, theocracy, dogmatism, doctrine theory, laicism.

УДК 101.1

Ровшан ГАДЖИЕВ
ИФСП НАНА, н. с.,д.ф.по философии

К ОБОСНОВАНИЮ ГИПОТЕЗЫ О ВОЗРАСТНОЙ ПЕРИОДИЗАЦИИ ИНТЕЛЛЕКТУАЛЬНОЙ ЭВОЛЮЦИИ ЧЕЛОВЕЧЕСТВА*

В работе «Проблема смысла жизни» были сформулированы предварительные положения гипотезы о возрастной периодизации интеллектуальной эволюции человечества (8, 132). В последние годы выдвинутая гипотеза была изучена на основании большого количества археологического, этнографического, антропологического и другого научного материала. Прежде чем перейти к конкретному рассмотрению ключевых положений гипотезы, сформулируем основные результаты всей исследовательской работы:

1. Человечество (имеется в виду неоантроп) как духовное единство со времени своего появления на свет интеллектуально развивается.

2. Интеллектуальное развитие носит имманентный характер и происходит с определенной закономерностью.

3. Эта закономерность предполагает периодизацию интеллектуальной эволюции человечества.

4. Периодизация проводится на основе сравнительного изучения онтогенеза и филогенеза.

5. Исследования показывают, что аналогично онтогенезу, в филогенетическом процессе можно выделить возрастные периоды интеллектуального развития нашего биологического вида.

6. Проводимые автором многолетние исследования дают основание говорить, что человечество в своем интеллектуальном развитии через каждые три тысяча лет взрослеет на «1» год, подобно происходящему в онтогенезе.

Методологической основой выдвинутой гипотезы является сравнительный анализ интеллектуального развития индивида и вида, т.е. процессов, происходящих в онтогенезе и филогенезе. Как известно, впервые сравнительный анализ интеллектуального развития между онтогенезом и филогенезом был проведен американским психологом и основателем педологии С.Холлом. На основе экспериментальных работ и биогенетического закона Э.Геккеля Холл пришел к выводу, что онтогенетическое развитие психики ребенка повторяет все стадии филогенетического развития психики человека. Будучи сторонником преформизма, Холл считал, что последовательность и содержание этапов развития заданы генетически и поэтому ребенок не может уклониться и миновать какую-то стадию своего развития. Это главное открытие Холла получило название теории рекапитуляции. Впоследствии эта теория была развита учениками Холла, в частности Гетчинсоном и его последователями (например, Мейман). Были у Холла и последователи, не принимавщие некоторые принципиальные положения этой теории, как например, видный швейцарский ученый Э.Клапаред. Современный исследователь детской психологии Т.Марцинковская пишет: «Клапаред считал, что известное сходство между фило- и онтогенетическим развитием психики существует не потому, что в психике ребенка заложены стадии развития вида и древние инстинкты, которые тот должен изживать (как это предполагает теория рекапитуляции), *но потому, что существует общая логика развития психики в филогенезе и онтогенезе*. Именно эта общая логика развития определяет сходство

* Məqalə f.e.d. F.Qurbanov tərəfindən çapa məsləhət bilinib.

процессов (но не их тождество!). Поэтому не существует фатальной предопределенности в развитии ребенка и внешние факторы (в том числе обучение) могут ускорить его ход и даже частично изменить направление» (12, 91-93). Отождествляя мышление с психическим развитием, Клапаред выделил четыре этапа в психическом развитии ребенка, где критерием деления был переход от одного типа мышления к другому. Идеи и достижения Клапареда развиты его известным учеником, крупным психологом Ж.Пиаже, который выделяет следующие стадии в развитии мышления: сенсомоторную (чувственно-двигательную); дооперационального интеллекта; стадию конкретных операций и стадию формальных операций (15, 177). В советской психологической школе сравнительный анализ онтогенеза с филогенезом был проведен выдающимся психологом Л.Выготским. Он писал: «Говоря о культурном развитии ребенка, мы имеем в виду процесс, соответствующий психическому развитию, совершавшемуся в процессе исторического развития человечества» (7, 233).

Как же впервые в науке применен обратный метод, т.е. процесс интеллектуального развития человечества изучен на основе онтогенеза, а более конкретно, на основе вышеупомянутой теории Ж.Пиаже. Теоретические исследования дают основание говорить, что выделенные Пиаже периоды развития мышления в онтогенезе определенно соответствуют переломным этапам интеллектуального развития человечества. В частности, переломным этапом развития можно считать эпоху солютре (когда человечеству исполнилось «7» лет, т.е. 39 – «7»×3 = 18 тысяч лет тому назад). В это время впервые на стенах пещер появляются рисунки, отображающие не единичные предметы, а их отношения (например, женщина и зверь). Далее в конце мадлена (15 тысяч лет тому назад, когда человечеству исполнилось «8» лет») создаются гравюры, отражающие перспективное изображение (предположительно, начиная с этого времени постепенно формируется восприятие одномерного и изотропного пространства). С появлением пространственного мышления (имеется в виду восприятие одномерного, изотропного пространства, вместо так называемого «маршрутного», по Леруа-Гурану) в эпоху мезолита (12 тысяч лет тому назад) первобытные общества переходят к активному образу жизни. Развивается рыболовство, люди стремятся к индивидуальной охоте и поэтому изобретают лук, стрелы и многое другое (микролитическая техника). Наконец, первобытные люди делают первые шаги для перехода от собирательства к воспроизводящему хозяйству. Переход в основном происходит уже в эпоху неолита в VII тыс. до н.э., что соответствует «10»-и годам интеллектуального развития человечества. С «11»-и лет (т.е. с IV тыс. до н.э., в эпоху древнейших цивилизаций) появляются первые личности (цари, фараоны и верховные жрецы); в «12 лет» (т.е. в I тыс. до н.э.) проявляет себя так называемая осевая эпоха Ясперса (когда «сознание осознавало сознание»). В этот период появляются пророки, мудрецы и философы. Соответственно онтогенезу, эти возрастные периоды являются переломными и для интеллектуального развития человечества. Появляется рефлективное мышление человечества в филогенезе, подобно становлению формального мышления в онтогенезе. Из вышесказанного однако не следует, что нами игнорируется исторический процесс или же развитие человеческого общества, как это характерно для идеалистов. Конечно, без социокультурных отношений людей, без общества не произошло бы интеллектуального развития человечества. Однако, духовной фактор, интеллектуальные задатки являются тем внутренним потенциалом, на основе которой и развертывается исторический процесс.

Из каких главных научных источников и исследований выводятся наши основные суждения по поводу вышеизложенных положений и тезисов? Начнем с вопроса становления неоантропа. Как известно из фундаментальных исследований (9; 10, 99; 22, 62) и учебников (2, 47, 3, 40) советского и постсоветского периода, зарождение неоантроп

зародился примерно 40 тысяч лет тому назад. Однако полностью этот процесс, т.е. эпоха становления человечества или же начало верхнепалеолитической культуры был исследован Л.Б.Вишняцким в его докторской диссертации (6). Из его автореферата и других работ по этой теме (5, с.245-272) удается выяснить, что 39 тысяч лет тому назад в нескольких разных уголках мира независимо друг от друга и синхронно (что особенно важно!) появляется человечество и вместе с ним культура верхнего палеолита. Под человечеством мы понимаем духовное единство, носителем которого является неоантроп. Интересно, что первые палеолитические рисунки появляются примерно 30 тысяч лет тому назад, когда интеллектуальное развитие человечества соответствовало его «трехлетнему» возрасту. Подробные сведения о первых рисунках палеолита были получены в основном из фундаментальных работ З.А.Абрамовой (1) и А.Д.Столяр (17). Следует отметить, что теория о динамике развития палеолитического искусства, развиваемая А.Д.Столяром, определенно соответствует некоторым положениям выдвигаемой нами гипотезы, основанной на теории Ж.Пиаже. В частности, перемены, произошедшие в искусстве палеолита в эпоху солютре (примерно 20 тысяч лет тому назад), определенно объясняются тем, что в то время человечеству исполнилось «7» лет. Это то возрастное время, когда в онтогенезе интеллектуальное развитие индивида вступает в фазу проявления конкретных операций, а именно, когда ребенок овладевает способностью строить отношения одновременно между двумя предметами и делать из этого правильные логические выводы (т.е. появляются обратимые операции, согласно Пиаже). Подобно вышеизложенному суждению, в филогенезе в эпоху солютре выступают уже не единичные изображения, как это было раньше, а рисунки, отображающие отношения между двумя предметами. Как отмечают многие известные исследователи очень важным фактором является и то, что в раннепервобытную эпоху развития общества происходили параллельные события в разных уголках Евразии. На основе определенной синхронности происходивших событий в верхнепалеолитическую эпоху археологи выделили такие последовательные периоды развития, как ориньяк, солютре и мадлен (имеется в виду не однообразие, а схожесть типов создаваемых орудий труда и форм произведений искусства, что дает возможность использовать эти эпохи в качестве абсолютных хронологий). В частности, о параллельности возникновения так называемых «палеолитических Венер» в ориньякский период (22-20 тысячелетий тому назад) рассказывает академик А.П.Окладников (13, 73). Параллельность развития культур в верхнем палеолите исследовали такие известные археологи, как Г.П.Григорьев (9, 118-119) и А.П.Черныш (19, 188). Сравнивая рисунки палеолитической пещеры Ласко (Франция) и Каповой пещеры (Башкортостан), А.А.Формозов приходит к мысли, что синхронность происходящих процессов исходит из единой психики человека (21, 25), что соответствует нашему пониманию закономерностей интеллектуального развития человечества. На вопросе о синхронности возникновения палеолитических изображений акцентирует свое внимание и Абрамова (1, 154).

Однако следует отметить, что параллельность событий в социокультурной жизнедеятельности первобытных общин, обитающих в различных и отдаленных регионах мира, а в целом в образе жизни людей того времени, наиболее явно и выпукло выступает в эпоху мезолита. Остановимся на этом вопросе более обстоятельно. Известно, что зачатки земледелия приблизительно одновременно возникали в разных уголках мира, хотя использованные ими типы орудий, образ жизни, климатические условия, флора и фауна в этих регионах (Передняя Азия, Юго-Восточная Азия и Мезоамерика) существенно отличались. Эти проблемы исследованы А.П.Чернышом (20, 150), П.И.Борисковским (4, 159), В.П.Кабо В.П. (11, 255), Л.А.Файнберг (10, 132) и др. Спрашивается: какими экономическими, социальными, экологическими или же другими внешними факторами, а также их комплексным воздействием можно объяснить параллельность происходивщих

глобальных событий в эпоху мезолита? А ведь именно в эту эпоху (примерно X-BIII тысячелетия до н.э.) в разных регионах мира синхронно и независимо друг от друга происходили и другие не менее значимые события. Появились наскальные изображения с многофигурными композициями (чего не было в верхнем палеолите), как например, массовые сцены охоты где рисунки носили схематичный облик, выражая уже не статику, а динамику происходящих событий. Об этих изменениях в искусстве в своем труде подробно говорит А.А.Формозов (21, 53-62). Люди перешли к индивидуальной охоте, чего не было в эпоху верхнего палеолита и общины действовали исключительно коллективно. И это подтверждается тем, что именно в эпоху мезолита получили распространение лук и стрелы, появились рыболовные костяные крючки и одноместные лодки, выдолбленные из цельного куска дерева. Буквально все ученые едины во мнении, что в эпоху мезолита основательно изменился образ жизни людей. Спрашивается, почему за долгие тысячелетия плейстоцена (примерно 30 тысяч лет) в жизнедеятельности людей не происходили изложенные выше события и, начиная примерно с голоцена, образ жизни первобытных общин резко изменился. Со всей ответственностью хотелось бы сказать, что никакими внешними факторами невозможно объяснить суть параллельно происходящих событий, кроме одного − внутреннего, духовного, а точнее, интеллектуального!

Спустя три тысячи лет после начала мезолита в мире происходят новые, не менее значимые изменения в образе жизни людей, что дает основание известному английскому археологу Г.Чайлду говорить о неолитической революции. Именно в эпоху неолита происходит переход первобытных общин из присваивающего хозяйства к воспроизводящей деятельности. Отличительные особенности неолита выделим словами известного этнографа В.А.Шнирельмана: «Общины теперь стали значительно крупнее…, материальная культура обогатилась множеством новых элементов, что в известной мере вызывалось углублением процессов трудовой специализации и становлением ремесла… Центральной становилась концепция вертикального родства, совершенствовалась система власти, основные черты религии стали определяться культом предков» (10, 236). Именно в эту эпоху расширяются межобщинные связи. Исторический опыт показывает, что оставшиеся в стороне от межобщинных связей первобытные коллективы в дальнейшем отстают в своем развитии от передовой части человечества и ныне являются всего лишь аборигенами. Следует отметить, что переход к производящему хозяйству, происходивший в эпоху неолита характеризуется параллельностью событий (10, 263). Шнирельман особо указывает, что происходящие качественные изменения в образе жизни людей не зависели от типа хозяйства (10, 238-244). Иными словами, процессы, характеризующие эпоху неолита, наблюдались одновременно как у земледельцев и скотоводов, так и у охотников и рыболовов. О параллельности происходивших процессов говорят не только археологи, этнографы и историки, но и представители фундаментальных наук. В частности лауреат Нобелевской премии И.Пригожин пишет: «Меня всегда изумляло, что бифуркация неолита возникла повсюду примерно в один период около десяти тысяч лет назад, но явилась она в разных формах на Среднем Востоке, в Китае или доколумбовой Америке» (16, 24-28). Еще раз хотелось бы отметить, что происходящие глобальные изменения могут найти решение на основе выдвинутой гипотезы. А согласно ей, в эпоху неолита человечеству было «10» лет. Зная интеллектуальные способности и возможности 10-летних детей, можно понять процессы, происходивщие в эпоху неолита. Для этого достаточно обратиться к диссертационной работе А.А.Шемшурина, посвященной развитию рефлексивных способностей младших подростков (23).

Проходит три тысячи лет после неолитической революции, появляются первые цивилизации человечества. Возникают первые государства и соответственно выступают первые лица страны – фараоны, цари, а также верховные жрецы. Именно в эту эпоху

создаются эпосы с народные героями. Появляется письмо и соответственно развиваются науки. Еще раз подчеркнем, что все известные качественные изменения в образе жизни людей в эпоху первых цивилизаций происходили синхронно. Об этом пишут такие известные философы и ученые, как К.Ясперс (24, 42-44), Л.Оппенхейм (14, 26), С.А.Токарев (18, 332) и др. Какими внешними факторами (экономическими, социальными и т.д.) можно объяснить параллельность происходивших событий? По нашему убеждению, в основе синхронно происходивших изменений в эпоху первых цивилизаций стоял духовный, а точнее, интеллектуальный фактор и в этот период человечеству в его интеллектуальном развитии исполнилось «11» лет. Это тот возраст в онтогенезе, когда у ребенка появляется формальное мышление, когда, говоря словами Пиаже, «субъект становится способен рассуждать гипотетико-дедуктивно, т.е. на основе одних общих посылок, без необходимой связи с реальностью или собственными убеждениями, иными словами, отдаваясь необходимости самого рассуждения в виду одной его формы, в противоположность согласованию выводов с результатами опыта» (15, 202). Если перенести эти интеллектуальные способности в процесс филогенеза, то можно будет понять, почему зародилась письменность и появилась наука, а также, почему параллельно и независимо друг от друга возникли первые личности человечества в разных уголках мира. Однако появление личности в ту эпоху было редким явлением. Полное проявление его произошло только в I тысячелетии до н.э.

Прошли еще три тысячи лет. Возникали новые параллельные события, что дало основание К.Ясперсу выделить так называемую «осевую эпоху». Давайте обратимся к мыслям самого философа: «Все это происходило посредством рефлексии. Сознание осознавало сознание, мышление делало своим объектом мышление» (24, 33). Далее он отмечает: «Все эти изменения в человеческом бытии можно назвать одухотворением» (24, 34). К.Ясперс пытается дать объяснение феномену осевого времени: «Самое простое объяснение явлений осевого времени может быть как будто бы дано в конечном итоге посредством сведения их к общим социальным условиям, благоприятным для духовного творчества мелких государств и маленьких городов, время политической раздробленности и повсеместной борьбы…. Все эти социологические соображения очень значимы и способны служить основой методологического исследования, однако, в конечном счете, они лишь проливают свет на фактические данные, но не дают объяснения их причин, ибо все эти факты сами являются составной частью духовного феномена осевого времени» (24, 47). В итоге он приходит к такому заключению: «Никто не может полностью понять, что здесь произошло: как возникла ось мировой истории!» (24, 48). Если исходить из гипотезы возрастной периодизации интеллектуальной эволюции человечества, то можно было бы дать ответ на вышепоставленный вопрос К.Ясперса. Уже было отмечено ранее, что в I тысячелетии до н.э. человечеству исполнилось «12» лет. Это как раз тот возраст, когда рефлестивное мышление включается в полную силу и за счет этого у индивида впервые формируется его относительно-устойчивая личность. Это то время, когда подросток может возразить, действовать, исходя из своего, уже осознанного решения и быть самостоятельным в своих поступках. Аналогично этому, в филогенезе появляются первые пророки, философы, мудрецы, т.е. личности, умеющие мыслить критически – именно то, чего не могло быть ранее.

Проходит еще три тысячи лет и человечество переживает процесс глобализации. Этот процесс характеризуется не только экономическим аспектом. Происходит духовное сближение людей разных национальностей, рас и вероисповеданий. Эти явления также характеризуются новизной, т.е. тем, чего не было ранее. Ведь человечеству приблизительно «13» лет, и оно выходит из своего детства, что дает ему возможность осознать себя, свое единство. Глобализация – это имманентное явление, порожденное

стремлением к духовному объединению человечества. Это всего лишь начало процесса, но процесса естественного и, по всей видимости, необратимого!

Ключевые слова: онтогенез, филогенез, возрастная периодизация щомо сапиенс, интеллектуальная эволюция человечества.

Список использованной литературы

1. Абрамова З.А. Изображение человека в палеолитическом искусстве Евразии. М., Наука, 1966, 224с.
2. Алексеев В.П., Першиц А.И. История первобытного общества: Учебник для вузов. М., Высшая школа, 1990, 351с.
3. Антропология М. Владос, 2003, 272с.
4. Борисковский П.И. Древний каменный век Южной и Юго-Восточной Азии., М., Наука, 1972, 175с.
5. Вишняцкий Л.Б. Верхнепалеолитическая революция: география, хронология, причины //Журн. «СТРАТУМ plus», №1, 2000.
6. Вишняцкий Л.Б. Культурная динамика в середине позднего плейстоцена и переход к верхнему палеолиту. Авт. дисс.док. ист.н. СПб. 2006, 37 с.
7. Выгодский Л.С. Психология развития человека. М., Смысл, 2004, 1136с.
8. Гаджиев Р.С. Проблема смысла жизни. Баку, Текнур, 2007, 158 с.
9. Григорьев Г.П. Начало верхнего палеолита и происхождение Homo sapiens, Л., Наука, 1968, 175с.
10. История первобытного общества. Эпоха первобытной родовой общины (Под ред. акад. Ю.В.Бромлея), М., Наука, 1986, 574с.
11. Кабо В.П. Первобытная доземледельческая община. М., Наука, 1986, 304с.
12. Марцинковская Т.Д. История детской психологии: Учеб. для студ. педаг. вузов. М, ВЛАДОС, 1998, 272с.
13. Окладников А.П. Утро искусства. Л., Искусство, 1967, 136с.
14. Оппенхейм А. Древняя Месопотамия. М., Наука, 1990, 319с.
15. Пиаже Ж. Избранные психологические труды. М., Просвещение, 1969, 659с.
16. Пригожин И.Р. Сетевое общество //Социологические исследования, 2009, №1.
17. Столяр А.Д. Происхождение изобразительного искусства. М., Искусство, 1985, 298с.
18. Токарев С.А. Религия в истории народов мира. М., Политиздат, 1976, 575с.
19. Черныш А.П. Об абсолютном возрасте палеолитических памятников Приднестровья // Стратиграфия и периодизация палеолита Восточной и Центральной Европы. М., Наука, 1965, 232с.
20. Черныш А.П. К вопросу о соотношении границ палеолит-мезолит и плейстоцен-голоцен и особенности развития материальной культуры и природной среды Прикарпатья //Первобытный человек, его материальная культура и природная среда в плейстоцене и голоцене. М., Изд-во Ин-та Геогр. АН СССР», 1974, 315с.
21. Формозов А.А. Памятники первобытного искусства на территории СССР. М., Наука, 1980, 136с.
22. Фоули Р. Еще один неповторимый вид. Экологические аспекты эволюции человека. М., Мир, 1990, 368с.
23. Шемшурин А.А. Развитие рефлексивных способностей младших подростков. Авт.дисс. канд. психол. н., http://www.childpsy.ru/dissertations/id/20153.
24. Ясперс К. Смысл и назначение истории. М., Республика, 1994, 527с.

Rövşən HACIYEV

BƏŞƏRİYYƏTİN İNTELLEKTUAL TƏKAMÜLÜNÜN YAŞ DÖVRLƏŞDİRİLMƏSİ HAQQINDA HİPOTEZANIN ƏSASLANDIRILMASINA DAİR

Xülasə

Məqalədə bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi haqqında hipotezanın bəzi müddəaları şərh edilir. Problemin əsas tədqiqat metodu kimi ontogenezlə filogenezin müqayisəli təhlili çıxış edir. Arxeoloji, paleoantropoloji və tarixi faktlar əsasında individin (fərdin) ontogenetik böyüməsinə müvafiq olaraq, homo sapiensin intellektual inkişaf dövrləri ayırd edilir.

Açar sözlər: ontogenez, filogenez, homo sapiensin yaş dövrləşdirilməsi, bəşəriyyətin intellektual təkamülü.

Rovshan HACIYEV

ON SUBSTANTIATION OF HYPOTHESIS OF AGE PERIODISATION IN INTELLECTUAL EVOLUTION OF HUMANITY

Summary

The article presents some prepositions of the hypothesis on age periodisation in intellectual evolution of humanity. The comparative analysis between ontogenesis and philogenesis is the main method in this issue. On the basis of generalization of archeological, paleontropological and historical data the periods of intellectual development of homo sapiens in analogy with ontogenetical progress of individual are distinguished there.

Keywords: ontogenesis, philogenesis, age periodisation homo sapiens, intellectual evolution of humanity.

UOT 378.014.15

Cəsarət VALEHOV
AMEA FHSİ, filologiya üzrə f.d.

ÖMÜRBOYU TƏHSİL ANLAYIŞI YENİ TƏHSİL PARADİQMASI KİMİ*

Yeni əsrdə sosial tərəqqinin əsas dəyəri, başlıca faktoru, məqsəd və vəzifəsi insandır. İnnovativ sosial sistem insan amilindən doğur. Bu da fərdin özünüinkişafı məsələsini ön plana çəkir. Buna nail olmağın yolu yeni əsrin inkişaf amili olan ömürboyu təhsil fenomenindən keçir.

Ömürboyu təhsil anlayışı XX əsrin ikinci yarısından etibarən Qərb təhsilşünaslığında geniş müzakirə olunmağa başlamışdır. Doğrudur , hələ SSRİ dönəmində xeyli dərəcədə deklorativ və ideoloji stereotiplərlə müşahidə olunsa belə, fasiləsiz təhsil prosesi var idi. Keçmiş sovet respublikalarında bu anlayış SSRİ-nin çökməsindən sonra - XX əsrin sonlarından etibarən daha çox aktuallıq kəsb etməyə başladı.

Ötən əsrin sonlarında Qərb ölkələrində təhsildə yeni paradiqmaya keçid - humanist təfəkkürə istiqamətlənmə ideyaları üstünlük təşkil edirdi. Beləliklə, 1980-90-cı illərdə Qərbdə ömürboyu təhsil düşüncəsində M.Noulz tərəfindən " yeni yanaşma" irəli sürüldü (1, s.155). Onun fikrincə, təhsilin yeni məqsədi - informasiya çağırışları, texnoloji inqilablar dövründə təhsilə yiyələnmədə bərabər imkanlar yaratmaqdır. Məqsəd olaraq daim dəyişən şəraitdə təhsilini artırmaq imkanlarına sahib olan "qabiliyyətli fərdlərin aşkarlanması" amili əsas götürülürdü. Noulza görə, yaşlılar ardıcıl özünütəhsil imkanlarına sahib olmalıdırlar.

Ümumiyyətlə, ömürboyu təhsil ilə bağlı Avropa ölkələrinin pedaqoji fikrində yeni düşüncə oriyentirləri formalaşmışdır. Bununla bağlı onlardan bir neçəsinə diqqət yetirmək məqsədəuyğun olardı. Məsələn, XX əsrin əvvəllərində Qərbdə texnoloji baxımdan az inkişaf etmiş ölkələr üçün xarakterik olan "ibtidaidə yekun" təhsil modeli üstünlük təşkil edirdi. Bu model Piter Carvisin qeyd etdiyi kimi, müasir cəmiyyətin tələblərinə cavab vermirdi. Qeyd olunan yanaşmaya görə, təhsil ancaq insanın formalaşması dövründə (the formativ years) lazım olur, sosial status, kamillik səviyyəsi bərqərar olduqdan sonra sanki təhsilin missiyası da bitir (2, 39). Qərb məktəbində bu yanaşmaya bir sıra təhsil tədqiqatçılarının əsərlərində rast gəlinirdi. Məsələn, Con Stüart Millin fikrincə, təhsilə mədəniyyət çərçivəsində yanaşmaq lazımdır. Həmin yanaşmaya görə, hər nəsil məqsədyönlü şəkildə özündən sonra gələn ardıcıllarını yönəltməlilir. Bu hipoteza ilə fransız sosioloq və edukoloqu Emil Dürkheym də razılaşaraq qeyd edir ki, təhsilin əsas xətti yaşlı nəslin sosial həyata hələ hazır olmayan qisminə təsir gücü ilə ölçülür (2, 40). Ancaq XX əsrin əvvəllərində Qərbin bir sıra alimləri təhsil fenomeninə bu baxışın təhsil prosesinin rasional təsviri ilə adekvat olmadığını qeyd edirdilər. Məsələn, Almaniyada 1945-ci ildən pedaqoji elmdə geniş dövriyyəyə daxil olan ömürboyu təhsil anlayışı 1970-ci ildən mahiyyət etibarilə yeni istiqamət almağa başladı. Alman edukoloqları P.Alxayt və B.Dauzin insanın ömürboyu təhsilinə iki aspektdən baxırdılar. Birincisi, təhsil siyasəti yanaşmasından- fərdi və kollektiv təlimlərin sosial təşkili nöqteyi-nəzərindən. İkincisi, pedaqoji perspektiv baxımından - insanın bioqrafik imkanları prizmasından (3, s.568, 569).

1916-cı ildə Con Dui ilk dəfə «formal təhsil» terminini işlədərək Mill və Dürkheymin təhsillə bağlı konseptual yanaşmasını müdafiə etdi. Bugün isə, Carvisin fikrincə, "formal təhsil" institutlaşmış təhsilə və tədris metodlarına aid edilir. Belə ki, insan ilk təhsil pilləsindən başlayaraq 20 yaşının ortalarına qədər aktiv təhsilə cəlb olunur. Məşhur təhsil filosofu Pitersin də qeyd etdiyi kimi, təhsil anlayışı kifayət qədər mürəkkəb fenomen olduğundan təhsilə bir çox əlavə

* Məqalə fəls.e.d. F.Qurbanov tərəfindən çapa məsləhət bilinib.

elementlərin məcmusu kimi baxmaq lazımdır (A family of similar phenomena). Pitersin fikrincə, institutlaşmış təhsil prosesi təhsil fenomeninin əhatə etdiyi tək subyekt olmamalıdır (2, s.41). O, xaotik deyil, planlı və humanizm prinsiplərinə əsaslanmalıdır. Proses bütövlükdə insan anlayışını əhatə etməli və tənqidi şüurun inkişafına yardım etməlidir. Carvisə görə təhsil - iştirakçıların öyrənməsi və dərketməsinə şərait yaradan institutlaşdırılmış və planlaşdırılmış hadisələrin ardıcıllığıdır.

"İbtidaidə yekun" təhsil modeli fəlsəfi əhəmiyyətini itirdikcə digər yanaşmalar, xüsusilə təhsilin uşaq yaşlarından başlayaraq bütün həyat boyu davam etməsi düçüncəsi özünə yer tapmağa başlayırdı. Məsələn, Almaniyanın ardınca bir sıra Avropa ölkələrində 1980-cı ildən başlayaraq ömürboyu təhsilin bioqrafik tədqiqatları inkişaf etməyə başladı. Bu tədqiqatların əsas predmeti isə yaşlıların bioqrafiyasının təhsil vasitəsilə inkişaf və transformasiyası idi.

1919-cu ildə Adam Smitin Böyük Britaniyada çap olunmuş elmi məruzəsində qeyd edilirdi ki, «yaşlıların təhsilinə bir neçə seçilmişlərin əyləncəsi» kimi baxmaq olmaz. Bu təhsil fenomeni permanent milli zərurət, vətəndaşlığın ayrılmaz aspekti kimi düşünülməli və ömürboyu davam etməlidir. P.Carvisin qeyd etdiyi kimi, Smitin bu uzaqgörən postulatı sonrakı illərdə həyata keçməmiş və daha çox ideya kimi qalmışdır (2, 63).

İkinci Dünya müharibəsindən sonrakı dövrdə UNESCO-nun təşəbbüsü ilə ömürboyu təhsil anlayışı yeni mahiyyət kəsb etməyə başladı. Bu təhsil fenomeni haqqında sistemli mühakimə yürüdən edukoloqlardan biri də P. Deyvdir. Onun fikrincə, bu təhsil paradiqması fərdin bütün ömürboyu öz sosial və professional keyfiyyətlərini təkmilləşdirmək üçün ən vacib təhsil prosesidir.

Artıq ötən əsrin 60-cı illərindən başlayaraq təhsildə radikal dəyişikliyə ehtiyac duyulur və bu dəyişikliyin mərkəzində təhsilin özünü yenidən dəyərləndirmə paradiqması yer tutmağa başladı. Belə ki, yenilənən təhsil anlayışı icbari təhsil mərhələsindən sonrakı bir strategiya olaraq dəyərləndirilirdi. Bu anlayışla təhsildə son pillə anlayışı aradan qaldırılır və ali təhsildə təhsil və iş həyatı bir-birini tamamlayırdı. Burada bir məsələni də qeyd edək ki, termin olaraq ömürboyu təhsil anlayışı daha əhatəlidir, çünki yaşlıların təhsili əslində ömürboyu təhsilin bir elementini təşkil edir.

Xüsusilə 80-ci illərdə inkişaf etmiş ölkələrdə təhsilə ayrılan vəsaitlərin azalması ilə bağlı ciddi suallar ortaya çıxmışdır. Nəticədə, bu ölkələrin təhsil sistemlərinin davamlı müzakirə proseslərinə başlanılmış və ömürboyu təhsil paradiqması sosiumun gələcəyi üçün vacib düşüncə xətti hesab olunmuşdur. Bu ölkələrdə ömürboyu təhsil anlayışının əsas hədəfləri vacib oriyentirlər kimi sonradan təhsilşünaslıqda da öz təsdiqini tapmışdır:

- məktəbəqədərki təhsil şəbəkəsinin genişləndirilməsi;
- ilk və orta təhsildə gerçək öyrənmənin təşkili;
- məktəbdən əmək bazarına doğru keçidin asanlaşdırılması;
- yaşlıların təhsilinin təşkili;
- sistemin qaynaqlarını yeniləmə;

Dünyanın qabaqcıl ölkələrində XX əsrin 90-cı illərində ömürboyu təhsil fəlsəfəsi çərçivəsində təhsil sistemlərinə yenidən baxılmış və aşkarlanan zəif nöqtələr 5 qrupda toplanmışdır:

1. Mövcud sistemin xüsusiyyətləri ya tam əhatəli deyil, ya da istifadə etdikləri vasitələr dövrün tələblərinə uyğun deyil. İnsanın ilk və orta təhsil çağında qazandığı biliklər onun yaşamı boyunca yetəcək bilik və bacarıqlara uyğun deyil.

2. Biliyin durmadan çoxaldığı müasir dünyamızda təhsil qurumları bir çox hallarda dərsliklərdən alınan biliklərin öyrənilməsinə diqqət yetirirlər. Bu da dəyişən dünyanın şərtlərinə müvafiq deyil.

3. Bir çox halda məktəblərin qeyri-sağlam rəqabəti nəticəsində öyrəncilərin bir qismi tədris mühitindən uzaqlaşırlar.

4. Təhsildə daha çox müəllim ağırlıqlı tədrisə üstünlük verilir. Bu da tələbələrin aktiv kommunikasiya mühitindən uzaqlaşmasına və biliyin daha çox direktiv formatda ötürülməsinə şərait yaradır.

5. Bir çox hallarda mövcud təhsil sistemləri tədrisin yalnız məktəb vasitəsilə mümkün olduğunu, evdə, cəmiyyətdə və digər yerlərdə biliyin verilməsinin münasib olmadığı qənaətinə gəlirlər.

İnformasiya cəmiyyətində artıq oxuyub-yazmanın sadəcə qələm vasitəsilə deyil, informasiya mühitində mümkünlüyü aksiomatik həqiqətdir. Doğrudur, hələ dünyanın bir sıra ölkələrində klassik oxuma-yazma ilə bağlı rəqəmlər o qədər də ürəkaçan deyil. Məsələn, UNESCO-nun 1995-ci il statistikasına görə, müasir dünyada 15 və daha artıq yaşda 1 milyard oxuyub-yaza bilməyən insan vardır. Bunun da 70%-i Asiya, 20%-i isə Afrika qitəsində yaşayır. Bu statistikada payı olan ölkələrin sıralanması belədir: Hindistan, Çin, Pakistan, Banqladeş, Nigeriya, İndoneziya, Braziliya, Misir, İran, Sudan və sair (4, s.105, 115). Dünyada oxuyub-yaza bilməyən insanların 95%-i inkişaf etməmiş və ya inkişaf etməkdə olan ölkələrin payına düşdüyü müəyyən olunub, 5%-i isə sənaye ölkələrin payına düşür. Qadınlarda bu nisbət 35%, kişilərdə 20%-dir. Gənclərə gəlincə isə, statistik hesabata görə dünyada 85 milyon gənc oxuyub-yaza bilmir. Ayrıca inkişaf etməkdə olan ölkələrdə 6-11 yaş arası 100 milyondan çox uşağın məktəbə getmədiyi müəyyən olunub.

2000-ci ilin martında Lissabonda təşkil olunan Avropa Şurasının toplantısında üzv dövlətlərin hökumət liderləri, Avropa Birliyinin dünyanın ən rəqabətçi və dinamik bilik iqtisadiyyatı halına gələ bilməsi, daha çox və daha yaxşı iş imkanları təşkil edə bilən daimi bir iqtisadi böyümə gerçəkləşdirə bilməsi və sosial uyğunluğun təmin edilməsi məqsədi ilə 10 illik bir strategiya müəyyənləşdirmişlər. Bu strategiyanın əsas istiqamətlərindən olan həyatboyu öyrənməyin yalnız rəqabət və iş sahələri üçün deyil, sosial istisnaların qarşısını almaq, aktiv vətəndaşlıq və şəxsiyyətin inkişafı kimi sahələr üçün də böyük önəmi qeyd olunmuşdur: "Bilik, vərdiş və bacarıqları artırmaq məqsədi ilə fərdi, ictimai və iş perspektivlərində həyatboyu sürən bütün öyrənmək fəaliyyətləri"təqdir olunur və cəmiyyətin inkişafı üçün həyati vacib sayılır (5). Bu strategiyanın müəyyənləşdirilməsi zərurəti onunla bağlı idi ki, müasir Avropada elm və texnologiyanın sürətlə inkişafı nəticəsində biliklərin hər il orta heabla 20%-i öz aktuallığını itirir və beləliklə, 5-8 il ərzində peşələrin məzmunu tamam köhnəlir.

XXI əsrin inkişaf amillərindən biri hesab edilən ömürboyu təhsil paradiqması inkişaf etmiş cəmiyyətlərdə aşağıdakı sahələri əhatə edir:

- məktəbəqədərki dövrdən başlayaraq təqaüddən sonrakı dövrə qədər(insanın bütün ömürboyu-C.V) bütün bacarıq, bilik və keyfiyyətləri qazanmaq və təkmilləşmək. Beləliklə, hər bir vətəndaşın bilikəsaslı cəmiyyətə uyğunlaşmasını təmin etmək, sosial və iqtisadi həyatda aktiv iştiraka təşviq etmək.
- bütün öyrənmək növlərinə önəm vermək. Məsələn, iş yerində peşə vərdişləri və qeyri-rəsmi öyrənmək.

Digər tərəfdən, Avropa Komissiyası tərəfindən yayımlanan "Həyatboyunca Öyrənmə Memorandumu" (Memorandum on Lifelong Learning) içərisində *"həyatboyunca öyrənmə"* strategiyasına dair altı təməl istiqamət müəyyənləşdirilmişdir (6).

İştirak. Yalnız beynəlxalq, regional və ya lokal qərar alma səviyyələrində deyil, eyni zamanda təhsil verən qurumlar (məktəb, universitet və s.), iş dünyası, sosial əməkdaşlar, yerli dərnəklər, peşəkar rəhbərlik xidmətləri, araşdırma mərkəzləri və s. arasında da ortaqlıq fəaliyyətləri.

Bilik cəmiyyətində öyrənmə. Bilikəsaslı cəmiyyətdə əsas bacarıqların bilik və informasiya texnologiyalarını əhatə edən öyrənmək tələbinə işıq tutma;

Yetərli qaynaq. Öyrənməyə yatırılacaq ictimai sərmayələri və özəl sərmayələri önəmli ölçüdə artırmağı da əhatə edən yetərli qaynaqlandırma. Bu yalnız ictimai büdcələri artırmaq deyil,

eyni zamanda mövcud qaynaqların effektiv bölgüsünü təmin etmək və müxtəlif yeni sərmayələri təşviq etmək mənasına gəlir. Belə ki, insana yatırılan sərmayə iqtisadi sahənin hər nöqtəsində böyük önəm daşıyır.

Öyrənmə fürsətlərini əldə etmək. Öyrənmək imkanlarını daha münasib hala gətirmək. Bu mənada fiziki qüsurlu vətəndaşlar və ya ucqar bölgələrdə yaşayanlar kimi fərqli qruplar üçün xüsusi səy göstərilməlidir.

Öyrənmə mədəniyyəti yaradılması. Öyrənmək istəklərini asanlıqla dilə gətirə bilməyən fərdlər üçün imkanlar təqdim etmək, surətilə imic baxımından daha çox dəyər verilən bir öyrənmək görüntüsü və simvolu yaratmaq və bu yolla bir öyrənmək mədəniyyəti formalaşdırmaq, öyrənməni asanlaşdırmaq.

Mükəmməllik üstündə mərkəzləşmək. Keyfiyyət yoxlaması və irəliləyişi təsbit ədən meyarlar yolu ilə mükəmməlliyi hədəfləmək. Daha konkret bir ifadəylə uğurun fərqinə varılıb mükafatlandırılması üçün standartlar, rəhbər prinsip və mexanizmləri müəyyənləşdirmək (6).

XXI əsrdə dəyərlərin yeni "status"da dərk olunması, sosiumun həyat şərtlərinin dəyişməsi ömürboyu təhsil üçün əlverişli zəmin yaratdığından müasir dövrdə bu təhsil növü həm cəmiyyət, həm də fərd üçün xüsusi əhəmiyyət kəsb edir.

Mütəxəssislər onu da qeyd edirlər ki, insanın 18-22 yaşlarında öz-özünə nəzarət etmə keyfiyyəti yaranır. Gəncin müstəqil yetişkənlik dövrü 22 yaşından başlayaraq təqribən 15 il davam edir. Xüsusilə Azərbaycan təcrübəsində fərdin aktiv təhsil dövrü 17-23 yaş arasında olduğundan bu dönəm fərdin əlavə təhsillə təmasda ola biləcəyi ən məhsuldar dövr sayılır. Eləcə də orta yaşın ilk dönəmi (35-40 yaşları) ömürboyu təhsil üçün çox vacibdir. Ömürboyu təhsil anlayışı zamanın qlobal çağırışlarına cavab verməyə bilməz. Bu gün ənənəvi dəyərlərin yerinə öz loqotipi, brend və trendləri ilə virtual dünya formalaşır. Bu yanaşmada ömürboyu təhsil dəyişən həyat şərtlərinin identifikasiya və inteqrasiya imkanları yaradır.

Bütün dünyada və eyni zamanda Azərbaycanda baş verən sosial-iqtisadi proseslər daim öz üzərində işləməyi vacib bilən yeni insan tipini tələb edir. Buna görə də ömürboyu təhsil pedaqogikası müasir təhsil sisteminin fundamental əsası ola bilər. Bu gün dünyada baş verən iqtisadi böhran zamanında bir sıra ölkələr üçün ömürboyu təhsil böhrandan çıxmağın açar amillərindən hesab olunur.

Bəs üzun müddət planlı idarəetmə (keçmiş SSRİ-nin tərkib hissəsi kimi Azərbaycanda da - C.V) şəraitində qazanılmış ixtisas və peşə vərdişləri ilə müasir dövrün tələblərinə uyğunlaşmaq mümkündürmü ?

Digər tərəfdən hər il ölkədə təqribən 140 min gənc orta məktəbi bitirir. Onların təqribən 28 min nəfəri ali,16 mini orta ixtisas, 10 min nəfərə yaxını texniki-peşə məktəblərinə qəbul olunur. Yerdə qalan 80 mindən çox gənc heç bir peşə vərdişi olmadan əmək bazarına daxil olur. Deməli, Azərbaycan gənc əhaliyə malik ölkə kimi ömürboyu təhsilin verdiyi üstünlüyün strateji məsələ olduğunu qəbul edərək texniki-peşə təhsilinin inkişafına xüsusilə üstünlük verməlidir.

Ömürboyu təhsilin didaktik-texnoloji blokuna androqoji prinsiplər və keyfiyyətin idarəolunması modelləri, yaşlıların təhsilinin psixo-androqoji diaqnostikası və empirik nəzəriyyə və konsepsiyası daxildir (D.Carvis, D.Kolb, B.Barnet, A.Maron və başqaları) (7, s.99). Bu sistemin ənənəvi sistemdən başlıca fərqi onun texnoloji xarakteristikasıdır. Yeni təhsil paradiqmasını şərtləndirən əsas keyfiyyət isə kompyüter və telekommunikasiya texnologiyalarının yüksək potensialı və nəzərəçarpan tendensiya ümumi təhsil modelindən fərdə yönələn təhsilə keçid və dialoji mahiyyətidir. Xüsusilə, biliklər cəmiyyətində insan qaynaqlarının inkişafı və ömürboyu təhsildə elektron təhsil önəmli rol oynayır. Ona görə də tədrisdə daha yüksək effektivliyə nail olmaq üçün assimetrik kommunikasiyanın bərabərtərəfli dialoqla əvəzlənməsi vacibdir. Bu yanaşmada məşhur tədqiqatçı Habermas müasir elektron medianın birtərəfli təhsil texnologiyalarını hətta interaktiv təmasla yaymaq imkanlarına skeptik yanaşırdı (8, s.134-135) Cünki bu cür təmas iştirakçıların qarşılıqlı mübadilə imkanlarını tam reallaşdıra bilmirdi . Nobel

mükafatçısı A.Qor da bu düşüncəni bölüşərək elektron medianın birtərəfli informasiya mübadiləsində iştirakçıların tam ünsiyyətə imkanı olmadığını qeyd edir və təhsil faktorunun toplumun demokratik və vətəndaşlıq prosesində iştirakının əsas zəmini olduğunu bildirirdi (9, s.383, 384). Habermas ömürboyu təhsil sosiologiyasının əsas tezisini onunla bağlayırdı ki, tədrisdə qazanılan biliklər həyatda baş verənlərlə səbəb-nəticə əlaqəsində olmalı (emansipatory learning) və qarşıya qoyulan məqsədlərə çatmaq missiyasını daşımalıdır. Bu yanaşma vətəndaş təhsilinin məqsəd və təyinatının dərk olunmasında əsas postulat hesab olunur. Son dövrlərdə tədqiqatçı D.Mezirov Habermasın yanaşmalarına öz yaradıcı əlavələrini edərək transformasiya olunan tədris nəzəriyyəsini irəli sürdü. O, öyrənmə mühitində üfüqi kommunikativ münasibətlərə üstünlük verilməsinin tərəfdarı kimi çıxış edirdi. Mezirov ömürboyu təhsil nəzəriyyəsini perspektiv anlayışı ilə zənginləşdirdi. Mezirovun "perspektiv"i çərçivəsində insan özünü şəxsiyyət kimi dərk edərək cəmiyyətdə ondan gözlənilən sosial rolu uğurla ifadə edə bilir (10, s.13) Deməli, burada ömürboyu təhsil anlayışının vətəndaş cəmiyyətinin formalaşmasında da vacib rol oynadığı qənaətinə gəlmək olar.

Bu gün Azərbaycanın inkişaf perspektivləri daha çox insan resurslarına qoyulacaq investisiyalarla bağlıdır. Bu həm də strateji hədəf olan qara qızılın «insan qızılına» çevrilməsi deməkdir. Artıq sosial məsuliyyət, demokratiya və işsizliyin aradan qalxmasında önəmli vəsilə olan "ömürboyu təhsil" və ya beşikdən məzaradək öyrənmə düşüncəsi milli inkişafın əsas xətlərindən birinə çevrilib. Bu təhsil paradiqması ilə fərdlər yaşayış standartlarını yüksəltmək, öyrənməyi öyrənmək, düşünülmüş qərar vermək vərdişlərini, toplum isə hər kəsin ömürboyu öyrənmə fürsətlərindən yararlanmaq və demokratik təmelləri gücləndirərək inkişafı fakuslaya bilər. Eyni zamanda ömürboyu öyrənmə fəlsəfəsi ilə indiyədək insan üçün bir çox sahədə üstünlük sayılan xüsuslarda da ciddi korrektələr olunmalıdır: ensiklopedik biliklərə, oxuyub-yaza bilməməyə, biliyin ənənəvi yollarla axtarılmasına son verilməsi, ənənəvi təhsil idarəetmə fəlsəfəsinin dəyişilməsi və təhsilin demokratikləşdirilməsi həyata keçməlidir. Bütün bu qeyd olunanlarla ömürboyu öyrənmə anlayışı qloballaşan dünyada insan gücündən təsirli bir şəkildə yararlanmağı, istehsal və xidmət sektorunda istifadə olunacaq bilik və bacarıqlara sahib analiz və sintez edən yeni insan düşüncəsini ehtiva edə bilər.

Açar sözlər: ömürboyu təhsil, yaşlıların təhsili, təhsil fenomeni, informasiya cəmiyyətində təhsil, təhsilin andraqoji prinsipləri, insanın yeni tipi.

İstifadə olunmuş ədəbiyyat

1. Ломтева Т.Н. Андрагогика в контексте гуманистической образовательной парадигмы. – Ставрополь, СГУ.

2. Jarvis P. Adult Education and Lifelong Learning. Theory and Practice. 3rd edition. London and New York: Routledge Faimer, Tailor and Francis Group, 2004.

3. Alheit P., Dauzien B. Bildingsprozesse über die Lebenspanne und lebenlanges Lernen//Tippelt R(Hg.): Handbuch Bildungforschung. Opladen, 2002.

4. Von Furstenberg C. How globalisation has changed the playing field. UNESCO Source, April 2000, Issue 122.

5. World Bank. Lifelong Learning in the Global Knowledge Economy. Washington DC: World Bank, 2003.

6. EU Commision. Making A European Area Of Lifelong Learning A Reality, http://www1.worldbank.org/education/lifelong_learning

7. Андрагогика: Материалы к глоссариям. Науч.ред. С.Г.Верщловский. СПб., СПбАППО, 2004.

8. Michael R.Welton. In defense of the Lifeworld: A Habermasian Approach to Adult Learning. 2002.

9. Альберт Гор. Атака на разум.СПб, Амфора.ТИД Амфора, 2008.

10. Mezirov J. Transformative dimentions of adult learning. Jossey-bass.,Gale@Holsten,1991.

Джасарат ВАЛЕХОВ

ПОЖИЗНЕННОЕ ОБРАЗОВАНИЕ КАК НОВАЯ ОБРАЗОВАТЕЛЬНАЯ ПАРАДИГМА

Резюме

Одной из новых парадигм, принимаемых не только в области высшего образования, но и во всей системе образования, является пожизненное образование. Пожизненное образование как понятие, выражающее постоянное обучение с детства до пенсионного возраста, охватывает как формальное (начальное, среднее и высшее образование), так и неформальное образование (внутрисемейное, образование в обществе и т. д.). Пожизненное образование – образовательная парадигма, с помощью которой достигается успех, использует все способы, включая дистанционное обучение, электронное обучение, постоянное обучение, открытое обучение и т.п.

Пожизненное образование преследует цель поощрять людей выделять больше инвестиций на обучение, приобретать основные знания и навыки, включая электронное чтение и писание, и расширять возможности и новаторского обучения. В свете этих идей анализируются перспективы пожизненного обучения в Азербайджане.

Ключевые слова: обучение в течение жизни, образование взрослых, феномен образования, образование в информационном обществе, андрагогические принципы обучения, нового типа человека.

Jasarat VALEKHOV

THE CONCEPT OF LIFELONG LEARNING AS A NEW EDUCATIONAL PARADIGM

Summary

One of the new paradigms accepted not only in the field of higher education but also in the whole educational system is lifelong learning. Defined as permanent learning from childhood to retirement age, lifelong learning includes not only formal learning (primary, secondary and higher education) but also informal learning (intra-family education, learning in a community, etc). Lifelong learning is an educational paradigm paving the way to success by using all possible tools, such as distance learning, e-learning, permanent learning, open learning, etc. Its purpose is to encourage people to make a higher investment in gaining knowledge, to acquire basic skills and capabilities including electronic reading and writing, and to extend flexible and innovative learning possibilities. In the light of these ideas the prospects of lifelong education in Azerbaican are analysed.

Keywords: lifelong learning, education of adults, phenomenon of education, education in information society, andragogical principles of education, new human.

UOT 11

Novruz İMANOV
AMEA FSHİ, e.i

KVANT-SAHƏ DÜNYA MƏNZƏRƏSİNİN FORMALAŞMASI PROBLEMİ*

Elmin inkişafının tədqiqi onda iki müxtəlif keyfiyyətli cəhəti – ekstensiv və intensiv cəhətləri fərqləndirməyə imkan verir. Bir az ideallaşdırsaq deyə bilərik ki, ekstensiv inkişaf gedişində elmi nəzəriyyələrin konseptual aparatının əhəmiyyətli dəyişməsi baş vermir. Elmi bilik sisteminin əsas struktur vahidləri kimi elmi nəzəriyyələr mövcud elmi dünya mənzərəsi çərçivəsində inkişaf edir, gərçəklik hadisələrinin hər yeni sahəsi dərk edilməsi üçün artıq qəbul edilmiş prinsiplərin, qanunların, metodların və anlayışların məcmusunu qarşılıqlı əlaqəli surətdə tətbiq etməklə öz sahələrini genişləndirirlər. Bu halda fiziki reallıq özünün müəyyən bir səviyyəsində inkişaf edir. Nəzəriyyələrin belə tətbiqi aksiomaların yaxud onların isnad prinsiplərinin interpretasiyası kimi həyata keçirilir. Beləliklə, hər hansı törəmə modelin qurulmasında zəruri şərt isnad nəzəriyyənin müddəalarının həqiqiliyinin qəbul edilməsidir. Əgər isnad nəzəriyyənin aksiomaları həqiqidirsə, onda törəmə nəzəriyyənin nəticələri yanlış ola bilməzlər. Buna misal kimi Nyuton mexanikası və Nyuton qravitasiya nəzəriyyəsi arasındakı münasibəti göstərmək olar. Burada mexanika dedikdə isnad nəzəriyyə, qravitasiya nəzəriyyəsi altında isə – törəmə nəzəriyyə başa düşülür. Digər münasib misal sifətində kvant mexanikası və kvant kimyası arasındakı münasibəti göstərmək olar. Bu münasibətlərin özü bir o qədər sadə olmasa da, elmin intensiv inkişafa keçdiyi, yeni elmi dünya mənzərəsinin formalaşdığı dövrdə vəziyyət müqayisə olunmaz dərəcədə mürəkkəbləşir. Bu halda elmin, onun nəzəriyyələrinin məntiqi və konseptual yenidənqurması baş verir. Məntiqi nöqteyi – nəzərdən elmin intensiv inkişafı yaxud yeni elmi dünya mənzərəsinin yaranması nəzəriyyələr arasında deduktiv əlaqənin qırılmasını bildirir. Lakin bu heç də o demək deyildir ki, intensiv inkişaf zamanı yaranan yeni nəzəriyyələr ilə köhnə nəzəriyyələr arasında ümumiyyətlə heç bir əlaqə yoxdur. Biliyin, o cümlədən elmi biliyin inkişafında varislik mühüm prinsipdir. Elmi metodologiyada o uyğunluq prinsipi ilə ifadə olunur. Bu prinsip atom nəzəriyyəsinin, kvant mexanikasının, nisbilik nəzəriyyəsinin yaranmasında mühüm rol oynamışdır.

Elmi biliyin inkişafının ekstensiv halında çox ümumi olan və az ümumi olan nəzəriyyələr arasında deduktiv əlaqə onu göstərir ki, xüsusi halda çox ümumi olandan digərini almaq olar. Məsələn, fərz etmək olar ki, müəyyən şərtlər daxilində relyativik mexanikadan klassik mexanikanın formal – riyazi strukturu və əsas məzmunu alınmalıdır. Amma göstərilən nəticə implikativ olsaydı onda o aşağıdakını bildirərdi: relyativik mexanika daha ümumi nəzəriyyə olduğundan bir məntiqi mühakimə kimi həqiqidir və buna görə də az ümumi nəzəriyyə olan klassik mexanika bir nəticə kimi yanlış ola bilməz. Lakin paradoks ondadır ki, işıq sürətinə yaxın sürətlərdə baş verən proseslərdə klassik mexanika yanlış nəticələr verir.

Artıq gətirilən misal onu göstərir ki, elmi biliyin intensiv inkişafı zamanı köhnə və yeni nəzəriyyələr arasında elə münasibətlər yaranır ki, məntiqin sadə qaydaları ilə ifadə oluna bilmirlər və tədqiqat üçün daha dərin, məzmunlu yanaşma tələb edirlər. İntensiv inkişafın kulminasiya nöqtəsi elmi inqilablar, yeni elmi dünya mənzərəsinin yaranmasıdır. Elmdə bu fundamental konsepsiyaların dəyişməsi köhnə nəzəriyyələrin yeniləri ilə inkar edilməsi, yeni elmi anlayışların yaranması kimi özünü büruzə verir.

İndi kvant və klassik nəzəriyyələr arasındakı qarşılıqlı münasibəti nəzərdən keçirək. Əgər kvant mexanikası timsalında kvant nəzəriyyəsini klassik nəzəriyyəyə nisbətən daha ümumi olan

* Məqalə f.e.d., prof. Ə.Abasov tərəfindən çapa məsləhət bilinib.

və buna görə də isnad nəzəriyyə, klassik nəzəriyyəni isə son hədd, törəmə hal kimi götürmüş olsaq onda elmin ekstensiv inkişaf modelinə görə aşağıdakı vəziyyət yaranır. Göstərilən nəzəriyyələr arasında deduktiv əlaqə olmalıdır. Bu isə onu bildirir ki, klassik nəzəriyyənin həqiqiliyinin kafi şərti kvant nəzəriyyəsinin həqiqiliyidir. Bununla belə, biz bilirik ki, birincisi, kvant sahəsi hadisələrinin klassik formada izahları yanlışdır, ikincisi isə, kvant nəzəriyyəsi müddəalarını klassik fizika dili kontekstindən kənar qısaca və dürüst ifadə etmək mümkün deyil. Bu isə öz növbəsində onu bildirir ki, kvant nəzəriyyəsi müddəalarının həqiqiliyi haqqında yalnız klassik fizika dili ilə deyilənlərin həqiqiliyinin ehtimal edilməsi ilə mümkündür. Beləliklə, bir tərəfdən, kvant fizikasının anlayış və prinsiplərinin klassik fizikanın anlayış və prinsiplərinə uzlaşa bilmədiyi, digər tərəfdən isə birincinin nəticələrinin digərinin anlayışlarından kənar məzmunlu ifadəsi mümkünsüz olur. Kvant nəzəriyyəsi bir tərəfdən sanki nə isə bir yeni, daha ümumi konseptual məzmuna iddia edir, digər tərəfdən isə bu məzmun yalnız köhnə, klassik fizika çərçivəsində interpretasiya edilir. V.Heyrenberq bu idraki vəziyyəti aşağıdakı kimi şərh edirdi: «Hər hansı bir elmi fəaliyyət yalnız bizim onlara cavab verməyə cəhd etdiyimiz suallarla müəyyənləşir. Lakin bu sualları ifadə etmək üçün bizə maraqlandığımız hadisələrə yaxınlaşa bilməyimiz üçün anlayışlar lazımdır. Adətən belə anlayışlar elm tarixindən götürülmür; onlar bizə hadisələrin mümkün mənzərəsini bildirirlər. Lakin biz yeni hadisələr sahəsinə qədəm qoyanda bu anlayışlar, inkişafa kömək etməkdən daha çox onu əylədən yararsız bir topluya çevrilirlər. Ancaq bu halda da biz onlardan istifadə etməyə məcburuq və biz ənənələrdən gəlib çatmış anlayışlardan əl çəkməklə bir şeyə nail ola bilmərik» (1, s.210-220).

Klassik və kvant nəzəriyyələri arasında yaranmış bu cür «dairəvi» bağlılığa bir çox tənqidi münasibət var idi. Əsas etiraz A.Eynşteyn tərəfindən gəldi. Əgər Bor kvant-fiziki idrakın predmeti kimi «hadisəni» hesab edirdisə Eynşteynin fikrincə, bu həqiqi obyektiv qanunlara əsaslanan dünya mənzərəsi olmalıdır. Amerika tədqiqatçısı E.Makkinnonun qeyd etdiyi kimi, «… cihazların köməyilə müşahidə edilən hadisələr onların arxasında gizlənən onlara obyektiv surətdə cavabdeh olan reallıqla izah olunmalıdır. Müvəffəqiyyət qazana biləcək belə fiziki reallığın yeganə təqdimat üsulu onu sadə, təbii və yaxşı olardı, estetik riyazi formada təqdimatıdır» (2, s.321, 338). Borun mövqeyinin Eynşteyn tərəfindən tənqidinin əsas məğzi ondan ibarətdir ki, Bor fiziki reallığı nəzərdən keçirirdi və obyektiv reallığı layiqincə qiymətləndirmirdi.

Kvant mexanikasının Kopenhagen interpretasiyasının ünvanına deyilən daha bir tənqidi arqumentlər əsasən Borun bu tezisinə qarşı yönəlmişdi ki, «eksperimental qurğuların və müşahidə nəticələrinin təsviri anlaşılan dildə, lazımi tərzdə təkmilləşmiş adi fiziki terminologiyanın tətbiqi yolu ilə aparılmalıdır».

Bu tənqidi fikirləri daha ətraflı nəzərdən keçirək.

Eynşteyn hesab edirdi ki, kvant mexanikasının statistik əsası keçici xarakter daşıyır. O yazırdı: «Mən hələ inanıram ki, reallığın elə modelini, yəni elə nəzəriyyə yaratmaq mümkündür ki, təkcə şeylərin hərəkət tərzinin ehtimalını deyil, onların özünü ifadə etsin» (3, s.528). Eynşteynin fikrincə, kvant nəzəriyyəsi bir də ona görə qeyri-kafidir ki, klassik anlayış və təsəvvürləri kifayət dərəcədə radikal dəyişmir. Onun nöqteyi-nəzərincə məhz bu nöqsan kvant nəzəriyyəsi üçün ehtimal konsepsiyalardan və statistik təsəvvürlərdən istifadə etmək zəruriyyəti yaradır. O çox düzgün qeyd edirdi ki, «…kvant mexanikasında qüvvə və deməli potensial enerji klassik anlayışı saxlanılır və təkcə hərəkət qanunu tamam yeni bir şey ilə əvəz olunur. Nəzəriyyənin riyazi apparatının təkmilliyi və onun müvəffəqiyyətləri bunun üçün verdiyimiz qurbanların ağırlığını nəzərimizdən gizlədir» (4, s.185-186). Kvant nəzəriyyəsinin göstərilən nöqsanlarının aradan qaldırılması yolunu Eynşteyn atomizm prinsipləri əsasında onun sonrakı inkişafında görürdü: «Ancaq mənə elə gəlir ki, son nəticədə aydınlaşacaq ki, qüvvənin və uyğun olaraq potensial enerjinin əvəzinə… elə elektronun özü kimi bir mənada atomik struktura malik bir şey qəbul etmək lazımdır» (4).

Beləliklə, kvant nəzəriyyəsinin təsvirlərinə hər hansı bir dəyişiklik və dəqiqləşmə olmadan klassik anlayışların daxil olması Eynşteyni qane etmirdi. Bu xüsusən fəza və zaman anlayışlarına aiddir. Bununla belə, kvant nəzəriyyəsi əvvəlki kimi, fizikaya daxil olmuş statistik konsepsiyalardan, fəza və zamanın köhnə Qaliley təsəvvürlərindən istifadə edir; relyativik kvant nəzəriyyələri ilə relyativik və kvant nəzəriyyələrinin əsas postulatlarını uzlaşdırmaq cəhdlərində xeyli riyazi və məntiqi çətinliklərlə üzləşir. Əgər Borun kvant nəzəriyyəsinə qarşı bu etirazları elmi dünya mənzərəsini, nəzəri – idrakı məsələləri əhatə edirdisə, digər tənqidi arqumentlər əsas etibarilə empirik bilik səviyyəsinə aiddir. Burada N.Borun yuxarıda qeyd edildiyi bir tezis – cihaz və onun göstəriciləri klassik nəzəriyyə ilə təsvir edilməlidir - tezisi tənqid hədəfi olur. Onlar haqlı olaraq qeyd edirlər ki, kvant fizikası klassik anlayışları təkcə mikroaləmin hadisə və proseslərinin nəzəri təsvirində deyil, həm də eksperometrik ölçmələrində müşahidə edilən spektr xəttini dalğa uzunluğu ilə əlaqələndirmək üçün interferensiya mənzərəsinin klassik tədqiqi istifadə edilir, hərçənd fotolövhənin qaralması klassik elektromaqnit sahəsi ilə deyil, ayrı-ayrı fotonlarla baş verir. Maqnit sahəsində olan qabarcıqlı kameranın işçi maddə sahəsində keçib-gedən kvant obyektlərinin müşahidəsi zamanı eksperiment aparan fikirlər trayektoriyanın klassik konstruksiyasından istifadə edirlər, baxmayaraq ki, kvant nəzəriyyəsi elə yarandığı vaxtdan belə konstruksiyaları fiziki qeyri-real hesab etmişdi.

Kopenhagen interpretasiyası çərçivəsində eksperimental vəziyyətə belə yanaşma N.Borun – eksperimental qurğular və müşahidə nəticələri klassik fizikanın dili ilə təsvir olunmalıdır – tezisi ilə ifadə olunur. Lakin heç də bütün fiziklər bununla razılaşmırlar, onun süni yaxud apriori olduğunu bildirirlər.

Birincisi, kvant mexanikasının Kopenhagen interpretasiyasına görə kvant obyekti və makroskopik cihaz kvant hadisələri çərçivəsində ayrılmaz tamlıq təşkil edir. Bor göstərirdi: «Atom obyektlərinin davranışını onların hadisələr baş verən yerdə şəraiti qeyd edən ölçü cihazları ilə qarşılıqlı təsirindən kəskin surətdə məhdudlaşdırmaq mümkün deyil… Tipik kvant effektlərinin bölünməzliyi özünü onda göstərir ki, hadisələri ayırmağa edilən hər hansı bir cəhd eksperimental qurğunun dəyişməsini tələb edir…» (3, s.406-407).

Bu cür tamlığın müşahidə olunan təzahürləri bir tərəfdən, nəzəriyyənin riyazi formalizmi səviyyəsində öz-özünə əlaqəyə girən oneratorlarla, digər tərəfdən isə klassik fizika dilində təsvir edilən laboratoriya əməliyyatları ilə əlaqədar olmalıdır. Lakin bu tələb, Kopenhagen interpretasiyasının tənqidçilərinin fikrincə, hətta prinsip etibarilə mümkün deyil: axı klassik fizika dilində istifadə edilən anlayışlara, obyektiv reallıqda onları mikroaləmlə bağlayan heç bir şey uyğun gəlmir.

İkincisi, Kopenhagen interpretasiyası fiziki və obyektiv reallığı eyniləşdirən klassik fiziki konsepsiyaların ontoloji məzmununu həddən artıq şişirdir və dilin aktiv konstruktiv rolunu layiqincə qiymətləndirmir. Ümumi götürülərsə, klassik fizikanın dili adi, makroskopik təcrübənin yeganə mümkün konkretləşməsi deyil.

Nəhayət, üçüncüsü, klassik və kvant təsvirləri arasındakı sərhəd dəqiq müəyyənləşdirilməmişdir, makro və mikroaləm arasındakı sərhəd ilə üst-üstə düşmür. Buna biz, məsələn, makreskopik kvant hadisələrinin, ifrat axıcılıq, ifrat keçiricilik, lazer şüalanması və s. hadisələrin tədqiqi zamanı müşahidə edirik. Bununla belə, kvant fizikasında istənilən cihaz kvant hadisələrinə həssas olmalıdır, buna görə də onu təkcə klassik fizikanın dili ilə təsvir etmək olmaz.

Beləliklə, aşağıdakı mənzərə yaranır. Bir tərəfdən klassik fizika, onun anlayışları, təsəvvürləri və metodları, faktiki olaraq, bütün səviyyələrdə kvant-fiziki idrak strukturunda istifadə edilirlər. Bu baxımdan klassik anlayışların, təsəvvürlərin və metodların kvant fizikası üçün dəyəri, birincilərin ikincilər üçün zəmin olduğu aydındır. Bununla belə o da aydındır ki, obyektiv reallığın digər sahələrinin, o cümlədən mikroaləmin obyektləri bizim dilimizin, psixikamızın ənənələrinə riayət etməyə heç də borclu olmadıqlarından bu cür istifadə məhduddur.

Kvant mexanikasının ideyaları əsasında fiziki dünya mənzərəsi yeni vəhdətlik pilləsinə qalxdı. Atom quruluşu və spektrlər, Mendeleyevin dövri qanunu, kimyəvi birləşmələrin təbiəti, həmçinin metalların və kristalların quruluşu təbii tərzdə orada öz yerini tapdı. Kvant-mexaniki təsəvvürlərin köməyilə klassik fizikada empirik yolla kəşf edilmiş maddələrin bütün xassələri, konstantları izah olundu.

Nəzəriyyə yaradarkən klassik fizikanın istifadə etdiyi əsas mücərrəd anlayışlar, konstruksiyalar fiziki proseslərin mütləq xarakterli olması və onların təsvirinin istənilən qədər dəqiqliklə əldə etməyin mümkünlüyü ideyasından irəli gəlir. Fərz olunurdu ki, fiziki proseslər «öz-özünə» subyektdən asılı olmayaraq baş verir. Müşahidələrin hansı vasitələrlə aparılması və fiziki xarakteristikaların ölçülməsi məsələsinə prinsipial əhəmiyyət verilmirdi – bütün nəzəri anlayışlar fiziki proseslərin özlərinin xarakterlərini təsvir etməklə yalnız onların özlərinə şamil edilirdi. Müşahidə prosesi ilə fiziki nəzəriyyə məşğul olmurdu, onun xarakterik cəhətləri fiziki dünya mənzərəsinə daxil deyildi.

Digər təsəvvür fiziki prosesin müxtəlif xarakterik cəhətləri haqqında biliklərin qeyri-məhdud dəqiqləşdirilməsinin mümkün hesab edilməsi idi. «Bu mücərrəd fikir əvvəlki ilə əlaqəlidir. Əgər hesab etsək ki, fiziki proses müşahidə şəraitindən asılı deyil…, onda düşünmək olar ki, müşahidə şəraitini dəyişməklə eyni bir prosesin müxtəlif cəhətlərini əldə etmək olar. Bu yolla əldə edilən məlumatları vahid dünya mənzərəsinə kombunasiya etməklə biz fikri prosesin dəqiqləşdirilmiş təsvirini, onun prinsip etibarilə qeyri-məhdud ola biləcək təfsilatlarını əldə edə bilərdik» (5, s.125).

Başqa sözlə desək, klassik fizikanın dünya mənzərəsi müşahidələr haqqında azacıq da olsa məlumatı olmayan, sırf obyekti öyrənən dünya mənzərəsi idi. Nisbilik nəzəriyyəsinin timsalında fizika, ilk dəfə olaraq, fiziki proseslərin xarakterinin təyin edilməsində müşahidə (ölçmə) prosesinin əhəmiyyətini yenidən nəzərdən keçirdi. Bu faktorun xüsusi əhəmiyyətini Bor belə qeyd edirdi: «Hər hansı bir fiziki hadisənin əhəmiyyətli dərəcədə müşahidəçinin nöqteyi-nəzərindən asılılığını göstərməklə, bu yeni baxış bizim kainatımızın dünya mənzərəsinin vahidliyi və gözəlliyi üçün çox şey vermişdir» (6, s.40).

Bu istiqamətdə kvant mexanikası daha irəli getdi. Fiziki hadisələrin yeni anlamı sayəsində o fiziki dünya mənzərəsinə onun əhəmiyyətli bir hissəsi kimi müşahidə mənzərəsini də daxil etdi: «Hadisələrin bizim müşahidələrimizdən asılı olmayaraq obyektiv mövcudluğu haqqında əzəli fəlsəfə məsələsinin tamam başqa müstəviyə qoyulması təbiətşünaslığı tamamilə yeni vəziyyətə gətirir» (3, s.69).

Fiziki kəmiyyətlərin ölçülməsi məsələsi müasir fiziki dünya mənzərəsinin qurulmasında tədbiq edilən anlayışların qanuniliyinin əsaslandırılmasında mühüm rol oynayır. Əgər hər hansı bir fiziki kəmiyyətin ölçülməsinə cəhd göstərilmirsə onun müəyyən bir qiymətdə olmasını söyləmək mənasızdır. İlk dəfə bu məsələ heç bir fiziki dünya mənzərəsinin keçinə bilmədiyi «uzunluq», «zaman intervalı», «eynizamanlılıq» anlayışlarının mənasının təyin edilməsi üçün nisbilik nəzəriyyəsinə dair əsaslı məqalədə A.Eynşteyn tərəfindən qoyulmuş və həll edilmişdir. Bu anlayışlar fikri eksperimentlərin köməyilə müəyyən edilmiş və real ölçmə əməliyyatlarının ideal nəzəri timsalı kimi dünya mənzərəsinin ayrılmaz elementi olmuşdur.

Ölçmə əməliyyatları ilə müəyyənləşdirilən uzunluqlara apelyasiya, (7, s.12) nəticədə onların nisbiliyi – hesablama sistemindən asılılığı üzə çıxdı. Bu digər fiziki kəmiyyətlər üçün də müəyyənləşdi. Beləliklə, hadisələrin bəzi xarakterik xüsusiyyətlərinin reallığı haqqında məsələ mütləq, sırf obyekt mənasını itirdi və onların ölçülməsinin konkret xarakterindən asılı oldu. Bu baxımdan lorens qısalması barəsində Eynşteynin verdiyi izahat xarakterikdir: «Qısalma real deyil, ona görə ki, o cisim ilə bir yerdə hərəkət edən müşahidəçi üçün mövcud deyil; buna baxmayaraq o realdır, belə ki cisim ilə bir yerdə hərəkət etməyən müşahidəçi üçün fiziki vasitələrlə prinsip etibarilə sübut oluna bilər» (7, s.187).

Kvant mexanikasında mikroobyektlər yanında fiziki kəmiyyətlərin ölçülməsinə dair fikri eksperimentlərin nəzəri tədqiqi, yaxşı məlum olan qeyri-müəyyənlik prinsipinə aparıb çıxarır. Bu isə, «real imkanların klassik ölçü cihazlarının qaçılmaz əksindən başqa bir şey deyil» (8, s.21-40). Qeyri-müəyyənlik münasibəti ilə birlikdə mikroobyektin cihaz ilə qarşılıqlı təsir aktının hadisə sifətində qəbul edilməsi, müşahidə vasitələrinə nisbilik tələbləri əsasında qurulmuş reallığın kvant-mexaniki mənzərəsinin ehtimal xarakterli olduğu ilə nəticələnir.

Kvant elektrodinamikasında da fiziki kəmiyyətlərin ölçülməsi məsələsi aktualdır. Bir zamanlar fərz edilirdi ki, bütün kəmiyyətlərin ölçülə bilməməsi səbəbindən bu nəzəriyyə tamamilə mümkünsüzdür və kvant metodlarının relyativik sahəyə tətbiqi qeyri-qanunidir (3, s.121-123). Ancaq Bor və Rozenfeld göstərə bildilər ki, belə nəticə sahə kəmiyyətlərinin ölçülməsi üçün istifadə edilən nümunə cisimlərinin xarakteri haqqında qeyri-korrekt təsəvvürlərin nəticəsində yaranır - onları elektrik yüklü maddi nöqtə hesab edirdilər. Əgər məhdud ölçülü nümunə cisimləri nəzərdən keçirilərsə elektromaqnit sahəsinin və eyni zamanda yükün ölçülməsi problemi aradan qalxır (3, s.434)

Beləliklə demək olar ki, fizikanın bütün sahələri öyrəndikləri reallığın mənzərəsinə idealizə edilmiş ölçmə əməliyyatları daxil edirlər. Mikroobyektlərin təbiətinin ehtimallığı haqqında təsəvvürlər məhz bununla bağlıdır. Heyzenberqin göstərdiyi kimi «kvant mexanikasının statistik vəziyyəti yalnız eksperiment ilə bağlı olduqda məna kəsb edir, hansı ki, statistikada nəzərdən keçirilən hadisələri həqiqətən müşahidə etməyə imkan verir» (8, s.31). Lakin mikroobyektlərin mənzərəsində təmsil olunmaqla bu təsvirlər onları yaradan ölçmə əməliyyatları ilə əlaqəni itirirdilər, elə bil ki, obyektlər ölçmə zamanı bu və ya digər xassələrini, öz-özünə onlara xas olanı aşkar etmək imkanına malikdirlər.

Bu baxımdan Eynşteyn ilə Bor arasında diskussiya fiziki dünya mənzərəsinin qurulmasında iki müxtəlif metodoloji yanaşma arasında ziddiyyətə parlaq misal ola bilər. İlk dəfə «ətrafında mübahisə gedən ən mühüm məsələ o haqda idi ki, həqiqətən müşahidə edilə bilən kvant – mexaniki təsvir ilə tükənirmi yaxud Eynşteynin təkid etdiyi kimi, tədqiqatı bir az da aparmaq və bu sonuncu halda elementar proseslərdə enerji və hərəkət miqdarının müfəssəl balansını aparmaqla daha dolğun təsvir əldə etmək mümkündürmü» (6, s.64). A.Eynşteyn klassik determinist təsvir üsulundan imtina edilməsinə prinsipial surətdə etiraz edirdi və özünün bu mövqeyini obyektlər və ölçmə cihazları arasında qarşılıqlı əlaqənin daha dəqiq nəzərə alınması cəhdlərilə əsaslandırmağa çalışırdı. O kvant mexanikasını reallığın tam olmayan və ikinci dərəcəli təsviri hesab edirdi, çünki onun fikrincə, «onun əsas qanunlarında iştirak edən kəmiyyətlər fiziki reallığın özünü təsvir etmək iqtidarında deyillər, onlar yalnız fiziki reallığın təzahür ehtimalını təsvir edirlər» (9, s.139).

Bor və Eynşteynin fəlsəfi mövqelərinin ən parlaq üzləşməsi onların fiziki reallığın kvant-mexaniki təsvirinin dolğunluğu haqqında məqalələrində aşkara çıxdı. Eynşteyn eksperimentlərin interpretasiyasında onun kriteri sifətində ifadələndirdiyi fiziki kəmiyyətlərin reallığının lazımi şərtini əldə rəhbər tuturdu: «Əgər biz sistemi əsla həyəcanlandırmadan müəyyən fiziki kəmiyyətin qiymətini deyə biliriksə, onda bu fiziki kəmiyyətə uyğun fiziki reallıq elementi mövcuddur» (10, s.605).

Buna cavab olaraq Bor reallıq anlayışının fəlsəfi, metodoloji aspektinə diqqəti yönəltdi. O göstərdi ki, məlum Eynşteyn - Podolski – Rozen paradoksu «yalnız kvant mexanikasında üzləşdiyimiz fiziki hadisələrin təsviri üçün naturfəlsəfənin adi baxışlarının yararsız olduğunu əhəmiyyətli dərəcədə üzə çıxarır» (3, s.182). Ona görə ki, bu nöqteyi - nəzər reallığı onu müşahidə şəraitindən asılı olmadan nəzərdən keçirir. Eynşteyn reallıq kriterisi «sistemi əsla həyəcanlandırmadan ifadəsində ikimənalıdır» (3, s.187), çünki kvant mexanikasında «sistemin gələcək davranışında mümkün imkanları müəyyənləşdirən şəraitin özünə təsir mənasında» (3, s.188) həyəcanlandırma qaçılmazdır. Bu şəraitlər isə hadisələrin, yəni fiziki reallığın mühüm elementidir.

Göründüyü kimi, əgər A.Eynşteyn müşahidə aktından yaxud müşahidəçidən asılı olmayaraq mövcud olan sistemin vəziyyətini fiziki real hesab edirdisə, N.Bor müşahidə aktının xarakterlərini «fiziki reallıq» anlayışının məzmununa daxil edirdi. Bundan əlavə, kvant-mexaniki reallıq mənzərəsi zəruri olaraq müşahidəçini də daxil etməlidir; onsuz dalğa paketinin reduksiyasını izah etmək mümkün olmur (11, s.34).

Beləliklə, demək olar ki, kvant fizikasında dünya mənzərəsi sanki ikili xarakter daşıyır. Bir tərəfdən ona tədqiq olunan obyektin xarakterik xüsusiyyətləri daxildir ki, onların dərki əvvəlki kimi fizikanın məqsədi qalır. Digər tərəfdən bu xarakterik xüsusiyyətlərin müəyyənliyi müşahidə şəraitindən asılıdır ki, onların xarakterik xüsusiyyətləri müşahidə mənzərəsi yaratmaqla fiziki dünya mənzərəsinin digər planını təşkil edirlər. İstənilən fiziki məsələnin qoyuluşunda iştirak etməklə müşahidənin xarakterik xüsusiyyətləri sanki tədqiq olunan obyektin xarakterik xüsusiyyətlərinə «qarışırlar».

Obyektə və onun mənzərəsinə münasibətdə vasitələr və müşahidə əməliyyatları idrak şəraitinin tərkibinə daxildirlər. Belə ki, onlar ontoloji rolda çıxış edən obyektin xarakterik xüsusiyyətlərinə münasibətdə qnoseoloji xarakterlidirlər. Ancaq dolğun dünya mənzərəsinin ikiplanlı olduğu nəzərə alınarsa, müşahidənin xarakterik xüsusiyyətlərini də ontoloji hesab etmək lazım gələcək, ona görə ki, hadisələrin yeni anlamı sayəsində onlar fiziki reallığın tərkibinə daxildirlər. Beləliklə, ənənəvi, klassik mənada ontologiyaya (obyektin mənzərəsinə) klassik fizikanın tanımadığı özünəməxsus «qnoseologiya ontologiyası» (müşahidə mənzərəsi) əlavə olunur. Nəticədə, tam ontologiya (reallığın tam mənzərəsi) təkcə obyektin deyil, həm də bu obyektin idrakının mənzərəsi olur, yəni klassik fizika dünya mənzərəsinə heç oxşamır. Bu sonuncu mənzərə «onun haqqında, bizim özümüzü nəzərə almamaqla dünya haqqında yaxud onun hissəsi haqqında fikir yürütməyə imkan verə bilən idealizasiya kimi olur» (11, s.34).

Dərk edən subyektin (müşahidəçinin) fiziki dünya mənzərəsinə daxil edilməsi onun vahidliyinin yeni tipinə gətirib çıxarır. Bu mənzərə, onun elementləri olan fiziki kəmiyyətlərin müşahidəlilik prinsipinə əsaslanır. İdrak mənzərəsinin vahidliyi, yuxarıda deyildiyi kimi, təcrübi məlumatların klassik anlayışlar dilində təsvir edilməsilə təmin olunur.

Beləliklə, müasir fizika və ona məxsus təfəkkür tərzi klassik fizikadan xeyli fərqlənir. Burada həlledici məqam müasir fizikanın dünya mənzərəsinə onun idrak şəraitini daxil etmək cəhdidir. Bu isə, təkcə fiziki deyil, həm də bütün dünya mənzərəsinin vahidliyi haqqında yeni məsələnin qarşıya qoyulması imkanını şərtləndirir (12, s.21).

Lakin bütün dünya mənzərəsinin vahidliyinin əsası kimi idrak mənzərəsinin vahidliyini heç də hamı qəbul etmir. Fiziki reallıq mənzərəsini vahid sifətində, obyekt xarakterli saxlamaq cəhdi genişdir. Fizikanın vahidliyinin başa düşülməsində inqilabi çevrilişi çox vaxt idrak obyekti haqqında təsəvvürlərin dəyişməsi kimi şərh edilir.

Fiziki dünya mənzərəsinin obyekt xarakterli olduğu haqda edilən cəhdlər, nisbilik nəzəriyyəsinin və kvant mexanikasının yenidən interpretasiya etmək istəyində özünü büruzə verir. Fiziki dünya mənzərəsinin yeni xarakterinə qarşı müqavimət və onun obyektliyinin saxlanılması üçün edilən təkidlər müəyyən dərəcədə tarixi formalaşmış metodoloji istiqamətlərlə bağlıdır. Onlara əsasən, hərçənd fizikanın bilavasitə vəzifəsi sifətində təcrübənin izahıdırsa da, izahın özü «şeylərin mümkün mövcudluq tərzinin xəyali mənzərəsi» (13, s.20-21) olan nəzəriyyələrdə öz təcəssümünü tapır. Buna uyğun olaraq nəzəriyyənin özünün fiziki dəyəri müəyyənləşdirilir: «Xarici obyektlərə aidiyyatlılıq dolayı yol ilə yaxud hətta yanlış ola bilər… lakin istənilən fiziki nəzəriyyədə həmişə fiziki obyektlərə müəyyən bir aidiyyatlılıq güman edilir və məhz bu, onu deyək ki, psixoloji deyil, fiziki adlandırmağımıza səbəb olur» (14, s.206).

Göstərilən metodoloji istiqamət ilə obyektlilik və obyektivliyin eyniləşdirilməsi sıx surətdə bağlıdır. Bu eyniləşdirmə ona səbəb olur ki, fiziki dünya mənzərəsinin sırf obyekt xarakterli olmasından imtina fiziki biliyin obyektivliyini aradan qaldıran subyektivizmə güzəşt kimi qiymətləndirilir. Bu halda hesab edilir ki, biliyin operasional məqamları obyektiv xarakterə malik

deyil (14, s.202-203). Lakin klassik fizikaya xas olan «obyektivlik» anlayışının belə həddən artıq dar anlamını yeganə doğru olan və mütləq hesab etmək olmaz.

Beləliklə, fiziki reallığın özünün müxtəlif təzahürlərində bir cür olmasa da, o öz vahidliyini fiziki dünya mənzərəsində tapır. Kvant – sahə dünya mənzərəsi sadəcə olaraq fiziki reallığın ideal əksi olmayıb, ikili – material-ideal, obyektiv-subyektiv təbiətə malikdir. N.Bor mikrodünya obyektləri haqqında yeni fiziki biliklərin anlanılması problemini tədqiq edərək dəfələrlə qeyd etmişdi ki, bilik dünyanın başa düşülməsinin insani forması olmaqla məna kəsb edir. Bu məna fəza, zaman, səbəbiyyət, arasıkəsilməzlik, obyekt kimi qavrayışın fundamental kateqorial formaları, həmçinin bizim kvant dünyası ilə ölçmə cihazları adlanan xüsusi qurğuların vasitəsilə maddi qarşılıqlı təsirdən əmələ gəlir. O hesab edirdi ki, mikroobyektlərin xassələri haqqında mühakimələrimizin nə dərəcədə düşüncəli olduğu, birincisi, təcrübənin məzmununun bir subyektdən digərinə verilməsi, ancaq mümkün olan adi fiziki dilin istifadə edilməsi, ikincisi isə, eksperimental qurğuların istifadə edilməsidir. N.Bora görə fiziki obyektdə eyni zamanda dəqiq koordinatların və impulsun olması haqqında fikirlər klassik fiziki reallığın təkrarından başqa bir şey deyil. Lakin o kvant fizikasında mənasızdır və göründüyü kimi, fizikanın müasir inkişafı da bu nöqteyi-nəzərin xeyrinədir. Bu ondan xəbər verir ki, klassik fizika tərəfindən işlənilmiş reallıq haqqında təsəvvürlər onun obyektiv əksləri olmayıb müəyyən idealizə edilmiş formalarıdır. Biz bu idealizə formalarından qətiyyən imtina edə bilmərik, çünki onlarsız yeniliyi başa düşə bilmərik, lakin eyni zamanda onların köməyilə yeniliyin bütün məzmununu da əhatə edə bilmərik.

Açar sözlər: klassik, kvant sahə, kvant mexanikası, nəzəriyyə, elmi bilik, klassik fizika, enerji.

İstifadə olunmuş ədəbiyyat

1. Heisenberq W. Tradition in science // The nature of scientific discovery. Wash. 1975.
2. Mackinnon E.H. Scientific explanation and atomic physics. Chicago; L., 1982.
3. Н.Бор. Избран. науч. тр. Т.2. М., 1974.
4. Эйнштейн А. Собр. науч. тр. Т.4. М., 1967.
5. Фок В.А. Квантовая физика и классические идеализации. В кн. Диалектика и современное естествознание.
6. Бор. Н. Атомная физика и человеческое познание.
7. Эйнштейн А. Собр. науч. тр. Т.I.
8. Гейзенберг В. Физические принципы квантовой теории.
9. Эйнштейн А. Собр. науч.тр. Т.VI.
10. Эйнштейн А. Собр. науч.тр. Т. III.
11. Гейзенбер В. Физика и философия.
12. Heisenberg W. Das Naturbild der heutigen Physik. Hamburg, 1955.
13. Lindsay R.B. The Nature of Physics. Island.1968.
14. Bunge M. Phijsics and Reality. – “Dialectica”, vol 19, №3-4.

Новруз ИМАНОВ

ПРОБЛЕМА ФОРМИРОВАНИЯ КВАНТОВО-ПОЛЕВОЙ КАРТИНЫ МИРА

Резюме

В статье отмечается, что в отличие от классической научной картины мира, квантово-полевая картина мира является не просто идеальным отражением физической реальности, а имеет двоякую материально-идеальную, объективно-субъективную природу. Кроме того, представления о реальности, разработанные классической физикой, представляют ее идеализированные формы. Отказаться от этих идеализированных форм мы не можем, считает автор поскольку без них трудно понять новизну, однако с их помощью также невозможно охватить все содержание новизны.

Ключевые слова: классический, квантовое поле, квантовая механика, теория, научное знание, классическая физика, энергия.

Novruz IMANOV

THE PROBLEM OF FORMING THE QUANTUM-FIELD SCENE OF THE WORLD

Summary

In the article it is noted that in contrast to the classical scientific scene of the world, the quantum-field scene of the world is not a mere ideal reflection of physical reality, but possesses a double material-idel, objective-subjective nature. In addition, notions of reality, elaborated by classical physics, present its idealized forms. The author considers that we cannot refuse from these idealized forms, as it is difficult to comprehend the novelty without them, by their aid it is impossible to cover an entire content of novelty as well.

Keywords: classical, quantum-field, quantum mechanics, theory, scientific knowledge, classical physics, energy.

UOT 18:001.12

Nailə ƏSƏDOVA
AMEA FSHİ, e. i.

ESTETİK TƏFƏKKÜRÜN TƏŞƏKKÜL XÜSUSİYYƏTLƏRİNƏ DAİR*
(Azərbaycan mədəniyyətinin materialları əsasında)

Estetik təfəkkür özü sözün əsl mənasında antik dövrdə yaranmışdır. Lakin bədii-estetik fəaliyyətin və estetik şüurun rüşeymləri, ibtidai cəmiyyətə, daha dəqiq desək, Orta Paleolit dövrünə təsadüf edir. İnsanın həyat təcrübəsində estetik fəaliyyət estetik nəzəriyyənin - forma, rəng, ritm, simmetriya haqqında elmi anlayışlar sisteminin - formalaşmasından xeyli əvvəl yaranmışdır. Estetik fəaliyyət və estetik şüurun rüşeymləri hələ paleolit dövründə yarandıgı halda, bunları nəzəri cəhətdən anlamaq təşəbbüsü ilk dəfə olaraq yalnız e.ə.VI əsrdə yunan fəlsəfəsinin pifaqorçular məktəbi tərəfindən irəli sürülmüşdür (1).

Estetik fəaliyyətin mühüm tərkib hissəsi olan incəsənət təqribən e.ə. III minillikdə meydana gəldi. İbtidai incəsənətin yaranması insanların gündəlik həyatı ilə bağlı idi. "Ağıllı insan" buynuzdan kiçik heykəllər düzəldir, sümük üzərində təsvirlər cızır, təbiətdən əldə etdiyi boyalarla mağara divarlarında rəsmlər çəkirdi. Belə təsviri sənət nümunələri İspaniyada Altamira, Uralda Kap mağaralarının divarlarında aşkar olunmuşdur (2). Bu təsvirlərdə bizonların bir qismi sakit durmuş, digər qismi düşmən üzərinə atılan vəziyyətdə təsvir edilmişdir. Sonralar dünyanın müxtəlif yerlərində mağaraların divarlarında, qaya üzərində bu tipli ibtidai incəsənət nümunələri aşkar olunmuşdur. Beləliklə, incəsənət Paleolit dövründə yaranmışdır. İnsanlar ov və döyüş səhnələrini, ovlayacaqları heyvanların hərəkətlərini təqlid edirdilər. İnsanlar heyvanların gözəlliyini, onların zahiri və daxili aləmini təsvir edə bilmişlər. Memarlıq rüşeymləri, heykəltəraşlıq nümunələri də həmçinin Paleolit dövründə yaranmışdı. İbtidai insanlar ov və döyüş sahəsində bildiklərini gənclərə öyrətdikləri zaman isə rəqs meydana gəlmişdir (3, s.6-14).

Məsələn, "Ordubadda yaranmış milli rəqslər" adlı məqalədə deyildiyi kimi, ibtidai icma quruluşu dövründə Azərbaycan ərazisində yaşayan müxtəlif qəbilə üzvləri ova çıxdıqları zaman əl çala-çala, ya da ağac və daşları bir-birinə vuraraq rəqs edirdilər. Bu cəhətdən Qobustan və Gəmiqayadakı qayaüstü təsvirlər səciyyəvidir. Buradakı qaya rəsmləri Azərbaycan xalqının zəngin incəsənət irsimizlə yanaşı, musiqi və rəqs mədəniyyətinin inkişaf tarixini öyrənmək üçün də böyük əhəmiyyətə malikdir. Rəqs sənətimizin tarixi zərb musiqi alətlərinin tarixindən xeyli qədimdir. Hələ insanlar ibtidai icma quruluşunun ilk mərhələlərində əllərini bir – birinə vuraraq, ahəngdar səs-sədaları altında rəqs etmişlər. Azərbaycan xalqı uzun əsrlər boyu rəngarəngliyi və coşğunluğu ilə insanı valeh edən rəqslər yaratmışdır. Xalqımızın xoreoqrafiyasında müxtəlif xarakterli çoxlu rəqslər olmuşdur. Kişi və qadınların tək, qoşa, kütləvi rəqslərini, habelə, oynaq mahnı ilə müşayiət olunan rəqsləri göstərmək mümkündür. Həmin rəqslər öz xareoqrafik mürəkkəbliyi, hərəkətlərin həmahəngliyi, zərifliyi və dəqiqliyi, oynaqlığı və şuxluğu ilə insanlara böyük mənəvi zövq vermişdir. Bu zəngin mənəvi sərvət sadədən mürəkkəbə doğru inkişaf edərək saflaşmış, cilalanmış və büllurlaşmışdır (4).

İncəsənət tarixini yazanlar hələ keçən əsrin sonunda ilkin incəsənət kimi yalnız Qədim Misir incəsənətindən başlayırdılar. 90 il bundan əvvəl bəşəriyyət daş dövrünün incəsənətini, paleolit təsviri sənəti, rəssamlığını və heykəltəraşlığını da özü üçün aşkar etdi. Həmin vaxtdan başlayaraq ibtidai cəmiyyətin incəsənəti tədqiqat üçün ən populyar sahəyə çevrildi. Həmin proses indi də davam etməkdədir. İbtidai incəsənətin yaranması ilə əlaqədar saysız-hesabsız nəzəriyyələr mövcuddur. Bədii fəaliyyət ibtidai mədəniyyətin bütün mərhələlərində mövcud olmuşdur. Ona

* Məqalə f.e.d. A.Əsədov tərəfindən çapa məsləhət bilinib.

görə də incəsənət onun varlığının daimi üsulu olmuşdur. Sənət alət istehsalından başlanıb. İnsanın ən qədim alətinin tarixi 2.5 milyon il bundan əvvəl başlanır. İnsanların düzəltdiyi alətlərin materialına əsaslanan arxeoloqlar ibtidai dünyanın tarixini üç dövrə bölürlər. Bunlar daş dövrü, tunc dövrü və dəmir dövrüdür. Öz növbəsində daş dövrü də bir neçə alt dövrə bölünür. Ən qədim daş dövrü, yaxud paleolit dövrü, yaxud da mezolit (təqribən e.ə. XII minillikdən VII minilliyə qədər), yeni daş dövrü, yaxud da neolit (e.ə. XII minillikdən IV minilliyə qədər), mis daş dövrü, yaxud da eneolit (e.ə. III-II minilliklər). Tunc əsri e.ə. II-I minillikləri əhatə edir. Dəmir dövrü təqribən birinci minilliyin ortalarından başlayır. İbtidai incəsənətin ilkin mərhələsi üçün səciyyəvi cəhət - *sinkretizm*dir. *Sinkretizm* - müxtəlif görüşlərin və fəaliyyətlərin bir yerdə ifadə olunmasıdır. Dünyanın bədii mənimsənilməsi ilə əlaqədar olaraq insanın fəaliyyəti eyni zamanda homo sapiyens (ağıllı insan) formalaşmasına da şərait yaratmışdır. Bu mərhələdə ibtidai insanın bütün psixi proses və həyəcanlarının imkanları kollektiv şüuraltı vəziyyətdə, arxetip adlanan proobrazda, ilkin formada olmuşdur. Dünyanın dərki kortəbii baş verirdi, hər bir anlayışın arxasında obraz, canlı əməl gizlənirdi. Bizə gəlib çatan ilk ibtidai təsviri sənət əsəri Orinyak (Fransa) (e.ə. 33 min -18 min) mərhələsində olmuşdur. Qadın heykəlciyi (daşda və sümükdə) həmin sənət əsərlərindəndir. Həmin dövrdə heyvanların, mamontların, filin, atın, maralın ümumi cizgilərini əks etdirən təsvirlər də yaranmışdır. İbtidai incəsənət əsərləri əsasən ovçuluq və əmək prosesi ilə əlaqədar olmuşdur. Bir sıra sənətşünaslar paleolit dövrünün təsviri fəaliyyətini üç mərhələyə bölürlər. Onlardan hər biri keyfiyyətcə yeni təsvir formalarının yaranması ilə səciyyələnir. Sümük, təbii maket və s.-dən kompozisiyalar, süni təsviri forma - iri gil heykəltəraşlığı, barelyef profil konturu, yuxarı paleolit təsviri yaradıcılığı, mağara yazıları, sümük üzərində qravyuralar - natural yaradıcılıq nümunələridir. Analoji mərhələni ibtidai incəsənətdə, tipik musiqi yaradıcılığında da görmək mümkündür. Musiqi (natural pantomimanın musiqi elementləri, təbiətdəki səslərin təqlidi, səsin təqlid motivləri, süni intonasiya formaları, səs yüksəltmə vəziyyətini əks etdirən motivlər, intonasiya ardıcıllığı, iki və üç səsli motivlər) hərəkət, mimika, cestlərdən və s.-dən ayrılmamışdı. Əvvəllər insanlar yalnız öz ehtiyacları üçün təbiətin verdiyi şeylərdən - daş, ağac, sümük və s.-dən istifadə edirdilər. Yeni daş dövründə insan sənət əsərləri yaratmaq məqsədi ilə odadavamlı gildən istifadə etməyə başlayır. İbtidai cəmiyyətdə təsviri sənətin, demək olar ki, bütün növləri: rəsmlər, heykəlciklər, təsvirlər (mineral rənglərdən istifadə etməklə rəngli təsvirlər vermək), heykəltəraşlıq (daşdan yonulmuş, yaxud da gildən düzəldilmiş fiqurlar) və s. yaranmışdı. Dekorativ sənət növləri (daş, sümük üzərində işləmələr, relyeflər və s.) bu qəbildəndir. İbtidai cəmiyyətin inkişafının son dövründə bürünc, qızıl və gümüşün emalı ilə bağlı bədii sənət növləri yaranırdı. İbtidai icma dövrünün sonunda yeni memarlıq tikililəri - qalalar yaranmağa başladı. Sonralar yaşayış məskənləri, dəfnlə əlaqədar məqbərələr və s. meydana çıxdı. İbtidai dövrün incəsənəti dünya incəsənətinin sonrakı inkişafı üçün əsas olmuşdur (3, s.26-28).

İbtidai icma quruluşunda ictimai şüurun bütün formaları ilkin olaraq adət və ənənə şəklində özünü büruzə verirdi. Adət və ənənələr bütövlükdə ictimai şüurun bütün funksiyalarını özündə cəmləşdirirdi, xüsusilə, dini və bədii şüurun əsasını qoyur və onu əbədi olaraq mühafizə edib, yaşadırdı. Bu da ondan irəli gəlirdi ki, adət və ənənələr çox zaman dəyişməz qanun funksiyasını yerinə yetirir, insanların fəaliyyətini tənzimləyirdi. Ən maraqlısı odur ki, dünya xalqlarının bir çox milli adət və ənənələrinin ilk təşəkkülü də qədim dövrlərdən başlamış, bu adət və ənənələrə bağlılıqdan irəli gələrək, ictimai şüurun bütün sahələrində varislik prinsipi dəyişməz olaraq qalmışdır. Qədim dövrdə insanların asudə vaxt çoxluğu onların yaradıcılıq imkanlarını, əylənmək, oynamaq, mənəvi tələbatlarla məşğul olmaq vərdişlərini artırırdı. Çox zaman bu boşluqlar incəsənət əhəmiyyətli dini mərasimlərlə doldurulmuşdur. Din və incəsənətin vəhdəti ayin və mərasimləri emosionallaşdırmışdır. Ayin və mərasimlərdə ictimai şüurun dinlə bağlı olan tərəflərinə daha çox üstünlük verilmişdir. Dini şüur adət və ənənələrin əsas aparıcı xəttini təşkil etsə də, o, bədii təfəkkürlə qovuşmuş, incəsənətlə bir cəm halında əlaqəli təşəkkül tapmışdır. Dini

şüur ilkin mərhələdə incəsənətə üstün gələrək onu uzun əsrlər boyu özündən asılı vəziyyətdə saxlamışdır. Bu da dini mahiyyət daşıyan adət və ənənələrdə mühafizəkarlığın, eyni zamanda varislik prinsipinin üstünlük təşkil etməsindən, dinin bir ideologiya kimi ictimai şüurun başqa formaları üzərində güclü təsirə malik olmasından irəli gəlmişdir. Dini adət və ənənələr kainat və Tanrı duyğusu ilə cəmiyyətdə dərin kök atmışdır (5, s.17-60). Dini adət və ənənələrin qanun halına düşdüyünü və kütləvi olduğunu nəzərə alan alman sənətşünası Herbert Kün yazmışdır ki, "qanun kosmikdir, müasir sənətkar da yaradır, daş dövrünün sənətkarı da. Onların hər ikisinin qəlbində eyni arzular, eyni hisslər – kainat və Tanrı duyğusu özünə yer tapmışdır" (5, s.60).

Kosmosu öz diqqət mərkəzində saxlamaqla estetik təfəkkürü formalaşdıran ibtidai dini şüurun ilkin tarixi forması isə **mif** idi.

Miflərdə dünya bir canlı kimi təsvir edilmiş, təbii yaranma və təbii məhvolma doğuluş və ölüm xarakterini almış, Yer canlı Kainatın anası, Səma isə atası kimi qavranılmışdır. Mif qədim dövrün ümumi ruhunu ifadə etdiyindən, o biliyin və həyatın bütün sahələrinə – fəlsəfəyə də, dinə də, siyasi təfəkkürə də, incəsənətə də başlanğıc vermişdir. Mifi bir dünyagörüş olaraq yaşadan insan özünü ətraf mühitdən ayırmır, əksinə mühiti insaniləşdirir, kosmosu canlandırır. Mifdə *insan-mühit* münasibətləri *subyekt-obyekt* xarakterli deyildir. Çünki burada fəaliyyətin subyekti ayrılıqda götürülmüş insan olmayıb, bütöv dünyanın özüdür, insan isə canlı dünyanın yalnız bir hissəsini, elementini təşkil edir. Odur ki, burada dünya obyekt kimi deyil, subyekt kimi təsəvvür və təsvir olunur. Mif dünyanı canlandıraraq izah edir, canlı olan isə öz hərəkət səbəbini özündə daşıyan subyektdir. Mifin təkzibolunmaz dəyəri görünür elə ondadır ki, burada cəmiyyət və təbiət bir vəhdət şəklində təsəvvür edilir, təbii mühitin saxlanılma motivləri təlqin edilir. Bu motivlər əksər xalqların mifik təsəvvürləri üçün səciyyəvidir. Qədim Misir mifi üçün təbiətin ilahiləşdirilməsi, Nil hövzəsi ekosistemində nizamlılığın vəsf edilməsi səciyyəvi idi. Canlı təbiət kultu qədim Hind təfəkkürü üçün də xarakterik idi. Qədim Çin yazılı abidələrində təbiəti mühafizənin konkret tədbirləri haqqında da qeydlərə rast gəlmək mümkündür. Miflərdə həmçinin sosial və təbii qüvvələr arasında əksliyin təşəkkülü də öz əksini tapır. Bu halda insanın təbiətə münasibətinin iki meyli aşkar edilir. Bunlardan birincisi mühafizəkar meyldir. Ekofil xarakterli bu təmayül insan və təbiətin harmonik yanaşı mövcudluğunu təlqin edir. İkinci, aqressiv meyl isə ekofob xarakterlidir. Bu təmayül təbiətlə əkslik, qarşıdurma, rəqabət kimi əlamətləri özündə birləşdirir. Əgər Çinin və Hindistanın təcrid olunmuş mədəniyyətləri daxilində ekofil xarakterli mif formalaşırsa, Yaxın Şərq ölkələrində ekofob xarakterli mif təşəkkül tapmışdı (6, s.27-28). Mifologiya eyni zamanda mərasimlərlə də bağlı olmuşdur. Əsatirlər təkcə həyati əməllərdə deyil, həm də seremotik əməllərdə – adətlərdə, rəqslərlə, folklorla əks olunmuşdur (7).

Mifopoetik təfəkkür öz prinsipləri və öz məntiqi olan təfəkkürdür. Mifin fərqləndirici cəhəti ziddiyyətləri aradan qaldırmaq cəhdidir. Onun vəzifəsi bu ziddiyyətlərin nisbiliyini sübut etmək, onu əhatə edən dünya ilə eyniləşdirmək, insanı, onu əhatə edən dünya ilə vəhdətə gətirmək, insan və təbiətin, təbiət və cəmiyyətin uyğunluğuna nail olmaqdır. Hər hansı bir din kimi, mifin də son məqsədi qrupa mənəvi rahatlıq təmin etmək və bununla da onu yad şəraitə, özünü dərkinə, hətta düşmən əhatəsində olsa belə özünü təsdiqinə şərait yaratmaqdır. Arxaik mədəniyyəti təcəssüm etdirən miflər haqqında müasir təsəvvürlər bir sıra nəticələri çıxarmağa imkan verir:

- Miflər adamların öz varlığını dərk etmək və şüurlu şəkildə emosional və məntiqi assosiasiyaların köməyi ilə varlıqla çulğaşmaq cəhdidir.
- Mifoloji təfəkkürün xüsusiyyətləri ümumi, mücərrəd anlayışların çatışmamağı ilə əlaqədardır.
- Mif ibtidai insanın şüurunun intuitiv olaraq təbiət hadisələrinin qaydası və qanunauyğunluğunun dərk edilməsidir.
- Miflərin quruluşu insan psixikasının müəyyən xüsusiyyətlərini ifadə edir.

- Miflər kollektiv təcrübə ilə əlaqədardır, bu isə individ üçün etiqad obyekti, əcdadların müdrikliyi kimi olmuşdur. Fərdi təcrübə onu dəyişdirə bilmir; mif əcdadların etiqadı kimi, subyektin işi kimi yoxlanmırdı, məntiqi əsaslandırılmağa ehtiyac hiss etmirdi.

- Mif təbiətin qanunauyğunluğunu əks etdirirdi, mücərrəd təfəkkürün zəifliyinə görə onları şəxsləndirirdi, onları şüurlu fəaliyyət göstərən iradə ilə birləşdirirdi. Buradan isə mifologiyanın əsas fəaliyyət göstərən simaları-allahlar təzahür edirdi.

- Mifologiya - insanın özünü ifadə etməsi vasitəsidir. Mif insan yaradıcılıq qabiliyyətinin təzahürünün ən qədim və əbədi formasıdır. Miflər sistemi, müxtəlif tipli mifologiyalar özündə bəşər mədəniyyətinin müxtəlif forma və tiplərini əks etdirir (3, s.18-24).

Mifoloji-bədii dünyagörüşün izləri folklorda və klassik ədəbiyyatda indi də özünü büruzə verməkdədir. Azərbaycan xalqının şifahi poetik yaradıcılığı kimi mənalandırdığımız folklorun tarixi Azərbaycan ərazisində ilk insan məskənlərinin meydana çıxmasına gedib çatır. Azərbaycan dünyanın ən zəngin folklor sərvətlərindən birinə sahibdir. Azərbaycan ədəbiyyatının qaynağında zəngin və dərin məzmunlu Azərbaycan folkloru durmaqdadır. Azərbaycan mifologiyası Qədim hind, Qədim yunan mifologiyası qədər sistemli və bütöv xarakter daşımır. Ancaq Azərbaycan folklorunqda Azərbaycan mifologiyasının izlərini aşkar etmək mümkündür. Bunlar daha çox kosmoqonik və mövsümi, eləcə də etnoqonik miflərin müəyyən detallarını özündə daşımaqdadır. İnsan cəmiyyətinin ilkin formalaşma dövrünün bədii təfəkkür məhsulları olan bu mifik ünsürlərdə kosmosla xaos, yəni dünya düzəni ilə qarmaqarışıqlıq, nizamsızlıq, dünya düzəninin bu nizamsızlıqdan yaranması və eyni münasibətlərin insan cəmiyyətində əks olunması özünə yer tapmışdır. Mifik dünyagörüşündə insan cəmiyyətində kosmos, yəni əksər insanlar tərəfindən qəbul edilmiş qayda-qanunlar toplusu əsas etibarilə cəmiyyətin aparıcı nizamını - ailə, məişət, insanla təbiət arasında qarşılıqlı anlaşma proseslərini əhatə edir. Mifoloji dünyagörüşünün ayrı-ayrı ünsürləri indiyə qədər folklorun ovsun, alqış, qarğış, rəvayət, qodu və sayaçı mərasimi ilə ilgili mətnlərdə qorunub saxlanmışdır. Azərbaycan mifoloji mətnlərinin əksəriyyətində qədim türk mifoloji düşüncəsi aparıcı motiv kimi çıxış edir. Bunu istər dünyanın yaranması ilə bağlı olan kosmoqonik miflərdə, istər etnosun mənşəyi ilə bağlı olan etnoqonik miflərdə, istərsə də mövsümi proseslərlə əlaqədar olan təqvim miflərində görmək mümkündür. Mifoloji mətnlərin yaranması və onların folklor mətnlərində ünsürlər şəklində qorunub saxlanması ibtidai insanın təbiətə və təbiət qüvvələrinə baxışı ilə sıx əlaqədardır. Söz, hərəkət və oyun vasitəsilə təbiət qüvvələrinə təsir göstərmək arzusu ibtidai insanda mifoloji mətnləri yaratmaq və ifa etmək ehtiyacı doğurmuşdur. Bunların sırasında "Kosa-Kosa", "Qodu-Qodu", "Novruz", "Xıdır Nəbi" və b. mərasim nəğmələrini və bunları müşayət edən rəqsləri göstərmək olar. Azərbaycan folklorunun özəlliklərindən birini - onun başqa türk xalqlarının folkloru ilə ortaq cəhətlərə malik olması təşkil edir. Bu xalqların şifahi söz sənətində bir çox mətnlərin üst-üstə düşməsi həmin örnəklərin vahid etnocoğrafi məkanda meydana gəlməsini göstərir. Ortaq türk folkloruna aid olan dastanlar arasında "Oğuznamə"lər xüsusi bir silsilə təşkil edir. "Köç", "Ergenekon", "Şu", "Qayıdış" kimi dastanlarda isə bütöv şəkildə prototürklərin mühüm problemləri öz bədii-mifoloji əksini tapmışdır. Həmin dastanların çoxu xülasə şəklində XI yüzillikdə yaşayıb-yaratmış türk alimi Kaşğarlı Mahmudun "Divanu lüğət-it-türk" ("Türk dilinin divanı") əsərində öz əksini tapmışdır. Bu dastanlar xalqların böyük hicrəti dövrünün bədii-mifik dünyagörüşünü özündə saxlamaqdadır (8).

Estetik təfəkkürün ilkin olaraq bir nəzəriyyə olaraq deyil, bir sənət olaraq öz ifadəsini tapmısı faktı Azərbaycan mədəniyyətinin timsalında da öz təsdiqini tapmışdır.

Azərbaycan xalqı özünün zəngin incəsənəti, maddi-mədəniyyət abidələri, memarlığı, dekorativ-tətbiqi sənəti, rəqsləri, musiqisi, ədəbiyyatı, teatr sənəti, təsviri sənəti ilə haqlı olaraq fəxr edir. Azərbaycan ərazisində ən qədim maddi mədəniyyət nümunələri e.ə. 8-ci minilliyə təsadüf edir. Qədim meqalitik abidələr, menhirlər, dolmenlər, mağaralar, müdafiə tikililəri, kurqanlar, metal alətlər, dulusçuluq, zərgərlik sənəti Azərbaycan yaşayış məskəni üçün xarakterik olmuşdur. Monumental qaya rəsmlərində xalqın mədəniyyəti və estetik təsəvvürləri öz ifadəsini

tapmışdır. Füzuli şəhərinin yaxınlığındakı Azıx mağarası (uz. 215-220 m) Azərbaycanın dünyada ən qədim insan məskənlərindən biri olduğunu sübut edir. Təsviri sənətin ən qədim nümunələri arasında e.ə. VIII-V əsrlərdən qalmış Qobustan qaya təsvirləri, Kəlbəcər rayonunun Zalxa gölü ətrafında Ayıçınqılı və Pəriçınqıl dağlarındakı Tunc dövrünün başlanğıcına (e.ə. 3-cü minillik) aid rəsmlər, Orbdubad şəhərindən şimalda Gəmiqaya dağlarındakı qayaüstü təsvirlər müstəsna əhəmiyyətə malikdir. Qobustanın "Böyükdaş", "Kiçikdaş", "Cingirdağ", "Şonqardağ" və digər qayalarında həkk olunmuş rəsmlərdə, orada yaşamış qədim insanların həyat tərzi, məişəti, əməyi ilə əlaqədar təsvirlər xüsusi maraq doğurur. Burada ovçuluq, maldarlıq, əkinçilik və məişətin digər sahələri ilə bağlı müxtəlif sücetlər, səhnələr, insan və heyvan təsvirləri dinamik tərzdə həkk olunmuşdur. Qobustan qaya rəsmləri - piktoqramlar ibtidai icma quruluşundan feodalizm mərhələsinə kimi çoxəsrlik, uzun tarixi dövrü əhatə edir. Təsviri sənətin qədim nümunələri arasında dulusçuluq, daş və metal məmulatlarını bəzəyən dekorativ naxışlar, rəsmlər, qabartmalar (relyef təsvirlər), heykəllər mühüm yer tutur. Bunlardan kürə formalı qab (Naxçıvan MR-nın Şahtaxtı kəndi), ikibaşlı maral fiquru (Xocavənd rayonunun Dolanlar kəndi), üzərində 5 fantastik heyvan təsviri cızılmış tunc qab (Gədəbəy), aypara şəklində qızıl yaxalıq (Ziviyə), qızıl cam (Urmiya gölü yaxınlığındakı Həsənlu təpəsi), Mil, Qarabağ düzlərindən tapılmış keramik qablar öz zərifliyi, bədii kamilliyi ilə fərqlənir (e.ə. VIII-VII əsrlər). Mingəçevirdən, Şamaxıdan tapılmış müxtəlif tipli və formalı bədii şüşə məmulatı nümunələri - dekorativ qablar, piyalələr, qadın bəzəkləri Azərbaycanda şüşə istehsalının da mövcud olduğunu göstərir. Həkkaklıq və heykəltəraşlıq nümunələri Albaniya (Qafqaz) dövrü sənətində geniş yayılmışdır. Mingəçevir məbədinin (5-6 əsrlər) daş kapitelinin səthində müqəddəs dirilik ağacının sol və sağında üz-üzə dayanmış iki tovuz quşunun qabartma təsviri Albaniya (Qafqaz) dövrü heykəltəraşlığının ən kamil nümunələrindəndir. Bədii metal məmulatlarının (torevtika) tərtibində də plastik formalara tez-tez təsadüf olunur. Mingəçevir, Torpaqqala və s. yerlərdən tapılmış gümüş camların, tuncdan hazırlanmış su qablarının üzərində maral, şir, tovuz quşu, buta təsvirləri verilmişdir. Bu dövrün dairəvi və qabartma heykəltəraşlıq nümunələrindən (tuncdan və daşdan) insan və heyvan təsvirləri, məişət, ov və dini ayinlərlə bağlı səhnələr üstün yer tutur. VII əsrdən başlayaraq islam dininin yayılması ilə bağlı Azərbaycanın qədim tarixi şəhərlərində - Qəbələ, Naxçıvan, Şamaxı, Bakı, Bərdə, Gəncə, Beyləqan, Təbriz, Marağa və Ərdəbildə memarlıq kompleksləri, saray, qəsr, məscid və türbələr inşa edilirdi. Həmin binaların dekorativ tərtibatında kalliqrafiya - kitabə, ornament, kaşı və qabartma elementlərindən geniş istifadə olunmuşdur. Şirvan-Abşeron memarlıq məktəbinə mənsub olan binalarda daş üzərində oyma sənəti nümunələri, həndəsi və nəbati naxışlar, Naxçıvan memarlıq məktəbini təmsil edən binaların dekorativ bəzəklərində isə şirli kərpicdən və kaşı bəzəklərindən ibarət ornament motivləri başlıca yer tutur. Heykəltəraşlıq sənətinin ən məşhur nümunələri arasında XIII əsrdə Bakı limanında tikilmiş Şirvanşahların "Bayıl qəsri", yaxud "Səbayıl" adlanan memarlıq abidəsi üzərindəki yazı və qabartma təsvirləri binanın dekorativ tərtibində həlledici rol oynamışdır. "Bayıl daşlarında" yazılarla birlikdə insan və heyvan (pələng, dəvə, at, öküz, quş) təsvirləri dərin oyma üslubunda işlənmişdir. Friz xarakteri daşıyan "Bayıl daşları" vaxtilə quruda yerləşən möhtəşəm memarlıq abidəsinin dekorativ elementini təşkil etmişdir. Orta əsrlərdə Azərbaycan təsviri sənəti dekorativ tətbiqi sənətlə vəhdət təşkil etmiş, Gəncə, Beyləqan və digər şəhərlərdən tapılmış keramika nümunələri üzərində nəbati və həndəsi ornamentlərlə yanaşı, iti caynaqlı quşu, yaxud vəhşi heyvanı oxla vuran cəngavər təsvir edilmişdir. Bu dövr Azərbərbaycan İntibah mədəniyyəti Nizami Gəncəvinin yaradıcılığı ilə sıx bağlı olmuş, o, poemalarında memar, heykəltəraş, nəqqaş və rəssam obrazları yaratmışdır (Fərhad, Şapur, Simnar) (9).

Azərbaycanın zəngin yaradıcılıq çeşməsində ən mühüm yerlərdən birini xalqın həyat və məişəti, gündəlik güzəranı ilə bağlı olan xalq sənətləri tutur. Ən qədim dövrlərdən zəmanəmizədək davam edən bu sənət növü xalqın məskən və geyimindən tutmuş alət və silahına qədər böyük bir sahəni əhatə edir. Əbəs yerə deyildir ki, indi dünyanın ən zəngin muzeylərində

Azərbaycan xalq sənətkarlığının bir çox gözəl nümunələri ilə rastlaşmaq olur. Londonun Viktoriya və Albert, Parisin Luvr, Vaşinqtonun Metropoliten, Vyananın, Romanın, Berlinin, İstambulun, Tehranın, Qahirənin zəngin muzey kolleksiyalarına baxarkən orada Təbriz, Naxçıvan, Gəncə, Qazax, Quba, Bakı, Şəki, Şamaxı və Qarabağ ustalarının bacarıqlı əlləri ilə yaradılmış sənət nümunələrini görmək olar. Xalqımızın əməyi sayəsində yaranıb onun həyat və məişətində geniş istifadə edilən el sənətimizin böyük və zəngin bir tarixi var. Naxçıvan, Mingəçevir, Gədəbəy, Qazax, Gəncə və s. yerlərdən əldə edilmiş metaldan düzəldilmiş sənət əsərlərinin yaşı 5000 ilə yaxındır. Bu ərazilərdən tapılmış müxtəlif silah və alətlər, qab-qacaq, bəzək nümunələri tək bir tarixi fakt kimi deyil, həm də onu yaradan sənətkarın ustalıq bacarığından məlumat verən qiymətli mənbədir. Azərbaycan ərazisində qazıntılar zamanı tapılmış maddi-mədəniyyət nümunələri göstərir ki, əcdadlarımız hələ eramızdan əvvəl II minillikdə tuncdan xəncərlər, baltalar, kəmərlər, zərif formalı qablar və s. zinət şeyləri düzəldib öz həyat və məişətində istifadə edirlərmiş. Bunlar isə zərgərlik və misgərlik kimi sənət növlərinin qədimliyindən xəbər verir. Arxeoloji qazıntılar zamanı Mingəçevirdən I-III əsrlərə aid katakomba qəbirlərdən xalça və palas qalıqları aşkar edilmişdir. Təsviri sənətin ən qədim nümunələri arasında e.ə. VIII-V əsrlərdən qalmış Qobustan qaya təsvirləri, Kəlbəcər rayonunun Zalxa gölü ətrafında Ayıçınqılı və Pəriçınqıl dağlarındakı tunc dövrünün başlanğıcına (e.ə. 3-cü minillik) aid rəsmlər, Ordubad şəhərindən şimalda Gəmiqaya dağlarındakı qayaüstü təsvirlər müstəsna əhəmiyyətə malikdir. Bakıdakı Qız qalası və Şirvanşahlar sarayı kompleksi, memar Əcəminin Naxçıvanda yaratdığı Möminə xatın və Yusif ibn Küseyir türbələri, Şuşadakı Pənahəli xanın sarayı, Natəvanın evi, Şəki xanları sarayının divarındakı rəsmlər və s. memarlıq sənətinin nadir inciləridir. Qobustan qayaüstü təsvirləri arasında "Yallı" (rəqs) oynayan insanların təsviri xüsusi maraq doğurur. Bu təsvirlər Azərbaycan xalqının qədim dövrlərdən musiqiyə olan marağından xəbər verir. Azərbaycan milli musiqisinin təməl daşı, onun bünövrəsini muğamlar təşkil edir. Təsadüfi deyildir ki, 2003-cü BMT-nin ixtisaslaşmış olan təşkilatı YUNESKO Azərbaycan muğamını bəşəriyyətin mədəni irs siyahısına daxil etmişdir. Qədim zamanlardan milli musiqimiz ədəbiyyatla birgə inkişaf etmişdir. Milli poeziyanın canrları olan qoşma, müxəmməs, ustadnamə, qıfilbəndlə yanaşı, onun poetik formaları olan gəraylı, divani, qoşma, təcnis aşıqların sevimli formalarıdır.

Açar sözlər: estetika, estetik təfəkkür, incəsənət, mədəniyyət, folklor, bədii-estetika, rəqslər, mif.

İstifadə olunmuş ədəbiyyat

1. H.Əlizadə. Estetika. Bakı, 2007.
2. http://kayzen.az/blog/ibtidai-icma/439/ən-qədim-dövrdə-mədəniyyət-və-din.html
3. İ.Hüseynov. Nigar Əfəndiyeva. Qədim dünya mədəniyyəti. Dərslik. Bakı, 2009.
4. http://ordubadli.az/index.php?sehife=sehifeler&id=228
5. İ.Hüseynov. Azərbaycan milli adət və ənənələrinin bədii-estetik mahiyyəti. Bakı, 2002.
6. Круть И.В., Забелин И.М. Очерки истории представлений о взаимоотношении природы и общества. М., 1988.
7. Adil Əsədov. Yunan fəlsəfəsindən etüdlər. Bakı, 2007.
8. http://www.azerbaican.az/portal/Culture
9. http://www.azerbaican.az/portal/Culture

Наиля АСАДОВА

К ОСОБЕННОСТЯМ ФОРМИРОВАНИЯ ЭСТЕТИЧЕСКОГО МЫШЛЕНИЯ
(На материале азербайджанской культуры)

Резюме

Эстетическое мышление в прямом смысле слова возникло в античную эпоху. Но зачатки художественно-эстетической деятельности и эстетического мышления восходят к первобытнообщинному обществу, точнее, к эпохе среднего палеолита. В жизненном опыте человека эстетическая деятельность появилась задолго до формирования эстетической теории (системы понятий о форме, цвете, ритме, симметрии). Эту формулу автор обосновывает на материале азербайджанской культуры.

Ключевые слова: эстетика, эстетическое мышление, культура, искусство, фольклор, художественная эстетика, танцы, мифы.

Naila ASADOVA

ON FORMATION FEATURES OF THE AESTHETIC THINKING
(on the materials of the Azerbaijani culture)

Summary

In the literal sence of the word aesthetic thinking arose in the ancient time. But the embryoes of the artistic-aesthetic activities and aesthetic thinking trace back to the primitive society, more exactly, an epoch of the Middle Paleolith. In the life experience of a human aesthetic activities was observed long before forming the aesthetic theory - the system of concepts about form, colour, rhythm, symmetry. The author substantiates this formula on the materials of the Azerbaijani culture.

Keywords: aesthetics, aesthetic thinking, art, culture, folklore, artistic aesthetics, dances, myth.

УДК 101.1

Самира КАДИЕВА
ИФСП НАНА, н.с.

СОВРЕМЕННЫЙ МИР: ФИЛОСОФИЯ ГЛОБАЛИЗАЦИИ*

Глобализация, являясь определяющей тенденцией развития цивилизации, затрагивает разные стороны общественного бытия, стимулируя беспрецедентные интенсивность и масштаб интеграционных процессов во всех сферах мироструктуры, – природной, техногенной, социально-политической, финансовой, экономической, демографической и т.д. Глобализация как объективный процесс позитивна, так как предполагает движение к общецивилизационному единству. Теоретически глобализация предстает в симбиозе исторического, социального, национального, религиозного наследия различных народов и государств, их гармоничном взаимодействии.

Представляя собой результат сложных социальных процессов, глобализация предполагает и постепенное развитие мирового сознания в целом (1). Само представление о глобальности процессов связано с установлением определенных ментальных границ, где наряду с сохранением индивидуальной идентичности активизируются социальные и гуманитарные аспекты развития.

На современном этапе цивилизационного развития вектор наиболее востребованных и определяющих современное состояние мирового развития философских проблем характеризуется усилением значимости проблем этики, научными и технологическими инновациями, актуальностью глобальных проблем (терроризм и рост международной преступности, ядерная опасность, экологическая угроза, изменение глобального баланса сил, смешение и противоборство культур, религий и пр.). В данном контексте построение мирового сообщества видится в перспективе в таких направлениях, как развитие науки, технологии, в расширении информационного пространства, глобальной этики, экологии, глобальной войны и глобального мира, прав человека, религии будущего, морального образования, будущего гуманистического движения (2).

Последние десятилетия прошлого века и начало нынешнего столетия характеризуются господством неолиберального течения в мировой идеологии и политике. Социально-политический подход в эпоху глобализации основан на системе западных ценностей, установок, традиций: права человека, демократия, рынок, открытое общество. Однако новый мировой порядок сил, сложившийся в процессе глобализации, потребовал серьезного пересмотра содержания этих фундаментальных понятий наряду с рядом других - таких как «модернизация», «прогресс», «традиция» и пр. Западные представления, принимаемые сегодня как универсальные и прошедшие долгую эволюцию, и ныне еще претерпевают изменения, совершенствуются.

Глобализационные перспективы, составляющие на современном этапе основу различных общественных проектов, порой не адекватны их практическим проявлениям и последствиям. В них содержится схематизация, отстраненность от реальной подоплеки социальных процессов; другими словами, глобальная мировая система с различными - общественными структурами не является следствием реализации одного проекта или одной социально-философской парадигмы. Они сочетают в себе весь комплекс происходящих в действительности явлений, процессов, закономерностей исторического развития. При этом приоритет в выдвижении определенной идеи

---

* Məqalə f.e.d., prof. A.Mustafayev tərəfindən çapa məsləhət bilinib.

цивилизационного развития может принадлежать определенной философской идее, вмещающей в себя парадигмальную фундаментальность изложения. Многие проблемы современности можно отметить как закономерное следствие либеральной системы ценностей, породившей качественно новую форму человеческого мышления, основное отличие которого заключается в игнорировании высших идеалов в любых их проявлениях на различных уровнях, в том числе и на глобальном. В связи с этим выявляется важность определения форм реализации и объективных предпосылок нынешних трансформационных процессов.

Основная задача философии современной фазы человеческого развития сводится не только к анализу и критике негативных аспектов глобализации, сосредоточенной на потребности в морали и нравственности; также важно определить перспективы установления стабильного мирового порядка, гарантирующего благополучие и процветание всех членов мирового сообщества, построения общественных отношений на основе нравственных принципов, сохранения и защиты экосистемы, обеспечения прав человека, социальной справедливости, межцивилизационного диалога и гармоничного развития.

В последнее время в мировой научной и массовой печати отмечается особый подход, характеризующийся тем, что в системе мировых экономических взаимосвязей наряду с рыночными отношениями во взаимоотношениях международных субъектов усиливается значение неэкономических обстоятельств, социокультурной среды, морально-этического климата в обществе (3). В глобализирующемся мире резко возросла степень антропогенной нагрузки на биосферу, которая приобретает все более негативный и необратимый характер, следующий из освобождения от ответственности движущих сил глобализации, выступающих в качестве космополитической элиты.

Для оценки подобных тенденций на обсуждение научной общественности выносятся новые идеи, рассматриваются возможности императива мышления в свете перспектив развития мировых процессов и их глобальных последствий. И поскольку «мир рано или поздно, по всей видимости, окончательно замкнется как единая целостность в форме поистине глобального человечества, логично предположить, что в этом случае он должен будет предварительно замкнуться по всем остальным параметрам, включая и те, по которым это пока еще не произошло, т.е. цивилизационно (юридически, идеологически, социокультурно, наконец, морально-этически, ментально). Трудно себе представить, что все это, в конечном счете, может произойти в обозримой перспективе, но к концу нашего века и тем более за его пределами такая задача для человечества станет первостепенной, однако лишь при непременном условии – если оно не скатится до самоуничтожения и не потеряет контроль за ходом мировых событий» (4, с.405).

Проблема, вмещающая в себя значительный спектр вопросов, связанных с модернизацией и гармонизацией общественных связей, объединением во всемирную систему, подводит к выработке общих принципов жизнеустройства. Отметим, что изменение мировоззрения и системы доминирующих ценностей обеспечивает саморазвитие политических и социальных институтов, отражающих изменения показателей общественных процессов, эффективное использование новых технологий, обусловливающих подъем уровня жизни человека. Переход от постиндустриального общества к информационному, появление и распространение новых высоких технологий, средств связи, идей, отметающих пространственно-временные рамки, – все это выступает как качественно новый момент в глобально интегрированном цивилизационном развитии.

Оценивая возможные сценарии межцивилизационного развития, можно сделать вывод, что одной из важных задач на пути преодоления глобального кризиса выступают создание всеобщей гуманистической идеологии и выработка глобального мышления,

способствующих правильному пониманию целостности мира и его структурных частей. Задачей глобального мышления является установление причин возникновения и закономерностей развития глобальных процессов, поиск средств, механизмов предотвращения и ликвидации глобальных проблем; а также выявление характерных особенностей глобальных проблем как следствие кризиса нравственных ценностей, порождающего конфликты в общественной сфере.

Актуальные проблемы построения рыночной системы, правового государства требуют коренных изменений в сознании населения, формирование массового менталитета, сообразного рыночной экономики и плюралистической демократии.

Современная общественная мысль отмечает проблему формирования «транснационального гражданского общества», звенья которого структурно связаны взаимосвязанными и взаимообусловленными сетями, преследующими цель устранение дефицита демократии (5).

Для Азербайджанской Республики тематика глобализации является очень актуальной. Азербайджан как независимое государство мирового сообщества принимает активное участие в глобализационных проектах, свидетельством чего являются использование современных информационно-коммуникационных и транспортных технологий, участие страны в международных политических и экономических организациях, интеграция в культурное мировое пространство, участие в противостоянии угрозам национального и международного правопорядка, в антитеррористических акциях и многих сферах мирового общественного организма. Азербайджанская Республика твердо придерживается курса интеграции в международное сообщество, предпочитая его политике изоляционизма.

В соответствии с этим исследование перспектив и ценностей глобализации в контексте азербайджанской интеллектуальной и культурной традиции составляет основу успешной ассимиляции элементов открытого гражданского общества и либеральной экономики в национальную структуру с учетом культурной специфики (сосуществование с другими субъектами на мировой арене, приспособление к изменяющемуся положению в системе мирового рынка, взаимодействие с другими культурами и пр.). В своем фундаментальном труде «Азербайджан: вызовы глобализации» академик Р.Мехтиев отмечает: «Философию развития азербайджанской государственности в новом тысячелетии необходимо рассматривать в силовом поле трех детерминант – формирования национальной идеи, признания роли личности и поддержания целеустремленности нации. Именно эти факторы предопределяют облик Азербайджана в XXI веке» (6, с.130).

Таким образом, глобальное философское мышление – это своего рода анализ, конструирование и видение разнообразных возможностей и альтернативных путей развития общества. Гуманистическое мировоззрение, подпитываемое теорией цивилизации, социальной антропологией и создаваемое под влиянием разнообразных культурных призм, выделяет проблему формирования и развития духовности в качестве первоосновы человеческой деятельности, источника переосмысления и разрешения социальных проблем, в исторической перспективе представляемой условием предотвращения глобальной катастрофы человеческой цивилизации.

Ключевые слова: глобализация, неолиберализм, демократия, право, мораль, глобальное развитие, философия.

Список использованной литературы

1. Robertson R. Globalization: Social Theory and Global Culture L., 1992.
2. См.об этом: Building a world community. Humanism in the twenty-first century; Papers delivered at the 10th. Humanist world congress / Ed. By Kurtz P. et al – Buffalo (N.Y.), 1989, 362 p.
3. См.: Fukuyama F. Trust: The Social Virtues and the Creation of Prosperity N.Y., 1996.
4. Чумаков А.Н. Глобализация. Контуры целостного мира. М., 2005.
5. Viney J. The Culture Wars. Oxford, 1997.
6. Мехтиев Р. Азербайджан: вызовы глобализации, Баку, «XXI-Yeni Nəşrlər Evi», 2004.

Samirə KADİYEVA

MÜASİR DÜNYA: QLOBALLAŞMA FƏLSƏFƏSİ

Xülasə

Müəllif məqalədə müasir qloballaşmanın fəlsəfi aspektlərini nəzərdən keçirir. Real qloballaşma sosial gerçəkliyin bütün sahələrini yenidən dizayn etməkdədir. Qloballaşmanın təsiri sosial həyatın bütün səviyyələrinə nüfuz edir. Müəllif göstərir ki, qlobal prosesləri tam olaraq anlamaq üçün bəşəriyyətin gələcəyi ilə bağlı problemləri də nəzərdə tutmaq zəruridir.

Açar sözlər: qloballaşma, neoliberallaşma, demokratiya, hüquq, əxlaq, qlobal inkişaf, fəlsəfə.

Samira KADIYEVA

MODERN WORLD: PHILOSOPHY OF GLOBALIZATION

Summary

The author examines philosophical aspects of modern globalization. The real globalization has been forming again new social conditions in all spheres. The influcuce of globalization influences all the layers of social life. Author shows that for understanding the global processes it is necessary to analyse the problems of the mankind′s future as well.

Keywords: globalization, neo-liberalism, democracy, right, morality, global development, philosophy.

UOT 101.1

Yunis NƏSİBOV
Azərbaycan Universiteti, doktorant

AZƏRBAYCANDA HÜQUQİ DÖVLƏT İDEYASINA FƏLSƏFİ BAXIŞ*

"Hüquqi dövlət" bir ideya, elmi nəzəriyyə, siyasi konsepsiya və praktika kimi bəşəriyyətin azadlıq, ədalət uğrunda mübarizəsi nəticəsində əldə etdiyi ən böyük nailiyyətlərdən biridir. O ümumbəşəri sərvət hesab edilir. Hüquqi dövlət ictimai həyatında qanun, hüquqi prinsiplər və vasitələr əsasında qurulmasıdır. Onun bərqərar olması üçün hakimiyyətin bölünməsi kimi obyektiv hüquqi prinsip qeyd-şərtsiz həyata keçirilməlidir. Demokratik cəmiyyətin yeganə kütləvi-siyasi hakimiyyəti məhz hüquqi dövlət hesab olunur.

Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi və unitar respublika qurulduğunu bəyan etmişdir. Heç şübhəsiz müstəqilliyinin ilk illərindən başlayaraq Dağlıq Qarabağ münaqişəsinə cəlb edilmiş Azərbaycan üçün hüquqi dövləti formalaşdırmaq və inkişaf etdirmək spesifik xüsusiyyətləri ilə yanaşı, həm də çoxsaylı çətinliklərlə bağlıdır. Ermənistan Respublikasının Azərbaycan ərazilərinin iyirmi faizindən çoxunu işğla etməsi, onun suverenliyinə, ərazi bütövlüyünə və konstitusion quruluşuna əhəmiyyətli zərər vurması kifayət qədər çətinliklər yaratsa da, hüquqi dövlət quruculuğu inamla davam etdirilməkdədir. Azərbaycan hüquqi dövlət quruculuğunun nəzəri problemlərinin həllində və bu cəmiyyətin təcrübi baxımdan uğurlu təşəkkülü sahəsində mühüm uğurlar əldə etmişdir. Vətəndaş cəmiyyətinin qurulması, demokratik cəmiyyətin və fikir müxtəlifliyinin formalaşması sahəsində də xeyli iş görülmüşdür.

Azərbaycan cəmiyyətinin mədəni-mənəvi dəyərləri, milli keyfiyyətləri, humanist təbiəti hüquqi dövlət ideyasının dəyərlər sisteminə çox yaxındır. Bu da hüquqi dövlət ideyasının bir nəzəri təlim kimi inkişafında və ümumiyyətlə hüquqi dövlətin qurulmasında əhəmiyyətli rol oynayır. Ölkədə hüquqi dövlət quruculuğu sistemli şəkildə həyata keçirilir, hüquq islahatları aparılır, dünyanın ayrı-ayrı demokratik ölkələrinin təcrübəsindən yaradıcılıqla istifadə edilir. Son iyirmi ildə hüquqi dövlət quruculuğunun nəzəri əsaslarının hazırlanmasında, normativ-hüquqi bazanın yaradılmasında, islahatların ardıcıl şəkildə həyata keçirilməsində böyük uğurlar əldə edilmişdir. Avropa Şurasına üzvlüyə qəbuldan sonra ölkənin ictimai-siyasi quruluşunda, hüquqi dövlət quruculuğunda, hüquq-mühafizə sisteminin əsaslı surətdə təkmilləşdirilməsində, bazar münasibətlərinin və azad rəqabətin formalaşdırılmasında əldə edilən nəticələr Avropanın ixtisaslı ekspertləri tərəfindən yüksək qiymətləndirilir.

Ölkədə hüquqi dövlət quruculuğunun nəzəri və hüquqi əsaslarının yaradılmasında, ölkənin iqtisadi qüdrətinin artırılmasında bazar münasibətlərinin inkişafı, yanacaq-enerji resurslarından səmərəli istifadə, elmi-texniki nailiyyətlərin nəticələrindən bəhrələnmə, innovasiyalı elmi siyasətin uğurla həyata keçirilməsi mühüm əhəmiyyət daşıyır. Sosial yönümlü dövlət siyasətinin ardıcıl və sistemli şəkildə həyata keçirilməsi, pensiya təminatının yaxşılaşdırılması, yoxsulluğun aradan qaldırılması, yeni iş yerlərinin yaradılması, təhsil sisteminin Avropa məkanına uyğunlaşdırılması, qabaqcıl texnologiyalardan və iş metodlarından istifadə, xalqın maddi rifahının yaxşılaşdırılması, insan hüquq və azadlıqlarının etibarlı şəkildə mühafizəsi ölkədə hüquqi dövlət quruculuğunun intensiv şəkildə inkişafında geniş imkanlar yaratmışdır. Mədəniyyətlərin, sivilizasiyaların, dinlərin qarşılıqlı əlaqəsi, inteqrasiyası və inkişafı tolerant bir ölkə kimi Azərbaycanın nüfuzunu ciddi şəkildə qaldırmışdır.

---

* Məqalə h.e.d., prof. H.Qurbanov və fəlsəfə doktoru F.Nəbiyev tərəfindən çapa məsləhət bilinib.

Azərbaycanın mövcud iqtisadi sistemi, əmək və istehsal münasibətlərini hazırkı vəziyyəti getdikcə hüquqi dövlət prinsiplərinə əhəmiyyətli dərəcədə uyğunlaşdırılır. İqtisadi sistem cəmiyyətin bütün təbəqələrinin iqtisadi qurumlar və təşkilatlar çərçivəsində fəaliyyət göstərməsini, sosial münasibətlərin tarixi ənənələr qazanmasını, böyük təcrübəyə malik olan vərdişlərin aşılanması cəmiyyətdə orta təbəqənin və milli burcuaziyanın formalaşmasına təkan vermişdir.

Hüquq sitemi əsaslı surətdə dəyişilmək mərhələsindədir. Ədalət mühakiməsi hüquqi dövlət prinsiplərinə uyğun olaraq tamamilə yeniləşdirilmişdir. Üçpilləli məhkəmə insan hüquq və azadlıqlarının etibarlı mühafizəsi, çəkişmə prinsipinin real surətdə həyata keçirilməsi sahəsində yeni keyfiyyət dəyişikliklərinə səbəb olmuşdur. Hüquq-mühafizə sistemində prokurorluq orqanlarının ümumi nəzarət funksiyası bazar münasibətlərinə uyğunlaşdırılmış və yeni çalarlar əldə etmişdir. İctimai asayişin qorunmasında polis orqanlarının rolu artırılmışdır. Milli təhlükəsizlik orqanlarının fəaliyyətini tənzim edən normativ-hüquqi aktlar hazırlanmışdır. Vəkillik institutu yenidən təşkil edilmiş, onun vətəndaşların hüquq və azadlıqlarının qorunmasında rolu əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır. İnsan hüquqları üzrə müvəkkillik institutunun yaradılması, konstitusiya məhkəməsinin formalaşdırılması ölkəmizin tarixində yeni təsisatlar olsa da, lakin onlar mühüm funksiyalar yerinə yetirməkdədir. Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının müdafiəsinə dair iddiaları, nəzərdə tutulan prosedur daxilində Avropa İnsan Hüquqları Məhkəməsinə qədər müraciət imkanı yaratmışdır. Son illər bu sahədə Avropa İnsan Hüquqları Məhkəməsinin bir sıra qərarları böyük maraq kəsb edir. Qanunun aliliyinin bərqərar olması, insan hüquq və azadlıqlarının müdafiəsinə böyük önəm verilməsi yeni dövr baxımından təqdirəlayiqdir. Cəmi 20 illik müstəqillik tarixi zəngin hadisələrlə, maraqlı proseslərlə, ibrətamiz həyat hadisələri ilə zəngindir.

Vətəndaşların hüquqi mədəniyyətinin formalaşmasındakı maneələrlə yanaşı onların totalitar birpartiyalı sistemin yaratdığı tarixi siyasi təcrübəsi ilə bağlı problemlər hələ də tam aradan qaldırılmamışdır. Bu hal hüquqi dövlətin əsasları olan siyasi hüquqların gerçəkləşməsi baxımından bir sıra maneələr yaradır. Hər bir sıravi vətəndaş öhdəsinə düşən vəzifəni yerinə yetirmək üçün siyasi aktivlik nümayiş etdirir və çoxpartiyalı bir sistemdə siyasi cəhətdən təşkilatlanaraq aktiv siyasətlə məşğul olmaq tərzi və vəzifələrini düzgün və faydalı şəkildə tətbiq etməkdə müəyyən çətinlikləri aradan qaldırmağa çalışır. Demokratik sistem çoxpartiyalılığı ona görə tətbiq edir ki, hakimiyyət bir qrupa yox, bir neçə siyasiləşmiş qrupa məxsus olsun. Demokratik dəyərlər bir neçə qrupa, cəmiyyətin rəyini qazanmaq üçün mübarizə və rəqabət imkanı verir. Siyasi qüvvələr siyasi hakimiyyət uğrunda mübarizəyə girərkən bunu xalqın rəğbətini qazanmaq yolunda daha yaxşı təkliflərlə çıxış etmək, özünü daha yaxşı vəzifə daşıyıcısı kimi təqdim etməlidirlər. Mübarizəni məhz ictimai müstəvidə aparmalıdırlar. Problem, göründüyü kimi, siyasətçilərin peşəkarlıq səviyyəsi ilə sıx bağlıdır (6, s.40-42), (5).

Azərbaycanda vətəndaşların özünüidarə orqanları kimi bələdiyyələrin yaradılması və fəaliyyəti yeni olsa da, xeyli təcrübə toplamışdır. Bələdiyyələrin fəaliyyətinin bu və ya digər istiqamətlərdə hüquqi tənzimlənməsi istiqamətində gərgin iş aparılmışdır. Dövlət bələdiyyərlərin fəaliyyətinin yaxşılaşması, onun maddi imkanlarının genişləndirilməsi istiqamətində planlı və məqsədyönlü fəaliyyət həyata keçirir.

İlk növbədə, əvvəldə də qeyd etdiyimiz kimi, tamamən fərqli tarixi təcrübəyə, vətəndaşlıq mədəniyyətinə və vərdişlərinə malik olan bir əhalinin stereotiplərini yeniləri ilə dəyişmək asan deyil. Bu subyektiv amil həm sıravi vətəndaşlar, həm də bələdiyyə işçiləri üzərində ciddi rol oynayır. İkinci şərt isə Azərbaycanın hal-hazırda yaşadığı mövcud regional şərait, böyük bir münaqişə içində olması, böyük regional layihələrin qurulması dövrü yaşamasıdır. Bütün bu son dərəcə gərgin və kompleks fəaliyyət tələb edən məsələlər bir sıra sosial işləri yüksək səviyyədə gündəmdə olmağı və bu yolda dövlət və ictimai strukturları yönəltməyi fiziki olaraq mümkünsüz edir.

Yuxarıda sadaladığımız problemlər və maneələrlə yanaşı Azərbaycanın hüquqi dövlətçilik yolunda müsbət rol oynayan amillərini də qeyd etmək istərdik.

Əsas müsbət göstərici kimi qəbul olunmuş konstitusiyanın hüquqi dövlət prinsiplərini tamamən ehtiva etməsidir. Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin əsas xidmətlərindən biri olaraq belə bir mükəmməl konstitusiyanın qurulması olmuşdur. Bu, həm də hüquqi dövlətçiliyin ilk illərində ona liderlik edən şəxsin uzaqgörən və böyük vətəndaşlığı kimi göstəricilərin əhəmiyyətini göstərir. Ona görə də akademik Ramiz Mehdiyev haqlı olaraq qeyd edir: «Vətəndaşlarımız unutmamalıdırlar ki, məhz dövlət başçısının zəkası, istedadı, uzaqgörənliyi və əzmi sayəsində ölkədə sabitlik yaranmışdır. Heydər Əliyevin simasında tale Azərbaycana və millətimizə güclü siyasi lider, ölkə əhalisi arasında və dünya birliyində yüksək, inkaredilməz nüfuza malik beynəlxalq miqyaslı dövlət xadimi bəxş etmişdir» (4, s.84).

Konstitusiya ilə bağlı digər çox önəmli vəziyyət isə onun bütün prinsiplərinin, yəni, hüquqi dövlət prinsiplərinin legitimliyi, əhalinin əksəriyyətinin, bütün xalq tərəfindən şəksiz qəbuludur. Bu o deməkdir ki, hüquqi dövlət ideyası üçün ictimai zəmin vardır. Milli mentalitet onun prinsiplərini özünün bütün mental göstəricilərinə uyğun sayır. Əslində əhalinin belə bir mövqeyi, bir sıra dövlətlərdə sadəcə total itaət xüsusiyyəti kimi qəbul olunur. Yalnız kütləvi mədəni inkişaf səviyyəsi qənaətbəxş olan ölkələrdə bu səhnəyə obyektiv surətdə rast gəlmək olur. Azərbaycan da sonunculardandır. Əhalinin bir tərəfdən mədəni, təhsil səviyyəsi çox ziddiyyətli deyil, böyük fərqlərlə müşahidə olunmur. Kütləvi mədəni səviyyənin qənaətbəxş olması isə imkan verir ki, dəyərlər, özü də demokratik, dünyəvi dəyərlər xalqın bütün təbəqələri tərəfindən sinxron qəbul olunsun. Bu mövzu ilə bağlı bir sıra müəlliflərimizin əsərlərində geniş şərhlərə rast gəlmək olar (2).

Göstərilən hal hüquqi dövlətçilik sisteminin qurulması yönündə bir sıra praktik məsələləri həll etmiş olur. Bəzi qonşu dövlətlərin təcrübəsindən açıq-aydın müşahidə etmək olur ki, sosial təbəqələr arasında böyük mədəni fərqlər ictimai düşüncə və həyat tərzi haqqındakı düşüncələri, stereotipləri bir neçə bir-birinə zidd istiqamətdə ayırır. Siyasi qüvvələr də sosial bazanı öz tərəfinə çəkmək üçün düşüncələri siyasətə istiqamətləndirir. Nəticədə konstitusiya demokratik, dünyəvi, liberal dəyərlərə söykənsə də, onu gerçəkləşdirmək mümkün olmur. Ən pisi isə yaxın gələcəkdə bu sistemi formalaşdırmaq imkanı görünmür. Çünki hakimiyyətin demokratik yolla seçilməsi əhalinin rəyinə əsaslanır. Deməli, əhali həmin dəyər və prinsipləri ziddiyyətsiz və tərəddüdsüz qəbul etməlidir.

Bir sıra dövlətlərdə isə əhalinin mədəni səviyyəsində ziddiyyətlər yaşanmasa da, milli-dini müxtəliflik və onların hər birinin hakimiyyət subyektinin mövcudluğu demokratik prinsiplərin tamamən gerçəkləşməsini dövlətin bütövlüyü baxımından təhlükəli edir. Demokratik seçki prinsiplərinin gerçəkləşməsinə məhz bu səbəbdən real olaraq imkan verilmir. Demokratik dəyərləri təhrif edərək hüquqi dövlət qurmaq isə mümkün deyil.

Hər iki vəziyyətlə bağlı Azərbaycanda müsbət göstəriciləri müşahidə edirik. Bir tərəfdən, sosial təbəqələrin öz gələcəkləri haqqında düşüncələri bir ideyaya yönəlib, əhali öz həytalarını vahid istiqamətdə və hüquqi dövlət prinsipləri əsasında qurmaq istəyirlər. Digər tərəfdən, Azərbaycanda etnik və dini müxtəlifliyə rast gəlinsə də, bu, böyük demoqrafik göstəricilərə malik milli-dini subyektlər səviyyəsində deyil və həmin xalqlar əsas millətlə hər hansı bir fərq daşımırlar, bu fərq sadəcə onların yaddaşında müəyyən etnik qrupa aid olmaları kimi bir informasiya daşıma səviyyəsindədir.

Daha sonra hüquqi dövlət ideyasının əsas ideya mənbəyi olan humanizm, insan amilinə verilən önəm, Azərbaycanda tolerantlıq kimi dəyərlərin konkretləşməsi imkanlarının hansı səviyyədə olmasını diqqətə çatdırmaq istərdik.

Bəllidir ki, əslində humanizm ideyaları hələ orta əsrlərdə Nizami, Nəimi, Nəsimi kimi mütəfəkkirlərin ideya bazası olmuşdur. Əminliklə həmin ideyaların ilk dəfə məhz Azərbaycanda hürufilik adlanan böyük bir cərəyan kimi meydana gəldiyini iddia edə bilərik. O zaman Avropada

liberal dəyərlər haqqında heç təsəvvür yox idi. Əslində burada təəccüblü bir hal yoxdur. Bu günkü Azərbaycan xalqının bütün dünyanı təəccübləndirən tolerant, insanpərvər xisləti həmin dəyərlərin xalqımızın təbiətinin tələbatı olduğunu sübut edir. Bu ölkə çox siyasi sistemlər, dövlət quruluşları görüb və müxtəlif ideoloji mühitdə yaşayıb. Lakin hər zaman da həyat tərzində, insanlara münasibətində mükəmməl humanist hisslər, davranışlar nümayiş etdirib. Onun təbiəti başqa cür olmağa imkan vermir. Ona görə də bir sıra xalqlardan fərqli, bəzilərindən isə çox fərqli olaraq humanist dəyərlər Azərbaycan xalqı üçün yapışdırma prinsiplər və ya kosmetik mədəni davranış tərzi ola bilməz. Halbuki, bu günün Qərbində fərdi, ölkə daxili olmasa da regional və qlobal müstəvidə dini və milli dözümsüzlük açıq və ya gizli olaraq daim düşüncədə və gündəmdədir (7).

Qərbdə liberal dəyərlər, insan hüquq və azadlıqları inkişaf edib. Buna şübhə yoxdur. Lakin orada da bir sıra neqativ hallara, özgələşməyə rast gəlmək olur. Məsələn, mətbuat azadlığı, siyasətin və siyasətçilərin fəaliyyətinin şəffaflığı kimi yüksək dəyərlər özgələşdirilə bilir. Siyasətçinin fəaliyyətinin nəzarətə alınmasına verilən imkan onun şəxsi hüquqlarının pozulması ilə nəticələnə bilir. Yəni, siyasətçinin özəl həyatı, ailə münasibətləri gündəmə çıxarılıb cəmiyyətə açıqlanır və bu zaman da müxtəlif «əxlaqi nümunə» və s. bəhanələrdən çıxış edilə bilir. Əslində, siyasətçidən şəxsi həyatındakı davranışlarına görə hesabat tələb edərkən mətbuat və cəmiyyət özü əxlaqsızlaşır. Digər bir nümunə isə feminizm cərəyanının təşkilatlanmış halda fəaliyyətinin müəyyən sərhədləri aşması nəticəsində bir sıra insanların özlərində başqalarının ailə münasibətlərinə qarışmaq kimi ictimai səlahiyyətləri və ixtiyarları olması düşüncələrinə vərdiş etmələridir.

Yəni humanist çıxışlarda ölçünü gözləyə bilməmək əslində Avropada liberal dəyərlərlə yaşamaq kimi tarixi ənənələr və onun əsasında həyata keçirilən humanist, dünyəvi dəyərlərlə laqeydlik insan xislətinin çatışmazlığıdır.

Qərbdən fərqli olaraq Azərbaycanda özəl həyatın, ailə münasibətləri və həyatın toxunulmazlığı vətəndaş cəmiyyətinin, hüquq azadlığının şərtidir.

İndi isə Azərbaycan şəraitində hüquqi dövlət ideyasının tətbiqi məsələsinin əsas cizgiləri haqqında fikirlərimizi aydınlaşdıraq.

Fikrimizcə, Azərbaycanın həm ən müasir tarixinin, həm də bu günkü yerli və regional şərtlərinin gətirdiyi ciddi məsələlər var ki, onlar hüquqi dövlətçilik prinsipləri əsasında həyata keçirilməli olan işlərdir. Bu işlər hüquqi dövlət konsepsiyasının bəzi prinsiplərinin gerçəkləşməsi ilə bağlıdır.

Biz yuxarıda bir sıra ciddi real imkanları və hətta bəzi prinsiplərin millətin xüsusiyyəti olaraq mövcud olduğunu qeyd etdik. Lakin hüquqi dövlətin qanunun aliliyi kimi bir prinsipinin Azərbaycanda konkretləşməsi yolunda sözün həqiqi mənasında görüləsi böyük işlər vardır.

Hüquqi dövlətin əsas prinsipi olan hakimiyyət bölgüsü sahəsində də bir sıra işlərin görülməsinə ehtiyac vardır. Belə ki, hakimiyyət bölgüsü qanunverici, icraedici, məhkəmə hakimiyyəti arasında əlaqələrin qurulmasını tələb edir. Fikrimizcə, Azərbaycanda qanunverici hakimiyyətin səlahiyyətləri ilə bağlı bir sıra həllini gözləyən məsələlər vardır. Milli Məclisin Nazirlər Kabineti üzərində nəzarətinin gerçəkləşməsinə xüsusi diqqət yetirilməlidir.

Azərbaycanda hüquqi dövlət quruculuğunda ikinci istiqamət isə yardımçı ictimai sistemlərin, vətəndaş cəmiyyətinin formalaşması ilə bağlıdır. Müxtəlif sferalarda, müxtəlif problemlərlə bağlı ictimai təşkilatların qurulmasına bir tərəfdən dövlət tərəfindən diqqət verilməlidirsə, digər tərəfdən də əhalinin sosiallaşması istiqamətində təşkilatlanması gündəmə gəlməlidir.

Siyasi təşkilatlanma istiqamətində də böyük işlər görülməsinə ehtiyac vardır. Bu gün Azərbaycanda müxalifət böhranı hökm sürür. Bu isə hüquqi dövlətçilik quruculuğunda, ümumilikdə dövlətin və cəmiyyətin təhlükəsizliyi, bütövlüyü, rifahı məsələlərində ciddi boşluqdur. Güclu və peşəkar, sivil müxalifət dövlətin ən böyük sütunlarındandır. Milli liderimiz Heydər Əliyev problemi qaldırarkən demişdir: «Azərbaycanda siyasi plüralizm varsa, demək,

siyasi müxalifət olmalıdır. Siyasi müxalifətin olması hər bir dövləti həm totalitarizmdən xilas edir, həm də dövlət siyasətinin aparılmasında dövləti daha da sayıq saxlayır» (1, s.12).

Vacib göstərici iqtisadi sistemin hüquqi dövlətə dayaq olacaq lazımi səviyyəyə çatdırılmasıdır. Orta təbəqənin böyüməsi, milli burcuaziyanın yaranması, akademik kadrların ölkədən kənara axınının qarşısının alınması, kiçik və orta sahibkarlığın inkişafı, inhisara qarşı proflaktik tədbirlərin görülməsi, təhsil və səhiyyənin inkişafı və s. məsələlərin həll edilməsi nəticə etibarı ilə hüquqi dövlət üçün əsas olan güclü iqtisadi sistemin formalaşmasına xidmət edir.

Beləlilklə, Azərbaycan regional və qlobal problemləri ilə yanaşı hüquqi dövlət ideyasına, ciddi dövlətçilik imkanlarına malikdir və o bu imkanlardan yararlanaraq cənubi Qafqazda, ən gözəl həyat şərtlərinə malik, nümunəvi bir ölkə səviyyəsinə çata bilər.

Açar sözlər: hüquqi dövlət, dövlətçilik ideyası, geopolitik maraqlar, hüquqi prinsiplər, demokratik dəyərlər.

İstifadə olunmuş ədəbiyyat

1. Əliyev H.Ə. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı: «Azərbaycan Universiteti» nəşriyyatı, 1997, 136 s.
2. Əliyev Q.C. Çağdaş demokratik proseslərin bəzi fəlsəfi problemləri. Bakı, «Təbib», 1997, 129 s.
3. İsmayılov D.Y. Azərbaycanın transformasiya prosesində ideologiyalar: konservatizm, liberalizm, sosial-demokratiya. Bakı, «Adiloğlu», 2005 , 344 s.
4. Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı, «XXI» - Yeni Nəşrlər Evi, 2003, 248 s.
5. Бурдье П. Социология политики.: Пер.с фр. /Сост.общ.ред.и предисл. Н.А.Шматко. М.: Socio-Logos, 1993, 336 с.
6. Вебер М. Политика как призвание и профессия. //Новое время. 1990, № 21.
7. Хантингтон С. Столкновение цивилизаций. Пер. с англ. Т. Велимеева, Ю. Новикова. М., ООО «Издательсто АСТ», 2003, 603 с.

Юнис НАСИБОВ

ФИЛОСОФСКИЙ ВЗГЛЯД НА ПРАВОВОЕ ГОСУДАРСТВО В АЗЕРБАЙДЖАНЕ

Резюме

Проблема построения правового государства является объектом исследования ряда авторов. Особенно в центре внимания построения правового государства находится существующий в Азербайджане гуманистический взгляд на окружающий мир. Толерантство является характерной чертой, определяющей суть качеств нравственных ценностей азербайджанского народа.

В период формирования новых экономических рыночных отношений на передний план должны выдвигаться вопросы гуманизма, благотворительности в общественной деятельности национальной буржуазии.

Ключевые слова: правовое государство, идея государственности, геополитические интересы, правовые принципы, демократические ценности.

Yunis NASIBOV

PHILOSOPHICAL VIEW OF IDEA OF LEGAL STATE IN AZERBAIJAN

Summary

The problem of establishing a legal state is an obcect of investigation carried out by several authors. In particular the humanistic view of the surrounding world, existing in Azerbaijan, is in the centre of attention. Tolerance presents the characteristic feature defining an essence of moral values qualities of the Azerbaijani people.

During the formation of new economic market relations the issues of humanism, philanthropy in the public activities should be put into the foreground.

Keywords: legal state, statehood idea, geopolitical interests, legal principles, democratic values.

UOT (091)(4/9)

Seyid Camal GÜLŞƏNİ
AMEA Əlyazmalar İnstitutu, doktorant

SƏDRƏDDİN KONYƏVİNİN ƏSƏRLƏRİ VƏ ONLARIN ƏLYAZMA NÜSXƏLƏRİ*

Hər bir xalqın tarixini, mədəniyyətini, dini baxışlarını, ədəbiyyat və incəsənətini özündə əks etdirən əlyazma kitabları xüsusi əhəmiyyətə malikdir.

Əsrlər boyu üzü katiblər tərəfindən köçürülərək yayılan bu əlyazmaların mühafizə edilərək saxlanması, tədqiqi və nəşri xalqın keçmişi və gələcəyini düşünən hər bir ziyalı və araşdırıcının mühüm vəzifəsidir.

İbn Ərəbi məktəbinin ən önəmli nümayəndəsi və davamçılarından biri olan Sədrəddin Konyəvinin (606-673/1209-1274) də əsərlərinin dünyanın müxtəlif muzey və kitabxanalarında saxlanılan əlyazma nüsxələri təsəvvüf və təfəkkür tariximizin araşdırılmasında bir ilkin qaynaq kimi çox dəyərli və əhəmiyyətlidir.

Bu məqalədə biz Konyəvinin bəzi əsərləri haqqında qısa məlumat və bu əsərlərin bir sıra əlyazma nüsxələrinin elmi-paleoqrafik təsvirini verməyi məqsədəuyğun saydıq. Bu əsərlərdən aşağıdakıları göstərmək olar.

1. "Əl-fükuk fi şərhül-füsus"

Mühyiddin İbn Ərəbinin (560-638/1165-1249) "Füsusül-hikəm" (tam.627/1230) adlı məşhur əsərinə ərəb dilində yazılmış şərhdir. Konyəvi "Füsusül-hikəm"i şeyxin ən dəyərli əsərlərindən biri hesab edir. "Füsusül-hikəm" İbn Ərəbiyə Məhəmməd peyğəmbər (s) tərəfindən vəhy olunmuş ən son kitablardandır. İbn Ərəbi Şamda (Dəməşqdə) olan zaman Hz.Peyğəmbərin (s) gözünə göründüyünü və ona müraciətlə: "Bu əlimdəki "Füsusül-hikəm"i ("Hikmətin əsas mənaları"nı) göstərən bir kitabdır, bunu al və faydalanacaq kəslərə açıqla!", – dediyini nəql etmişdir (**2**, 149). Dahi mütəfəkkirin bu əsəri peyğəmbərlərə verilmiş hikmətlərin mənşəyini şərh edən 27 fəssdən ("fəss" sözünün hərfi mənası "üzük qaşı" deməkdir, lakin burada "bölüm" mənasında işlənmişdir) ibarətdir və hər bir "fəss" bir peyğəmbərin adı ilə bağlıdır. Müvafiq olaraq Konyəvinin "Əl-fükuk" əsəri də 27 "fəkk"dən ibarətdir. "Əl-fükuk" hər bir bəsir insana bu hikmətlərin həqiqətini, niyyətini və İbn Ərəbinin kamalının nəticəsi olaraq ona nazil olanları açıqlayır.

Əsərin əlyazmasının bir nüsxəsi Tehran Universitetinin İlahiyyat fakültəsinin kitabxanasında 28d şifri altında saxlanılır. Paleoqrafik xüsusiyyətlərinə görə XIV-XIX əsrə aid olan nüsxənin katibi Mirzə Abdullah Riyazidir. Mətn nəstəliq xətti ilə Avropa kağızı üzərinə köçürülmüşdür. 95 vərəqdən ibarət olan nüsxənin cildi üzünə yaşıl rəngli dəri çəkilmiş kartondur. Ölçüsü 17 x 21,5 sm-dir.

Əsərin "Əl-fükuk fi müstənəddati-hükmül-füsus" adlanan digər nüsxəsi Tehran Universitetinin Mərkəzi kitabxanasında 860-17b-59b şifri altında saxlanılır. Mətn nəsx xətti ilə İsfahan kağızı üzərinə köçürülmüşdür. 95 vərəqdən ibarət olan nüsxənin cildi üzünə qara rəngli tumac dəri çəkilmiş kartondandır, cildin üz hissəsində qırmızı fonda gül-buta basmanaxışı vardır. Ölçüsü 12 x 22 sm-dir.

2. "Ən-nüsus fi təhqiqi-tövril-məxsus"

Kitab Allahın dərki, ilahi hökmlər, əsma və sifat, onların Allaha mənsubluğu, ilk təəyyün və bir sıra digər məfhumlar haqqında çox yığcam və müxtəsər məlumat verən əsərdir. Kitaba

* Məqalə f.e.d., prof. N.Nağısoylu tərəfindən çapa məsləhət bilinib.

"Əsrarüs-sürur bil-füsul ela eynün-nur", "Şərhün-nüsus", "Zübdətüt-təhqiq və nüzhətüt-tovfiq" adlanan şərhlər yazılmışdır.

Ərəb dilində yazılmış bu kitab Konyəvinin və ümumiyyətlə, islam müəlliflərinin əsərləri arasında ən dəyərli əsərlərdən biri hesab olunur. "Ən-nüsus fi təhqiqi-tövril-məxsus"da əsas mətləblər aşağıdakılardır:

Haqq-taala heç bir adla, vəsflə və ya rəsmlə ifadə oluna bilməz; Elm varlıq axtarışındadır; İnsan heç bir şeyi gözlə, kəşflə, hislə və xəyalla lazım olduğu dərəcədə, tam olaraq dərk etməmişdir; Hər bir salikin hərəkət etdiyi hər bir yolun ən son dayanacağı Haqqa çatmaqdır; Hər hansı bir məfhumdan onun inkarı və ya ziddi olan heç bir şey yaranmaz və törəməz; Saliklərin itaət və icabəti və onların nəfslərinə qalib gəlmələridir.

Bir şeyin ən yüksək dərəcədə dərki, mətlubda qərq olma və taliblə həmin mətlub arasında artıq heç bir fərqin olmaması yolu ilə, yəni vəhdətlə əldə olunar; Mərifəti-ilahinin, yəni haqqın qəlb aynasında yetərincə tanınmasının əsasları; Haqq-taala xalis və heç bir qatışığı olmayan bir varlıqdır; O, bənzəri və tayı olmayan, həqiqi vəhdətə – müqabilində kəsrətin anlaşılamayacağı bir vəhdətə sahib olan bir varlıqdır.

Əsərin əlyazma nüsxəsi Tehranın Məlikşəhr Milli kitabxanasında 485 şifri altında saxlanılır. Mətn nəstəliq xətti ilə tirmə kağız üzərinə köçürülmüşdür. 23 vərəqdən ibarətdir, hər vərəqdə 17 sətir vardır. Cildi qırmızı rəngdədir. Ölçüsü 13,3 x 17,4 sm-dir.

3. "Misbahül-üns beynül-məqul vəl-məşhud fi şərhi-Miftahi-qeybül-cəmül-vücud"

Bu əsərin bir əlyazma nüsxəsi Tehran Universitetinin Mərkəzi kitabxanasında 4105 şifri altında saxlanılır. Əsər, Şəmsəddin Məhəmməd ibn Həmzə Rumi Fənarinin (751-834/1350-1431) "Şərhi bər Miftahül-qeybül-cəmül-vücud" kitabının tərkibindədir. Kitab 738 səhifədən ibarətdir. Mətn Avropa kağızı üzərinə köçürülmüşdür. Katibi Məhəmməd ibn Hüseyn ibn Əli Rizayi Hüseyni Qumidir. Cildi üzünə innabı rəngdə tumac dəri çəkilmiş kartondandır. Ölçüsü 17 x 23 sm-dir.

Əsərin daha bir nüsxəsi Mərkəzi-ehyayi-mirasi-islami kitabxanasında (Qum şəhəri) saxlanılır. Şifri 904-dür. Hər vərəqində 26 sətir olan bu nüsxənin cildi ikitərəfli tumac dəridəndir, cildin üzü qəhvəyi, arxası və haşiyəsi qara rəngdədir. Ölçüsü 14,5 x 24 sm-dir. Katibi Məhəmməd ibn Əli ibn Abdullah ibn Məhəmməd Biladi Bəhranidir. Nüsxə 22 cəmadiüs-sani 1149-cu ildə (=27 oktyabr 1736) köçürülmüşdür.

4. "Miftahi-qeybül-cəmül-vücud"

"Miftahül-qeyb" adı ilə məşhur olan bu kitab elmi irfan və mərifəti-ilahi haqqında yazılmış ən böyük və ən mühüm əsər sayılır. Konyəvi özü bu əsəri haqqında yazır:

Kamil insanın halları və onun seyrini anlamaq istəyən hər kəs "Miftahi-qeybül-cəm" kitabını və onun bu mətləblərlə zəngin olan şərhlərini oxumalıdır. Mən bu kitabda çox sayda bir növ, ağzı möhürlü sirrlər əmanət qoymuşam. Əgər bu sirrlərin talibisənsə (yəni, bu sirrləri anlamaq istəyirsənsə) gərək bu kitabı çox diqqətlə oxuyasan, sözün sonunu onun başlanğıcına vəsf edəsən, onda pərakəndə halda olan çox sayda incə və dərin mənaları toplayıb, qarmaqarışıq, anlaşılmaz və aydın olmayan sirrləri bir-birindən ayırdıqda sən heyrət və təəccüblə üzləşəcəksən.

Bu kitabı oxuyarkən, insan təkrar olduğunu düşünə bilər. Lakin bunlar təkrar deyil, sadəcə olaraq, bir dəfədə aydınlaşdırılması mümkün olmayan hər bir mətləb başqa bir təriflə, yəni ilk dəfə bəyan edildikdə işlədilən ad və ya tərifdən fərqli olan, başqa bir ad və təriflə yenidən şərh etdim ki, bu yolla gizli sirrlərin üzündən pərdə götürülsün, gizli məqamlar aşkar olsun və bununla, ilkin "kəşf"dən fərqli bir "kəşf"ə çatasan. Bu əməl (yazılış tərzi – J.G.) Pərvərdigarı təqlid ("Quran"ın yazıldığı üslub kimi) məndən əvvəlki kamillərin tərzidir.

Bu kitabda dini-ilahi elmlərin bölmələrə ayrılmasına, onun əsas və ikinci dərəcəli köklərinə, ümmətlərin ixtilaf və münaqişələrinin səbəbləri və doğru yola işarəyə, bəsirət sahiblərinin düşüncə zirvəsi və seçdikləri yola, elmi-tədqiqin mövzusu, qaynaqları və onun əhatə etdiyi nəzəri və kəşfi

dəlillərlə isbata yetmiş məsələlərə, kamil insanların elm və əməl haqqında dediklərinə və bir sıra digər mətləblərə işarə olunmuşdur.

Həmçinin, burada dünyanın Allahla və Allahın, zat və zati vəhdət baxımından dünyaya ehtiyacı olmadığına baxmayaraq, dünya ilə əlaqəsinin xüsusiyyət meyarları, yəni bu iki əlaqənin xüsusiyyətinin meyar və təyini haqqında mətləblər zikr olunmuşdur. Həmçinin, mövcudatın tərtib silsiləsi, yəni sübhan Allah və mövcudat və qeyri-mövcudat (ülvi və süfli) arasında əlaqələr haqqında şərh verilmişdir.

Əsərin sonunda kamil insanın xüsusiyyətləri zikr olunmuşdur.

5. Nəfəhati-ilahiyyə

Bu əsər Sədrəddin Konyəvinin ilk və ən mükəmməl əsəri hesab olunur. "Nəfəhati-ilahiyyə" h.640-673-cü (=1242-1274) illər arasında yazılmışdır, yəni Sədrəddin Konyəvinin ilk "mükaşifə"sinin qeyd olunduğu ildən başlamış və son "mükaşifə"yədək davam etmişdir.

"Nəfəhati-ilahiyyə" Konyəvinin "mükaşifə" (qeybi mənaların və həqiqətlərin aşkar olunması) və "varid"lərinin (Haqqdan və qeybdən gələn məna) nəticəsidir. Konyəvi özü "Nəfəhati-ilahiyyə"nin müqəddiməsində belə yazır:

Mən bu kitabda rəhmani nəfhələr və nəsimlər, Allahın özəl təcəllisinin nəticəsi olaraq Haqq-taalanın qürb məqamında mənə bəxş etdiyi və bəyanını mənim üçün asanlaşdırdığı mətləbləri zikr edirəm. Demək, eşitdiyin və ruhuna səfa bəxş edən mətləblər haqqında düşün, onların qiymətini bil ki, səadəti-kübradan və ən yüksək qürb məqamından faydalanasan.

"Nəfəhati-ilahiyyə"də "şüuni-ilahi"dən də bəhs olunur. Konyəvi ən yüksək şəni təzahürü kamil olan insana aid edir.

Sonrakı "nəfhə"də elmi-ilahi və elmin həqiqətinin mənasından bəhs olunur.

Daha sonrakı "nəfhə"də qeyb aləminin açarlarının bəzi sirrlərindən və Yaradan ilə yaradılmışlar – Allah ilə məxluqat arasında əlaqədən, ilahi kəlamın həqiqətindən və həmçinin, "şüuni-ilahi"dən, mələklərin, cinlərin, asimanların, ulduzların, ünsürlərin, peyğəmbərlərin, rəsulların, xəlifələrin, övliyaların mərtəbə və dərəcələr üzrə surəti və daha sonra mələk və şeytan təlqininin növləri, etimada layiq olan və olmayanları, ilahi və ruhani təlqinin xüsusiyyətlərindən və bunlar arasındakı əlaqənin növlərindən bəhs olunur. Həmçinin, burada insanın öldükdən sonra düşdüyü "nəşət" mərhələsinə, yəni insanın xilqəti ilə varlığının yuxarıdan aşağıya doğru enmə mərhələsinin sonuna, bununla da, yüksəliş qövsünün başlanğıc nöqtəsinə çatmağından və bu mərhələnin bu dünyada yaranmasından da söz açılır.

Konyəvi "nəfhə"lərin birində yazır: İnsanın zahiri nisbi sabitlik və möhkəmliyə malikdir, batini isə dəyişkən və növbənövdür. Haqq-taalanın zahiri dəyişkən və növbənövdür, batini isə tam sabitlik və möhkəmliyə malikdir. Demək, Haqq-taalanın batini insanın zahiri kimidir. Haqqın zahiri insan batininin eynidir. Qiyamət günü Allahın surətlərdə əmələ gətirdiyi dəyişkənliyi xatırla! Təcəllilərdə qeybi həqiqət dəyişilməzdir.

Konyəvi burada Haqq-taalanı xüsusiyyəti, halı, vəziyyəti və məkanı olmadan gördüyü və Allahın ona bir tikə ənbər inayət etdiyi mükaşifəsini nümunə gətirir.

Sonrakı "nəfhə"də insanların surət və məna baxımından dərəcələri, mükaşifə, müşahidə və varidlərdə kəşf-dərk səhvləri, Allahın adlarının şərhi, vücub (Haqqın substansiyası və varlığı öz-özünə vacib olan anlam) və imkanın (varlığı başqalarından asılı olan, sonradan yaradılan mümkün varlıq) ehkamları, kamillik və nöqsan mərtəbəsindən bəhs olunur.

Digər "nəfhə"də qəlbində Haqqdan başqa heç bir şey olmaran pərhizkar, təqvalı insandan bəhs edir.

6. Ecazül-bəyan fi təvili-ümmül-Quran

Bu əsərdə "Fatihə" surəsinin təfsiri verilmişdir. Əsər Konyəvinin ən mühüm kitablarındandır və "Təfsiri-sureyi-Həmd" (Həmd surəsinin təfsiri) adı ilə məşhurdur. Kitab şühudi mətləblərlə zəngindir və onlar haqqında çox qısa, müxtəsər və qeyri-müəyyən məlumat verilir.

Konyəvi bu əsərində "üzürlü səbəb"lərin olması bəhanəsi ilə bir çox məsələlərin açıqlamasını verməyərək, onların üzərindən keçir. Onun fikrincə, mücərrəd həqiqətlərin dərki (sadəliyi və dünyadan təcridi baxımından) elmi səviyyədə qeyri-mümkündür.

Daha sonra Konyəvi "zövq" və "kəşf" mərhələlərinə yetmənin yollarını bəyan edir və elmi-ləduni dən faydalanma sirrlərini açıb göstərir.

Konyəvi bu kitabda istifadə etdiyi "qeybi-mütləq", "bərzəxi-nəxostin", "mərtəbəyi-əsma", "məqami-insani-kamil" kimi söz və istilahların mənalarını bəyan edir.

Əsərin əlyazma nüsxəsi Qum şəhəri Höccətiyyə Mədrəsəsinin Kitabxanasında 331 şifri altında saxlanılır. Katibi Həsən ibn Əli Astrabadi Hüseyni olan nüsxə 23 şəvval 874-cü ildə (=25 aprel 1470) Məkkədə köçürülmüşdür. Xətti nəstəliqdir.

7. Üsuli-əhli-təsəvvüf

Əsər Sədrəddin Konyəviyə aid edilir. Ərəb dilində olan bu əsərin əlyazma nüsxəsinin katibi və yazılma məkanı naməlumdur.

"Üsuli-əhli-təsəvvüf" irfan və təsəvvüf haqqında müxtəsər bir risalədir və "vəhdəti-vücud" və digər bu kimi mövzulardan bəhs edir.

Əsərin əlyazma nüsxəsi Məclisi-Şurayi-İslami Kitabxanasında 10-3717 şifri altında saxlanılır. Bu nüsxə 20 vərəqdən ibarətdir, hər vərəqdə 27 sətir vardır. Mətn nəstəliq xətti ilə noxudu rəngli nazik Avropa kağızı üzərində yazılmışdır. Kağızın ölçüsü 17,5 x 23 sm, mətnin ölçüsü 9,5 x 16,5 sm-dir. Üzünə şirazəsi tünd-qəhvəyi tumac dəridən olan birqatlı açıq-qəhvəyi rəngli meşin cild çəkilmişdir.

Bu risalə nadir nüsxələrdən biri olmaqla yanaşı, mövcud mənbələrdə başqa əlyazma nüsxəsi ilə rastlaşmadıq. Vərəqlərin haşiyəsində düzəlişlər aparılmış, izahlar və əlavələr sətirlər arasında, ərəb dilində yazılmışdır. Vərəqlərin yuxarı hissəsi rütubətdən xarab olmuşdur.

8. Təbsirətül-mübtəda və təzkirətül-müntəha

Fars dilində yazılmış bu əsərin 3 əlyazma nüsxəsi vardır.

Birinci nüsxə Tehran Universitetinin Hüquq və siyasi elmlər fakültəsinin kitabxanasında saxlanılır. H. 975/1567-ci ildə köçürülmüş bu nüsxə 86 səhifədən ibarətdir. Mətn hər səhifədə 20 sətir olmaqla nəstəliq xətti ilə noxudu rəngli Səmərqənd kağızı üzərinə köçürülmüşdür. Ölçüləri 10,5 x 16,5 sm-dir. Cildi üzünə qəhvəyi tumac dəri çəkilmiş kartondandır.

Bu əsər müqəddimə və 3 fəsildən və üç nüsxədən ibarətdir. Birinci fəsildə zatın dərkindən, ikinci fəsildə vilayət və nübüvvətin ehkamlarından və üçüncü fəsildə dünya və axirətin dərkindən bəhs olunur.

İkinci nüsxə Məclisi-Şurayi-İslami Kitabxanasında 649 şifri altında saxlanılır. Nüsxənin üzü Şirazda, Əbdürrəşid ibn Əvəz Şüştəri tərəfindən 4 şaban 1043-cü ildə (=3 fevral 1634) köçürülmüşdür. Mətn nəsx və nəstəliq hərfləri ilə yazılmışdır, sətirlərin sayı müxtəlifdir. 1-dən-19-a qədərki səhifələrin ölçüsü 12 x 17 sm-dir. Nüsxə 215 vərəqdən ibarətdir, əvvəldən bir neçə vərəq düşmüş, qalan vərəqlər hamısı bir-birinə birləşdirilmişdir. Bəzi vərəqləri itmişdir. Cildi tünd qırmızı tumac dəridəndir, üzərinə qızılı rəngdə nəbati naxış çəkilmişdir.

Bu əsəri başqa müəlliflərə də aid etmişlər. Qeyd olunduğu kimi, fars dilində yazılmış bu kitab irfan haqqındadır; bir müqəddimə, 3 misbah (bölmə) – hər misbah bir neçə lamedən (yarımbölmə) ibarətdir – və xatimədən təşkil olunmuşdur.

Üçüncü nüsxə Məclisi-Şurayi-İslami kitabxanasında 414/2 şifri altında saxlanılır. Nüsxənin üzü Sünullah tərəfindən rəbiül-axər ayı 1069-cu (28 dekabr 1658) ildə nəstəliq xətti ilə köçürülmüşdür. Ünvanlar qırmızı mürəkkəblə yazılmışdır. Sətirlərin sayı müxtəlifdir, başlanğıc isə yoxdur.

Cildi innabı rəngli tumac dəridəndir, üzərində döymə nəbati naxış var. Naqis nüsxədir, bəzi yerlər səhv köçürülmüşdür.

9. "Əcviyətür-risalətül-müsəffəhə"

Bu əsər "Əl-müfavizat" və ya "Əcviyətüt-Tusi lil-Qunəvi" adları ilə də tanınır.

Əsər ərəb dilində yazılmışdır. Burada Xacə Nəsrəddin Tusinin Sədrəddin Konyəvinin suallarına cavabları verilmişdir.

Hacı Bəşir Ağa nüsxəsi. Əsərin əlyazma nüsxəsi Tehran Universitetinin İlahiyyat fakültəsinin kitabxanasında 355 şifri altında saxlanılır. 69 vərəqdən ibarət olan bu nüsxə şikəstə nəstəliq xətti ilə köçürülmüşdür. Hər vərəqdə 15 sətir var.

Nüsxə Rüstəm ibn Əhməd Şirvani, Əli İzzət və Hacı Bəşir Ağaya məxsus olmuşdur. Bu nüsxə 1158/1745-ci ildə vəqf olunmuşdur. Vəqfnamədə o dövrün "Övqaf" idarəsinin (Vəqflər idarəsi) müfəttişi olan Məhəmməd Əminin xətti və möhürü vardır. Başlıq yerləşən səhifədə görkəmli İran alimi Müctəba Minovinin 1335 şəmsi ilində (=1956) Tehran Universiteti üçün fotofaksimile etdiyi qeyd olunmuşdur.

10. "Ət-təvəccühül-utemməl-övla nəhvəl-Həqq" (Keyfiyyətə...)

Əlyazma nüsxəsi Tehran Universitetinin Ədəbiyyat fakültəsinin kitabxanasında saxlanılan bu risalədə təvəccöhün (arifin bütün varlığı və batini-ruhi gücü ilə Haqqa yönəlməsi və öz vücudunu unudaraq Haqqın hüzuruna qovuşması) xüsusiyyətləri və salikin xülusu və Haqqa çatmaq üçün qət edə biləcəyi ən yaxşı və ən doğru yoldan bəhs olunur.

11. "Ər-risalətəl-mürşidə fit-təsəvvüf fi keyfiyyətit-təvəccühül-utemməl-övla nəhvəl-Həqq"

Əsərin əlyazma nüsxəsi haqqında məlumat Los-Anceles Universiteti məcmuələrindən götürülmüşdür. Nüsxə h. IX-X əsrlərdə köçürülmüşdür.

12. "Ər-risalətül-müfsəhə ən müntəhiyəl-əfkar və səbəbe ixtilafil-üməm".

Bu kitab "Əl-müfavizat" adı ilə də tanınır.

Ərəb dilində yazılmış bu əsərdə Konyəvinin vücud, mahiyyət və insanların sifət və təbəqələrinin fərqi, vacibül-vücudun Onun həqiqətinə əlavə bir məfhum olması, ya olmaması və bu kimi mətləblər barədə Xacə Nəsrəddin Tusiyə sualları və Tusinin bu suallara cavabları verilmişdir.

Bu əsərin əlyazma nüsxəsi Tehran Universitetinin İlahiyyat fakültəsinin kitabxanasında 355 şifri altında saxlanılır. Nüsxənin üzü Hacı Bəşir Ağa tərəfindən şikəstə nəstəliq xətti ilə köçürülmüşdür.

13. "Ər-risalətül-hadiyə"

Ərəb dilində yazılmış bu əsərdə Sədrəddin Konyəvi Xacə Nəsrəddin Tusinin "Risaleyi-müfavizat"ını oxuduqdan sonra bəzi mətləblərə olan iradı öz əksini tapmışdır.

Əsərin əlyazma nüsxəsi Tehran Universitetinin İlahiyyat fakültəsinin kitabxanasında saxlanılır (məcmuə 17 ع; №3). 69 vərəqdən ibarət olan bu nüsxənin üzü Hacı Bəşir Ağa tərəfindən h. 1158/1745-ci ildə şikəstə nəstəliq xətti ilə köçürülmüşdür. Hər səhifədə 15 sətir var.

14. "Şərhül-əsmaül-hüsna, həqayiqül-əsma"

Ərəb dilində yazılmış bu əsərdə Konyəvi "əsmai-hüsna"nı xüsusi bölmələr əsasında şərh etmişdir.

Əsərin əlyazma nüsxəsi Məslisi-Şurayi-İslami kitabxanası və Sənədlər Mərkəzində 3939 şifri altında saxlanılır. H. X-XI/ m.XVI-XVII əsrlərdə üzü köçürülmüş bu nüsxə 466 səhifədən ibarətdir. Hər səhifədə 15 sətir var. Mətn noxudu rəngli Hindistan kağızı üzərinə müxtəlif qələmlərlə nəsx və nəstəliq xətləri ilə köçürülmüşdür. Bir çox vərəqlərdə rütubət izi var. Nüsxənin əvvəlində bir neçə vərəq boşdur. Cildi qırmızı rəngli tumac dəridəndir. Ölçüləri 26 x 15,5 sm-dir.

Açar sözlər: Konyəvi, elmi-paleoqrafik təsvir, təsəvvüf, əlyazma, Nəsrəddin Tusi.

İstifadə olunmuş ədəbiyyat

1. Məmmədəliyev V.M., Məmmədəliyeva Q.T.. Mühyiddin İbnül-Ərəbinin həyat və yaradıcılığı, əsas görüşləri, islam və qeyri-islam aləminə təsiri / Şərq və Qərb: ortaq mənəvi dəyərlər, elmi-mədəni əlaqələr. Professor Aida İmanquliyevanın 70 illik yubileyinə həsr olunmuş Beynəlxalq İbnül-Ərəbi Simpoziumunun materialları. Bakı, 2010, s. 143-155.
2. Göyüşov N. Təsəvvüf anlamları və dərvişlik rəmzləri. Bakı, 2001.
3. Fənari Həmze. Misbah-ol-ons (Şərh-e Məfatih-ol-ğeyb). Məhəmməd-e Xacəvi. Tehran: Moula, 1384.
4. Qunəvi, Sədrəddin. əl-Fokuk. Məhəmməd-e Xacəvi. Tehran: Moula, 1371 (farsca).
5. Qunəvi, Sədrəddin. Nəfəhat-e Elahiyye. Məhəmməd-e Xacəvi. Tehran: Moula, 1375.
6. Qunəvi, Sədrəddin. əl-Fosus. Məhəmməd-e Xacəvi. Tehran: Moula, 1371.
7. Qunəvi, Sədrəddin. E`caz-ol-bəyan fi təfsir-e Ğor`an. Məhəmməd-e Xacəvi. Tehran: Moula, 1371.

Сейид Джамал ГЮЛЬШАНИ

ПРОИЗВЕДЕНИЯ САДРАДДИНА КОНЬЯВИ И ИХ РУКОПИСНЫЕ СПИСКИ

Резюме

Великий мыслитель XIII века Садраддин Коньяви является автором многочисленных работ по суфизму. Он сыграл большую роль в распространении идей и взглядов великого исламского философа-мистика, создателя учения о «вахдат аль-вуджуд» («единство бытия») Ибн Араби. Автор статьи приводит краткое содержание сочинений Садраддина Коньяви и научно-палеографическое описание некоторых рукописей этих произведений.

Ключевые слова: Коньяви, научно-палеографическое описание, тасаввуф, рукопись, Насираддин Туси.

Seyid Jamal GULSHANI

SADR AD-DIN QUNAWI'S WORKS AND THEIR MANUSCRIPTS

Summary

Sadr ad-Din Qunawi, the great thinker of the XIII th age, is the author of the numerous works on Sufism. He played a great role in spreading the ideas and views of Ibn al-Arabi, the great Islamic philosopher-mystic, the founder of the doctrine of "wahdat al-wucud" (oneness of being). The brief contents of the works by Sadr ad-Din Qunawi and the scientific-palaeographical description of some manuscripts of these works are offered by the author in the article.

Keywords: Qunawi, scientific-palaeographical description, tasawwuf, manuscript, Nasir ad-Din Tusi.

UOT 101.1

Almaz AŞİROV
AMEA FSHİ, dissertant

KONFLİKTLƏR NƏZƏRİYYƏSİNDƏ ZORAKILIĞIN FƏLSƏFİ TƏBİƏTİ VƏ ONUN MƏHDUDLAŞDIRILMASI YOLLARI*

Zorakılıq fenomeninin əsas formaları - cinayətkarlıq, müharibələr, terror, genosid, insanların kütləvi məhv edilməsi, etnik və sosial toqquşmalardır. Bəşər tarixində zorakılıqdan inqilabi və əks-inqilabi, mütərəqqi və mürtəce hərəkatlarda istifadə edilmişdir. Zorakılığın əsasında insanların hökmranlığa, üstünlüyə nail olmaq uğrunda mübarizə aparmaq cəhdi durmuşdur.

Bəşəriyyət ayrı-ayrı şəxsiyyət və xalq kütlələrinin köməyi ilə zorakı yolla iqtisadi və siyasi azadlığa nail olsa da, sosial-siyasi tərəqqi əldə etsə də bəzən insanlıq və insanpərvərlikdən məhrum olaraq mənəvi tənəzzülə uğramışdır. Cinsi zorakılıq bəşəriyyətə fiziki, psixi və mənəvi sarsıntılar- ölüm, kədər, dağıntı, alçalma, stress bəxş etmişdir. Dar mənada zorakılıq dedikdə insana vurulan fiziki və mənəvi –əxlaqi sarsıntı, geniş mənada isə insana dəyən hər cür ziyan (fiziki, əxlaqi, psixoloji, ideoloji) başa düşülür (8, 130). Zorakılıq sosial konfliktləri həll etməyin ən qədim üsullarından biri hesab olunur.

Bəzi tədqiqatçılar zorakılığı konfliktin inkişaf dinamikasına təsir edən amillərdən biri hesab edir, zorakılıq amilinə birmənalı yanaşmırlar. Rusiya tədqiqatçısı A.Qluxovanın fikrincə, zorakılıq əsasən tərəflərin potensial güclərini ifadə edir. Güc amilinin münaqişələrdə yeri birmənalı deyildir. Bir tərəfdən güc münaqişə vəziyyəti yarada və ya bu vəziyyəti kəskinləşdirə bilər, digər tərəfdən isə hiss olunacaq gücün olması konflikt vəziyyətinin dəf edilməsi istiqamətində daha uğurlu yolun müəyyənləşdirilməsini şərtləndirə bilər (4, s. 162). Deməli, zorakılıq həm konflikt yaradıcı, həm də konflikt ləğvedici, həm müsbət, həm mənfi amil kimi nəzərdən keçirilir.

Qərb tədqiqatçısı J.Qoss zorakılıq terminini izah edərkən onu mövcud şəraiti fəal qeyri-zorakılığın təntənəsi naminə dəyişdirən amil kimi qiymətləndirməklə, zorakılıqda gücün həlledici rolundan bəhs edir. Tədqiqatçı zorakılığın əsas ünsürü olan gücün müsbət və mənfi rol oynadığını diqqətə çatdırır: "Güc (enerjili hərəkət) insanların rifahına qarşı yönəldikdə mənfi (təbliğatın gücü, hərbi güc), insan həyatını yaxşılaşdırdıqda (həqiqətin və ədalətin gücü) müsbət olur (5, s. 6).

J.Qoss zorakılığı ümumilikdə mənfi anlayış kimi səciyyələndirir. Onun fikrincə, zorakılıq "kimlərisə istismar edən, alçaldan, əzən, zorlayan dağıdıcı qüvvədir"(5, 6).

Zorakılıq qorxu, düşmən obrazı yaradır, bütöv müdafiə hərəkəti arsenalına aparıb çıxarır. Zorakılığa xas olan təcavüzkarlıq və davakarlıq müsbət və mənfi məna daşıyır. İnsanlar zorakılığa və ədalətsizliyə müxtəlif cür reaksiya göstərirlər. J.Qoss onlardan üçünü göstərir: passivlik, cavab zorakılığı, fəal qeyri-zorakılıq.

Passivlik biganəlik, mütilik yaradır. Cavab zorakılığı ədalətsizliyə mənəvi reaksiyadır, zorakı mübarizə vasitəsidir. Fəal qeyri-zorakılıq konfliktin dinc həlli formasıdır.

Görkəmli tədqiqatçı Ə.Hüseynov "Zorakılıq və qeyri-zorakılıq" məqaləsində zorakılığı və qeyri-zorakılığı eyni bir prosesin müxtəlif mərhələləri hesab edir. Zorakılığa mütləq və praqmatik yanaşmaları təhlil edən müəllif göstərir ki, birinci yanaşmaya görə zorakılıq anlayışı mənfi qiymətləndirilir, geniş mənada fiziki, psixoloji, iqtisadi təzyiq formalarını və ona uyğun mənəvi keyfiyyətləri – yalan, nifrət, ikiüzlülüyü ifadə edir. Zorakılıq, ümumiyyətlə, şərlə eyniləşdirilir. Ə.Hüseynovun fikrincə, zorakılığa mütləq yanaşmada iki cür çətinlik meydana çıxır: 1) birincisi, zorakılığa haqq qazandırılması nəticəsində ondan konstruktiv istifadə etmək inkanları aradan

* Məqalə f.e.d., prof. A.Mustafayev tərəfindən çapa məsləhət bilinib.

qaldırılır; 2) ikincisi, zorakılığın inkarı real həyatla barışmaz mübarizə aparan dərin əxlaqi proqram kimi görünür.

Zorakılığa praqmatik yanaşma onun obyektiv və neytral müəyyən edilməsinə yönələrək zorakılığı fiziki və iqtisadi zərər ilə eyniləşdirir. Bu cür şərh zorakılığa haqq qazandırmağa, müəyyən şəraitdə onlardan istifadə etmək imkanı yaradır. J.Qoss kimi Ə.Hüseynov da zorakılıqda hökmranlıq elementinə üstünlük verir: "Zorakılıq insanın insan üzərində hökmranlığını təmin edən üsullardan biridir. Bir gücə əsaslanan iradə başqası üzərində hökmranlıq edərkən onun əvəzinə qərarlar qəbul edərkən müxtəlif cür olur: 1) iradi vəziyyətdə real üstünlük: paternasist hakimiyyət, ata hakimiyyəti; 2) erkən qarşılıqlı müqavilə: tipik hadisə - qanunun və qanuni hökumətin hakimiyyəti; 3) zorakılıq: tipik hadisə - işğalçının, zorakının hakimiyyəti. "Zorakılıq elə bir məcburetmə və zərərli prosesdir ki, başqasının iradəsinin əleyhinə həyata keçirilir. Zorakılıq insanın azad iradəsinə qəsddir" (6, s. 36).

Bir sözlə, müəllif göstərir ki, zorakılıq konflikt zamanı insanların iradəsinə qarşı reallaşan fəaliyyət formasıdır. Zorakılığın məqsədi rəqib qüvvələri arzuolunan davranışları yerinə yetirməyə məcbur etməkdir.

Zorakılığın tipologiyasına gəldikdə onu müxtəlif növlərə bölürlər. J.Qoss zorakılığın müxtəlif forma və dərəcələrdə meydana gəldiyini göstərir: fiziki, psixoloji, məntiqi, şəxsiyyətlərarası, struktur, sosial, siyasi, hərbi, iqtisadi, mədəni, dini zorakılıqlar (5, s. 7).

A.Dmitriyev zorakılığın növlərinin bir-birindən çətinliklə ayrıldığını göstərməklə, onların leqal və qeyri-leqal formalarını fərqləndirir. Müəllif qeyri-leqal zorakılığa hüquqi nəzarətin az səmərə verdiyini diqqətə çatdırır. Müəllif zorakılığın legitimliyi və qeyri-legitimliyi məsələsinə toxunur, daxili siyasi vəziyyətə tətbiq edilən zorakılığa haqq qazandırılmasının səbəblərini aydınlaşdırır: birincisi, hər cür hakimiyyət münasibətləri assimmetriklik, qeyri-bərabərlik irəli sürür. Buna görə də artıq demokratiya şəraitində hakimiyyət obyektləri müxtəlif maraqlarla çıxış edən hakimiyyət strukturları tərəfindən müəyyən özgələşməyə məruz qalır. İkincisi, müasir inkişaf etmiş ölkələrə xas olan idarəetmə sistemlərinin bürokratlaşması adi vətəndaşların müdafiəsiz qalması hisslərini gücləndirir, onlar leqal yolla öz maraqlarının müdafiəsinə inanmırlar. Üçüncüsü, siyasi və demokratik təsisatların süstlüyü yeni mobil qrupların tələblərinə cavab verə bilmir ki, onlar da öz problemlərini ekstremist vasitələrlə həll etmək məcburiyyətində qalırlar (7, s.188).

Dünya sivilizasiyası özünün ən yüksək inkişaf mərhələsinə qədəm qoysa da bəşəriyyət kütləvi zorakılıq və müharibə dəhşətlərindən xilas ola bilməmiş, milyonlarla insan həyatına son qoyulmuşdur.

XX əsr Rusiyanın ictimai-siyasi həyatında zorakılığın gücləndiyi göz önündədir. XX əsrin əvvəllərində avtoritar çar rejimi tezliklə sovet totalitarizmi ilə əvəz olundu. Ölkədə zorakı yolla sosial-siyasi dəyişikliklər həyata keçirildi. Totalitar rejim kütləvi şüura hakim kəsildi. Məqsədə nail olmaq üçün zorakılıq ən sadə yol hesab edilirdi. Bu isə laqeydlik, mütilik mühiti yaradırdı. M.Qandi deyirdi ki, şəri dərk edib ona qarşı durmamaq bəşəriyyətə xəyanət etmək deməkdir. J.Qoss yazır ki, əgər biz ədalətsizliklə mübarizəyə girişmiriksə deməli, şərə tabe oluruq, qula çevrilirik, öz insani məsuliyyətimizi inkar edirik. Ədalətsizliyə qarşı passivlik etməkdən alçaq heç nə yoxdur. Passivlik fəal qeyri-zorakılığa qarşı durmalıdır və qeyd-şərtsiz rədd edilməlidir (150, s.7).

J.Qoss passivliyin zorakılığa tabe olmağının bir neçə səbəbini göstərirdi: a) mümkün mənfəət əldə etmək naminə ədalətsizliklə barışmaq; b) ədalətsizliyə qarşı durmağın mümkün nəticələrindən qorxu; c) biliyin çatışmamazlığı; ç) daxili və xarici qüvvələrin olmaması: insanlar qeyri-zorakılığın həqiqiliyinə inanmadıqda özlərini gücsüz hesab edirlər (5, s.7-8).

Tədqiqatçılar Rusiyada zorakılığın yaradılmasını sosio-mədəni ənənələr və rus milli xarakterilə əlaqələndirirlər. N.A.Berdyayev ruslar üçün antinom ziddiyyətli başlanğıcların birləşdiyini göstərir (2, s.15). Rus ruhuna xas dualizmi tədqiqatçıların çoxu etiraf edir.

Demokratik, hüquqi dövlət quruculuğu yolunu tutmuş müasir Rusiyada hələ də zorakılığın leqal və qeyri-qanuni formaları qalmaqdadır. Zorakılığın qeyri-leqal formasının aradan qaldırılması demokratiyanın bərqərar olmasının əsas şərtlərindən biridir. Cəmiyyətdə zorakılığı aradan qaldırmağın təsirli üsulları mövcud olmadıqca, konfliktləri həll etməyin zorakı metodları məhdudlaşdırılmadıqca və aradan qaldırılmayınca həqiqi demokratiyanın bərqərar olunmasından da söhbət gedə bilməz. Zorakılığı, konflikti həll etmək üçün güc təzyiqindən və ya zor metodundan istifadə edilir. Güc metodundan istifadə konflikti həll etməkdə tərəflərdən birinin son dərəcə hazır olmasından irəli gəlir. Zor metodunun mahiyyəti ondan ibarətdir ki, tərəflərdən biri öz qərarında qəti olmalıdır.

Zorakılığın tipləri geniş və müxtəlifdir. Zorakılıq vurduğu zərərə görə (fiziki, psixi), təsir formalarına (ölüm, terror, zor), konflikt qarşılıqlı təsirin subyektinə görə (şəxsiyyətarası, qrup və s.) təsnif edilir. Zorakılığın başqa təsnifatı da var. Onun iki növünü - «bilavasitə zorakılıq», struktur zorakılıq növlərini də göstərirlər. «Bilavasitə zorakılıq» - subyektin birbaşa obyektə təsiridir, ölüm, bədən xəsarəti, tutub saxlama, insanların maraq və tələblərinə zərər vuran müəyyən şəraitin (strukturların) yaradılmasıdır» (məsələn, cəmiyyətdə insanın insan tərəfindən istismarı) (8, s.130).

Göründüyü kimi, bilavasitə və struktur zorakılığın dörd növ tələbatla birləşməsini, nəticədə, səkkiz növ zorakılığın yarandığı, insanların bioloji varlığına son qoyulması, yoxsulluğa məruz qalması, öz mədəniyyətindən məhrum olması, başqa mədəniyyətə məcburi inteqrasiya olunması, bir sözlə, «mədəni zorakılığa» məruz qaldığı göstərilir (3, s.37).

Zor metodundan istifadə etməyin əlverişli şəraiti aşağıdakılardan ibarətdir:

1. maddi və psixoloji ehtiyatlara malik tərəflərdən birinin üstün olması;
2. təcili tədbir görülməsini tələb edən fövqəladə vəziyyətin meydana çıxması;
3. qəflətən digər tərəfin mənfi qarşılaya biləcəyi qeyri-populyar qərarın qəbul edilməsi zərurətinin ortaya çıxması;
4. güc üstünlüyünə malik tərəfin hərəkətinin sözsüz düzgünlüyü;
5. destruktiv davranış formalarının üzə çıxması ilə əlaqədar verilmiş qərar (12, 357).

Zor taktikası aşağıdakı davranış formalarında öz ifadəsini tapır:

1. bütün vasitələrin az səmərəli şəraitdə üstün məcburi, güc metodundan istifadəsi;
2. konflikt tərəflərdən birinin digərinə sözsüz tabe olması üçün sərt, əmr şəklində ünsiyyəti;
3. rəqabətin güc taktikası mexanizmini uğurla təmin etmək məqsədi ilə zor metodundan istifadə.

Azərbaycan tədqiqatçısı İ.Şəfi göstərir ki, konfliktlərin həllində tətbiq edilən və geniş yer almış metodlar zorakılıq metodlarıdır. Bunların da bir sıra formaları məlumdur: birincisi, konfliktdə iştirak edən tərəflərin birinin digərinə qarşı tətbiq etdiyi iqtisadi-zorakılıq tədbirləridir. Bunların sırasına iqtisadi əlaqələrin (xammal, bazar və s.) qırılmasını, tərəflərdən birinin digərini iqtisadi blokadaya almasını, iqtisadi əlaqələrinin həyata keçirilməsində müəyyən məhdudiyyətlərin qoyulması və əngəllərin törədilməsini və s. aid etmək olar.

İkincisi, mənəvi-siyasi, hüquqi həyat sahələrində həyata keçirilən zorakı tədbirlər. Bunların sırasına tərəflərdən birinin dilinin və mədəniyyətinin inkişafına mane olan tədbirləri, onun milli təhsil sisteminə, kütləvi informasiya vasitələrinə, insanların hüquq və azadlıqlarının məhdudlaşdırılmasına və ya yasaqlaşdırılmasına yönəlmiş tədbirləri və s. aid etmək olar. Buna misal olaraq İran dövlətində yaşayan 23 milyondan artıq azərbaycanlının öz dilində məktəbi, qəzet və curnalı, digər informasiya vasitələrinin olmasına, onun dilindən rəsmi dil kimi istifadə olunmasına və s. qarşı yönələn dövlət siyasətini, keçmiş Yuqoslaviyada yaşayan qeyri-serb millətlərinin (çernoqorlar, kosovalılar, makedoniyalılar, slovenlər, xorvatlar və b.) iqtisadi, siyasi, milli-mədəni inkişafına əngəl olan tədbirləri, Miloşeviç rejimi tərəfindən həyata keçirilən soyqırımı siyasətini, Rusiya imperiyası daxilində olan xalqların zorakı metodlarla ruslaşdırılmasını, provoslavlaşdırılmasını, öz milli dilləri, mədəniyyətləri və tarixlərindən məhrum

edilməsini və s.-ni göstərə bilərik. Üçüncüsü, silahlı zorakılıq metodu. Bu metod bir qayda olaraq konfliktin ən yüksək zorakı metodu hesab olunur (11). Göründüyü kimi, müəllif düzgün olaraq iqtisadi, siyasi, hüquqi mənəvi, silahlı zorakılıqlardan ən sonuncunu amansız və qəddar zorakılıq növü hesab edir.

Sovet dönəmində zorakılıq və qəddarlıq dövlət siyasəti səviyyəsində həyata keçirilir, ictimai həyatda «düşmən obrazı» axtarışı günahsız insanların alçaldılmasına, həbsinə, represiya və sürgün edilməsinə, nəhayət, məhv edilməsinə gətirib çıxarırdı. Sinfi ziddiyyətlər ən amansız və qəddar üsulla həll edilirdi. İnsanların mənəviyyatında humanist dəyərlərin - vicdan, şərəf, mərhəmət hisslərinin yerini nifrət və haqsızlıq tutur, avtoritar münasibətlər güc və hakimiyyətə sitayiş edən müti insanlar yetişdirirdi. ABŞ tədqiqatçısı T.Svyatoxovski keçmiş SSRİ-də dövlət səviyyəsində yürüdülən zorakılıq siyasətinin mahiyyətini çox gözəl açmışdır: «Stalin siyasi təmizləmələrində baş verən katakalizm nəhəng dövlətin hər bir guşəsinə yayıldı və Sovet dövlətini özülünə qədər sarsıtdı». Terror öz-özlüyündə sovet rejimi dövrü üçün yenilik deyildi… Lakin keçmişdə (kollektivləşmə kampaniyası dövründə - A.A.) baş verən terror zamanı əhalinin ancaq bir qismi hədəfə alınırdı. 1933-cü illərin ortalarında baş verən terror sosial sosiologiyada heç bir məhdudiyyət tanımayan və dərinləşən elə bir sınaq idi ki, bu zaman heç kim özünü təhlükəsiz hiss etmirdi» (10).

Kanadanın Toronto Universitetinin professoru Anatol Rapoport özünün "Zorakılığın mənbələri: konfliktin öyrənilməsinə yanaşmalar" (1989) əsərində zorakılığın təbiəti və konfliktin həlli haqqında ətraflı bəhs etmişdir. Müasir qloballaşma və nüvə əsrində zorakılıq probleminin ideoloji meyarı, əxlaqi dəyəri, zorakılığın eliminasiyası konsepsiyası, sosial-fəlsəfi və digər humanitar elmlərin məlumatları əsasında sülhə nail olmaq, zorakılıqdan xilas olmaq, bu sahədə yeni ideoloji doktrinaların işlənib hazırlanması, sülhpərvərliyə yönəlmiş xüsusi təhlil sisteminin yaradılması məsələləri araşdırılmışdır.

Rapoport sosial konfliktin, xüsusilə zorakılığın ideoloji aspektindən bəhs edərkən nüvə təhlükəsi şəraitində böyük dövlətlər arasında qlobal qarşıdurmanın bütün dünya xalqlarının, bütövlükdə sivilizasiyanın məhv olması qorxusu yaratdığını qeyd edir. Bu nöqteyi-nəzərdən tədqiqatçının "ideologiyaların toqquşması" haqqında məlum tezisini Şərq və Qərb arasında nüvə təhlükəsinin son mümkün səbəbi kimi təqdim etməsidir. O, "ideologiya" termininin məzmununu dəqiqləşdirmək üçün Marks və Manigeymin əsərlərini təhlil edərək belə nəticəyə gəlir ki, ideologiya anlayışı insanların sosial təcrübələrinin müxtəlif sahələrdə əqidələrinin və inamlarının təşkili üçün müxtəlif şərikli bir sıra "düşüncə substratını" ifadə etmək üçün işlədilir. İdeologiya təfəkkür üsulu kimi öz daşıyıcıları tərəfindən həmişə dərk olunmur. İdeologiyanın digər fərqli xüsusiyyəti onun ətrafında tərəfdarlarının bütün intellektual və sosial fəaliyyətlərinin cəmləşdiyi dəyər dominantına, dəyər sisteminə xidmət etməsidir. İdeologiyanın üçüncü xüsusiyyəti onun varlıq və idrakın "baza dəyərinə" bağlılığıdır.

Rapoport ABŞ cəmiyyətində ideoloji tarixi dəyər dominantlarını təhlil edərək zorakılığa yol verməyən dəyərləri – fərdi azadlığı, xüsusi mülkiyyətə sitayişi, azadlığın iqtisadi əsası olan "azad bazar" nəzəriyyəsini, Adam Smitdən gələn, dövlət müdaxiləsi olmadan iqtisadiyyatda azadlığın özünreallaşması prinsipinin müdafiəsini, Lokk və Spenser ideyalarına əsaslanan liberalizmin, bir sözlə, sinfi mübarizə ənənələrilə inkişaf etməyən Amerika vətəndaş cəmiyyətinin təşəkkülünü göstərmişdir (9, s.41).

Müəllif zorakılığa yol açan mübarizənin sosialist sitayişi kimi Marksın tarixi materializm nəzəriyyəsini, bir sinfin "ümumbəşəri" maraq və dəyərlərini digərlərin zərərinə müdafiə edən dövlət nəzəriyyəsini təhlil edir. Zorakılıq vasitəsi olan sinfi mübarizənin Lenin və Stalin tərəfindən həyata keçdiyini, bu prinsipin sosial və özəl həyatın bütün sahələrini əhatə etdiyini diqqətə çatdırır. O, bu münasibətlə yazır: "Siyasət zəminində inkişaf edən... və tarixin gedişində mübarizənin birinci dərəcəli olması haqqında təlimə əsaslanan metafizika ehkama çevrildi" (9, s.146).

Bir sözlə, Rapoportun fikrincə, böyük dövlətlər arasında ideoloji qarşıdurma "gizli zorakılığın" – soyuq müharibənin amili olmaqla yanaşı, həm də siyasi qarşıdurmanın əsasını təşkil edir. Rapoport siyasi qarşıdurmanı ideoloji cəhətdən əsaslandırmağa cəhd edən Qərbin "deideologiyalaşma", siyasi praqmatizm və s. nəzəriyyələrini də tənqid edərək göstərir ki, nüvə silahı dövründə - total məhvetmə təhlükəsi milli maraqların müdafiəsi üçün güc tətbiq etməyi mənasız bir şeyə çevirdiyi dövrdə siyasi praqmatizm ideyasının təsiri, gücü ola bilməz. Bu gün "köhnəlmiş ideologiya mühiti" öz yerini "məhvetmə deyil, yaşayıb sağ qalma" ideyasını müdafiə edən əsaslı yeniləşmiş ideologiyaya verməlidir (9, s. 243).

Beləliklə, A.Rapoport qlobal zorakılıq təhlükəsi olan nüvə qarşıdurması və onu əsaslandıran ideoloji qarşıdurma əleyhinə əsaslı dəlillər gətirmişdir. O, zorakılığın strateji nəzəriyyəsini çox gözəl təhlil etmişdir. Fiziki təzyiqlərdən və maddi itkilərdən insanların şüurlu şəkildə bir-birlərini məhv etməkdən ibarət olan zorakılıq açıq və gizli formada bəşəriyyətin inkişafına zərbə vuran bir dəhşətli amilə çevrilmişdir. Bəşəriyyətin tarixi - zorakılıq tarixidir, iqtisadi istismar, sinfi mübarizələr, inqilablar, iqtisadi, siyasi qarşıdurmalar bunu sübut edir.

Qədim dövrlərdən indiyədək insan varlığının əsas ünsürü olan zorakılığa qarşı bəşəriyyət mübarizə aparmışdır. "Zorakılığın dağıdıcı gücünün qarşısını ümumi tarixi balansda insan həmrəyliyinin yaradıcı qüdrəti ilə alınmışdır". Əxlaqın arxasında gizlənməyə çalışan zorakılıq mənəvi inkara məruz qalmışdır.

Müasir dövrdə zorakılıq təhlükəsi universal, qlobal xarakter kəsb edərək bütün bəşəriyyəti əhatə etmiş, onun ölümcül dağıdıcı gücü çox artmışdır.

Ə.Hüseynov zorakılığın tarixdə bəlkə də müsbət rol oynadığını, müasir dövrdə isə ancaq mənfi, dağıdıcı rola malik olduğunu göstərir: "Zorakılıq artıq heç bir müsbət əhəmiyyət kəsb etmir. Müharibələr haqqında belə bir fikir söyləmək olar ki, onlar vaxtilə bəşər cəmiyyətini irəliyə aparmış, bəzi müharibələr hətta "ədalətli" hesab edilmişdir. Müasir nüvə silahı şəraitindəsə bu barədə heç düşünmək belə mümkün deyildir (6,6). Müəllifin bu fikri ilə o mənada razılaşmaq olar ki, müasir nüvə təhlükəsi regional deyil, qlobal təhlükə xarakteri kəsb edir.

Zorakılıq milli hüdudları keçərək təhlükəli ümumdünya prosesinə çevrilmişdir. Bu dəhşətli bəlanı yalnız ümumbəşəri həmrəyliyin vəhdəti, sülh mədəniyyəti vasitəsilə aradan qaldırmaq olar. Ə.Abbasov müasir dövrdə zorakılığa qarşı duran modern şüur və qüvvələrdən bəhs edərək yazır: «Biz qüvvəni, zorakılığı və məcburiyyəti rədd edən mövqelərdə duran insanların birləşməsi istiqamətində hərəkat şəklində modernləşməsinin yeni cəhdlərinin şahidiyik... bu cür hərəkatın doğurduğu yeniləşmə insan şüurunun transformasiyasının ümumi təmayülləri ilə təsdiqlənir. Bəşəriyyətin müasir dünyagörüşü böhranının aradan qaldırılması yalnız elmə, fəlsəfəyə, dinə eyni dərəcədə təsir edən formalaşmış stereotiplərin yenidən mənalandırılması kimi insan fəaliyyətinin və təfəkkürünün müxtəlif sahələrinin birləşdirilməsi yolu ilə mümkündür. Bu səbəbdən də bəşəri dünyagörüşün formalaşdırılması məqsədi ilə tədqiqatlar sülh mədəniyyəti, qloballaşma nəzəriyyəsi, o cümlədən sülhyaradıcı, ekumenist hərəkatlar, müasir dini hərəkatların bir-birindən dərin asılılığı və bir-birilə dərin qarşılıqlı əlaqələrini nəzərdə tutur» (1, s.47-49).

Konflikti həll etməyin aktuallığı ondadır ki, hazırda dünyanın təxminən yüzədək nöqtəsində konfliktli vəziyyətlər mövcuddur və onlar istər regional, istərsə də beynəlxalq təhlükəsizliyin təmin olunması üçün müəyyən əngəllər törədir.

Açar sözlər: konfliktlər nəzəriyyəsi, zorakılıq, güc, hakimiyyət, ədalətsizlik, totalitarizm, təcavüz, müharibə, terror, zor metodu, zor taktikası, rəqabət.

İstifadə olunmuş ədəbiyyat

1. Abasov Ə. Müasir dövrün sosial-mədəni problemləri. Bakı, «Səda», 2006.
2. Бердяев М.А. Истоки и смысл русского коммунизма. М., Наука, 1990.
3. Галтунг Д. Культурное насилие //Социальные конфликты экспертиза, прогнозирование, технологии разрешения. М., 1995, вып. 8.
4. Глухова А.В. Политическая конфликтология. Воронеж: Изд-во ВГУ, 2002.
5. Госс Ж. Ключевые представления гуманистического и христианского ненасилия //Этика ненасилия. Материалы международной конференции. М., ФО СССР, 1991.
6. Гусейнов А.А. Понятия «насилие» и «ненасилие» //«Вопросы философии», 1994, №6.
7. Дмитриев А. Конфликтология. М., Гардарики, 2000.
8. Козырев Т.И. Введение в конфликтологию. М., ВЛАДОС, 1999.
9. Раппопорт А. Истоки насилия: подходы к изучению кофликта //Социальный конфликт современного исследования. М., 1992.
10. Svyatoxovski T. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə. Bakı, Xəzər Universiteti nəşriyyatı, 2000.
11. Şəfi Ü. Konfliktologiya: sosial-siyasi təhlil. Bakı: Adiloğlu, 2002.
12. Конфликтология //В.П.Ратников, В.Ф.Голубь, Г.С. Лукашова и др. М.: ЮНИТИ ДАНА, 2001.

Алмаз АШИРОВ

ФИЛОСОФСКАЯ ПРИРОДА НАСИЛИЯ И ПУТИ ЕГО ОГРАНИЧЕНИЯ В ТЕОРИИ КОНФЛИКТОВ

Резюме

В статье изучаются сущность и типология насилия, метод насилия, тактика насилия, проблема решения конфликтов насильственным путем. Кроме того, автор рассматривает взаимоотношения понятий силы и власти.

Ключевые слова: теория конфликтов, насилие, сила, власть, несправедливость, тоталитаризм, агрессия, война, террор, метод насилия, тактика насилия, конкуренция.

Almaz ASHIROV

THE PHILOSOPHICAL NATURE OF VIOLENCE AND WAYS OF ITS RESTRICTION IN THE THEORY OF CONFLICTS

Summary

In the paper the essence, typology of violence, the method of violence, the tactics of violence, the problem of resolving conflicts by force have been studied. In addition, the author considers the relationship of concepts of power and authority has been investigated.

Keywords: theory of conflicts, violence, force, power, incustice, totalitarianism, aggression, war, terror, method of violence, tactics of violence, competition.

UOT 21.009

Tünzalə AĞAYEVA
AMEA FSHİ, dissertant

DİNİ ŞÜUR VƏ ONUN SƏVİYYƏLƏRİ*

Dini şüur problemini özünün tədqiqat obyekti seçə biləcək sahələrə müraciət edərkən onun müxtəlif prizmalardan izah edilməsi ilə qarşılaşa bilərik. Belə ki, əgər biz dini şüurun dinşünaslıq sahəsindəki müəyyənliyinə müraciət etsək, əsasən ictimai şüur formalarından biri kimi dini şüurun daha çox dini təcrübə adı altında müəyyən edildiyinin şahidi ola bilərik. Dinin məntiqi baxımdan həqiqiliyini araşdıran dinin fəlsəfəsi sferasında da dini şüur problemi dini təcrübə, din psixologiyası bölmələrində tədqiq edilərək bütövlükdə dinə olduğu kimi, dini şüura da münasibətdə ayrı-ayrı filosofların mücərrəd fəlsəfi yanaşmaları ilə səciyyəvidir. Və yaxud dini şüurun ikinci - nəzəri, konseptual səviyyəsi kimi müəyyən edilən ilahiyyat, teologiya sahəsinə gəldikdə isə dini şüurun, ümumi şəkildə desək, transsendental bir surətdə İlahi iradənin nəticəsi olduğunu görürük. Dini şüur anlayışı dini, fəlsəfi dünyagörüşün tədqiqat obyekti olduğundan dinşünaslıq sahəsində bir psixoloji-sosial fenomen tək onun məhz elmi aspektdən araşdırıldığını xüsusilə qeyd etmək istərdik.

Gələcəkdə dini şüur problemini müasir dövrdə ailə institutu ilə əlaqədar araşdırmaq niyyətində olduğumuzdan bu məqalədə biz dini şüurun yalnız kompleks şəkildə müəyyən edilməsinə səy göstərir, onun mahiyyətini və müxtəlif səviyyələrini araşdırmaqla qənaətə gəldiyimiz fikirləri ümumiləşdirmək niyyətindəyik.

Ümumiyyətlə, ədəbiyyatda dini şüurun konkret bir tərifinə rast gəlmək olmur. Zənnimizcə, belə bir durumu yuxarıda qeyd etdiyimiz fərqli sferalardakı yanaşma müxtəlifliyi ilə də əlaqələndirmək olar. Eyni zamanda dini şüurun bir fenomen kimi olduqca mürəkkəb və çoxaspektliliyi də bu işi çətinləşdirən cəhətlərdəndir. Mövcud müəyyənliklərə müraciət edərkən biz onlarda faktoloji olaraq, yəni bir psixoloji-sosial fenomen kimi dini şüurun bəzi əlamətlərinin sadalandığını müşahidə edirik. Bu baxımdan "Dini şüurun strukturu və funksiyaları" adlı dissertasiyasında Aygün Kərimova qeyd edir ki, "dini şüura...inam, əyaniliklə yanaşı təxəyyülün yaratdığı obrazlar, dialoqluq, ideal simvolika, alleqorik dildə çatdırmaq, güclü emosionallıq xasdır" (1, s.12). A.Kərimova dini şüurla əlaqədar müasir dövr ədəbiyyatı ümumiləşdirərək fövqəltəbii qüvvələrə inamın bütün dinlərə aid olması fikri ilə razılaşmasa da, "dini şüurun "spesifik", "başlıca müəyyənedici" əlamətinin məhz "fövqəltəbii qüvvəyə" inam" kimi müəyyən edildiyini də vurğulamışdır. Biz də dini şüurun bu əlamətinə üstünlük verərək qeyd etmək istərdik ki, fövqəltəbii qüvvəyə iman etməkdən ibarət olan inamın olmadığı dini dünyagörüşlər (məsələn, buddizm dini) heç də mənşələri baxımdan dini əsaslı olmayıb, yalnız sonralar dini düşüncə və təsəvvür şəklini almış bəşəri düşüncə sistemləridirlər. Elə dinşünaslıq sahəsində də məhz bu cür dini düşüncə və təsəvvürlər hədəf seçilərək onlara xas olan dini şüurun tarixən meydana gəlmiş bir ictimai şüur forması tək ictimai, sosial, psixoloji faktor kimi tarixi inkişaf prosesində tədqiq edilmişdir. Bu nöqteyi-nəzərdən, yuxarıda qeyd etdiyimiz kimi, dinşünaslıq dinə elmi yanaşma olduğundan, dinə münasibətdə ateist dünyagörüşün meydana gəlməsini də təbii bir hal hesab etmək lazımdır. Buna əsas verən ən başlıca amil kimi isə dini şüurun özündə ehtiva etdiyi iradi-emosional tərəflə yanaşı rasional tərəfin də onunla qarşılıqlı əlaqədə mövcud olmasını misal göstərmək olar (1, s.14). Başqa sözlə desək, dini şüur nə qədər transsendental, dərkedilməz mahiyyətli aspektlərə malik olsa da, onun dərkedilən, rasional cəhətlərinin də mövcudluğu bu faktora münasibətdə rasionallığı istisna edə bilməz. Bütövlükdə isə, "dini şüura inam, hissi

* Məqalə sosiologiya üzrə f.d. Ü.Şəfiyev və f.e.d. Aydın Əlizadə tərəfindən çapa məsləhət bilinib.

əyanilik, təxəyyülün yaratdığı obrazlar, xülyalar, simvolikalar, məcazlıq, dini leksikanın köməyi ilə yaranan güclü emosionallıq xas" olduğundan onun adi, psixoloji səviyyəsindən başlamaq yerinə düşərdi.

Adi dini şüur bilavasitə gündəlik məişət təcrübəsi şəraitində təşəkkül tapdığından, fikrimizcə, onu insanların dini təcrübəsi ilə əlaqələndirmək daha doğru olardı. Dini təcrübə də öz növbəsində dini şüur kimi müxtəlif sferalarda fərqli aspektlərdən işıqlandırıldığından, biz onun dini şüurla bağlı olan psixoloji məqamlarına diqqət çəkmək istərdik.

Hər şeydən əvvəl qeyd etmək istərdik ki, dini təcrübənin dinşünaslıqda və dinin fəlsəfəsi sahələrindəki müəyyənliklərinə müraciət edərkən dini təcrübənin geniş və dar anlamlarının bir-birindən fərqləndirildiyini görürük. Belə ki, geniş anlamda dini təcrübə başqa bir nizamın, dünyanın reallıqları ilə toxunmaq (tanış olmaq) təcrübəsi kimi izah edilir (2, s.124). Konkret dini-fəlsəfi anlamda isə dini təcrübə insanların dini hiss və həyəcanları ilə əlaqədar olaraq "insanın bütün varlığını, ağlını, emosiyalarını, dəyər və ictimai münasibətlərini əhatə edir" (3, s.24).

İstənilən halda dini təcrübənin emosional məzmununun yaddaşlarda qalması üçün ona xas olan rasionallıq baxımından dərk edilmə xüsusiyyəti mühüm idraki əhəmiyyət kəsb edir. Bununla yanaşı qeyd etmək lazımdır ki, bir şüur faktoru kimi dini şüur dil vasitəsilə gerçəkləşdiyindən dini təcrübənin məzmunu da dillə müxtəlif formalarda təzahür etmiş olur. Buna misal olaraq dini dünyagörüşlərdəki Müqəddəs mətnləri, duaları, dini müraciətləri, mistisizmi və s. göstərmək olar. Elə "adi dini şüurda fantastik qavrama və kult hərəkətləri, həmçinin dini etiqadlarla bağlı olan hissi-iradi aktlar yerləşməsi də bu qəbildəndir (1, s.15). Birmənalı olaraq qeyd edə bilərik ki, istər dini təcrübədə, istərsə də adi dini şüurda məhz bu vasitələrlə İlahiliyə sitayiş etmək ümdə yerdə durur. Biz dini təcrübənin strukturu ilə tanış olduqda üç əsas elementi fərqləndirə bilərik:

Əvvəla, bu təcrübəni yaşayan individin ətraf aləmə münasibəti və təsəvvürləri, dünyagörüşü, hissləri ilə qarşılaşırıq;

İkincisi, sözügedən təcrübədə işarə edilən dini sitayiş obyektindən və ya reallığından söhbət gedir;

Üçüncüsü isə, bu təcrübənin başqa insanlarla da bölüşdürülməsinin mümkün olduğundan irəli gələrək dini təcrübənin sosial formalarından bəhs edilir (2, s.133).

Göründüyü kimi, dini təcrübənin strukturunda ilk növbədə bu təcrübəni yaşayan fərdin dünyagörüşü, hissləri, ətraf aləmə münasibət və təsəvvürləri yer tutduğu kimi, "adi dini şüur insanların varlıq şəraitinin bilavasitə inikası olan obrazlar, təsəvvürlər, stereotiplər, əhval-ruhiyyələr, hisslər, adət və ənənələr şəklində üzə çıxır" (1, s.15-16). Dini şüurun bu səviyyəsində İ.Yablokovun qeyd etdiyi kimi, "emosiyalar – hiss və həzz dominant rol oynayır, şüur obrazlı formalar alır" (4, s.13). Elə dini təcrübə zamanı da insan öz mövcudluğunun real əsaslarını axtarmağa çalışaraq müxtəlif hiss və həyəcanlar keçirir. Bu isə özünü İlahi varlıq qarşısında gah mükafatlandırılmış, gah müqəddəsliklə təmasda öz şəxsi qüsurluluğunu hiss etmək, gah Tanrının insanı tərk etməsi və yaxud da əksinə, onunla qovuşduğunu duymaq, gah da şəxsi həyatını mənalandıracaq dərəcədə Tanrının onu himayə etdiyini hiss etmək şəklində təzahür etdirə bilər. İstənilən halda diqqət "Başqası"na, İlahi reallığa doğru yönəlmiş olur ki, bu da yuxarıda qeyd etdiyimiz kimi, dini təcrübənin strukturundakı ikinci vacib bir elementdir. Halbuki dini şüurun müəyyən edildiyi fövqəltəbiilik anlayışı özünü məhz bu elementlə üzə çıxartmış olur. Odur ki, dini təcrübənin strukturundakı bu fövqəltəbiiliyin konkret ifadələrinə müraciət edərkən şərti olaraq İlahiliyin dörd konsepsiyasını fərqləndirə bilərik. Əgər bu konsepsiyalardan biri İlahiliyin sırf fəlsəfi müəyyənliyidirsə, digərlərini dini, dini-fəlsəfi və idealist fəlsəfi müəyyənliklər kimi səciyyələndirmək olar. Belə ki, İlahiliyin fəlsəfi müəyyənliyi metafizik anlamda şəxsiz varlıqdan, kosmik (müqəddəs) bir nizamdan (Loqos, Dao) bəhs edir ki, bütün yaradılış ona tabe olub, bu metafizik substansiya insan taleyini də müəyyən edir.

Dini şüurun ikinci, nəzəri səviyyəsinə aid olan teologiya, ilahiyyat sahəsində isə dinə fəlsəfi yanaşmanın nəticəsi olaraq Tanrı hər şeyə nüfuz edən bir vəhdət, harmoniya və mistik axtarışların

məqsədi hesab edilir. O cümlədən də bəzi ifrat ilahiyyat təlimlərində və əsasən də idealist fəlsəfi sistemlərdə tanrının həm dünyaya və insana münasibətdə bir şəxs, transendental varlıq, həm də onunla bağlı bir varlıq kimi izah edildiyini görə bilərik. Halbuki bütün bu konsepsiyaları səciyyələndirən ən ümdə məqam məhz sözügedən İlahiliyin transsendentliyi və immanentliyidir.

Belə ki, İlahiliyin transsendentliyi deyərkən Tanrının insandan və dünyadan ayrı bir şəkildə, "o biri tərəf"də mövcud bir varlıq kimi təsvir edilməsi nəzərdə tutulur. Lakin Tanrının immanent olması onun dünyadaxili müəyyən reallıqlarla, o cümlədən insanla yaxud kosmik nizamla müəyyən qədər eyniləşdirilməsi deməkdir. Dini təcrübənin sosial ifadəsinə gəldikdə isə, hər şeydən əvvəl qeyd etmək lazımdır ki, "adi dini şüurun ayinləri və bununla bağlı emosiyaları qədim dövrlərdən mifoloji hekayətlərin predmeti, dini müdrikliyin bir hissəsi, kult təcrübəsinin komponenti kimi çıxış etmişdir"(1, s.18). Bütün bunlar üçün isə, konkret dini təsəvvürlərin əsasını qoyan bir xarizmatik şəxsiyyətin dini təcrübəsi böyük əhəmiyyət kəsb edir. Belə şəxsiyyətlərin təcrübəsini bölüşən səhabələrin və davamçıların sayəsində təbii-ictimai birliklərdən (məsələn, ailə yaxud dövlətdən) fərqli olan xüsusi dini qruplaşmalar, dini icmalar meydana gəlir. Xüsusən də adi şüurun komponentləri arasında birincilərə aid edilən cəmiyyətdəki adətlərə, ənənələrə və stereotiplərə münasibətindən asılı olaraq sözügedən xarizmatik şəxslə cəmiyyət və burada hökm sürən adət-ənənələr və stereotiplər arasında problemlərin ortaya çıxması təbiidir. Bu baxımdan adi şüurun yalnız ikinci qrup komponentlərinə dini təcrübə yaşayan şəxsin əhval-ruhiyyəsi, illuziyaları, arzu və niyyətləri aid edilir. Halbuki istənilən halda "...adi dini şüurda mərasimçilik dindarların həyatında aparıcı yer tutur və təcrübi olaraq yaradılışdan bu günə qədər onun həyatını müəyyənləşdirir, nizamlayır, mənalandırır" (1, s.17). Deməli, adi dini şüuru bir növ dini qaydaların məcmusu, dinin mahiyyəti və funksiyalarının konseptuallaşdırılması da hesab etmək olar. Lakin bu zaman adi dini şüur subyektinin kimliyi, yəni dini dünyagörüşə münasibətdə hansı konpetensiyada olması, hansı statusu daşıması, sadəcə mömin yoxsa bu dini təsəvvür və baxışları meydana gətirən bir xarizmatik lider, peyğəmbər və ya müqəddəs bir şəxsiyyət olması olduqca mühüm məqamlardandır. Halbuki istər dinşünaslıqda, istərsə də dinin fəlsəfəsi sahələrində dini təcrübə və ya adi dini şüur anlamında daha çox bütün insanlara xas ola biləcək dini yaşantılardan bəhs edilir. Amma dini dünyagörüşlərə hermenevtik yanaşarkən onlarda yuxarıda qeyd edilmiş subyektlərin dini təcrübələri və dini şüurları arasında prinsipial fərqlərin və deməli, dini şüur və dini təcrübələrinin özəlliklərinin olduğu qeyd edilməkdədir. Bu baxımdan dini dünyagörüşdə yer alan İlahi vəhylərin sadəcə halisunasiya və yaxud eplepsiya kimi psixoloji halət və xəstəliklərlə izah edilməsinə baxmayaraq bu faktın özünün yalnız Tanrının müəyyən etdiyi şəxslərə xas bir durum olduğu təkzibedilməz məqamlardandır.

Dini inamın məzmununun dini şüurun simvolik, rəmzi aspektlərini şərtləndirdiyi qeyd edilir (1, s.18). Bu cür simvolik aspektlərdən biri olaraq isə, biz, dini təcrübənin sosial ifadə forması kimi dini obyektə nizamlı sitayiş strukturunu təmin edən kultları misal göstərərdik. Dini dünyagörüşə xas olan dualar, dini müraciətlər, mistisizm, xarizmatik yaşantılar, fövqəltəbii qüvvədən alındığı iddia edilən vəhylər məhz bu dini kultu formalaşdıran ən başlıca amillərdir.

Dini şüurun ikinci səviyyəsinə aid edilən ilahiyyata, teologiyaya gəldikdə isə, həqiqətən də "teologiya fərdi deyil, vəhyə sosial-mütəşəkkil idraki bir reaksiyadır" (1, s.44). Bütövlükdə isə teologiyanı dini şüurun konseptual səviyyəsinin sistemli, nəzəri əsası kimi də müəyyən edə bilərik. Amma həqiqətən də "Teologiya özündə Müqəddəs Yazının (İncilin, Quranın) mənşəyinin, onun müqəddəs kitabların insanlara Allah tərəfindən vəhy şəklində əta olunduğunu israr edən İlahi mənəviyyatlığın sübutunu ehtiva edir" (1, s.38). Tarixən teologiya dini təlimin daxili iyerarxiyası barədə sistemli təsəvvürlər yaradaraq din və dini şüurun ortodoksal və ya qeyri-ortodoksal qanadlarını formalaşdırmışdır. Bunlardan ortodoksallığı, A.Kərimovanın qeyd etdiyi kimi, təkcə "mütəşəkkil kollektivlikdən" yaranmış bir din hadisəsi kimi deyil, əslində dövlət siyasəti, xüsusən də xristian aləmində rəsmi kilsə tərəfindən dəstəklənən hakim dini baxışlar sisteminin nəzərdə tutulduğunu unutmaq olmaz. Odur ki, stereotipik olaraq "Dində ortodoksiya

möminlikdir, kilsənin ənənəvi təliminə şəxsiz riayət etməkdir" (1, s.44). Başqa bir tərəfdən isə biz, İslam dininə də şamil edilməyə cəhd edilən ortodoksallıq və qeyri-ortodoksallıq anlayışlarının təfərrüatlarına varmadan qeyd etmək istərdik ki, İslam ilahiyyatını "... daha çox hüquq və dini şüurun formalaşdığı məişətdə gündəlik rituallar qayğılandır"an bir sistem kimi təqdim etmək də doğru olmazdı. Çünki İslam ilahiyyatında adi dini şüurla bağlı olan aspektlər İlahi vəhy prizmasından çözülür. Odur ki, İslama görə Allah tərəfindən təyin edilmiş şəxslərin dini təcrübələri ilə istənilən bir mömin şəxsin dini yaşantıları arasında prinsipial fərqlər vardır. O cümlədən də İlahi iradənin müəyyən etdiyi Tanrı elçilərinin özləri arasında belə fərqlər qoyulması, onların bir-birini yeni dini qayda və qanunlarla (şəriətlərlə) əvəzləmələri prosesinin özü bu qəbildən olan insanların dini təcrübələrini başqa dindarlardan fərqləndirmiş olur. Odur ki, İslam ilahiyyatında Müqəddəs mətnlə yanaşı Peyğəmbərin həyat və fəaliyyətini özündə əks etdirən sünnələrinə də istinad edilməsi olduqca prinsipial məqamlardan biri hesab edilir. Amma başqa ilahiyyatlarda olduğu kimi, İslam ilahiyyatında da "...teologiyanın radikal reqlamentləşdirilməsi və ehkamlaşdırılması..." problemini heç də dinin özü ilə deyil, onun meydana gəlməsindən sonra keçdiyi inkişaf tarixi ilə əlaqələndirmək daha doğru olardı. Biz gələcəkdə bu məsələnin müasir dövrdə ailə institutuna hansı təsirləri olduğu barədə ayrıca tədqiqat apararaq müasir teologiyanın səciyyəvi xüsusiyyətlərindən barədə daha ətraflı bəhs etmək niyyətindəyik.

Açar sözlər: dini şüur, dini təcrübə, adi dini şüur, teologiya, dinşünaslıq.

İstifadə olunmuş ədəbiyyat

1. Kərimova A.X. Dini şüurun strukturu və funksiyaları. Sosial-fəlsəfə (09.00.11) ixtisası, fəls. el. doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2010.
2. С.И.Самыгин, В.И.Нечипуренко, И.Н.Полонская. Религиоведение: социология и психология религии. Ростов-на-Дону, «Феникс», 1996.
3. Томпсон М. Философия религии. /Пер. с англ. Ю.Бушуевой. М., ФАИР-ПРЕСС, 2001.
4. Яблоков И. Основы религиоведения. Учебник для вузов. М., «Высшая школа», 2004.
5. Борунков Ю.Ф. Структура религиозного сознания. М., Мысль, 1971.
6. Горелов А.А.История мировых религий. М., «ИНФРА-М», 2005.
7. Джемс И. Многообразие религиозного опыта. М., «Андреев и сыновья, 1993.
8. Юрзанова К.Ю. Изменение состояния в системе религиозного опыта. Севастополь, 2005.

Тунзаля АГАЕВА

РЕЛИГИОЗНОЕ СОЗНАНИЕ И ЕГО УРОВНИ

Резюме

Автор в статье исследует проблему религиозного сознания и освещает подходы к религиозному сознанию в различных сферах. Так, например, автор своё внимание концентрирует на понятии религиозной практики относящейся к сфере религиоведения и философии религии и исследует первичную степень религиозного сознания как феномен, относящийся к сфере психологии религии. Потому что, этот признак более ясно показывает себя на обычном уровне религиозного сознания. А теологию, которая является теоретическим и концептуальным уровнем религиозного сознания автор определил, как организованный социально-исторический фактор разума религиозного мировоззрения.

Ключевые слова: религиозное сознание, религиозная практика, обычное религиозное сознание, теология, религиоведение.

Tunzala AGAYEVA

RELIGIOUS CONSCIOUSNESS AND ITS LEVELS

Summary

In the article author studies the problem of religious consciousness and elucidates the approaches to religious consciousness in the various spheres.

Thus, for instance, the author concentrates his attention on conception of religious practice, which is a part of religious study and philosophy of religion, and researches the primary level of religious consciousness as a phenomenon belonging to psychology of the religion. As this indication displays itself more distinctly on a general level of philosophical consciousness.

And theology, being a theoretical and conceptual level of religious consciousness was determined by author ay an organized social-historical cognitive factor of religious world outlook.

Keywords: religious consciousness, religious practice, general religious consciousness, theology, religious study.

UOT 101.1

Elçin ƏHMƏDOV
AMEA FSHİ, aspirant

AZƏRBAYCANDA MƏDƏNİ TOLERANTLIĞIN ƏSAS XÜSUSİYYƏTLƏRİ*

Azərbaycan Respublikası ölkədə aparılan düşünülmüş və məntiqli siyasət nəticəsində bu gün dünya arenasına inteqrasiya edir, qəbul edilən qanunvericilik aktları demokratik tələblərə cavab verir, Avroatlantik məkanın prinsipləri qorunmaqla və yaradıcı yanaşma elementləri saxlanılmaqla inkişaf prosesinin danılmaz əsasları möhkəmləndirilir. Belə sürətli inkişaf və qloballaşma prosesində xalqın milli-mədəni dəyərlərinin qorunması bu günün əsas zərurətlərindən birinə çevrilmişdir. Əksər belə dövlətlərdə bu barədə müxtəlif fikirlər söylənilir, mülahizələr haçalanır, qeyd etmək lazımdır ki, tolerantlıq prinsipinə əməl etməklə milli mədəniyyət elementlərinin varislik əsasında nəsildən-nəslə ötürülməsi böyük əhəmiyyət kəsb edir. Bu prosesi həyata necə keçirmək lazımdır? Fikrimizcə, ilk növbədə mədəniyyətimizin keçmişini, mədəniyyət xəzinəmizi layiqincə mənimsəmiş, olan və onları inkişaf etdirən nəsillər yetişdirməklə işə başlamalıyıq. Qloballaşan dünyaya, müasir Avropa mədəniyyəti dairəsinə daxil olduğumuza görə (1, s.384) mədəniyyətimizin təməl prinsiplərində böyük bir dəyişiklik etmədən, yəni milli şəxsiyyətimizi təşkil edən, mühafizə edilməsi zəruri olan xarakterik keyfiyyətlərimizə ziyan vermədən, təcrübəyə və elmin mütərəqqi nailiyyətlərinə söykənərək, forma dəyişikliklərini şüurlu surətdə aparmaq məcburiyyətində olduğumuzu qəbul etməliyik. Əsrlər boyu varlığımızı, milli kimliyimizi təyin edən mədəniyyətimizi bəşəriyyətin insanlıq meyarları və zamanın mədəni dəyərləri ilə yoğurub, onu yalnız mühafizə etməyə və öyrənməyə deyil, həm də bizi yönəldən, idarə edən daxili çağırış, ruhi-mənəvi qida halına gətirməyə çalışmalıyıq.

Mədəniyyətin kökündə dayanan əxlaqın əsas şərti xaricdən əxz edilmiş forma dəyişikliklərində, maddi təmtəraqda deyil, əxlaq ilk növbədə ata-babalarımızın bizə əmanət etdiyi ruhi-mənəvi mirasın mühafizəsi, mənimsənilməsi və daha mükəmməl şəkildə gələcək nəsillərə ötürülməsinədir. Əxlaq həm də insanın azadlıq eşqində, bəşəri dəyərlərə sayğısında, vətənə olan sevgisindədir. O.T.Drobninskinin rəyincə, əxlaqilik - bütün dövrlər üçün müasir sayılan klassik əxlaqi dəyərlərin qorunmasında, həm də milli-əxlaqi ənənələrin varisliyinin təmin edilməsindədir. Əxlaq - mahiyyətlə surətin, fikirlə fəaliyyətin, daxili aləmlə xarici görünüşün, sözlə əməlin, məzmunla formanın harmoniyadır (2, s. 126).

Dünyada sabitliyi və müstəqilliyi qoruyub saxlamaq üçün ilk növbədə insanlar arasında mehribanlıq və qarşılıqlı anlaşma təmin olunmalıdır. Mədəniyyətlərin müxtəlifliyini qəbul etməyən, digər dinlərə etiqad edən insanların adət-ənənələrinə, həyat tərzinə, əqidə və düşüncələrinə hörmətlə yanaşılmayan, tolerantlıq prinsipinə əməl olunmayan cəmiyyətdə sabitliyə və inkişafa nail olmaq qeyri-mümkündür.

Müasir dövrdə dövlətin, dini icmaların eləcə də bütün insanların başlıca vəzifələrindən biri insanlararası münasibətlərdə dözümlülüyə nail olunması, müxtəlif din və mədəniyyətlərə mənsub insanların sülh şəraitində yaşayışının təmin edilməsidir (3, s.184). Təbii ki, cəmiyyətdə dözümsüzlük meyilləri baş qaldırarsa insanlar arasında münasibətlər daha da kəskinləşər və dünyada yeni münaqişə ocaqları yaranar. Qarşıdurmaların baş verməməsi üçün insanlarda digər din və mədəniyyətlərə qarşı dözümlülük və hörmət keyfiyyətləri tərbiyə olunmalıdır.

Tarixboyu müxtəlif dinlərə və siyasətlərə xidmət edən millətlər arasında günahsız insanların ölümünə səbəb olmuş dini zəmində bir çox müharibələr baş vermişdir. Bu qarşıdurmalar əsasən

* Məqalə fəlsəfə üzrə f.d. A.Qafarov tərəfindən çapa məsləhət bilinib.

cəmiyyətdə dini dözümsüzlük və təəssübkeşlik hisslərinin baş qaldırması nəticəsində yaranmış və qarşısıalınmaz prosesə çevrilmişdir. Bu gün də dünyanın bir sıra ölkələrində bu təhlükə öz aktuallığını qoruyub saxlamaqdadır.

Mehribanlıq, səmimiyyət və qarşılıqlı sevgi kimi ülvi dəyərləri yaymaq məqsədilə bəşəriyyətə göndərilən dinlərdən bəzən insanlar arasında qarşıdurma yaratmaq məqsədilə də istifadə olunmuşdur. Mənsub olduğu dinin yayılmağa daha çox haqqı olduğunu düşünən, öz dinindən başqa heç bir dini qəbul etməyən insanlar digər dinlərə qarşı səlib yürüşü elan etmiş və nəticədə yüzlərlə günahsız insanın qanı axıdılmış, bir çox ibadət evləri dağıdılmışdır.

Bütün səmavi dinlərdə eləcə də sonuncu din olan İslamda digər dinlərin nümayəndələrinə qarşı dözümlü və ədalətli davranmaq vacib əməllərdən hesab olunur. İnsanlar arasında ayrı-seçkilik salmaq, onlarla rəftarda din və məzhəb fərqliliyini əsas götürmək günah əməllərdən sayılır.

Allah-təala insanları qəbilə və xalqlar halında yaratmışdır. Hər bir xalqın özünə xas siyasəti, həyat tərzi və adət-ənənələri mövcuddur. İnsanların xalqlara və qəbilələrə ayrılmasındakı hikmətə diqqəti çəkmək üçün Qurani-Kərimdə buyurulur: «Ey insanlar, Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq» (Qaf, 13). İnsanların fərqli yaradılmasında, qəbilə və millətlərə bölünməsində məqsəd bir-birini inkar etmək, qarşıdurma yaratmaq deyil. Əsas məqsəd yer üzərində sülh və barışa nail olmaq, insanların dinc, yanaşı yaşamasının təmin edilməsidir. Quranın digər bir ayəsində isə buyurulur: «Əgər Rəbbin istəsəydi, bütün insanları (eyni dində olan) tək bir ümmət edərdi» (Hud, 118) (4). Lakin O, insanların bir-birilərini tanımaları, mədəniyyətlərindən bəhrələnmələri üçün onları xalq və qəbilələrə ayırmışdır.

Əhalisinin böyük əksəriyyətini müsəlmanlar təşkil edən Azərbaycanın siyasəti digər din və mədəniyyətlərə dözümlülük baxımından dünyanın bir çox ölkələrindən fərqlənir. Belə ki, Azərbaycanda tarixən bir çox xalqlar, etnik azlıqlar məskunlaşmışdır. Əsrlər boyu onlar Azərbaycan xalqının ictimai-siyasi həyatında mühüm rol oynamış, özlərinin etnik xüsusiyyətlərini, dinlərini və adət-ənənələrini qoruyub saxlayaraq bu günümüzədək yaşatmışlar.

Azərbaycan qədim zamanlardan müxtəlif dinlərin, dini cərəyanların qovuşduğu bir məkan olmuşdur (5, s. 135). Zərdüştlükdən başlayaraq sonuncu böyük din olan İslama qədər bütün dinlər Azərbaycanda yayılmışdır. Bu gün də ölkəmizdə bu dinlərin tarixi abidələri, zəngin mənəvi irsi qorunub saxlanılır.

Tarix boyu müxtəlif dinlərə etiqad edən insanlar Azərbaycanda sülh və əmin-amanlıq şəraitində yaşamışlar. Azərbaycanda mövcud dini icmalar arasında daim möhkəm dözümlülük, qarşılıqlı anlaşma olmuş, milli, irqi, dini ayrı-seçkilik müşahidə olunmamışdır. Təsadüfi deyildir ki, Müqəddəs kitabın – Qurani-Kərimin əxlaqını biz ikinci əxlaq sistemi, yaxud ənənəvi dini sistem adlandırırıq (6, s.108).

Bu humanist ənənə bu gün də qorunub saxlanılır. Respublikamızda məscidlərlə yanaşı sinaqoq və kilsələr də fəaliyyət göstərir, insanlar dini ayinləri sərbəst yerinə yetirirlər. Son dövrlər ölkəmizdə hətta məscidlərlə bərabər sinaqoq və kilsələr də inşa olunur.

Digər din və mədəniyyətlərə dözümlü münasibət Azərbaycan xalqının təbiətindən, insanpərvərliyindən, xoş məramından irəli gəlir. Sonuncu din olan İslamın Azərbaycanda geniş yayılması da bu ənənənin yaranmasına öz siyasi təsirini göstərmişdir. Qurani-Kərimdə buyurulur: «Dində məcburiyyət (zorakılıq) yoxdur» (əl-Bəqərə, 256). İslam hər hansı bir dini zorla insanlara qəbul etdirməyin tərəfdarı deyildir. Deməli burada insan təfəkkürünə xas ədalətdən bəhs edilir. Ədalət, hər şeydən əvvəl, ən mühüm mənada əxlaqi kateqoriya olub, həmçinin hüquqi və sosial-siyasi şüur anlayışıdır. Ədalət anlayışı cəmiyyətdə ayrı-ayrı fərdlərin (sosial-qrupların) praktiki rolu ilə onların ictimai vəziyyəti arasında hüquq və təəhhüdləri, əmək və mükafatlandırma, cinayət və cəza, insanların xidmətləri və bunların ictimaiyyət tərəfindən qəbul edilməsi arasında uyğunluq nisbətini ifadə edir və bu nisbətin pozulması ədalətsizlik kimi qiymətləndirilir. İslam dinində

cəmiyyətdəki mülkiyyətçilərin, ailədə kişilərin maraqları müdafiə edilir, ali fəzilət Allaha və onun Rəsuluna itaət İslam ideyaları və qaydaları yolunda fədakarlıq əsas fəzilətlərdən hesab edilir.

İslamda ədalətin əsas dəyəri məhz onun maraqlarının vəhdətini əks etdirməsində, qarşılıqlı münasibətlərdə müxtəlif qüvvə və təbəqələrin maraqları arasında yaxınlıq, əmin-amanlıq, mülayimlik, birlik yaratmasındadır. Əhmədağa Əhmədov «İslam əxlaqı» kitabında islamda ədalətin fəzilətindən bəhs edərkən onun «vəhdətə ən yaxın sifət» olduğunu qeyd etmişdir: O, yazır: «Onun vasitəsilə çoxluq içindən vəhdəti ayırıb çıxarmaq olur. Vəhdətə yaxın olan hər şey isə əfzəldir. Odur ki, mötədillik, yəni ədalət olan hər yerdə müxtəlif sifətlər və keyfiyyətlər bir-birinə yaxınlaşır, bunun nəticəsində ixtilaflar mülayimləşir… Deməli, vəhdət, həm də həqiqi və mütləq vəhdət, gözəllik və feyz mənbəyidir» (7, s.38-39).

Eyni zamanda Azərbaycanda tolerantlıq ənənəsinin formalaşmasında, etik və dini qruplar arasında möhkəm birliyin yaranmasında, sülh və barışın hakim olmasında ölkə ərazisinin tez-tez xarici dövlətlərin işğalına məruz qalması və asılı vəziyyətə düşməsi də böyük rol oynamışdır. Azərbaycanın zəngin yerüstü və yeraltı təbii sərvətləri, mühüm geostrateji ərazisi daim xarici ölkələrdə maraq doğurmuş, hətta qüdrətli dövlətlər zəngin təbii sərvətləri talan etmək, yerləşdikləri mühitin geostrateji mövqeinə sahib çıxmaq məqsədilə mütəmadi olaraq bu ölkəyə hücumlar etmişlər (9, s.186). Bölgədə yaşayan əhali dini baxışlarındakı fərqlərə baxmayaraq bu qüvvələrə qarşı daim birgə mübarizə aparmışlar.

Onu da qeyd edək ki, Azərbaycan əhalisinin böyük əksəriyyətini müsəlmanlar təşkil edir, ancaq buna baxmayaraq Azərbaycan Respublikasının Konstitusiyasında bütün dini etiqadların qanun qarşısında bərabər olduğu qeyd olunur. Bu müddəa təkcə qanunda deyil, real həyatda da öz əksini tapmışdır. Azərbaycanda hər hansı bir dinin digər dindən üstün olması barədə təbliğatın aparılması qanunla qadağan edilmişdir.

Qeyd etmək lazımdır ki, bu gün dünyanın bir çox ölkələrində insanların yaşayış yerinin müəyyən edilməsində onların dini mənsubiyyəti əsas meyar kimi götürülür. Yəhudi, xristian və müsəlmanlar ayrı-ayrı məhəllələrdə yaşayırlar. Lakin Azərbaycanda vəziyyət tamamilə fərqlidir. Bu gün ölkəmizdə müxtəlif dinə mənsub insanlar bir küçədə, bir həyətdə, hətta bir binada sərbəst yaşayır və bir-birilərinin bayramlarında, dini ayinlərində bir ailə kimi yaxından iştirak edirlər.

Azərbaycanda yaşayan qədim xalqlardan biri də yəhudilərdir. Məskunlaşdıqları digər ölkələrdə işgəncə və təzyiqlərə məruz qalan yəhudilər Azərbaycanda məskunlaşaraq 2500 ildən artıqdır ki, burada yaşayırlar. Onlar ölkəmizdə heç vaxt dini dözümsüzlüyə və ayrı-seçkiliyə məruz qalmamış, əksinə, daim yerli əhalinin diqqət və qayğısı ilə əhatə olunmuşlar.

Azərbaycanda yəhudilər üç icma ilə - dağ, əşkinazi və gürcü yəhudi icmaları ilə təmsil olunur. Ölkəmizdə yaşayan yəhudilərin böyük əksəriyyətini əsasən, Bakı, Quba və Oğuzda məskunlaşan dağ yəhudiləri təşkil edir. Quba rayonundakı «Qırmızı qəsəbə» postsovet məkanında dağ yəhudilərinin sıx yaşadığı yeganə məkandır. Ölkəmizə XIX əsrdə miqrasiya edən əşkinazi yəhudilər daha çox Bakı və Sumqayıtda məskunlaşmışlar.

Azərbaycanda hazırda 7 yəhudi dini icması dövlət qeydiyyatına alınmışdır. Bakıda 3, Oğuzda və Qubada 1 sinaqoq fəaliyyət göstərir. Sözsüz ki bütün bunlar ölkəmizdə ümuməxlaqi dəyərlərin zəngin mənzərəsini yaratmışdır. Eyni zamanda Azərbaycanın daxili siyasi kursu bu zəngin etikanı daim diqqətdə saxlayır.

2003-cü ilin mart ayında Bakıda istifadəyə verilən Avropada ən böyük sinaqoq sayılan bu ibadətgah köhnə məbədin yerində inşa olunmuşdur, açılış mərasimində dövlət rəsmiləri, Azərbaycanda fəaliyyət göstərən dini icmaların rəhbərləri və xarici ölkələrdən gələn qonaqlar iştirak etmişlər. Sinaqoqun tikintisində xaricdə fəaliyyət göstərən yəhudi təşkilatları ilə yanaşı Qafqaz Müsəlmanları İdarəsi, Rus Pravoslav kilsəsinin Qafqaz və Xəzəryanı yeparxiyası yaxından iştirak etmişdir. Müsəlmanlarla xristianların yəhudi sinaqoqunun inşasında iştirakı və yardım göstərməsi dünyada misli görünməmiş hadisələrdəndir.Göründüyü kimi müasir əxlaq və siyasətin qarşılıqlı əlaqə və təsirlərini dini faktorları nəzərə almadan təsəvvür etmək çətindir.

2003-cü ilin sentyabr ayında Bakıda «Or-Avner» Xabad Lyubaviç Beynəlxalq Fondunun maliyyələşdirdiyi ilk yəhudi orta ümumtəhsil məktəbi fəaliyyətə başlamışdır. Açılış mərasimində xaricdə yaşayan yəhudi icmalarının nümayəndələri və Azərbaycan rəsmiləri yaxından iştirak etmişlər.

Azərbaycanda yəhudi icmaları ilə bərabər xristianlığın pravoslavlıq, katoliklik və protestantlıq qollarını təmsil edən dini icmalar da fəaliyyət göstərir. Öikəmizdə pravoslavlıq qoluna mənsub xristianlar çoxluq təşkil edir. Xristianlıq əsasən Bakı, Sumqayıt və Gəncə şəhərlərində geniş yayılmışdır.

1999-cu ildə katolik icması da dövlət qeydiyyatına alınmış, əvvəllər dini ayinləri evlərdə icra edən icma üzvlərinə lazımi şərait yaradılmışdır. Hazırda Bakıda Nobel prospektində Roma katolik kilsəsi inşa olunaraq dindarların istifadəsinə verilmişdir. Roma katolik kilsəsinin keçmiş başçısı II İohann Pavel 2002-ci ilin may ayında Bakıda səfərdə olmuş və dövlət rəsmiləri, ictimaiyyətin nümayəndələri ilə görüşmüşdür. O, Azərbaycandakı mövcud dini dözümlülüyü yüksək qiymətləndirərək demişdir: «Azərbaycanda dinlər arasında mövcud tolerantlıq və dözümlülük münasibətləri dünyanın bir çox ölkələri üçün yaxşı nümunə ola bilər» (10).

Azərbaycan hökumətinin diqqət və qayğısı sayəsində 2003-cü ildə Alban-udi dini icması dövlət qeydiyyatına alınmışdır. 1836-cı ildə Rusiya çarının fərmanı ilə Alban kilsəsi və katolikosluğu ləğv edilmiş, Alban məbədləri erməni apostol kilsəsinə verilmişdir. Azərbaycan hökumətinin dini fəaliyyət sahəsində yeritdiyi uğurlu siyasət nəticəsində Udi etnosu itirilmiş hüquqlarını bərpa etmişdir. Onlara məxsus tarixi abidələrin bir qismi yenidən bərpa olunmuşdur. Bunlardan biri Qafqazda, eləcə də dünyada ən qədim xristianıq məbədlərindən biri sayılan, vaxtilə Şəkinin Kiş kəndində inşa edilən Alban kilsə-muzeyidir. Bu kilsə 2003-cü ildə əsaslı şəkildə bərpa olunaraq istifadəyə verilmişdir. IV-V əsrlərə aid kilsənin təmirinə 2000-ci ildə başlanılmış və 2003-cü ildə başa çatdırılmışdır. Kilsənin bərpasında xarici alimlərlə yanaşı, azərbaycanlı alimlər də böyük əmək sərf etmişdir.

2006-cı ilin may ayında Qəbələ rayonunun Nic qəsəbəsində Müqəddəs Yelisey adlı qədim Alban kilsəsinin yerində Çotari adlı Alban-udi kilsəsinin açılış mərasimi keçirilmiş, tədbirdə hökumət üzvləri, dini icmalarm nümayəndələri və xarici qonaqlar da iştirak etmişlər.

Azərbaycanda tolerantlığa, plüralizmə aid qeyd olunan faktlar öikəmizdə bütün dinlərə bərabərhüquqlu şəraitin yaradıldığını, tolerantlığın yüksək səviyyədə olduğunu, hökumətin bütün xalqların, etnik azlıqların hüquqlarına hörmətlə yanaşdığını, onların tarixi və mədəni-əxlaqi irsinin öyrənilməsinə, qorunub saxlanılmasma xüsusi siyasi önəm verdiyini göstərir.

Tam əminliklə deməyə əsas var ki, müstəqil Azərbaycan dövlətində dini tolerantlığın bərqərar olması üçün bütün tədbirlər ardıcıllıqla, məqsədyönlü şəkildə həyata keçirilir, bütün dinlərin ardıcıllarının tam bərabərhüquqlu vətəndaş kimi yaşayıb fəaliyyət göstərməsinə şərait yaradılır.

Müasir sivilizasiya çərçivəsində mədəni yaradıcılıqla yanaşı şər qüvvələr və dağıntılar da mövcuddur. Məsələ əxlaqın sosial bazasının genişləndirilməsi və mədəniyyətlə antimədəniyyət arasında balansın ümumiyyətlə mədəniyyətin və xüsusi olaraq dünya mədəniyyətinin xeyrinə dəyişdirməkdən, dünya mədəniyyəti məkanının dairəsini genişləndirməkdən ibarətdir . Eyni zamanda dialektik inkişaf qanunlarına müvafıq olaraq insani, sosial-coğrafı ölçülərdə mədəni qeyri-bərabərlik vardır. Burada bütün səviyyələrdə, müxtəlif xalqların mədəniyyətləri arasında harmoniyaya nail olunması da daxil olmaqla, mədəni inkişafın harmoniyasına nail olmaq zəruridir. Bu məsuliyyətli sosial-siyasi və əxlaqi məsələlərin həllinə yeni mədəniyyət siyasəti xidmət edə bilər və etməlidir. Bu siyasət mədəniyyət sferasının bütöv bir sosial sistem kimi ideoloji, texnoloji və təşkilati səviyyələrdə inkişafının əsaslandırılmış idarə edilməsini nəzərdə tutur.

Bu gün əsas vəzifəmiz bu zəngin irsin qorunub saxlanılmasından və gələcək nəsillərə ötürülməsindən ibarətdir. Tolerantlıq Azərbaycanın əvəzi olmayan, dünyanın bir çox ölkələrinin qibtə etdiyi milli-əxlaqi sərvətidir. Bu ənənənin zəiflədilməsinə yönələn bütün cəhdlərin qarşısı

dövlət tərəfindən dərhal alınır və bundan sonra da alınacaqdır. Azərbaycan xalqı özünün əxlaqi dəyərlərini qoruyub saxlayacaq və gələcək nəsillərə çatdıracaqdır.

Açar sözlər: tolerantlıq, mədəniyyət, dəyər, əxlaq, etnik, ədalət, ibadət.

İstifadə olunmuş ədəbiyyat

1. Aslanova R. İslam və mədəniyyət. Bakı, AU, 2002.
2. Дробницкий О.Т. Понятие морали. Историко-критический очерк. М., Наука, 1974.
3. Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. Bakı, AU, 2001.
4. Qurani-Kərim, Bakı, 1995.
5. Azərbaycanda yeniləşmə prosesinin sosial-fəlsəfi problemləri. Bakı, 1998.
6. Məmmədzadə İ. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında. Bakı, Təknur, 2009.
7. Əhmədov Ə. İslam əxlaqı. Bakı, Maarif, 1993.
8. Дубка Е.Л. Социальная справедливость //Этическая мысль научно-публицистическое чтение. М., 1988.
9. Mustafayev R. Azərbaycan və yeni dünya. Bakı, Azərnəşr, 1993.
10. Respublika» qəzeti, 26 may 2002.

Эльчин АХМЕДОВ

ОСНОВНЫЕ ОСОБЕННОСТИ КУЛЬТУРНОЙ ТОЛЕРАНТНОСТИ В АЗЕРБАЙДЖАНЕ

Резюме

В статье раскрывается вопрос толерантности к культуре различных народов, проживающих в Азербайджане. Отмечается, что люди с различными религиями совершенно свободно исповедуют свою веру, справляют религиозные праздники и церемонии, оберегают и хранят, относящиеся к ним этнические и религиозные ценности. На них никогда не оказывается никакого давления или влияния. Следует отметить, что такое положение стало возможным благодаря ведущейся в стране разумной политике опирающейся на принцип толерантности.

Ключевые слова: толерантность, культура, ценность, мораль, этнический, справедливость, вероисповедание.

Elchin AHMEDOV

THE MAIN FEATURES OF CULTURAL TOLERANCE IN AZERBAIJAN

Summary

In the article the tolerant attitude to cultural differences of the peoples living in Azerbaijan is brought to light. It is noted that the people bearing the different religious pray, absolutely freely hold the religious ceremonies, preserve their peculiar ethnic and religious values. This time they don′t undergo any pressure and influence. It should be noted that such a state has been established as a result of logic policy based on tolerance principle carried out in the country.

Keywords: tolerance, culture, value, morals, ethnic, custice, religion.

UOT 101.1

Zülfüqar İBRAHİMLİ
AMEA FSHİ, aspirant

BİLİK MENECMENTİ İDARƏETMƏNİN YENİ PARADİQMASI KİMİ*

Postindustrial cəmiyyətə keçidlə əlaqədar idarəetmə paradiqmasında da ciddi dəyişikliklər baş verdi. Bu dəyişikliklər istehsal prosesində baş verən mühüm dəyişikliklərə əsaslanırdı. Belə ki, industrial inkişaf mərhələsində vurğu əsasən keyfiyyət üzərinə qoyulurdu. Keyfiyyət kompaniyaya rəqibləri üzərində üstünlük əldə etməyə imkan verən əsas vasitə sayılırdı. Bu gün isə vəziyyət tamamilə fərqlidir. Bu gün yüksək keyfiyyət hamı üçün ümumi şərtə çevrilmişdir. Yüksək keyfiyyət olmadan hansısa sahədə müvəffəqiyyətdən danışmaq olmaz. Başqa sözlə, bu gün yüksək keyfiyyət fərqləndirici xüsusiyyət olmaqdan çıxmışdır. O, artıq rəqabət üstünlüyünü təmin edən əsas faktor qismində çıxış edə bilmir. Bu gün menecmentin qarşısında duran əsas məsələ, rəqabət üstünlüyünü təmin edəcək yeni idarəetmə formalarının tapılmasıdır. Artıq, ötən əsrin 90-cı illərindən başlayaraq menecmentin nəzəriyyəsində və praktikasında müəyyən dəyişikliklər baş verdi. Məhz bu dövrdən başlayaraq əsas diqqət təşkilat daxilində biliyin istehsalı, istifadəsi və təkrar istehsalına yönəldi.

Ötən əsrin 90-cı illərində menecmentin nəzəriyyəsində yeni istiqamət – «biliyin idarə edilməsi» və ya «bilik menecmenti» adlanan istiqamət meydana gəldi. Onun meydana gəlməsi rəqabət üstünlüyünü təmin edən yeni vasitələrin axtarışına cavab oldu. Rəqabət üstünlüyü subyektdə müəyyən biliyin olması və onun rəqiblərində həmin biliyin olmaması sayəsində təmin edilməyə başladı. Bilik menecmenti sahəsində ən populyar müəlliflərdən biri olan A. de Quis qeyd edir ki, öz rəqiblərindən daha tez öyrənmə qabiliyyəti, görünür, elə davamlı rəqabət üstünlüyünü təmin edən əsas vasitədir (5). Başqa sözlə, təşkilat daxilində idraki fəaliyyətin daha effektiv həyata keçirilməsi, müəssisənin uzun müddətli müvəffəqiyyətini təmin edir.

Bilik menecmenti konsepsiyasının formalaşmasına Yapon tədqiqatçıları İ.Nonaka və Q.Takeuçinin tədqiqatları böyük təsir göstərdi. İ.Nonakanın fikrincə, Qərb menecerlərinin əksəriyyəti biliyə, onun kompaniyada istifadəsinə məhdud çərçivədə yanaşırlar. Belə menecerlər hesab edirlər ki, faydalı bilik aşkar məlumatlardan (oxunan, ölçülən) ibarətdir. Onlar həmçinin kompaniyanı «informasiyanın emalı» üçün maşın hesab edirlər.

Biliyə və onun təşkilatda roluna münasibətdə fərqli mövqe də mövcuddur. «Honda», «Canon», «Matsushita» və «Sharp» kimi müvəffəqiyyətli yapon kompaniyaları məhz belə mövqedən çıxış edirlər. Bu firmaların menecerləri hesab edirlər ki, yeni biliyin yaradılması obyektiv informasiyanın mexaniki emalı ilə məhdudlaşmır. O, daha çox əməkdaşların gizli baxışlarından, duyğu və ideallarından aslıdır. Subyektiv mülahizə və təsəvvürlər tez-tez deviz, metafora, simvol formasını qəbul edir. Bununla da onlar innovasiyanın fasiləsiz təkrar istehsalı üçün əvəzedilməz alətə çevrilirlər.

Biliyin yaradılmasına xolistik yanaşmanın nəyə görə məhz yapon kompaniyalarında müvəffəqiyyətlə tətbiq edildiyini demək çətindir. Bir sıra tədqiqatçılar bunun səbəbini yapon xalqının etno-mədəni xüsusiyyətlərində, Yaponiyada tarixən qərarlaşmış birgəyaşayış formalarında görür. Ancaq, buna əks yanaşma da mövcuddur. Belə ki, bütün dünyada istehsalçılar yapon istehsal metodunu mənimsəmişlər. Menecerlər də rəqabət üstünlüyü əldə etmək üçün biliyin yaradılmasının yapon metodunu öyrənməlidirlər. Yapon tədqiqatçıları İ.Nonako və Takeuçi Yapon kompaniyalarının nümunələrindən istifadə edərək, menecerlərin rol və

* Məqalə fəls.e.d. Ə.Abbasov tərəfindən çapa məsləhət bilinib.

məsuliyyətinin qiymətləndirilməsinin yeni metodunu təklif etdilər. İ.Nonaka öz-özünə yenilənən təşkilat konsepsiyasını inkişaf etdirdi. Onun konsepsiyasına görə biliyin effektiv istifadə edilməsi kompaniyalarda daimi yenilənməni təmin edir (6). Nonakanın fikrincə, öz-özünə yenilənmə təşkilatı nizamın müntəzəm yaradılması və dağıdılması prosesinin idarə edilməsindən asılıdır. Bu proses dörd mərhələdən ibarətdir:

1. kompaniyada dinamik xaos və dayanıqsızlıq vəziyyətinin meydana gəlməsi;
2. nizamsızlığın artması və diqqətin ziddiyyətlərdə cəmləşməsi;
3. qrupların özünütəşkili vasitəsi ilə həyata keçirilən dinamik əməkdaşlığı;
4. yığılmış informasiyanın biliyə çevrilməsi.

Birinci üç mərhələ informasiyanın yaradılması prosesi kimi, dördüncü mərhələ isə inteqrasion proses kimi müəyyən edilir. Bu prosesin vasitəsi ilə təşkilat informasiyanı bilik ehtiyatına çevirir. Ziddiyyətlərin mövcudluğu və onların həllini nəzərdə tutan dəyişiklik prosesi spiralvari inkişaf edir. Hipoteza daha aşağı səviyyədə sınaqdan keçir. Orta və yuxarı səviyyədə isə nəzəriyyə yaradılır. Bu, yeni ziddiyyətlərin meydana gəlməsinə və öz-özünə yenilənmə prosesinin davam etməsinə səbəb olur.

Nonaka və Takeuçi öz nəzəriyyələrində postpozitivizmin görkəmli nümayəndəsi filosof M.Polaninin təklif etdiyi biliyin təsnifatı (aşkar və qeyri-aşkar bilik) konsepsiyasını qəbul etdilər. Onların yeni biliyin yaradılması prosesində biliyin müxtəlif növlərinin bir-birinə nüfuz etdiyini əsaslandırmağa çalışırdılar. Biliyin birinci forması aşkar bilikdir. Aşkar bilik sözlərdə, rəqəmlərdə ifadə olunan, məlumat, elmi formul, spesifik məhsul, universal prinsip və s. şəkildə təqdim edilə bilər. Biliyin bu növü çox asanlıqla digərlərinə ötürülə bilər. Qeyri-aşkar bilik isə çətin rəsmiləşir. Bu da onun birgə istifadəsini və ötürülməsini çətinləşdirir. Subyektiv dərketmə, intuisiya və zənn etmə biliyin bu kateqoriyasına aiddir. Subyektiv dərk etmə, intuisiya ilə yanaşı, idealları, dəyərləri və hətta ayrıca bir fərdin emosiyalarını da gizli biliyə aid etmək olar. Qeyri-aşkar bilik fərdi fəaliyyətə, təcrübəyə, ideallara, şəxsi emosiyalara əsaslanır. Belə bilik son dərəcə şəxslənmiş olur. Bu səbəbdən də onu rəsmiləşdirmək və digər şəxslərə ötürmək olduqca çətindir. Maykl Polaninin qeyd etdiyi kimi: «Biz ifadə edə bildiyimizdən daha çox şey bilirik» (2). Gizli bilik müəyyən mənada həm də texniki bacarıqlardan, çətin sezilə bilən fəndlərdən ibarətdir. Bunları bəzən «nou-hau» termini ilə də ifadə edirlər. Çoxillik təcrübəyə malik usta-sənətkar özünün bir çox bacarıqlarını inkişaf etdirir. Ancaq, o çox vaxt ona məlum olan elmi və texniki prinsipləri müəyyən şəklə sala bilmir. Gizli bilik düşüncə modellərindən, təsəvvürlərdən, dünyagörüşündən ibarətdir. O, insanda elə dərin kök salır ki, biz onu təbii hal kimi qəbul edirik və çox vaxt ifadə edə bilmirik. İ.Nonakanın fikrincə, məhz qeyri-aşkar bilik müasir dünyada rəqabət üstünlüyünün əsas mənbəyidir.

Nonakanın idarəetmə nəzəriyyəsinə verdiyi mühüm töhfə M.Polani tərəfindən təklif edilmiş qeyri-aşkar bilik konsepsiyasını menecmentin nəzəriyyəsinə gətirilməsidir. M.Polani üçün qeyri-aşkar bilik şəxsi bilikdən (personal knowledge) ayrılmaz idi, o köməkçi rol oynayırdı. Nonakanın konsepsiyasında isə qeyri-aşkar bilik idarəetmənin tamamilə müstəqil obyektidir. O, innovasiya və yeni biliyin yaradılması prosesində mühüm əhəmiyyətə malikdir. Aşkar və qeyri-aşkar biliyin əsas epistemoloji vahidlər qismində ayrılmasına əsasən Nonaka, biliyin transformasiyasının dörd vasitəsini müəyyən edir (7):

Sosiallaşma (sosialization) – gizli biliyin təşkilatın bir üzvündən digərinə ötürülməsi prosesidir. Biliyin belə örtülməsi dildən istifadə edilmədən, məsələn bir insanın digərini müşahidəsi vasitəsilə həyata keçirilir. Nonaka və Takeuçinin tədqiqatından aydın olur ki, bu qeyri-verbal proses yapon kompaniyalarında mühüm rol oynayır. Ancaq, özü-özlüyündə sosiallaşma – biliyin yaradılmasının kifayət qədər məhdud formasıdır. Həqiqətən də şagird ustanın bacarıqlarını mənimsəyir, ancaq nə o, nə də ki, «müəllim» öz sənəti haqqında sistematik təsəvvür əldə etmir. Bu halda onların biliyi aşkar olmur. Bu səbəbdən də onu təşkilatda asanlıqla istifadə etmək mümkün olmur.

Eksternalizasiya (eksternalization) – gizli biliyin aşkar biliyə çevrilməsi prosesidir. Gizli biliyin aşkar biliyə çevrilməsi dilin qeyri-adi şəkildə istifadə edilməsi vasitəsilə həyata keçirilir. Bu prosesdə müxtəlif metaforalar, analogiyalar mühüm rol oynayır. Gizli biliyin aşkar biliyə çevrilməsi, ifadə edilə bilməyəni ifadə etmək kimi də dərk edilə bilər. Təəssüf ki, bu prosesin idarə edilməsinin güclü alətlərindən biri, çox vaxt nəzərə alınmır. Bu alət menecerlərin öz hiss və baxışlarının eksternalizasiyası zamanı əldə etdikləri məcazi, simvolik mənalardır. Yapon kompaniyalarında belə poetik dil məhsulların hazırlanması zamanı geniş istifadə edilir.

Eksternalizasiya prosesində metafora qavrayışın xüsusi vasitəsi kimi çıxış edir. İnsanlar üçün metafora təhlilə ehtiyac olmadan nəyisə təxəyyül və simvolların köməyi ilə intuitiv dərk etmə vasitəsidir. Metafora insana məlum olanı tamamilə yeni şəkildə ümumiləşdirməyə imkan verir. O, bildiyi, ancaq deyə bilmədiyini ifadə edir. Bu anlamda metafora yaradıcılıq prosesini birbaşa stimullaşdırmaq üçün olduqca effektlidir. Metafora, təcrübənin fərqli sahələrini ümumi obraz və ya simvolda birləşdirir, ifadə edilə bilməyən təcrübənin ifadə edilməsinə imkan yaradır. Filosof-linqvist Maks Blek bunu «bir frazada iki ideya» adlandırır. İlk baxışdan bir-birinə aidiyyatı olmayan elementlər arasında əlaqə quraraq metafora «uyğunsuzluq sahəsi», məna konflikti yaradır. Bu «məna konfliktləri» isə yaradıcılıq prosesini stimullaşdırır.

Kombinasiya (combination) – Qərb üçün ənənəvi olan aşkar biliyin bir insandan digərinə ötrülməsi prosesidir. Aşkar biliyin belə ötürülməsinə nümunə kimi biliyin kitab, qəzet, mühazirə, kompüter texnologiyaları vasitəsi ilə ötrülməsini göstərmək olar. İnsan aşkar biliyin ayrı-ayrı hissələrini birləşdirə və onlardan yeni bilik yarada bilər. Məsələn, kompaniyanın maliyyə nəzarətçisi bütün təşkilatdan informasiyanı toplayır və onu maliyyə hesabatında birləşdirir. Belə sənəddə çoxsaylı mənbələrdən toplanmış informasiya sintezləndirilir. Bu kombinasiya kompaniyanın mövcud bilik bazasını genişləndirmir. Ancaq, gizli və aşkar bilik qarşılıqlı fəaliyyət göstərdikdə nə isə qeyri-adi, fövqəladə bir şey baş verir. Yapon kompaniyaları məhz bunu - gizli və aşkar bilik arasındakı mübadiləni – daha yaxşı inkişaf etdirməyi öyrənmişlər.

İnternalizasiya (internalization) – Aşkar biliyin gizli formaya çevrilməsidir. Biliyin belə çevrilməsi hansısa fəaliyyətin praktik həyata keçirilməsi vasitəsilə mümkün olur. Bu cür fəaliyyəti bəzən «fəaliyyətlə öyrənmə» (learning by doing) də adlandırırlar. Aşkar biliyi təşkilatın digər əməkdaşları da mənimsəməyə, öz şəxsi gizli biliklərinin genişlənməsi, dərinləşməsi və restruktuzasiyası üçün istifadə edə bilərlər. Yuxarıda nəzərdən keçirdiyimiz nümunədə nəzarətçinin təklifi, kompaniyanın maliyyə nəzarətinin yenidən nəzərdən keçirilməsinə səbəb olur. Kompaniyanın digər əməkdaşları yeniliyi istifadə edir və onu təbii, işin yerinə yetirilməsi üçün lazım olan resurs kimi qəbul edirlər. Yuxarıda göstərilən dörd prosesin bir-birini əvəz etməsi bilik spiralını yaradır. Menecerlərin qarşısında duran əsas məsələ bu spiralın effektiv fəaliyyətini təmin etməkdir. Bilik, yalnız fərd tərəfindən yaradılır. Təşkilatın vəzifəsi isə biliyin yaradılmasını fərdi səviyyədə dəstəkləmək və asanlaşdırmaqdır. Həmçinin fərd tərəfindən yaradılmış biliyin dialoq, diskussiya, təcrübə mübadiləsi və bilavasitə müşahidə vasitəsilə qrup səviyyəsində yayılmasını təmin etmək də təşkilat üçün olduqca sərfəlidir.

Eksternalizasiya (qeyri-rəsmi, gizli biliyin rəsmi, aşkar biliyə çevrilməsi) və internalizasiya (bu rəsmi, aşkar biliyin qeyri-rəsmi, gizli bilik bazasının artırılması üçün tətbiqi) bilik spiralının ən mühüm mərhələləridir. Belə ki, onların hər ikisi insanın bilavasitə iştirakını tələb edir. Biliyin yaradılması «spiralında» qeyri-aşkar biliyin eksternalizasiyası mühüm rol oynayır. Nonaka qeyd edir ki: «Qeyri-aşkar biliyin real texnologiya və məhsullarda təcəssüm etməsi üçün kompaniyaya özlərini kobud rəqəmlərlə olduğu kimi, obraz və simvollarla da rahat hiss edən menecerlər lazımdır» (6, s. 91). Nonaka öz konsepsiyasında metaforaya xüsusi diqqət ayırır. Onun fikrincə, məhz metaforanın köməyi sayəsində əməkdaşların intuituv dərk etməsi, təcrübə və inancı yeni konsepsiyada təcəssüm edir. Nonakaya görə məhz kompaniyanın məqsədlərinin obraz və simvolların dilində qısaca ifadə edilməsi, yaradıcılıq prosesini sürətləndirir.

İ.Nonakanın fikrincə, firmanın əsas ictimai missiyası yeni biliyin yaradılmasına yardım etməkdir. Əvvəllər belə hesab edilirdi ki, firma sövdələşmə xərclərini azaltmaq üçün mövcuddur (4). Əgər bu həqiqətən belədirsə, onda informasiya texnologiyalarının intensiv inkişafı sayəsində sövdələşmə xərclərinin azalması tədricən ictimai institut kimi firmaların yox olmasına gətirib çıxarmalıdır. Qarşılıqlı fəaliyyət isə açıq bazarda fərdlər tərəfindən həyata keçiriləcəkdir. Nonaka bu futuroloji proqnozu rədd edir. Onun fikrincə, firmanın mövcud olmasının mənası sadəcə xərclərin azaldılmasından ibarət deyil. Firmanın mövcud olmasının əsas məqsədi biliyin, ilk növbədə isə gizli biliyin yaradılmasını stimullaşdırmaqdır. Məhz buna görə informasiya texnologiyalarının inkişafı firmaların yox olmasına gətirib çıxara bilməz. Beləliklə, firma – cəmiyyətin yeni biliyi yaratdığı «məbəddir». Onun fikrincə, müasir dünyada yaşamaq və inkişaf etmək üçün təşkilatlar daima transformasiya etməlidirlər. Təşkilat daima öz daxili nizamını nəzərdən keçirməli, onu dağıtmalı, bilik xaosundan yeni idarəetmə sistemləri, məhsul və xidmətlər yaratmalıdır. Ancaq, onlar da gələcəkdə yenidən qiymətləndirməyə, yenidən mənalandırmaya məruz qalacaqlar.

Müasir dövrdə biliyin gücü və intellektual kapital haqqında çoxsaylı fikirlər səslənsə də menecerlərin hamısı biliyi yaradan kompaniyanın mahiyyətini dərk etmirlər. Federik Teylordan başlayaraq, Herbert Saymona qədər ənənəvi Qərb menecmentində kompaniyaya «informasiyanı emal edən» maşın kimi yanaşılmışdır. Buna müvafiq olaraq aşkar bilik yeganə faydalı bilik növü kimi qəbul edilmişdir. Ancaq, «Honda», «Canon», «Matsushita», «NEC», «Sharap» və «Kao» kimi kompaniyalar fərqli mövqedən çıxış edirlər. Bu kompaniyalar istehlakçıların tələbatına çevik şəkildə cavab vermələri, yeni bazarlar və yeni məhsullar yaratmaları ilə şöhrət qazanmışlar. Bir çox tədqiqatçıların fikrincə, yapon kompaniyalarında biliyin yaradılması prosesinə spesifik yanaşma, onların müvəffəqiyyətini təmin etmişdir. Belə yanaşmaya əsasən yeni biliyin yaradılması obyektiv informasiyanın mexaniki emalı ilə məhdudlaşmır. O, fərdin gizli əqidəsindən, duyğu və zənnindən aslıdır. Yeni biliyin yaradılması üçün kompaniyanın əməkdaşlarının subyektiv baxış və gümanlarını yoxlamaq imkanı olmalıdır. Yapon kompaniyalarının rəhbərləri üçün obraz və simvollarla işləmək olduqca asandır. Məhz bu, rəqəmsal hesabla bərabər investisiyaların səmərəliliyini müəyyən edir.

Kompaniya rəqabət üstünlüyünü təmin etmək üçün rəqiblərindən daha tez və keyfiyyətli öyrənməlidir. Əgər bu təmin edilərsə, kompaniya digərlərindən daha tez yaranan yeni imkanları görə və istifadə edə bilər. Bilik menecmenti konsepsiyasından iki mühüm nəticə çıxarmaq olar: birincisi, bilik və informasiya eyni şeylər deyil; ikincisi, təşkilat daxilində idraki fəaliyyət konkret təşkilati qərarlardan asılı olaraq daha effektli baş verə bilər. Belə fəaliyyət isə hiperrəqabət mühitində müvəffəqiyyətin təmin edilməsinin əsasında durur. Hər iki ideya həm də mühüm praktiki əhəmiyyətə malikdir.

Beləliklə, yuxarıda deyilənləri yekunlaşdıraraq belə qənaətə gəlmək olar ki, postidustrial cəmiyyətdə fasiləsiz yenilik rəqabət üstünlüyünü təmin edən əsas vasitəyə çevrilir. Bunun nəticəsində də firmalar yeni ictimai missiyanın daşıyıcısına çevrilirlər. Bu missiyaya əsasən onlar öz heyətlərinin duyğu, təxəyyül, subyektiv mülahizə, daxili inam, əqidə kimi keyfiyyətləri əsasında daima yeni bilik yaratmalı və onu məhsul və xidmətlərə çevirməlidirlər. Kompaniyanın əməkdaşı yeni biliyi ixtira edərək özünü, kompaniyanı və ətraf dünyanı dəyişdirir. Kompaniyada menecerlərin vəzifəsi isə nizamsız dünya görüşünə malik əməkdaşları məqsədyönlü şəkildə biliyin yaradılmasına istiqamətləndirmək olmalıdır. Başqa sözlə, insanın yaradıcı potensialının meydana çıxarılması, idarəetmənin pozitiv rolu haqqında fikirlər menecment nəzəriyyəsində üstün mövqe qazanır. Yəni, sosial-iqtisadi inkişafın hərəkətverici qüvvəsinin yenidən qiymətləndirilməsi baş verir.

Açar sözlər: bilik menecmenti, biliklər spiralı, gizli bilik, biliyi yaradan kampaniya.

İstifadə olunmuş ədəbiyyat

1. Мильнер Б.З. Управление знаниями: Эволюция и революция в организации. М., Инфра-М., 2003, 177 с.
2. Полани М. Личностное знание: На пути к посткритической философии. М., Прогресс, 1985.
3. Янсен Ф. Эпоха инноваций. М., ИНФРА-М, 2002.
4. Coase R. The Nature of the Firm. Economic, Blackwell Publishing.1937.
5. Geus A. de. Planning as Learning // Harvard Business Review, August-September, 2006.
6. Nonaka I. Strategic vs. Evolutionary management: A US-Japan Comparison of Strategy and Organisation. Amsterdam, North-Holland, 1985.
7. Nonaka I., Takeuchi H. The Knowledge- Creating Company. How Japanese Companies Create The Dynamics of Innovation. Oxford. Oxford University Press, 1995.
8. Sveiby K.E., Lloyd T. Managing Know-how. London, Bloomsbury. 1987.

Зульфугар ИБРАГИМЛИ

УПРАВЛЕНИЕ ЗНАНИЯМИ КАК НОВАЯ ПАРАДИГМА МЕНЕЖМЕНТА

Резюме

В связи с переходом в постиндустриальное общество происходят серьезные изменения в парадигме управления. Особое значение приобретает создание новых форм управления, обеспечивающих устойчивое конкурентное преимущество. Уже в середине 90-х гг.XX в. теории менеджмента появилось новое направление, получившее название «управление знаниями», где особое внимание стало уделяться созданию, использованию и воспроизводству новых знаний. Автор статьи новое направление управления знаниями анализирует с социально-философской точки зрения: выявляет его исторические предпосылки становления, теоретические основы, механизмы функционирования и сущностные составляющие части.

Ключевые слова: управление знаниями, спираль знаний, неявное знание, компания по созданию знания.

Zulfugar IBRAHIMLI

KNOWLEDGE MANAGEMENT AS A NEW PARADIGM MANAGEMENT

Summary

In connection with the transition to a postindustrial society there take place serious changes in the paradigm of management. Creation of the new forms of governance, providing sustainable competitive advantage is of particular importance. Already in the mid-90s of the 20th century in a management theory a new direction, called knowledge management, emerged. In this regard, in the theory of management a particular attention was paid to creation, use and reproduction of new knowledges. In the article a new trend of management is analysed from the socio-philosophical point of view. Its historical premises of standing theoretical bases, mechanisms of operation and main component parts are being exposed.

Keywords: knowledge management, knowledge spiral, tacit knowledge, knowledge creating company.

UOT 1:2 141.45

Anar HƏSƏNLİ
AMEA FSHİ, aspirant

MİLLİ MƏDƏNİYYƏTDƏ İSLAM DƏYƏRLƏRİ*

Yüksək dünya standartlarına cavab vermək, yeniliyi qəbul etmək və təbliğ etmək bugünkü Azərbaycan üçün qarşıya qoyulan əsas məsələlərdəndir. Avroatlantik məkana inteqrasiyanın Azərbaycana ancaq xeyir və fayda gətirməsi isə düzgün və ardıcıl siyasətdən asılıdır (1, s. 264). Qloballaşma kimi böyük bir məfhumun daxili və ayrılmaz komponenti olan inteqrasiya yolunda milli-mənəvi, dini dəyərlərin özünəməxsusluğunun qorunub saxlanması və varislik prinsipi əsasında gələcək nəsillərə çatdırılması böyük və gərgin zəhmət tələb edir. Müasir dövrün çətinliklərindən biri də budur ki, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu prosesində bazar iqtisadiyyatı təkamül yolu ilə ictimai şüurun və mənəviyyatın inkişafı ilə bahəm inkişaf etmir. Əqidə, dünyagörüşü, əxlaqi meyarlar qanunauyğun surətdə dəyişə bilmir, mənəviyyat yeni iqtisadi mühitə uyğunlaşa bilmir. Yeni mənəvi-əxlaqi dəyərlərlə köhnə dəyərlər, mənəviliklə müasirlik arasında tarazlıq yaranmır(2, s.147).

İnteqrasiya elə bir prosesdir ki, bu zaman mütləq milli-mənəvi dəyərlərin tənəzzül etməməsi və aşınmaması istiqamətində tutduğu mövqeyindən asılı olaraq hər bir vətəndaş öz vəzifəsini yerinə yetirməli, bu yöndə bütün bilik və bacarığını səfərbər etməlidir. Bu məsələ həm də alim və tədqiqatçıları da narahat etməli, onlar məntiqli fikir və ideyalarını irəli sürməlidirlər. Doğrudur, bu istiqamətdə bəzi tədqiqat işləri işıq üzü görüb, lakin bu hələ kifayət deyildir. Əsas aktuallıq kəsb edən odur ki, necə etmək lazımdır ki, bizim milli-mənəvi dəyərlərimiz, əxlaqi qaydalarımız dünyanı öz ağuşuna almış bu prosesi daha da zənginləşdirsin, ona bir növ təkan versin. Ancaq əksər ölkələrin timsalında bunun şahidi oluruq ki, qloballaşma prosesi ayrı-ayrı mədəniyyətlərə, millətlərin özünəməxsus dəyərlərinə zərbə vurmuş, yad elementlərin milli mədəniyyətlərin tərkibinə daxil olmasına səbəb olmuş, bu mədəniyyətlərin zəifləməsi istiqamətində həm uğurlu, həm də uğursuz cəhdlər olmuşdur.

İnteqrasiya prosesləri ən müxtəlif səpkilərdə - siyasi, iqtisadi, mədəni və s. cəhətlərdən tədqiqatçılar tərəfindən öyrənilir. Keçən onilliklər ərzində inteqrasiyaya münasibətdə çoxlu baxışlar, mövqelər formalaşmışdır. Bunların sistemləşdirilməsi və ümumiləşdirilməsi özü də inteqrasiya proseslərinin nəzəri-konseptual əsaslarının müəyyənləşdirilməsi vəzifəsinə daxildir.

Mənəviyyatın qorunması üçün ən mühüm şərtlərdən biri iqtisadiyyatın inkişaf etdirilməsidir. İqtisadi tərəqqini təmin etmək üçün dövlətçiliyin möhkəmləndirilməsi lazımdır. Möhkəm dövlətçilik təməli isə ancaq ictimai-iqtisadi sabitlik şəraitində, beynəlxalq nüfuzun yüksəldilməsi və beynəlxalq ictimai-iqtisadi əlaqələr sisteminə daxil olmaqla mümkündür (2, s.147).

Müstəqil Azərbaycanın dövlətçiliyi artıq möhkəmlənmiş, iqtisadiyyat dirçəldilmiş, inkişaf mərhələsinə qədəm qoymuş, ictimai-siyasi sabitlik yaranmış, xalqın fiziki və mənəvi cəhətdən toxunulmazlığı təmin edilmiş, əsil xalq hakimiyyəti olan demokratiya bərqərar olmuşdur.

Qərb demokratiyasının milli özünəməxsusluğu nəzərə almadan Azərbaycana tətbiqini qəbul etməyərək, Azərbaycan milli mentalitetinə və dövlətçilik ənənələrinə söykənən canlı demokratik rejim qurmaq yolu seçdi (2, s.153).

Azərbaycanda yayılan kütləvi mədəniyyət əsasən Qərb həyat tərzinin və postmodernist ənənələrin yayılmasına xidmət edir. Məlumdur ki, Qərb sivilizasiyası özünü bəşər mədəniyyətinin inkişafının ən yüksək mərhələsi hesab etməklə digər mədəniyyətlərin də yeni inkişafa tabe

* Məqalə fəlsəfə üzrə f.d. H.Hüseynov tərəfindən çapa məsləhət bilinib.

edilməsini iddia etməkdə və həmin mədəniyyətləri yaradan xalqların sosial-siyasi və mənəvi-əxlaqi həyatını öz dəyərlərinə uyğun tənzimlənməsi tələbini verməkdədir. Özünü Qərb sivilizasiyasına inteqrasiya edən müasir Azərbaycan cəmiyyətində real ictimai münasibətlər sahəsində kütləvi mədəniyyətin təsiri və yaratdığı təsəvvürlər güclənir və bu proses ümumbəşəri proseslərin tərkib hissəsi kimi özünü göstərir. Azərbaycanın yeni ictimai-siyasi sistemə yön alması nəticəsində «müasirləşmə» düşüncəsi sosial şüurda özünə xüsusi yer almışdır. Xüsusilə, şəhərdə indiyə qədər mövcud olmayan və tanınmayan mədəni dəyərlərin qəbulu «müasirlik» kimi dərk edilir. Əslində «müasirləşmə», müasirlik özü Qərbdən gələn kütləvi mədəniyyəti mənimsəmə kimi ifadə olunur. İctimai şüurda özünə yer alan bu məsələ insanların keçmiş irslərindən ayrılaraq yeni ənənələr, stereotiplər mühitinə atılması ilə bağlıdır. Bir çoxları əvvəlki irsin köhnəlik kimi «gülünc», «zəif» olduğundan onun atılması düşüncəsindən çıxış edirlər. Bu cür təsəvvürlər bilavasitə onların yaşam tərzinə və dünyagörüşünə təsir edir.

Xalqın rifahının artması, vətəndaşların güclənməsi dövlətin qüdrətinin artması deməkdir. Qanunlar vətəndaş və dövlətin maraqlarının tələblərinə uyğun insanların davranışlarını tənzim etməlidir (5, s.126). Azərbaycan bütün dövlətlər tərəfindən dini, etnik, mədəni tolerantlığın bərqərar olduğu ölkə kimi tanınır. Qloballaşma dövrünün əsas tələblərindən biri də elə tolerantlıqdır. Bu da doğrudur ki, əgər dini, mədəni fərqlərə qarşı dözümlülük olmasa inteqrasiya prosesləri lazımi nəticəni verməyəcəkdir. Ona görə də milli dəyərlərə böyük önəm verərək tolerantlığın möhkəmlənməsi millətə zərər gətirməz. İnsanın mənəvi ehtiyacları onun boya-başa çatdığı milli-mədəni mühitin spesifikası ilə müəyyən olunur. Ona görə də hər bir xalqın sosial-mənəvi mənşəyini, mədəniyyət tarixini öyrənmədən yeni nəslin nə kimi hisslərlə yaşadığını, onun mədəni tələbat meyillərini və estetik zövq oriyentasiyasını müəyyən etmək çox çətindir. Lakin çox təəssüf ki, əvvəlcə proletkultçuluğun təsiri ilə, sonra isə repressiya və yetkin sosializm illərində bizi öz mənəvi köklərimizlə bağlayan tellər zəifləmiş, milli mədəniyyət tarixinə maraq azalmışdı (3, s.250).

Ümumiyyətlə, dini amil müasir dövrdə Azərbaycanda xeyli güclənmişdir və etnososial proseslərə müəyyən təsiri hiss olunmaqdadır. Müstəqillik illərində dini ədəbiyyatın nəşri genişlənmişdir. Radio və televiziyalarda dini verilişlərin həcmi artmaqdadır. Bizdə ictimai şüur mənəviyyatın dirçəldiyi ümidlərini milli-mədəni ənənələrə, dini dəyərlərə qayıdışla bağlayır (4). İnsanlar arasındakı münasibətlərdə din, insaf, mürüvvət, halal-haram, xeyriyyə məfhumlarının düzgün anlamına rəğbət genişlənməkdədir. Eyni zamanda bu proses adi şüurda dini geyim, qadın hicabı, qızların erkən yaşdan məktəbdən uzaqlaşdırılaraq ərə verilməsi, siğə və çoxarvadlılıq kimi ənənələrə marağın artması ilə müşayət olunur.

Bakıda müxtəlif dinlər və təriqətlər geniş yayılmışdır və onların hər birinin müəyyən sayda tərəfdarı vardır. Lakin təəssüflə deməliyik ki, bəzən ayrı-ayrı siyasi qruplar gənclərin sadəlövlüyündən və ya təcrübəsizliyindən sui-istifadə etməyə çalışır. Bu dinlər sırasında İslam müstəsna üstünlük təşkil edir və əhalinin əksəriyyəti özünü müsəlman hesab edir. Bundan başqa xristian dini və onun müxtəlif təriqətləri və icmaları, yəhudi dini, bəhaizim, satanaçılıq (şeytana inanc) kimi inanclar da Bakıda müəyyən qədər yayılmışdır.

Müasir dövrdə Bakı şəhərində dinə meylin getdikcə gücləndiyi hiss olunur. Bununla belə şəhər əhalisini bütövlükdə dindar saymaq düzgün olmazdı. Tədqiqatçı T. Faradovun Bakı şəhəri də daxil olmaqla müxtəlif rayonlarda apardığı sosioloji sorğunun nəticəsinə görə insanların yalnız 62,7%-i özlərini dindar sayırlar ki, bunlardan da yalnız 6,4%-i qatı dindarlar cərgəsinə daxildir. Həmin sorğuya əsasən əhalinin 10,6%-i tərəddüd edənlər, 7,4%-i «kafirlər», 9,1%-i etinasızlar, 3,8%-i isə qatı ateistlərdir. Yenə həmin sorğu nəticəsində məlum olmuşdur ki, şəhər əhalisinin cəmi 16%-i namaz qılır, 27%-i oruc tutur, qalan hissəsi isə bunlara riayət etmir.

Qatı dindarlar üçün din həyat tərzidir. Gündəlik həyatda dini qaydalara, normalara və tələblərə əməl etmək onlar üçün vəzifədir, borcdur. Sorğunun nəticələrinə əsaslanaraq belə qənaətə

gəlmək olar ki, əhalinin yalnız 16-17%-i davranışında şəriət qaydalarına riayət etməyə üstünlük verir, yəni dini öz həyat tərzi kimi qəbul edir.

Bütövlükdə müasir dövrdə etnososial proseslərə və cəmiyyətə dinin aşağıdakı təsirləri müşahidə olunur:

Yaşa görə təbəqələşmə müxtəlif mədəniyyətlərdə fərqlidir. Bir cəmiyyətdə yaşlılara hörmətlə yanaşırlarsa, digərində onları faydasız və həyat şəraitini ağırlaşdıran adamlar kimi qiymətləndirirlər. Qədim Çin mədəniyyətində yaşlılara xüsusi hörmət göstərilir, 55 yaşdan sonra kişi və qadının arxayın həyat dövrü başlayırdı. Ailənin gənc üzvləri ilə yaşlılar arasında böyük fərq var idi. Belə ki, ailənin bütün sərvəti və imkanları yaşlıların ixtiyarında idi. Ancaq Afrikada yaşayan fulani qəbilələrində yaşlılar tədricən məişətdən uzaqlaşdırılır, fiziki cəhətdən yaşamalarına baxmayaraq, ictimai baxımdan ölü varlıqlar sayılırdılar (5, s.21).

Bir sıra bəşər cəmiyyətlərində "qoca öldürmək" (senilicid) - yaşlıları öldürmək adəti rəvacda olmuşdur. Bu əməl ərzaq və sığınacaq kimi zəruri məişət şəraitinin əldə edilməsi çətinliyə məruz qaldıqda tətbiq edilirdi. Keçmişdə eskimoslar mədəniyyətində yaşlıları təşviq edirdilər ki, yaşadıqları yeri tərk edib, yaşamaq şəraiti olmayan yerlərdə ölümlə üzləşsinlər. Avstraliyanın Andaman adalarında isə yaşlılar cəmiyyətdə hakim mövqe qazanmışlar. Antropoloqlar Andamanı "rəhbər qocalar" cəmiyyəti adlandırmışlar. Bu ifadə "qoca" mənasında olan "geras" yunan sözündən götürülmüşdür.

Qeyd edilməlidir ki, bütün cəmiyyətlərdə yaş təbəqələşməsi sistemi var. Bu təbəqələşmə həyatın müxtəlif mərhələlərində istehsalda və digər sahələrdə icra edilən ictimai rolların xüsusiyyətlərindən asılıdır. Hər halda bu təbəqələşmə qarşısıalınmazdır. Əlbəttə, iri sənaye mərkəzlərində yaşlılara ağır işlərin həvalə edilməsi xoşagəlməz hal olardı. İş burasındadır ki, dünyanın bəzi inkişaf etmiş ölkələrində ağır işlərin icrası yaşlıların öhdəsinə qoyulmuşdur. Bunu da əlavə etməliyik ki, insanların ictimai rollarının müəyyənləşməsində yaşdan başqa cins amili də diqqəti cəlb edir. Nəzərə almaq lazımdır ki, kişi və qadının ictimai rolları həyatın müxtəlif dövrlərində və sahələrində heç də bərabər olmur.

ABŞ-da aparılmış araşdırmalara əsasən demək olar ki, qocalıq müəyyən qədər mənfi hal kimi qarşılanır. Məsələn, ötən əsrin sonlarında aparılmış bir araşdırmanın nəticələrindən məlum olmuşdur ki, Amerika əhalisinin yalnız 2 faizi, yaşlıların isə 8 faizi 60 yaşdan yuxarı olan həyat dövrünü ömürlərinin ən yaxşı illəri hesab etmişlər. Araşdırmalar göstərmişdir ki, cəmiyyətin 33 faizi, o cümlədən yaşlılar, 60 və 70 yaşı həyatlarının ən pis illəri saymışlar. İnsanlara "qocalıq markası" vurulduqdan sonra onlar cəmiyyət tərəfindən başqa tərzdə qarşılanırlar (4, s.102).

Qocalma orqanizmin inkişafında özünəməxsus mərhələdir. Bioloji baxımdn qocalmanı ontogenezin təbii yekun mərhələsi kimi səciyyələndirmək olar. Bioloqların fikrincə, bütün canlıların ümumi inkişaf xəttinə xas olan prinsip eynidir. Qocalma hüceyrə daxilindəki molekullardan başlanır, sonra hüceyrə, toxuma, orqan və sonra orqanizmin yaşlaşması şəklində davam edir. Bu ardıcıllıqdan aydın olur ki, molekulyar səviyyədə başlanan qocalma orqanizm səviyyəsində olan qocalmanın bir növ siqnalıdır. Genetik tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, yaşlanmaya səbəb genetik məlumatlar daşıyıcıları olan xromosom uclarının-telomerlərin qısalmasıdır. Onların qısalması insanın bütün ömrü boyu, tədricən baş verir, lakin müəyyən yaşlarda daha da sürətlənir. Müəyyən olunmuşdur ki, təxminən 60-80 hüceyrənin bölünməsi nəticəsində telomerlər 5 kilobaza (kilobaz telomerlərin uzunliğunun ölçülməsində istifadə olunan vahiddir) qədər qısalır, hüceyrələrdə qocalmanın bioloji və psixoloji göstəriciləri görünməyə başlayır. Telomerlərin qısalması həm qocalmaya, həm də hüceyrə ölümünə təkan verir. Telomerlərin qısalması isə hüceyrə bölünmələrinin sayından asılıdır. Araşdırmalar göstərir ki, orqanizm inkişaf edən dövrdə telomerlər qısalmır. Inkişaf zamanı hüceyrələrdə bölünmə prosesləri baş versə də, onlarda telomerlərin qısalmasının qarşısını alan xüsusi "telomeraza" fermenti mövcud olur. Bu ferment xromosom uclarının bərpa olunmasında iştirak edir. Gözlə görünməyən, kimyəvi elementlərin spesifik yığımından əmələ gəlmiş bu ferment müəyyən məqamda fəaliyyət göstərir. Insanın bədən hüceyrələrində telomeraza fermenti bütövlüklə fəaliyyətsizdir. Bu hüceyrələrdə aktiv telomeraza fermentinin olmaması insan orqanizminin qocalmasını labüd edir. Beləliklə, qocalığa doğru inkişaf mürəkkəb, müxtəlif aspektləri olan bir prosesdir. Berqmanın sözlərindəki həqiqət etiraf olunmalıdır: "Qocalıq bir dağa dırmaşmaq kimidir, dırmaşdıqca yorğunluğunuz

artır, nəfəsiniz daralır, amma baxış tərzimiz də dəyişir" (8, s.14). Yer üzündəki həyat insanlara daha məqbul səviyyədə məlumdur. Lakin buna baxmayaraq, Yerdən kənar həyat və sivilizasiya axtarışları davam edir. Belə axtarışların əhəmiyyətini kiçiltmədən qeyd etməliyik ki, bəşəriyyət Yer üzündə həyatın, o cümlədən insan həyatının mühafizəsinə xüsusilə diqqətli yanaşmalıdır. Bütövlükdə həyatı xaosla mütəşəkkilliyin, nizamın mübarizəsi kimi dəyərləndirmək olar. Bu mübarizədə mütəşkillik səviyyəsini həm yüksəldən, həm də zəiflədən proseslər cərəyan etsə də, mütəşəkkilliyin saxlanılması və yüksəldilməsi meylinin üstünlüyü daha aydın nəzərə çarpır; buna mürəkkəb sistemlərin özünümühafizə, özünübərpa xassələri də kömək edir.

Həyat həmişə insanlar tərəfindən nə isə pozitiv bir şey kimi, dəyər kimi qavranılmışdır. Görkəmli humanist filosof A.Şveytser qeyd edirdi ki, "özünüməhdudlaşdırma təkcə insan naminə və digər varlıqlar naminə deyil, ümumiyyətlə, dünyada təsadüf edilən və insana məlum olan istənilən həyat naminə həyata keçirilməlidir" (7, s.197). Zənnimizcə, A.Şveytserin bu çağırışını ifrat mənada başa düşmək doğru olmazdı. Çünki insan biosferin tərkib hissəsi olduğu üçün burada baş verən proseslərə biganə qala bilməz. Bu çağırışın insanın Yer üzündəki həyatın gedişinə ziyanlı təsirinin fəsadlarını, fəlakətlərini dərk etməsi, məsuləyyətsiz müdaxilələrdən çəkinmək zərurəti kimi başa düşülməsi daha doğru olardı. Bu çağırış insan müdrikliyinə (indiki dövrdə bu, xüsusilə aktualdır) müraciət kimi qəbul olunmalıdır. Insanın hazırda əldə etdiyi qüdrət onu Yer üzündə həyatı qoruyub saxlamağa və zənginləşdirməyə məcbur edir.

Zənnimizcə, qocalma prosesini təbii və sosial fenomen kimi belə geniş konteksdə götürməyə ehtiyac vardır. Bu problemin mahiyyətinə nüfuz etmək üçün təkcə əsaslı, obyektiv biliklərin olması kifayət deyildir. Həmin problemin müasir imkanlar səviyyəsində həlli üçün həm də müvafiq istək, iradə və məsuliyyətli fəaliyyət lazımdır. Gələcəyin bünövrəsi indiki həyatımızda insanların gərgin, çoxcəhətli və humanist fəaliyyəti ilə qurulmalıdır.

Insan təbiətin bir hissəsidir, eyni zamanda sosial-psixoloji varlıqdır. Bu, o deməkdir ki, insanın fəaliyyətində, eyni zamanda onun qocalması prosesində bioloji və sosial-psixoloji məqamlar vəhdətdə götürülməlidir. Deməli, insanlar Homo sapiensin xüsusi, spesifik növünü təşkil edirlər. Hər bir bioloji növ kimi Homo sapiensi növ əlamətlərinin müəyyən məcmusunu səciyyələndirir. Həmin əlamətlərdən hər biri növün ayrı-ayrı nümayəndələrində müəyyən hüdudlarda dəyişilə bilər ki, bu da özü-özlüyündə normal hal hesab edilir. Statistik araşdırmalar hər bir növ əlamətin ən çox ehtimal olunan, geniş yayılan xüsusiyyətlərini üzə çıxarmağa imkan verir. Növün bir çox bioloji parametrlərinin təzahürünə sosial proseslər də təsir göstərir. Müasir elmin məlumatlarına görə, orta "normal" insan ömrünün uzunluğu 80-90 ildir (əgər o, irsi və infeksion xəstəliklərdən, ətraf mühitin zərərli təsiri ilə şərtlənən xəstəliklərdən, bədbəxt hadisələrdən və s. uzaqdırsa). Tarixi prosesin gedişində real orta həyat müddəti qədim dövrdə 20-22 yaşdan XVIII əsrdə təxminən 30 yaşa qədər artmışdır; bu göstərici XX əsrin əvvəllərində Qərbi Avropada 56 yaş, həmin əsrin sonunda isə ən inkişaf etmiş ölkələrdə 75-77 yaş olmuşdur (4, s.238).

Qocalma fenomenini nəzərdən keçirərkən unutmaq olmaz ki, bioloji baxımdan hər bir fərd unikaldır, yeganədir, çünki onun valideynlərindən aldığı genlər yığımı təkrarsızdır, bənzərsizdir. Bu təkrarsızlıq insanın fərdi inkişafı prosesində bioloji və sosial amillərin qarşılıqlı təsiri nəticəsində daha da güclənir, çünki hər bir fərdin özünəməxsus həyat təcrübəsi vardır. Əslində hər bir insanın, o cümlədən yaşlı adamın unikallığı həm fəlsəfi dünyagörüşü baxımdan, həm də sosioloji baxımdan son dərəcə əhəmiyyətli faktdır. Bəşər nəslinin sonsuz rəngarəngliyinin, insanların yiyələnə biləcəkləri qabiliyyət və istedadların son dərəcə müxtəlifliyinin etirafı humanizm prinsiplərinin əsaslı tələblərindən biridir. Ona görə də yaşlılara sosial müdafiəsi, zəif olan bu insanlara münasibətdə humanizm prinsiplərinə önəm verilməsi çox vacibdir.

Yeri gəlmişkən qeyd edək ki, sovet hakimiyyəti dövründə, kütləvi repressiya tədbirlərinin tətbiq edildiyi illərdə insan hüquqlarının və ləyaqətinin pozulmasına haqq qazandırmaq üçün "əvəzolunmaz adamlar yoxdur" şuarını səylə təbliğ edir, ayrıca insana əzəmətli bürokratik

maşının "vintciyi" kimi münasibət bəsləyirdilər. Belə antihumanist mövqeyə və praktikaya heç vəchlə bəraət qazandırmaq olmaz.

Insanın eyni zamanda iki aləmə - cəmiyyət aləminə və üzvi təbiət aləminə qoşulması insanların mövcudluğu üçün aktual olan xeyli problem doğurur. Bu problemlər sırasına ilk növbədə aşağıdakılar aid edilə bilər:

- insanın hisslərinin, qabiliyyətlərinin, danışıq və fəaliyyətinin formalaşmasında hansı əsas (bioloji, yoxsa sosial) üstündür, müəyyənedicidir;
- insanda bioloji ilə sosialın qarşılıqlı əlaqəsi necə həyata keçirilir;
- hər bir insanın unikal, özünəməxsus, təkrarsız olmasını etiraf etsək də, praktik həyatda biz insanları müxtəlif əlamətlərə görə qruplaşdırmalı oluruq. Həmin əlamətlərdən bəziləri bioloji, bəziləri sosial amillərlə, bəziləri isə bioloji və sosialın qarşılıqlı təsiri ilə müəyyən edilir; bəs cəmiyyət həyatında insanlar və insan qrupları arasında bioloji cəhətdən şərtlənmiş fərqlər hansı məna kəsb edir.

Birinci məsələnin həllində rəylərin spektri nə qədər geniş olsa da, iki ifratçılıq özünü göstərir: bəziləri insanda təbii, bioloji əsasları, bəziləri isə sosial aspektləri mütləqləşdirirlər. Birincini biologiyalaşdırma (və ya naturalistləşdirmə), ikincini isə sosiologiyalaşdırma meyli adlandırmaq olar. Əlbəttə, adətən elmi ədəbiyyatda belə əks qütblərə aid mövqelər adətən tamamlanmış tərzdə az-az hallarda ifadə olunur, lakin şərhlərdən müəllifin hansı qütbə daha çox meyil etməsi aşkar surətdə məlum olur. Məsələn, irqçilik belə hesab edir ki, insanın təbiətində başlıca, mühüm cəhət onun hansı irqə mənsubiyyətidir. Sosial-darvinizm, "sosiobiologiya" da biologiyalaşdırma meylini ifadə edən cərəyanlardır. Bu baxımdan "sosiobiologiya"nın banilərindən biri, Amerika alimi E.O.Uilsonun mövqeyi səciyyəvidir. Onun fikrincə, bütün humanitar və sosial elmlər biologiyanın yalnız ixtisaslaşmış bölmələridir. Ikinci meyil isə insanı onu əhatə edən sosial münasibətlərin passiv məhsulu hesab edir, insanın biologiyasına, onun mövcudluğunun təbii ilkin şərtlərinə laqeydlik göstərir. Bu meylə aid konsepsiyalarda insan çox vaxt sonsuz plastikliyə malik olan çiy material kimi, müəyyən sosial ideala çatmaq naminə sonsuz manipulyasiya etmək mümkün olan passiv obyekt kimi təsəvvür olunur.

Zənnimizcə, hər iki ifratçılıqdan çəkinmək sosialla bioloji olanın gerçək, real qarşılıqlı münasibətlərinə diqqət yetirmək daha doğru yoldur. Bu baxımdan biz qocalmanı daha çox sosial problem kimi nəzərdən keçirməyin tərəfdarıyıq. Lakin bu, heç də ayrı-ayrı fərdlərin xüsusiyyətlərindən, onların spesifik şəxsiyyət keyfiyyətlərindən sərf-nəzər etməyə əsas vermir, əksinə, bunu nəzərdə tutur. Deməli, insanın təkcə sosial varlıq deyil, həm də fəal təbii varlıq olmasından yan keçmək doğru deyildir, məsələnin mahiyyətini təhrif etmək deməkdir. Ona görə də insanların, onların ayrı-ayrı qruplarının təbiətini, davranışını və fəaliyyət tərzini nəzərdən keçirərkən təkcə sosial və bioloji amilləri qeydə almaq kifayət deyildir, onların fərqli, spesifik rol yerinə yetirməsi diqqətdən kənarda qalmamalıdır. Sözdə deyil, əməli fəaliyyətdə sosial və bioloji amillərin sıx vəhdəti təmin edildikdə insanların tələbatı daha dolğun öyrənilir, nəzərə alınır, reallaşdırılır. Insanın bir bioloji növ və sosial varlıq kimi mühafizəsi və inkişafı son dərəcə ciddi problemdir.

Araşdırmalar göstərir ki, yaşlı adamların həyatında çox tez-tez elə məqamlar olur ki, onlar öz fərdi mövcudluqlarının sonu barəsində düşünməli olurlar. Ümumiyyətlə, insan öz təbiətinə görə bəlkə də yeganə varlıqdır ki, öz ömrünü dərk edir, onu ciddi düşüncələr predmetinə çevirə bilir. Təbiidir ki, bu, çox güclü emosional sarsıntı doğura bilər və insanın daxili aləminin ən dərin qatlarına toxuna bilər. Öz ölümünü dərk edən insanın ilk reaksiyası çox zaman ümidsizlik və məyusluq olur. Bu məsələ insanın sonrakı mənəvi inkişafına təsirsiz qalmır. Ola bilər ki, insanın özünün yaxınlaşan ölümünü bilməsi aşkar təzahürlərə malik olmasın, əksər həyati situasiyalarda şüurun lap dərin qatlarında gizlənsin. Çox zaman bu məsələ ətrafında düşüncələr həyatın məqsədi və mənası barəsində düşüncələrlə çulğalaşır. Belə düşüncələri adətən insan özünün əsas həyat "xətti" ilə müqayisə edir; həmin "xətt" isə insanın müxtəlif səviyyələrdə olan davranış və hərəkətlərini (bütövlükdə cəmiyyət, işlədiyi kollektiv, yaşadığı ailə, ünsiyyətdə olduğu yaxın

dostlar və s. səviyyəsində) özünə tabe edən fenomendir. Bu "xətt"dən kənaraçıxmalar çox zaman insanın həyat fəaliyyətində əzablı əxlaqi kolliziyalara gətirib çıxarır, onun itirilməsi isə fərdin mənəvi və fiziki cəhətdən sarsılmasına səbəb olur.

Yaşlı adamların bu dramatik, bəzən panik düşüncələrinə münasibət necə olmalıdır? Hər bir insan bunu müəyyən səviyyədə dərk edir ki, onun həyatı sonsuz deyildir, ölümlə, yoxluqla kəsilir. Din "ruhun ölməzliyi", "o dünya", "axirət dünyası" postulatlarını irəli sürür və əsaslandırmağa çalışır; "mütləq zəka", "mütləq əxlaqi dəyərlər" təsəvvürlərini önə çəkənlər də az deyildir. Orta əsr əlkimyaçılarının da möcüzə doğuran "həyat iksiri" axtarışları da həmin istiqamətdə atılmış addımlardır. Zənnimizcə, ən doğru yol bu olar ki, öz mövcudluğunun sonu olduğunu bilən və həyatın mənası barəsində suallara cavab axtaran insan həyata və ölümə öz münasibətini müstəqil surətdə işləyib hazırlasın. Dünya mədəniyyətinin tarixi insan həyatının mənasına dair axtarışların yoxluğun sirlərini aşkara çıxarmaq cəhdləri ilə əlaqəsinə xüsusi diqqət yetirərək, əbədi yaşamaq (əgər maddi-fiziki cəhətdən mümkün deyilsə, mənəvi cəhətdən), ölümə mənəvi baxımdan qalib gəlmək səyinə aid çoxlu nümunələr təqdim edir. Axtarışların düzgün istiqamətdə getməsi üçün bəşəriyyətin bu vaxta qədər toplanılmış təcrübəsinə istinad etmək, onu tənqidi surətdə təhlil edərək nəticə çıxarmaq çox vacibdir. Hətta illüzor formada olsa da, təskinlik axtarmaq yox, həqiqəti dərk etmək, onunla "yaşamaq" daha düzgün seçimdir. Bu çətin addımdır, güclü iradə və ruh tələb edir.

Yeri gəlmişkən qeyd edək ki, həm ayrı-ayrı insanlara, həm də bütövlükdə bəşər cəmiyyətinə münasibətdə həyatın normal sosial davamını artırmaq mütərəqqi prosesdir. Bunun üçün gələcəkdə patoloji sosial qocalmanı daha da məhdudlaşdırmağa və sıxışdırıb aradan çıxarmağa ehtiyac vardır. Insan həyatının müddətini müntəzəm surətdə artırmaq imkanları axtarılmalıdır. Bu, konkret insana və cəmiyyətə nə üçün lazımdır? Xalis humanizm baxımından uzunmüddətli insan həyatının dəyəri özü-özlüyündə aydındır. Sosial baxımdan inkişaf etmiş, biliklərlə, həyat təcrübəsi və müdrikliklə zənginləşmiş insan fərdiyyətinin daha uzun müddətə mühafizəsi ciddi əhəmiyətə malikdir. Lakin insan ömürlərinin bioloji davamı və bir-birini əvəz etməsi bəşəriyyətin mövcudluğunun şərtidir. Bu halda təkcə nə qədər yaşamaq yox, həm də necə yaşamaq və nəyin xatirinə yaşamaq məsələlərinə də xüsusi diqqət yetirilməlidir. Bu məsələlərə vahid kompleksin, sistemin müxtəlif tərəfləri kimi yanaşılmalıdır. Həyatı uzatmağın müxtəlif süni üsullarının, vasitələrinin tətbiqi (transplantasiya, bionika texnologiyası, kriobiologiya, gen mühəndisliyi və s.), bir sıra mütəxəssislərin fikrincə, fövqəluzunömürlülərin artmasına gətirib çıxaracaq, "kişilər və qadınlar yetkin yaşlarında həm zehni, həm də fiziki çevikliyini tamamilə saxlaya biləcəklər". Başqa sözlə, ömrün uzanması həyat keyfiyyətinin yaxşılaşması ilə müşayiət olunacaqdır.

Insanın mahiyyətli qüvvələrinin optimal reallaşdırılması vəzifəsi humanist ideallara və dəyərlərə istinad etməli insanın fərdi xüsusiyyətlərinə uyğun olan normal yaş parametrlərinə laqeydlik göstərməməlidir. Bu halda insan təbiətinin zənginliyinin inkişafı, şəxsiyyətin cəmiyyətin, bütövlükdə bəşəriyyətin kollektiv həyatına qoşulması dərəcəsi kimi məsələlərə xüsusi önəm verilməlidir.

Qocalma prosesi və onunla bağlı bir sıra ağrılı məqamların olması baxımından son illərdə elmi ədəbiyyatda geniş müzakirə olunan "ölmək hüququ"na da münasibət bildirməyi vacib sayırıq. Əvvəla, onu qeyd edək ki, "ölmək hüququ" ifadəsi paradoksal səslənir, çünki əsrlər ərzində bütün insan hüquqlarının müqəddəm şərti, ən başlıca, fundamental əsası həyat (yaşamaq) hüququ olmuşdur. Insan naminə elan olunmuş bütün hüquqlar əslində həmin əsas hüququn genişlənməsi və ya konkretləşməsidir. Ikincisi, diskussiyalarda iki bir-birinə əks mövqe özünü göstərir: birincisi, bu məsələlərin həllində insanın seçim azadlığı əsas götürülməlidir; ikincisi, həmin məsələlər ictimai və dövlət mənafelərinə tabeçilik əsasında həll edilməlidir (paterializm konsepsiyası bu qəbildəndir). Hər iki mövqeyə mənsub olan adamlar evtanaziya (yunanca euthanasia –ağrısız ölüm, sakit, "asan" ölüm mənasını verir) problemlərinə geniş yer ayırırlar. Bir çox alimlər bu məsələlərin həllində antipaterialist mövqedə dayanaraq qeyd edirlər ki, seçim

azadlığı hüququ çox mühüm əxlaqi prinsip kimi mümkün olduğu dərəcədə qanuniləşməlidir. Onların fikrincə, fərdin fəaliyyət azadlığına, o cümlədən onun yaxınlaşan ölümü surətləndirmək qərarına (əgər bu, başqalarına ziyan vurmursa) müdaxilə əxlaqi cəhətdən özünü doğrultmur, yəni evtanziya aktı fərdi azadlığın təzahürü kimi qanunla qadağan edilməməlidir. Paterializmə meylli alimlər evtanziyanı yolverilməz hesab edirlər. Onların fikrincə, insan həyatı toxunulmazdır; evtanziya zamanı həkimlərin, ailə üzvlərinin və ya digər maraqlı şəxslərin sui-istifadə halları mümkündür; evtanaziya "nə qədər ki həyat var, ümid də var" prinsipinə ziddir, həkimin yanlış diaqnoz imkanını nəzərə almır. Bundan əlavə, evtanziyanın tətbiq edildiyi xəstənin ölümündən sonra əvvəllər müalicəsi mümkünsüz hesab edilən xəstəliyi sağaltmağa qadir olan yeni dərman ortaya çıxa bilər.

Göründüyü kimi, insanların, xüsusən yaşlıların həyat və ölümü barəsində sosial-fəlsəfi düşüncələr biologiyanın, təbabətin, səhiyyənin inkişafı ilə əlaqədar bir sıra konkret problemlərin həlli üçün çox əhəmiyyətlidir. Başqa sözlə, meydana çıxan problemlərə ancaq konkret elmlər çərçivəsində cavab axtarmaq özünü doğrultmur. Cəmiyyət üzvlərinin, o cümlədən yaşlı adamların həmin məsələlərə yetərincə bələd olması çox vacibdir. Belə düşünməyə tam əsas var ki, zaman keçdikcə zəkanın və humanizmin ehtiva etdiyi potensial imkanlar daha dolğun şəkildə real-laşacaqdır.

Açar sözlər: herontologiya, yaşlı insanlar, qocalıq, yaş dövrləri, ömür dinamikası, «üçüncü ömür», «orta yaş», sosial-iqtisadi təminat, yaş təbəqələşməsi.

İstifadə olunmuş ədəbiyyat

1. Bayramov Ə. Etnik psixologiya. Bakı, Renessans, 2001, 374 s.
2. Cabbarov L.M. Psixologiyada tənhalıq problemi. Bakı, 1997, 129 s.
3. Eminov A. Şərq ailəsinin sirləri. Bakı, «Sabir» nəşriyyatı, 1992, 152 s.
4. İranda və dünyada yaşlılarla bağlı məsələlərə dair ///Konqresin materialları. Tehran, 2008 (fars dilində), 317 s.
5. Milşara Pəriyanal. Qocaların psixologiyası (H.Gəncenin tərcüməsi). Tehran, «Etteelat» qəzetinin nəşri, 1989, 320 s.
6. Quliyeva N. Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti. Bakı, 2005, 346 s.
7. Донцов В.И., Крутко В.Н., Подколзин А.А. Старение: механизмы и пути преодоления. М., Наука, 1997, 220 с.
8. Ильин И.А. Я вглядываюсь в жизнь. Книга раздумий. М., Эксмо, 2007, 528 с.
9. Международная стратегия действий по проблемам старения. ООН Генеральная Ассамблея. Официальные отчеты 59-ой сессии. Нью-Йорк, ООН, 2006, 185 с.
10. Рыбакова Н.А. Феномен старости. М., Псков, 2000, 169 с.

Атаоллах МАСНАВИ

О ФЕНОМЕНЕ СТАРОСТИ

Резюме

В статье анализируются мысли различных исследователей о последней стадии человеческой жизни – старости, а также раскрывается отношение автора к этим высказываниям. Старение характеризуется как сложный естественно-биологический процесс, анализируется комплекс причин, влияющих на него.

В частности, в работе указывается, что во многих обществах имеет место различное отношение к старости и старикам. Согласно социологическим исследованиям, известно, что лишь 2% население США считают старость самым лучшим периодом жизни, 8% пожилых людей присоединяются к ним, а 33% опрошенных считают старость самым худшими годами жизни.

По мнению геронтологов, на данный момент одной из важных задач общества является продление жизни с улучшением образа жизни и социального обеспечения.

Таким образом автор статьи приходит к выводу, что большинство геронтолов выступают против эвтаназии.

Ключевые слова: геронтология, пожилые люди, старость, этапы возраста, динамика жизни, «третья жизнь», средний возраст, социально-экономическое обеспечение, страты возраста.

Ataollah MASNAVI

ON SENILITY PHENOMENON

Summary

In the article senility is characterized as complicated natural and biological process the complex of factors influencing on this process is analysed. Author considers that in order to penetrate into the essence of the problems only possessing the obcective knowledge is not enough.

For the solution of this mentioned problem on a contemporary level of chances we also need certain wish, will and the actions of responsibility. The foundation of the future is built through the mobilization of existing means of present life and with the intensive activity of many-sided and active of life people as well. And it gives us such opportunity to think that as time passes the potential opportumtics, induding the elements of sensible of intellect and humanism will be realized completely.

Keywords: gerontology, senility, aged people, stages of age, life dynamics, “the third life”, middle age, social and economic maintenance, age differentiation.

UOT 173.7/178.8

Seyid Rəhmət MOZƏFFƏRİ
BDU, doktorant

NARKOMANLARIN QRUPDA MÜALİCƏ ÜSULLARINA DAİR*

Giriş. Müasir dövrdə narkomaniya İranın və bir çox cəmiyyətlərin əsas problemlərindən biridir. Narkotik maddələrdən ardıcıl istifadə və bu maddələrdən istifadə üsullarının dəyişilməsi ailələrin və əlaqədar qurumların ciddi narahatlığına səbəb olub [1, s. 90].

Narkotiki tərk edib müalicə aldıqdan sonra narkomanların təkrar narkotik məsrəf etməsi (qayıtma) problemi ilə əlaqədar müxtəlif psixoloji tədqiqatlar aparılmışdır. Bu tədqiqatlarda əsasən stress amilinə daha çox diqqət yönəlmişdir. "Müasir dövrdə stress insan həyatının ayrılmaz bir parçasına çevrilib" [2, s. 22]. Qeyd edilən tədqiqatlardan belə bir nəticə əldə edilmişdir ki, davranış və sağlamlığa mənfi təsir edən stressin özü deyil, fərdin stressə yanaşması və müqavimət üsuludur. Başqa sözlə, müqavimət stress ilə onun nəticəsi olan həyəcan və depressiya arasında tənzimləyici və vacib bir dəyişəndir. Buna görə də fərdin müqavimət cəhdləri effektiv, uyğun və kifayət dərəcədə olarsa, stressdən irəli gələn təzyiq və mənfi təsirlər azalmış olar.

Tədqiqatın əsas fərziyyələri aşağıdakılardan ibrətdir:

- Koqnitiv-biheviorial üsulla qrup çərçivəsində iş və müalicə problem yönümlü stressə müqavimət bacarıqlarını artırır.
- Koqnitiv-biheviorial üsulla qrup çərçivəsində iş və müalicə həyəcan yönümlü stressə müqavimət bacarıqlarını artırır.

Karorun müqavimət üsulları və növləri anketi (sorğusu).

Karor və həmkarlarının tərtib etdiyi anket (1989, Velras, Alens və Turgersenə istinadən, 2003) Lazarusun stress və biheviorial özününizamlama konsepsiyasına əsasən tərtib edilmişdir. Bu anket müxtəlif cəhətləri əhatə edərək respondentin stressə necə reaksiya göstərdiyini müəyyən etməyə kömək edir [3, s. 25].

Anket 60 sorğudan ibarətdir və müqavimətin üç formasını (problem yönümlü müqavimət, emosiya yönümlü müqavimət və qeyri-effektiv müqavimət) ölçmək məqsədi ilə bu anketdən istifadə edilir. Cavablar 0-3 balla qiymətləndirilir. İranda Mollazadə, Mənsur, Ecei və Kiyamənеş (1381) həmin sorğunu 79 respondent arasında keçirmişlər və onun etibarlılığını müəyyən etmək üçün 37 gün sonra sorğu təkrar keçirilmişdir. Etibarlılıq əmsalı 0.79 olmuşdur. Həmçinin bu tədqiqatda ümumsorğunun Alfa əmsalı 0.80 olmuş, müqavimət növlərinə görə isə Alfa əmsalı problem yönümlü müqavimət üçün 0.75, emosiya yönümlü müqavimət üçün 0.83 və qeyri-effektiv müqavimət üçün 0.71 olmuşdur [4, s. 45].

Tədqiqatı həyata keçirmək məqsədi ilə morfi (bir növ narkotik maddədir) istifadə edən və morfi testlərinin cavabı mənfi olan narkomanlardan 15 nəfəri seçilmişdir. Bu narkomanlarda detoksikasiya əməliyyatı uğurla başa çatmışdır. Sonra eyni meyarlar əsasında daha 15 narkoman müşahidə qrupu olaraq seçilmişdir. Sınaq qrupu 8 seans (hər seans 90 dəqiqə olmuşdur) koqnitiv-biheviorial üsulla qrup çərçivəsində müalicə edilmişdir.

İlk seansda hər iki qrup Karorun müqavimət strategiyaları və metodları anketini cavablandırmışdılar. Qrupla 8 seans işdən sonra, həmçinin sonuncu seansdan iki ay sonra eyni anketi eyni respondentlər təkrar cavablandırmışdılar. Həmin anketlər vasitəsi ilə əldə edilən məlumatın təhlili məqsədi ilə statistik-təsviri metoddan, χ^2 metodundan, müqayisəli təhlil metodundan və fərq (varians) təhlili metodundan istifadə edilmişdir.

---

* Məqalə fəlsəfə üzrə f.d. Q.Abbasova və fəlsəfə üzrə f.d. F.Vahidov tərəfindən çapa məsləhət bilinib.

Əldə edilən məlumatın təhlili və nəticələri.

Əldə edilən nəticələr göstərir ki, koqnitiv-bihevioriial üsulla qrup çərçivəsində iş narkomanların müqavimət bacarıqlarını artırmış və təkrar istifadənin qarşısını almışdır.

Hər iki qrupda təkrar istifadə ehtimalının səviyyəsini müəyyən etmək üçün Chi-Square (χ^2) metodundan istifadə edilmişdir. Əldə edilən nəticələrə görə seans sonrakı mərhələdə sınaq qrupunda təkrar istifadə ehtimalının səviyyəsi olduqca aşağı olmuşdur (χ^2=6.40, p <0.01). Cədvəl 1-dən göründüyü kimi, problem yönümlü müqavimət və emosiya yönümlü müqavimət bacarığı son seans və seansdan sonrakı mərhələlərdə ilk seans mərhələsinə nisbətən daha yüksək olmuş və qeyri-effektiv müqavimət səyləri azalmışdır. Lakin müşahidə qrupunda heç bir dəyişiklik olmamışdır.

Cədvəl 1: hər iki qrupun 3 mərhələdə (ilk seans, son seans, seanslardan 2 ay sonra) stressə qarşı üç növ müqavimət bacarığı səviyyəsi, orta qiymət və deviasiya (deviasiya mötərizə daxilində verilmişdir)

Müqavimətin növü	Problem yönümlü		Emosiya yönümlü		Qeyri-effektiv	
	Sınaq qrupu	Müşahidə qrupu	Sınaq qrupu	Müşahidə qrupu	Sınaq qrupu	Müşahidə qrupu
İlk seans	44.70	46.54	47.10	46.40	52.95	53.56
	(7.24)	(7.76)	(5.20)	(4.69)	(6.50)	(7.11)
Son seans	58.77	47.26	51.55	44.45	34.34	46.31
	(8.26)	(5.99)	(10.25)	(6.44)	(3.27)	(5.91)
Seanslar-dan 2 ay sonra	63.65	48.76	58.63	48.20	35.55	48.670
	(6.88)	(6.82)	(10.46)	(4.93)	(3.25)	(6.03)

Cədvəl 2: Ümumimüqavimət üsulları üçün iki faktorlu təkrar ölçmə

Təsirlər	Dəyişiklik mənbələri	Df (Sərbəstlik dərəcəsi)	F	Mənalılıq (significant) səviyyəsi
Subyektlər daxili	Problem yönümlü müqavimət	2	17.69	0.000
Subyektlər arası	Problem yönümlü müqavimət × qrup	2	7.09	0.000
	Səhv (error)	36		
	Qrup	1	11.157	0.002
	Səhv (error)	18		
Subyektlər daxili	Qeyri-effektiv müqavimət	2	31.322	0.000
	Qeyri-effektiv müqavimət × qrup	2	10.786	0.000
	Səhv (error)	36		
Subyektlər arası	Qrup	1	29.071	0.000
	Səhv (error)	18		
Subyektlər daxili	Həyəcan yönümlü müqavimət	2	7.122	0.002
	Həyəcan yönümlü müqavimət × qrup	2	11.536	0.000
	Səhv (error)	36		
Subyektlər arası	Qrup	1	8.265	0.000
	Səhv (error)	18		

Tədqiqatın fərziyyəsini (stressə müqavimət bacarıqlarının iki qrupda fərqli olması fərziyyəsi) yoxlamaq məqsədi ilə təkrar olaraq fərqlərin (variansın) təhlili metodundan 2×3 modeli əsasında istifadə edilmişdir. Bu təhlildə iki iştirakçı qrup (sınaq və müşahidə qrupu) subyektlər arası (yoxlanılanlar arası) faktor kimi və problem yönümlü müqavimət subyektlər

daxili (yoxlanılanlar daxili) faktor kimi qəbul edilmişdir. Fərqlər (varians) eyniliyini öyrənmək məqsədi ilə "dairəvi moxeli testi"ndən istifadə edilmişdir və nəticə olaraq fərqlərin eyniliyi müəyyən edilmişdir.

Cədvəl 2-dən göründüyü kimi, iki qrup arasında problem yönümlü müqavimət formasından istifadə səviyyəsi və həmin müqavimət növünün interaktiv təsir səviyyəsi fərqli olmuşdur.

Cədvəl 3-də göstərilir ki, hətta Bonfroni uyğunlaşdırması metodundan istifadə edərək Alfa Kronbax miqdarının balanslaşdırılmasından sonra belə bütün yoxlama vəziyyətləri və mərhələləri arasında (yəni ilk seans ilə son seans mərhələsi və ilk seans ilə son seansdan 2 ay sonrakı mərhələ arasında) ciddi fərq mövcud olmuşdur. Bütün bunlar göstərir ki, qrup çərçivəsində iş və yardım narkomanlarda problem yönümlü müqavimət gücünün artmasına səbəb ola bilmişdir. Başqa sözlə, koqnitiv-biheviorial üsulla qrup çərçivəsində iş həmin xidmətdən istifadə edən qrupun problem yönümlü müqavimət bacarığını gücləndirmişdir.

Tədqiqin digər hipotezasını (stress qarşısında qeyri-effektiv müqavimət səylərinin azalması baxımından qruplararası fərq) yoxlamaq üçün 2 × 3 modelli fərq (varians) təhlilindən istifadə edilmişdir. Bu təhlildə iki iştirakçı qrup (sınaq və müşahidə qrupu) subyektlər arası (yoxlanılanlar arası) faktor kimi və qeyri-effektiv müqavimət subyektlər daxili (yoxlanılanlar daxili) faktor kimi qəbul edilmişdir. Fərqlər (varians) eyniliyini isə "dairəvi moxeli testi" nəticəsində öz təsdiqini tapmışdır. Cədvəl 2-də göründüyü kimi, F miqdarı subyektlər daxili təsirlər (qeyri-effektiv müqavimətə cəhd səviyyəsi × qrup) və qruplararası amillər üçün fərqli olmuşdur.

Şefenin nəzarət testindən istifadə edərək, orta qiymət cütlüklərinin müqayisəsi göstərmişdir ki, hətta Bonfroni uyğunlaşdırması metodundan istifadə yolu ilə Alfa Kronbax miqdarının balanslaşdırılmasından sonra belə bütün yoxlama vəziyyətləri və mərhələləri arasında (yəni ilk seans ilə son seans mərhələsi və ilk seans ilə son seansdan 2 ay sonrakı mərhələ arasında) ciddi fərq mövcud olmuşdur (cədvəl 3).

Başqa sözlə, müalicə narkomanların müqavimət bacarıqlarının artmasına müsbət təsir etmişdir. Yəni koqnitiv-biheviorial üsulla qrup çərçivəsində iş həmin xidmətdən istifadə edən qrupda narkomanların qeyri-effektiv müqavimət səylərinin azalmasına səbəb olmuşdur.

Cədvəl 3. Müalicə müddəti müqavimət üsulları dəyişənlərinin cüt-cüt müqayisəsi

Cütlüklər	Müqavimət üsulu	Orta qiymət fərqi	Standartlardan yayınma	Mənalılıq (significant) səviyyəsi
İlk seans × son seans	Problem yönümlü	-6.145	2.12	0.001
	Emosiya yönümlü	-5.345	2.232	0.005
	Qeyri-effektiv	13.567	1.473	0.001
İlk seans × seanslardan sonra	Problem yönümlü	-8.342	2.67	0.001
	Emosiya yönümlü	-4.567	1.628	0.005
	Qeyri-effektiv	11.550	1.972	0.001
Son seans × seanslardan sonra	Problem yönümlü	-2.212	0.776	0.01
	Emosiya yönümlü	1.430	1.229	N.S *
	Qeyri-effektiv	-2.550	1.081	N.S *

* non-signification (əhəmiyyətsiz, mənasız)

Tədqiqatın əsas suallarından olan "iki qrup arasında stressə qarşı emosiya yönümlü müqavimət bacarığı səviyyəsi fərqlidirmi, yoxsa yox?" sorğusuna cavab tapmaq məqsədi ilə təkrar olaraq fərqlərin (variansın) təhlili metodundan 2×3 modeli əsasında istifadə edilmişdir. Bu təhlildə iki iştirakçı qrup (sınaq və müşahidə qrupu) subyektlər arası (yoxlanılanlar arası) faktor kimi və emosiya yönümlü müqavimət subyektlər daxili (yoxlanılanlar daxili) faktor kimi qəbul edilmişdir. Subyektlər daxili təsirlər üçün, yəni emosiya yönümlü müqavimət üsulundan istifadə səviyyəsi

üçün F-in miqdarı $p < 0.005$ olmuş və interaktiv təsir üçün, yəni emosiya yönümlü müqavimət üsulundan istifadə səviyyəsi × qrup üçün F-in miqdarı $p < 0.005$ olmuşdur (mənalı olmuşdur). Qruplararası faktor da mənalı ($p < 0.005$) olmuşdur.

Nəticə.

Təqdim edilən tədqiqat narkotikdən istifadəni tərk edən narkomanların təkrar istifadə meylinə müqavimət bacarığını artırmaqda koqnitiv-bihevioriial üsulla qrup çərçivəsində işin təsirini öyrənmək məqsədi ilə həyata keçirilmişdir. Əldə edilən nəticələr göstərir ki, koqnitiv-bihevioriial üsulla qrup çərçivəsində iş narkotikdən istifadəni tərk edən narkomanların təkrar istifadə meylinə müqavimət bacarığını artırmışdır. Başqa sözlə, təkrar istifadə meyli koqnitiv-bihevioriial üsulla qrupla iş çərçivəsində seanslarda iştirak edən qrupda daha aşağı olmuşdur. Bu isə qrupla iş çərçivəsində edilən yardım və müalicə xidmətlərinin effektiv olduğunu göstərir.

Sosial işçilər narkotikdən istifadəni tərk edən narkomanların təkrar istifadəyə meyil etməsinin əsas səbəbi olaraq stress, uyğun müqavimət üsulları bacarığının zəifliyi, cəsarətsizlik, psixoloji sağlamlığın normal olmaması, ailə mühitində münaqişə və s. bu kimi amillərə diqqəti yönəldirlər.

Narkotikdən istifadəni tərk etdikdən sonra təkrar istifadəyə meyilin güclənməsində stress amilinin təsiri faktoru müxtəlif tədqiqatlar zamanı da öz təsdiqini tapmışdır. Əlbəttə, bu tədqiqatların nəticələrinin təhlili zamanı belə bir məsələ də diqqət mərkəzində olmuşdur ki, stress özüözlüyündə təkrar narkotikdən istifadəyə səbəb olmur. Əslində stressə qarşı müqavimət bacarığının zəifliyi təkrar istifadə meylinin güclənməsinə təsir edən əsas amildir. Deməli, müqavimət bacarığı balanslaşdırıcı dəyişən kimi stressi aradan qaldıran amillərlə narkomanlıq, yaxud təkrar istifadə amilləri arasında fəaliyyət göstərir. Buna görə də müqavimət bacarığının güclənməsi təkrar istifadə meylinin azalmasına səbəb ola bilər.

Həmçinin qeyd edilən müalicə növünün tərkibinə aşağıdakılar daxildir: funksional təhlil, məharət əldə etmək, istifadə meylinə qarşı müqavimət bacarığı, həyəcanlandırıcı və səmərəsiz fikirlərə müqavimət və təkrar istifadənin qarşısını almaq. Funksional təhlildə fərd təkrar istifadə meylini yaradan amili müəyyənləşdirir və həmin amildən uzaqlaşaraq onun təsir gücünü azaldır. Məharət əldə etmək prosesində isə narkoman fərdə kömək edilir ki, keçmiş adətləri və vərdişləri (narkotikdən istifadəyə olan vərdiş) tərk edərək, sağlam məharətlər və vərdişlər əldə etmiş olsun.

Təkrar istifadənin qarşısını almaq üçün sosial işçi müraciət edən fərdə təhlükəli və istifadə ehtimalı yüksək olan məqamları və amilləri öyrənmək, həmin amillər qarşısında müqavimət göstərmək və təkrar istifadəyə qarşı müqavimət bacarığını artırmaq haqqında məsləhətlər verir və onu təlimatlandırır.

Açar sözlər: koqnitiv-bihevioral müalicə, müqavimət bacarıqları, təkrar istifadə (relapse), narkomaniya, qrupla iş.

İstifadə olunmuş ədəbiyyat

1. Tabe Bordbar Fəriba. Yeniyetməlikdə qarşılaşma və sosial himayə üsulları arasındakı əlaqələrin öyrənilməsi və onunla təhsil nailiyyətləri arasındakı əlaqənin təhlili. Dissertasiya işi. Şiraz Universiteti, pedaqoji psixologiya fakültəsi, 2002. (fars dilində)

2. Karol Ketlin. M., Narkomanların müalicəsində koqnitiv-bihevioriial metoddan praktik istifadə, Tərcümə: Abbas Bəxşipur Rudsəri və Şəhram Məhəmmədxani. Tehran, İspənd honər, 2002. (fars dilində)

3. Mollazadə Cavad, Mənsur Mahmud, Ecei Cavad və Kiyamənеş Əlireza, Şəhid uşaqlarında ailədaxili uyğunlaşma və qarşılaşma üsulları. //Psixologiya curnalı, № 3 (VI il), Tehran, 2002. (fars dilində)

4. Narkotikdən istifadə edənlərin müalicəsi üçün empirik bələdçi kitab. Səhiyyə nazirliyi. Tehran, Porşukuh, 2002. (fars dilində)

Сеид Рахмат МОЗАФФАРИ

О МЕТОДАХ ГРУППОВОГО ЛЕЧЕНИЯ НАРКОМАНОВ

Резюме

В статье отражены результаты опроса, проведенного в иранском городе Исфахан среди разделенных на две группы 30 наркоманов, успешно прошедших курс детоксикации. Показано, что для предотвращения повторного приема наркотиков следует использовать когнитивно-бихевиоральный метод.

Согласно результатам исследования, основной причиной возврата к наркотикам является стресс.

В статье выдвинуто ряд предложений по укреплению воли для противостояния повторному использованию наркотических средств.

Ключевые слова: наркоман, наркотик, лечение, опрос, стресс, способность противостояния, повторное применение, когнитивно-бихевиоральный метод.

Seyid Rahmat MOZAFFARI

ABOUT THE GROUP TREATMENT WAYS THE DRUG ADDICTS

Summary

In the article there are reflected the results of guestioning held in Iranian city Isfahan among 30 persons – drug addicts divided into 2 groups, successfully undergone to detoxication operation. It is shown that it is necessary to use the cognitive-bihevorial method for preventing the return to narcotic drugs. According to the results of reseach the main reason of return to narcotic is the stress.

In the article there have been suggested some proposals for improving resistance ability against repeated use.

Keywords: drug addict, narcotic, treatment, guestioning, stress, resistance ability, repeated use, cognitive-bihevorial treatment.

UOT 316.33

Fəriba İBRAHİMİ
BDU, aspirant

QADIN RƏHBƏRLƏR: REALLIQLAR, PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR*

Müdiriyyəti bir kompyuterə bənzətsək, bu zaman o hissələrdən, proqramlardan, onu işlətmək üçün lazım olan insan və bu insanın idarəetmə bacarığından asılıdır. Müdiriyyət prosesi tanıtım, proqramlaşdırma, proqram tərtib etmək, icra planı, nəzarət və rəhbərlik mərhələlərinə şamil edilir. Üzərində hakim kəsilmiş nəzəriyyəyə görə, bu proses və onun mərhələləri ona müxtəlif elm, fənn və fərqli sürət bağışlayır [1, s.259].

Müdiriyyət, nəzəriyyələrdə qeyri-cinsi bir anlayışdır. Elə buna görə də müdriyyətin əsaslarına görə cinsiyyət anlayışı müdiriyyət nəzəriyyələrində təsirli rola malik ola bilməz. Ancaq nəzəriyyə həqiqətlərindən kənar bir həqiqət də mövcuddur. Həmin həqiqət isə tarixi, mədəni və sosial inanclarda özünə kök atmışdır ki, müdiriyyət anlayışı kişi anlayışına tətbiq edilir. Buna görə də müdir sözünü eşitməklə insanın zehnində bir kişi obrazı canlanır.

Bu əlaqə (müdir- kişi) o qədər ümumi mədəniyyətə hakim kəsilməklə belə bir təsəvvür yaradır ki, yalnız inqilab yaratmaq yolu ilə bu real paradiqmanı aradan qaldırmaq olar. Bu paradiqma (nəzəri çərçivə və fərziyələr) real aləmdə tarix boyu dərinləşməyə başlamışdır. Elə bu səbəbə görə tarix boyu biz nadir hallarda prezident, nazir və ya hakim kürsüsündə bir qadının işləməsinin şahidi oluruq.

Qadınları "XXI əsrin idarəçiləri" adlandırmışlar. Çünki XX əsrə qədər qadınların işi özlərinin təcrübə qazanmaq baxımından kişilərdən geri qalmadıqlarını isbat etməkdən ibarət idi. İdarəetmədə cinsi baxımdan fərqin olması qadınların cinsi və təbii reallığı deyil, bəlkə tarixdə qeyd edilmiş nəzəriyyələrin məhsuludur. Yeni və son araşdırmalardan da belə görünür ki, qadınların rəhbərlik və idarəetmə əmsallarında cinsiyyət ilə müdiriyyət arasında fərqli bir əlaqə mövcud deyil. Müdiriyyət təhsil prosesi və bacarıqların öyrədilməsində və ondan önəmli olanı isə təcrübə sahəsində əldə edilən məharət və bacarıqlardır.

Qadınların bu sahədə olan təcrübəsinin azlığı onların öyrənmək qüdrətinin olmamasından deyil, bəlkə fürsətlərin olmamasından qaynaqlanır. Qadınları xüsusi bir sahəyə və ailə mühitinə məhdudlaşdırmaqla onlardan bu fürsəti almışlar. Müasir qadınların rastlaşdıqları ən böyük problemlərdən biri də onların ağır və yorucu iş saatlarından sonra ailədə də onların öhdəsinə qoyulan işləri görməkdən ibarətdir. Bu özəl durumun heç bir müəyyən zaman və məkanı yoxdur. Ədalətin və fürsətlərin bərabər olmaması dünyanın bütün yerlərində və bütün zamanlarda mövcud olmuşdur.

Keçən on illiklərdə Qərb və Şimalın sənaye dünyasında qadınların mövqeyi müasir inkişaf etməmiş terminoloji dil ilə desək "cənub" ölkələrindəki kimi mövcud olmuşdur. Üçüncü dünya ölkələri ilə qərb dünyası ölkələri arasında yaranan uçurumu daha yaxşı əks etdirə bilən həqiqət isə bundan ibarətdir ki, qərbdə qadının idarəetmə məsələləri daha çox inkişaf etmiş və bu gün müxtəlif mədəni, tənqidi və s. nəzəriyyələrin hər biri bu sosial əngəli həll etmək istiqamətində müxtəlif tövsiyələr vermişlər.

İnkişaf nəzəriyyələri də cinsi bərabərsizliklərin aradan qalxmasına yardım etməmişdir. Bu vəziyyət isə inkişaf etmiş və üçüncü dünya ölkələrində daha aşkar formada müşahidə edilmişdir.

---

* Məqalə sos. üzrə f.d. S.Məmmədova və fəlsəfə üzrə. f.d. Q.Abbasova tərəfindən çapa məsləhət bilinib.

İnkişaf etməmiş dövlətlərin qadınları bütün sahələrdə kişilərdən geri qalır, daha az qüdrət və ixtiyara malikdirlər. Onlar çox işləsələrdə az gəlirə malikdirlər. Məsuliyyətləri isə daha çoxdur. Bir çox cəmiyyətlərdə evdarlıq, övladların saxlanması və ailə ehtiyaclarına yetişmək qadının öhdəsindədir. Bir çox ölkələrdə tarla işləri də qadınların öhdəsinə buraxılmışdır. Birləşmiş Millətlər Təşkilatının statistikasına görə (Bervan, 1985) qadınlar dünya əhalisinin yarısını təşkil edirlər. Ancaq dünya işlərinin üçdə iki hissəsini qadınlar yerinə yetirirlər. Lakin bununla yanaşı dünyada əldə edilən qazancın 10 %-i qadınların payına düşür və onların var-dövləti cəmi 1% təşkil edir. Proqnozlara görə dünya üzrə iqtisadi artım tempinə qadınların müftə iş görməsi üçdə bir qədər artmaqdadır (Seager Vols, 1986).

İnkişaf adətən yaxşı bir şey kimi təqdim edilir. Araşdırmaçıların bu sahədə diqqətə aldıqları məsələ sosial-ictimai inkişafın qadınların həyatlarına yaxşı təsir göstərməsidir. Bu sahədə üç nəzəriyyəni bir-birindən fərqləndirirlər:

1. İdğam nəzəriyyəsi:

Bu nəzəriyyəyə görə qadınların iqtisadi və ümumi həyatda fəallığının artması onların cinsi bərabərlik əldə etməsi və azad olması ilə nəticələnir.

2. Kənara qalmaq nəzəriyyəsi:

Bu nəzəriyyəyə görə kapitalizm inkişaf etdikcə qadınlar gündən-günə istehsal prosesindən kənarda qalır və ev mühiti ilə məhdudlaşmalı olurlar. Bu prosesdə qadınlar maddi imkanları nəzarətə götürməyi əldən verir və kişilərdən asılı vəziyyətə düşürlər.

3. Faydalanma nəzəriyyəsi:

Bu nəzəriyyəyə görə modernləşmək qadınların ucuz işçi qüvvəsinə çevrilməsinə səbəb olur. Qadınlar istehsal sahəsində əsas rolu ifa etsələrdə ancaq qazancları az olur. Bunun səbəbi isə onlara ikinci dərəcəli işçi qüvvəsi kimi baxıldığına görədir [2, s.11].

Bu nəzəriyyələr içərisində belə görünür ki, idğam nəzəriyyəsi çox da möhkəm əsaslara malik deyil. Real müşahidələr göstərir ki, cəmiyyətin inkişa etməsinə baxmayaraq qadınlar kişilər kimi azadlıq və bərabərlik əldə etməyiblər. O zamanın əksinə olaraq istehsal rollarından məhrum olmuş və evə məxsus sahə ilə məhdudlaşıblar. Xüsusi ilə də bu vəziyyət kənd yerlərində daha çox baş verir. Dünyada baş verən sənaye inqilabı iş ilə ev mühitini bir- birindən ayırdı. Kişilər gəlir əldə etmək, maaşını təmin etmək, miqrasiya, uzun iş günü və əlavə işlər görməyə məcburdurlar. Bu vəziyyət isə ərli qadınların tələbat yarandığı halda natamam vaxt və qeyri daimi iş yerlərinə müraciət etmələrinə səbəb olmuşdur. Öz işlərinə davam etmək üçün isə çox səthi işlərlə və adətən də qadına aid işlər olan dərzilik, dayəlik, xidmətçi, müəllimlik və operatorluqla məşğul olmağa gətirib çıxarmışdır. Buna görə də elektrik, mühəndislik, ticarət, ali idarəetmə və s. kişilərə məxsus işlərə vaxt ayırmaqlarına imkan olmamışdır.

Digər tərəfdən qadınların evdə gördükləri iş də iş olaraq nəzərə alınmır. Kişilərin nəzərinə görə ev işləri ilə məşğul olmaq iş hesab edilmir. Onlara görə qadınların evdə uşaq saxlaması və evdarlıq kimi işlərin istehsal dəyəri yoxdur və istehlak dəyəri isə daha azdır. Bu o halda baş verir ki, 1971 ci ildə "Okuli" tərəfindən aparılan hesabatda orta həddə qadınlar həftədə 77 saat evdarlıq işləri ilə məşğul idilər. Ən aşağı səviyyədə bu göstərici 48 saat, ən yuxarı həddə isə 105 saat təşkil edir. Ona görə də qadınlar həmişə tələş içərisində olurlar ki, evdən kənar işləri və ya evə aid olan işləri görəcəklər.

Bu vəziyyət isə qadınların kişilər ilə bərabər səviyyədə ali idarəetmə formalarına yiyələnməsinin qarşısını almasına və onların daha aşağı idarəetmə formalarına istiqamətlənməsinə gətirib çıxarır. Əlbətdə dünya səviyyəli aparılan araşdırmaların bəzisinə görə qadınlar ailə həyatı qurduqdan sonar daha çox öz sahələrinə vaxt ayırmağa meyilli olurlar. Onların bir çoxu ev işlərini və evdarlığı sevə-sevə yerinə yetirir və bundan razıdırlar. Əlbətdə yeni yaranmış fürsət və texnologiya sayəsində bir çox qadınlar ictimai həyata qədəm qoymağa, şəxsi və fərdi keyfiyyətlərini çiçəkləndirməyə nail olmuşlar. Başqa sözlə fərd özünü ictimai həyatda yenidən kəşf etmiş olur. Ona görə də inkişaf etməmiş ölkələrdə modernizm prosesi və texnoloji yeniliklər qadınların

universitet təhsili almağa meyl etməsinə, qadınların özlərini bir şəxsiyyət kimi isbat etməsinə gətirib çıxarır.

Dövlətlər və qanunlar, qadınlar üçün iş təhlükəsizliyini təmin etmək, peşə və idarəetmə sahəsində ədalətsizliyi aradan qaldırmaq vasitəsi ilə onlar üçün sosial-iqtisadi imtiyaz və təhsilə şərait yaratmalıdır. Bir sözlə qadınların hansı sahənin onlara münasib olduğu və hansı sahədə özlərini rahat hiss etmələrinə uyğun seçim imkanları olmalıdır [1, s.259].

Nəticə: Müdiriyyəti qarşıya qoyulan məqsədlərə nail olmaq üçün maksimum çalışma şərti ilə qrup fəaliyyətinin idarə edilməsi, ona rəhbərlik etmək və bu fəaliyyəti yerbəyer etmək haqqında olan elm və peşə adlandırmaq olar [8, s.132].

Həqiqətdə müdiriyyəti, müştərək hədəfə çatmaq yolunda fərdi və qrup fəaliyyətlərini uyğunlaşdıran bir proses kimi qeyd etmək olar. Buna görədə müdir, qrup rəhbəri və yol göstərən olduğu üçün bu vəzifəni daha yaxşı icra etməsi üçün insani keyfiyyətləri unutmamaq şərti ilə əlinin altında işləyən işçiləri seçim qüdrətinə sahib olmalıdır. Müdirlərin öz mövqelərini qoruması üçün onlara daima lazım olan davranış keyfiyyətləri aşağıdakılardan ibarətdir:

Sədaqət və vəfadarlıq, münasibətlərdə səmimiyyət, digərlərini qarşılamaq və onlara xoş münasibət göstərmək, mehribanlıq və dərdlərini bölüşmək, münasibətləri möhkəmlətmək və qorumaq üçün ümumi iclaslarda iştirak.

Öz əməkdaşları tərəfindən "nüfuzlu rəhbər" kimi qiymətləndirilən bacarıqlı müdirlərin hamısı müştərək bir xüsusiyyətə malikdirlər: "Onlar digərlərini özlərindən qüdrətli hiss etməsinə şərait yaradırlar" [2, s.10].

Qadınların idarəetmədə iştirakı mövzusunda da yuxarıda qeyd etdiyimiz məsələlər öz əksini tapır. Qadınlar müdiriyyət rolunda çıxış edərək öz bacarıqlarını ortaya qoymaq və bacarıqlarını isbat etməklə köhnə və ənənəvi inancları dəyişə bilərlər. Bu halda cəmiyyət həddən artıq qadın bacarığından faydalanmış olacaqdır.

Qeyd etmək yerinə düşər ki, qadınların işçi qüvvəsinə çevrilmə prosesi artmaqdadır, cəmiyyət və dövlət əvvəlki dövrlərlə müqayisədə müxtəlif sahələrə qadınların daxil olması məsələsini asanlaşdırmışdır. Ancaq müxtəlif səbəblər üzündən getdikcə müdir qadınlara daha az rast gəlmək olur. Qadınlar əleyhinə istiqamət götürən ənənəvi inanclar, qadının müdir olmaq üçün lazım olan göstəricilərə malik olmadığını təbliğ etməkdədirlər. Onların gəldiyi qənaətə görə müdiriyyət sahəsində qadın xüsusiyyətləri ilə müqayisədə kişi xüsusiyyətləri daha üstünlük təşkil edir və kişinin məşğuliyyəti qadın məşğuliyyətindən daha önəmlidir. Ailə məsələlərində qadınların ənənəvi rolu onların məşğuliyyəti ilə uzlaşmır və onları iş və ailə mühiti şəraitində psixoloji və mənəvi təzyiqlərə məruz qoyur.

Müasir dövrdə təşkilatların müvəffəqiyyəti qadın və kişi olmasından asılı olmayaraq mövcud ixtisaslardan istənilən formada istifadə sayəsində mövcud olur. Deməli qadınların yüksəlməsi istiqamətində mövcud olan maneələr aradan qaldırılmalıdır. Başqa sözlə, təşkilatlar "şüşə örtük" üzərindən yeriməyi təcrübədən keçirmək istəyirlər [8, s.260].

Müxtəlif bacarıqları mənimsəmək, məsuliyyət qəbul etməkdən qorxmamaq, özünə inam, hədəflərə çatmaqda dirəniş göstərmək, ziyalı və düşüncəli təfəkkür sahibi olmaq qadınlara müdiriyyət məşğuliyyətlərində işləməyə yardımçı ola bilən amillərdir. Həyata keçirilən araşdırmalar müdiriyyətdə kişilərin üstün olmasını isbat etməmişdir. Araşdırmalar göstərir ki, gələcəkdə müdiriyyət sahəsində qadınların potensial qüvvələrindən istifadə etmək hallarına ehtiyac çoxalacaqdır. Qadınların müdiriyyətdə rolu onların iqtisadi, sosial, mədəni və siyasi inkişaf prosesində qadın fəallığı sahəsinin ən təsirli və lazımlı tərəfi hesab edilir [7, s.14].

Əgər sosioloji baxımdan bir mövzunu araşdırmaq istəsək, hər hansı bir addım atmazdan öncə sosial proseslərdə həmin atılacaq addımın nəticələrinin praktik və araşdırma fəaliyyətləri ilə yanaşı cəmiyyətin müxtəlif təbəqələrində mövcud elm və anlayışı da dəyişmək lazımdır və bu işdə habelə kütləvi informasiya vasitələrindən də yararlanmaq olar.Yəni həmin addım atılmazdan öncə cəmiyyəti ona doğru adaptasiya etmək lazımdır. Elm və düşncə tərzinin dəyişilməsinin

nəticəsi cəmiyyəti araşdırılan mövzu ilə əlaqədar olaraq münasib və müvafiq davranış nümunələrini təyin etməyə, müsbət fərdi davranışı dəyişməyə və müsbət istiqamətdə baxışın dəyişilməsinə məcbur edir. Bu proses mədəni və sosial səhnələrdə qadınların səmərəli və işlək rəftarının daxil olması üçün əlverişli şərait yaratmaqla yanaşı həm də proqramlaşdırılmamış səhvlərin təcrübəsindən əldə edilən nəticələrə nisbət cəmiyyətin baxışının mənfiləşməsinə gətirib çıxarır [3, s.50].

Buna görə də atacağımız ilkin addım, bu sosial-mədəni mühüm proses üçün cəmiyyətdə münasib olmayan atmosferanı dəyişdirməkdən ibarətdir.

İkinci addım isə daha yaxşı xeyir əldə etmək və maksimum həddə yararlanmaq üçün bütün sənaye, ticarət, icra, idarəetmə və təhsil orqanlarında qadınların ixtisaslaşması təhsili yolu ilə davamlı inkişaf üçün proqram tərtib etməkdən ibarətdir.

Üçüncü addım və ya mərhələ isə bütün idarəetmə təşkilatlarının hər bir vəzifəsi üzrə qadın və kişi bacarıqlarını nəzərə almaqla onlar üçün bərabər və eyni hüquqlu imkanın yaradılması siyasətini yürütmək. Bu halda cəmiyyətin mədəni və elmi inkişafına eləcədə davamlı inkişafa nail olmaq mümkün olacaqdır.

Açar sözlər: müdiriyyət, qadın rəhbərlər, problemlər, inkişaf, əməkdaşlıq.

İstifadə olunmuş ədəbiyyat

1. Baqeriyan Məhəmməd. Müdriyyət, inkişaf, İran qadınları. «Reyhanə», 2002.
2. Qadın fəallığı işləri üzrə mərkəzin nəşriyyatı, Tehran, 2005, 259 s.
3. Pamela Abot Kelmervalas. Qadın sosiologiyası. Muncem İraqinin tərcüməsi, Mənicə, Ney nəşriyyatı, Tehran, 2002, 247 s.
4. Barbaradal Bum Hal. Kişilərin qadınların inkişafı üçün bilməsi lazım olan şeylər. Zöhrə Qayininin tərcüməsi. Banu nəşriyyatı, Tehran, 1997, 104 s.
5. Yan Roberton. Sosiologiyaya giriş. Hüseyn Behrəvanın tərcüməsi. Astane qüdse rəzəvi nəşriyyatı, c.III, 1999, Tehran, 325 s.
6. Erhart. Ote. Bu günün qadınları dünənki qadınlardan bir az cəsurdurlar. Əli Əsğər Şücainin tərcüməsi, Zeytun yarpağı nəşriyyatı, 2005, Tehran, 174 s.
7. Bəyan Hüsaməddin. Elmin yüksəlməsində qadınların həlledici rolu. "Dövlət idarəetməsi" mövsümü curnalı, № 39, 1999-cu il, Tehran, 208. s.
8. Rəncbər Zeynəb. Kişilərin diyələrinin hüdudları və qadınlar, «İran» qəzeti, № 3378, Tehran, 2006, 8 s.
9. Firudini Nasirə. Niyə qadınların təhsil idarəetməsində mövqeləri yoxdur? «Kişi despotizmi» qəzeti, № 829, 2005, Tehran, 285 s.
10. Şadmehr Fəriba. İran və dünyada qadınların idarəetməsinə baxış. «Reyhanə» 7 mövsümü curnalı. Qadınların fəallığı üzrə mərkəzin nəşri, 2005, Tehran, 260 s.
11. www.women.or.ir Respublika rəyasət qadınlarının fəallıq işləri üzrə mərkəzinin saytı.
12. www.iranwomen.org Qadın məlumat və statistika mərkəzi.
13. www.mli.ir İran İslam Respublikasının milli kitabxanası.
14. www.iwna.ir İran qadınlarının müxbir saytı.

Фариба ИБРАГИМИ

ЖЕНЩИНЫ-РУКОВОДИТЕЛИ: РЕАЛИИ, ПРОБЛЕМЫ И ПЕРСПЕКТИВЫ

Резюме

На основе проведенных исследований автор рассматривает в статье проблемы деятельности женских руководящих кадров. Отмечаются такие характерные особенности в руководстве женщин-лидеров, как демократичность, умение защитить свои интересы и интересы коллектива, гибкость, толерантность. Обычно женщины-руководители проявляют заботу о своем коллективе, стремятся создать нормальную морально-психологическую обстановку. В современных условиях, независимо от того, кто стоит во главе коллектива, необходимо учитывать объективные обстоятельства работы коллектива, в том числе и глобальные.

Ключевые слова: руководство, женщины-лидеры, проблемы, развитие, сотрудничество.

Fariba IBRAHIMI

THE WOMEN-LEADERS: REALITES, PROBLEMS AND PERSPECTIVES

Summary

On the basis of the researches carried out the author considers the problems of activity of women governing personnel in the article. Such characteristic features in a management of women-leaders, as democratic character, ability to protect own interests and interests of the collective, flexibility, tolerance are noted. Usually the women-heads show care of their collective, aspire to create normal moral and psychological conditions. In modern conditions irrespective of who is at the head of collective, it is necessary to consider obcective circumstances of collective work including the global as well.

Keywords: administration, women-leaders, problems, development, cooperation.

UOT 316.334:7; 316.334:008

Ələəddin Məhəmmədi MEYXOŞ
BDU, aspirant

GİLAN VİLAYƏTİNDƏ TURİSTLƏRİN MOBİLLİYİNİN TƏHLİLİ*

Tədqiqatın metodologiyası

Məqalə "Gilan vilayətində turistlərin müxtəlif xidmətlərdən razılıqlarının təmin edilməsi səviyyəsinin öyrənilməsi" adlı tədqiqata əsasən hazırlanmışdır. Məqalənin hazırlanmasına - məlumatların əldə olunması mərhələsində müəllifə digər tədqiqatçılar əməkdaşlıq etmişdir. Araşdırma 2006-cı ildə Gilan vilayəti turizm təşkilatının himayəsi və istəyi ilə icra olunmuşdur. Statistika idarəsi bu tədqiqatı turizmlə əlaqədar olaraq təşkil etmişdir. 2006-cı ildə İranın digər vilayətlərindən, yaxud xarici ölkələrdən Gilan vilayətinə 8844734 nəfər turist daxil olmuşdur. Bunlardan 96,8% daxili turistlər, yəni digər vilayətlərdən Gilan vilayətinə gələn turistlər, 3,2% isə xarici turistlər, yəni digər ölkələrdən gələn turistlər təşkil etmişdir. Bunlardan 4859 nəfərin siyahısı turizm yerlərində və onların yerləşdiyi yerlərdə onlardan təyinolunma və anket xarakterli məlumatların hazırlanması üçün statistik yolla seçim üsulu və həcmin təyin olunması formulundan istifadə etməklə alınan məlumatlar təkmilləşdirilmişdir. Suallardan ibarət olan bu anket vasitəsilə turistlərin mövcud imkanları və xidmətlərlə təmin olunmasının səviyyəsi, tələblər, problemlərlə bağlı məlumatlar əldə olunur. Həmçinin məlumatların bir hissəsi səyahətlə bağlıdır. Bu əldə olunanlar təhlil kimi SPSS proqramından istifadə edilməklə nəzərdə tutulmuşdur.

Tədqiqat növü

Araşdırma turistlərin ehtiyacları, problemləri və təminolunma səviyyəsinin qiymətləndirilməsi səbəbi ilə müqayisəli tətbiqi metoddan istifadə olunaraq hazırlanmışdır. Araşdırmanın tələbindən irəli gələn məlumatlar turistlərin yerləşdikləri və səyahət etdikləri görməli yerlərdə toplanmışdır.

Məlumatları toplama metodu

Araşdırma metodunun növü, tədqiqatla bağlı çoxsaylı dəyişiklikləri, müxtəlifliyi, turistlərin təmin olunması baxımından onların görüşləri, münasibətləri, ümidləri ilə əlaqədar faktların toplanmasını nəzərə alaraq tərtib olunmuş anketlərdən istifadə olunmuşdur.

Nümunələrin təyin olunması və statistikası

2006-cı il ərzində Gilan vilayətinə səyahət etmiş bütün turistlərin sayı həmin vilayətin turizm təşkilatının məlumatına əsasən 8844734 nəfər təşkil etmişdir. Bu, tədqiqatın əsas statistikasını müəyyən edir. Kokranın nümunə metodu və nümunə həcminin təyin edilməsi formulundan istifadə etməklə 4859 sayda turist araşdırma üçün seçilmişdir. Mövzu üçün nəzərdə tutulmuş məlumatlar onlardan toplanmışdır.

Təhlil metodu və məlumatın təhlili

Tədqiqatın məqsədi əsas tutularaq daha çox mövzunun təsviri xüsusiyyətlərindən istifadə olunmuşdur. Buna əsasən, verilənlərin təhlili üsulu təsvir statistikasından istifadə olunmaqla aparılmışdır. Verilənlərin təhlili üçün SPSS proqramından istifadə olunmuşdur. Bütün verilənlər təhlillə bağlı dəyişikliklərə uyğun olaraq bölünmüş, çoxsaylı cədvəllər şəklində statistik göstəricilərdə yerləşdirilmişdir. Matrisa yolu ilə turistlərin təminolunma və ehtiyaclarının ali və orta hədd göstəriciləri müxtəlif bölmələrdə hesablanmışdır.

Tədqiqatın şərhi

XIX əsrin II yarısından etibarən yeni məna kəsb edən turizm faydalı və mənfəətli bir sənaye sahəsi hesab olunur. Turizm sülh şəraitində, coğrafi və siyasi sərhədlər daxilində və xaricində

---

* Məqalə fəl.e.d., prof. İ.Rüstəmov və sos.e.d. R.Həsənov tərəfindən çapa məsləhət bilinib.

insanların çox sürətlə təhrik olunması ilə baş verir. Tüstüsüz sənaye adlandırılan turizm qonaqpərvər sahibkar cəmiyyəti üçün çoxlu gəlir və məşğuliyyət sahəsi olmaqda davam edir.

Turizm hal-hazırda bütün dünyada iqtisadiyyatın yaradıcı və ən gəlirli sahəsi hesab olunur. Dünya Turizm Təşkilatının (DTT) apardığı statistikaya əsasən 2000-ci ildə bu sahədən əldə olunan bütün gəlir 475,772 milyard dollar təşkil etmişdir. Bu, neft ixrac edən ölkələrin həmin ildə ixrac etdikləri neftdən əldə olunan gəlirdən 4 dəfə çoxdur. (DTT) Amma turizm potensialı baxımından dünyanın qədim ilk 5 ölkəsindən biri olan İran (3, s. 190-191) (Bəzi dünya ekspertləri turizm potensialı baxımından İranı on ölkə arasında ayırmışlar, bəziləri hətta bu siyahıda İranı dünyanın beşinci ən qədim ölkəsi kimi göstərmişlər) indiyədək iqtisadiyyatın bu faydalı və mənfəətli sahəsindən faydalana bilməmişdir. Əgər statistikaya nəzər salsaq, görərik ki, 2000-ci ildə İranın bu sahədəki payı yalnız 850 milyon dollar təşkil edib. Bu nəticə isə dünyanın 50 ölkəsinin göstəricisindən sonra özünü göstərir (İran Turizm İdarəsinin məlumatlarından).

(1-1648195 kv, km ərazidə yerləşən İran İslam Respublikası bütövlükdə 30 vilayətdən ibarətdir. Gilan vilayəti 14711 kv.km sahəni əhatə edir və İranın ikinci kiçik vilayətidir. Amma təbii sərvətlərin və tarixliyi baxımdan həmişə daxili və xarici turistlərin diqqət mərkəzində olmuşdur. Bu vilayət Xəzər dənizinin sahilində yerləşir və Azərbaycan Respublikası ilə həmsərhəddir. Gilan vilayətinin şəhərlərindən biri Astaradır).

Topoqrafik baxımdan bölgəni iki hissəyə – düzənlik və dağlıq hissəyə bölmək olar. Bu bölgə meşə, çəmənlik, çay kolları və digər ağaclarla örtülmüşdür. Bunların hər biri öz növbəsində bu bölgənin sahəsini təyin edir. Gilan dünyanın yaşıllıq zolağı olan ən mühüm nahiyələrindən biridir. Bura xoşsulu, gözəl havalı, heyrətamiz, təbii sərvətlərə malik olan bir ərazidir. Belə təbii zənginliklərə malik olması turizm üçün mühüm mövqe tutmasına şərait yaratmışdır.

Buna görə də turistlərin tələb və ehtiyaclarını geniş əhatə edən sahələrinin hazırlanması ilə daxili və xarici turizm müxtəlif nahiyə və rayonlarında onların bölünməsi, turistlərin tələbi, əlaqələri, problemləri və digər məsələləri ilə tanışlıq kimi imkanlar əldə olunur. Mədəni sərvətlər, turizm təşkilatı və səlahiyyətli orqanlar bundan mötəbər mənbə kimi faydalana bilərlər.

Tədqiqatın məqsədi və vəzifələri

1. Gilan vilayətində turizm xidmət sahələrinin kəmiyyət və keyfiyyətinin araşdırılması.
2. Gilan vilayətinə səyahət edən turistlərin sayının araşdırılması.
3. Gilan vilayətindəki turistlərin səyahət vasitəsi növünün araşdırılması.
4. Gilan vilayətindəki turistlərin səyahətində əsas stimulun araşdırılması.
5. Gilan vilayətində turistlərin orta hesabla yerləşmə müddətinin öyrənilməsi.
6.Gilan vilayətində görməli yerlər olaraq ən mühüm rayonların araşdırılması.
7. Turizm imkanları ilə bağlı turistlərin tələb və istəklərinə dair məlumatların əldə olunma mənbələrinin araşdırılması.
8. Gilan vilayətində daxili turistlərin nəqliyyat, yerləşmə, yemək-içmək, hədiyyə, gigiyena, əczaçılıq, hər cür kontrol, istirahət və əyləncə xidmətləri, mədəniyyət və idman imkanları ilə bağlı orta hesabla xərclərinin araşdırılması.
9. Gilan vilayətində turistlərin təmin olunma səviyyəsinin araşdırılması.
10. Gilan vilayətinin daxili turistlərinin problemləri və onlara aid məsələlərin araşdırılması.

Tarixi keçmişin əsas mərhələlərinə ümumi baxış və tədqiqatın nəzəri sərhədləri

Tarixi baxış

Turizm insan cəmiyyətində çox qədim zamanlardan bəri mövcud olan tarixi bir anlayışdır. Turizm müxtəlif növ və fərqli motivlərlə özünü göstərmişdir.

İlkin turizm Roma imperatorluğu zamanında ən yüksək zirvəyə çatmışdır. Rumlular ordunun sürətli hərəkətini və silahlanmasını nəzərə alaraq yolları inşa etmişdilər. Zaman keçdikcə bu yollar Neapol və Pompey kimi turizm mərkəzlərinə yol açdı (1, s. 26).

İslamdan öncəki dövrə aid yazılar yunanların, punların, hətta çinlilərin İrana səyahətləri barədə xəbər verir. İslamdan sonrakı dövrlərdə bir çox səyyahlar İrana səyahət etmiş və müşahidələrini öz səyahətnamələrində qeyd etmişlər. XIII, XV, XIX, əsrlərdə Marko Polo, Adrikes, Coza, Barbaro İrana səyahət etmişlər (2, s.17).

Amma ən məşhur xarici müsəlman səyyahlar arasında İbn Huqıl (320-348 h.q.), Əbu Dələf (331-341 h.q.), Müqəddəsi, İstəxri və Məsudi (IV əsr), Yaqut Həməvi (VII əsrin əvvəli) və İbn Bətutə (725-753 h.q.) olmuşlar (3, s. 190-191).

Avropalılardan isə Diter, Delavli, Jan Şaron Səfəvilər dövründə İrana gəlmiş və bir müddət İsfahanda qalmışlar. Onlar öz səyahətnamələrində iddia etmişlər ki, İsfahanı Londondan daha çox tanıyırlar. Səfəvilər və Qacarilər dövründə Kempfer, Tavor Fih, Anatoli Şerli, Madam Divlanva, Corc Klark və digər səyyahlar İrana səyahət etmişlər (4, s. 512).

Turizm və səyahət motivləri arasında əlaqə

Tədqiqatçılar səyahət motivini izah edərkən fərqli formalar irəli sürürlər. Bu formaları irəli sürməkdə məqsəd belə bir suala cavab verməkdir: nə üçün insanlar səyahətə gedirlər? Daha dəqiq desək, insanların səyahət etməsi zərurətini yaradan hansı amillərdir? Burada suallar iki qrupa bölünür: İnsanlar nə üçün səyahətə gedirlər? Nə üçün insanlar istirahət üçün xüsusi yerlərə gedirlər? Bunun da böyük əhəmiyyəti vardır. Birinci sualda müzakirə obyekti turistlərin psixoloji dərki məsələsidir. İkinci sualda isə artıq turistlərin məqsədi, cəlbedici özəllikləri maraq doğurur. Artıq araşdırılmalıdır ki, bütün bu keyfiyyətlər turistlərin tələblərinin təmin olunmasında necə əhəmiyyət kəsb edirlər.

Tədqiqatçılar bu iki amilin qruplaşmasında turistlərin və səyyahların münasibətinə diqqəti yönəltmişlər. Bu təkanverici amillərin özünü göstərməsində məqsəd insanın daxilində və onun sosial əhatəsində şəxsin hərəkətinə səbəb olan qüvvələrdir. Bunların mövcud olmasında təkanverici qüvvələr vardır. Bunun əksinə cəzbedici amillərin özünü göstərməsində yerin özəllikləri əsasdır. Turist öz mənəvi ehtiyaclarını təmin edə biləcəyini təsəvvür edir və həmin özəl cəhətlər onu bu məkana gətirib çıxarır (5, s. 188).

Turizm və nəqliyyat vasitələrinin əlaqəsi

Nəqliyyat sisteminin turizm sənayesində mühüm rolu vardır. Bu sistem təyin olunmuş yer, mehmanxana, gəzinti və digər turist yerlərini birləşdirən xətdir. Bu sistemin rahat, təhlükəsiz və etibarlı olması təcrübə və keyfiyyətin növünü təyin etməsindədir və bu, səyahətdən əldə olunur. Çünki bəzi şəraitdə nəqliyyat xərci səyahət xərcinin daha çox hissəsini təşkil edir.

Digər tərəfdən nəqliyyat sisteminin inkişafı ilə turizm sənayesinin tərəqqisi arasında birbaşa əlaqə vardır. Çünki bu gün özü hərəkət edən nəqliyyat vasitələri, təyyarə bəşəriyyət üçün səyahətləri asanlaşdırmışdır. Səyahət üçün istəklərin artması ilə müxtəlif nəqliyyat vasitələrinin həcmi turizmin potensialının artması və ya əksinə azalmasında mühüm amil hesab olunur (6, s. 82).

Turizm və yerləşmə müəssisələrinin əlaqəsi

Adətən yerləşmə və qəbul xidmətləri dedikdə, otel və restoran nəzərdə tutulur. Turist hara gedirsə getsin, ilk öncə, onun yatmaq, istirahət etmək və yemək üçün yerə ehtiyacı vardır. Burada ilk öncə yataq dəstləri, bir yaxud iki, üç və daha çox nəfərlik istirahət otaqları, sadə şəhər yeməyi, yemək və içməklə təmin olunma nəzərdə tutulur.

Otellər və istirahət məkanları turistlər üçün yemək və içməklə təmin olunma ilə bağlı olaraq ayrı-ayrı təşkilatlarla da əlaqədə olurlar. Restoranlar və xidmətləri təklif edən digər belə məkanların seçilməsi artıq turistlərin öz maraq dairəsinə aiddir (6, s. 93).

Turizmlə təhlükəsizlik arasındakı əlaqə

Təhlükəsizlik axtarışı və ona nail olma bəşəriyyətə ən vacib olan tədbirlərdəndir. Cəmiyyətin ən mühüm ehtiyacı həmin cəmiyyətin və cəmiyyət üzvlərinin təhlükəsizliyinin təmin

edilməsidir. Başqa cür desək, təhlükəsizliyin təmin edilməsi beynəlxalq əlaqələrin və daxili siyasətin qorunmasında ölkənin ən mühüm məqsədlərindən biridir. Təhlükəsizlik turizm potensialının genişlənməsində mühüm rol oynayır. Əksinə, təhlükəsizliyin təmin olunmaması daxili və xarici təhdidlərin, böhranın meydana gəlməsi, turizmin zəifləməsində açıq şəkildə özünü göstərir. Çünki təhlükəsizlik turistlərdə səyahətə rəğbət oyatmaqda və onları bu istiqamətə yönəltməkdə əsas təsiredici amildir. Dünyanın müxtəlif yerlərində səyahət xarakteri daşıyan turizmin mövcud olduğu ölkədə təhlükəsizlik yoxdursa, həmin ölkəyə planlaşdırılan hər hansı səyahət risk hesab olunur və bu səyahətdən imtina edilir. Təhlükəsizliyin olması və ya əksinə, olmaması nəticədə əqli təfəkkürlə bağlıdır: xarici turistlərin imkan və görüşləri ilə hər hansı bir ölkənin əhalisi arasında birbaşa əlaqə mövcuddur. Təhlükəsizliklə bağlı fikrin yaranması həmin ölkədə təhlükəsizlik təmin olunsa belə, xarici turistlərin oraya səyahətdən uzaqlaşmasına səbəb ola bilər (6, s. 225).

Tədqiqatın nəzəri sərhədləri

Təxminən 30 il öncə başlamış turizmin əsasında mövcud nəzəri çərçivədə bütün dünya universitetlərinin mərkəzində sosioloji araşdırmalar üçün münasib təminat hesab olunur.

Turizmlə bağlı aparılmış bir çox tədqiqatlar müxtəlif siniflərin boş vaxtlarını, onların mühacirət və səyahət məsələlərini araşdırır. Sosiologiyanın nəzəri araşdırmaları turizmi "axtarışda qaçan" anlayışı ilə təqdim edirlər. Tarixi baxımdan bu, ayrıca mərhələdən başlayır və indiyədək davam edir.

Ümumiyyətlə, turizmin sosiologiyaya aid mətnlərdə mühüm ictimai sahələrlə olan əlaqəsi araşdırılır. Raykerd bu araşdırmanı daha yüksək səviyyədə aparmışdır.

Turizmin insana təsiri ilə bağlı araşdırmalar (bəzi müşahidələr)

Müəyyən tələblərin, yeni motivlərin təmin olunmasının ardınca turizmin rolu, münasibətləri və təcrübələrin formalaşması üçün şərait yarandı. Parrinello və Kauhen öz birgə işlərində turizm təcrübələrinin mürəkkəbliyini təfsilatı ilə təyin etmişlər. İqtisadiyyatın xidmət sektorunda böyük səhvə malik olan turizm sahəsi gündən-günə inkişaf edir.

Digər tərəfdən, turizmin nəzəriyyəsi belə bir fikrə əsaslanır ki, sosial münasibətlər yalnız dostlarla və yaxınlarla əlaqənin təsiri altında deyil həm də sosial münasibətlərlə əhatə olunmuş bir mühitdə bir şəxsin təsiri ilə də formalaşa bilər. Bu ideya bütün turizm təcrübələrinin anlayış və quruluşunda əyləncə, sınaq, elmi, tanışlıq və məşğuliyyət kimi ümumiləşdirmələrdən daha təsirli və faydalıdır.

Turizm, qarşılıqlı əlaqənin yayılması

Dünyanın müxtəlif ölkələrində sosial-iqtisadi əlaqələrin inkişafında mövcud fərqlər bir çox tədqiqatçı və siyasət adamlarının diqqətini özünə cəlb etmişdir. Qarşılıqlı əlaqələrin inkişafı göstərir ki, bu ölkələr dünyanın kapitalizm quruluşunda daha aşağı texnoloji səviyyəyə malikdirlər. Bu anlayış ümumi daxili məhsulun köməyi ilə daha yaxşı təyin edilə bilər. Əhali artımının, sanitariya və səhiyyənin, həmçinin kənd təsərrüfatı rayonlarının məşğuliyyət səviyyəsinin qiymətləndirilməsi kimi digər göstəricilər də vardır və bunların köməyi ilə qarşılıqlı əlaqələrin yayılmasının müxtəlif səviyyələri təsəvvür oluna bilər.

Frayendin araşdırmasında gəlir və xərclərin yaxşılaşdırılması əsasında bölgü diqqəti əsasən qanunlardakı əsas dəyişikliklərə, idarəetmə quruluşuna, ictimai ənənələrə, insanların əqidə, davranış və görüşlərinə yönəldir. Bu istiqamətdə əsas diqqət bu suala yönəlmişdir: Turizmin inkişaf səviyyəsinin artıb və azalmasının əhalinin kasıb və ya varlı təbəqəsinə bir təsiri vardır, ya yoxdur.

Turizm və ictimai institutlar

Bu bölmədə cəmiyyətdəki münasibətlərin tərzi, turizm mexanizminə təsir rolu araşdırılmışdır, eyni zamanda ictimai ənənələrə diqqət yetirilmişdir. Ari, Kousis və Rişterin araşdırmaları beynəlxalq turizmə ailə, iqtisadiyyat və siyasət kimi ictimai təsisatların təsirini öyrənir, onlar arasında qarşılıqlı əlaqəni tədqiq edir. Bu səbəbdən turizmə mühüm amil olaraq ictimai

dəyişikliklər maraq doğurur. Bu sənaye sahəsi qadınlar və kişilər üçün bərabər məşğuliyyət imkanları qazandırmaqla müsbət təsirə malikdir.

Turizm və ictimai dəyişikliklər

Holl, Vatson və Kapuçevski bəyan etmişlər ki, turizm turistlərin əyləncə və məşğuliyyətindən daha yüksəkdir. Həmçinin turizmin yayılmasının əsas rolu insanlarda fiziki təsirlərdən daha yüksək, mənəvi dəyərlər vasitəsilə yüksəklik yaratmaqdır.

Konkret aspektdən yanaşsaq, turizm ictimai kriminalistikanın yayılmasına səbəb olaraq mədəniyyətin hissi və maddi cəhətlərinə təsir edir. Beləliklə, modern beynəlxalq turizmin nəticələrini müasir cəmiyyətlərin mədəniyyətlərinin hissi və obyektivləşmə prosesi vasitəsi ilə öyrənmək olar (7, s. 235).

Mövsümün icra metodu

Bu araşdırmada tədqiqatla bağlı mövzunun özəllikləri səbəbi ilə araşdırma metodu kimi topoqrafik çəkiliş metodundan istifadə olunmuşdur. Bu, turistlərin təminolunma səviyyəsinin kəmiyyət və keyfiyyət əsasında, eləcə də turistlərin əsas tələb və problemlərinin nəzərdən keçirilməsində mövcud faktların göstərilməsi məqsədi daşıyır.

Tədqiqatın nəticələri

Turistlərin təmin olunması ilə bağlı tərtib olunmuş sorğu anketlərindən əldə olunmuş nəticələr aşağıdakı qaydada şərh edilir:

Gilan vilayəti turistlərinin 36%-i Tehran vilayətindən olmuşlar. Bu nöqteyi-nəzərdən digər turizm vilayətləri arasında birinci yerdə Gilanın olduğu görünür. Sonrakı yerlərdə Şərqi Azərbaycan vilayəti 11%, Ərdəbil vilayəti 5%, Mazandaran vilayəti, Xorasan Rza vilayəti, İsfahan vilayəti, Qərbi Azərbaycan vilayəti, Qəzvin vilayəti, Zəncan vilayəti və Fars vilayəti ikinci-onuncu yerlər arasında yerləşir.

Nəticələr göstərir ki, sorğuda iştirak edənlərin 87%-i öz şəxsi nəqliyyatı ilə Gilan vilayətinə səyahət etmişdir. İkinci yerdə avtobusdan 7%-i, ümumi miniklərdən 2%, təyyarədən 2% istifadə edən turistlər təşkil etmişdir. Nəticəyə əsasən, turistlərin əksəriyyəti Gilan vilayətinə ailə ilə gələnlərdir. Buna əsasən ailə ilə səyahətə gələn turistlər 88% ilə birinci yerdə, yaxın dostlarla qrup şəklində gələnlər 5% ilə ikinci yerdə, tək-tək gələnlər isə 3% ilə üçüncü yeri tuturlar. Əldə olunan nəticəyə əsasən turistlərin bir qismi istirahət edərkən dəniz və sahilə üstünlük verirlər. Buna əsasən, həmin turistlər səyahətin bu növünü təmsil etməklə 57% təşkil edirlər. Dağ, meşə və yaylaq yerlərinə üstünlük verənlər 25% ilə ikinci yeri tuturlar. Üçüncü və dördüncü yerləri 12% doğma və yaxınlarla görüşmək, 2% isə tarixi yerləri görmək məqsədi ilə gələnlər tutur. Gilan vilayətinə bütün bu turistlərlə yanaşı elmi, ziyarət, iş, ticarət məqsədi ilə səyahət edənlər də vardır. Ola bilər ki, turistləri tanımamağın bu sübutu və belə yerlərdən məlumatın zəif çatdırılması vilayətin turizm işinə nəzarətlə bağlıdır.

Turistlərin Gilanda yerləşdikləri günlərin sayı göstərir ki, Gilanda 3 gün qalanlar 32 % təşkil edir.

Araşdırmanın nəticəsi göstərir ki, burada qalmaq üçün turistlər çadırlardan istifadə etmişlər. Bunların sayı 15% təşkil etmişdir. Qohumların evində 9%, otellərdə 7%, qonaq evlərində 6% turist istirahət etmişdir.

Turistlərin Gilan vilayətində daha çox bəyəndiyi ən gözəl yerlər bunlardır: birinci yeri 18% ilə Gilanın qərbində yerləşən tarixi və pilləkənvari Mosulə şəhəri tutur. İkinci-onuncu yerləri isə aşağıdakı yerlər bölüşdürür: Xəzər dənizinin sahilində yerləşən Bəndəri Ənzəli şəhəridir. Tanınmış böyük Ənzəli limanı bu şəhərdədir; Gilan vilayətinin meşələri; Şeytan dağı Gilan vilayətinin ən görməli şəhərlərindən biri olan Lahican şəhərində yerləşir. İlk dəfə olaraq bu şəhərdə çay kolları əkilmişdir. İranın çay istehsalının 95%-ni bu şəhərdə əldə edirlər. Bu şəhər dağ, düzənlik və dəniz kimi təbii səfalı yerləri ilə məşhurdur. Gilan vilayətinin cənubunda –

Siyahkul şəhərində yamyaşıl dağlarla əhatə olunmuş Dilman və dəniz, məşhur Dilman dağı buradadır.

Verilənlərə əsasən, sorğuda iştirak edənlərin 37%-i bildirib ki, Gilana 6 dəfə səyahət edib. Turistlərin 17%-i ilk dəfə, 13%-i ikinci dəfə, 10%-i isə üçüncü dəfə Gilan vilayətinə səyahət etdiyini bildiriblər.

Turizm sənayesinin və turizm potensialının genişlənməsinin ən mühüm amillərindən biri tanıtma, təbliğat və turizm imkanlarının olmasıdır. Turistlərin təmin olunması ilə bağlı sorğu anketlərinə diqqət edildikdə, Gilan vilayətində turizmin vəziyyəti, turizm potensialının daha yüksək olduğu yerlərdən məlumatların çatdırılması baxımından ən mühüm mənbələr aşağıdakı kimi sıralanır: birinci yeri dostlar və ailə 40% ilə, ikinci yeri təbliğat xarakterli broşüralar 16% ilə, radio və TV 9% ilə üçüncü yeri, 7% ilə Gilan vilayətinin əhalisi və xəbər agentlikləri 4% ilə dördüncü və beşinci yerləri tutur. Bu statistikada iki ümumi nəticə əldə etmək mümkündür: əvvəla, "axtaran və tələbkar" turistlər özləri məlumat çatdırırlar. İkinci, nəzarətçilər və vilayətdəki xəbər agentlikləri bu sahədə fəaliyyət göstərmirlər. Çünki əldə olunmuş statistikaya əsasən, təbliğat xarakterli broşüralardan istifadə edənlərin sayı minimum həddədir.

Nəticə göstərir ki, turistlərin əksəriyyəti gilanlıların mədəni və ictimai vəziyyətindən çox razı qalmışlar. İkinci olaraq isə, onlar Gilan vilayətinin görməli səfalı yerlərindən razılıq ifadə edirlər. Sonra isə onlar vilayətin təhlükəsizliyindən, kiçik ticarətçilərlə ünsiyyətdən, satıcılardan və nəzarətçilərin davranışından razı qalmışlar.

Tədqiqatdan görünür ki, turistlərin 80%-i Gilan vilayətinə səyahətlərindən razıdırlar. Bunun xaricində turistlər bu vilayətə səyahətləri zamanı turist yerlərindəki yolüstü restoranlarda basırıq və gigiyena qaydalarına riayət olunmaması, yollardakı tıxac, malların bahalığı, təhlükəli yollarda xidmətin olmaması kimi problem və maneələrlə də qarşılaşmışlar. Gilanın şəhərlərinə səyahətləri zamanı turistlərin əsas istirahət motivləri təbiətin dağ, düzənlik, çəmənlik, dəniz, meşə və dəniz sahili kimi səfalı yerləri olmuşdur. Öz səyahətlərində onların əksəriyyəti qohumlarının evində, turist çadırlarında, bəziləri otellərdə və qonaq evlərində yerləşmişlər. Çünki turistlərin bəziləri sanitariya, avtomobilləri saxlamaq üçün yer və digər problemlərlə qarşılaşacaqlarına görə bu növ yerləşməyə üstünlük vermişlər.

Açar sözləri: Gilan, turizm, razılıq, turizm razılığının miqdarı.

İstifadə olunmuş ədəbiyyat

1. Əzimi N. Turizmin ümumi coğrafiyası. Tehran, 1998.
2. Zirəkbaş D. İsfahanın mükəmməl layihəsində mədəni turizmin rolu: coğrafi təhlil. İsfahan universiteti, 1998.
3. Rizvani Ə. Coğrafiya və turizm sənayesi. Tehran, Pəyame Nur Universiteti, 1995.
4. Bədii R. İranın ümumi coğrafiyası.Tehran, İqbal nəşriyyatı, C.I, 1983.
5. Çak Vay Gi. Turizmin perspektivi. II nəşr, Tehran, Mədəni tədqiqat mərkəzi, 2003.
6. Vil Racer. Turizmin idarə edilməsinin əsasları: strategiyalar və təsirlər. II nəşr, Tehran, Mədəni tədqiqat mərkəzi, 2000.
7. Apostolupus Y. Turizmin sosiologiyası. Rəşt, Varəstə nəşriyyatı, 2004.

Алаадин Мохаммади МЕЙХОШ

ИЗУЧЕНИЕ МОБИЛЬНОСТИ ТУРИСТОВ В ГИЛЯНСКОЙ ОБЛАСТИ

Резюме

В статье изучаются результаты социологического опроса проведенного среди 4859 туристов, посетивших Гилянскую область ИРИ. По итогам опроса большинство туристов, или 87% пользовались индивидуальным транспортом, 88% предпочитают отдыхать с семьей; 57% - предпочитают отдых на берегу моря; 20% - в палатках; 9% - у родственников; 7% - в отелях; 6% - в гостевых домах. Среди опрошенных 17% сообщили, что они здесь отдыхают в первый раз, 13% - во второй раз, 10% - во второй раз. Сведения о выборе мест отдыха туристы берут 40% у друзей, 16% - из телевизионных каналов, 7% - из туристических агентств; 9% - из рекламных роликов.

Далее отмечается, что туристы остались довольны работой органов безопасности, мелких лавочников и вообще сферой обслуживания.

Ключевые слова: Гилан, туризм, соглашение, число соглашений по туризму.

Aladdin Mohammadi MEYKHOSH

ANALYSIS OF TOURISTS′ MOBILITY IN GILAN PROVINCE

Summary

The article studies the results of sociological interrogation conducted among 4859 tourists visited Gilan province of IRI. According to the results of inquiry of most tourists or 84% used the individual transport, 88% favour for taking a rest with their family, 57%-give preference to a rest on the shore, 20%-in the tents, 5%-at relatives, 7% in hotels, 6%-ib guest houses,17 % among respondents stated that they had a rest there for the first time, 13%-for the second time. The tourists receive 40% of information about a place of rest from the friends, 16% - from TV channels, 7% - from the tourist agencies, 9 % - from the posters.

Further, it is noted that the tourists were satisfied with the work of the security bodies, minor shop-keepers and service sphere in general.

Keywords: Gilan, tourism, agreement, number of tourism agreements.

PSİXOLOGİYA BÖLMƏSİ

UOT 159.9:355.01

İlham MİRZƏYEV
AMEA FSHİ,a.e.i. psixologiya üzrə f.d.

QARABAĞ MÜHARİBƏ İŞTİRAKÇILARININ DAVRANIŞININ PSİXO-EMOSİONAL KORREKSİYASI*

Emosiyalar - insanın ətraf mühitə və özü-özünə qarşı subyektiv münasibət təzahürlərindən biridir. Sevinc, kədər, qorxu, qəzəb, mərhəmət, xoşbəxtlik, rəhm, qısqanclıq, laqeydlik, sevgi və s. emosiyaların müxtəlif növ və çalarlarını müəyyən edən sözlərin sonu yoxdur [10, s.123].

Onlar insanın daxilində və ondan xaricdə baş verənlər haqqında insana obyektiv informasiyanı verir. Emosiyalar isə insanın ehtiyac və motivləri ilə bağlı olan subyektiv vəziyyətini ifadə edir.

Emosiyalar - instinkt, ehtiyac və motivlər ilə bağlı psixi hadisə, proses və vəziyyətlərin xüsusi sinfidir. Onlar ətraf mühiti, aləmi bilavasitə duyğu formasında (məmnunluq, sevinc, kədər) əks edir və onlarda fərd üçün onu əhatə edən situativ hadisələrini əhəmiyyəti əks olunur. Onlar nəyin vacib olduğunu və nəyin vacib olmadığını "göstərirlər". Onların ən parlaq xüsusiyyətlərindən biri subyektivlikdir. Emosiyalardan biz o vaxt bəhs edirik ki, bizdə xüsusi situativ - fövqəladə duyğu (Maslouya görə) yaranır, yəni insan hiss edir ki, o işləyir və buna görə də iftixar hissi keçirir [5, s. 78].

Subyektiv emosional təcrübənin funksiyalar ilə əlaqəsi nəzəriyyəsinin yaradıcılarından olan amerikalı psixoloq U.Ceyms - emosiyaların insan həyatında böyük rolu olduğunu aşağıdakı sözlərlə ifadə etmişdir: "Əgər bu mümkündürsə, təsəvvür edin ki, siz qəflətən sizi əhatə edən dünyanı, mühiti bürüyən bütün emosiyalardan məhrum olmusunuz və bu mühiti, dünyanı özü - özlüyündə olduğu kimi, sizin müsbət və ya mənfi qiymətiniz olmadan, onların təlqin etdiyi ümid və əndişə olmadan xəyalınızda canlandırmağa çalışın. Bu cür qərib və cansız, ölü təsəvvür sizin üçün demək olar ki, mümkünsüz, dözülməz olacaqdır. Çünki kainatın heç bir hissəsi hər hansı bir digər hissəsindən fərqli olaraq böyük əhəmiyyət kəsb etməməlidir və cisimlərin, hadisələrin bütün cəminin heç bir mənası, xarakteri, ifadəsi və ya perspektivi olmayacaqdır. Çünki hər bir insanın öz dünyasında tapdığı bütün dəyərli, maraqlı və vacib olanların hamısı dərk edən şəxsin xalis məhsuludur" [2, s 152].

Emosiyalar hirsləndiyimiz, sevindiyimiz, kədərləndiyimiz zaman özünü büruzə verən bizim "daxili" və "xarici" həyatımızın bir hissəsini təşkil edir.

Insan təhlükə hiss etdiyi anda o, həyəcan vəziyyətində olur - özündə təhlükə daşıyan qeyri - müəyyən hadisələrə qarşı reaksiya vermək məcburiyyətində qalır. Insan emosional cəhətdən həyəcanlı olduğu zaman onun vəziyyəti müəyyən fizioloji reaksiyalar ilə müşayiət olunur: yəni qan təzyiqi, qanda şəkərin miqdarı, əzələlərin gərginliyi, nəbzin vurma sürəti artır. U.Ceyms və Q.N. Lanqe fərz edirdilər ki, məhz bu dəyişikliklər də emosiyaların əhəmiyyətini tamamlayır [7, s. 39].

Lakin daha sonralar eksperiment nəticəsində təsdiq olunmuşdur ki, emosiyalar hər zaman qalırlar, hətta onların bütün fizioloji təzahürləri kənar edildikdə belə, subyektiv duyğu qorunub saxlanılır. Deməli, zəruri bioloji komponentlər emosiyaları tükəndirmir. Lakin onda belə bir məsələ anlaşılmaz qalır: fizioloji dəyişikliklər nəyə lazımdır? Sonralar aydınlaşdırılmışdır ki, qeyd

* Məqalə psixol. üzrə f.d. H.Əliyeva tərəfindən çapa məsləhət bilinib.

olunmuş reaksiyalar emosiyaların yaşanması üçün deyil, adətən güclü emosional reaksiyadan sonra yaranan gücləndirilmiş əzələ fəaliyyəti üçün (mübarizə, güləşmə və ya qaçış zamanı) orqanizmin bütün gücünün aktivləşməsi üçün əhəmiyyətlidir.

Yuxarıda şərh edilənlərin əsasında belə bir nəticəyə gəlmək olar ki, emosiyalar insanın enerji təşkilini həyata keçirir. Bu cür təsəvvür anadangəlmə emosiyaların bioloji dəyərini anlamağa imkan verir.

Emosiyalar həyat üçün ən zəruri olan funksiyaları yerinə yetirən təfəkkürün ilk forması olmuşdur [3, s. 156].

Bütün ali heyvanların və insanların beynində emosional həyat ilə sıx bağlı olan strukturlar mövcuddur. Bu limbik sistemdir: buraya əsasən üzvü proseslər - qan dövranı, həzm, daxili sekresiya vəzilərini idarə edən beyin mərkəzinin bilavasitə yaxınlığında, baş beyin qabığı altında yerləşən və sinir hüceyrələrinə uyğun olanlar daxildir. Emosiyaların həm insan şüuru ilə, həm də insan orqanizminin vəziyyəti ilə sıx əlaqəsi belə əmələ gəlir [4, s. 174].

Məhz bu mövqelərdən demək olar ki, emosiya - təfəkkürün inkişafı üçün ən vacib amildir. İnsan emosiyaları – ictimai-tarixi inkişafın məhsulu və insan davranışının daxili tənzimləyicisidir [13, s. 68].

Emosiyalar, nə qədər müxtəlif olsalar da onların şəxsiyyətdən (şəxsdən) ayrılması mümkün deyildir. " İnsanı nə sevindirirsə, onu nə maraqlandırırsa, məyus edirsə, həyəcanlandırırsa, ona gülməli gəlirsə - onun mahiyyətini, əslini, xarakterini, şəxsiyyətini daha çox xarakterizə edir" [11, s. 93].

Emosiyalar vəziyyəti, prosesi və ehtiyacın təmin olunma nəticəsini əks etdirir. Emosiyalara əsasən demək olar ki, insanı bu an nə narahat edir, yəni onun üçün hansı ehtiyaclar və tələbatlar daha mühümdür. emosiyalar, hər şeydən əvvəl, bu və ya digər ehtiyaca özünəməxsus şəkildə xidmət edir və bununla da onun təmin olunması üçün zəruri olan hərəkətlərə təşviq edir.

Ehtiyac - bizim daxilimizə təhkim edilmiş bioloji və ya mənəvi, sosial həyat fəaliyyəti proqramıdır, hansı ki, onun reallaşmasında çətinlik, əngəl olduqda müəyyən emosional vəziyyət - ehtiyac duyğusu ilə işarə verir [8, s. 106].

Insanın rəftarı, davranışı əhəmiyyətli dərəcədə onun emosiyalarından asılıdır, bununla belə müxtəlif emosiyalar davranışa müxtəlif cür təsir göstərir. Orqanizmdə bütün proseslərin fəallığını artıran stenik emosiyalar və onları ləngidən astenik emosiyalar mövcuddur. Stenik emosiyalar, bir qayda olaraq, müsbət emosiyalar yəni, məmnunluq, sevinc, xoşbəxtlik yaradır, astenik emosiyalar isə - mənfi emosiyalardır və onlar narazılıq, qəm, kədər yaradır. Emosiyaların hər bir növünü və onların insan rəftarına, davranışına təsirini gözdən keçirək.

Yüksək əhval-ruhiyyə insan orqanizminin tonusunu qaldırır, yəni fəaliyyət üçün onda ümumi həvəs oyadır. Əmək məhsuldarlığı, nikbin əhval-ruhiyyəli insanda bədbin əhval-ruhiyyəli insanda olduğundan hər zaman daha yüksək olur.

İnsanların həyatında affektlər başqa rol oynayırlar. Onlar qəflətən yaranmış məsələnin həlli və ya gözlənilmədən yaranan əngəlin aradan qaldırılması üçün orqanizmin enerji və ehtiyatlarını bir anda səfərbər etmək iqtidarındadırlar. Onların əsas həyati rolu məhz bundan ibarətdir. Lakin qeyd etmək lazımdır ki, müvafiq emosiomal vəziyyət yarandıqda bəzən insan adətən bacarmadığı hərəkətləri edir. Onlar da çox vaxt mənfi rol oynayırlar, yəni onlar insanların davranışını nəzarətsiz qoyur və hətta bəzən ətrafdakı insanlar üçün təhlükə yaradırlar [16, s. 88].

Həyatın, varlığın tarixi formaları səviyyəsində, fərd orqanizm kimi deyil, şəxsiyyət kimi çıxış etdiyi zaman insanda emosional proseslər təkcə üzvü deyil, həm də mənəvi ehtiyaclarla, şəxsiyyətin fikirləri, ənənələri, məqsədləri və müxtəlif fəaliyyət növləri ilə bağlı olur. Insanın öz ehtiyaclarını, tələblərini təmin etmə prosesində yaratdığı obyektiv münasibətlər müxtəlif hisslərin yaranmasına səbəb olur. İnsanların əmək fəaliyyəti prosesində inkişaf edən əməkdaşlıq formaları müxtəlif sosial hisslər, duyğular doğurur. Insanın hissləri təəssürat formasında insanın ictimai varlıq kimi dünya (mühit) ilə, ilk növbədə isə digər insanlarla real qarşılıqlı münasibətləri ifadə

edir. Beləliklə, insan hissləri, əlbəttə ki, orqanizmdən və onun psixo-fiziki mexanizmlərindən ayrılmadan, təkcə daxili vəziyyətlərin çərçivəsindən xeyli kənara çıxmış və insanın öz praktiki və nəzəri fəaliyyətində dərk etdiyi və dəyişdirdiyi dünyaya yayılmışdır.

Digər insanlara qarşı münasibət üzrə obyektiv vəzifələr, özünə qarşı münasibət üzrə vəzifələrə çevrilərək, insanın mənəvi, əxlaqi hisslərini təşkil edir. Bu cür duyğuların mövcud olması bir çox insan münasibətlərini ehtimal edir. Insanın duyğuları, hissləri vasitəlidir və insanın da daxil olduğu real ictimai münasibətlərdən, bu ictimai mühitin adət və ənənələrindən, onun ideologiyasından irəli gəlir.

İdeologiya insanda kök salaraq, onun hisslərində özünü göstərir. Insan hisslərinin formalaşma prosesi onun şəxsiyyətinin bütün təşəkkül prosesindən ayrılmazdır. Insanın ali hissləri - ideal - intellektual, əqli, etik, estetik motivləri müəyyən olunan proseslərdir. Insanın hissləri, duyğuları - "insanlaşmış təbiətin" ən parlaq ifadəsidir və hər bir həqiqi hissdən irəli gələn həyəcanverici cazibə, valehedici məlahət ilə bağlıdır [12, s. 123].

Emosional təəssüratların, hisslərin şüurluluq dərəcəsi müxtəlif ola bilər və bu da emosiyada yaşayan münasibətin özünün hansı dərəcədə dərk edildiyindən asılıdır.

Hər bir problem, o cümlədən də duyğu problemi - daxilən sonsuz olan və kənardan məhdud görünən kiçik bir kainatdır. Istənilən problem öz həlli üçün yalnız iki şeyi tələb edir: birincisi nöqteyi-nəzərin yeni əqli koordinat sistemi ilə yerinin dəyişdirilməsi və ikincisi - zaman - bu vaxt o həll olunacaq, onun ardınca isə bizim üçün hələ nəmalum, gizli olan yeni problemlər gələcəkdir. Problemlər silsiləsi - bu problemləri həll edəcək ideya silsiləsi kimi sonsuzluğadək davam edir. Bəşəriyyət bu yolla özü üçün həyati məkanı təmizləyir.

Insan həyatında emosiyalar çox mühüm rol oynayır. Onlar digər psixi proseslərdən fərqlənirlər, lakin onları ayırmaq çətindir, çünki onlar insanın duyğularında, təəssüratlarında birləşirlər.

Reabilitasiya məsləhətləşməsi əsasən uyğunlaşmanı artırmaq, asosial davranışdan xilas olmaq, nevrotik simptomları aradan qaldırmaq imkanı kimi dəyərləndirilir. Bizim fikrimizcə, reabilitasiya sistemində məsləhətləşmə hərbi əməliyyat iştirakçılarının təcrübələrinin birləşməsinə, düşünmə qabiliyyətlərinin inkişafına, özlərinin fəallaşmasına və yaradıcılıqlarının yeni motivlərinin formalaşmasına, "özünün" axtarışına yönəldilməlidir. Biz problemin bu cür anlayışına hərbi əməliyyat iştirakçılarının məsləhətləşmə təcrübələrinin ümumiləşdirilməsi vasitəsilə gəlmişik. TSSS ilə hərbi əməliyyat iştirakçılarının uğurlu məsləhətləşməsi üçün dərdə şərik olma, səmimilik, fikir söyləmə və duyğu azadlığı mühitini təmin etmək lazımdır. Bu halda hərbi əməliyyat iştirakçıları istər - istəməz öz "Mən"-i ilə, nə cür olduğu və nə cür ola biləcəyi insan ilə qarşılaşırlar. Böyük psixoterapevt K.Rocersə müraciət edək : «Özün olmaq - təcrübənin gizlədilməsi üçün maskadan istifadə etməyə çalışmaq və ya onun malik olmadığı elə bir strukturu verməyə çalışmaqdansa şəxsi hiss və duyğularda mövcud olan vəhdəti və harmoniyanı tez açmaq deməkdir. Bu o deməkdir ki, real «Mən» - ona zorla vadar edilən bir şey deyil, şəxsi təcrübədə aramla, tələssiz açıla biləcək bir şeydir» [15, s. 398].

Qarabağ müharibəsi işturakçısı O. "iş arası" məsləhət üçün müraciət etmişdir, sanki öz problemləri haqqında ciddi şəkildə danışmağa cəsarət etmirdi. Məsləhətləşmə prosesində aydın oldu ki, o qısa müddətli içki düşgünlüyündən əziyyət çəkir, bu zaman özünü güclü və hər şeyin öhdəsindən gələ biləcək insan kimi hiss edir. Içki içmədiyi vaxtda sarsılmış, depressiya vəziyyətində olur. Onu heç bir şey sevindirmir. O sızıldayan, arası kəsilməyən, heç bir şey ilə bağlı olmayan ürək ağrısı çəkir. Hərbi əməliyyatlar bölgəsindən qayıtdıqdan sonra o orada yaşadıqlarını unutmağa və heç kəsi bu hekayələr ilə narahat etməməyə çalışmışdır. Əgər «dilini saxlamağa» müvəffəq olmursa, "zəif olmasına" görə güclü günah hissi keçirirdi. Psixoloq O.-nu özünün hərbi əməliyyatların ən parlaq təəssüratları haqqında danışmaq üçün həvəs oyatmağa müyəssər olmuşdur. Eyni zamanda psixoloq ona öz hissləri və öz həyat təcrübəsini olduğu kimi qəbul etməyi vadar edərək nəql etməyə icazə vermişdir. Tədricən, 4 məsləhətləşmədən sonra O.

"güclü qəhrəman maskasını taxdığını" və onu taxmağın çox ağır və ümumiyyətlə, mənasız olduğunu aşkar etmişdir. Eyni zamanda onda adi əhval-ruhiyyənin yaxşılaşmasına, ümid yaranmış və o özü-özü üçün maraqlı olmuşdur.

K.Rocers şəxsi inkişafın, yüksəlişin ən vacib müvəffəqiyyətlilik göstəricisi qismində "təcrübəyə açıq olmanı" qeyd edir. Buna rəğmən o psixoloji müdafiəyə qarşı ziddiyyəti, qarşılıqlı əlaqə imkanlarının və dünya ilə informasiya mübadiləsini genişlənməsini nəzərdə tutur. Təcrübəyə açıq olma istər - istəməz hərbi qulluqçunun həyatında dəyişən reallığa müvafiq olaraq yeni imkanların yaranmasına, köhnə təəssüratların keçməsinə, ozü və özünə münasibət haqqında təsəvvürlərin daha tez korreksiyasına gətirib çıxarır. Nəzərə alsaq ki, TSSS ilə hərbi qulluqçular keçmişdə "ilişib qalmağa meyllidirlər, planlaşdırmadan qorxurlar, qısaldılmış həyat perspektivlərinə malikdirlər, aşıq olmanın yüksəlməsinə yönəldilmiş psixoloji iş qaçılmaz olaraq şəxsi inkişafa, yüksəlişə gətirib çıxarır.

Qarabağ müharibəsi iştirakçısı olan P.-nı məsləhətləşməyə onda qeyri - adekvat reaksiyalar müşahidə edən həyat yoldaşı gətirmişdir. Əgər onu nə isə razı salmırdırsa, onda hadisələr təxminən bir ssenari üzrə inkişaf edirdi : o «qızışırdı», sonra bərkdən aşağıdakı mövzularda qışqırmağa başlayırdı : «biz müharibədə sizin kimiləri ...», daha sonra gücsüzlük, zəiflik hiss edərək hər şeyi atıb gedirdi. Qarşılıqlı münasibətlərin, xüsusilə də işgüzar münasibətlərin qurulması, demək olar ki, mümkün deyildi və bunun nəticəsində sosial statusun azalması baş verirdi. Psixoloq ilə birlikdə təhlilin nəticəsində müəyyən olunmuşdur ki, sosial gərginlik vəziyyətində psixoloji müdafiə mexanizmi işə düşür. "Sülh relslərinə keçməmiş" psixi vəziyyəti həyat və sağlamlıq üçün təhlükəli kimi qavrayırdı və yeni təcrübəyə "sızıb keçməyə" və "birləşməyə" imkan vermirdi. Bu cür vəziyyətlərdə bir neçə davranış strategiyası hazırlanmışdır, Qarabağ müharibəsi iştirakçısına stress reaksiyasını aradan qaldıran bir neçə özünü tənzimləmə (requlyasiya) üsulları təlim olunmuşdur. Yarım ildən sonra o öz reaksiyalarının emosional qızışma dərəcəsini azaltmağa müvəffəq olmuş, onda çətin sosial vəziyyətlərə qarşı maraq yaranmış və saf yumor hissi əmələ gəlmişdir.

K.Rocerin fikrincə, şəxsi inkişafın göstəricilərindən biri də insanın "öz orqanizminə inamıdır" [15, s.402].

Təcrübəyə açıq olan insan öz orqanizminə, öz emosiyalarına, öz duyumuna daha çox etibar edir. Daha bir əhəmiyyətli məqam : V.Franklinin fikrincə, «...insanlar öz həyatlarını etdikləri seçim yoli ilə qururlar. Hətta ən ağır vəziyyətlərdə belə, məsələn nasist həbs düşərgələrində olduqları zaman həyat və ölümə aid olan, sağ qalmaq üçün mübarizə aparmaq qərarı kimi vacib qərarlar qəbul etmək fürsəti mövcud olmuşdur». İnsan başqalarının dəyərlərini həyata keçirməməlidir və öz şəxsi dəyərlərini seçməkdə azaddır [6, s. 274].

Hərbi əməliyyatlar bölgəsində şəhid olmuş Qarabağ müharibəsi iştirakçısı S.-in dul qalmış həyat yoldaşı son beş il ərzində ərinin surətini əfsanələşdirərək, onun haqqında xatirələri qoruyub saxlayırdı. Onun yaddaşında, xatirələrində əri qüsurları olmayan ən yaxşı kişi kimi qalmışdır. Ona əziyyət verən yeganə şey - daimi, keçmək bilməyən itgi dərdi idi. Bu hiss itgi zamanı adətən yaşanan hisslərdən biridir [1, s.13].

Lakin əslində zaman keçdikcə bu hiss zəifləməli, sonra isə tamamilə yox olmalıdır. Insan yeni münasibətlər qura bilməlidir. Bunun üçün o bunları arzu etməlidir. Bu halda dul qadın yeni münasibətlər qurmamış, mərhumun surəti ilə ünsiyyət saxlayaraq, keçmişi ilə yaşamağa davam etmişdir. Ən maraqlısı isə o idi ki, onun ən yaxınları bu yaşayışı təqdir etmişdi. Onun yaşadığı həyat tərzinin təhlilindən aydın olmuşdur ki, o ərinin ölümünü duyğuları ilə hiss etməmişdir. Məsləhətləşmə prosesində psixoloq ilə birlikdə o baş verən itki ilə bağlı neqativ duyğuları aradan qaldıra bilmişdir. Beləliklə həmin qadın keçmişi deyil, gələcəyi düşünərək hazırda yeni xoşbəxt ailə qurmuşdur.

Qeyd etmək lazımdır ki, Qarabağ müharibəsi iştirakçısı K. yaşamaq və ya ölmək seçiminin onun ixtiyarında olduğunu ehtimal edir və hesab edirdi ki, ondan başqa heç kim buna görə məsuliyyət daşımayacaq. TSSS-in ən ağır əlamətlərindən biri suisidal cəhdlər və qəsdlərdir.

Qarabağ müharibəsi iştirakçısı K. yaşamaq istəməmək haqqında onda yaranan fikirlə əlaqədar o daim psixoloqa müraciət edirdi. Ona elə gəlirdi ki, ətrafda olan hər bir şey ordakı kimi deyil... İnsanlarla da uyğunlaşa, dostlaşa bilmir, onda daim təhlükə hissi mövcuddur və həyatda onun heç bir nailiyyəti yoxdur. Hər şeyin yaxşısını o artıq yaşamışdır. Sülh şəraitində hər şey başqa cürdür : insanlar dost deyil, bir - birinə rəqibdirlər. Şəxsi mənfəətləri üçün bir - birilərini aldada bilərlər, hər yerdə və hər zaman aldatmaq və hiylə işlətmək lazımdır. Bu cür dünyada yaşamaq nəyə gərəkdir? Əzəb - əziyyətlərin sonu gəlməyəcəkdir, buna görə də təbii ölümü gözləmədən onlara son qoymaq olar. Bu halda müştərinin niyyətlərinə qarşı öz münasibətimizi dürüstcə ifadə etməkdən və V.Franklın təklifinə görə, onunla «yaşamaq istəməmək səbəblərindən çox onun üçün yaşamaq mənası haqqında» müzakirə etməkdən başqa heç nə qalmırdı [9, s. 201].

Nəticə: Yuxarıda şərh edilənlərin əsasında belə bir nəticəyə gəlmək olar ki, emosiyalar insanın enerji təşkilini həyata keçirirlər. Bu cür təsəvvür anadangəlmə emosiyaların bioloji dəyərini anlamağa imkan verir. Emosional təəssüratların şüurluluq dərəcəsi müxtəlif cür ola bilər. Hər bir problem, o cümlədən də duyğu problemi - daxilən sonsuz olan və kənardan məhdud görünən kiçik bir kainatdır. Detalları biz nə qədər ətraflı şəkildə gözdən keçirməsək də, onlar duyğu mexanizminin yalnız kiçik detalları olaraq qalırlar.

Açar sözlər: instinkt, ehtiyac və motivlər, təhlükə hissi, astenik emosiyalar, orqanizmin enerjisi.

İstifadə olunmuş ədəbiyyat

1. А.В.Бабенко, Л.Н.Домашенко. Методические рекомендации для военных психологов при работе с посттравматическим синдромом. Ростов-на-Дону, 2000, 256 с.

2. Блум Ф., Лейзерсон А., Хофстедтер Л. Мозг, разум и поведение. М: Мир, 1988, 134 с.

3. Васильев И.А. Эмоции и мышление. М, 1980, 98 с.

4. Воронин Л.Г., Колбановский В.Н., Маш Р.Д. Физиология ВНД и психология. 122 с.

5. Грановская Р.М. Элементы практической психологии. Л, 1985,65с.

6. Глэддинг С. Психологическое консультирование. СПб, 2002, 274 с.

7. Джемс У. Психология. 1985, 95с.

8. Додонов Б.И. В мире эмоций. Киев, Издательство политической литературы, 1996, 280 с.

9. Кочюнас Р.Основы психологического консультирования. М, 1999, 288 с.

10. Популярная Медицинская Энциклопедия, // под ред. Б.В.Петровского. М, 304 с.

11. Психология эмоций. Тексты. // под ред. В.К. Вилюнаса, Ю.Б. Гиппенрейтер М., Мир, 1998, 340 с.

12. Рубинштейн С.Л. Основы общей психологии. М: Педагогика, 1989, 454 с.

13. Словарь практического психолога. Минск: Харвест, 1998, 208 с.

15. Теории личности в западно-европейской и американской психологии/ ред.-сост. Д.Я.Райгородский, Самара, 1996, 506с.

16. Шингаров Г.Х. Эмоции и чувства как формы отражения действительности. М., Наука, 1971, 164с.

Ильхам МИРЗОЕВ

ПСИХОЭМОЦИОНАЛЬНАЯ КОРРЕКЦИЯ ПОВЕДЕНИЯ УЧАСТНИКОВ КАРАБАХСКОЙ ВОЙНЫ

Резюме

На основании изложенного можно сделать вывод, что эмоции связаны с энергетической организацией человека, что позволяет понять и осмыслить биологическую ценность врождённых эмоций, их влияние на развитие человека. Эмоции отражают состояние, процесс и результат удовлетворения потребностей. По выражению эмоций можно с определенностью судить о том, что в данный момент волнует человека, т.е., что его беспокоит, какие интересы являются для него актуальными. В зависимости от ситуации эмоции побуждают человека к определенным действиям.

Ключевые слова: инстинкт, мотивы и потребности, чувство тревожности, астенические эмоции, энергия организма.

Ilham MIRZOYEV

PSYCHO-EMOTIONAL ADJUSTMENT OF BEHAVIOR OF THE PARTICIPANTS IN THE KARABAKH WAR

Summary

Based on the above stated we can conclude that emotions are related with energy organization of man, what allows us to understand the biological value of innate emotions. Emotions reflect the state, process and outcome of meeting the need. By expression of emotions one can definitely judge on what a person is concerned with at the given time, i.e what needs and interests are actual for him. The emotions depending on a situation impel a human to the certain actions.

Keywords: instinct, motives and needs, anxiety, asthenic emotions, the energy of the organism.

SİYASİ ELMLƏR BÖLMƏSİ

UOT 323

Şahin BAĞIROV
AMEA FSHİ, b.e.i.,
siyasi e.ü.f.d.

AZƏRBAYCAN ELİTASININ MÖVCUD KONFİQURASİYASI*

Müasir elmi – humanitar tədqiqatlarda "elita" anlayışı ən çox işlədilən sözdür. Elitanın sosial, iqtisadi və siyasi proseslərdə oynadığı rol barədə nəinki alimlər hətta siyasətçilər, yaradıcı insanlar, biznesmenlər də fikir yürüdürlər. Elitologiyaya öyrənilmə obyekti kimi politologiya, sosiologiya, tarix və psixologiya sahəsində rast gəlinir. Əgər əvvəllər politoloji tədqiqatlarda "liderlikdən", "xalq kütlələrinin rolundan" danışılırdısa, indi aparıcı rolu elita oynayır.Əslində, bu mövzunun Azərbaycanda elmi tədqiqatların gündəminə gətirilməsi akademik Ramiz Mehdiyevin adı ilə bağlıdır. R.Mehdiyev qeyd edir ki, Azərbaycanın müasir inkişafını müəyyən edən bir sıra məsələlərdə Azərbaycan cəmiyyətinin total transformasiyası nəzərə alınmaqla vaxtında təshihlər və dəyişikliklər edilməsinə ehtiyac var.Tamamilə aydındır ki, postmodern postsovet məkanındakı keçid cəmiyyətlərinin qapılarını getdikcə intensiv şəkildə döyür və bizim adət etdiyimiz davranış normalarını və stereotipləri tədricən dəyişir. Bu da tamamilə qanunauyğundur ki, həmin dəyişikliklər dövlətin və cəmiyyətin inkişafı prosesində müdafiə və amortizasiya xarakterli ovqat doğura bilər və doğuracaqdır. Bu, Tofflerin dalğalarının dəyişməsinin qarşılıqlı təsiri amilidir, bir dalğa digərinə transformasiya edir, yaxud ənənəvi cəmiyyətlər "Üçüncü dalğa"nın özü ilə gətirdiyi dəyişikliklərə məruz qalır (1).

"Siyasi elita" anlayışı yuxarı, elə bir imtiyazlı təbəqədir ki, cəmiyyətdə icraedici və təsiredici qüvvəyə malikdir. Qeyd etmək lazımdır ki, elita anlayışına müxtəlif yanaşmalar mövcuddur və onun müxtəlif formaları öyrənilir. Onlardan biri hakim elitadır. O, cəmiyyətdə həlledici rola-hakimiyyətə malikdir. Digəri isə meritokratiya nümayəndələridir ki, onlar – xüsusi istedada və şəxsi keyfiyyətlərə malikdir.

Siyasi elitanın formalaşması prosesində güc amilinin rolu barədə kifayət qədər rəy və dəyərləndirmələr mövcuddur. Odur ki, bu istiqamətlərdə olan tədqiqatlarda ilk öncə elita daxilində güc elementlərinin yeri və roluna diqqət yetirmək lazımdır. Azərbaycanda da bu amil özünəməx-susluğu ilə seçilir. Bu eyni zamanda bir tərəfdən mövcud geosiyasi reallıqda və əhəmiyyətli dərəcədə Azərbaycanın itirmiş olduğu torpaqlar və ən əsası isə hərbi – siyasi imiclə bağlıdır ki, uzun illər boyunca onun tarixi üçün ənənəvi olan təhlükəsizlik məsələsi olmuşdur. Digər tərəfdən ölkənin və hakimiyyətin gücünü təşkil edən yeni sahibkarlar sinfinin uzunmüddətli sığortasına zəmanət verməkdir.

Postsovet dövründə demilitarizasiya, dövlətlərin ayrılması, deideologizasiya, çoxsaylı iqtisadi islahatların keçirilməsi ona gətirib çıxartdı ki, ictimai fikirdə, eyni zamanda elitanın düşüncəsində şəxsi, həmçinin ictimai və dövlətçilik təhlükəsizliyi amili birinci sıraya çıxdı.

Azərbaycanın iyirmi illik müstəqil olan dövlət hakimiyyətində güc strukturlarının təsirini itirməməsi onun çoxəsrlik ənənələrindən irəli gəlir. Müasir reallığa gəldikdə isə reytinqindən aydın olur ki, güc strukturlarının nümayəndələrinin təsiri artmaqdadır. Lakin onlar indi (say və mövqeyinə görə) hakim və biznes elita ilə müqaisədə yerlərinə görə əvvəlki kimi yüksək bürokratiyadan geri qalır.

---

* Məqalə fəl.e.d., prof. Ə.Tağıyev tərəfindən çapa məsləhət bilinib.

Siyasi elitanın yeni konfiqurasiyası Azərbaycanın dövlətçiliyini və idarəçiliyini gücləndirər, ölkənin sosial iqtisadi dirçəlişini təmin edə bilər. Elitada digər dəyişikliklərə baxsaq, elmi-texniki və humanitar elitanın informasiya elitasına təsirini qeyd etmək olar. Bununla yanaşı o, həm də, müəyyən ierarxiya çərçivəsinə salınıb. Xarici müstəqillik və ambisiyalar onları ayrı istiqamətdə və təbliğat dərəcəsində araşdırılmasını labüd edir. Fəlsəfə elmləri doktoru, professor İlham Məmmədzadə qeyd edir ki, transformasiya prosesləri üçün əxlaq nümunələri və onları seçmək iqtidarında olan fərdin müəyyən azadlığı tələb olunur. Lakin bu nümunələr həm də müasirliyin tələblərinə cavab verməlidir (2,s.128).

Bu gün əvvəlki vətəndaş cəmiyyəti təqdimatı rolunu oynayan müstəqil toxunulmaz sosial tənqidçilər, siyasi-inzibati elita tərəfindən kənarlaşdırılıb, konvertasiya edilərək, hakimiyyətə xidmət alətinə çevrilib.

Paralel olaraq, analoji proses humanitar sahədəki ziyalıların da yeri və rolu ilə bağlıdır. Elm və texnikanın yaradıcı insanlarına - ziyalılara gəldikdə isə onlar subelita dərəcəsinə gəliblər, ancaq belə görünür ki, onun da elita ətrafı və elitar qruplara qayıdışı vaxtı çatıb. Azərbaycanda siyasi elitadakı prosesi dəyişikliklər inqilabi romantikadan və siyasi idarəçiliyin proqmatikləşməsi dövründən uzaqlaşmasından söhbət açmağa rəvac verir.

İqtisadi maraqlar fonunda axtarışlar və siyasi səhvlər dövrü yeni elitaya demək olar ki, inzibati resurslardan başqa heç nə qoymayıb. Qeyd olunmuş tendensiyalar azərbaycanlı etnogenezində və onun sosial kontekstində icazə verir ki, Azərbaycanda formalaşmış elitanın xüsusiyyətlərini aydınlaşdıraq. Bunlar ictimai münasibətlərdəki qeyri -ənənəvilik proseslərini göstərdiyi kimi, Azərbaycanın elitasının öz səviyyəsində inkişaf xüsusiyyətlərini göstərir. Bu planda biz istərdik ki, cəmiyyətmizdə müəyyən tip elitanın mövcudluğu haqqında yox, həm də onun siyasi proseslərə təsiri tendensiyalarına diqqət yetirək.

Söhbət sosial-siyasi proseslər baxımından yüksəkdə duran elita genezisinin müntəzəm təsirindən: vətəndaş cəmiyyəti institutlarının formalaşması, hüququ dövlət institutu, demokratik münasibətlərdən gedir. Əslində isə vətəndaş cəmiyyətində müxtəlif siyasi və sosial qüvvələrin həmrəyliyi baş verir, mövqelərin uzlaşması, mənafelərin inteqrasiyası üçün əlverişli şərait yaranır. Bütün bunlar cəmiyyətdə sabitliyin qərarlaşması üçün siyasi və iqtisadi xarakterli imkanların üzə çıxmasına da xidmət edir (3, s.396). Bütün bunlar ümumelektoral proseslərdə və elektoral "mətbəxtdə" özünü aşkarlayır.

Bunların kontekstində yeni termin "elitokratiyanı" təklif etmək yerinə düşərdi. Onun altında ənənəvi fikir yəni, siyasi hakimiyyət və siyasi idarəçiliyin, həmçinin cəmiyyətə təsir resurslarının elitanın əlində cəmlənməsi ilə yanaşı onun sosial məişət sferasında seçilməsi məqsədi: xüsusi zonaların ayrılması və mənzil tipləri, başqa tip nəqliyyat və hərəkət trayektoriyası (bahalı avtomobillər, ictimai nəqliyyatda biznesklas, ödənişli trasslar və başqaları) əlaqə vasitələri, özlərinin dükanları, xidmət servisləri, istirahət, özlərinin davranış qaydaları və mənəviyyatları, özlərinin hüquq məsləhətçiləri və s. Bütün bunlar kasta quruluşunu xatırladır, harada ki, imtiyazlı yerlər cəmiyyətdə elita təbəqəsinə verilir. Çünki siyasi hakimiyyəti, həm də cəmiyyətin varını və resurslarını öz əllərində cəmləşdirərək, heç kim tərəfindən hədiyyə olunmayan vətəndaşların azadlığını və həyatlarını da əllərinə alırlar. Həmçinin ümumi əmlak və resurslar da onların istifadəsinə keçir. Heç təəcüblü deyil ki, Azərbaycan ictimaiyyətində elita termini neqativ çalarla qəbul olunur. Ümumiyyətlə postsovet məkanında elitokratiyanın mövqeyi ilə paralel vətəndaş cəmiyyəti institutlarının deformasiyası da rus filosofu Aleksandr Starostinin fikrincə, belə bir formulanın ölçüləri ilə uyğun gəlir (4, s.50).

«vətəndaş cəmiyyəti» ⟷ «siyasi cəmiyyət»

və müasir Azərbaycan üçün qəbul olunmuş elitanı onun strukturunda "əyləşdirsək":



Azərbaycan şəraitində isə elita qrupları həm vətəndaş cəmiyyətindən həm də siyasi cəmiyyətdən ayrılaraq bilavasitə yuxarıda dayanır. Bununla yanaşı sosial və siyasi cəmiyyətin mexanizimlərinin maraqları fonunda siyasi struktura başqa cür yanaşmaq lazımdır. Məhz bu elitokratik təsir nəticəsində biz müasir Azərbaycanın hakimiyyət və sosial-siyasi maraqlarındakı deformasiyanı aydınlaşdıra bilərik.

Birincisi, cəmiyyətin sosial-siyasi maraqları siyasi partiyaların və ictimai hərəkatların fəaliyyət proqramlarında, hakimiyyət strukturlarında və mexanizimlərində öz əksini tapmayıb. Əhali "qırmızılara", "ağlara" və ya "yaşıllara" simpatiya edə bilər, ancaq hakimiyyətin strukturu və tərkibi elitokratiya ilə təsdiqlənir və təsdiq üçün elektorata təqdim olunur. Məsələn seçkilər zamanı elektoratın "qeyri-sanksional" davranışı zamanı nəticələrə "radikal dəyişikliklər" aparılır: ya səslərin sayı zamanı, ya da seçki komissiyalarının protokollarının sayı zamanı. Bu bir faktdır ki, konstitusiya hüquqları rəsmi olmasa da korrektə olunur.

İkincisi, partiya sisteminin ictimai tərəfdarlarının özü tam axıra qədər formalaşmamışdır, sosial-siyasi maraqları adekvat şəkildə ifadə etmir, müntəzəm olaraq dağılır, elitokratiya tərəfindən sonsuz sosial-mühəndis "tullantısına" məruz qalır. Beləliklə elitokratiya siyasi sistemi aksioner və məsuliyyətsizlik cəmiyyətinə çevirir ki, bu da gah yaranır, gah da dağılır.

Üçüncüsü, mövcud siyasi sistem bütün sosial-siyasi maraqları özündə əks etdirən, nümayiş etdirən konfuqrasiyanı eliktokratiyanın nəhəng kölgə sistemində sığortalamayıb, öz nümayəndələri tərəfindən sponsorlaşdırdığı və formalaşdırdığı siyasi arenanı şəffaf olmayan siyasi texnologiya vasitəsi ilə şəxsi və siyasi bürokratiya sistemini yaradır.

Yəqin ki, digər filtirləşdirici mexanizmləri də göstərmək olar. Ancaq qeyd olunanlar yetərlidir ki, "vətəndaş cəmiyyətinin" özünə adekvat siyasi sistemin yaradılmasının prespektivsizliyini başa düşək.

Bu gün elitanın öyrənilməsində şaquli aspektdən istifadə olunur,yəni siyasi elitanın dövlət və siyasi idarəçilik səviyyəsində yerləşdirsək: yüksək (mərkəz), regional (rayon, bölgə, ərazi), yerli; üfüqi aspektdə siyasi elitanın digər hakimiyyət sistemində təmsil olunan nüfuzlu elita qrupları "hakim sinifə" daxil olan (biznes-elita, hərbi-elita) ilə qarşılıqlı əlaqəsidir (5, s.67).

Azərbaycanda inzibati-siyasi elitanın təhlilində xüsusilə şaquli kəsikdə, yüksək elitanı vurğulamaq olduqca əhəmiyyətlidir. Müasir siyasi elitanın struktur xarakteristikasını verərkən inzibati idarəçilikdə rəhbər olan (respublikanın prezidenti, nazirlər) və onların müavinləri, yerli icra orqanlarının və qanunverici yığıncağın rəhbərlərini qeyd etmək lazımdır.

Bütün bunlar ondan xəbər verir ki, Azərbaycanda yerli elita ideoloji quruluşuna görə postsovet adlansa da, nəzərə çarpacaq dərəcədə sovet reallığından uzaqlaşsa da sosial mənşəyinə, peşəkar fəaliyyətindəki metodları və idarəçiliyi əvvəlki sovet siyasi elitasının cizgilərini daşıyır.

Azərbaycanda siyasi elitanın polietnik regionlardakı konfiqurasiyasının öyrənilməsi daha maraqlıdır. Etniklər yaşayan ərazilərin inzibati-siyasi elitası mərkəzlə yerli elita və əhali arasında vasitəçi rolunu oynayır. Ona görə onların mentalitetində bir tərəfdən ümumxalq yanaşmalarını özündə əks etdirməklə, mərkəzin qarşısında məsuliyyət daşıyır. Digər tərəfdən yerli sosial və siyasi maraqları, həmçinin özünəməxsus regional mentaliteti nəzərdən qaçırmaq olmaz. Məhz bu

keyfiyyətlər respublikanın hakim elitasına etnokratik görkəm verməklə, elitanı formalaşdıran vektorun faktorları kimi çıxış edir.

Müasir dövrdə xalqların idarəçiliyinin yeni səviyyəsinə keçməyin ən mühüm vasitəsi regionallaşmadır. Lakin, bunu Azərbaycana aid etməyimiz gülünc görünərdi. Çünki artıq Azərbaycanda bu amil çox eybəcər şəkildə forma alıb. Regionlaşma yox, regionçuluq ölkədə suallar doğuran problemə çevrilib. Nəinki idaretmə sistemində, hətta siyasi elita üçün məlum bölgə, məlum tayfa ibarələri şamil olunur ki, insanlar bunları təkrarlamaqdan təngə gəlmişlər. Azərbaycanın siyasi, iqtisadi, hakimiyyət, müxalifət, biznes və s. elitalarının məhz prezident və onun yaxın ətrafının regionundan formalaşması Azərbaycan vətəndaşlarında ciddi narahatçılıq doğurur. Lakin, Rusiya üçün bunu demək absurddur.

Qeyd edək ki, 90-cı illərdə mərkəzlə regionlar arasında idəraçiliyin zəifləməsi, hakimiyyətin yerli orqanlara həvalə edilməsi, qonşu Rusiyanın yeni etno-sosial subyekt kimi formalaşdırılmasına sübutdur. Son zamanlar bu prosesin qarşısı biraz alınmışdır, onlar üzərində nəzarət federal dairələrə verilmişdir. Lakin münasibətlərin ümumi dəyişdirilməsi hələ də baş verməmişdir.

Respublikaların siyasi elitasının etnizasiyası – çətin və çox mürəkkəb fenomendir. Odur ki, onların sıralarında mexaniki olaraq hər etnosun respublikalarda titullu nümayəndələrinin sayını artırmaq bir qayda olaraq dəbə minib. Həmçinin bu tendensiya daha çox izlənir. Etnosların titullu nümayəndələrinin sayının artırılması bazasında Azərbaycanın birbaşa siyasi elitasının xarakteristikasına gələndə qeyd edək ki, hakimiyyətin tərkibi respublikanın milli tərkibinə həmişə uyğun gəlir, nəinki regional tərkibinə… Deməli hazırda respublikanın hakim dairələrinin tərkibində kifayət qədər etniklər təmsil olunur. Belə kadr seçiciliyi müxtəlif münaqişələrin, narazılıqların qarşısını alır, millətlərarası münasibətlərə müsbət təsir göstərərək, haqsız miqrasiyaların, köklü olmayan əhalinin həmin respublikalardan getməsi problemini aradan götürmək məqsədi daşıyır. Yerli özünüidarəetmə orqanları da prosesə stimul versə də köklü dəyişiklik yaratmayıb.

Siyasi elitanın struktur və funksiyalarının anlaşılmasında böyük əhəmiyyət kəsb edən amil kimi həm də siyasi-inzibati və sosial idarəçiliyin yeri və rolu, həmçinin onların digər elita qrupları ilə, ən əsası biznes-elita ilə əlaqəsinə baxmaq lazımdır (6, s.15).

Sahibkarların siyasi hakimiyyətlə əlaqələrinin ümumi mənzərəsi çoxversiyalı olmaqla mərkəzdə və rayonlarda müxtəlif formalarda səhmanlanır.

Daha geniş yayılmış formalar birbaşa və dolayı olan əlaqələrdir. Azərbaycan biznesi keçmiş tarixi dövrlərdə olduğu kimi onun inkişafına "imkan verən" bürokratik strukturlara tabedir və səlahiyyət cəhətdən ondan ehtiyat edərək məsafəli münasibəti ilə fərqlənir. O, öz kütləsində hakimiyyətə partnyor kimi yox, xidmət-obyekti və ya "arxa" kimi baxır. Bir çox iri sahibkarlar hakimiyyətə daxil olur və ümumi-yaradılmış siyasi hərəkat fonunda onu başa düşürlər. Yəni, onların siyasi proseslərə təsiri o zaman mümkün olur ki, fikir və maraqları siyasi-inzibati elita ilə üst-üstə düşür. Biznes elitanın siyasi hakimiyyətdə müəyyən mövqe tutması hələ tamamlanmayıb ya da onlar hakim elita tərəfindən manelərə rast gəlirlər, çünki mövcud elita, biznesmenləri həmişə ikinci planda qoymaq istəyir.

Hazırda Azərbaycanın regionlarında biznesin və elita əlaqələrinin bir neçə modeli mövcuddur. Birinci model "patronac" yəni, hakim elitanın biznes üzərində diktəsini təklif edir. İkinci model "əməkdaşlıq" hakimiyyət və biznesin təsirli qarşılıqlı əlaqəsi başa düşülür. Üçüncü model "hamının hamıya qarşı mübarizəsi" burada hakimiyyəti iqtisadi elita formalaşdırır (7, s.37).

Azərbaycanın rayonlarında bütün modellər mövcuddur, ancaq ekspertlərin qənaətinə görə "patronac" daha geniş yayılıb.

Müasir Azərbaycanda hakim elita ilə biznes elitanın ümumi mənzərəsini verərkən qeyd etmək vacibdir ki, bütün hallarda və vəziyyətlərdə onların əlaqələrində əsas vektor dilemma olaraq qalır: "milli maraqlar" və "qlobal oriyentasiyalı" maraqlar. Müasir dövrdə qlobal oriyentasiya aparıcı xarakter daşıyır, milli isə bizim fikrimizcə taktik xarakter kəsb edir. O ki,

qaldı «elita-cəmiyyət» münasibətlərinə burada elitokratik tendensiyalar yuxarıda qeyd olunmuş səviyyədə hakim rol oynayır. Hətta son zamanlar bu tendensiyaların güclənməsi haqqında daha geniş danışmaq olar. Bu, elitanın aristokratik və demokratik ideyalarının sönməsinə, müasir elitanın hakimiyyətə gəlməsi və varlanması xarakteri daşıyır (8).

Belə tendensiya inzibati-siyasi elita ilə ziyalıların qarşılıqlı münasibətlərinin yenidən qurulması zamanı da müşahidə olunur. Burada xüsusi ilə dayanmaq lazımdır, çünki elitadaxili əlaqələrin formalaşmasında ziyalı elitanın da yerini qeyd etmək mühüm hadisə kimi əsas rola malikdir. Qeyd edək ki, Azərbaycanın bu günkü ziyalı elitası Avropa elitasından fərqlənərək ideokratik forma daşısa da sovet ziyalı elitasından fərqlənir.

Qeyd etmək lazimdir ki, yüzillər ərzində bu və ya digər faktorların təsiri nəticəsində ziyalıların Azərbaycanda siyasi proseslərdə iştirakı görünən idi və müəyyən mənada afişə olunurdu. Bunu Rusiya və digər postsovet respublikalarına da aid etməyimiz yerinə düşərdi.

Bizim fikrimizcə rus yazıçı V.V.Kocinov bunu çox incə şəkildə ifadə etmişdir: "Xüsusi səy göstərmədən təsdiq etmək olar ki, Rusiya ziyalıları Qərblə analoji olaraq demokratik institutların və idarələrin rolunu oynayaraq xalq və dövlət arasında vasitəçi kimi çıxış edir" (9, s.5).

Burada biz də Azərbaycan elitasında Avropa elitasından fərqlənən rasionallıq və peşəkarlıq kimi keyfiyyətlərlə rastlaşırıq. Azərbaycanda həqiqətən ziyalılar dini lider kimi çıxış edərək sanki, nüfuz baxımından dini sıxışdırmış və özü onun yerini tutmuşdur.

Qeyd edək ki, XX əsrdə keçmiş SSRİ ərazisində baş vermiş inqilabi hadisələr solçu ziyalıların qələbələri ilə başa catmış və ona öz ideoloji layihələrini həyata keçirməyə imkan vermişdir. Bu dövrdən sonra ziyalıların idarəçilikdə elmi-texniki inkişaf göstəriciləri hesabına ideoloji çərçivədən kənar «yeni ziyalılar» formalaşdı. Köhnələrlə yenilərin qarşıdurması prosesi ölkəyə xeyli yeniliklər gətirdi. Vaxtilə Sovet ədəbiyyatcıları obrazlı olaraq bunu mədəni inqlab adlandırır yəni bunun yeni elmi və mədəni elitanın formalaşması prosesi olduğunu qeyd edirdilər. Sovet cəmiyyətində belə sosial və iqtisadi proseslərin inkişafı elə bir mərhələyə gəlmişdiki, Avropa bunu "kütləvilik cəmiyyəti" və ya "kütləvi tələbat cəmiyyəti" adlandırdı. Belə etap yetərli dərəcədə malların ideya və informasiyada hərəkətinin müstəqilliyini tələb edir. Bu proseslər sovet dövründə bütün sferalarda: iqtisadiyyatda, mədəniyyətdə, elmdə və istehsalatda özünü göstərirdi. 70- ci illərdən başlayaraq, mədəniyyət və yaradıcılıq sahəsindəki bütün proseslər yazıçıların ətrafında baş verirdi, "qalın" jurnallar əsasında, özünəməxsus "ədəbiyyat-jurnal partiyaları" formalaşırdı.

Qruplaşmalarla yanaşı praktik olaraq, eyni vaxtda daha böyük cərəyan "nizamlararası" hərəkat – liberal – qərbçilər, mühafizəkar–rusofillər, yeni leninçilər, yeni stalinçilər və s. formalaşırdı. Proseslər ona gətirdi ki, "mədəni pluralizm" adlanan və sovetin ideokrat sisteminin dağılmasını sürətləndirən amil meydana gəldi. Ancaq yenidənqurma zamanı ziyalı elita əvvəlki ideya liderliyini qoruya bilmədi. Ziyalı elitanın hakimiyyətinin bir hissəsinin yeni bürokratiyanın və burjuaziyanın əlinə keçməsi demokratikləşmə şəraitində hakimiyyətin nomenklatura kapitalizminin əlinə keçməsinə səbəb oldu. Yeni "mədəni inqlab" bağlandı. Ziyalı elitanın müasir Azərbaycan cəmiyyətində yerini araşdırsaq onun millidərkdən çox kənarda qaldığını görərik. O, dövlət dəstəyini itirdi, bədii jurnalların, çıxan kitabların tirajları, kinoprokatların, filarmoniyanın fəaliyyətinin, görünən dərəcədə teatrların və nümayişlərin ziyarəti dəfələrlə azaldı.

Postsovet quruluşuna keçid dövründə ziyalı elitanın bir hissəsi yenidən yarandı və liderlik rolunu üzərinə götürdü. Yaradıcı ittifaqlar və digər təşklatlar 7-10 illik liderlik rolunu itirdi. Millətin "xaç atası" yerini hazırki informasiya elitası və onun nümayəndələri tutdu. Aydindir ki, ziyalı elitasında olduğu kimi mənəvi-mədəni kompleksdə də dərin yenidənqurma prosesi gedir. Onun tendensiyalarını bir çox məqamlarda intellektual elitanın siyasi elita ilə qarşılıqlı əlaqəsi təyin edir.

Belə ki, postsovet siyasi sistemindəki şəraitdə ziyalı elita ilə siyasi elitanın qarşılıqlı əlaqəsi cətinləşdi. Bu yalnız sosial-siyasi sistemin dəyişməsi ilə bağlı deyil. Əlbəttə sovet ideokrat sistemi

çox dəqiq şəkildə ziyalı elita ilə siyasi elitanın arasındakı əlaqələri çox dəqiq şəkildə tənzimləyirdi və ziyalı elitaya bu ierarxiyada nüfuzlu yer verirdi. Eyni zamanda siyasi elita da hakimiyyəti öz əlində cəmləşdirərək vahid mərkəz yaradırdı. Mərkəzləşdirmənin modelinin dağılması ilə postsovet siyasi arenasında bir neçə təsirli fraksiyalar yarandı. Digər tərəfdən ziyalı elitanın özü də "dağılaraq" müxtəlif mənəvi-ideoloji fikirlərdə birləşən qruplara qarışdı.

Bütün bu sadalanan oriyentasiyalar müxtəlif yeni siyasi fraksiyalarda təyin olunur və hakimiyyətdə şaquli asılılıq prinsipinə görə (mərkəz, region) və mövqeyində asılı hakimiyyətə təsiri (hakim elita və müxalif elita). Bütün bunlar siyasi və ziyalı elitanın qarşılıqlı təsirindən təsirlənərək qarışıq şəkil yaradır.

Verilənlərin analizi deməyə imkan verir ki, Azərbaycanda keçid prosesində iki fundamental hadisə oldu: bir tərəfdən hakim elita əvvəlki ziyalı elitanın tərkibindən çox dar ziyalı qrupunu götürdü və elmi mədəni dairələrə, ziyalıların böyük hissəsinə əvvəlki dəstəyini kəsdi. Bu gün onlar rayonlarda idarə rəhbərlərinin köməyi ilə fəaliyyət göstərir. İdeoloji təsir vasitələri daha möhkəm və fəal taktika üzərində qurulmuşdur (əhalinin irrasional-emosional sferasında) ideoloji təsir vasitələrində məlumat – təbliğat faktorunun hissəsi artırılmışdır. İnformasiya elitasının maliyyələşməsi səviyyəsi artmışdır.

İkinci fundamental dəyişiklik yeni ziyalı elitanın dünyagörüşünün dəyişməsidir. Əvvəlki dərketmənin sovet (sosialist), qərb (burjuaziya) dəyərlərinin yerini mühafizəkar – liberallar tutmuşdur. O ki, qaldi ziyali elita və müasir Azərbaycan elitasının qarşılıqlı inkişaf modelini üç yerə ayırmaq olar: patronajlıq, münaqişə və əməkdaşlıq. Əməkdaşlıq modelinin altında "xidmət" modelini ayırmaq olar, çünki ziyalı elitanın bir hissəsi uzaqdan idarə olunur, hakimiyyət tərəfindən verilən sifarişlə işləyir. Belə desək, kim çox pul versə ona xidmət göstərir. Bununla yanaşı ziyalı elitanın bir hissəsi müstəqil olduğunu nümayiş etdirir. O, müstəqil subyekt kimi çıxış edərək qohum bürokratiya və siyasi qruplarla alyansa girməyə namizəd olduğunu sübut edir.

Həmçinin qeyd etmək lazımdır ki, ziyalı elitanın sosial bazasının fəaliyyət səviyyəsindən asılı olaraq dəyişir (mərkəz və yerli). Mərkəz səviyyədə elita güclüdür, siyasiləşib, qərb mədəniyyət norma və dəyərlərinin formalaşmasında baza rolunu oynayır. Və onun yeni generasiyası keçmiş qərb submədəniyyətində yaşayır. Mərkəz elitanın müxalifətində mərkəz və yerli ziyalı elita nümayəndələri dayanır ki, onların oriyentasiyası milli dəyərlərə söykənir. Onun inkişaf tendensiyaları milli mənsubiyyət, əvvəlki dövrlərdəki mədəni dəyərlərin yenidən hazırlanması ənənələrinin inkişafında dayanır.

Azərbaycanda siyasi elitanın inkişafı probleminin müzakirəsinin sonunda bir neçə məsələləri qeyd etmək lazımdır.

Müasir cəmiyyətin prespektivi nöqteyi-nəzərindən özündə müxtəlif subelitanı birləşdirən demokratik elitanı aristokratik, qapalı kastaya çevirməməkdir. O, açıq, çevik, daima yenilənən olmalıdır. Əks halda onu parçalanma, yenilmə gözləyir. Bu da bürokratiyanın, elita üçün məhv-edici olan korrupsiyanın və digər elementlərin yaranması deməkdir ki, dövlətdə təşkilatlanmanın, inteqrasiyanın qıtlığından asılıdır.

Yeni elita cəmiyyətdə stabilliyin, inkişafın getməsində maraqlı olmalıdır. Azərbaycan mədəniyyətinin dəyərlərinə sadiq qalmalı və onu qorumalıdır. Yalnız belə elita siyasi qüvvələrin qarşılıqlı anlaşılmasına, vətəndaş sülhünə, yerli idarəçiliyin inkişafına, daimi yeni praqmatik nailiyyətlər əldə etməyə nail ola bilər.

Yeni elita meritokratik, məsuliyyət elitası olmalıdır. İmtiyazlılar elitası yox. Ehtiyatsızlıq yeni hakim elitada bir çox təhlükəni birləşdirə bilər. Cəmiyyətə özünü despotist elita olmaqdan sığortalamaq üçün bir neçə şərtlərə riayət etmək lazımdır:

- tam azadlıq – söz azadlığı, kütləvi informasiya vasitələrində, eləcə də istənilən sosial qruplarda inhisara yol verməmək, hakimiyyətin hər hansı səhvini tənqid etmək;
- güclü müxalifətin – kontrelitanın, siyasi plüralizmin, elektoratın nəzarəti altında potensial elita azad rəqabətini təmin etmək;

- hakimiyyətin bölünməsi, tarazlığı təmin edən kompromis, müxtəlif sosial qüvvələr yəni, idarəolunmaz, cəmiyyət üçün təhlükəli olan siyasi hakimiyyətə yönəlmiş birliklər arasında balans yaratmaq;
- elitanın bütün sahələrində maksimal açıqlıq, müntəzəm olaraq onun sıralarını peşəkar hazırlıqlı insanlarla doldurmaq;
- daima hakim dairələrin fəaliyyətinin cəmiyyət, kütləvi informasiya vasitələri, partiyalar və təşkilatlar tərəfindən nəzarətinə şərait yaratmaq;
- qanuna riayət olunmasına güclü nəzarət etmək, inkişafı təmin edən demokratik norma və prosedurların, dövlət və vətəndaş cəmiyyətini normallaşdıran qaydaları tənzimləmək; (10, s.35).

Məhz bu yollarla qurulan daha effektiv elita indiki və gələcək Azərbaycan inkişafını yaradar, həm öz hakimiyyətini və maraqlarını müdafiə edər, həm də öz ölkəsinin stabil, dinamik inkişafını və xalqının rifahını, eyni zamanda dövlətin çiçəklənməsini təmin edə bilər.

Açar sözlər: siyasi elita, humanitar sahə, elektorat, ziyalı elita, seçki, vətəndaş cəmiyyəti.

İstifadə olunmuş ədəbiyyat

1. Mehdiyev R.Ə. Zaman haqqında düşünərkən və elitanı transformasiya edərkən: varislik və innovasiyalılıq. «Xalq qəzeti», 30 dekabr 2008-ci il.
2. Məmmədzadə İ.R. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında. Bakı, «Təknur», 2009, 220 s.
3. Əfəndiyev M.Ə. Politologiya. Bakı, «Elm», 2011, 492 s.
4. Старостин А. Современные российские элиты: на пути к новой конфигурации // Власть, №7, 2003, ОАО «Интус».
5. Охотский Е.В. Политическая элита и политика. М., 1978.
6. Нарта М. Теория элит и политика. М., 1959.
7. Миллс Р.И. Властвующая элита. М., 1959.
8. Соловьев А.И. Политология: политическая теория, политические технологии. М., 2000.
9. Понеделков А.В. Политическая элита: генезис и проблемы ее становления в России. Ростов-на-Дону, 1995.
10. Гаман-Голутвина О.В. Политические элиты России. М., 1998.

Шахин БАГИРОВ

СУЩЕСТВУЮЩАЯ КОНФИГУРАЦИЯ АЗЕРБАЙДЖАНСКОЙ ЭЛИТЫ

Резюме

Статья посвящена исследованию одной из важных проблем политической науки. В статье автор анализирует процесс формирования элиты в Азербайджане и в постсоветских республиках. Наряду с этим, он выдвигает свои идеи, осмысляет тенденции развития элит.

Рассматривая конфигурацию элиты в Азербайджане в области экономики, бизнеса, во власти, автор выдвигает свои предложения, связанные с её структурными возможностями.

Ключевые слова: политическая элита, гуманитарная область, электорат, интеллигентная элита, выбор, гражданское общество.

Shahin BAGHIROV

THE CURRENT CONFIGURATION OF AZERBAIJANI ELITE

Summary

The article is dedicated to the investigation of one of the important problems of political science - the current configuration of Azerbaijani elite. In the article the author analyses the process of elite formation in Azerbaijan and in post-Soviet republics, at the same time he puts forward his ideas and claims connected with this problem.

Considering configuration of elite in Azerbaijan in the sphere of economics, business, power the author brings forward proposals, related to its structure opportunities.

Keywords: political elite, humanitarian sphere, electorate, citizen society, intellectual elite, choice, civic society.

УДК 327; 930

Аида ЮСИФЗАДЕ
Доцент кафедры «Общественных наук» АГНА

ПОЛИТИЧЕСКАЯ ГЛОБАЛИСТИКА И ОСОБЕННОСТИ СОТРУДНИЧЕСТВА В МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЯХ*

Процессы мирового развития в начале XXI в. рассматриваются сквозь призму глобализации. Ее суть – в резком расширении и усложнении взаимосвязей и взаимозависимостей народов и государств. Это новая стадия общественного развития в общепланетарном масштабе. Вместе с тем это и новое качество социальных связей и общественных процессов, ставших возможными благодаря достижениям науки и техники, воздействующих на все сферы жизнедеятельности человека.

Глобализация подготовлена всем ходом исторического развития и естественно продолжает процесс интернационализации, интенсификации международных контактов политических сил, национальной солидарности, сотрудничества. Она положила конец изолированному существованию стран и народов, воздействует на мирохозяйственные связи, регулирование международных отношений.

В условиях глобализации формируется ее отдельная ветвь политическая глобалистика, которая изучает особенности мировой политики и международных отношений. В статье мы рассматриваем проблему взаимодействия мировой и азербайджанской политики, развития политической науки в нашей стране, ее вовлеченности в мировую политику. Изучение политической глобалистики начинается с обоснования методологии подхода и анализа основных понятий политической глобалистики.

Сегодня в мировую политику вовлечены не только государства, но и различные организации, движения, бизнес-структуры. Одновременно практически каждый человек, так или иначе, оказывается вовлеченным в мировую политику или испытывает на себе ее воздействие. Для Азербайджана очень важно вовлечение в мировую политику прежде всего политической элиты и политической науки, так как их понимание мировой политики, сферы международных отношений способствовало бы ускорению многосторонней модернизации страны, вовлечению ее в мировые процессы.

Специалисты из разных областей знаний утверждают, что роль государства в условиях глобализации претерпевает кардинальные изменения. Однако по этому поводу существуют разные трактовки, связанные с различным отношением к глобализации. По мнению одних, роль государства резко снизится, по мнению других, произойдет перераспределение политической власти между государством и наднациональными организациями и государство уступит им часть своего суверенитета. Но во всех концепциях признается, приоритет экономического фактора, который оказался политикообразующим, а следовательно и ведущим. Все эти предположения исходят из того, что процесс изменений является линейным.

Демократизация, либерализация, открытость экономики, формирование мирового рынка, унификация подходов к проблемам безопасности в современном мире определяют внутреннюю и внешнюю политику большинства государств и народов мира,

* Məqalə fəls.e.d., prof. İlham Məmmədzadə tərəfindən çapa məsləhət bilinib.

всех политических сил. Возрастает влияние транснациональных негосударственных образований – этнических диаспор, религиозных движений, глобальных фирм.

Мировое сообщество целенаправленно идет к формированию цивилизационной модели, основанной на либеральных ценностях, приоритете прав и свобод человека гражданского общества и демократического самосознания. Сегодня идет процесс интенсивных взаимосвязей между государственной экономикой наций-государств и мировым хозяйством. Вовлечение различных государств в мировое хозяйство, их сотрудничество в рамках мировой экономики различно и оценивается по таким показателям, как доля экспорта и импорта в валовом внутреннем продукте страны, объем зарубежных инвестиций, приток и отток платежей по обменным технологиям и т.д. Позиции Азербайджана в международных организациях укрепляются. Сегодня главная задача заключается в создании всемирного порядка, способного поддерживать «единство в многообразии», призывающего к диалогу культур и сотрудничеству наций в соответствии как с определенными универсальными правилами, так и с внутренними социальными нормами. Азербайджан свою политическую систему не должен копировать с каких-то других образцов, он должен найти свой собственный, отражающий политические и культурные особенности путь к глобальной экономической и политической системе. Азербайджан – это независимая цивилизация, являющаяся частью международного сообщества.

Понимание международного порядка – это состояние системы межгосударственных отношений, связанных со степенью ее стабильности.

Глобализация - многомерный процесс, и мировое сообщество начинает жить в многомерном мире. Естественно, если сообщество стремится к развитию, то системы управления должны усложниться. В этих условиях государство не только обрастает дополнительными компонентами, но превращается в нелинейную динамическую систему, где культура, мораль, ценности граждан, наряду с экономикой и политикой, приобретают важную роль.

Деление государств на демократические и недемократические не раскрывает все особенности государств. Достаточно отметить, что число демократических государств и с высоким уровнем дохода составляет всего примерно 15% от всех государств.

Среди множества различных участников (политической элиты) есть те, кто активно формирует мировую политику, выступает со своими проектами развития глобального мира, отвечает на вызовы современного мира и т.д. И азербайджанская политическая элита и наука должны стать частью глобальной политики, оказаться среди «создателей» мировой политики, выйти за пределы границ своего государства. Азербайджан, как нефте- и газодобывающая страна обладает достаточными ресурсами, чтобы быть в составе транснациональных факторов, т.е. влияющих на мировую политику. Для того чтобы реализовать эти ресурсы, недостаточно экономических стратегий и действий, необходим учет особенностей современного мира, трансформация и развитие государства. В азербайджанской политологии упор, к примеру, делается на изучение национального государства, формирование государства в переходный период и т.д. Между тем, лишь в немногих трудах ставится задача понимания особенностей политической картины мира, осмысление связей между устройством государства и его поведением на международной арене. Проблема здесь в непризнании связей, а в их отслеживании. Кроме того, сложным представляется изучение межгосударственных конфликтов, поиски их решения несиловыми методами, пути трансформации национального государства и т.д. Чтобы понять закономерности развития современной

политической картины мира, необходимо указанные проблемы анализировать сквозь призму теории цивилизации и глобализации.

Мировой политикой называют процессы выработки, принятия и реализации решений, затрагивающих жизнь мирового сообщества. Исходя из этого, проблемы мироустройства и мирорегулирования осуществляются государством, союзами, группами государств. Международные отношения подразумевают внешнеполитическую деятельность государств - субъектов международных отношений, что обеспечивает реализацию их потребностей и интересов на международной арене.

При реализации сотрудничества политических сил и национальной солидарности необходимо исходить из целей и задач международной политики: что движет деятельностью государств на международной арене? Во имя чего они вступают во взаимодействие друг с другом? По мнению реалистов, в международной политике лидерами государств выражаются преимущественно национальные интересы - коренные потребности национального государства.

Сегодня мир интересуют следующие вопросы: каким будет политическое разделение в новом веке? Возникнет ли новая бюрократия, концентрирующая в своих руках военные и информационные ресурсы и обладающая поистине безграничной властью над миром? Или ее не будет и мир разделится по каким-то новым границам? Какие критерии будут положены в основу разделения этих границ, как они будут идентифицированы? На эти вопросы можно ответить, изучив соотношение понятий национального, национализма и постнационального.

Национальные отношения – это не единообразные по своему содержанию, а многогранные как и сама нация комплексные отношения. Поэтому их нельзя сводить к экономическим, политическим, религиозным и другим отношениям. Структура политических отношений Южного Кавказа обусловлена наличием государственных организаций, проводящих политику сохранения единой политической сферы. Представители различных этносов в многонациональном государстве Азербайджан отличаются системой ценностей, социальными нормами, стилем поведения, социальной психологией, индивидуальным сознанием. В силу этого национальное становится частью государственной политики, главной осью политической жизни республики.

Мы являемся свидетелями интенсивных процессов интеграции стран, формирования глобальных экономических союзов, выстраивания национальных институтов управления политическими и социально-экономическими процессами.

В современном мире государства вынуждены считаться , с одной стороны, с международными организациями и институтами, с другой стороны, со своими корпорациями, регионами, мегаполисами, которые активно выходят на международную арену, развивая культурные, торговые, экономические и другие отношения. В политической науке утвердилось мнение, что государства вынуждены смириться с некоторой ограниченностью деятельности во многих сферах, которые ранее были в его компетенции: в обеспечении национальной безопасности; в создании условий для устойчивого развития страны; в поддержании внутреннего порядка, борьбе с терроризмом, коррупцией и т.д.; в гарантировании гражданских свобод и прав человека; в защите окружающей среды.

Американский исследователь С.Краснер отмечает, что изменилось понимание «вестфальского суверенитета» - это когда политическая организация основывается на том, что внешние факторы не могут влиять на внутреннюю политику. Размывание «вестфальского суверенитета» было неизбежно, так как он относился только к большим

государствам, а малые государства как и в прошлом оставались под их влиянием, то есть о суверенитете можно говорить лишь условно. Анализируя итоги первой мировой войны, английский ученый Х.Николсон писал, что после войны изменилось содержание суверенной власти.

Вслед за изменением содержания суверенитета начинают размываться нормы и принципы международного права. На практике они вступают в противоречие друг с другом, как например, противоречие между неприкосновенностью границ и правом на самоопределение в нашей стране. Но в международном праве можно увидеть противоречия и между принципом невмешательства во внутренние дела и в оказании гуманитарной помощи, в силовом вмешательстве в конфликт с целью сохранения мира (Устав ООН, глава VII). Таких противоречащих друг другу норм и принципов в международном праве немало и они ведут к тому, что пустоты в нем заполняются деятельностью США как мировой державы, выступающей в качестве мирового правительства.

С точки зрения современных политологов, экономистов, правительство можно рассматривать как поставщика услуг. Экономисты первыми назвали эти услуги «общественными благами» и главное из них, в отличие от прошлых эпох, личная безопасность граждан. Правительство гарантирует ее, поскольку обладает монополией на вооруженную силу. Если правительство не может обеспечить личную безопасность граждан, то оно теряет свое право на суверенитет. Сотрудничество политических сил должно быть нацелено на снятие всех болезненных проблем, в том числе и сохранение территориальной целостности, мирное развитие процессов, исключения противостояния в обществе, создание условий для осуществления демократических реформ. Вместе с тем необходимо оградить граждан от экономических потрясений, осуществить поэтапное решение Карабахской проблемы, создание условий для национальной солидарности всем национальным и этническим группам, проживающим в Азербайджане. Укрепляя свою свободу и независимость, народ Азербайджана приступает к строительству гражданского общества и правового государства, открытого для сотрудничества со всеми государствами мира на принципах равноправия и взаимной выгоды.

В азербайджанской философии и политике акцент делается на изучении национальных проблем и идеологии азербайджанизма. Следует подчеркнуть, что некоторые наши ученые исходят из того, что национализм аморален и предпочитают использовать понятие «этничность». Отметим, что в современной философской литературе, во-первых, различаются понятия «этничность» и «национализм», а во-вторых, дифференцируются понятия «здоровый» и «больной» национализм. По нашему мнению, правильнее использовать понятия «позитивный» и «негативный» национализм.

Для азербайджанской философии проблема национализма в современную эпоху авктуальна еще и потому, что многие западные исследователи считают, что в эпоху глобализации значимость национализма уменьшается. На постсоветском же пространстве большинство исследователей уверены в том, что становление государственности требует распростарения идей национализма. Возникает как бы противоречие между нашим пониманием процессов, идущих в западном мире и процессов, идущих на постсоветском пространстве. Однако противоречивость тут только кажущаяся, так как глобализация и на самом деле есть феномен, влияющий на идеи национализма, усложняющий его понимание, но не отменяющий эти идеи. Западные философы и этики считают, что национализм теряет свое значение в том смысле, что проблемы плюрализма, гражданских свобод, открытого общества

оказываются будто бы важнее, чем проблемы государственного суверенитета, национального развития и т.п. Но плюрализм, гражданские ценности, ценности открытого общества лишь меняют содержание национализма, но не отменяют его важности и значимости для осмысления философии. Исходя из этого, следует различать позитивный и негативный национализм. Позитивный национализм предполагает меру между такими ценностями, как патриотизм и индивидуальная свобода.

Национальная солидарность немыслима вне общецивилизационного контекста. Человечество нуждается в единстве, но вместе с тем оно должно обеспечить себе многообразие. В результате глобализации и регионализации конец XX в. был ознаменован ослаблением влияния национального государства и интенсивным сближением стран. Региональные объединения – это одна из важных форм современной солидарности. Европейский Союз может служить примером такой консолидации, в особенности по отношению к малочисленным этносам. Нынешний процесс европейской интеграции означает стремление ослабить отставание некоторых стран в социальном развитии.

Без ясного представления о динамике мировой системы невозможно выработать адекватные стратегические приоритеты внешней политики, представления о союзниках и партнерах, эффективно отстаивать национальные интересы на мировой арене.

Глобальное сообщество сталкивается с труднопреодолимыми барьерами, порождаемыми неравенством возможностей, культурным многообразием человечества, различиями в уровне социально-экономического и политического развития отдельных стран и народов, в их образе жизни.

Народы мира, поставленные историей в центр резко усилившихся планетарных противостояний будут иметь свое будущее. Они обеспечат будущее человечества, если их стратегия развития будет основана на научной теории современного мира, отражающей исторический ход развития человека и разума. Необходимо создать жизнеспособную и управляемую мировую систему.

Ключевые слова: сотрудничество, глобализм, международные отношения, политическая глобалистика.

Список использованной литературы

1. Делягин М. Глобализация //Глобалистика. Энциклопедия. М. ,2003.
2. Лебедева М.М. Современные технологии и политическое развитие мира // Международная жизнь, №2, 2001 г.
3. Многоликая глобализация. Культурное разнообразие в современном мире. (Под ред. П. Бергера и С. Хантингтона). М., 2004.
4. Тоффлер А. Третья волна. 2002.
5. Политология. Энциклопедический словарь. М., 1993.
6.А.Тойнби. Постижение истории. Сборник. М. 1991.

Aida YUSİFZADƏ

SİYASİ QLOBALİSTİKA VƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ ƏMƏKDAŞLIĞIN XÜSUSİYYƏTLƏRİ

Xülasə

Təqdim olunan məqalədə «Siyasi qlobalistika və beynəlxalq münasibətlərdə əməkdaşlığın xüsusiyyətləri təhlil olunur. Müəllif məqalədə dövlət funksiyasının dəyişməsindən, dövlət suverenliyinin müxtəlif səpkidə şərh olunmasından bəhs edərək, müasir dövrdə onun yalnız hüquqi deyil, həm də psixoloji xarakterini yaratmışdır.

Nəticədə, dünya xalqları bəşəriyyətin gələcəyini təmin etməyi bacaran, yaşamağa qadir olan və idarə edilən dünya sistemi yaratmağa çalışmalıdırlar.

Açar sözlər: əməkdaşlıq, qlobalistika, beynəlxalq münasibətlər.

Aida YUSIFZADEH

POLITICAL GLOBALISTICS AND CHARACTERISTICS OF THE COOPERATION IN THE INTERNATIONAL RELATIONS

Summary

Political globalistics and features of cooperation in the international relations have been analayzed in the article.

In the article the author has shown the change of goverment function, various comments of goverment sovereignty and created not only its juridical, but psychological character too.

As a result peoples of the world should try to create the world system able of providing the future of humanity and may be guided.

Keywords: cooperation, globalism, international relations.

UOT 327; 930.22

Bahar HÜSEYN
BDU, müəllim

AZƏRBAYCAN-ABŞ MÜNASİBƏTLƏRİ*

Dünyada baş vermiş qlobal dəyişikliklərin təsiri altında regionların qapalılığı aradan qalxmağa, inteqrasiya prosesləri tədricən ümumplanet səviyyəsi kəsb etməyə başlayırdı. Cənubi Qafqaz bölgəsində bu proseslər özünəməxsus formada genişlənirdi, belə ki, regionun uzun müddət Rusiyanın ixtiyarında olması, vaxtilə buranı öz maraq dairəsi elan etməsi genişlənməkdə olan proseslərə spesifiklik verirdi. Məlum olduğu kimi, Cənubi Qafqaz özünün etnosiyası xəritəsinin zənginliyi ilə seçilirdi. Buranın 40 milyonluq əhalisi 60-dan çox millət və xalqı təmsil edirdi, məhz buna görə də bir çox etnosların yaşadığı və fəaliyyət göstərdiyi bu regionu diplomatik leksikonda bəzən "Avroasiya balkanları" adlandırırdılar.

XX yüzilliyin 90-cı illərində SSRİ-nin dağılması nəticəsində Cənubi Qafqazın üç dövləti, o cümlədən də Azərbaycan öz dövlət müstəqilliyini təmin etmişdi. Müstəqilliyin ilk illərindən etibarən ikitərəfli və çoxtərəfli əlaqələrin genişləndirilməsinə xüsusi fikir verən respublikamız çox keçmədən dünya birliyinin bərabər hüquqlu üzvləri sırasında özünəməxsus yer tutmuşdu. Azərbaycan parlamentinin dünya dövlətlərinə və beynəlxalq təşkilatlara 1991-ci il 30 noyabr tarixli müraciətindən sonra iki ay ərzində respublikamızın dövlət müstəqilliyini dünyanın 80-dən çox dövlətini tanımışdı.

Sovet imperiyası dağıldıqdan sonra Cənubi Qafqaz bölgəsi də geosiyası mübarizə orbitinə daxil oldu, bununla da regionun siyasi sabitliyi pozuldu, dünyanın başlıca dövlətlərinin iştirak etdiyi "böyük oyun" başlandı. Məhz bu dövrdən etibarən "böyük oyun"nun iştirakçıları arasında ABŞ xüsusi yer tuturdu. Bölgənin enerji ehtiyatları uğrunda gərgin diplomatik mübarizə gedirdi. Çox tezliklə bu mübarizədən ABŞ-ın qalib çıxacağı hamıya məlum idi.

Uzun müddət idi ki, xarici siyasətlərində əsas istiqamət kimi Qərblə yaxınlaşmağa üstünlük verən Azərbaycan və Gürcüstanda ABŞ-ın nüfuzu xeyli artmışdı. Regionda yeganə tərəddüd edən dövlət Ermənistan idi ki, bu da ilk növbədə İrəvanın Moskvadan asılılığının daha da artmasından irəli gəlirdi.

Azərbaycanın dövlət müstəqilliyini 1991-ci il dekabrın 25-də tanıyan ilk dövlətlərdən biri ABŞ olmuşdu. İki dövlət arasında səfirlik səviyyəsində diplomatik münasibətlər isə 1992-ci ilin fevralında qurulmuşdu. İlkin mərhələlərdə dövlətlər arasında əlaqələr əsasən Azərbaycan enerji resurslarının işlənməsi ilə bağlı məsələlərdən kənara çıxmırdı. Lakin bu sahədə ABŞ-ın Azərbaycana marağının artması ikitərəfli münasibətlərdə yeni sektorların da yaranmasını labüd etdi.

1994-cü ilin 20 sentyabrında Azərbaycan hökuməti ilə dünyanın nəhəng neft şirkətlərinin beynəlxalq konsorsiumu arasında "Əsrin müqaviləsinin" bağlanması Azərbaycan - ABŞ münasibətlərində yeni mərhələnin başlamğıcını qoydu. Bildiyimiz kimi, "Əsrin müqaviləsində" əsas yer ABŞ şirkətlərinə verilmişdi. Bu da Azərbaycan - ABŞ münasibətlərinin inkişafı üçün onlara əhəmiyyətli dəstək idi. Lakin Azərbaycan - ABŞ münasibətlərində əsaslı dönüş 1997-ci ilin avqustunda başladı, belə ki, uzun sürən diplomatik mübarizədən sonra Azərbaycan prezidenti H.Əliyevin ABŞ-a ilk rəsmi səfərini reallaşdırmaq mümkün oldu. Səfər əsnasında H.Əliyev ABŞ prezidenti B.Klintonla görüşməyə və Birləşmiş ştatların rəhbərliyi ilə müxtəlif məsələlər üzrə çoxsaylı danışıqlar aparmağa həmçinin bir sıra razılıqlar əldə etməyə nail oldu.

---

* Məqalə siyasi e.d., prof. H.Hüseynova tərəfindən çapa məsləhət bilinib.

Azərbaycan prezidentinin səfər əsnasında müzakirə etdiyi əsas məsələlərdən biri də "Azadlığı müdafiə aktına" 907-ci düzəlişin aradan qaldırılması ilə əlaqədar idi. Qeyd etmək lazımdır ki, məsələnin müzakirəsi zamanı ABŞ prezidenti Azərbaycanın mövqeyi ilə həmrəy olduğunu dəfələrlə bildirmişdi. Sonralar bildiyimiz kimi, ABŞ konqrensində erməni lobbisinin böyük nüfuzu 907-ci düzəlişin ləğv olunmasına imkan verməsə də, B.Klinton administrasiyası məsələ ilə bağlı Azərbaycanın xeyrinə bir sıra yeni düzəlişlərin konqresdən keçməsinə nail olmuşdu. Lakin o vaxt heç də təsadüfi deyildi ki, erməni lobbisi səfərin baş tutmaması üçün əllərindən gələni etməyi çalışmış və hətta 62 senator B.Klintona məktubla müraciət etmişdi.

H.Əliyevin ABŞ-ın rəhbərliyi ilə müzakirə etdiyi digər vacib məsələlər iki ölkə arasında hərbi əməkdaşlığın genişləndirilməsi, ABŞ-ın neft şirkətlərinin respublikamızın yeni neft yataqlarının istismarına cəlb edilməsi və sosial-iqtisadi əlaqələrin genişləndirilməsi ilə bağlı idi. Sözsüz ki, bütün danışıqlarda Dağlıq Qarabağ probleminin çözülməsi mövzusu xüsusi yer tuturdu. Səfərin nəticəsində Azərbaycan - ABŞ münasibətlərinin yeni səviyəyə qalxmasına səbəb olan əlamətdar hadisə 1 avqust 1997-ci ildə iki ölkə başçısının Ağ evdə Amerika-Azərbaycan əlaqələrinin genişləndirilməsi haqqındakı Bəyanatı imzalaması oldu.

ABŞ-ın Azərbaycanın enerji layihələrində və neft ixrac kəmərlərinin çəkilişində iştirakı məsələsi hələ 1995-ci ilin aprelindən rəsmi olaraq qarşılıqlı səfərlər zamanı ciddi şəkildə müzakirə edilirdi. Bu haqda ilkin razılıq 1997-ci ilin fevralında əldə edilmişdi. Az sonra ABŞ-ın Xəzər məsələləri üzrə nümayəndəsi R.Morinqstarın Azərbaycana səfəri zamanı bu problem hərtərəfli müzakirə olunmuşdu. Artıq, Azərbaycan Prezidentinin ABŞ-a səfəri ərəfəsində imzalanacaq müqavilələrin konturları dəqiqləşdirilmiş və layihələri hazırlanmışdı. Avqust səfəri zamanı "Ağ evdə" ABŞ şirkətləri ilə Azərbaycan arasında üç tarixi sənəd imzalanmışdı.

H.Əliyevin 1997-ci ildə ABŞ-a səfəri iki ölkə arasında münasibətlərin genişlənməsinə də güclü təkan verdi. Bu dövrdən başlayaraq ABŞ-Azərbaycan münasibətləri hər iki dövlətin rəsmiləri tərəfindən "strateji əməkdaşlıq" kimi qiymətləndirilməyə başlandı. Məhz bu dövrdə ABŞ Konqresi ermeni lobissinin fəal müqavimətinə baxmayaraq 907-ci düzəlişin fəaliyyətini müvəqqəti olaraq dayandırdı.

Hələ avqust səfəri zamanı bu məsələ iki ölkə liderləri arasında ciddi müzakirə obyektinə çevrilmişdi. Əldə edilmiş razılığa görə ABŞ qısa müddətə düzəlişin fəaliyyətinin dayandırılması və ləğv edilməsi haqqında tədbirlər görməyi öhdəsinə götürmüş, 1997-ci ilin sentyabrında düzəlişin fəaliyyətinin dayandırılması razılaşdırılmışdı. Lakin erməni lobbisinin son dərəcə ciddi müqaviməti üzündən düzəlişin fəaliyyətinin dayandırılması üçün daha üç il diplomatik mübarizə aparmaq lazım gəlmiş, ABŞ-dakı yəhudi lobbisinin köməyindən də istifadə edilmişdi.

2000-ci il yanvarın 19-dan 21-nə kimi Bakıda ABŞ-ın Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrindəki səfirlərin regional konfransı keçirildi. Konfrans regionda baş vermiş dəyişiklikləri və ABŞ-ın region strategiyasının xüsusiyyətlərini təhlil edərək regional layihələrin perspektivlərinə qiymət verdi. Eyni zamanda konfrans Qərblə iqtisadi əlaqələrin genişləndirilməsinin vacibliyini qeyd etməklə yanaşı onun istiqamətlərini də müəyyənləşdirdi.

Dağlıq Qarabağ münaqişəsində vasitəçiliyin ələ alınmasında maraqlı olan ABŞ-ın təklifi ilə 2001-ci il aprelin 3-də ABŞ-ın Florida ştatının Ki-Uest şəhərində ATƏT-in himayəsi və ABŞ Dövlət Katibi K.Pauelin iştirakı ilə münaqişənin nizamlanması yollarının araşdırılması məqsədilə Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirildi. Görüş zamanı problemin aradan qaldırılmasının mərhələlərlə, paket həlli və s. variantlar ciddi müzakirə edildi. Doğrudur, Ki-Uest danışıqları heç bir real nəticəyə gətirib çıxarmadısa da, lakin Azərbaycan həqiqətlərinin bir daha bütün dünyaya yayılması və Ermənistan təcavüzkarlığının nəticələrinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması mümkün oldu.

İkitərəfli münasibətlərin tədricən diplomatik danışıqlardan real müstəviyə keçirilməsi öz bəhrələrini verməyə başladı. Beləki, 2001-ci il iyunun 16-da kütləvi qırğın silahlarının yayılmamasına qarşı mübarızə proqramı çərçivəsində Bakıda keçirilən tədbirlər zamanı ABŞ

hökuməti tərəfindən Azərbaycanın sərhəd qoşunlarına Xəzər dənizində sərhəd nəzarətini həyata keçirmək məqsədilə verilmiş sərhəd gözətçisi karterinin təqdimat mərasimi oldu. Bu isə dolayı yolla Azərbaycanın Xəzər dənizinə olan hüquqlarının ABŞ tərəfindən tanınması idi.

2001-ci il iyunun 22-də isə 1993-cü ildə R.Mustafayev adına İncəsənət muzeyindən oğurlanmış eksponatlardan 193 rəsm əsərinin ABŞ-da keçirilən tədbirlər zamanı geriyə qaytarılması ikitərəfli münasibətlərin inkişafında ABŞ-ın maraqlarından xəbər verirdi.

Xəzərin enerji ehtiyatlarının işlənməsinə böyük miqdarda kapital qoyuluşu ilə fərqlənən ABŞ eyni zamanda həmin maraqların qorunması üçün real addımlar atmağa hazır olduğunu da nümayiş etdirirdi. Belə ki, 2001-ci il iyulun 23-də Xəzərdə kəşfiyyat işləri aparan ingilis gəmisinə İran gəmisinin hücumu ABŞ tərəfindən kəskin xəbərdarlıqla qarşılandı. Xəbərdarlıqda qeyd olunurdu ki, belə mübahisələr sülh yolu ilə həll olunmalıdır. Biz Xəzərin enerji ehtiyatlarının sürətli və kommersiya baxımından gəlirli inkişafını dəstəkləməkdə davam edəciyik.

2001-ci ilin sonlarına yaxın 907-ci düzəlişlə bağlı danışıqlar daha da intensivləşdi. Noyabrın 13-də ABŞ Dövlət katibinin 1-ci müavini R.Armitacla Vaşinqtonda Azərbaycan nümayəndələri arasında keçirilən görüş zamanı Dağlıq Qarabağ münaqişəsi və GÜAM-la əməkdaşlıq məsələləri geniş müzakirə olunmuş, nümayəndələrimizin təklifi ilə 907-ci düzəlişin ləğvi məsələsi yenidən ABŞ rəhbərliyi qarşısında qaldırılmışdı.

Uzun sürən müzakirələrdən sonra 2001-ci il dekabrın 15-də ABŞ Müdafiə naziri D.Ramsfeldin Bakıya səfəri zamanı 907-ci düzəlişin ləğvi və beynəlxalq terrorizmə qarşı mübarizə, həmçinin ikitərəfli hərbi əməkdaşlığın perspektivləri hərtərəfli müzakirə olunmuş, Azərbaycanın ABŞ-a dəstəyini yüksək qiymətləndirən ABŞ hökumətinin 2002-ci ilin əvvəllərindən etibarən çoxtərəfli münasibətlərin inkişafına əngəl olan 907-ci düzəlişin ləğv edilməsinin qərara alınması Azərbaycan tərəfinə bildirilmişdi.

2002-ci ilin yanvarında ABŞ-ın büdcə təsisatlarına dair qanunu imzalayan prezident C.Buş 907-ci düzəlişin qüvvəsini dayandıran səlahiyyətlərindən istifadə etmiş və bunun nəticəsində yanvarın 25-dən həmin düzəlişin bir il müddətinə dayandırılması qərara alınmışdı. Sonrakı illərdə də 907-ci düzəlişin fəaliyyəti yenə də növbəti illər üçün dayandırılmışdı. Məhz bunun nəticəsində ölkələr arasında iqtisadi və ticarət əlaqələrinin inkişafında nəzərə çarpacaq dəyişikliklər özünü göstərmiş, beynəlxalq, siyasi və hüquqi sahədə əməkdaşlığın dərinləşməsi real nəticələr verməyə başlamışdı.

Açar sözlər: qlobal, regional, spesifik, etnos, leksikon, geosiyasi, resus, diplomatik, sektor, konsorsum, kommersiya.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikası XİN-in cari arxivi. Arayış, 2002.
2. Azərbaycan nefti dünya siyasətində. B., 1997.
3. Azərbaycan Respublikası 1991-2001. B., 2001.
4. Hüseynova H.Azərbaycan Avropa inteqrasiyası prosesləri sistemində. B., 1998.
5. Лебедева М.М. Мировая политика. М., 2003.
6. Чернявский С.И. Новый путь Азербайджана. Б., 2002.
7. Шорохов В. Нефть и политика Азербайджана. М.,1997.

Бахар ГУСЕЙН

АЗЕРБАЙДЖАНО-АМЕРИКАНСКИЕ ОТНОШЕНИЯ

Резюме

США признали независимость Азербайджанской Республики 25 декабря 1991 года, а в феврале следующего года между обоими государствами были установлены дипломатические отношения на уровне посольств. На первом этапе эти отношения ограничивались вопросами разработки энергетических ресурсов Азербайджана. Новым витком стало заключение 20 сентября 1994 года «Контракта века» между азербайджанским правительством и международным консорциумом крупных нефтяных компаний, где основное место занимали нефтяные компании США.

В азербайджано-американских отношениях основательный положительный перелом произошел летом 1997 года, когда состоялся первый официальный визит Президента Азербайджанской Республики Гейдара Алиева в США. Этот исторический визит дал ощутимый толчок расширению взаимосвязей между двумя странами, которые официальными лицами обоих государств были оценены как «стратегическое сотрудничество».

В дальнейшем неоднократно реализовывались двусторонние дипломатические встречи, конференции, различные переговоры, в результате которых азербайджано-американские отношения развиваются по восходящей линии, углубляется сотрудничество в различных областях общественной жизни.

Ключевые слова: глобальный, региональный, этнос, специфический, лексикон, геополитика, ресурсы, дипломатический, сектор, консорциум, коммерция.

Bahar HUSEYN

AZERBAIJAN-USA RELATIONS

Summary

The United States recognized the independence of Azerbaijan Republic on December 25, 1991 and in February of the next year, the diplomatic relations were established between both stated on a level of Embassies. At the first stage these relations were restricted by the development of energy resources of Azerbaijan. Conclusion of a “Contract of the Century” between the Government of Azerbaijan and international consortium of large oil companies on September 20, 1994 where the United States oil companies had a special place was a new step in these relations.

Positive profound break in the Azerbaijani – American relations happened in Summer of 1997 when the first official visit of Heydar Aliyev, President of Azerbaijan to the USA took place. This historical visit gave a notable impetus to widening of interrelations between the two countries which were assessed by the officials of both states as “strategic cooperation”.

Later, repeated bilateral diplomatic meetings, conferences, various negotiations were realized that led to the further development of the Azerbaijani – American relations, deepening of cooperation in different spheres of social life.

Keywords: global, regional, specific, ethnos, lexicon, geopolitics, resource, diplomatic, sector, consortium, commerce.

UOT 172.12.321

Nazim ƏLİYEV
Bonn Rayn Fridrik-Vilhelm Universiteti(Almaniya),magistr

MAKİAVELLİ HAKİMİYYƏT HAQQINDA*

Giriş. "Dövlət elə öz yaratdığıdır (etkiləridir)" [1]. "Tarixi müstəqillik yaratmaq" [2] onun vəzifəsi hesab edilir. Ona lazım olan vasitə gücdür, yalnız gücün variasiyası deyil, məhz cəmiyyətdən ona qarşı yönələn qüvvələrə üstün gəlməyə imkan yarada bilən hakimiyyətdir. Əbəs deyil ki, dövlət güc obrazı kimi təsvir edilirdi. Haqlı olaraq idarəetməni ələ alan şəxs haqqında belə deyilir: o hakimiyyətə gəlir [3]. Hakimiyyət dövlətin ayrılmaz bir atributudur və ümumilikdə formasiyanın xarakterini ifadə edir. "Siyasət peşə kimi" adlı əsərində müasir dövlət məfhumunun "memarı" Maks Veber dövlətin tərifini aşağıdakı kimi vermişdir:

"Dövlət insanın insan üzərində fiziki gücün legitim tətbiq edilməsinə əsaslanan (yəni, legitim kimi hörmət edilən) hakimiyyət münasibətini ifadə edir və fiziki zorakılığ vasitəsinə əsaslanan hakim münasibətlər tarixən dövlətdən əvvəl mövcud olan siyasi birliklərə də aiddir. Deməli, onun mümkün olması üçün idarəolunanlar idarəedənlərin iddialı nüfuzuna (hakimiyyətinə) tabe olmalıdır" [4].

Bu tərifdən çıxış edərək siyasət haqqında belə demək olar: siyasət daxili və yaxud xarici təhlükəyə qarşı dövlətin yaradılması, möhkəmləndirilməsi və müdafiə olunmasına yönəlmiş yüksək bacarıqdır [5]. Bu cür müasir siyasət və dövlət məfhumlarından Makiavellinin şərhində istifadə olunması elə bir ziddiyyət yaradır ki, bu da Makiavellinin dövlət və siyasət anlayışları ilə bağlı kəskin tənqidlərdə [6] öz əksini tapır. Onun qərarı ya Makiavelli dövlətinə və bununla da onun siyasi qaydalarına müasirlik, yaxud müasir siyasi düşüncənin hakimiyyətə hərisliyi kimi möhürünü vurardı. Şəxsən Veber üçün siyasət aşağıdakı mənanı bildirirdi: "Hakimiyyətə can atmaq, ona yiyələnmək, yaxud hakimiyyətin dövlətlər arasında yainki ölkənin adamları, qrupları arasında bölüşdürülməsinə təsir göstərmək bacarığıdır" [7]. Siyasətin bu cür anlayışı Münklerin Makiavellinin siyasəti haqqında dediklərinə çox yaxındır: "[...] idarəolunmaz dünya və asanlıqla korlana bilən insan təbiətinə siyasi sabitliyi zorla qəbul etdirmək üçün müxtəlif resursların strateji hesablamalar əsasında tətbiqi" [8].

Əsas hissə. Ümumiyyətlə aydın olur ki, yeni dövrdəki müasir dövlət anlayışı ilə Makiavellinin dövlət anlayışı bir-birinə çox yaxındır. Lakin o vaxta qədər dövlətin hakimiyyət strukturu olduğunu isbat etməyə çalışmışlar. Lakin hakimiyyət necə yaranır? O, kimi mükafatlandırır və hökuməti idarə etmək üçün kimə səlahiyyət verir? Qardaş qatilinin dövlət qurucusunun yanına getdiyi və bundan sonra isə siyasi dünyanın ulu babasının yanında qaldığı Romul misalı Roma mifologiyasından nümunə kimi verilmişdir [9]. İnsan cəmiyyətinin sərt modifikasiyası və məlum dəyişikliyinə baxmayaraq güc yaxud zor hakimiyyətin effektiv açarı olaraq qalırdı. Ümumilikdə isə bu tezis hamı tərəfindən qəbul edilən bir həqiqət deyildi, amma siyasi nəzəriyyənin təmsilçiləri tərəfindən də müvafiq surətdə təkzib edilmirdi. Hökumət inandırmağa, manipulyasiyaya və ekstremal hallarda isə açıq zorakılığa əsaslana bilər. Maks Veber belə yazırdı: "Əlbəttə, zorakılıq dövlətin normal yaxud da yeganə vasitəsi deyil: bu barədə heç bir ümumi qəbul olunmuş fikir yoxdur, ancaq bu ona xasdır" [10]. Makiavellinin pərəstişkarı Georq Vilhelm Fridrix Hegel özünün "Ruhun fenomenologiyası" əsərində zorakılıqdan dövlət səlahiyyətinin və iş dünyasının yaranmasını təsvir etmişdi [11]. Hegelə görə, ağa və nökərin münasibəti siyasi qanunun başında durur. Özünüdərk nəticəsində ikincinin müqaviməti birincinin şüurunda kök salır və onun məhvini

* Məqalə fəl.e.d., prof. K.Əzimov tərəfindən çapa məsləhət bilinib.

tələb edir. Buradan belə bir nəticə çıxır ki, həyat və ölüm uğrunda mübarizədə ağa qalib gəlir, nökəri isə özünə tabe edərək onun həyatını satın alır [12].

Bu cür yanaşma yuxarıda müzakirə etdiyimiz "hakimiyyət necə yaranır?" sualının cavabını dolayı yolla bizə verir: başlanğıcda zorakılıq idi. Eyni zamanda yeni bir sual meydana çıxır: məhz dövlətin təbiətini açan bu zorakılıq "daha artıq güc"-ə necə çevrilə bilər? Gennaro Sassoda Makiavellinin bəzi şərhçiləri üçün münasib olan cavab tapılmışdı. Sasso cavabı insanın şöhrətpərəstliyi ilə siyasi məqsədi arasındakı mübarizəsində axtarmışdı, bunu Makiavelli də izləmişdi və ona görə də soruşurdu:

"Əgər şöhrətpərəstlik əsil siyasətin bütün prinsiplərinin mütləq və mükəmməl inkarı kimi heçnədirsə, yaxud reallıqdan fantaziya və təxəyyül sahəsinə sığınmaq kimi heçnədirsə, deməli, hakimiyyət elə budur [13]. Makiavelli onu insanın məqsədi kimi qiymətləndirmişdi, yəni o anlaşılmaz, dolaşıq bir dünyada qeyri-məhdud təhlükə, maneə olan yaxud onun məntiqi və qanununu ondan təcrid edilən xəstə düşüncənin mistik arzusu, xəyalı deyil, əksinə, siyasi praktikanın həyat zərurətidir" [14].

Bununla, siyasi rasionallıq və praqmatika hərəkətverici qüvvələrdir, bunlar tam hakimiyyəti "siyasiləşdirirlər" və konkret halda *Hökmdarın* şəxsində ifadə edirlər: absrtakt istila xəyallarına əsaslanmadan yalnız tarixi situasiyaların tələb etdiyi işi görməyin lazım olduğunu hesab edən bir dövlət xadimi. O şəxs, bunu həqiqət vasitəsilə bütün tələb olunan üsullarla görür. O, dövlətin mahiyyətini təşkil edir [15].

Primitiv elementar zorakılıq xüsusilə intim baxımdan müasir dövlətin hakimiyyətə münasibətində nəzərə çarpandır. Müasir dövlətdə zorakılığın proporsional təmsil olunmasından Maks Veber ətraflı bəhs etmişdir:

"Keçmişdə qohumluqdan başlayan müxtəlif birliklər vardı və fiziki zorakılıq tamamilə normal bir üsul kimi tanınırdı. Bu gün isə biz buna qarşı belə deməliyik: dövlət məlum regionun daxilindəki həmin insan cəmiyyətidir. Burada "region" fiziki zorakılığ üzərində monopoliyanı legitim surətdə uğurla həyata keçirən növə aiddir. Bu, müasirliyin əlamətdar xüsusiyyətidir: zira bütün başqa birliklərin yaxud fərdlərin fiziki zorakılığ tətbiq edə bilməsinə yalnız dövlət tərəfindən icazə verilir, çünki dövlət zorakılığın legitimliyinin yeganə mənbəyi kimi qiymətləndirilirdi" [16].

Hakimiyyətin bu cür təsvirindən dəhşətə gələnlər dövləti şər kimi qəbul etmək zərurəti qarşısında durur [17]. İndi isə qısa olaraq insanın dövlətə [18] münasibətinə nəzər yetirək. Burada Makiavelli insanı təbiətcə şər varlıq kimi təsvir etmişdi, çünki şöhrətpərəst, lovğa, mənsəbpərəst, hakimiyyət hərisi olan insan dövlətin gücünü hər bir reallıqda legitimləşdirməyi bacarırdı [19]. Makiavelli aşağıdakı təsviri göstərirdi: eyni zamanda dövlət öz gücünü insan təbiətindəki şərə qarşı yönəldirdi və özünü xeyirin yaradıcısı hesab edirdi. "Siyasi reallıq həqiqətə iddialı ola bilər" [20] ideyasına Emmanuel Kantda da həmçinin rast gəlinir: "Əgər insan öz növündən ayrı yaşayırsa, deməli, o heyvandır" [21]. Bu baxımdan Makiavelli öz dövlətinin etimadını doğruldurdu, əks halda narazılığa səbəb olardı.

Florensiyalı Makiavellinin fikrincə, hüquq, qanun və ümuminsani danışıq normalarının yaradıcısı ilk öncə dövlətdir. Kurt Kluxen onun fikirlərini təsdiqləyirdi: "İnsan dövlətin daxilində nədir və nə olmalıdırsa, Makiavelli üçün də elə odur" [22]. Həmçinin dövlət bəraət əldə edəndə, onda əvvəlki bəzi problemlər qalır: ədalətli hakimiyyət kimi dövlətin əsasına nail olmaq üçün əsassız zorakılıq vacib idi? [23]. Əlbəttə, bu fikir dövlət haqqında olan cavabsız bir sualdır ki, bu da ta qədimdən bəri, yəni Makiavellidən əvvəl və sonra işlənmişdir.

Karl Şmitt tərəfindən məşhur bir fikir deyilmişdi: "Hər bir siyasi ideya insanın "təbiət"ində müəyyən bir yer tutur və güman edilir ki, o təbiətdən nə yaxşı, nə də sərtdir" [24]. Ümumiyyətlə, Makiavellinin siyasi nəzəriyyəsində mütləq məcmuya rast gəlinmir. Makiavelli üçün insan "yırtıcıdır, o həmişə qorunmalı və buxovlanmalıdır" [25].

"Siyasətdən yazan hər kəs bunu əsaslandırır və tarixdə çoxlu misallar göstərir ki, dövlət üçün konstitusiya və qanunlar yazanlar belə hesab edirlər ki, bütün insanlar pisdirlər, şərait olan kimi həmişə öz sərt həvəslərinin, acgözlüklərinin ardınca gedirlər" [26].

Makiavelliyə görə, insanın təbiəti şöhrətpərəslikdən və tamahkarlıqdan ibarətdir. Onun öz varlığını və fəaliyyətini müəyyən edən, hiylə, tamahkarlıq və yalanla öz mənfəətini güdən süqut etmiş hakimiyyəti ayrıca qüvvədədir və hər bir ittifaq onun məhvedici gücü üçün təhlükədir. İnsan tamahkardır, öz hisslərini oyadır və heç bir konstitusiyanı daxilən tanımır. Makiavelli insanların şəxsi bədbəxtliklərində, siyasi qarışıqlıq və mübarizədə şöhrətpərəstliyi günahkarlandırırdı [27]. O, «*Söhbətlər»*-də yazırdı:

"Bununla belə insanın arzuları acgözdür, yəni insanın təbiəti hər şeyə susayır və çox şey istəyir, ancaq tale bizə çox az bir şey verə bilər. Bunun nəticəsində də insanın ürəyində həmişə narazılıq və sıxıntı yaranır" [28].

Harada şöhrətpərəstlik və tamahkarlıq pis siyasi sistemdə hökm sürür, orada insanların əziyyəti və siyasi xaos meydana gəlir [29]. Makiavellinin İtaliyanın vəziyyətini belə çarəsiz görməyinin səbəbi nə idi? [30].

"Qəbir və sular, bütün yaralanmış başlar, ayaqlar, qollar və digər eybəcər hala salınmış üzvlər qana boyanır. Hara baxsan torpağın qan və göz yaşları ilə yuyulduğunu görürsən və hava ah-vay, nalə və hıçqırıqlarla dolur" [31].

Tamahkarlıq və şöhrətpərəstlik insanın zəhəridir, əks təqdirdə "bizim taleyimiz çox xoşbəxt olardı" [32]. Adəmin dövründən bəri insanın neqativ əlamətlərinə səbəb olan zəncirvari reaksiya sakit həyatın özülünü dağıtmışdı. İnsanın ruhu acgöz, xain və kinli idi [33].

Makiavellinin fikirləri formalaşmış fərdi, qanunverici və dövlət xadimi olan böyük yaradıcı intibah insanının ideal bir obrazını yaratmışdı. Güclü, ağıllı, hər şeyi əvvəlcədən görən, enerjili, hamıdan sevimli, lakin düşüncəli, zəkalı mütəxəssis – Makiavellinin arzuladığı insan obrazı idi. "Çox şey istəmək" əsl insanı formalışdırırdı. Əxlaqlı fəaliyyət "Makiavelli insanı"nı narahat edirdi. Əxlaqsız hərəkətlər isə əksəriyyət tərəfindən ideallaşdırılmış insan təbiətinə dərindən nüfuz edirdi və dini normalara qarşı, həmçinin dünyanın bu vaxta qədər açıq şəkildə qəbul etdiyi hər şeyə qarşı istiqamətləndirilirdi. Bu fikirlər Aristotelin "*insan ictimai heyvandır"* ideyasına asanlıqla bağlana bilər. Aristotelin İctimai *varlığı* təbiətən nə qədər yaxşı idisə, Makiavellinin *ictimai varlığı* bir o qədər pozulmuş, eqoist, riyakar idi. Bütün bunlara baxmayaraq, hər iki mütəfəkkir arasında oxşar cəhətlər vardır. Belə ki hər ikisi cəmiyyətlə bağlı idi. Fərqli cəhət isə onda idi ki, Aristotel bu bağlılığı bir qədər təbii və altruizm kimi görürdü, Makiavelli isə öz dövründə itaəti, gücü və eqoizmi siyasi müstəvidə görürdü. Təkmilləşmə deyil, korrupsiyalaşma düşüncələrini Makiavelli insanın nəzərə çarpan xasiyyəti kimi göstərirdi [34]. Onun obrazı siyasi nəticələri İntibah dövrünün obrazından gətirir, insanı "təbiətcə rasional, praqmatik, ağıllı yırtıcı" [35] kimi görürdü, lakin ona daha çox skeptisizmlə yanaşırdı [36]. Alman antropoloqu Karl Heyerin yanaşmasında Herfrid Münkler qəti qeyd etmişdi ki, Orta əsrlərdə siyasi cəmiyyətin əsasını düzlük təşkil edirdi, yəni o dövrdə dövlət öz vətəndaşlarını inamsızlıqdan qoruyurdu [37]. Bu, sadəcə bir paranoid pessimistin insanda yalnız şəri görməyi deyildi, əksinə, intibahı və irsən gələn nəslin xatırlamaq istədiyi siyasi, iqtisadi və mədəni inkişafın işığında ixtiyari bir tapıntı idi; ən nəhayət, bu, yeni faktorlarla hesablaşmaq işığında tarixən geridə qalmış insan obrazından imtina edən bir tapıntı idi [38]. Makiavellinin antropologiyası, digərlərindən fərqli olaraq, ilk andan azad, yersiz ontoloji, asosial və həmçinin məlum olan, özünü uyğunlaşdıran gücün, rifahın və məqsədə təsirin maksimumu olan siyasətlə maraqlanmayan, nəhayət, müasir *"homo economicus" "iqtisadi insan"*-ı müzakirə edir. Dövrünü ifrata uğratmış bir insan obrazı, hətta müasir, aktual, Hobbs və Nitsşe tərəfindən eynilə təsvir olunan bir obraz [39]. Şübhəsiz, Makiavelli insana pis baxırdı, lakin bu onun üçün aprior (təcrübədən əvvəl gələn) həqiqət deyildi, xüsusilə tarixən çevik bir diaqnoz idi [40]. "Ümumilikdə insan haqqında belə deyilirdi ki, o naşükür, qərarsız, yalançı, riyakar, qorxaq və xəsisdir [41]."

Florensiyalı siyasi xadim insanlara yaxşı ilə pisin arasında həmişə ora-bura vurnuxan bir fərdiyyətçi kimi baxırdı. Makiavellinin tədqiqatçısı Lauri Huovinen güman edirdi ki, Makiavelli "iki müxtəlif insan obrazı" [42] haqqında qərar vermişdi: biri tarixi inkişaf prosesində məhv olmuş insanın elementar xeyirxahlığı, digəri isə yalnız sərhəddə dövlət aparatını saxlayan insan təbiətinə xas şərdir. Nəticədə, Makiavelli göstərdi ki, "İnsan nə başa düşür, nə də mükəmməl olur" [43]. Yalnız müvafiq siyasi şəraitdən asılı olaraq insan ikibaşlı Yanus kimi təbiətinin hansısa tərəfini göstərir [44]. Aristotelə geri dönmək üçün Makiavellidə *İctimai varlıq* elə öz təbiətinə görə qayda-qanunu pozma riski ilə üz-üzə gəlir. Beləliklə, Karl Şmitt tərəfindən insanın təbiəti ilə bağlı yuxarıda qeyd edilmiş hökmü Makiavellinin insan obrazına tətbiq edilmir, çünki Makiavellinin nəzərində heç bir sabit dəyər yoxdur, xüsusilə insan təbiəti dövlət strukturundan asılıdır.

Nəticə. İntibah dövləti insana müraciət etməyə hazır deyildi. Maks Veber yazırdı ki, belə bir dövlət əvvəllər yararlı ola bilərdi: "[...] müasir dövlət bir ərazi daxilində hakimiyyətin vasitəsi kimi legitim fiziki gücü uğurla monopollaşdırmağa nail olan və bu məqsədlə öz rəhbərliyinin əlində maddi istehsal vasitələrini birləşdirən, əvvəllər həmin vasitələr üzərində qanuni surətdə nəzarət edən və muxtariyyəti olan bütün digər məmurları şəxsi mülklərindən məhrum etmiş məcburedici bir təşkilatdır. Dövlət onların mövqelərini tutdu və bu andan etibarən mövqelərin ən ali zirvəsində dururdu" [45].

Bununla da radikal fərdiyyətçi, hədsiz tamahkarlıqla həmişə ictimai qanunu pozma riski ilə üz-üzə qalan insan dövlət tərəfindən cəza qanunları ilə ram edilirdi. Bu baxımdan Makiavelli dövlətini insanın pisliklərinə qarşı olan tərbiyəvi xarakterli bir icbari təşkilat kimi şərh etmək olar. Lakin bu, insanları adət-ənənəyə uyğunlaşdırmaq üçün qəti və qarşısıalınmaz fakt deyil, əksinə, yalnız məcburiyyət qarşısında tətbiq edilir [46].

Açar sözlər: Makiavelli, siyasət, siyasi qaydalar, dövlət.

İstifadə olunmuş ədəbiyyat

1. Kuhn, Helmut: Der Staat. Eine philosophische Darstellung (Fəlsəfi təsvir), München 1967, səh. 108.
2. Elə orada.
3. Müq. et. elə orada.
4. Weber: Politik als Beruf (Siyasət peşə kimi), səh. 9.
5. Müq. et. Durant: Renaissance (İntibah), səh. 552.
6. Damit sind diecenigen Vertreter der Machiavelli-Rezeption gemeint, die in seiner politischen Philosophie den reinen Machterwerb sehen; müq. et. exemplarisch: Hexter: Il Principe and lo stato, s. 113-138; Faul: Der moderne Machiavellismus (Müasir Makiavellizm), s. 30-87; Sternberger: ›Principe‹ und der Begriff des Politischen ("Prinsip" və siyasət anlayışı), s. 30-99.
7. Weber: Politik als Beruf (Siyasət peşə kimi), səh. 8.
8. Münkler: Im Namen des Staates (Dünyanın adı ilə), səh. 63.
9. Müq. et. Kersting, Wolfgang: Der Gesetzgeber, die Religion und die Tugend. Errichtung und Erhaltung der Republik bei Machiavelli und Rousseau, in: (Qanunverici, din və ləyaqət. Makiavelli və Russoda respublikanın yaradılması və mühafizəsi). Münkler, Herfried / Voigt, Rüdiger / Walkenhaus, Ralf: Demaskierung der Macht (Hakimiyyətin ifşası.). Niccolo Machiavellis Staats- und Politikverständnis (Nikkolo Makiavelli dövləti və siyasi təfəkkürü). Baden-Baden, 2004, səh. 126.
10. Weber: Politik als Beruf, (Siyasət peşə kimi), səh. 8.

11. Müq. et. Hegel, Georg Wilhelm Friedrich: Phänomenologie des Geistes, in (Ruhun fenomenologiyasında): Glockner, Hermann (Nəşr.): Georg Willhelm Friedrich Hegel. Sämtliche Werke (Bütün əsər), Cild 2, 3. Nəşriyyat, Stuttgart 1951, səh. 271 ff.

12. Müq. et. Kuhn: Der Staat (Dövlət), səh. 116.

13. Und hiermit ist auch Gewalt als Mittel der Macht gemeint (Burada güc hakimiyyət vasitəsi kimi düşünülür).

14. Sasso: Machiavelli, səh. 203 f.

15. Müq. et. elə orada., səh. 204.

16. Weber: Politik als Beruf (Siyasət peşə kimi), səh. 8.

17. Müq. et. Kuhn: Der Staat (Dövlət), səh. 109.

18. Es handelt sich hier noch nicht um Bürger(Burada hələki insan haqqında danışılmır).

19. Müq. et. exemplarisch: Kuhn: Der Staat (Dövlət), səh. 115; Münkler: Machiavelli, səh. 266; Viroli, Maurizio: Die Idee der Republikanischen Freiheit (Respublika azadlığı ideyası). Von Machiavelli bis heute (Übersetzung ins Deutsche von F.Hausmann), (Makiavellidən bu günə qədər. F. Hausmann tərəfindən alman dilinə tərcümə). Zürich, 2002, səh. 81.

20. Münkler: Machiavelli, səh. 350.

21. Weischedel, W. von (Nəşr.): Immanuel Kant. Werke, Cild. 9, Darmstadt, 1970, səh. 40, Sitat: Münnkler: Machiavelli, səh. 350.

22. Kluxen: Politik und menschliche Existenz bei Machiavelli (Makiavellidə siyasət və insanın mövcudluğu), səh. 84.

23. Müq. et.. Kuhn: Der Staat (Dövlət), səh. 115.

24. Schmitt, Carl: Politische Theologie. Vier Kapitel zur Lehre von der Souverenität (Suverenlik), 2. Nəşrl., München, 1934, s. 72.

25. Machiavelli: Principe, XVII, səh. 95.

26. Machiavelli: Discorsi, I, 3, səh. 17.

27. Müq. et. exemplarisch: Fleischer, Martin: A passion for Politics: The Vital Core of the World of Machiavelli, in: Ders. (Nəşr.): Machiavelli and the Nature of Political Thoughts. New York, 1972, səh. 126 f.; Grazia: Machiavelli in Hell, səh. 168 ff.

28. Machiavelli: Discorsi, II, Vorwort, səh. 160.

29. Weiterführend über die Auswirkungen der ambizione auf die politische Lage müq. et. exemplarisch: Machiavelli: Principe, III, səh. 25; 188. Machiavelli: Discorsi, I, 39, səh. 108; II, 8, səh 187; II, 20, səh. 231.

30. Machiavelli, Niccolò: Gesammelte Schriften, in: Floercke, Hanns (Nəşr): Niccolò Machiavelli. Gesammelte Schriften in fünf Bänden, unter Zugrundelegung der Übersetzung von Johann Ziegler und Franz Nicolaus Baur. München, 1925, cild. 7, səh. 238.

31. Machiavelli: Discorsi, 1, 2, səh. 13.

32. Müq. et. Münkler: Machiavelli, səh. 267.

33. Müq. et. elə orada., səh. 263.

34. Burke, Peter: Culture and Society in Renaissance Italy 1420-1540. London, 1972, səh. 193.

35. Müq. et. Münkler: Machiavelli, səh. 263.

36. Heyer, Karl: Der Machiavellismus (Makiavellizm). Berlin, 1918, səh. 18

37. Müq. et.. Münkler: Machiavelli, səh. 264.

38. Müq. et.. Kersting, Wolfgang: Die politische Philosophie des Gesellschaftsvertrags (Cəmiyyətin müqaviləsinin siyasi fəlsəfəsi). Darmstadt, 1994, səh. 9.

39. Müq. et. Münkler: Machiavelli, səh. 271.

40. Machiavelli: Principe, XVII, səh. 94.

41. Müq. et. Diesner, Hans-Joachim: Niccoló Machiavelli: Mensch, Macht, Politik und Staat im 16.Jahrhundert, Bochum, 1988, səh. 48.

42. Huovinen, Lauri: Das Bild des Menschen im politischen Denken Machiavellis (Makiavellinin siyasi düşüncəsində insan obrazı). Helsinki, 1951, səh.102.
43. Machiavelli: Discorsi, I, 27, səh. 80.
44. Müq. et. . Münkler: Machiavelli, səh. 271.
45. Weber: Politik als Beruf (Siyasət peşə kimi), səh. 13.
46. Müq. et. König: Machiavelli, Səh. 51.

Назим АЛИЕВ

МАКИАВЕЛЛИ О ВЛАСТИ

Резюме

Макиавелли трактует власть как совершенное умение, направленное на создание и укрепление государства и защиту его от внутренних и внешних угроз. Использование данного и других подобных определений при комментировании наследия Макиавелли создает противоречия, из-за чего концепции Макиавелли о государстве и политике становятся объектом резкой критики. Подобная попытка преследует цель либо придать современное звучание идеи Макиавелли о государстве и политических правилах, либо характеризовать современное политическое мышление как жажду власти.

Ключевые слова: Макиавелли, политика, политические правила, государство.

Nazim ALIYEV

MACHIAVELLI ON POWER

Summary

Machiavelli treats power as a perfect skill, which aims at creating and strengthening the state and protecting it from internal and external threats. Using this and other similar definitions when commenting on the legacy of Machiavelli produces controversy, due to which Machiavelli's concepts of the state and politics become the obcect of harsh criticism. Such an attempt is done with a goal to either attach a modern sense to the ideas of Machiavelli about the state and political rules, or characterize the modern political thinking as thirst for power.

Keywords: Machiavelli, politics, political rules, State.

UOT 327

Vaqif HÜSEYN
AMEA FSHİ, aspirant

AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASININ XƏZƏR SİYASƏTİ VƏ ONUN BEYNƏLXALQ – HÜQUQİ NƏTİCƏLƏRİ (avqust 1919 - aprel 1920)*

1919-cu ilin avqustundan başlayaraq ADR hökuməti Xəzəri tərk edən İngilis komandanlığının Xəzər hərbi donanmasının gəmilərini Denikinin Könüllü ordusuna təhvil verilməsinin qarşısının alınması və ən azı bu gəmilərin yarısının Azərbaycana verilməsinə nail olmaq təşkil edir.

1919-cu il 30 iyul tarixində ”Rossiya” qəzetində Xəzər Donanması gəmilərinin Könüllü orduya təhvil verilməsi haqqında məlumat dərc edildi. 3 avqust 1919-cu ildə bu məsələ ilə əlaqədar ADR Nazirlər Şurasının sədri Usubbəyovun Zaqafqaziyadakı Britaniya qüvvələrinin komandanı general-mayor Q.N.Koriyə etiraz notası Azərbaycan qəzetində dərc olundu. Notada Xəzər Donanmasının ingilis komandanlığının sərəncamında olmasının Xəzər istiqamətində xaricdən hücum təhlükəsizliyinin təminatı olduğu, hərbi gəmilərinin Könüllü orduya təhvil aktına azərbaycan əhalisi tərəfindən onun həyati maraqlarının nəzərə alınmaması kimi baxıldığı qeyd olunur və bunun nəticəsində yaranan vəziyyətin Azərbaycanın müstəqilliyinə və ərazi bütövlüyünə birbaşa təhlükə olduğu göstərilir bu fakta ən kəskin şəkildə etiraz edildiyi bildirilir və qərarın ləğv edilməsi tələb edilir (20, s.307-308).

3 avqust tarixli etiraz notasının məzmunundan görünür ki, nota verilənə qədərki dövrdə mövzu müzakirə predmeti olmuşdu. Belə ki, Nazirlər Şurası sədri Q.N.Kori ilə şəxsi söhbətinə işarə edilir və notanın həmin söhbətdə deyilənə əlavə olduğu qeyd olunur. Ümumiyyətlə, bu problemə dair sənədlərin öyrənilməsi göstərir ki, ingilis qoşunlarının Qafqazı və Azərbaycanı tərk edəcəyi barədə informasiyalara iyunun əvvəllərindən malik olmuşdur və “Rossiya” qəzetində dərc olunan məlumat ADR rəhbərliyi üçün gözlənilməz yenilik deyildi. Hələ 04 iyun 1919-cu il tarixində hərbi nazir S.S.Mehmandarovun Nazirlər Şurasının sədri N.Y.Usubəyova ingilis komandanlığından hərbi ləvazimatın satın alınması haqqıda nümayəndəni təyin olunmasına dair raportunda ən yaxın dövrdə ingilislərin Zaqafqaziyanı tərk edəcəyindən məlum fakt kimi bəhs edilir. (11, s.104) Bundan əlavə ADR Xarici İşlər naziri M.Y.Cəfərovun Bakıdakı Britaniya müttəfiq qoşunlarının komandanı general D. Şatelverqə 04 avqust 1919-cu il tarixli məktubunda da onun 01 avqust 1919-cu il tarixli məktubuna istinad edilir ki, kontekstdən mövzunun daha əvvəl müzakirə edilməsi nəticəsini çıxarmaq olar.

ADR hökuməti Xəzər Hərbi Donanması gəmilərinin Könüllü Orduya təhvil verilməsi haqqında qərarın ləğv edilməsini tələb etməklə yanaşı bərabər sayda gəmilərin ona verilməsi tələbini qoydu. Xarici İşlər naziri M.Y.Cəfərovun Bakıdakı Britaniya müttəfiq qoşunlarının komandanı general D.Şatelverqə 04 avqust 1919-cu il tarixdə Xəzər Hərbi Donanması gəmilərinin bir hissəsinin Azərbaycan Respublikası sahillərinin mühafizəsi üçün verilməsi barədə məktub göndərdi. Məktubda bildirilirdi ki, Azərbaycan hökuməti öz ərazisinin sahillərini qorumaqda və paytaxtını müdafiə etməkdə istəyir lakin, bunun üçün lazım olan gəmilərə malik olmaması üzündən zəruri mühafizə imkanından məhrumdur. M.Y.Cəfərov məktubunda 01 avqust tarixli məktubu xatırladaraq hökumətin tapşırığına əsasən dövlət ərazisinin sahildən mühafizəsi üçün Könüllü orduya verilən eyni sayda gəminin bu və ya başqa şərtlərlə Azərbaycana verilməsini xahiş edir (10, s.310). Dərc edilən arxiv sənədləri arasında general B.M.Tomsonun M.Y.Cəfərova 05 avqust 1919-cu il tarixli cavab məktubu da dərc edilmişdir (8, s.158). General Şatelverqin 06

* Məqalə tarix e.d. İsmayıl Musa tərəfindən çapa məsləhət bilinib.

avqust 1919-cu il tarixində ADR Xarici İşlər nazirinə cavab məktubunda Britaniya Xəzər Donanmasının bolşeviklərlə mübarizə məqsədi üçün yaradıldığı və bu siyasətin davamı olaraq getmək qərarı alındıqdan sonra Britaniya hökumətinin bu paroxodları general Denikinə təhvil verməyi əmr etdiyini bildirir. Cavabın mətnində bu məlumatın Azərbaycan hökumətinə əvvəldə bildirildiyi məlum olur. Eyni zamanda məktubda ADR XİN-in müraciətinin Ali Britaniya hakimiyyətinə çatdırılacağı bildirilir (6, s.322). Həm Tomsonun, həm də Şatelverqin cavablarında diqqəti cəlb edən məqam Xəzər Donanması gəmilərinin Denikinə verilməsinin mülkiyyət- hüquq məsələləri ilə deyil, bolşeviklərlə mübarizə məsələsi ilə əlaqələndirilməsidir.

08 avqust 1919-cu ildə Xarici İşlər naziri M.Y.Cəfərov istədikləri gəmilərin verilməsi haqqında hökumətin xahişini yeni əsaslar əlavə edərək, bir daha təkrar edir. İngilislərin donanması bolşeviklər əleyhinə mübarizə məqsədi ilə yaradıldığı və bu səbəbdən Denikinə təhvil verildiyi arqumentinin aradan götürmək üçün ADR XİN-nin 08 avqust tarixli məktubunda alınacaq gəmilərin bolşeviklərə qarşı da istifadə ediləcəyini irəli sürür. Lakin bu müraciətdə Azərbaycan hökuməti dənizdən paytaxta və sahillərinə mövcud təhlükə aradan qalxdıqdan sonra müttəfiq komandanlığının Xəzər Hərbi Donanmasını tərksilah etmək haqqında qərarı olacağı halda öz gəmilərini tərksilah etməyə hazır olduğunu bildirir. (11, s.600) Bu Xəzərin silahsızlaşdırılması haqqında ilk təşəbbüs kimi Xəzər hüququnun, özəlliklə Xəzər təhlükəsizlik hüququ tarixində diqqəti cəlb edən diplomatik hadisədir.

Azərbaycan diplomatiyasının səyləri qismən də olsa nəticə verdi. İngilislər Bakını tərk edərkən limanın idarəçiliyinin, Xəzər Donanması gəmilərinin bir hissəsi ilə birlikdə Azərbaycan hökumətinə təhvil verdilər. ADR XİN-nin Parisə A. A. Topçubaşova 1919-cu ilin avqust oktyabr ayları ərzində Qafqazdakı hadisələr və Azərbaycan Respublikasının xarici siyasəti haqqında göndərdiyi 30 oktyabr tarixli məlumata 2 №-i əlavədə göstərilir ki, "ingilislər Bakını tərk edərkən Azərbaycan hökumətinə aşağıdakılar verildi: limanın idarəçiliyi, radiostansiya, müəyyən qədər hərbi ləvazimat və s. İngilislərin qoyub getdiyi gəmilərin bir hissəsi Azərbaycan hökumətinin ixtiyarına keçdi və Azərbaycan Xəzər Donanmasını təşkil etdi, hərbi gəmilərin digər hissəsi (qeyd etmək lazımdır ki, "Kryuger" və s. iri gəmilər) Petrovskda Könüllülərə verildi. Həmin sənədə 9 №-i əlavədə isə göstərilirdi ki, Azərbaycan Xəzər Donanmasının Bakı limanında yerləşən hərbi gəmilərinin mühafizəsinin onlara verilməsi haqqında könüllülərin istəyi qəti çəkildə rədd edilmişdir" (5, s.406, 410). ADR Xarici İşlər naziri F.X.Xoyskinin Paris sülh konfransında müttəfiq dövlətlərin nümayəndələrinə ünvanladığı Memorandumda Azərbaycan Xəzər Hərbi Donanmasına daxil olan gəmilər sırasında " Kars", "Ərdahan", "Astrabad" "Göy- Təpə", "Astrabad" "Krasnovodsk" kanoner gəmiləri göstərilir (14, s. 601) Azərbaycan Respublikasının Xəzər Hərbi Donanması mövcudluğu məsələsi mövzusunu tamamlamaq üçün Bakıda sovet hakimiyyəti qurulduqdan sonrakı materialların da cəlb edilməsi faydalıdır. 7 may 1920-ci ildə Azərbaycan SSR İnqilab Komitəsi Azərbaycan SSR-in hərbi dəniz qüvvələrinin Sovet Rusiyası Qızıl donanmasının operativ sərəncamına verilməsi haqqında qərar qəbul edir. Volqa – Xəzər Hərbi Donanmasının qərargah rəisi V.A.Kukel 10 iyun 1920-ci il tarixli Rusiya Hərbi Dəniz qüvvələri Qərargahına Azərbaycan Hərbi Donanmasının gəmi tərkibi haqqında verdiyi raportda " Bakı tutularkən orda "Puşkin" kreyserinin, "Kars", "Ərdahan", "Qretsiya" , Astrabad", "Araks", "Nargen", "Buqaz", "Oryol", gəmilərinin, habelə "Qorçakov" tralının, "Terek" barcının, Alesgerye" və "Kirgiz" hospital gəmilərinin və üzən emalatxanasının yerləşdiyini bildirir və əlavə edir ki, bu gəmilər Azərbaycan SSR-in donanmasının tərkibini təşkil edir və eyni zamanda bütün kommersiya gəmiləri yerli Xalq Komissarlığının tam sərəncamındadır. (9 s. 292, 310) Göstərilən sənədlərdə mühüm olan məsələ Sovet Rusiyasının ADR-dən qalan donanmanın Sovet Azərbaycanının mülkiyyəti hesab etməsi və bununla Azərbaycanın Xəzərdə tam hüquqlu gəmiçilik hüququnu, o cümlədən hərbi mövcudluğunu beynəlxalq – hüquqi baxımdan qəbul etməsi faktıdır.

2 sentyabr 1919-cu ildə ADR Xarici İşlər naziri M.Y.Cəfərov Könüllü Ordu Komandanlığının Zaqafqaziyadakı ali nümayəndəsi gen. N.N.Baratovun 30 avqust 1919- cu il tarixli 1442 N- li məktubuna 2 sentyabr 1919-cu il tarıxli 2894 N-li məktubla cavabı Xəzər dənizinin tarixində önəmli irəliləmələrdə xəbər verdi. Bu məktubda ADR xarici işlər naziri keçmiş Xəzər hərbi donanması gəmilərinin Azərbaycan respublikasına məxsus olması mövqeyini ortaya qoydu. Məlumatda deyilirdi: "30 avqust tarixli №1444-li sorğunuzu (ARDA F894, siy10, iş 86, v35) aldığımı təsdiq edir və cənab ministr-sədrin tapşırığı ilə Sizə məlumat verirəm ki, keçmiş Xəzər Hərbi Donanmasının bolşeviklərin əlində olan və ingilislər tərəfindən tərksilah edilmiş gəmiləri hazırda bütünlüklə Azərbaycan hökumətinin sərəncamındadır və kim tərəfindən olursa olsun hər hansı iddianı qəbul etmir (7, s. 351-352).

Problemlə əlaqədar Paris sülh Konfransında Azərbaycan nümayəndə heyətinin başçısı A.A.Topçubaşovun Böyük Britaniya Xarici İşlər naziri lord Balfura Könüllü ordunun Azərbaycana qarşı təcavüzkar hərəkətləri haqqında 10 sentyabr 1919-cu il tarixli notasında ADR-in Xəzər siyasətində fövqəladə maraq doğurur. Notada Könüllü ordunun Azərbaycan ərazisi olan Dağıstanı və Dərbəndi işğal etməsi nəticəsində qurudan törətdiyi təcavüz aktından sonra dənizdən də təhlükə yaratdığı bəyan edilir. ". Könüllü ordunun indi də Azərbaycanı dəniz tərəfindən hədələmək imkanı alır: «O, Xəzər Donanması gəmilərinin bir hissəsini ələ keçirmişdir və onun gəmilərində indi öz qoşunlarını daşıyır,. lakin sabah öz təcavüzkar xislətinə uyğun olaraq həmin ordu Xəzər dənizinin Azərbaycan sahilinə qoşun çıxarda, bizim sahil şəhərlərimizə, hətta paytaxtımız Bakı şəhərinə hücum edə bilər. Necə olur ki, bu ordu Azərbaycanın mülkiyyəti olan və yalnız gəmilərinə yalnız Azərbaycan hökumətinin sərəncam hüququna malik olduğu halda, Xəzər Donanmasının bir hissəsini zəbt edə bilmişdir". (15, s. 336) Sənəddən göründüyü kimi ADR artıq Bakı və Petrovsk limanına bağlı gəmilərin Azərbaycana mülkiyyəti hesab edir və ingilislərin Könüllü orduya gəmilərin təhvil verilməsini zəbt etmə aktı kimi dəyərləndirir.

Qeyd etmək lazımdır ki, ADR-in Könüllü ordu haqqında məlumatları həqiqətdən uzaq deyildi. 18 (5) noyabr 1919-cu il tarixində Denikinçi Xəzər Donanması komandanlığının Dəniz idarəsinə göndərdiyi sənəddə donanmanın vəzifələri və planları sırasında Azərbaycanın Həsənqulu ilə əlaqələrinin iflic edilməsi, Bakının quru qoşunları tərəfindən desant çıxarılması hazır olan qədər sıx blokadaya alınması, Azərbaycana qarşı fəal hərəkətlər başlanana qədər Dərbənd mövqelərinin müdafiə olunması, Xəzər dənizində gəmiçilik üzərində nəzarətin saxlanması kimi məsələlər göstərilir (10, s. 212,213).

İngilislərin Xəzəri tərk etməsindən sonra dəniz istiqaməti Bakının və bütövlükdə Zaqafqaziyanın Könüllü ordu tərəfindən işğalı üçün ən təhlükəli istiqamətə çevrilir. Bu dövr Azərbaycan hərbi dəniz qüvvələrinin və aid infrastrukturların yaradılması üçün intensiv iş aparıldı. 1919-cu ilin avqustunda (bəzi ədəbiyyatda iyulun 8-i tarixi göstərilir) Hərbi nazirə ünvanladığı raportda Azərbaycan ordusunun Baş Qərargahının rəisi gen.-leyt. M.Silkeviç göstərirdi ki, Petrovsk tərəfdən Könüllü Ordunun dəniz qüvvələri, Həştərxandan və Zakaspidən isə bolşeviklərin qüvvələri istənilən vaxt Bakıya desant ata bilərdilər. İngilis komandanlığının Xəzər donanmasının bir hissəsini Könüllü Orduya verərək Bakını dənizdən müdafiəsiz qoymaları isə Azərbaycanın paytaxtı üzərində real təhlükənin mövcudluğundan xəbər verirdi. Çünki, dəniz tərəfdən Bakı təmamilə müdafiəsiz qalmışdı. Dənizdən gələcək düşmən qüvvələrinə müqavimət üçün sahil boyu heç bir tədbir görülməmişdi. Silkeviçin raportunda dənizdə müşahidənin təşkili aşağıdakılar olmalı idi. 1) dənizin müşahidəsi; 2)şəhərə dənizdən çıxışlarının həndəvərlərdən artilleriya müdafiəsinin təşkil edilməsi; 3) dəniz polisinin və liman növbəsinin yaradılması; 4) bütün hərbi dəniz məsələlərinin həllində hərbi nazirliyin ən fəal şəkildə iştirakını təklif etdi. Dəniz müşahidəsini təşkili üçün M.Silkeviçə görə həm sahil kəşfiyyatı olmalı, həm də üzən vasitələr əldə edilməli idi. Bu üzən vasitələrlə dənizin özündə də kəşfiyyat aparılmaqla dozor xidməti təşkil edilməli idi. Təklif olunurdu ki, bunun üçün Yollar Nazirliyinin təklif etdiyi 2 ədəd paroxod alınsın, onun heyəti azərbaycanlılardan komplektləşdirilsin və sonra da lazım olan sahələrdə

istifadə edilsin. Paroxodlara toplar və pulemyot quraşdırmaqla onların döyüş imkanlarını artırmaq olardı. Gəmilərdən əlavə M. Silkeviç bir neçə barkasın və mühərrikli qayığın tapılmasını da məqsədəuyğun sayırdı. Bu məsələnin həllində ingilislər tərəfindən müəyyən kömək göstəriləcəyi də güman edilirdi. Qarşılıqlı məsləhətləşmələrdən sonra yaxın vaxtlarda ingilis qoşunlarının dəniz qüvvələri qərargahı ilə xüsusi müşavirə keçirilməsi və orada bir neçə ədəd barkasla mühərrikli qayığın Azərbaycan tərəfinə verilə biləcəyi planlaşdırılırdı. M. Silkeviç onu da əlavə edirdi ki, ingilislərin köməyini gözləmədən dərhal mövcud olan iki paroxodun, barkas və mühərrikli qayıqların təchizinə başlamaq lazımdır. Şəhərin həndəvərinin artilleriya ilə müdafiə edilməsi üçün M.Silkeviçin fikrincə elə də böyük xərclər lazım deyildi. Bakının dəniz kənarında yerləşməsinin xüsusiyyətləri onu etibarlı ,çarpaz top atəşləri ilə müdafiə etməyə imkan verirdi. Bayıl və Zığ burunlarında, habelə Nargin adasında yerləşdirilmiş toplar şəhərin müdafiəsini xeyli gücləndirə bilərdi. Böyuk çaplı topların olmadığı üçün bu məqsədlə hələlik üçdüymə topların istifadəsi də mümkün idi. Dəniz polisinin yaradılmasına gəldikdə isə M.Silkeviçin bildirdiyinə görə belə qüvvələr artıq mövcud idi. Ancaq yaranmış zərurətlə əlaqədar olaraq, onların vəzifələrini bir qədər genişləndirmək lazım idi. Dəniz polisi yaxın məsafədən dozor xidmətini təşkil edə , sahil obyektləri ilə adalar arasında əlaqə yarada bilərdilər. Göstərilən tədbirlərin həyata keçirilməsinə dərhal başlanıldı. (13, s. 348-350) Sentyabrın 1-də Bakıda hərbi liman yaradılmış, oktyabrın 1-də isə "Astrabad hərbi gəmisinin komplektləşdirilməsinə başlanmışdı. (4, s. 488)

1919-cu ilin sonu 1920-ci ilin əvvəlində Denikin təhlükəsinin azalmasına baxmayaraq ADR hökumətinin hərbi strateji planlarında Xəzər istiqaməti əsas proritetlərdən birini təşkil edir. Hökumətin strateji planlarında 1920-ci ildə Xəzər Hərbi Donanmasının əməli surətdə yaradılması və və möhkəmləndirilməsi üçün xaricdən saatda ən azı 23 uzel (=1,852/km saat) 6 ədəd surətli katerlərin aınması planlaşdırılırdı ki, belə katerlər 34-76 mm-lik topla və bir ədəd zenit topu ilə təchiz edilirdi. Onlar dənizdə kifayət qədər çevik manevr etməklə yanaşı kifayət qədər təsirli atəş qüvvəsinə də malik idilər. Sonra 47 mm-lik və ya 57 mm-lik topla, 2 ədəd mina qurğusu ilə silahlanmış və həmin surətlə üzə bilən 12 ədəd kater, habelə sualtı qayıqlarla mühafizə üçün nəzərdə tutulmuş bir ədəd 57 mm-lik topla , bir ədəd zenit topu ilə təchiz edilmiş və saatda 26 uzeldən 36 uzelədək sürətlə hərəkət edə bilən katerin alınması planlaşdırılırdı. Sadalanan silahlardan əlavə bu katerlərin hər birinə ən azı 2 ədəd pulemyot, fəaliyyət radiusu 200-250 mil simsiz teleqraf qurğuları qoyulmalı idi. Katerlərin həcm ölçüləri etibarı ilə elə də böyük olmayacağı uzunluğunun 20-25 m-i aşmayacağı məqsədəuyğun sayılırdı ki, onu sökmədən Bakıya gətirmək mümkün olsun. Dənizdən düşmən gəmilərinin hücumlarının qarşısının alınması, Bakı hövzəsinin müdafiəsinin gücləndirilməsi üçün mina düzən gəmilərin alınması da 1920-ci illərin planlarına daxil idi. Xəzər hərbi donanmasının formalaşdırılması barədə Azərbaycan hökumətinin hazırladığı plana habelə çox da böyük olmayan 6 ədəd sualtı gəminin, mövcud olan gəmilərin təchiz edilməsi üçün 16 ədəd 120 mm-lik, 16 ədəd 76 mm-lik uzaqvuran top, 20 ədəd 57 mm-lik, 20 ədəd 47 mm-lik , 20 ədəd 37 mm-lik, (cəmi 92 ədəd) top alınması, sahildə yerləşdirilmiş toplar üçün kifayət qədər mərmi əldə edilməsi də daxil idi. İngilis qoşunlarından alınmış gəmilərin sökülmüş silahlarını bərpa etmək üçün də Hərbi Nazirlik əməli tədbirlər həyata keçirmək fikrində idi. Habelə mövcud hava qüvvələrinin möhkəmləndirilməsi, və bunun üçün 12 ədəd hidroplanın və 6 ədəd aeroplanın alınması da bura daxil idi. 28 aprel 1920-ci il rus-bolşevik işğalı bu planların gerçəkləşməsini 70 il ləngitdi.

Aydındır ki, bu addımlar nəticəsinə görə təkcə Bakının və digər sahil ərazilərinin konkret təhlükədən müdafiəsi ilə məhdudlaşmayaraq Xəzərin hüquqi statusunun de-fakto dəyişməsinə səbəb olurdu. Xəzərdə Azərbaycan milli bayrağı altında üzən gəmilərə qarşı Denikin ordusunun tələbi də ADR hökumətinin bu fəaliyyətindən yaranan narahatlığı əks etdirirdi. Heç şübhəsiz Xəzərdə Azərbaycan milli bayrağı altında üzən gəmilər məsələsi həmin şəraitdə Azərbaycanın müstəqil dövlət olmasının simvolu olmaqdan əlavə bu müstəqilliyin beynəlxalq – hüquqi

atributlarından biri halına gəlirdi və hər iki tərəfin bu problemə önəm verməsinin əsas səbəbi də bundan ibarət idi.

ADR-in Xəzər siyasətində ən mühüm mərhələni ingilislər Azərbaycanı və Xəzəri tərk etdikdən sonra Denikin hökumətinin ADR-in Xəzərə münasibətdə suveren hüquqlarını və faktiki olaraq onun müstəqil dövlət statusunu tanımamaq anlamına gələn iddialarına qarşı mübarizə təşkil edir. Belə ki, Rusiya imperiyasının cənub regionlarına, o cümlədən Xəzər regionuna nəzarət edən və Rusiya dövlətini təmsil etdiyini iddia edən Denikinin Konüllü Ordusu Xəzər dənizində ADR bayrağı ilə gəmilərin üzməsinə qarşı çıxdı. Cənubi Rusiya silahlı qüvvələri ali baş komandanlığı yanında Dəniz idarəsinin rəisinin 21 sentyabr tarixli məktubunda Azərbaycan hökumətinə 1828-ci il tarixli Türkmənçay müqaviləsinə istinad edərək Azərbaycan donanmasını milli bayraq altında üzməsi halının kəsilməsi haqqında hədələrlə müşahidə olunan tələb irəli sürüldü. Bununla bağlı birbaşa Xəzərin statusu ilə bağlı olan beynəlxalq xarakterli mübahisə meydana gəlir. Vəziyyətin ciddiliyi ondan ibarət idi ki, Xəzər ingilis donanmasının döyüş qabiliyyətli gəmilərini təhvil alan Denikin donanmasına qarşı çıxmaq üçün yenicə yaranmış Azərbaycan hərbi donanmasının hərbi müqavimət imkanları qeyri bərabər idi. Azərbaycan tərəfinə verilmiş hərbi gəmilərin top açarları ingilislərin əlində idi və bu həmin gəmilərdən istifadəni çətinləşdirirdi. Buna görə hökumətin siyasəti ilk mərhələdə siyasi vasitələrdən istifadəyə əsaslanır (21, s. 100-107).

Bununla bağlı 1919-cu ilin ikinci yarısında davamlı olaraq aparılan danışıqlarda Denikin tərəfi Türkmənçay müqaviləsinə istinad edərək Xəzər donanması ilə bağlı tələblər irəli sürdü. Belə ki, Azərbaycan ticarət gəmilərinin rus bayrağı altında üzmələri və hərbi gəmilərinin isə heç dənizə çıxmaması şərti qoyuldu. (1, s. 205-209)

ADR-in Xəzər siyasətinin əsas müddəalarının əks olunduğu əsas rəsmi sənədlərdən biri Dövlət Müdafiə Komitəsinin 21 oktyabr 1919-cu il tarixli Qərarıdır. "Dövlət Müdafiə Komitəsinin Cənubi Rusiya Silahlı qüvvələrinin (CRSQ) Ali baş Komandanlığının Xəzər dənizində Azərbaycan ticarət gəmilərinin rus bayrağı altında üzməsi tələblərinin qəbul edilməzliyi barədə Qərarı" adlı həmin sənəddə göstərilirdi: 1) Türkmənçay müqaviləsi Rusiya və Persiya arasında bağlanmış traktat olaraq yeni yaranmış dövlətlər üçün deyil, yalnız Rusiya və Persiya üşün məcburi xarakter daşıyır. 2) Azərbaycan Xəzər sahilində yerləşən dövlət olaraq limanlara və ticarət donanmasına malikdir və bu gəmilər Azərbaycan bayrağı altında üzəcəkdir. Daha sonra sənəddə bildirilirdi ki, Dövlət Müdafiə Komitəsi CRSQ-nin bu cür tələblərini respublikanın suveren hüquqlarına qarşı yönəlik akt kimi dəyərləndirir və müttəfiqlərin ali komissarı polk. Qaskel və O.Uordrop qarşısında etiraz edir" (17, s. 104).

Dövlət Müdafiə Komitəsinin 21 oktyabr tarixli qərarına müvafiq olaraq, 1918-ci il 26 oktyabr tarixində ADR Xarici İşlər naziri M.Y.Cəfərovun Zaqafqaziyada Britaniyanın ali komissarı O.Uordropa verdiyi notada göstərilirdi ki, Cənubi Rusiya silahlı qüvvələri ali baş komandanlığı yanında Dəniz idarəsinin rəisinin 21 sentyabr tarixli məktubunda Azərbaycan hökumətinə 1828-ci il tarixli Türkmənçay müqaviləsinə istinad edərək Azərbaycan donanmasını milli bayraq altında üzməsi halının kəsilməsi haqqında hədələrlə müşahidə olunan tələb irəli sürmüşdü ki, bu da əsassızdır, belə ki, Türkmənçay müqaviləsi Rusiya və Persiya arasında bağlandığına görə Azərbaycan üçün məcburi sayıla bilməz. Notada bildirilirdi ki, respublika gəmilərinin onun milli bayrağı altında üzməməsi tələbinə Azərbaycan hökuməti Azərbaycan Respublikasının hüquqlarının pozulması hesab edir və respublikaya qarşı təcavüz aktı kimi baxır.

ADR Xarici İşlər Nazirliyinin Paris sülh konfransı Azərbaycan nümayəndə heyətinin sədri A.A. Topçubaşova göndərdiyi arayışda göstərilirdi: "Sizə məlumdur ki, ingilis qoşunları Zaqafqaziyanı tərk etdikdən sonra Xəzər hərbi donanmasının bir hissəsi Denikinə verildi, bir hissəsi isə bizim sərəncamımızda qaldı, və həm bu gəmilər həm də ticarət donanması əlbəttə ki, bizim milli bayraq altında üzməyə başladılar. Bu axırıncı məsələ Denikinin xoşuna gəlmədi və o, birdən birə Xəzər dənizində Rusiyadan başqa heç bir dövlətin hərbi donanmaya malik ola bilməməsini və ticarət donanmasına da Rusiyadan başqa yalnız Rusiyanın malik olmasını nəzərdə

tutan 1828-ci ildə Rusiya və Persiya arasında bağlanmış Türkmənçay müqaviləsinə istinad edərək sərt etirazla çıxış etdi.” (18, s. 434-435) Xarici İşlər Nazirliyinin arayışında qeyd olunurdu ki, bu cür arqumentləşdirməyə Azərbaycan hökuməti müvafiq etirazla cavab verdi və həmçinin Britaniya hökumətinin Zaqafqaziyada ali komissarı Uopdropa, italyan hərbi missiyasını rəisi polk. Qabba və Qafqazda ali komissar polk. Haskelə müvafiq bəyanatla müraciət etdilər, həmçinin, Azərbaycan hökumətinin Denikin qərargahının yerləşdiyi Kubandakı nümayəndəsinə müvafiq göstərişlər verildi. Bu məlumatları Paris sülh konfransındakı nümayəndə heyətinin diqqətinə çatdıraraq Xarici İşlər Nazirliyi müttəfiqlərin qeneral Denikinə təsir etmələrinə nail olmaq üçün addımlar atmağı tələb edirdi.

Bu dövrdə Xəzər məsələsi region dövlətlərinin və ictimaiyyətinin də diqqət mərkəzində olmuşdur. Azərbaycan Respublikasının Türkiyədəki diplomatik nümayəndəsi M.Y. Vəzirovun türk qəzeti “ Təsviri Əfkar”a 15 noyabr 1919-cu il tarixdə verdiyi müsahibədə curnalistin ilk sualı Xəzərlə bağlı Denikinin ultimatumu barəsində olmuşdu. M.Y. Vəzirov general Denikinin Azərbaycan hökumətinə notası barədəki sualını belə cavablandırmışdı. “Xəzər dənizində Azərbaycan donanması vardır. Aydındır ki, müstəqil bir dövlətə mənsub olan bu donanma bizim milli bayrağımız altında üzür. Könüllü ordunun komandanlığı 27 oktyabr 1919-cu ildə verdiyi nota ilə Azərbaycan donanmasına milli bayraq altında üzməyə qadağa qoyur. Könüllü Ordu bu notada Rusiya və Persiya arasında 1828-ci ildə bağlanmış məlum Türkmənçay müqaviləsinə istinad edir ki, bu müqavilə ilə Persiya Xəzər dənizində öz bayrağı altında üzən donanmaya malik olmaqdan məhrum edilirdi. Təbiidir ki, bizim hökumət bu cür tələbi rədd etmişdir. Belə ki, dövlətimizin suveren hüquqlarından çıxış edərək bayraq məsələsini daxili məsələmiz və kimsə tərəfindən daxili işlərimizə müdaxiləni yolverilməz hesab edirik. Prinsipcə bir halda ki, bizim dövlətimiz Xəzər dənizini sahilində yerləşir, bizim bu dənizə olan hüquqlarımıza qarşı çıxmaq olmaz (19, s. 428-429).

Denikin təhlükəsinə qarşı beynəlxalq – hüquqi mübarizə ADR diplomatiyasının ən ciddi qələbələrindən biridir. ADR nəinki Rus imperiyası qarşısında geri şəkildi, əksinə öz haqq və hüququnu daha konkret və açıq şəkildə ortaya qoydu. ADR Xarici İşlər naziri F.X.Xoyskinin Paris sülh konfransında müttıfiq dövlətlərin nümayəndələrinə göndərdiyi memorandumda 11 yanvar 1920-ci ildə ADR-in de-fakto tanınması aktını təqdir edərək Azərbaycan Respublikasının həm dəniz həm də dəniz sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi üçün bir sıra təkliflər irəli sürüldü. Bu sənəddə artıq bütün Denikinə məxsus olan gəmilərin ya Azərbaycan hökumətinə verilməsini ya da müttəfiq dövlətlərin birinin sərəncamına verilməklə mərkəzləşdirilməsini təklif edirdi. Bundan əlavə Aşur adadakı Astrabad hərbi dəniz bazasının Persiyaya və ya Britaniya komandanlığına verilməsini zəruri hesab edirdi. Xəzər dənizinin statusu baxımından ADR-in dəniz sərhədi anlayışının ifadə olunması diqqəti cəlb edir. Məlumdur ki, hətta XXI əsrin əvvəllərində də İran və Rusiya tərəfinin mövqeyini ifadə edərkən Xəzərdə dəniz sərhədlərinin mövcud olub olmaması beynəlxalq mübahisə obyekti kimi qalmaqda davam edir.

Açar sözlər: Azərbaycan Demokratik Respublikası, Xəzər dənizi, ADR hoküməti, Xəzər donanması, Könüllü ordu, ADR Xarici İşlər Nazirliyi, İngilis ordusu.

İstifadə olunmuş ədəbiyyat

1. İ.Musayev. Azərbaycanın xarici siyasəti(XX əsr). Birinci hissə.Bakı, 2001.
2. İ.Musayev. Azərbaycanın xarici siyasəti (XX əsr). Bakı, 2004.
3. M.Ə.Rəsulzadə. Əsrimizin Siyavuşu. Bakı, Gənclik, 1991.
4. MDA F2894, siy 1, iş.19, v.8)8- ci //Mehman Süleymanov.Azərbaycan Ordusu Bakı, Hərbi Nəşriyyat, 1998.

5. Азербайджан.1919.12 ноября. № 244. // Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика. (Документы и материалы). Баку, 1998.

6. Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика. (Документы и материалы). Баку, 1998.

7. Азербайджанская Демократическая Республика (1918-1920). Армия. (Документы и материалы). Баку, 1998.

8. Военные моряки в борьбе за власть советов в Азербайджане и Прикаспии. 1918-1920. Сборник документов. Баку, 1971.

9. ГААР, ф. 2898, оп.2, д.22, л.158. //Азербайджанская Демократическая Республика (1918-1920). (Документы и материалы). Баку, 1998.

10. ГААР, ф. 970,оп.1, д.60, л.9. Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика. (Документы и материалы). Баку, 1998.

11. ГААР, ф. 970. ,оп.3, д.1, л.1-3. //Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика. (Документы и материалы). Баку, 1998.

12. ГААР, ф. 970. ,оп.1, д.142, л.90-94. //Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика. (Документы и материалы). Баку, 1998.

13. ГААР, ф. 2898,оп.1, д.13, л.18- 19. //Азербайджанская Демократическая Республика (1918-1920). Армия. (Документы и материалы). Баку, 1998.

14. ГААР, ф. 2898,оп.2, д.22, л.158. //Азербайджанская Демократическая Республика (1918-1920). (Документы и материалы). Баку, 1998, с.104.

15. ГААР, ф. 970, оп.1, д.144, л. л. 14-17. Копия. (Бах: Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика. (Документы и материалы) Баку, 1998.

16. ГААР, ф. 970,оп.1, д.120, л.21-22. Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика. (Документы и материалы). Баку, 1998.

17. «Искра», 1919, 3 августа, № 157. //Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика. (Документы и материалы) Баку, 1998.

18. Р.Ф.Мамедов**.** Военная деятельность государств в бассейне Каспийского моря и международное право //Beynəlxalq hüquq və inteqrasiya problemləri, №1, s.94-99; № 2.

Вагиф ГУСЕЙН

КАСПИЙСКАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ И ЕЕ МЕЖДУНАРОДНО-ПРАВОВЫЕ РЕЗУЛЬТАТЫ (август 1919 – апрель 1920)

Резюме

В статье проведен анализ каспийской политики Азербайджанской Демократической Республики (1918-1920). Политику АДР по вопросу Каспия автор рассматривает с историко-хронологического и юридического аспектов, приходит к выводу что ошибочно изучать геополитическую ситуацию вокруг Каспийского моря с момента образования в 1991 г. в регионе Каспийского моря независимых государств без учета международно-правовой обстановки в регионе в 1917-1920 гг. По мнению автора, каспийская политика АДР в 1918-1920 гг., а также результаты ее реализации и поныне сохраняют огромную важность для решения международных споров и могут быть использованы азербайджанской дипломатией.

Ключевые слова: Азербайджанская Демократическая Республика, Каспийское море, правительства АДР, Каспийское флотилия, добровольная армия, Министерство Иностранных Дел АДР, армия Великобритании.

Vagif HUSSEIN

THE CASPIAN POLICY OF AZERBAIJAN DEMOCRATIC REPUBLIC AND ITS INTERNATIONAL LAW RESULTS (August 1919 – April 1920)

Summary

In the article an analysis has been made of the Caspian policy of Azerbaijan Democratic Republic (1918-1920). Author considers the policy of ADR on the issue of the Caspian Sea from the historical-chronological and juridical aspects. He draws the conclusion that it is erroneous to study the geopolitical situation around the Caspian Sea since the point of formation of the independent states in 1991 in the region of the Caspian Sea without regard for international legal condition of the region in 1917-1920. In author′s opinion the Caspian policy of ADR in 1918-1920, as well the results of its realization, preserve a great importance for solution of the international debates up to present and can be used by Azerbaijani diplomacy.

Keywords: Azerbaijan Democratic Republic, the Caspian Sea, ADR government, Caspian fleet, the foreign affairs minister, Voluntary Army, English Army.

İLAHİYYAT BÖLMƏSİ

UOT 347.123

Nərgisi RƏMƏZANPUR
AMEA Şərqşünaslıq İnstitutu, doktorant

QURAN VƏ İNSAN HAQLARI*

Giriş:

Hazırda müsəlman ölkələrində geniş diskussiyalara səbəb olan məsələlərdən biri də Quran və insan haqlarının əsas prinsipləridir. Bu dini kitaba baxdıqda müşahidə edirik ki, həmin kitab bütün insan fəaliyyətlərinə (mədəni, iqtisadi, siyasi və s.) əxlaqi nöqteyi-nəzərdən yanaşır. Bu isə insan aliliyi və insan ləyaqətinin həmin kitabda ciddi əhəmiyyətə və mövqeyə malik olduğunu göstərir. Müxtəlif etniklərin və irqlərin hörmət quranda onların toxunulmaz haqqı kimi qəbul edilir (Hücərat surəsi, ayə 11). Həmçinin həmin surənin 13-cü ayəsində deyilir; "ey insanlar, biz sizi qadın və kişi olaraq yaratdıq və sizi millətlər, qəbilələr formasında ayırdıq ki, siz biri-biriniz haqda məlumat əldə edəsiniz və ...". Bu ayə insanların müxtəlif qəbilələr və qruplar formasında yaranmasının əsas məqsədinin onların bilik və məlumat kəsb etməsindən ibarət olduğunu qeyd edir. Həmçinin Quran müxaliflərin fikir və rəyini dinləməyi lazım hesab etməklə müxaliflərə həyat və təhlükəsizlik haqqını vermiş olur.

Qərb dünyasının müsəlmanları qeyri-müsəlmanlara qarşı dözümsüz təsvir etməsinə baxmayaraq, demək olar ki, islamda qurandan qaynaqlanan praktika və institutların konseptual zənginliyi və funksionallığı Qərbdə olanlardan daha yüksəkdir. İslam hüququ dininə əsasən qada və qanunlar öz etibarını Allahın göndərdiyi dindən kəsb edirlər. Buna görə də qanunvericinin qanunlarını tərtib etmək üçün iki əsas istinad mənbəyi quran və dini ənənədir. Deməli Quranın insan haqlarına dair mövqeyini və islam alimlərinin bu kontekstdə söylədikləri fikirlərini öyrənmək müasir şəraitdə ciddi əhəmiyyətə malikdir.

Təqdim edilən məqalədə, Quran və insan haqları, həmçinin bərabərlik, insaf və ədalət prinsipləri təhlil edilmişdir.

İslamda insan haqlarının əsasları:

İslama əsasən insan dəyərli, şüurlu və iradə sahibi olan bir varlıqdır. Quranda Allah insanı yaratdığı üçün "əhsənəlxaliqin" (ən ali yaradan) adlandırılır (mömenun, aye 14). Həmçinin insanın yaranışından danışılaraq Allah onu yer üzərində özünün nümayəndəsi və canişini adlandırır (bəqərə, ayə 30). Allah mələkləri insana səcdə etməyə dəvət edərək (bəqərə, ayə 34) onun aliliyini və ləyaqətini təsdiq etmiş olur (üsəra, aye 70).

İrq, dil, dərinin rəngi və milliyyət kimi faktorların üstünlük amili olmadığına təkid etmək, insan azadlığı, insan hüququna hörmət, islamın insan və insan haqlarına olan münasibətini aydınca göstərir.

İslamda insan haqlarına diqqət ən əvvəldən olmuş və Quranda insan haqlarının iki əsas cəhəti qeyd edilir: maddi və mənəvi həyat haqqı. Kimsənin insanı öz maddi yaxud mənəvi haqlarından məhrum etməyə hüququ yoxdur. Maddi həyat haqqının pozulması ümumən qətl vasitəsi ilə reallaşır və Qurana əsasən bir insanın qətli ümum cəmiyyətin məhv etməsi kimidir. Hətta hücərat surəsinin 13-cu ayəsində deyilir ki: "hər kim digər bir insanı (qisas etmək və fəsadın qarşısını almaq istisna olmaqla) öldürərsə elə bil ki, ümum cəmiyyəti məhv etmiş olub.

Mənəvi həyat haqqının pozulması və tapdanılması isə bir insanı doğru yoldan yayındırmaqla reallaşır. Quran mənəvi həyatı küfrə qarşı qoyur. Yəni mənəvi həyatını itirmiş fərd doğruluq və allah yolunda olmaq imkanlarını itirmiş olur.

---

* Məqalə t.e.d., prof. H.Əlibəyli və f.e.d. Aydın Əlizadə tərəfindən çapa məsləhət bilinib.

Qurana əsasən həyat haqqı sadəcə allah tərəfindən insana bəxş edilir və məhz elə buna görə də, sadəcə Allah bu haqqı insandan əsirgəyə bilər. Deməli allahın izni və istəyi olmadan insanların maddi və mənəvi həyat haqqına toxunmaq olmaz.

Digər tərəfdən "İmam Səccad "Risalət-əl-Hüquq" əsərində allahı tanımanı insan haqlarının əsası və mənbəyi hesab edir. Yəni əgər bir insan Allaha inanmazsa və kafir olarsa, deməli o insanın həyat haqqı yoxdur. Həyat haqqına sahib olmağın yeganə yolu Allaha inanmaqdır" [3, s. 175-176]. Əslində "dini nöqteyi-nəzərdən bütün haqların (sosial, qanuni, əxlaqı və digər haqlar) mənşəyi Allaha inanmaqdır və ona inanmadan insan heç bir haqq və hüquqa malik ola bilməz" [6, s. 56].

İslam dinində haqq anlayışı əxlaq və hüquqda olduğundan daha genişdir. "İslamda əxlaqı və hüquqi haqdan əlavə Allahın insan üzərində olan haqqı da diqqət mərkəzindədir. Buna görə də haqqın islami mənası onun əxlaqı və hüquqi mənasından fərqlənir" [6, s. 110].

İslamın məqsədi insanları düz yola istiqamətləndirmək və onları səadət və insani keyfiyyətə yönəltməkdən ibarətdir. Buna görə də dinin əsas diqqəti insanı kamal və səadətə, xoşbəxtliyə sövq edəcək məsuliyyət və təkliflərə (öhdəliklərə) yönəlib. Qeyd etmək lazımdır ki, məsuliyyət gətirməyən və sırf insanlar üçün yetərli olması ilə seçilən hüquq ikinci dərəcəli əhəmiyyətə malikdirlər. Dinin birinci növ hüquqa (məsuliyyət gətirən hüquqa) diqqəti ondan irəli gəlir ki, insan bəzi tələblərini və istəklərini təbii və instinktiv olaraq təmin etməyə çalışır və bunlar üçün heç bir əmr və göstəriş lazım deyil (məsələn, nəfəs çəkmək, su içmək, qida qəbul etmək və s.). Bu zaman əhəmiyyət kəsb edən məsələ həmin ehtiyacları təmin etməyin sərhədlərini və qaydalarını müəyyən etməkdir. "İslamda insanın insanlığını inkişaf etdirən amil onun öz məsuliyyət və vəzifələrinə ciddi yanaşmasıdır. Əslində məsuliyyət və haqq bir sikkənin iki üzüdür. Yəni insanların öhdəsinə qoyulan təkliflər qarşılığında onlara müəyyən hüquqlarda verilir [6, s. 111].

Burada belə bir sual ortaya çıxır ki, islama əsasən bu sikkənin hansı tərəfinə daha çox diqqət yetirilir, yəni məsuliyyət daha önəmlidir yoxsa haqq? İslami mətnlərin bir çoxunda insan haqlarının riayət olunması mövzusunda eyni və ortaq fikir yoxdur. Daha çox hər bir fərdin başqa insanların hüquqlarına hörmət etməsinə təkid edilir. Dinin əsas məqsədi insanları doğrun istiqamətə yönəltmək və tərbiyə etmək olduğundan, burada məsuliyyət və vəzifəyə daha çox diqqət ayrılır [6, s. 88].

İslam hüquq sistemi dünyanın möhtəşəm hüquq sistemlərindən biridir. Fransalı hüquqşünas Rene David "Müasir hüquq sistemləri" əsərində müəyyən bir fəsli islam hüququ sisteminə ayırıb. O, qeyd edir ki, "islam hüququnun keçmiş əsrlərə aid olduğunu düşünmək səhvdir. İslam hüquq müasir dövrün ən möhtəşəm hüquq sistemlərindən biridir" [5, s. 479]. Həmçinin milliyyətcə ərəb olan, xristianlıq dünyasının məşhur yazıçısı Corci Zeydan "İslam mədəniyyətinin tarixi" adlı əsərində yazır ki, "müsəlmanlar Quran və peyğəmbərin qoyduğu ənənələrə əsaslanaraq siyasi, sosial və iqtisadi baxımdan tam modern bir cəmiyyəti yaratmağı bacardılar. Onlar Quran və peyğəmbərin ənənəsinə əsaslanaraq hüquq, cəza, ticarət əlaqələri, kommersiya və digər sahələrdə də inkişaf etməyi bacardılar və onların yaratdığı hüquq sistemi dünyanın ən mükəmməl hüquq sistemlərindən biridir [7, s. 32].

İslam hüququnun əsasını təşkil edən Quranda ədalət prinsipi ilə yanaşı evlilik, boşanma, mirasın bölgüsü qaydaları, ticarət, cəza və digər hüquqi problemlərə dair müxtəlif ayələr vardır. Bu tip ayələrə ayat-əl-əhkam deyilir və onların izahına dair islam alimlərinin yazdıqları müxtəlif kitablar vardır.

Quranda insan haqları (bərabərlik, insaf, ədalət):

İslam dinində bərabərlik, insaf və ədalətə ciddi əhəmiyyət verilir. Bu haqda Quranda bir çox ayələr vardır ki, bu da İslamın insan haqlarına verdiyi əhəmiyyətlə əlaqədardır.

Bərabərlik: İslam hüququnda ümumi hüququn əsas prinsiplərindən biri ədalətdir. "Ümum insanlar hansı təbəqəyə, qrupa, irqə, dinə mənsub olmaqlarına baxmayaraq və hansı peşə sahibi olmaqlarına baxmayaraq bərabər hüquq və öhdəliklərə malikdirlər" [4, s. 122]. Bərabərlik bəzən

birlik və bəzən ədalət anlamlarında da işlədilib. Lakin qeyd etmək lazımdır ki, bərabərliyi bu iki anlayışdan fərqləndirmək lazımdır. Bu tədqiqdə bərabərlik ayrı seçkiliyə müqabil və zidd mənada işlədilibdir. Ayrı seçkilik siyasi hüquqda parçalamaq və ayırmaq anlamında və hüquqda rasional, ənənəvi və qanuni icazə olmadan bərabərlik prinsipini pozmaq mənasında işlədilir. Deməli təqdim edilən məqalədə bərabərlik hüquqi anlamda və ayrı seçkiliyin əksi olaraq işlədilir. İslam dinində bərabərlik insanların Allah nemətlərindən və sosial güzəştlərdən bərabər formada faydalanması anlamında işlədilir.

Qanunvericinin əsas vəzifəsi cəmiyyətdə təbii, sosial, ictimai və siyasi imkanların ümum cəmiyyət üzvləri arasında düzgün paylanmasına şərait yaratmaqdır. Ən uyğun qanun bərabərlik sahəsində daha effektiv olan qanundur. Ən yaxşı hökumət (icraedici qurum) isə insanların biri-birinin haqqına təcavüz etməsinin qarşısını almağı bacaran hökumətdir. "Əlbəttə bərabərliyin belə izahı və tərifi insanların fərdi bacarıq və istedadını inkar etməyə yönəlməyib və əsas məqsəd cəmiyyət üzvlərinin bərabər formada ümumi nemətlərdən və potensial imkanlardan faydalanmasını qeyd etməkdir [1, s. 60]. Bir islami cəmiyyətdə hökumətin əsas vəzifəsi qeyd edilən vəziyyəti yaratmaq və qorumadır. Hökumət elə bir şərait yaratmalıdır ki, zəiflərin hüququnun tapdanılmasının və digərlərinin hüququna təcavüzün qarşısı alınsın. Aşağıda Quranda bərabərliyə təkid edən bəzi ayələrə işarə edilmişdir.

"Ey insanlar, biz sizi qadın və kişi olaraq yaratdıq və sizi millətlər, qəbilələr formasında ayırdıq ki, siz biri-biriniz haqda məlumat əldə edəsiniz. Lakin sizin Allah yanında ən sevimliniz imanı güclü olanlardır və Allah hər şeyə agahdır" (hücərat, ayə 13).

Bu ayə sadəcə müəyyən insan qruplarına deyil ümum insan cəmiyyətinə ünvanlanıb. Bu ayədə cəmiyyətin və nizam-intizamın davamlılığına səbəb olan prinsip aydınca qeyd edilir və insanların üstünlüyü saxta dəyərlər deyil həqiqi dəyərə (imana) görə müəyyən edilir. Allah bu ayədə ümum insanların eyni cütlükdən (Adəm və Həvva) törədiyini və yaranış etibarı ilə bərabər olduğunu vurğulayır. Deməli hansı xalqa, irqə və yaxud qəbiləyə mənsub olmaq insana heç bir üstünlük qazandırmır. İnsanların dilinin və dərisinin rənginin fərqli olması onların bərabərliyinə və insan olmasına ziyan gətirməməlidir. Çünki "bu fərqlər Allahın bir möcüzəsi və ayətidir. Allah bu fərqləri yaradıb ki, bu fərqlər insanların düşünməsinə və daha dərin bilik və məlumat qazanmasına səbəb olsun" [1, s. 61].

Ümumilikdə Quranın bu ayəsinə əsasən demək olar ki, insanlar Allahın istəyi ilə müxtəlif formalarda və qruplarda yaranıblar. Lakin insanın irqi deyil onun ləyaqəti və aliliyi əsas götürülməlidir . İslam bu tip ayələr çərçivəsində insan haqlarını vurğulamış olur. digər bir ayəyə əsasən "möminlər biri-biri ilə qardaşdırlar" (hücərat, ayə 10). Burada da bərabərliyə işarə edilir. Çünki qardaşlıq bərabərlik şəraitində mümkündür.

İnsaf: İnsaf termininin mənası iki bərabər hissədən ibarət olmaq deməkdir (yarı). Terminoloji baxımdan insaf bir şeyin yarısını almaq, düzlük etmək, sədaqətli olmaq və doğru olmaq deməkdir. "İnsafın" əks nöqtəsi "zülm" və "ədl"in (tarazlığın və ədalətin) əks nöqtəsi amansızlıqdır.

Nəhl surəsinin 90-cı ayəsində deyilir ki, "Allah sizi ədl və ehsana dəvət edir". Bu ayədəki ədl (ədalət) sözü daha çox insaf və bərabərlik kimi məna (tərcümə) edilib. Çünki burada ədl sözündən doğru və bərabər formada bölmək (paylamaq) və tən ikiyə ayırmaq anlamında istifadə edilib [1, s. 111].

Həmçinin Ərrəhman surəsinin 7-9-cu ayəsində deyiir ki, "Allah göyləri yaratdı və onda tarazlığı və qanunu tətbiq etdi ki, sizdə ədalət yolundan yayınmayıb və çəkidə ədl ilə davranıb və ölçüdə tarazlığı pozmuyasınız". Həmçinin quranda deyilir ki, "Allah kitabı və ölçünü doğru və həqiqi formada sizə göndərdi ki, siz insanlarla ədl, insaf və düzlüklə davranasınız". Deməli allahın peyğəmbərləri və dini kitabları göndərməkdən əsas məqsədi insanlar arasında ədalətin və insafən tətbiq olmasıdır. Burada ədl ilə tarazlıqdan sinonim sözlər kimi istifadə etməyin səbəbi budur ki, insanlar arasında tərəzi (tarazlıq vasitəsi) insaf və bərabərliyi tətbiq etmək vasitəsidir [1, s. 113].

Ədalət: terminologiyada ədalətin mənası ədalətli davranmaq və düz (doğru) istiqamətdə olmaqdır. Yəni haqq istiqamətində qalmaq və haqsızlığa meyl etməmək və bərabərlik deməkdir. Məsələn, bu şey o birisinin "ədl"idir demək, bu ona bərabərdir deməkdir [2, s. 12].

Allah Nisa surəsinin 135-ci ayəsində buyurur ki, "ey iman gətirənlər, ədalət üçün qiyam edin və Allah üçün şahidlik edin hətta əgər bu şahidlik sizə, ailənizə, ata və ananıza ziyan versə belə. Çünki onlar varlı yaxud yoxsul olsalar da yetər ki, allah onları himayə etmiş olsun. Dayaz və günah arzulara qapanaraq haqq yolundan yayınmayın. Əgər siz haqqı təhrif edib yaxud onun deməkdən boyun qaçırsanız, bilin ki, Allah bütün işlərinizi görür və hər şeyə agahdır".

Həmçinin Maidə surəsinin 8-ci ayəsində deyilir ki, "ey mömin insanlar, Allah yolunda qiyam edin. Ədl və ədalətin tərəfində olun və qoymayın ki qəbilə mənsubluğundan qaynaqlanan kin sizin ədalətsiz davranışınıza səbəb olsun, ədalətlə davranın və beləliklə imanınızı qoruyun, allah bütün etdiklərinizə agahdır".

Həmin surənin 152-ci ayəsində deyilir ki, "çəkidə və ölçüdə ədalətli olun. Biz insanlardan bacardıqlarını tələb edirik, danışarkən ədalət prinsipinə riayət edin, hətta öz yaxınlarınızla münasibətdə belə. Allahla əlaqədar öhdəliyinizi yerinə yetirin. Allah bunları sizdən tələb edir və təkrar bunları sizə xatırladır".

Bütün bu ayələrdə başqalarının haqqına hörmətlə yanaşmaq və riayət etmək tələb olunur. Hətta ölçü və çəkidə belə digərlərinin haqqına toxunmağa icazə verilmir. Danışıqda ədalət prinsipinə riayət etmək tələb olunur, çünki, bu davranışda ədalətli olmanın müqəddiməsi və başlanğıcıdır.

Allah Hücərat surəsinin 9-cu ayəsində buyurur ki, "əgər iki mömin tayfa biri-biri ilə münaqişə və müharibə edərlərsə, onların arasında sülh yardın və əgər onların biri digərinə zülm edərsə siz məzlumum lehinə olaraq zalımla o qədər müharibə edin ki, yenə Allahın əmrinə tabe olsun. Bunların arasında sülh şəraiti yarandıqda ədalətlə davranın və ədalətlə onları barışdırın. Çünki Allah ədalətlə davrananları sevir".

Bütün deyilənləri nəzərə alaraq demək olar ki, islamda insan haqlarının təməl prinsipləri bərabərlik, insaf və ədalətdir.

Nəticə:

Quranın nəzərdə tutduğu insan haqları bütün millətləri əhatə edə biləcək qədər genişdir və bunun bütün millətlərlə əlaqədar öyrənilməsi lazımdır. Quran ayələrində insan haqlarının əsas prinsipləri kimi bərabərlik, insaf və ədalətə təkid edilir.

Ümumilikdə insanları digər xalqların və qomların haqlarına riayət etməyə çağırmaq Quranın təkid etdiyi insan haqları ideyasının əsas məqsədidir. Hətta Quranda qeyri-müsəlmanların hüququna belə təkid edilir və bu insan haqları ideyasının ən dəyərli cəhətidir.

Deməli Qərb mənbələrinə və düşüncə tərzinə əsaslanan müasir insan haqları bəyannaməsinin müsəlmanları qeyri-müsəlmanlara qarşı aqressivlikdə ittiham etməsi heçdə həqiqətə uyğun deyil. Çünki Quranın nöqteyi-nəzərindən insanların hüququna hörmət və mənəvi yüksəkliyə olan meyl hər müsəlmanın daxili motivlərindən qaynaqlanır. Beləliklə İslam bütün insanların və millətlərin hüququna hörmət etməyi və onların haqlarına riayət etməyi müsəlmanlara əmr edir.

Açar sözlər: İslam, Quran, insan haqları.

İstifadə olunmuş ədəbiyyat

1. Aşuri M. İnsan haqları və bərabərlik, insaf və ədalət anlayışları. Tehran, Tehran universiteti nəşriyyatı, 2004, s. 240 (fars dilində).
2. Bohrani Şeyx Yusif. Hədaeqo-əl-nazerə. X cild, Qum, İslam nəşriyyatı müəssisəsi, 1989, s.380 (fars dilində).
3. Cavadi A. İnsan haqlarının fəlsəfəsi. Qum, Üsəra nəşriyyatı, 2007, s. 210 (fars dilində).
4. Cəfəri L. Hüquqi terminologiya. Tehran, Tehran universiteti nəşriyyatı, 1990, s. 315 (fars dilində).
5. David R. Müasir hüquq sistemləri. Tərcümə: Hüseyn Fatimi, Məhəmməd Aşuri və İzzətullah İraqi. Tehran, Universitet nəşriyyatı mərkəzi, 1990, s. 570 (fars dilində).
6. Misbahi Y.M. İslam nöqteyi-nəzərindən insan haqları. Qum, Xumeyni adına təlim və tədqiqat mərkəzinin nəşriyyatı, 2009, s. 188 (fars dilində).
7. Mehrpur H. Beynəlxalq insan haqları sistemi. Tehran, İttilaat nəşriyyatı, 1997, s 230 (fars dilində).

Наргизи РАМАЗАНПУР

КОРАН И ПРАВА ЧЕЛОВЕКА

Резюме

По Исламу, Коран и его священное содержание включают в себя права человека и признание общечеловеческими такие ценности, как справедливость, совесть и равенство. Коран в довольно открытой форме относит к основным принципам религии право свободы, право независимости и право распоряжения собственной судьбой, рассматриваемые как неприкосновенные и высшее право человека. В статье также представлены анализ айетов Корана относительно прав человека и мыслей религиозных правоведов. Проводится сравнительный анализ между правами человека, предусмотренными в Коране и принципами при определении прав современного человека.

Ключевые слова: Ислам, Коран, права человека, справедливость, свобода.

Nargizi RAMAZANPUR

THE KORAN AND HUMAN RIGHTS

Summary

According to Islam the Koran and its high contents include human rights and justice, conscience and freedom considered to be the values common to all mankind. The Koran refers quite clear the right of freedom, right of independence and right of own destiny considered as a right of personal immunity and the highest human ones to the basic principles of religion. The article also presents an analysis of the ayets of Koran on the human rights and the reflections of the religious scholars. A comparative analysis is made between the human rights foreseen in the Koran and the principles of those concerning a modern man.

Keywords: Islam, the Koran, human rights, justice, freedom.

HÜQUQ BÖLMƏSİ

UOT 324: 342.8

Natiq MƏMMƏDOV
Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədr müavini

SEÇKİ SİSTEMİNİN ANLAYIŞI, MAHİYYƏTİ VƏ NÖVLƏRİ*

Seçki sistemi anlayışı konstitusiya hüquq elminə dair ədəbiyyatda uzun müddətdir ki, istifadə olunur. Rusiya və Azərbaycanın hüquq ədəbiyyatında bu termin ənənəvi olaraq iki mənada – geniş və dar mənada işlədilir. Hesab olunur ki, geniş mənada seçki sistemi ali hakimiyyət orqanlarına seçkilərin keçirilməsi ilə bağlı nizamlanan ictimai münasibətlərin məcmusudur. Bu sistem konstitusiya hüququ əsasında tənzim olunur. Seçki sisteminin realizə olunması prosesində digər ictimai normalar - adətlər, ənənələr, siyasi etika qaydaları da tətbiq edilir.

Dar mənada seçki sistemi anlayışı isə seçicilərin və ya digər səlahiyyətli şəxslərin səsverməsinə müvafiq olaraq deputat mandatlarının deputatlığa namizədlər arasında bölüşdürülməsi üsulu kimi işlədilir (2, s. 139).

Digər ölkələrin hüquq ədəbiyyatında seçki sistemi anlayışının geniş və dar mənada işlədilməsi fikri qəbul olunmur. Əksər ölkələrin konstitusiya hüquq elmində adətən "electoral system" terminindən istifadə olunur. Bu termin, bir qayda olaraq, "səsvermə sistemi" anlayışının sinonimi kimi (3, s. 3-5, 12), bəzi hallarda isə parlament seçkilərinin təşkili üzrə strukturu qanunla nəzərdə tutulan və dövləti idarə etmək hüququnun hansı partiya tərəfindən əldə edilməsini müəyyənləşdirən sistem kimi (5, s. 168) işlədilir. Bəzi tədqiqatlarda isə seçki sistemi seçki prosesinin nəticələrini – səsvermə sistemini, seçki bülleteninin formasını, seçki dairələrinin təşkilini müəyyən edən, yəni partiyalar və namizədlərə verilmiş seçici səslərinin parlament mandatlarına çevrilməsini təmin edən hüquq normalarının məcmusu kimi nəzərdən keçirilir (7, s. 7, 140).

Seçki sisteminə belə yanaşma son dövrlərdə Rusiya Konstitusiya hüquq elminə aid bəzi tədqiqatlarda da öz əksini tapmışdır. Məsələn, A.E.Postnikov hesab edir ki, geniş mənada seçki sistemi namizədlərin irəli sürülməsi, onlara səslərin verilməsi və seçkilərin nəticələrinin müəyyən edilməsi üsullarıdır (8, s. 39). Göründüyü kimi, belə yanaşma zamanı geniş və dar mənada seçki sistemi anlayışları arasında ciddi fərq qoyulmur.

Seçki sistemi anlayışının müəyyənləşdirilməsi zamanı geniş və dar mənada seçki sistemi arasında ciddi fərq qoyulmaması V.E.Çirkin tərəfindən də müdafiə edilir (9, s. 221). Fikrimizcə, seçki sisteminin geniş və dar mənalarda fərqləndirilməməsi daha düzgün yanaşma hesab olunmalıdır.

Azərbaycan Respublikasının Konstitusiyası da bu mövqedən çıxış edir. Konstitusiyanın "Azərbaycan Respublikası Milli Məclisi deputatlarının seçkilərinin əsasları" adlı 83-cü maddəsində nəzərdə tutulur ki, Azərbaycan Respublikası Milli Məclisinin deputatları majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər. Bu normanın təhlilindən belə bir nəticəyə gəlmək olar ki, seçki sistemi termini rəsmən seçkilərin təşkili və keçirilməsi ilə əlaqədar şərtləri qabaqcadan dəqiq bəlli olan

* Məqalə h.e.d., prof. B.Zahidov tərəfindən çapa məsləhət bilinib.

qaydalara uyğun nəticələrin (yekunların) müəyyən edilməsi üsulu mənasında istifadə olunmuşdur. Bu baxımdan hesab edirik ki, elmi ədəbiyyatda da geniş və dar mənada seçki sistemi anlayışlarından imtina olunmalı, seçki sisteminə birmənalı şəkildə aşağıdakı kimi anlayış verilməlidir: seçki sistemi - publik hakimiyyət orqanlarının formalaşdırılması, habelə seçki yolu ilə səlahiyyət əldə edən şəxslərin seçilməsi ilə əlaqədar keçirilən seçkilərdə namizədlərin müəyyən olunması, səsvermə və səslərin bölünməsi, habelə nəticələrin (yekunların) müəyyən edilməsinin qanunla nəzərdə tutulan qayda və üsullarıdır. Bu isə öz növbəsində iki əsas seçki sisteminin – majoritar və proporsional seçki sistemlərinin fərqləndirilməsini labüd edir. Bu baxımdan keçən əsrin ortalarında ingilis dövlətşünasları E.Leykman və C.Lambert tərəfindən nəşr olunan və bu seçki sistemlərinin müqayisəli təhlilinə həsr olunmuş tədqiqat işi hal-hazırda da öz aktuallığını saxlayır (7, s. 19-271).

Majoritar seçki sistemi tarixən ən qədim seçki sistemi hesab olunur. Majoritar seçki sistemi səslərin əksəriyyətinin toplanması prinsipinə əsaslanır (5, s. 139). Majoritar seçki sisteminə əsasən seçici səslərinin qanunla müəyyən edilmiş çoxluğunu toplayan namizəd seçilmiş hesab olunur və mandat əldə edir. Majoritar seçki sistemi prezident, parlament və bələdiyyə seçkiləri zamanı tətbiq oluna bilər.

Majoritar seçki sisteminin səciyyəvi cəhətlərindən biri bundan ibarətdir ki, seçkilər adətən birmandatlı seçki dairələri üzrə keçirilir. Yəni, parlament seçkiləri zamanı ölkə ərazisi parlamentdə deputatların sayına uyğun olaraq seçki dairələrinə bölünür və hər dairədən bir deputat seçilir. Bəzi hallarda majoritar seçki sistemi çoxmandatlı seçki dairələri üzrə də tətbiq olunur; bu halda seçki dairələrinin sayı parlamentdəki yerlərin sayından az olur və hər dairədən bir neçə deputat seçilmiş olur.

Seçilmiş hesab edilmək və mandat əldə etmək üçün səslərin qanunla tələb olunan minimum miqdarından asılı olaraq majoritar seçki sisteminin üç əsas növü – nisbi çoxluqlu majoritar seçki sistemi, mütləq çoxluqlu majoritar seçki sistemi və ixtisaslaşdırılmış çoxluqlu majoritar seçki sistemi fərqləndirilir.

Nisbi çoxluqlu majoritar seçki sistemi ən sadə seçki sistemidir. Bu seçki sisteminin mahiyyəti ondan ibarətdir ki, seçkidə rəqabət aparan şəxslərin içərisindən digər namizədlərə nisbətən daha çox səs toplamış şəxs qalib gəlmiş, yəni seçilmiş hesab olunur və mandat əldə edir. Bir qayda olaraq, nisbi çoxluqlu majoritar seçki sistemində seçkilərin baş tutması üçün seçicilərin minimum iştirak tələbi nəzərdə tutulmur. Yəni, seçkinin baş tutması üçün ən azı bir seçicinin belə səs verməyə gəlməsi kifayət edir. Bəzi ölkələrdə parlament seçkiləri zamanı konkret dairədən həmin dairənin ərazisində yaşayan yalnız bir şəxs deputatlığa namizəd kimi irəli sürülmüşdürsə, adətən həmin dairədə səsvermə keçirilmədən müvafiq namizəd seçilmiş elan olunur. Hesab edilir ki, başqa seçicilər səsverməyə gəlməsələr də, təkcə həmin namizəd seçkidə iştirak edib öz lehinə səs verə bilər.

Bəzi hallarda çoxmandatlı seçki dairələri üzrə nisbi çoxluqlu majoritar seçki sisteminin xüsusi növü olan kumulyativ rəy sistemi tətbiq oluna bilər. Kumulyativ rəy sistemində çoxmandatlı seçki dairələri üzrə keçirilən səsvermədə seçicinin səsi namizədlərin sayına uyğun şəkildə bir deyil, bir neçə ola bilər. Seçici öz səslərindən iradəsinə müvafiq surətdə istifadə edir. Belə ki, seçici səsvermə zamanı səslərini namizədlər arasında istədiyi şəkildə bölə və ya bütün səslərini bir namizədə verə bilər. Sistemin adı da səslərin bir namizədin xeyrinə cəmləşməsinə uyğun olaraq latın mənşəli "cumulatio" – "cəmləşmə" sözü əsasında yaranmışdır. Hazırda kumulyativ rəy sistemi Almaniya Federativ Respublikasında (AFR) ayrı-ayrı torpaqlarda (federativ ərazi vahidlərində) yerli özünüidarəetmə qurumlarının nümayəndəli orqanlarına seçkilərdə tətbiq olunur.

Qeyd etmək lazımdır ki, kumulyativ rəy sistemi digər seçki sistemlərindən fərqli olaraq seçiciyə daha geniş imkanlar yaradır. Belə ki, namizədlərin sayına uyğun səslərə malik olan hər

bir seçici səs verərkən ən çox üstünlük verdiyi namizədə və ya əlavə maraq göstərdiyi bir neçə namizədə səs verməklə öz iradəsini ifadə edərkən daha geniş imkanlara malik olur.

Majoritar seçki sisteminin digər bir forması olan mütləq çoxluqlu majoritar seçki sistemi namizədin seçilməsi üçün ümumi səslərin mütləq əksəriyyətinin (çoxluğunun), yəni səsvermədə iştirak etmiş seçicilərin səslərinin (və ya etibarlı hesab olunan səslərin) ən azı yarısından çoxunun toplanmasını tələb edir. Mütləq çoxluqlu majoritar sisteminin tətbiqi zamanı, bir qayda olaraq, birmandatlı seçki dairələri təşkil olunur. Belə ki, burada artıq seçilmək üçün seçicilərin mütləq əksəriyyətinin səsini toplamaq lazım gəlir. Bu seçki sistemi PF prezidentinin seçkilərində, Braziliya prezidentinin seçkilərində, Venesuela prezidentinin seçkilərində, Peru Prezidentinin seçkilərində və s. tətbiq edilir.

Qeyd etmək lazımdır ki, bu sistem nisbi çoxluqlu majoritar seçki sistemi ilə müqayisədə daha sərt tələbləri ilə fərqlənir. Belə ki, əgər nisbi çoxluqlu majoritar seçki sistemində seçkinin baş tutması üçün namizədin digər namizədlərə nisbətən daha çox səs toplamasından söhbət gedirsə, mütləq çoxluqlu majoritar seçki sistemində bu prinsip əsas götürülə bilməz. Bundan başqa, bir sıra hallarda mütləq çoxluqlu majoritar seçki sisteminin tətbiqi zamanı seçicilərin minimum iştirak həddi nəzərdə tutulur. Belə hallarda seçkilərin baş tutması üçün seçkilərdə seçicilərin iştirakının minimum həddi ödənilməlidir. Əgər bu həddə seçicilərin iştirakı qeydə alınmamışdırsa, seçkilər baş tutmamış sayılır. Minimum hədd qeydə alınmış seçicilərin ümumi sayının yarısına və ondan az sayda seçicilərin sayına bərabər ola bilər.

İxtisaslaşdırılmış çoxluqlu majoritar seçki sistemi nisbətən daha az tətbiq olunur. Bu halda seçilmək üçün daha çox, səsvermədə iştirak etmiş seçicilərin səslərinin (və ya etibarlı hesab olunan səslərin) 60 və ya 65 faizinin, yaxud da üçdə iki, dörddə üç hissəsinin toplanması tələb edilir. Bu sistem yaxın vaxtlara qədər İtaliyada senator seçkilərində tətbiq olunurdu. İtaliyada birmandatlı seçki dairəsində namizədliyi irəli sürülmüş şəxsin senator seçilməsi üçün səslərin 65%-ni toplaması tələb olunurdu. Hal-hazırda Çin Xalq Respublikasında parlament (ÜmumÇin Xalq Nümayəndələri Məclisi) seçkiləri ixtisaslaşdırılmış çoxluqlu majoritar seçki sistemi əsasında keçirilir.

İxtisaslaşdırılmış çoxluqlu majoritar seçki sistemi bir müddət Azərbaycan Respublikası Prezidentinin seçkiləri zamanı da tətbiq olunmuşdur. Ümumxalq səsverməsi (referendum) yolu ilə 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsi müəyyən edirdi ki, Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin üçdə iki səs çoxluğu ilə seçilir. Bu səs çoxluğu səsvermənin birinci dövrəsində toplanmayıbsa, səsvermə günündən sonra ikinci bazar günü səsvermənin ikinci dövrəsi keçirilir. İkinci dövrədə ancaq birinci dövrədə ən çox səs toplamış iki namizəd, yaxud ən çox səs toplamış və öz namizədliyini geri götürmüş namizədlərdən sonra gələn iki namizəd iştirak edir. Səsvermənin ikinci dövrəsində sadə səs çoxluğu toplayan namizəd Azərbaycan Respublikasının Prezidenti seçilmiş sayılır.

Azərbaycan Respublikası Prezidentinin seçkiləri ixtisaslaşdırılmış çoxluqlu majoritar seçki sistemi əsasında cəmi bir dəfə – 1998-ci ildə keçirilmişdir. 2002-ci il avqustun 24-də ümumxalq səsverməsi (referendum) yolu ilə Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində, o cümlədən nəzərdən keçirdiyimiz 101-ci maddəsində dəyişiklik edilmiş, Azərbaycan Respublikası Prezidentinin seçkiləri zamanı ixtisaslaşdırılmış çoxluqlu majoritar seçki sistemi səsvermənin birinci dövrəsində mütləq çoxluqlu, ikinci dövrəsində isə nisbi çoxluqlu majoritar seçki sistemi ilə əvəz olunmuşdur. Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin hazırda qüvvədə olan mətninə görə, Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir. Bu səs çoxluğu səsvermənin birinci dövrəsində toplanmayıbsa, səsvermə günündən sonra ikinci bazar günü

səsvermənin ikinci dövrəsi keçirilir. İkinci dövrədə ancaq birinci dövrədə ən çox səs toplamış iki namizəd, yaxud ən çox səs toplamış və öz namizədliyini geri götürmüş namizədlərdən sonra gələn iki namizəd iştirak edir. Səsvermənin ikinci dövrəsində səs çoxluğu toplayan namizəd Azərbaycan Respublikasının Prezidenti seçilmiş sayılır.

Mütləq və ixtisaslaşdırılmış majoritar seçki sisteminin tətbiqi zamanı seçkilərin iki və daha çox turda keçirilməsi ehtimalı artır. Belə ki, qeydə alınmış namizədlərin sayı ikidən çox olduqda, birinci turda səslərin tələb olunan çoxluğunu toplamaq çətinləşir. Namizədlərdən heç biri mandat almaq üçün tələb edilən sayda səs toplamadıqda, səsvermənin ikinci turu keçirilir və bu zaman bir neçə variant tətbiq oluna bilər. Adətən əvvəlki səsvermədə daha çox səs toplamış iki namizəd sonrakı mərhələyə buraxılır. Namizədlərin hamısının ikinci tura buraxılması, lakin seçilmək üçün tələb olunan səs çoxluğunun azaldılması, yəni ikinci turda nisbi səs çoxluğunun tətbiqi halları da mümkündür.

Proporsional seçki sistemi ümummilli və regional səviyyədə parlament seçkiləri zamanı tətbiq edilir. Proporsional sistemin tətbiqində məqsəd seçicilərin səslərinə uyğun olaraq mandatların proporsional əsaslarla partiyalar arasında mütənasib bölüşdürülməsidir. Proporsional seçki sisteminin mahiyyəti ondan ibarətdir ki, seçki çoxmandatlı dairələr üzrə keçirilir, namizədlər siyahı şəklində siyasi partiyalar (partiyaların blokları) tərəfindən irəli sürülür, seçicilər konkret namizədlərə deyil, siyasi partiyalara və onların təqdim etdikləri namizədlərin siyahısına səs verir, siyasi partiyalar (siyasi partiyaların blokları) isə onlara verilən seçici səslərinin ümumi sayına mütənasib olaraq deputat mandatı əldə edirlər. Bu zaman deputat mandatlarının bolüşdürülməsi üçün ayrı-ayrı ölkələrdə müxtəlif metodlardan istifadə olunur. Yuxarıda qeyd etdiyimiz kimi, proporsional seçki sistemi çoxmandatlı seçki dairələri üzrə tətbiq olunur. Seçki dairələrinin böyük olması səslərin daha effektiv şəkildə proporsiyalara bölünməsinə kömək edir. Məhz bu səbəbdən də proporsional seçki sistemi tətbiq olunan ölkələrdə çox vaxt bütün ölkə ərazisi vahid çoxmandatlı seçki dairəsi hesab edilir (2, s. 142).

Proporsional seçki sistemi hazırda müxtəlif variantlarda bir sıra ölkələrdə tətbiq olunur. Məsələn, Türkiyə, Rusiya, İsrail, Niderland və başqa ölklərin parlamentləri proporsional seçki sistemi əsasında formalaşır.

Ölkənin çoxmandatlı seçki dairələrinə bölünməsi əsasında proporsional əsaslarla seçkilərin keçirildiyi ölkələrə misal olaraq Braziliya Birləşmiş Ştatlarını göstərmək olar. Braziliya seçki qanununa əsasən ölkə əhalisinin sayına görə 150 min və 250 min nəfərlik dairələrə bölünür. İndoneziyada isə bütün ərazi 300 min nəfərlik dairələrə bölünür. Dairədən namizədlər ümumi partiyalar siyahısında və fərdi qaydada irəli sürülə bilər.

Proporsional seçki sisteminin ən mühüm institutlarından biri də seçki maneəsidir (baryeridir). Seçki maneəsinin mahiyyəti ondadır ki, qanunla müəyyən edilmiş minimum miqdardan az səs toplayan siyasi partiyalar (siyasi partiyaların blokları) deputat mandatlarının bölüşdürülməsində iştirak etmir, yəni seçkilərdə iştirak edərək müəyyən qədər də səs toplamasına baxmayaraq seçki maneəsini keçə bilməyən siyasi partiyalar mandat əldə etmir. Seçki maneəsi seçkilərdə (səsvermədə) iştirak etmiş seçicilərin ümumi sayının müəyyən faizi ilə ifadə olunur. Bu maneə AFR-də 5%, Bolqarıstanda və İtaliyada 4%, İspaniyada 3% -dir.

Qeyd etmək lazımdır ki, nə majoritar, nə də proporsional seçki sistemlərində seçici, bir qayda olaraq, namizədlərin siyahısına heç bir əlavə və dəyişiklik edə bilməz. Belə əlavə və dəyişikliklərin edilməsinə imkan verilməyən siyahılar asılı siyahılar adlanır. Lakin seçki sisteminin bəzi növlərində seçicinin siyahılara əlavə və dəyişikliklər etməsinə imkan verilir. Bu tip siyahılar isə hüquq ədəbiyyatında müstəqil və ya sərbəst siyahılar adlandırılır. Müstəqil siyahı institutu proporsional sistemin bir növü hesab olunan preferensial sistemlə və panaşir səsvermə ilə əlaqədar olaraq tətbiq edilir.

Preferensiya sözünün hərfi mənası "üstün tutmaq"dır. Preferensial sistem seçiciyə nəinki hər hansı partiyanın müəyyən olunmuş siyahısına səs verməyə imkan yaradır, həm də bu sistem əsasında seçici siyahıdan daha çox üstünlük verdiyi namizədi xüsusi qeyd edə bilər. Bu məqsədlə, seçici siyahıya səs verdiyi zaman həmin namizədin (və ya namizədlərin) adını qanunvericilikdə müəyyən olunmuş qaydada işarə edir. Bu sistem zamanı mandatlar təqdim olunan siyahıdakı ardıcıllığa uyğun olaraq deyil, namizədlərin siyahı daxilində topladıqları səslərin miqdarı nəzərə alınmaqla bölüşdürülür.

Panaşir səsvermədə isə seçici bir deyil, müxtəlif siyahılardakı namizədlərə preferensial əsaslarda səs verə bilər. Həm də bu zaman seçicinin siyahıya yeni namizədlər daxil etmək imkanı vardır. Panaşir səsvermə həm çoxmandatlı majoritar seçki sistemində, həm də proporsional seçki sistemində tətbiq oluna bilər. Panaşir səsvermə əsasında majoritar sistemin seçkilərinin nəticələri hər bir namizəd tərəfindən toplanmış səslər ayrılıqda hesablanmaqla müəyyən olunur. Panaşir səsvermə (proporsional seçki sisteminə aid) əsasında seçkilərinin nəticələri isə bir qədər fərqli qaydada müəyyənləşdirilir. Burada, adətən hər bir siyahıda orta rəqəm hesablanır.

Qeyd etmək lazımdır ki, həm majoritar və həm də proporsional seçki sistemlərinin özünəməxsus üstün və çatışmayan cəhətləri vardır.

Majoritar seçki sistemini tətbiq edən dövlətlər onun aşağıdakı üstün cəhətlərinə əsaslanırlar. Birincisi, majoritar seçki sistemi ölkədə qüvvələr nisbətində balans yaradılmasına, parlamentdə daha güclü partiyaların və ya birliklərin üstünlük qazanmasına şərait yaradır. Cəmiyyətin həyatında real gücə malik olmayan, seçicilərin əksər hissəsinin dəstəyindən məhrum olan partiyalar majoritar seçki sisteminin təsiri altında tədricən parlamentdən kənarda qalır və son nəticədə iki-üç partiyanın fəaliyyət göstərdiyi sabit siyasi sistem formalaşır. Belə ki, ikipartiyalı və ya üçpartiyalı siyasi sistemlər zamanı parlamentdə təmsil olunmuş partiyalar arasında təxmini qüvvələr tarazlığını təmin etmək nisbətən asan olduğundan tez-tez hökumət böhranının baş verməsi ehtimalı azalır, daha sabit hökumətin formalaşması və fəaliyyət göstərməsi imkanı müvafiq olaraq artır. Majoritar seçki sisteminin uzun müddət tətbiq olunduğu Böyük Britaniya və ABŞ-da formalaşmış ikipartiyalı siyasi sistem bunun ən bariz nümunəsidir.

Majoritar seçki sisteminin üstünlüyü həmçinin ondadır ki, bu sistemin tətbiqi zamanı seçicilər konkret namizədlərlə və mandat qazanmış şəxslərlə bilavasitə münasibətdə olur, hər bir namizədin şəxsi, siyasi və işgüzar keyfiyyətləri ilə daha yaxından tanış olur, onlar arasında öz iradələrinə uyğun sərbəst seçim etmək imkanına malik olurlar. Yəni majoritar seçki sistemi zamanı həm seçicilər səs verəcəkləri namizədi, həm də namizədlər səsvermə keçiriləcək dairəni, həmin dairə üzrə qeydə alınmış seçiciləri daha yaxından tanıya, mövcud problemləri, həmin problemlərin həlli yollarını dərindən öyrənə bilirlər. Majoritar seçki sisteminin tətbiqi zamanı seçki prosesində şəxsi tanışlıq və şəxsi simpatiya ünsürləri mühüm rol oynayır ki, bu da bütünlükdə daha ləyaqətli namizədlərə, nümayəndəli orqanlara mandat verilməsi prosedurunu daha etibarlı zəmində həyata keçirməyə əsas yaradır (4, s. 269).

Beləliklə, majoritar seçki sistemi cəmiyyət tərəfindən tanınmış, seçicilərin inandığı və etibar etdiyi, öz intellektual imkanlarına görə xalqa xeyir verə biləcək ayrı-ayrı şəxslərin nümayəndəli orqanın tərkibinə və ya seçkili vəzifələrə müstəqil seçilə bilməsi üçün gözəl imkan yaradır. Sağlam düşüncəli, orta intellektual səviyyəli cəmiyyətlərdə bu sistemin tətbiqi baxımından problem yoxdur. Yəni, xalq demokratik şəraitdə yalnız özü inandığı və etibar etdiyi bir namizədə səs verib, onu bu və ya digər publik hakimiyyət orqanına üzv seçir.

Majoritar seçki sisteminin başlıca çatışmayan cəhəti seçici səslərinin müəyyən hissəsinin itməsi, seçkilərin nəticələrində öz əksini tapmamasıdır. Ayrı-ayrı ölkələrin təcrübəsində bütün ölkə üzrə daha çox səs toplayan partiyanın parlamentdə az mandat əldə etməsi kimi hallar olmuşdur. Belə ki, 1951-ci ildə Böyük Britaniyada keçirilmiş seçkilərdə Mühafizəkarlar

Partiyası təxminən 13,72 milyon səs toplayaraq parlamentdə 321 deputat mandatı əldə etdiyi halda, nisbətən çox, yəni təxminən 13,94 milyon səs toplayan Leyboristlər Partiyası 25 mandat az – cəmi 296 mandat qazanmışdır.

Majoritar seçki sistemindən fərqli olaraq proporsional seçki sistemində səslərin itkisi xeyli azalır. Düzdür, bu zaman da seçki maneəsini keçməyən partiyaların topladığı səslər deputat mandatlarında öz əksini tapmayaraq itirilir. Lakin seçki maneəsini keçən partiyaların qazandığı mandatların sayı onların topladığı seçici səslərinə tam uyğun olur. Yəni, proporsional seçki sistemi majoritar seçki sistemindən fərqli olaraq siyasi qüvvələrin real nisbətini daha düzgün əks etdirir və onların parlamentdə ədalətli təmsilçiliyinə imkan yaradır. Proporsional seçki sistemi həmçinin çoxpartiyalılığın inkişafına və möhkəmlənməsinə təkan verir. Lakin bununla yanaşı, proporsional seçki sistemi ölkədə siyasi partiyaların çoxalmasına, xırdalanmasına stimul yaradır. Bir çox hallarda parlamentdə təmsil olunan partiyaların sayının artması nəticəsində, xüsusən də parlamentli və yarımprezidentli respublikalarda sabit hökumətin formalaşdırılması çətinləşir. Proporsional seçki sisteminin daha bir çatışmayan cəhəti ondan ibarətdir ki, konkret namizədlərlə seçicilər arasında birbaşa əlaqə zəifləyir, əksər hallarda seçicilər namizədlərin irəli sürülməsində iştirak edə bilmir, siyasi partiyaların verdikləri siyahı ilə məhdudlaşaraq yaxından tanımadıqları namizədlərə səs vermək məcburiyyətində qalırlar.

Bəzi ölkələrdə majoritar və proporsional seçki sistemlərinin nöqsanlarını istisna etməklə, bu sistemlərin elementlərindən ibarət olan qarışıq seçki sistemi təşkil olunur. Bu zaman hər iki sistemin müsbət cəhətlərindən ya bərabər, ya da birinə üstünlük verməklə istifadə olunur. Yəni, parlament üzvlərinin müəyyən bir hissəsi majoritar seçki sistemi əsasında, digər hissəsi isə proporsional seçki sistemi əsasında seçilir. Hazırda qarışıq seçki sistemi Almaniya Federativ Respublikasında, Litvada, Gürcüstanda və başqa ölkələrdə tətbiq olunur.

Qarışıq seçki sistemi bir müddət Azərbaycan Respublikasında da tətbiq olunmuşdur. Azərbaycan Respublikası Konstitusiyasının 83-cü maddəsinin ilkin mətnində müəyyən olunurdu ki, Azərbaycan Respublikası Milli Məclisinin deputatları majoritar və proporsional seçki sistemləri, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər. Azərbaycan Respublikası Milli Məclisinin birinci və ikinci çağırışının seçkiləri (1995-ci və 2000-ci illər) qarışıq seçki sistemi əsasında keçirilmişdir. Yəni, Azərbaycan Respublikası Milli Məclisinin 100 deputatı majoritar seçki sistemi əsasında birmandatlı seçki dairələrindən, 25 deputatı isə proporsional seçki sistemi əsasında vahid çoxmandatlı seçki dairəsi üzrə seçilmişlər. Azərbaycan Respublikasının Milli Məclisinə 1995-ci il seçkilərində proporsional seçki sistemi üzrə seçki maneəsi 8%, 2000-ci il seçkilərində isə 6% həddində müəyyən edilmişdir. Hazırda isə Azərbaycan Respublikasının Milli Məclisi bütünlüklə nisbi çoxluqlu majoritar seçki sistemi əsasında formalaşdırılır.

Yuxarıda şərh olunanlar baxımından Azərbaycan Respublikasında parlament seçkilərinin bütünlüklə majoritar seçki sistemi əsasında keçirilməsini dövlətimizin hazırkı siyasi reallığından irəli gələn daha məqsədəuyğun variant hesab edirik. Belə ki, Azərbaycan Respublikası gənc müstəqil dövlətdir və dövlət müstəqilliyini əldə etdiyi ilk günlərdən çoxsaylı problemlərlə üzləşmişdir. Azərbaycan Respublikası artıq 20 ildən çoxdur ki, Ermənistanın təcavüzünə məruz qalmaqdadır, ərazisinin 20 faizindən çoxu işğal altındadır. Belə bir şəraitdə icra hakimiyyətinin sabitliyi və möhkəmləndirilməsi, mübarizənin daha güclü siyasi partiyalar arasında aparılmasına şərait yaratmaqla parlamentarizmin tədricən inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Majoritar seçki sisteminin yuxarıda qeyd olunan üstünlükləri – ölkədəki siyasi qüvvələr nisbətində sabit balans yaradılması və daha güclü partiyaların parlamentdə təmsil olunması, cəmiyyətin həyatında real gücə malik olmayan kiçik partiyaların parlamentdə təmsil olunmaları üçün daha yaxşı təşkilatlanmanın zəruriliyinə stimul yaradılması, tez-tez hakimiyyət böhranının baş verməsi ehtimalının əhəmiyyətli dərəcədə azaldılması, parlamentarizmin inkişaf

etdirilməsinə şərait yaradılması, sabit icra hakimiyyəti sisteminin formalaşdırılması, möhkəmləndirilməsinə və daha da inkişaf etdirilməsinə kömək edir. Eyni zamanda majoritar seçki sistemi Azərbaycan Respublikasının Milli Məclisinə deputatların siyasi mənsubiyyətindən asılı olmayaraq şəxsi və işgüzar keyfiyyətləri əsasında seçilməsinə şərait yaradır. Bu da öz növbəsində Azərbaycan Respublikası Milli Məclisinin daha səmərəli fəaliyyət göstərməsinə, siyasi çəkişmələrə deyil, parlamentə aid olan əsas funksiyaların – təmsilçilik, qanunvericilik və nəzarət funksiyalarının daha keyfiyyətli həyata keçirməsinə üstünlük verməsinə yol açır.

Açar sözlər: seçki sistemi, seçki hüququ, proporsional seçki sistemi, seçkinin mahiyyəti, səsvermə sistemi.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Azərbaycan Respublikası Milli Məclisinin nəşri, 2009.
2. Əsgərov Z.A., Nəsirov E.H., İsmayılov M. Azərbaycan Respublikasının Konstitusiyası və hüququnun əsasları. Dərslik. Bakı, "Qapp-Poliqraf", 2005.
3. Mammadov N.S. Elections as element of constitution system //Azerbaijan & Azerbaijanis, 2010, №1-2, p.285-289.
4. Nəsirov E.H. Azərbaycan Respublikası seçki qanunvericiliyinin təkmilləşdirilməsinin nəzəri-praktiki problemləri / Hüquq fakültəsinin 80 illik yubileyinə həsr olunmuş "Qloballaşan cəmiyyətdə hüquq elminin aktual problemləri" mövzusunda respublika elmi konfransının materialları. 9 aprel 2008-ci il. Bakı, "Bakı Universiteti", 2008, s.7-13.
5. Bawn K. The Logic of Institutional Preferences: German Electoral Law as a Social Choice Outcome // American journal of political science, 1993, Vol. 37, № 4. p.965-989.
6. Bradley A.W., Ewing K.D. Constitutional and Administrative Law. Fifteenth Edition. London, Pearson Education Limited, 2011.
7. Лейкман Э., Ламберт Дж. Исследавание мажоритарной и пропорциональной избирательных систем. М., Иностранная литература, 1958.
8. Постников А.Е. Избирательное право России. М., ИНФРА-М-НОРМА, 1996.
9. Хатченкова Н.В. Избирательное право: история и современность. Тверь, Твер. обл. избират. комис, 1999.

Натик МАМЕДОВ

ПОНЯТИЕ, СУЩНОСТЬ И ВИДЫ ИЗБИРАТЕЛЬНОЙ СИСТЕМЫ

Резюме

Нужно отказаться от понятия избирательной системы в узком и широком смысле и дать ей нижеследующее определение: «Избирательная система – это установленные законом порядок и методы формирования публичных государственных органов, определения кандидатов в выборах, в ходе которых избираются лица, получающие определенные полномочия, а также голосования и распределения голосов, подведения итогов выборов.»

Ключевые слова: избирательная система, избирательное право, пропорциональная избирательная система, сущность выбора, система голосования.

Natik MAMMADOV

CONCEPTION, ESSENCE AND KINDS OF ELECTION SYSTEM

Summary

The election system conceptions should be refused in broader and narrow meanings, and the election system should have the following definition: - the election system is a procedure and a method adopted by law on the formation of public power organizations, as well as, the identification of the candidates possessing the definite proxy, as well election, voting and vote divisibility, summingup the results of elections.

Keywords: election system, election right, proportional election system, essence of election, voting system.

UOT 342.5

Əli RZAYEV
AMEA FSHİ, a. e .i.,
hüquq üzrə f. d.

HÜQUQİ DÖVLƏT VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ: GENEZİSİ VƏ İNKİŞAFI*

Azərbaycan Respublikasının Konstitusiyasının preambulasında xalq iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən **hüquqi, dünyəvi dövlət qurmaq, vətəndaş cəmiyyətinin** bərqərar edilməsinə nail olmaq və s. niyyətlər bəyan edilir. Hüquqi dövlət və vətəndaş cəmiyyəti üçün demokratikləşmə əsas prinsipdir.

Ölkə demokratikləşməsinin və onun ardınca gələn liberallaşmanın ilkin şərtləri iqtisadi modernləşmə+mərhələli demokratikləşmə – vətəndaş cəmiyyətinin formalaşması prosesinin başlanğıcı sxeminin reallaşmasını təmin edən mühüm iqtisadi dəyişikliklər nəticəsində yaranır. Ölkə demokratik transformasiyanın və vətəndaş cəmiyyətinin qurulmasının əsası hərtərəfli azadlıq - güclü hakimiyyət formulasının başa düşülməsinə əsaslanır (1, s.48-50).

Demokratiya hər bir insana, ailəyə, kollektivə, cəmiyyətə özünü realizə etməyə, normal həyata, yaradıcılığa, öz tələbatını ödəməyə, rifahının artırılmasına, harmonik inkişafa imkan yaradır. Xarici ədəbiyyatda demokratiyanı xarakterizə edən əlamətlərə: 1) tiranlıqdan qurtulma; 2) əsas hüquq və azadlıqlara riayət etmə; 3) şəxsi toxunulmazlıq hüququ; 4) öz müqəddəratını təyin etmə; 5) mənəvi muxtariyyət; 6) şəxsiyyətin inkişaf etmə imkanları; 7) şəxsiyyətin təməl mənafeyinin qorunması; 8) siyasi bərabərlik; 9) sülhə canatma; 10) firavan yaşama daxildir (2, s.55). Demokratik cəmiyyətdə idarəetmə və təşkilatçılıq aktualdır, bütün insanlara bərabər hüquq və azadlıqlar verilir, hər bir vətəndaşın konstitusion vəzifələrini yerinə yetirməsi tələb olunur. Bu cəmiyyətdə ilk olaraq hüquqi dövlət quruculuğu prosesi gedir.

Hüquqi dövlətin formalaşması prosesi həyati tələbatdır. Bu anlayış yalnız dövlət çərçivəsində deyil, eyni zamanda bütün cəmiyyətə aiddir. Sovetlər dövründə hüquqi dövlət ideyası tam mənası ilə yaxına buraxılmamış, onun haqqında yalnız neqativ aspektdə danışılmışdır. Qərbi Avropa ölkələrində isə İkinci Dünya müharibəsinin mövcud totalitar rejimə zərbə vurması hüquqi dövlətin yaranmasına səbəb olmuşdur. Yer kürəsini bürüyən siyasi və iqtisadi liberallaşma dalğası keçən əsrin 90-cı illərində avtoritar və yaxud totalitar keçmişdən qopmuş cəmiyyətdə demokratik, hüquqi dövlət forması seçilməsi ilə şərtləndirilmişdir.

Azərbaycanın suverenliyi, dövlətin hüquqi əsaslarının möhkəmlənməsi mövcud dövlət-hüquq institutlarının keyfiyyət dəyişikliyinə təsir göstərərək hüquqi dövlətin və vətəndaş cəmiyyətinin yaradılması, cəmiyyət həyatının bütün sahələrində hüquq normalarının realizəsi problemlərini ön plana keçirdi. Ümummilli lider Heydər Əliyev göstərirdi ki, «vətəndaş cəmiyyəti yaradılması və möhkəmləndirilməsi, demokratikləşməsi prosesinin möhkəmlənməsi, hüquqi dövlətin qurulması sadəcə olaraq bir şüar yaxud da bir niyyət deyil, Azərbaycanın inkişafının başlıca şərtidir» (3, s.145). Hüquqi dövlətin formalaşması ictimai həyatda və elmi tədqiqatlarda köhnəlmiş demokratik stereotipləri aradan qaldırdı. Hüquqi dövlətin, dövlətçiliyin əsasını təşkil edən dövlət hüquq institutlarının formalaşması və funksiya göstərməsinin yalnız demokratik şəraitdə mümkün olması qənaətinə gəlinirdi. Akademik R.Mehdiyev göstərir ki, demokratik cəmiyyət və hüquqi dövlət ideyası bizim vətəndaşların təfəkküründə və şüurunda tədricən transformasiya edilir və adaptasiya olunur, onlar bunu daha yaxşı dərk edirlər (1, s. 212).

Müasir dövrdə strateji inkişaf xətti kimi demokratik cəmiyyət quruculuğu və bazar iqtisadiyyatı yolunu seçən Azərbaycan Respublikası dünya təcrübəsini uğurla sınaqdan keçirir,

* Məqalə h.e.d. H.Qurbanov tərəfindən çapa məsləhət bilinib.

ümumbəşəri dəyərlərdən faydalanmağa çalışır, özünün geniş iqtisadi potensialını hərəkətə gətirmək məqsədilə inkişaf etmiş ölkələrin qabaqcıl texnologiyasını və maliyyə imkanlarını cəlb edir, onlarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini inkişaf etdirir.

Bir qayda olaraq dövlət cəmiyyətin, cəmiyyət isə dövlətin köməyi olmadan köklü məsələləri həll edə bilməz. Vətəndaş cəmiyyətinin inkişaf etmiş strukturu olmadan dövlət demokratik ola bilməz (4, s.24-25). Demokratik cəmiyyətin yeganə ümumi siyasi hakimiyyəti **hüquqi dövlətdir**. O ümumi bəşəri sərvət sayılmalıdır. Hüquqi dövlətin qanunvericilik dövləti olması aksioma kimi qəbul edilir. Konstitusiyanın qəbulu hüquqi dövlətin formalaşması prosesinin mühüm tərkib hissəsidir. Azərbaycanın yeni Konstitusiyasının preambulasında qanunların aliliyini təmin edən hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qurulması xalqın niyyətlərindən biri kimi təsbit olunmuşdur. Azərbaycan Konstitusiyası cəmiyyətin yeniləşməsi və inkişafının prinsip və parametrlərini göstərir, siyasi, iqtisadi sistemdə kəmiyyət dəyişikliklərindən keyfiyyət dəyişikliklərinə keçidi əks etdirir. Konstitusiya öz mahiyyətinə görə bütün dövlət mexanizminin funksiya göstərməsi, hakimiyyətin və onun prinsipləri əsasında fəaliyyətidir. Konstitusiya prinsipləri eyni zamanda vətəndaşların hüquq və azadlıqlarının təminatının və müdafiəsinin hüquqi əsasıdır. Odur ki, ədəbiyyatda hüquqi dövlət konstitusiya dövləti hesab edilir. Burada söhbət sadəcə Konstitusiyanın mövcudluğundan deyil, hüquq sisteminin aliliyindən və ya onun ictimai avtoritetindən gedir. Yeni Konstitusiyada əsas diqqət mərkəzində Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq hüququn qəbul etdiyi bəşəri dəyərlər, xüsusən vətəndaşla cəmiyyət və dövlət arasında münasibətlər durur.

Hüquqi dövlətin nəzəri konsepsiyası və praktikası uzun tarixə malikdir. Hüquqi dövlət termini (Rechtsetaot) alman ədəbiyyatında XIX əsrin əvvəllərində K.T.Velkerin, R.fon Molyanın və b. əsərlərində göstərilmiş, sonralar geniş yayılmışdır. Hüquqi dövlət nəzəriyyəsinin fəlsəfi əsaslarını klassik alman fəlsəfəsinin banisi İ.Kant vermişdir. Onun konsepsiyasında mərkəzi yeri insan və şəxsiyyət tutur. Kanta görə dövlət hüquqi qanunlara tabe olan insan çoxluğudur. Dövlət yaşayır və öz fəaliyyətini həyata keçirəndə ilk növbədə ümumi məqsədlərə və dəyərlərə əsaslanır. Dövlət yaranır və mövcud olur ki, onun fəaliyyəti cəmiyyətin əsas maraqlarına cavab versin və insanların öz tələblərini təmin etməsinə imkan yaratsın. Dövlətin rifahı mükəmməl hüquqdadır. Dövlət Konstitusiya hüququ əsasında hərəkət edir və xalqın ümumi iradəsini ifadə edirsə - o hüquqidir, orada vətəndaşların şəxsi azadlıqları, vətəndaş hüquqları məhdudlaşdırıla bilməz. Dövlətin təyinatı təkmilləşdirilmiş hüquqdadır, onun quruluşunun və rejiminin hüquqa maksimum uyğunluğudur (5, s.233). Məhz bu müddəalara görə Kant hüquqi dövlət nəzəriyyəsinin banisi sayılır.

Dahi alman filosofu Hegelin fikrincə dövlət də hüquqdur, ancaq daha inkişaf etmiş, daha məzmunlu, şəxsiyyətin, ailənin və cəmiyyətin hüquqlarını etiraf edən hüquq sistemidir. Hegelin konsepsiyasında hüquqi dövlət özbaşınalığa, güc işlətməyə və bütün qeyri-hüquqi formalara qarşı yönəldilir. Onun fikrincə, hüquqi dövlətin mahiyyəti olan hakimiyyət bölgüsü ümumi azadlığın təminatı sayıla bilər (6, s. 213).

Beləliklə, hüquqi dövlət-ictimai həyatın qanun, hüquqi prinsiplər və vasitələr əsasında qurulmasıdır. Ənənəvi olaraq **hüquq** müəyyən olunmuş prosedura ilə qəbul olunan **qanundan** əvvəl gəlir və o qanunla təsbit olunduqda hüquqi güc alır, dövlət strukturu vasitəsilə realizə olunur. Hüquq yüksək effektli və məqsədəuyğun tənzimləyici olmaqla cəmiyyətdə köklü siyasi, iqtisadi, sosial məsələlərin həllinə kömək edir. Dövlət və hüquq cəmiyyətin iqtisadi bazisi üzərində üstqurumun müxtəlif hissələridir (7, s.168). Hüquq insanların ümumi iradəsi ilə öz ictimai həyat fəaliyyətinin qaydaya salınmasında tələb və maraqlarını, şəxsiyyətin hüquq və azadlıqlarını, humanizmi, sosial ədaləti ifadə edir. Hüquqi dövlət konsepsiyası qanunun aliliyi, onun hüququn yüksək prinsiplərinə cavab verməsi, idarəedən və idarəolunan üçün məcburi olması, bütün insanların öz davranışında ona əməl etməsi, hüququn hakimliyi və s. fundamental amillərə əsaslanır.

Qanunun aliliyi iki mühüm aspektdə özünü göstərir: birinci aspekt - qanunla hakimiyyətin nisbəti hüquqi dövlət konsepsiyasında elə vəziyyəti nəzərdə tutur ki, hakimiyyət həm qanun yaradır, həm də qanuna tabe olur və qanuna uyğun hərəkət edir. Bu mənada hakimiyyət bölgüsü praktiki olaraq aktual olur. İkinci aspekt - qanun və hakimiyyətin nisbəti ictimai münasibətlərin, sosial həyatın, ictimai prosesin tənzimlənməsində qanunun rolu ilə müəyyən edilir. Məlumdur ki, dövlət tərəfindən cəmiyyətin idarəolunması iki üsulla aparılır: birincisi - yuxarıdan aşağı, mərkəzdən periferiyaya verilən göstəriş, əmr, sərəncam və digər hüquqi aktlarla idarə olunur; ikincisi isə – hüquqi dövləti səciyyələndirən normativ qaydalarla, qanunvericiliklə idarə olunmasıdır.

Müasir dövlət dörd növə ayrılır: vətəndaş, hüquq-konstitusion, hüquqi demokratik, hüquqi sosial (8, s. 118). Hüquqi ədəbiyyatda məsələ qaldırılır ki, hüquqi dövlətin elə strukturunu və texnologiyasını yaratmaq lazımdır ki, o aşağıdakı problemləri: a) dövlətin hamı üçün tələb, maraq və məqsədlərin realizəsinin qanunvericiliklə təsbit edilməsini tələb edən ümumi prioritet üzrə sistemləşdirilməsi və müəyyən edilməsi; b) ümumi iradənin ümumi tələb, maraq və məqsədləri üzrə ifadəsi və təqdimi; v) ictimai fəaliyyətin dövlət tənzimləmə növlərinin bütün iştirakçılarının davranış qaydalarının (normalarının) eyni cür və məcburi icrasını stimullaşdırma şəraitinin və sanksiyasının yaradılması; q) qanunların və hüquq qaydaları vasitəsilə azadlığın müdafiəsi və təhlükəsizliyin qorunması, rifah və sabitliyin həyata keçirilməsini həll etsin (9, s.75).

Hüquqşünas alimlər hüquqi dövlətlə sosial dövlətin oxşar və fərqli əlamətlərinə üç mövqedən baxırlar: 1) bir yerdə «sosial hüquqi dövlət kimi»; 2) sosial dövlətə hüquqi dövlətin yaxın səviyyəsi kimi; 3) «hüquqi dövlət» sosial dövlətin strukturunda prinsip və əlamət kimi. Hüquqi dövlətlə sosial dövlətin uyğunluğuna görə iki baxış vardır: birinci – sosial dövlət hüquqi dövlətin inkişafının yeni, daha mükəmməl mərhələsi kimi; ikinci – hüquqi dövlət və sosial dövlət vəhdətdə olan tamı təşkil edir. Bu halda sosial dövlət hüquqi dövlətin xüsusiyyətlərindən biridir. Hüquqi və sosial dövlətin nisbətinə iki mövqedən baxılır: 1) sosial dövlət hüquqi dövlətin mühüm prinsiplərini inkar edir; 2) sosial dövlət hüquqi dövlətin inkişafının yeni mərhələsidir. Hüquqi dövlət termini XIX əsrin əvvəllərində alman hüquq ədəbiyyatında (K.T.Velkera, R.fon Molye və b.), sosial dövlət isə 1850-ci ildə alman alimi L.fon Şteyn tərəfindən tətbiq edilib (10, s.36).

Hüquqi dövlətin bərqərar olması üçün **hakimiyyətlərin bölgüsü** kimi obyektiv-hüquqi prinsip qeyri-şərtsiz həyata keçirilməlidir. Hakimiyyət bölgüsü, bir-birini çəkindirmək və tarazlaşdırmaq prinsipi demokratik Afinada, həm də Roma respublikasında təcrübədə yoxlanılmış antik mədəniyyətin böyük nailiyyətlərindən biridir (11, s. 53). Hakimiyyətlərin bölgüsü ideyasının ilk müəllifi C.Lokkdur. O, dövlət hakimiyyətini həyata keçirdiyi funksiyaların xüsusiyyətinə görə qanunvericilik, icra və ittifaq (federal) hakimiyyətlərinə bölür (12, s. 88-89). Monteskye «Qanunların ruhu haqda» (1748) əsərində hakimiyyətdən sui-istifadə imkanlarını aradan qaldırmaq üçün hakimiyyətin müxtəlif qolları arasında bölgüdə bir-birini qeyri-qanuni hərəkətlərdən çəkindirmək və tarazlaşdırmaq prinsipini irəli sürür. Monteskyenin hakimiyyətlərin bölgüsü ideyası ilk olaraq Amerika Konstitusiyasında (1787) təsbit olunmuşdur.

Siyasi cəmiyyətdə cəmiyyət və hüquqi dövlət münasibətləri prizmasından baxılması maraq kəsb edir. Hüquqi ədəbiyyatda və rəsmi sənədlərdə **hüquqi dövlət və vətəndaş cəmiyyəti** birgə ifadə olunur. Bunların arasında qarşılıqlı münasibətlər və əlaqələr aşağıdakı kimidir: vətəndaş cəmiyyəti ilə hüquqi dövlətin bərabərliyi, cəmiyyətin dövlətə nəzarət etmək hüquqlarının olması; qanunun aliliyi; Konstitusiya normalarının birbaşa hüquqi təsiri; insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi. Hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qurulması insanların ictimai şüurundan, mədəni səviyyəsindən və maddi rifahından çox asılıdır. Vətəndaş cəmiyyətinin inkişafı dövlətin inkişafından sonra gəlsə də, o ailə və dövlət arasında ayrıca bölmədir, çünki onun mövcud olması müstəqil dövlətin olmasını tələb edir (6, s.224). Vətəndaş cəmiyyətinin yaranması hüquqi dövlət və siyasi demokratiya ilə sıx əlaqəlidir. Vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı və siyasi demokratiya tarixi fenomen olub müəyyən inkişaf mərhələsində baş verir. Hegel hesab

edirdi ki, vətəndaş cəmiyyəti və dövlət sərbəst institutlar kimi eyniyyət təşkil edir. Onun fikrincə, vətəndaş cəmiyyətində özəl, dövlətdə isə ümumi maraqlar cəmləşir (6).

Vətəndaş cəmiyyətinin yaranmasının bir aspekti də **insan və vətəndaş hüquqlarının ayrılmasıdır**. Əgər insan hüquqları vətəndaş cəmiyyəti tərəfindən təmin olunursa, vətəndaş hüquqları hüquqi dövlət tərəfindən təmin olunur. Hər iki halda söhbət şəxsiyyətin hüquqlarından gedir. Birinci halda ayrı-ayrı insanın həyatı, mülkiyyət və öz imkanlarını realizə etmək hüququ nəzərdə tutulursa, ikinci halda konkret dövlətin vətəndaşı kimi onun siyasi hüquqa malik olması nəzərdə tutulur. Azərbaycan Konstitusiyasında insan və vətəndaş hüquq və azadlıqlarına və vətəndaşların vəzifələrinə geniş yer verilmişdir. Konstitusiyanın maddələrinin təxminən hər üçüncüsü insan və vətəndaş hüquq və azadlıqlarını və vətəndaş vəzifələrini əks etdirir. Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi üçün Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili vəzifəsi - «Ombudsman» təsis edilmişdir.

Vətəndaş cəmiyyətinin və hüquqi dövlətin mövcudluğunun mühüm şərti keyfiyyətində bütün proseslərdə özünürealizə hüququ olan **şəxsiyyət** durur.

Vətəndaş cəmiyyətinə sosial, mədəni və mənəvi sahədə həyat fəaliyyətini təmin edən, maddi və mənəvi dəyərləri bir nəsildən digərinə ötürən sistem kimi baxılır. Bu sistem dövlətdən asılı olmayan ictimai institutlar və münasibətlərdir. Vətəndaş cəmiyyəti institutları - ictimai, özfəaliyyət, yaradıcı, professional və digər təşkilatlar, milli, regional təsisatlar, özəl sahibkarlıq strukturu, qeyri-dövlət təhsil, səhiyyə və b. təşkilatlar formalaşır və fəal funksiya göstərir, dövlətə, onun orqanlarına, vəzifəli şəxslərin fəaliyyətinə səmərəli təsir edir.

Ölkədə vətəndaş cəmiyyəti iqtisadiyyatın modernləşməsi - ictimai həyatın demokratikləşməsi - milli məkanın sistemli liberallaşması paradiqması gerçəklikcə formalaşacaqdır. Demokratiya hər bir insana aid olduğundan həmişə insan azadlıqları, insanların hüquq bərabərliyi, vətəndaş azadlığı, yaxşı yaşamağa yönəldilmiş sosial dəyişikliklər, iqtisadi rifah, dövlətin aktiv rolu demokratik cəmiyyətdə ön planda olur.

Demokratiyanın möhkəmliyi cəmiyyətin iqtisadi inkişafı ilə müəyyən olunur. İqtisadiyyat bütün insanların həyati tələbatlarını nə qədər çox ödəyirsə, o qədər ictimai institutlar, ideyalar, baxışlar, hərəkətlər möhkəm olur və iqtisadi aktivliyin səviyyə və dinamikasının lazımi səviyyəsini təmin edir. Ölkənin iqtisadi cəhətdən güclənməsi və vətəndaşların maddi rifahının təmin edilməsi vasitəsilə cəmiyyətin mərhələli demokratikləşməsindən və keçid demokratiyasından möhkəmlənmiş, yəni konsolidasiya olunmuş məkana transformasiyası barədə danışmaq olar.

Məlum həqiqətdir ki, iqtisadiyyat siyasəti müəyyən edir və siyasətdən qabaq gəlir. V.İ.Lenin deyirdi, siyasət - cəmləşdirilmiş iqtisadiyyatdır. Siyasət və iqtisadiyyat bir medalın iki üzüdür. Siyasət və iqtisadiyyat arasında sıx bağlılıq nə təsadüfi, nə də neytral haldır.

Azərbaycanda 30 avqust 1991-ci ildə «Dövlət müstəqilliyinin bərpası haqqında bəyannamə» qəbul edilərək Azərbaycan Demokratik Cümhuriyyətin varisi elan olundu. Azərbaycanda demokratik müstəqil dövlətin yaradılması və dövlətçiliyin möhkəmləndirilməsi Heydər Əliyevin adı ilə bağlıdır. O, demokratiyaya öz münasibətini belə göstərirdi: «Demokratiya hərcmərclik deyildir, özbaşınalıq deyildir, xaos deyildir. Demokratiya yüksək mədəniyyət, yüksək nizam-intizam, vətəndaş həmrəyliyi, vətəndaşların bir-birinə hörməti, dövlət orqanlarına hörməti, dövlətin vətəndaşlara hörməti, sayqısı və qayğısıdır» (3, s.146).

Azərbaycanda dövlət siyasəti demokratiyanın əsas amili olan güclü iqtisadi bazanın formalaşmasına, demokratiya ilə iqtisadiyyatın vəhdətdə baxılmasına, insanların iqtisadi rifahının artırılmasına nail olmağa istiqamətləndirilib. Bunu əyani şəkildə Azərbaycanın iqtisadi inkişafında görmək olar. Müasir dövrdə demokratik hüquqi dövlət quruculuğu yolunu seçən Azərbaycan dünya təcrübəsindən geniş istifadə etməklə, ümumi bəşəri dəyərlərdən faydalanmaqla iqtisadi sahədə inkişaf etmiş, iqtisadi artıma görə dünyanın ən qabaqcıl dövlətləri sırasındadır. Azərbaycan iqtisadiyyatının müstəqillik şəraitində inkişaf dinamikası, struktur dəyişmələri iqtisadi və sosial

inkişafın sürətlənməsi strategiyasının və onun reallaşmasında məqsədli proqramların nəticəsi ilə bağlıdır. Müasir şəraitdə Azərbaycanda iqtisadi artım, bununla yanaşı əhalinin rifahının yüksəldilməsi, sosial tərəqqi və dünya təsərrüfat sistemində respublikanın rolu və yerinin təmin olunması ölkə iqtisadiyyatının konseptual inkişaf istiqamətləridir.

Azərbaycan iqtisadi və sosial inkişafın transformasiya modelindən və xarici amillərdən səmərəli istifadə etməklə dayanıqlı iqtisadi artıma, tarazlı inkişaf və sosial infrastrukturun tənzimlənməsinə nail olmuşdur. Azərbaycanın sosial-iqtisadi əsasları, onun transformasiyasında varislik prioritetinə uyğun olaraq neft istehsalı və regionların iqtisadi sosial potensialını iqtisadi dövriyyəyə cəlb etməklə kompleks ərazi və sahə inkişafına səbəb olur. Azərbaycan iqtisadiyyatının inkişaf meylləri iqtisadi artım göstəricisi olan ümumi daxili məhsul, sənaye, kənd təsərrüfatı və xidmət sahələrinin dinamik inkişafı ilə səciyyələnir.

Azərbaycanın iqtisadi siyasətinin mühüm istiqamətlərindən biri də xarici iqtisadi əlaqələri səmərəli təşkil etməklə dünya təsərrüfat sisteminə qoşulmasıdır. Beləliklə, Azərbaycanda iqtisadi göstəricilər hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun və demokratikləşmənin beynəlxalq təcrübəyə uyğun təkamül yolu ilə getdiyini göstərən reallıqdır.

Bizim fikrimizcə, hüquqi dövlət və vətəndaş cəmiyyətinin əsas əlamətlərinə: onların bərabər tərəf kimi çıxış etməsi, cəmiyyətin dövlətə nəzarət səlahiyyətlərinin olması, qanunun aliliyi, Konstitusiyanın birbaşa təsiri, hakimiyyətlərin bölgüsünün aparılması, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi və s. daxildir.

Açar sözlər: hüquqi dövlət, vətəndaş cəmiyyəti, demokratikləşmə, sosial dövlət, insan və vətəndaş hüquqları, nəzarət səlahiyyətləri.

İstifadə olunmuş ədəbiyyat

1. Mehdiyev R.E. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı, Şərq-Qərb, 2008.

2. Robert A. Dahi Demokratiya haqqında. Bakı, Azərbaycan, 2004.

3. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Birinci kitab. Bakı, Azərnəşr, 1997.

4. Грищковец А.А. Государственная служба и гражданское общество: правовые проблемы взаимодействия (практика России) // Государство и право, 2004, №1.

5. Кант И. Критика практического разума. Сочинения. В 6-и т. Т.4, ч.2. М., Мысль, 1966.

6. Hegel. Hüquq fəlsəfəsi. Bakı, Nərgiz, 2007.

7. Алексеев С.С. Общая теория права. В 2-х т. Т.1. М., Юридическая литература, 1981.

8. Любащиц В.Я. Эволюция государства как политического института общества. Ростов н/Д, 2004.

9. Атаманчук Г.В. Управление в жизнедеятельности людей. М., РАГС, 2008.

10. Маликов А.Х. Эволюция теории и практики правового и социального государства и их соотношение в историческом развитии // Государство и право, 2009, №10.

11. Черниловский З.М. Правовое государство: исторический опыт // Советское государство и право, 1989, №4.

12. Локк Д. Избранные философские произведения. В 3-х т. Т.3. М., Мысль, 1985.

13. Монтескье Шарль Луи. О духе законов. М., Политическая литература, 1955.

14. Azərbaycan Respublikasının «İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanunu. Bakı, Hüquqi ədəbiyyat, 2002.

Али РЗАЕВ

ПРАВОВОЕ ГОСУДАРСТВО И ГРАЖДАНСКОЕ ОБЩЕСТВО: ГЕНЕЗИС И РАЗВИТИЕ

Резюме

В преамбуле Конституции Азербайджанской Республики как волеизъявление народа является построение правового государства и гражданского общества, обеспечивающего верховенство законов.

В статье автор анализирует концепции ученых о генезисе и сущности правового государства и гражданского общества, а также их взаимоотношение. Далее автор отмечает, что основным принципом построения правового государства и гражданского общества является демократизация.

Ключевые слова: правовое государство, гражданское общество, демократизация, социальное государство, право человека и гражданские права, полномочия контроля.

Ali RZAYEV

LEGAL STATE AND A CIVIL SOCIETY: GENESIS AND DEVELOPMENT

Summary

In the article building a legal state and civil society, sealed in the preamble of the new Constitution of the Azerbaijan Republic, is considered as desire of Azerbaijani people. İn the article an analysis is made of the scientists′ conceptions on genesis and essence of a legal state and civil society, as well their interrelationship. Further, the author notes that the basic principle of building a legal state is democratization of a society.

Keywords: legal state, civil society, democratization, social state, human and citizen rights, control powers.

UOT 343.1

Şəlalə HƏSƏNOVA
AMEA FSHİ, b.e.i., hüquq üzrə f.d.

SAHİBKARLIQ FƏALİYYƏTİ İLƏ BAĞLI CİNAYƏTKARLIĞIN VƏZİYYƏTİ VƏ DİNAMİKASI*

İqtisadi fəaliyyət sahəsində cinayətkarlığın strukturunda sahibkarlıq fəaliyyəti ilə bağlı cinayətlər xüsusi yer tutur və qanunsuz sahibkarlığın müxtəlif növləri ilə mübarizə iqtisadi cinayətlər ilə mübarizənin ən çətin sahələrindən biri kimi qiymətləndirilir. Bu isə cinayətkarlıqla, o cümlədən, sahibkarlıq fəaliyyəti ilə bağlı cinayətlərlə mübarizə sahəsində mövcud boşluqlarla yanaşı iqtisadi sahədə cinayətlərin mürəkkəbliyi, cinayətkar davranışın çoxepizodluğu, bu cinayətkarlığın təbiətində, strukturunda dəyişiklik baş vermə xüsusiyyətləri və meylləri ilə əlaqədardır. Digər tərəfdən, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin «İqtisadi fəaliyyət sahəsində olan cinayətlər» adı altında 24-cü fəslində nəzərdə tutulmuş cinayətlər səbəb-nəticə, bir-birindən törəmə, bir-birini tamamlama və s. xüsusiyyətləri ilə yaxın olduqlarından təbiət, struktur, meyl və təzahür oxşarlıqları ilə də diqqəti cəlb edirlər.

Qanunsuz sahibkarlıq bazar iqtisadiyyatının normativ tənzimlənməsi və fəaliyyəti ilə bağlı mövcud olan mənfi təzahürlərdən doğan kriminal əməldir. Cinayətkarlığı təşkil edən sistemdaxili elementlər cinayət-hüquqi və yaxud da kriminoloji meyarlar əsasında qruplaşdırılır. Cinayətkarlığın quruluşu – müəyyən zaman intervalında və məlum ərazidə qeydə alınan cinayətlərin məcmusunda müxtəlif növ cinayətlərin nisbəti və xüsusi çəkisidir. Elmi-nəzəri və təcrübi təhlillər göstərir ki, cinayətkarlıqla mübarizənin başlıca istiqamətlərinin müəyyən edilməsi cinayətkarlığın quruluşunun aşkar edilməsindən xeyli asılıdır. Belə ki, hüquq ədəbiyyatında qeyd edildiyi kimi, cinayətkarlığın quruluşu aşkar edildikdən sonra onunla mübarizənin əsas istiqamətləri müəyyən edilir. Habelə cinayətkarlığın dinamikası – cinayətkarlığın vəziyyətinin və quruluşunun, kəmiyyət və keyfiyyət göstəricilərinin müəyyən dövr ərzində – bir il, üç il, beş il, on il və s. müddətlərində dəyişməsini xarakterizə edən göstəricilərdir. Bütün sosial hadisələr kimi cinayətkarlıq üçün də hərəkətdə olmaq və dəyişmək xarakterikdir (1, s. 59-60). Müxtəlif illərdə əksər cinayətlərin dinamikasında dəyişikliklər cinayət hüququ siyasətinin və cinayət qanunvericiliyinin, məhkəmə və qeydiyyat təcrübəsinin əhəmiyyətli dərəcədə dəyişməsi ilə əlaqədardır.

Qanunsuz sahibkarlıq fəaliyyəti ilə bağlı cinayətlər sahəsində cinayətkarlığın vəziyyəti, strukturu, inkişaf meylləri və xüsusiyyətləri onun kriminoloji xarakteristikası, bu sahədə mövcud fakt və məlumatların müqayisəli təhlili, sosioloji tədqiqatların aparılması, ekspert qiymətləndirmələri, ictimai rəyin öyrənilməsi və s. yollarla müəyyənləşdirilir.

Cinayətkarlıq əmsalı əhalinin hər 10 min, yaxud 100 min nəfərinə düşən cinayətlərin sayı ilə müqayisəli təhlil edilir və bu zaman əhalinin 14 yaşdan yuxarı olan hissəsi götürülür. Müəyyən ərazidəki əhalinin sayından asılı olaraq cinayətkarlıq əmsalı – hər min nəfərə, 10 min nəfərə, habelə 100 min nəfərə və s. düşən cinayətlərin sayı ilə müqayisəli şəkildə təhlil edilir. Bu da onu göstərir ki, cinayətkarlıq əmsalını – əhalinin min, on min, yüz min və s. hissəsinə düşən cinayətlərin sayını – tapmaq üçün bir ildə, yaxud 6 ayda baş verən cinayətlərin ümumi sayını minə, on minə, yüz minə və s. vurub, həmin ildə əhalinin yaşı 14-dən yuxarı olan hissəsinin sayına bölmək lazımdır (1, s. 59). Buna görə də ayrı-ayrı qurumlar tərəfindən qeydə alınan, başlanılan, istintaq edilən, təqsirləndirilən şəxs kimi cəlb edilən, məsuliyyətə cəlb edilən və məhkum edilən şəxslər haqqında müəyən edilmiş qaydada və formada statistik məlumatlar toplanılır, cəmləşdirilir və müəyyən göstəricilər üzrə yekun nəticələr çıxarılır. Bu zaman aşağıdakı kriteriyalardan istifadə

* Məqalə hüquq üzrə f.d. N.Əliyev tərəfindən çapa məsləhət bilinib.

olunur: a) törədilmiş cinayət faktları; b) həmin cinayətləri törətmiş şəxslərin (sayı); c) mütəşəkkil cinayətkar qrupların törətdikləri cinayətlər nəticəsində bu cinayətlərin qurbanlarının sayı və maddi zərərin ümumi məbləği. Bununla belə, müasir statistika bu məlumatları heç də tam şəkildə əks etdirmək iqtidarında deyildir. Cinayətkarlıqla bağlı verilən statistik məlumatların böyük əksəriyyəti natamam xarakter daşıyır və buna görə də cinayətkarlığın statistikası daim təkmilləşdirilməlidir (2, s. 99).

Bütün digər sosial hadisələrlə bağlı olduğu üçün cinayətkarlığı da kəmiyyət və keyfiyyət göstəriciləri əsasında qiymətləndirmək zəruridir. Bu da cinayətkarlığın vəziyyətini, quruluşunu və dinamikasını yuxarıda göstərildiyi kimi ayrı-ayrı növlərə görə qruplaşdırmağa imkan verir. Cinayətkarlığın quruluşu cinayətkarlığı təşkil edən cinayət növləri arasında olan nisbətlə müəyyənləşdirir. Cinayətkarlığı təşkil edən sistemdaxili elementlər cinayət-hüquqi və yaxud da kriminoloji meyarlar əsasında qruplaşdırılır.

Cinayətkarlığın quruluşunun idrakı onun mahiyyətinin izahına doğru yönələn fəaliyyətidir. Cinayətkarlığın quruluşu aşkar edildikdən sonra onunla mübarizənin əsas istiqamətləri müəyyən edilir. Bu istiqamətlər başlıca olaraq dövlətin cinayət-hüquqi siyasəti əsasında müəyyənləşdirilir. Dövlətin hüquq siyasəti cinayətkarlıqla mübarizənin bütün sferaları üçün etalon rolunu oynamaqla, kriminoloji vasitələrin və metodların köməyi ilə mübarizənin strategiya və taktikasını işləyib hazırlayır.

N.F.Kuznetsova cinayətkarlığın quruluşunun xarakteristikasını verərək, onun aşağıdakı göstəricilərini müəyyən etmişdir:

1) xüsusilə ağır, ağır, az ağır və böyük ictimai təhlükə törətməyən cinayətlərin nisbəti;

2) qəsdən və ehtiyatsızlıqdan törədilən cinayətlərin nisbəti;

3) Cinayət Məcəlləsinin fəsilləri üzrə normaların təsiri altına düşən cinayətlərin qruplaşdırılması, onların nisbəti və xüsusi çəkisi;

4) nisbətən geniş yayılmış cinayətlərin 6-8 növünün nisbəti və xüsusi çəkisi (əmlak oğurluğu, həyat, səhhət, şərəf və ləyaqət, habelə cinsi toxunulmazlıq əleyhinə olan cinayətlər, xuliqanlıq avtonəqliyyat cinayətləri);

5) residiv cinayətlərin, peşəkar cinayətkarlığın, mütəşəkkil dəstə, digər cinayətkar dəstələr tərəfindən törədilən cinayətlərin xüsusi çəkisi;

6) yetkinlik yaşına çatmayanların törətdikləri cinayətlərin xüsusi çəkisi;

7) cinayətkarlığın quruluşunda qanunsuz silah alveri ilə bağlı olan cinayətlərin xüsusi çəkisi;

8) cinayətkarlığın quruluşunda narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı olan cinayətlərin xüsusi çəkisi;

9) küçədə baş verən cinayətlər;

10) transmilli cinayətlər;

11) cinayətkarlığın qiyməti (3, s. 9).

Cinayətkarlığın xarakteri – cinayətkarlığın quruluşunda ağır (həm də xüsusilə ağır) cinayətlərin sayının vəziyyəti ilə, cinayət törədənlərin şəxsiyyətinin xarakterizə olunması ilə müəyyən edilir. Göründüyü kimi, cinayətkarlığın xarakterini onun quruluşu müəyyənləşdirir. Ayrı-ayrı cinayətlərin xüsusi çəkisi müvafiq növdən olan cinayətlərin ümumi sayından da hesablana bilər. Məsələn, biz sahibkarlıq fəaliyyəti ilə bağlı cinayətləri tədqiq edərkən onun iqtisadi fəaliyyət sahəsində olan cinayətlər sistemində müqayisəli təhlilini verməklə, müəyyən obyektiv nəticələrin çıxarılmasına nail ola bilərik (4, s. 105). Qeyd etmək lazımdır ki, belə quruluş heç də dəyişilməz qalmır. Cinayətlərin xüsusi çəkisi faizlərlə göstərilir. Belə faizlər qeydiyyata alınmış cinayətlərin ümumi sayından götürülür.

Cinayətkarlığın quruluşu haqqında cinayətkarlığın ayrı-ayrı növlərinin xüsusi çəkisi əsasında da mülahizələr yürütmək olar. Hüquq ədəbiyyatında qeyd olunduğu kimi, cinayətkarlığın quruluşu – bu, müəyyən ərazidə müəyyən zaman ərzində müxtəlif növdən olan cinayətlərin ümumi sayının xüsusi çəkisindən və onların qarşılıqlı əlaqəsindən ibarətdir (3, s. 156).

Cinayətkarlıq üçün durğunluq yad əlamətdir, o, daim hərəkətdə olduğuna görə yeni-yeni təzahür formaları əldə edir, şəraitdən asılı olaraq məkanını dəyişir.

Cəmiyyətin müsbət və mənfi sosial amillərinin kəskinləşən və ya həll edilən ziddiyyətlərinin və münaqişələrinin təsiri altında cinayətkarlığın göstəriciləri həmişə təkamülə uğrayaraq dəyişir.

Cinayətkarlığın dinamikası qısa müddətə, xeyli müddətə və uzun müddətə öyrənilə bilər. Cinayətkarlığın dinamikasını qısa müddətə – altı aya, bir ilə öyrənmək cinayətkarlıqla mübarizə aparan orqanlar üçün daha mühüm əhəmiyyətə malikdir.

Cinayətkarlığın dinamikasının qısa müddətə öyrənilməsi hüquq-mühafizə orqanlarına cinayətkarlığa təsir göstərən sosial amilləri daha dəqiq uçota almağa, cəmiyyətin həyatında baş verən sosial proseslərin münaqişəli tərəfini izləməyə imkan verir.

Cinayətkarlığın vəziyyətini, onun dəyişmə meyllərinin və tərəddüdlərinin, səbəblərinin, şəraitinin dərindən dərk edilməsi, elmi proqnozun və kompleks profilaktik planın hazırlanması üçün cinayətkarlığın dinamikası uzun müddətə öyrənilməlidir. Uzun müddətə təşkil edilən tədqiqat bütövlükdə cinayətkarlığın, eləcə də onun ayrı-ayrı növlərinin vəziyyətində və quruluşunda mövcud olan sabit meyilləri və tərəddüdləri aşkar etməyə imkan verir (1, s. 62).

Cinayətkarlığın dinamikası sosial-hüquqi hadisədir və ona iki qrup amillər təsir göstərir. Birincisi, cinayətkarlığın səbəb və şəraiti, əhalinin demoqrafik quruluşu və digər sosial hadisə və proseslər – məsələn, işsizlik, əhalinin miqrasiyası, yoxsulluq və s. İkincisi, cinayətkarlığın dairəsini genişləndirən, yaxud məhdudlaşdıran, cinayətlərin yeni əsaslarla təsnifatını müəyyən edən, cinayətlərin tövsifinə yenilik gətirən – cinayət qanunvericiliyində baş verən dəyişikliklər.

Cinayətkarlığın dinamikasının statistik mənzərəsi həmçinin müəyyən dövrdə törədilən cinayətlərin qeydə alınmasının və açılmasının vəziyyətindən – latent cinayətlərin azalmasından, cinayətlərə görə cəzaların labüd olaraq ədalətli tətbiqindən asılıdır. Cəmiyyətdə baş verən dəyişikliklər cinayətkarlıqdakı ləng dəyişikliyə avtomatik olaraq təsir göstərmir. Lakin əhalinin sayında və tərkibində qəflətən baş verən dəyişikliklər, məsələn, müəyyən regionun sənayesinin intensiv surətdə inkişaf etməsi və ya digər yaşayış yerlərindən əhalinin fəal miqrasıyası cinayətkarlıqda dəyişikliklərin surətlə baş verməsinə təsir göstərir. Göstərmək lazımdır ki, cinayətkarlığın və onun müxtəlif təzahürlərinin dinamikasının təhlil edilməsi zamanı eyni vaxtda cinayətkarlıqla mübarizəyə dair qanunvericilikdəki dəyişiklikləri də tədqiq etmək, habelə qanunvericiliyin cinayətkar təzahürlərin qeydiyyatına təsirini diqqət mərkəzində saxlamaq vacibdir.

Hazırkı şəraitdə cinayətkarlıqla mübarizə təcrübəsi, habelə inkişaf etmiş ölkələrdə qanunsuz sahibkarlıq əmelləri ilə mübarizə təcrübəsinin müsbət cəhətlərinin öyrənilməsi və ümumiləşdirilmələri bir daha göstərir ki, bu növ əmellər ölkənin iqtisadi sistemi və ümumi inkişafı əleyhinə yönələn yüksək sosial təhlükəliliyə malik olan cinayətkar qəsdlərdir, bu kateqoriyadan olan cinayət əmelləri dövlətin normal fəaliyyətinə və inkişafına əngəllər törədir.

Hüquq ədəbiyyatında düzgün olaraq qeyd olunur ki, iqtisadi cinayətkarlıq yüksək sosial təhlükəliliyə malik əməl kimi kriminoloji situasiyanın mürəkkəbləşməsinə səbəb olur. Bu qəbildən olan əmellərin törədilməsi nəticəsində müvafiq cəmiyyətdə sabitliyin pozulması müşahidə olunur. Bütövlükdə ölkənin iqtisadi təhlükəsizliyinə zərər vurmağa yönəldilən belə qəsdlər cinayətkarlığın dinamikasına təsirsiz ötüşmür.

Müasir mərhələdə sahibkarlıq fəaliyyəti ilə bağlı kriminal əmellərin dinamikasında nəinki sabitlik, hətta getdikcə çoxalma müşahidə olunmaqdadır. Həmin əmellərin müasir inkişaf meyllərinin və yeni təzahür formalarının qarşısının alınması, habelə profilaktikası üçün kriminologiya elminin məhz hansı metodlarının tətbiq edilməsi dairəsinin müfəssəl müəyyənləşdirilməsinin böyük siyasi-hüquqi əhəmiyyəti vardır. Profilaktiki tədbirlər planı elə tərtib edilməli və elə bir səviyyədə düşünülməlidir ki, o, nəinki artıq törədilmiş, eyni zamanda gələcəkdə törədilə biləcək belə cinayətkar qəsdlərin qarşısının vaxtında alınmasına yardım etmiş olsun.

Beynəlxalq və milli təcrübədən aydındır ki, cinayətkarlıq istənilən dövlətdə öz vəziyyətinə, quruluşuna və dinamikasına görə, eləcə də bir sıra kriminoloji xüsusiyyətlərinin spesifikliyi baxımından fərqli cəhətlərə malikdir. Ayrı-ayrı ölkələrdə cinayətkarlığın quruluşunda, vəziyyətində, dinamikasında və bəzi kriminoloji xüsusiyyətlərində nəzərə çarpan fərqlərin olmasına baxmayaraq, cinayətkarlığın bir-birinə oxşar, bəzən isə eynilik təşkil edən ümumi inkişaf meyilləri də vardır. Həmin inkişaf meyilləri dünya dövlətlərinin əksəriyyətində demək olar ki, ümumi cəhətlərlə təzahür formalarına malikdir.

Müasir kriminologiya elmində cinayətkarlığın coğrafiyası əsasən cinayətlərin müxtəlif ərazilər üzrə (müəyyən bir ölkə daxilində) bölgüsünü nəzərdə tutur. Cinayətkarlığın coğrafiyası anlayışı müxtəlif ərazi vahidlərində cinayətlərin xüsusi çəkisini, onların ərazilər üzrə artım və azalma meyllərini əhatə edir. Hüquq ədəbiyyatında qeyd olunur ki, inzibati ərazilərə görə cinayət-karlığın kəmiyyət və keyfiyyət tərəfləri, cinayətkarlığın səbəb və şəraiti öyrənilir. Cinayətkarlığın əraziyə görə bölgüsü təkcə ölkə miqyasında deyil, həm də vilayət, şəhər, rayon və kənd bölgələri üzrə öyrənilir. Cinayətkarlıqla mübarizə işinin elmi əsaslar üzrə təşkili ilk növbədə onun ərazi əlaməti üzrə necə payladığını aydınlaşdırmağı tələb edir (1, s. 63).

Bundan başqa, iqtisadi cinayətkarlıq qlobal miqyas aldığına görə cinayətkarlığın coğrafiyası anlayışını ona şamil etmək, fikrimizcə, məqsədəuyğun olardı. Bunun vasitəsilə iqtisadi cinayət-karlığın vəziyyətinə, quruluşuna, dinamikasına və digər kriminoloji xarakteristikasına dair ətraflı məlumatların əldə olunmasına, habelə belə təhlükəli əməllərlə cinayət-hüquqi mübarizənin daha səmərəli aparılması məqsədlərinə nail olmaq olar.

Azərbaycanda iqtisadi cinayətkarlığın, o cümlədən, sahibkarlıq fəaliyyəti ilə bağlı cinayət-lərin vəziyyəti və dinamikası haqqında təsəvvür əldə etmək üçün faktlara diqqət yetirək.

1995-ci ildə iqtisadi fəaliyyət sahəsi üzrə 2136 cinayət hadisəsi qeydə alınmışdırsa, 2000-ci ildə 623 cinayət, 2005-ci ildə 491 cinayət (bunun 16-sı qanunsuz və yalançı sahibkarlıq əməllə-rinin payına düşür), 2010-cu ildə isə 982 cinayət (bunun 35-i qanunsuz və yalançı sahibkarlıq əməllərinin payına düşür) qeydə alınmışdır. Qeyd etmək lazımdır ki, iqtisadi fəaliyyət sahəsi üzrə qeydə alınmış cinayətlər sistemində ilk yerləri vergi ödəməkdən yayınma (2010-cu ildə 594 cinayət) və qaçaqmalçılıq (2010-cu ildə 250 cinayət) əmelləri tutur (5, s. 62).

Qanunsuz sahibkarlıq fəaliyyəti ilə mübarizədə cinayət hüquqi tədbirlər son vasitə olmalıdır. İlk növbədə bu cinayətin törədilməsinə şərait yaradan kriminogen mühit aradan qaldırılmalıdır.

Qanunsuz sahibkarlıq əmelləri ilə mübarizədə səmərəliliyə nail olmaq üçün hüquq mühafizə orqanlarının struktur bölmələrində dövlət qeydiyyatından keçmiş və lisenziya almış bütün sahib-karlıq fəaliyyəti subyektlərinin elektron məlumat bazasının yaradılması məqsədə uyğundur.

Bu cinayətlərin ibtidai araşdırılması üzrə fəaliyyəti həyata keçirən hüquq mühafizə orqanlarının əməkdaşlarının (konkret halda Vergilər Nazirliyinin Vergi Cinayətlərinin Ibtidai Araşdırılması Departamentinin əməkdaşlarının) ixtisasının artırılması üzrə həmin orqanlarda yaradılmış tədris mərkəzlərində (konkret halda Vergilər Nazirliyinin Tədris Mərkəzində) hüquqşünas alimlərin mühazirələrinin təşkil edilməsi lazımdır.

Açar sözlər: sahibkarlıq fəaliyyəti, cinayətkarğılın vəziyyəti, cinayətkarlığın dinamikası, qanunsuz sahibkarlıq, cinayətkarlığın quruluşu.

İstifadə olunmuş ədəbiyyat

1. Səməndərov F.Y. Kriminologiya (ümumi hissə). Bakı: Hüquq nəşriyyatı, 2003, 160 s.
2. Криминология / Под ред. В.Н.Кудрявцева и В.Е.Эминов. / М.: Юрист, 2002, 132 с.
3. Криминология. Учебник. / Под ред. Н.Ф.Кузнецовой, Г.М.Миньковского. М., 1998. 351 с.
4. Колесников В.В.Феномен организованной экономической преступности. 1996.154 с.
5. Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar. Statistik məcmuə. Bakı, 2011, 97 s.

Шалала ГАСАНОВА

СОСТОЯНИЕ И ДИНАМИКА ПРЕСТУПЛЕНИЙ, СВЯЗАННЫХ С ПРЕДПРИНИМАТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТЬЮ

Резюме

На основе анализа официальной статистики в статье рассматривается современное состояние, тенденции развития и особенности динамики преступлений в сфере предпринимательской деятельности, совершаемых в Азербайджанской Республике.

Автор дал криминологическую характеристику рассматриваемых преступлений и рассмотрел вопросы профилактики.

Ключевые слова: предпринимательская деятельность, состояние преступности, динамика преступности, незаконная предпринимательская деятельность, структура преступности.

Shalala HASANOVA

CONDITION AND DYNAMICS OF THE CRIMES CONNECTED WITH BUSINESS ACTIVITY

Summary

In the article, on the basis of the analysis of official statistics it is stated on the modern condition, the development tendencies and the feature of crimes dynamics in sphere of the business activity, committed in Azerbaijan Republic. The author has given the criminological description of the considered crimes and has considered preventive treatment questions.

Keywords: business activity, a criminality condition, dynamics of criminality, illegal enterprise, criminality structure.

UOT 347.08

Səidə HƏSƏNZADƏ
AMEA FSHİ, b. e. i.,
hüquq üzrə f. d.

EKSTREMAL ŞƏRAİTLƏRDƏ QADIN VƏ UŞAQ HÜQUQLARININ MÜHAFİZƏSİ*

Qloballaşan dünya hadisə və proseslərin tez-tez dəyişməsi, müharibələrin, münaqişələrin, təbii fəlakətlərin, epidemiyaların, epizotiyaların, böyük ekoloji və digər təzahürləri səciyyəvi xüsusiyyətləri ilə diqqəti cəlb edir. Ümumilikdə isə istər fövqəladə vəziyyət, istər hərbi vəziyyət və istərsə də müharibə vəziyyəti, onların hər birinə ümumi və fərdi yanaşma tələb edir. Lakin birmənalı şəkildə qeyd etmək olar ki, bu xüsusi vəziyyətlər insan hüquq və azadlıqlarının qorunmasına xüsusi önəm verilməsi ilə, onun hər an diqqətdə saxlanılması ilə və müstəsna yanaşma kontekstində həyata keçirilə bilər. SSRİ-nin mövcud olduğu dövrdə bu məsələlər əsasən İttifaq dövləti tərəfindən tənzimlənir və idarə olunurdu. Məsələn, 22 iyun 1941-ci ildə «Hərbi vəziyyət haqqında» SSRİ Ali Sovet Rəyasət Heyətinin Fərmanı ölkədə xüsusi rejimin tətbiq olunması ilə yadda qalmışdır [11, 3]. Ümumilikdə isə belə vəziyyətlərin tarixi qədim dövrdən başlanır. XVII-XIX əsrdə Avropada «fövqəladə vəziyyət institutu» termini dövriyyəyə buraxıldı. Böyük mütəfəkkir Şarl Monteskye yazırdı ki, ən azad xalqların təcrübəsi belə təsdiq edir ki, elə hallar ola bilər ki, qısa bir müddətə də olsa, azadlığın üzərinə "müəyyən örtük" salmaq zərurəti yarana bilər [12, 92]. Rusiya tarixində isə fövqəladə vəziyyət institutu 1881-ci il 14 avqust tarixli «Dövlət asayişinin və ictimai sakitliyin qorunması tədbirləri haqqında Əsasnamə»nin qəbul edilməsi ilə başlanılmışdır. 1984-cü ildə Paris Konfransında qəbul edilmiş «Müstəsna vəziyyətlərdə əsas insan hüquqlarına dair minimal standartlar haqqında» beynəlxalq sənəd fövqəladə vəziyyətin tətbiq edilməsinin hüquqi əsaslarını və bu zaman insan hüquqlarının qorunmasının minimum standartlarını müəyyən etmişdir. İnsan hüquqlarının beynəlxalq müdafiəsinin ən vacib problemlərindən biri fövqəladə vəziyyətlər şəraitində insan hüquqlarının etibarlı şəkildə qorunmasını təmin etməyə yönəldilir [7, 5-6].

20 fevral 1988-ci ildə Azərbaycan SSR-nin tərkibində olan Dağlıq Qarabağ Muxtar Vilayət Sovetinin qanunsuz qərarı ilə Azərbaycan, hələ SSRİ-nin mövcud olduğu dövrdə Dağlıq Qarabağ münaqişəsinə cəlb edilmişdir. 21 sentyabr 1988-ci ildə sabiq Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi vəziyyət elan edilmiş və qadağan saatı qoyulmuşdur. 12 yanvar 1989-cu ildə isə SSRİ Ali Sovetinin Rəyasət Heyəti "Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarə forması" müəyyən etmiş və ictimai asayişi qorumaqdan ötrü SSRİ-nin daxili işlər orqanlarının 5400 nəfərdən ibarət əməkdaşını bu işə cəlb etmişdir [2, 20-21]. Bütün bu tədbirlərə baxmayaraq 90-cı illərdən başlayaraq Dağlıq Qarabağ münaqişəsi insan hüquqlarının pozulmasının mühüm səbəblərindən birinə çevrilmiş və bu proses bu günə qədər davam etməkdədir. Milli zəmində azərbaycanlılara qarşı soyqırımın tarixi qədim olsa da, lakin keçən əsrin 90-cı illərində ilk qurbanlar, iki azərbaycanlı gənc – Əli və Bəxtiyar milli münaqişə zəminində erməni seperatçıları tərəfindən qətlə yetirilmişlər [2, 20-21]. Həmin ərəfədə Ermənistan adlanan ərazidən iki yüz mindən çox azərbaycanlı öz daimi yaşayış yerlərindən, tarixən onlara məxsus olan qədim torpaqlarından zorla köçürülmüşlər. Ümumilikdə isə son illərin məlumatlarından görünür ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində 20 mindən artıq azərbaycanlı həlak olmuş, 4866 nəfər itkin düşmüş, 100 min nəfərə qədər insan yaralanmış, 50 min nəfərə qədər insan bədəninin müxtəlif nahiyələrindən xəsarətlər almışlar. Eləcə də təcavüz nəticəsində 17 min kvadrat kilometr kənd

* Məqalə h.e.d., prof. Ə.Əliyev tərəfindən çapa məsləhət bilinib.

təsərrüfatına yararlı torpaq sahəsi işğal altında qalmış, 900 yaşayış məntəqəsində olan 130939 ev, 2389 sənaye və kənd təsərrüfatı obyektləri, 1025 təhsil, 798 səhiyyə, 1510 mədəniyyət müəssisələri, 5198 kilometr avtomobil yolları, 348 körpü, 76940 kilometr elektrik xətti, 7568 kilometr su xətti dağıdılmışdır. Münaqişə ilə bağlı hətta BMT-nin Təhlükəsizlik Şurası tərəfindən 822, 853, 874 və 884 saylı qətnamələr çıxarmasına baxmayaraq, onların heç biri indiyə qədər icra olunmamışdır. Bütün bu vəziyyət Azərbaycanda qadın və uşaq hüquqlarının kütləvi şəkildə pozulmasına gətirib çıxarmış və bu təhdid bu gün də davam etməkdədir [9, 52-53].

Beynəlxalq hüquq, münaqişələr və müharibələr vəziyyətində insan hüquqlarının mühafizəsinin və müdafiəsinin əsas elementlərini və onun icra mexanizmlərini ətraflı tənzim etmişdir [9, 52-53]. Müstəqillik illərində Azərbaycanda milli səviyyədə bu istiqamətdə zəruri olan normativ-hüquqi aktlar qəbul edilmiş, mexanizmlər yaradılmış, tədqiqatlar aparılmış, bir çox məsələlərə aydınlıq gətirilmişdir. Qanunvericiliyə görə «müharibə vaxtı» dedikdə, Azərbaycan Respublikasının xarici dövlətlə müharibə vəziyyətində olması vəziyyəti başa düşülür. Aydındır ki, müharibənin başlanılması və başa çatması vaxtının dəqiq müəyyən edilməsi bir çox hüquqi faktların aydınlaşdırılması üçün olduqca əhəmiyyətlidir. Bu mənada müharibənin elan olunmasının və ya hərbi əməliyyatların faktiki aparılmasının ilk günü və ilk saatı müharibənin başlanması, hərbi əməliyyatların faktiki olaraq dayandırıldığı gün və saat isə müharibənin sonu hesab edilir. «Döyüş şəraiti» isə hərbi hissənin və ya bölmənin bilavasitə düşmənə qarşı dayanması və faktiki olaraq döyüş əməliyyatının aparılması vəziyyətini əhatə edir. «Döyüş şəraiti» və «müharibə vaxtı» anlayışları heç şübhəsiz biri-birindən əhəmiyyətli dərəcədə fərqlənir. «Döyüş şəraiti» yalnız müharibə vaxtı deyil, hər hansı bir döyüş tapşırığının yerinə yetirilməsi məqsədilə, hətta dinc dövrdə də mövcud ola bilər [3, 231].

Ekstremal şərait – hərbi vəziyyət, müharibə vəziyyəti, fövqəladə vəziyyət və digər bu kimi xüsusi vəziyyətlərin hüquqi tənzimlənməsi sahəsində müstəqillik illərində ən zəruri olan normativ-hüquqi baza yaradılmışdır. Bu sənədlərin hər biri xüsusi şəraitin ayrı-ayrı məsələlərinin, o cümlədən insan hüquqlarının mühafizəsi və müdafiəsinin təmin olunması sahəsində vacib olan nizamlama məsələlərini reqlamentləşdirmişdir. 6 yanvar 1994-cü il tarixdə «Hərbi vəziyyət haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Sonrakı illərdə də ölkənin real müharibə vəziyyətində olması nəzərə alınaraq «döyüş şəraiti»nin, «hərbi vəziyyət»in, «fövqəladə vəziyyət»in və «müharibə vəziyyəti»nin hüquqi rejimlərinin müəyyən edilməsi sahəsində bir çox normativ-hüquqi aktlar qəbul edilmişdir. Bütün bu sənədlər Azərbaycan Respublikasının referendum yolu ilə qəbul edilmiş 1995-ci il Konstitusiyasına əsaslanır. Belə ki, Konstitusiyanın 111-ci maddəsi hərbi vəziyyətin elan edilməsi, 112-ci maddəsi isə fövqəladə vəziyyətin tətbiq olunmasının hüquqi əsaslarını müəyyən etmişdir. Bu konstitusion normalar hazırlanarkən, müzakirə edilərkən və qəbul edilərkən beynəlxalq standartlara əsasən tam riayət edilmişdir [8, 545-555].

Azərbaycan Respublikası ərazisinin müəyyən hissəsi faktiki işğal olunduqda, xarici dövlət ölkəmizə qarşı müharibə elan etdikdə və ya silahlı hücum təhlükəsi yarandıqda, blokada vəziyyəti olduqda Azərbaycan Respublikasının Prezidenti ölkənin bütün ərazisində və ya onun ayrı-ayrı ərazilərində hərbi vəziyyət elan etmək hüququna malikdir. Fövqəladə vəziyyət isə eyni zamanda Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulması hallarında, dövlətə qarşı qiyam və kütləvi iğtişaşlar başlandığı hallarda, təbii fəlakətlər və digər qəzalar baş verdikdə, ölkənin hakimiyyət və idarəçilik orqanlarının, vətəndaşların həyatının və təhlükəsizliyinin təhlükə altına alındığı hallarda ölkə prezidentinin ayrı-ayrı ərazilərdə fövqəladə vəziyyət tətbiq etmək səlahiyyətləri vardır. Belə qərarlar barədə prezident 24 saat müddətində qəbul etdiyi fərmanı qanunverici orqana – respublikanın Milli Məclisinə təqdim etməlidir [5, 57-58].

Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş «Milli Təhlükəsizlik Konspesiyası» [6] və Azərbaycan Respublikası Milli Məclisinin 8 iyun 2010-cu il tarixli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının hərbi doktrinası» [4]

müharibə vəziyyətində olan ölkəmiz üçün talehyüklü məsələlərin həlli sahəsində dövlət siyasətinin əsas istiqamətlərini müəyyən etmişdir. Ölkədə «Səfərbərlik hazırlığı və səfərbərlik haqqında», «Fövqəladə vəziyyət haqqında», «Hərbi vəziyyət haqqında» Qanunların qəbul edilməsi, Fövqəladə Hallar Nazirliyinin yaradılması, habelə bütün bu məsələlərlə bağlı hüquq tənzimlənməsi problemlərinin beynəlxalq standartlara müvafiq olaraq hazırlanması nisbətən daha çox zərurət duyulan qadın və uşaq hüquqlarının qorunmasına və müdafiəsinə diqqətin artırılmasını tələb edir.

«Müharibə qurbanlarının müdafiəsinə dair» 12 avqust 1949-cu il Cenevrə Konvensiyasının tələbləri, BMT-nin İnsan Hüquqları Komissiyasının 58-ci sessiyasının qəbul etdiyi «İtkin düşmüş şəxslər haqqında», habelə «Hərbi münaqişələr zamanı, sonradan həbs olunanlar da daxil olmaqla, girov götürülmüş qadın və uşaqların azad edilməsi haqqında» Qətnamələri Ermənistan Respublikası tərəfindən pozulur. Belə ki, Cenevrə Konvensiyasının şərhinə həsr olunmuş sənədin 27-ci maddəsində göstərilir ki, bütün mülki əhalinin istifadə etdiyi ümumi müdafiədən əlavə, qadınlar onların şərəfinə hər cür qəsdən xüsusi olaraq müdafiə edilməlidirlər. Bu onların milli mənsubiyyətindən, irqindən, dini etiqadından, yaşayış, ailə və sosial vəziyyətindən asılı olmayıb, onların qadınlıq ləyaqətindən irəli gəlir. Bu mənada BMT Baş Məclisinin 14 dekabr 1974-cü il tarixli 3318 saylı qətnaməsi ilə təsdiq edilmiş «Qadın və uşaqların fövqəladə hallarda, silahlı münaqişələr dövründə müdafiəsi haqqında Bəyannamə» mühüm əhəmiyyət kəsb edir. Orada göstərilir ki, mülki əhaliyə, xüsusən onun ən müdafiəsiz hissəsi olan qadınlara və uşaqlara saysız-hesabsız əzablar gətirən hücum edilməsi qəti qadağandır. Buna görə də Bəyannamənin 5-ci maddəsi birmənalı şəkildə müharibə edən tərəflərin hərbi əməliyyatların gedişində və ya işğal edilmiş ərazilərdə həbsxanaya salma, işgəncə vermə, güllələnmə, kütləvi həbsə alma, kollektiv cəzalandırma, qadınlara və uşaqlara qarşı törətdikləri bütün repressiya və qəddar, insanlıqdan kənar davranış formalarını cinayətkar əməl hesab edir [9, 110].

BMT Baş Məclisinin Vyana Bəyannaməsində (1993-cü il) və onun fəaliyyət proqramında birmənalı şəkildə göstərilir ki, silahlı münaqişə şəraitində qadınların insan hüquqlarının pozulması beynəlxalq hüququn əsas prinsiplərinin pozulması kimi dəyərləndirilməli və belə əməllərə görə ən ciddi tədbirlər görülməlidir. Bu mövqe BMT Baş Məclisinin «Qadınlara münasibətdə zorakılığın aradan qaldırılması haqqında Bəyannamə»sində və 1995-ci il Pekin Bəyannaməsində də öz əksini tapmışdır[9,110]. Ermənistanın işğalçı ordusu Azərbaycan vətəndaşlarının beynəlxalq hüquqla tanınan insan hüquq və azadlıqlarını sistemli şəkildə və qeyri-insani formada kütləvi surətdə pozur.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatlarından aydın olur ki, hazırda əsir və itkin düşmüş, habelə girov götürülmüş şəxslər siyahısında olan 4211 nəfərin 256 nəfərini qadınlar, 47 nəfərini uşaqlar təşkil edir. Əsir götürülmüş 783 nəfərin isə 46 nəfərini qadınlar, 18 nəfərini uşaqlar təşkil edir. Komitənin gördüyü tədbirlər nəticəsində əsirlikdən xilas edilmiş 1400 nəfərdən çox insanın 343 nəfəri qadın, 169 nəfəri isə uşaq olmuşdur. Xocalı soyqırımı zamanı qətlə yetirilmiş 613 nəfərin 63 nəfərini azyaşlı uşaqlar, 106 nəfərini isə qadınlar təşkil etmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərinin birini itirmiş, 8 ailə tamamilə öldürülmüşdür. Bu zaman xəsarət alan 487 nəfərdən 76 nəfəri uşaqlar olmuşdur. Bu illər ərzində minaya düşmüş 350 nəfər uşağın da 56 nəfəri həlak olmuş, 294 nəfəri isə yaralanmışdır... Xocavənd rayonunun işğalı zamanı girov götürülmüş 117 nəfərin 50 nəfəri, Horadizin işğalı zamanı girov götürülmüş 40 nəfərin 29 nəfəri, Gorazilli kəndinin işğalı zamanı girov götürülmüş 40 nəfər, Kəlbəcər rayon Başlıbel kəndindən girov götürülmüş 29 nəfər qoca qadın və uşaq dərhal qətlə yetirilmiş, onların meyitləri üzərində vandalizm əmelləri törədilmişdir... Bəzi əsirlərin və girovların bədənləri üzərində işgəncələr, eksperimentlər aparılmış, transplantasiya məqsədilə ayrı-ayrı hissələr kəsilib götürülmüşdür [10, 125-134].

Bu gün də Dağlıq Qarabağ münaqişəsinin davam etməsi qadın və uşaq hüquqlarının mühafizəsi və etibarlı müdafiəsi üçün ciddi problemlər yaradır. İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində beynəlxalq çağırışlar regionda baş verən faciəvi hadisələr kontekstində olduqca miskin görünür. Ermənistan beynəlxalq birliyin üzvü olsa da, faktiki olaraq üzərinə götürdüyü öhdəlikləri, BMT-nin məlum dörd qətnaməsinin icrasını nümayişkar surətdə icra etmir.

Ağdamda, Tovuzda və digər sərhəd rayonlarımızda, suda axıdılan uşaq oyuncağına yerləşdirilmiş bombanın partlaması nəticəsində Rusiyadan qonaq gəlmiş azərbaycanlı məktəblinin həlak olması və ya məktəbə gedən şagirdin Ağdam rayonunda snayperdən açılmış atəşlə elə yoldaca qətlə yetirilməsi yaxın günlərimizin acı reallıqlarıdır. Belə faktlar kifayət qədər rəngarəng və tez-tez təkrarlanan ağır hadisələrdir.

Beynəlxalq təşkilatlar, o cümlədən BMT-nin, Qırmızı Aypara və Qırmızı Xaç Komitələrinin, ATƏT-in müvafiq qurumlarının səyləri hələlik müsbət nəticələr vermir. Atəşkəs elan olunsa da, Ermənistan dövləti faktiki olaraq müharibəni açıq şəraitdə davam etdirir. Sanki atəşkəs adı altında erməni siyasəti fasiləsiz olaraq məkirli şəkildə həyata keçirilir. Bu da qadın və uşaq hüquqlarının pozulması hallarının sistemli və ardıcıl şəkil almasına gətirib çıxarmışdır. Proseslərin belə ardıcıl davam etməsi və ağır nəticələr verməsi ciddi tədbirlər görülməsinə zərurət yaradır. Hesab edirəm ki, qadın və uşaqlara qarşı iyirmi ildən çox davam edən bu faktların mənzərəsini yaradan nəşrlərin hazırlanması və müxtəlif dillərə tərcümə edilərək dünya ictimaiyyətinə çatdırılması olduqca vacibdir. Bu gün beynəlxalq və milli səviyyədə hamı insan hüquqlarının müdafiəsindən və mühafizəsindən danışsa da, ölkəmizdə qadın və uşaq hüquqları erməni seperatçıları tərəfindən demək olar ki, hər gün pozulur.

Ulu Öndər Heydər Əliyev parlamentdə Dağlıq Qarabağ münaqişəsinin vəziyyətinə dair aparılan müzakirələrdə haqlı olaraq demişdir ki, biz Azərbaycan xalqının hüquqlarının kütləvi şəkildə, vəhşicəsinə pozulmasını ön planda çatdırmalıyıq və bunu yaymalıyıq, bunu bildirməliyik. Bu, bizim tarixi vəzifəmizdir, hər bir azərbaycanlının tarixi vəzifəsidir. Hərə öz imkanı çərçivəsində gərək bu vəzifəni yerinə yetirsin [1].

Qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində milli təşkilatlar Ermənistan dövlətinin qadın və uşaqlara qarşı törətdikləri sülh və insanlıq əleyhinə olan müharibə cinayətlərinə dair faktları toplamaqla beynəlxalq səviyyədə mühakimə qurulması üçün tədbirlər görməlidirlər. Belə tədbirlərdən biri xüsusi statuslu məhkəmə orqanlarının yaradılması barədə təşəbbüsün qaldırılması, erməni faşistlərinin əməllərinin beynəlxalq tribunala verilməklə, onların layiqincə cəzalandırılması üçün tədbirlər görülməsinə istiqamətləndirilməlidir.

Azərbaycanda fəaliyyət göstərən insan hüquqlarının müdafiəsinə dair beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq genişləndirilməli, hər bir fakt haqqında onların vasitəsilə, habelə birbaşa həyata keçirilən tədbirlər sistemi hazırlanıb həyata keçirilməlidir. Bu zaman qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində Azərbaycanda və Ermənistanda fəaliyyət göstə-rən beynəlxalq və regional təşkilatların fəaliyyətsizliyi, ən aşağısı laqeydliyi də ciddi surətdə diqqətə çatdırılmalıdır. Onların fəaliyyətindəki laqeydlik, biganəlik, bürokratiya, süründürməçilik, qətiyyətsizlik müzakirə edilməli və onlardan ictimai haqq-hesab tələb edilməlidir.

Bu gün Azərbaycanda və Ermənistanda münaqişə ilə bağlı beynəlxalq missiyanı həyata keçirən çoxsaylı qurumlar vardır. Buna baxmayaraq tez-tez təkrarlansa da, münaqişə nəticəsində girov götürülən əsirlərin, öldürülmüş şəxslərin meyitlərinin vaxtında qaytarılması istiqamətində səmərəli və intensiv tədbirlər görülmür. Ermənistanın günahı üzündən sərhədyanı regionlarda kənd təsərrüfat işlərinin həyata keçirilməsində ciddi problemlər vardır. Ekologiya qəsdən korlanır, meşələr yandırılır, heyvanat aləmi məhv edilir, sular zəhərlənir, tarixi abidələr dağıdılır. Ümumilikdə, Ermənistanın silahlı qüvvələri münaqişə dövründə azərbaycanlılara qarşı soyqırım, köləlik, əhalini deportasiya etmə, cinsi zorakılıq, işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, hərbi soyğunçuluq və digər bu kimi sülh və insanlıq əleyhinə olan və müharibə cinayətləri törədilməsinə

dair çoxsaylı faktlar vardır. Münaqişə başlayandan sonra törədilən və bu gün də davam edən cinayət əməllərinin, o cümlədən qadın və uşaqlara qarşı törədilən ağır cinayət əməlləri ölkənin istintaq orqanlarının topladığı çoxsaylı dəlillərlə mübahisəsiz qaydada sübut olunur.

Münaqişə tərəflərinə sərbəst gedib-gələn beynəlxalq missiyanın əməkdaşları ən sadə problemlərin belə həllini təmin etməkdə acizdirlər. Nəzarətsiz zonalarda narkotik plantasiyalar salınır və narkotiklər istehsal edilir. Bu fakt BMT-nin tribunasından dəfələrlə səslənmişdir, lakin BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsi bu barədə tədbir görmək niyyətində deyildir, onlar sadəcə olaraq bu faktları təkrar-təkrar elan etməklə vəzifələrini bitmiş hesab edirlər. Müvafiq beynəlxalq və regional təşkilatların regionda törədilən cinayətlərə, o cümlədən insan hüquq və azadlıqlarına qəsd edən əməllərə qarşı aşkar hərəkətsizliyi iyirmi ildən çoxdur ki, davam edir. Bu ümumiyyətlə beynəlxalq ictimaiyyətin erməni faşistlərinin qəddar cinayətlərinə qarşı laqeydliyidir. Bütün bunlar onu göstərir ki, hər iki ölkədə səmərəli tədbirlər həyata keçirmək iqtidarında olan işlək mexanizmin yaradılması barədə tədbir görmək vaxtı çatmışdır. Belə təəsürat yaranır ki, beynəlxalq qurumlar münaqişənin uzanmasından və dərinləşməsindən narahat deyillər. Xalqın isə səbr kasası dolmuşdur.

Bu gün dünyada çoxsaylı beynəlxalq təşkilatlar fəaliyyət göstərirlər. Onların bir hissəsi illərlə uzanan münaqişələrin müxtəlif məsələlərinin həlli ilə məşğuldurlar. Lakin aydındır ki, təkcə beynəlxalq təşkilat yaratmaq məsələni həll etmir. Bu gün BMT kimi bir qurum öz qərarlarını icra etmək iqtidarında deyilsə, bu onun nüfuzuna təsir edir, onu hörmətdən salır, onun fəaliyyətini şübhə altına alır. Ümumilikdə isə sual yaranır: Öz qərarını icra etmək iqtidarına malik olmayan beynəlxalq qurumun üzv dövlətlərin milyonlarla vəsaiti hesabına saxlanılmasına zərurət vardırmı? Ona görə də indi BMT-yə inam və ümid azalmışdır. Bununla belə onu əvəz edəcək bir qurum bu gün varmı? Suallar çoxdur və düşündürücüdür. Lakin çıxış yolu tapılmalıdır.

Dövlətlərarası münaqişələrin və mübahisələrin qloballaşma dövründə daha da artacağı və dərinləşəcəyi şübhə doğurmur. Belə bir vəziyyətdə beynəlxalq təşkilatların qərarlarının icrasını təmin edən hərbi və ya inzibati qurumların işlək mexanizmlərinin yaradılması zamanın tələbidir. Məsələn, belə bir missiyanın NATO tərəfindən həyata keçirilməsinin mümkünlüyü məsələsinin nəzərdən keçirilməsi vaxtı çatmışdır. İstər NATO və istərsə də yeni yaradılacaq hər hansı başqa xüsusi qurum üzv dövlətlərin birgə səyləri və razılıqları ilə yaradılmalı, onun fəaliyyətinin və mexanizmlərinin hüquqi tənzimlənməsi təmin edilməlidir.

Münaqişə zonalarında, habelə ekstremal vəziyyətlərdə qadın və uşaq hüquqlarının müha-fizəsini təmin edən tədbirlərə diqqətin artırılması vaxtı çatmışdır. Bunu ölkəmizin Dağlıq Qarabağ münaqişəsi kontekstində üzləşdiyi reallıqlar və beynəlxalq hüququn prinsipləri tələb edir. Bunu sülhsevər Azərbaycan xalqının qadın və uşaq hüquqlarının qorunmasına olan böyük rəğbəti, məhəbbəti və istəyi tələb edir.

Açar sözlər: qadın hüquqları, uşaq hüquqları, beynəlxalq hüququ, Dağlıq-Qarabağ münaqişəsi, hərbi vəziyyət, ekstremal şərait, Birləşmiş Millətlər Təşkilatı, qanunun aliliyinə əsaslanan dünya nizamı

İstifadə olunmuş ədəbiyyat

1. «Azərbaycan» qəzeti. 19 dekabr 1997-ci il.
2. Alışanlı A. Qarabağ problemi. B., 2009.
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. B., 2011.
4. Azərbaycan Respublikasının hərbi doktrinası. B., «Hüquq ədəbiyyatı» nəş., 2010.
5. Azərbaycan Respublikasının Konstitusiyası. B., 2011.

6. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. B., «Hüquq ədəbiyyatı» nəş., 2009.
7. Bayramova P. Fövqəladə vəziyyət şəraitində insan hüquqlarının müdafiəsi. B., 2004.
8. Cəfərov İ. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. B., 2010.
9. İbayev V. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində. B., 2006.
10. Səmədov E. Ermənistanın Azərbaycana qarşı təcavüzünün qurbanı olmuş uşaqlar və qadınlar. Beynəlxalq konfransın materialları. B., 2009.
11. Боев В.И., Кочубей М.А., Новиков А.П. Война и уголовный закон. М., 2009.
12. Макиавелли Н. Избранные произведения. М.: Худ.лит., 1982.

Саида ГАСАНЗАДЕ

ОХРАНА ПРАВ ЖЕНЩИН И ДЕТЕЙ В ЭКСТРЕМАЛЬНЫХ УСЛОВИЯХ

Резюме

Международное право особое внимание уделяет охране и защите прав женщин и детей. В связи с этой проблемой в национальной правовой системе также проведено множество организационно-правовых мероприятий. Но, несмотря на это со времени начала Нагорно-Карабахского конфликта наблюдается множество фактов нарушения прав женщин и детей. До сих пор эта проблема не нашла своего решения в свете требований международного уголовного права. По поводу нарушения прав женщин и детей должны быть предприняты необходимые меры и осуждены международным правом.

Ключевые слова: права женщин, права детей, международное право, Нагорно-Карабахский конфликт, военное положение, экстремальная ситуация, Организация Объединенных Наций, миропорядок на основе господства права.

Saida HASANZADEH

PROTECTION OF THE RIGHTS OF WOMEN AND CHILDREN IN EXTREME CONDITIONS

Summary

The International law pays a particular attention to protection and defence of women and chrildren rights. In connection with this problem in the national law system the numerous organization – law measures have been undertaken. However, despite it since beginning Nagorno-Karabagh conflict there have been observed many facts of violation of women and children rights. Up to now this problem has not found its solution in the light of the requirements of international criminal law. As regards to violation of women and children rights there should be undertaken the measures and condemned by the international law.

Keywords: women's rights, children's rights, international law, The Nagorno Karabakh conflict, martial law, extreme situation, The United Nations, world order based on the rule of law.

UOT 343.1

Bəhruz KƏRİMOV
AMEA FSHİ, b.e.i.,
hüquq üzrə f. d.

İNSAN ALVERİ CİNAYƏT TƏRKİBİ: QANUNVERİCİLİYİN TƏHLİLİ, CİNAYƏT HÜQUQ NORMASININ TƏKMİLLƏŞDİRİLMƏSİ*

Cinayət Məcəlləsinin 144-1-ci maddəsində nəzərdə tutulmuş insan alveri cinayət tərkibinin qurulması zamanı xeyli sayda yanlışlıqlara və çatışmazlıqlara yol verilmişdir ki, həmin nöqsanlar törədilmiş əməlin düzgün tövsif edilməsi işini çətinləşdirir, hüquqtətbiqedən subyektlərin əmələ cinayət-hüquqi qiymət vermə fəaliyyətini çox mürəkkəbləşdirir.

İlk növbədə Cinayət Məcəlləsinin 144-1-ci maddəsində insan alveri cinayətinə verilmiş anlayışla «İnsan alverinə qarşı mübarizə haqqında» 28 iyun 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanununda verilən anlayış arasındakı fərqə diqqət yetirək.

Cinayət Məcəlləsinin 144-1-ci maddəsinin dispozisiyasında insan alveri cinayətinə aşağıdakı kimi anlayış verilir: «İnsan alveri, yəni şəxsin alqı-satqısı və ya ona sahibliklə əlaqədar digər əqdlərin bağlanması, yaxud onun istismar edilməsi məqsədilə Azərbaycan Respublikasının dövlət sərhədindən keçirilməsi üçün və ya eyni məqsədlə digər şəxslərə verilməsi üçün cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi».

«İnsan alverinə qarşı mübarizə haqqında» 28 iyun 2005-ci il tarixli AR-in Qanununun 1.0.1-ci maddəsinə görə, insan alveri zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla insanların istismar məqsədi ilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsindən ibarət olan əmelləri əhatə edir (uşağın istismar məqsədi ilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi bu maddədə göstərilən üsullardan istifadə olunmasa da insan alveri hesab edilir).

Göründüyü kimi, adı çəkilən qanunda insan alverinə verilən anlayış Cinayət Məcəlləsinin 144-1-ci maddəsində verilən anlayışdan daha geniş məzmundadır. Hesab edirik ki, adı çəkilən qanunda insan alverinə cinayət-hüquqi baxımdan, o cümlədən əməlin tövsifinin düzgün həyata keçirilməsi yönündən daha dolğun və dürüst anlayış təsbit edilmişdir (1, s.341). Ona görə ki:

Birincisi, insan alveri cinayəti zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla törədilərsə, insan alveri qurbanının istismar olunmağa dair razılığının olub-olmamasının əməlin insan alveri cinayəti kimi tövsif edilməsinə heç bir təsiri yoxdur («İnsan alverinə qarşı mübarizə haqqında» 28 iyun 2005-ci il tarixli Azərbaycan Respublikası Qanununun 1.0.2-ci maddəsi). Sadalanan üsullarla törədilən insan alveri cinayəti bütün hallarda CM-in 144-1-ci maddəsinin müvafiq əlamətləri nəzərdə tutan hissələri ilə tövsif edilməlidir.

İnsan alveri cinayəti zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla deyil, digər

* Məqalə hüquq üzrə f.d. Y.Balakişiyeva tərəfindən çapa məsləhət bilinib.

üsullarla törədilərsə, yetkinlik yaşına çatmamış şəxslər istisna olmaqla, şəxsin istismara özünün razılığını verməsi insan alveri cinayəti kimi tövsif edilə bilməz.

Göründüyü kimi, Cinayət Məcəlləsinin 144-1-ci maddəsində insan alverinə verilən anlayışda cinayətin törədilmə üsulları göstərilməmişdir ki, bu da əməlin cinayət sayılıb-sayılmaması məsələsinin həll edilməsinə çox ciddi əngəl yaradır.

Beləliklə, hesab edirik ki, cinayətin törədilmə üsulu Cinayət Məcəlləsinin 144-1-ci maddəsində insan alverinə verilən anlayışda öz əksini tapmalıdır.

İkincisi, insan alveri cinayətindən zərərçəkmiş şəxslərin Cinayət Məcəlləsinin 144-1-ci maddəsində fərqləndirilməsinin, başqa sözlə zərərçəkmiş şəxslərin istismara razılıqlarının olub-olmamasının əməlin tövsifinə təsirinin nəzərə alınıb-alınmaması ilə əlaqədar məsələdir.

CM-in 144-1-ci maddəsində nəzərdə tutulmuş cinayətdən zərərçəkmiş şəxs qismində yetkinlik yaşına çatan və yetkinlik yaşına çatmayan (CM-in 144-1.2.3-cü maddəsi) hər hansı şəxs çıxış edə bilər. Yetkinlik yaşına çatmamış şəxsin insan alverinin obyekti olaraq cəlb edilməyə könüllü, yaxud məcburiyyət təsiri altında razılığının olub-olmamasından asılı olmayaraq törədilmiş əməl CM-in 144-1-ci maddəsi ilə tövsif olunmalıdır. Yetkinlik yaşına çatmış şəxsin cəlb edilməsi isə o halda insan alveri cinayəti kimi tövsif ediləcəkdir ki, cəlb etmə aşağıdakı üsullarla həyata keçirilmiş olsun: zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə; hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə; oğurlama, dələduzluq, aldatma yolu ilə; təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə; digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla. Başqa sözlə, yetkinlik yaşına çatmış şəxsin cəlb edilməsi CM-in 144-1-ci maddəsi ilə o halda cinayət məsuliyyətinə səbəb olan əməl kimi tövsif edilməlidir ki, həmin şəxsin onun barəsində insan alveri cinayətinin tərkibini yaradan əməllərin törədilməsinə könüllü razılığı olmasın.

Üçüncüsü, CM-in 144-1-ci maddəsində insan alveri cinayət tərkibinin zəruri əlaməti qismində cinayətin üç məqsədi - şəxsin alqı-satqısı və ya ona sahibliklə əlaqədar digər əqdlərin bağlanması, yaxud onun istismar edilməsi - nəzərdə tutulmuşdur. «İnsan alverinə qarşı mübarizə haqqında» Qanunda isə bu əməlin yalnız istismar məqsədilə törədilməsinə dair müddəa öz əksini tapmışdır. Hesab edirik ki, CM-də insan alveri cinayətinin məqsədlərinin «İnsan alverinə qarşı mübarizə haqqında» Qanunla müqayisədə geniş göstərilməsi təqdirəlayiq hal sayılmalıdır. Ona görə ki, şəxsin alqı-satqısı və ya ona sahibliklə əlaqədar digər əqdlərin bağlanması məqsədi insanların istismar edilməsi məqsədinin ehtiva etdiyi məna çərçivəsinə sığmır. Bu qənaətə həm də CM-in 144-1-ci maddəsinin qeydinin 1-ci bəndində insanların istismarına verilən anlayışın təhlili nəticəsində gəlmək olar. Alqı-satqı və ya sahibliklə əlaqədar digər əqdlərin (bagışlama, dəyişdirmə, satma və s.) bağlanması üçün insan alveri cinayətinin qurbanını cəlb edən şəxs qurbanın gələcəkdə istismar ediləcəyini bilməyə də bilər, başqa sözlə, qurbanın gələcəkdə istismar ediləcəyi onu cəlb edən şəxsin maraqları daxilində olmaya da bilər. Belə hallarda, əgər alqı-satqı və ya sahibliklə əlaqədar digər əqdlərin (bagışlama, dəyişdirmə, satma və s.) bağlanması üçün insan alveri cinayətinin qurbanını cəlb edən şəxsin onu istismar etmə niyyəti yoxdursa, deməli onun əməlində «İnsan alverinə qarşı mübarizə haqqında» Qanuna əsasən cinayət tərkibi olmayacaqdır. Bu isə insan alveri cinayətinin törədilməsində ən mühüm həlqələrdən biri olan alıcı-satıcı tandeminin cinayət məsuliyyətindən kənarda qalması demək olardı ki, bunu da qəbul etmək son dərəcə yanlışlıq olardı.

Nəticə olaraq hesab edirik ki, insan alveri cinayətinin törədilməsi məqsədləri «İnsan alverinə qarşı mübarizə haqqında» Qanunda da CM-də olduğu kimi genişliyi ilə nəzərdə tutulmalıdır.

Dördüncüsü, «İnsan alverinə qarşı mübarizə haqqında» 28 iyun 2005-ci il tarixli AR-in Qanununda insan alverinə verilən anlayışda yetkinlik yaşına çatmamış şəxslərin istismar olunmağa razılığının əməlin Cinayət Məcəlləsinin 144-1-ci maddəsi ilə tövsif edilməsi üçün heç bir əhəmiyyət daşımadığı təsbit edilsə də, Cinayət Məcəlləsinin 144-1-ci maddəsində insan alverinə verilən anlayışda belə bir göstəriş nəzərdə tutulmamışdır.

Fikrimizcə, yetkinlik yaşına çatmamış və yetkinlik yaşına çatmış şəxslərin istismar olunmağa razılığının CM-in 144-1-ci maddəsi ilə cinayət məsuliyyəti yaradıb-yaratmaması ilə əlaqədar həmin maddənin qeydində müvafiq göstərişin nəzərdə tutulması məqsədəuyğun olardı.

İnsan alveri əməlinin törədilməsinə görə məsuliyyət nəzərdə tutan cinayət qanunu normasının, o cümlədən insan alverinin müxtəlif təzahür formaları və onların nəticələrinin kriminallaşdırıldığı cinayət hüquq normalarının təkmilləşdirilməsinə, habelə maksimal dərəcədə insan alverinin bütün formalarının cinayət əməli olaraq cinayət məsuliyyəti yaradan əməllər sırasına daxil edilməsi zərurətinin olduğunu nəzərə alaraq hesab edirik ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə aşağıda göstərilən əlavə və dəyişikliklər edilməlidir.

1. Cinayət Məcəlləsinin insan alveri cinayət tərkibini nəzərdə tutan 144-1.1-ci maddəsinin qüvvədə olan redaksiyası dəyişdirilməlidir.

Əvvəla ona görə ki, həmin maddədə insan alverinin qurbanı olacaq şəxslərin iki halda:

1) Azərbaycan Respublikasının dövlət sərhədindən keçirilməsi üçün; və ya

2) digər şəxslərə verilməsi üçün cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsinə görə məsuliyyət nəzərdə tutulur.

CM-in 144-1.1-ci maddəsindən çıxış etsək, məlum olur ki, insan alveri qurbanlarının Azərbaycan Respublikasının dövlət sərhədindən keçirilməsi və ya digər şəxslərə verilməsi üçün deyil, digər hallarda sadalanan əməllərin törədilməsi cinayət məsuliyyəti yaratmır. Məsələn, ölkə daxilində istismar məqsədilə həm insanları cəlb edən, həm də onları istismar edən eyni bir şəxsin əməlində insan alveri cinayətinin tərkibi istisna edilir. Deməli, CM-in 144-1.1-ci maddəsində qeyd etdiyimiz halları nəzərdə tutan müddəa insan alveri cinayətinin törədilməsində əhəmiyyətli rol alan şəxslərin müəyyən hissəsinin cinayət məsuliyyətindən kənarda qalmasına səbəb olur ki, bunu heç cür qəbul etmək olmaz.

İkincisi, həmin maddədə insan alverinin qurbanı olacaq şəxslərin yalnız cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsinə görə cinayət məsuliyyəti nəzərdə tutulur. Başqa, daha təhlükəli əməllərdən olan insanların əməyinin istismarının özü kriminallaşdırılmamış qalır. Hesab edirik ki, insan alveri cinayətinin daha dolğun və beynəlxalq müqavilələrə uyğun olan anlayışı «İnsan alverinə qarşı mübarizə haqqında» 28 iyun 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanununda və CM-in 144-1-ci maddəsinin dispozisiyasında verilən anlayışların birləşdirilməsi yolu ilə müəyyən edilə bilər:

«144-1.1. İnsan alveri, yəni zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla insanların alqı-satqısı və ya onlara sahibliklə əlaqədar digər əqdlərin bağlanması, yaxud onların istismar məqsədi ilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi (razılığının olub-olmamasından asılı olmayaraq uşağın alqı-satqısı və ya ona sahibliklə əlaqədar digər əqdlərin bağlanması, yaxud onun istismar məqsədi ilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi)».

2. İnsan alveri cinayət tərkibini nəzərdə tutan CM-in 144-1-ci maddəsində insanları istismar edən şəxslərin özünün cinayət məsuliyyətinin təsbit edilməməsi bu normanın natamam olmasına gətirib çıxarır. Əslində insanları istismar edən şəxslərin əmälləri istismar üçün insanları cəlb edən, əldə edən, saxlayan, gizlədən, daşıyan, verən və ya qəbul edən şəxslərin əmälləri ilə müqayisədə daha çox ictimai təhlükəlidir və təbii ki, kriminallaşdırılmalıdır. Ona görə də Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə insanları istismar edən şəxslərin həmin əmällərinə görə məsuliyyətini nəzərdə tutan 144-1.2-ci maddənin əlavə edilməsini və mövcud 144-1.2-ci maddənin 144-1.3-cü maddə hesab edilməsini təklif edirik:

«144-1.2. Bu Məcəllənin 144-1.1-ci maddəsində göstərilmiş üsullarla və ya bunsuz istismar məqsədilə cəlb edilmiş, əldə edilmiş, saxlanılmış, gizlədilmiş, daşınmış, verilmiş və ya qəbul edilmiş şəxsin istismar edilməsi –

əmlakı müsadirə olunmaqla səkkiz ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.».

3. Cinayət Məcəlləsinin 144-1.2-ci maddəsi 144-1.3-cü maddə hesab edilməli, aşağıdakı redaksiyada verilməli və müvafiq olaraq 144-1.2-ci maddənin bütün bəndləri buna uyğunlaşdırılmalıdır:

«144-1.3. Bu Məcəllənin 144-1.1-ci və 144-1.2-ci maddələrində göstərilən əməllər:».

4. Cinayət Məcəlləsindən 144-1.3.3-cü və 144-1.3.9-cu maddələrin çıxarılmasını təklif edirik. CM-in 144-1.3.3-cü maddəsində nəzərdə tutulan cinayət əməli yetkinlik yaşına çatmayan şəxs barəsində törədilir. Hesab edirik ki, yetkinlik yaşına çatmayan şəxslərin insan alveri cinayətinin qurbanına çevrilməməsi və onların hüquqlarının daha etibarlı müdafiəsi motivi əsas götürülməklə həmin əmələ görə cinayət məsuliyyətinin sərtləşdirilməsinə zərurət vardır. Təklif edirik ki, insan alveri cinayətinin yetkinlik yaşına çatmayan şəxslər barəsində törədilməsi bu cinayətin xüsusilə ağırlaşdırıcı əlaməti kimi CM-in 144-1.4.2-ci maddəsində təsbit edilməlidir.

CM-in 144-1.3.9-cu maddəsinin Məcəllədən çıxarılmasını ona görə məqsədəuyğun hesab edirik ki, zərərçəkmiş şəxsin orqanlarından və ya toxumalarından istifadə etmək məqsədilə insan alveri cinayətinin törədilməsi əslində maddənin qeydində və beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş «insanların istismarı» anlayışı ilə əhatə olunur. Başqa sözlə, bu əlamət CM-in 144-1-ci maddəsinin bütün bəndlərində nəzərdə tutulduğuna görə, onun Məcəllədə qalmasına ehtiyac görmürük.

Beləliklə, Cinayət Məcəlləsindən 144-1.3.3-cü və 144-1.3.9-cu maddələr çıxarılmalı və 144-1.3.4-144-1.3.8-ci maddələr müvafiq olaraq 144-1.3.3-144-1.3.7-ci maddələr hesab edilməlidir.

5. İnsan alveri cinayətinin törədilməsinin elə təzahürləri vardır ki, onlar əməlin ictimai təhlükəliliyini artırır, dövlətin, cəmiyyətin və ailənin əsaslarını daha güclü surətdə sarsıdır, bu cinayətin miqyasının genişlənməsinə, külli miqdarda maliyyə və insan resurslarının cinayət fəaliyyətinə cəlb edilməsinə şərait yaradır. Qeyd olunanları əsas götürərək hesab edirik ki, Cinayət Məcəlləsinə 144-1.3.8-144-1.3.10-cu maddələr əlavə edilməlidir:

«144-1.3.8. hüquqi şəxs yaratmaqla törədildikdə;».

«144-1.3.9. zərərçəkmiş şəxsin yaxın qohumu tərəfindən törədildikdə;».

«144-1.3.10. uşaq istismar məqsədilə övladlığa götürüldükdə;».

6. CM-in 144-1.3-cü maddəsi 144-1.4.1-ci maddə hesab edilməli və Məcəlləyə 144-1.4.2-ci və 144-1.4.3-cü maddələr əlavə edilməlidir:

«144-1.4.2. Bu Məcəllənin 144-1.1-ci, 144-1.2-ci və 144-1.3-cü maddələrində göstərilən əməllərin törədilmə üsulundan, istismara razılığın olub-olmamasından asılı olmayaraq yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə».

«144-1.4.3. əvvəllər insan alveri cinayətini törətməyə görə iki dəfə və ya daha çox məhkum edilmiş şəxs tərəfindən törədildikdə;».

Məcəlləyə 144-1.4.3-cü maddənin əlavə edilməsinin təklif olunmasında məqsəd insan alveri cinayətinin törədilməsində residivlik əlamətinin nəzərə alınması və təbii ki, cəzanın da sərtləşdirilməsi mövqeyidir.

7. Fikrimizcə, insan alveri cinayətinin bilavasitə səbəb və əlaqəli olduğu ictimai təhlükəli əməllərdən biri də bu cinayətin qurbanları olduğunu bilə-bilə həmin qurbanların xidmətlərindən istifadə edilməsidir. Qeyd olunan əmələin kriminallaşdırılmaması insan alveri cinayətinin törədilməsini doğuran şərtlərin qarşısının alınmaması demək olardı. Belə əməllərin kriminallaşdırılmasının zəruriliyi Avropa Şurasının 16 may 2005-ci il tarixli «İnsan alverinə qarşı mübarizə haqqında» Konvensiyasının 19-cu maddəsində də öz əksini tapmışdır (Azərbaycan Respublikası

11 may 2010-cu il tarixli, 1002-IIIQ nömrəli Qanunla həmin Konvensiyanı ratifikasiya etmişdir) (2).

7. İnsan alveri cinayətinin törədilməsinə görə qüvvədə olan CM-in 144-1.1-144-1.3-cü maddələrinin sanksiyalarını da yumşaq hesab etmək olar. Ona görə də sanksiyaların daha diferensial verilməsi yaxşı olardı.

Beləliklə, Cinayət Məcəlləsinin 144-1.1-ci, 144-1.3-cü və144-1.4-cü maddələrinin sanksiyası müvafiq olaraq aşağıdakı kimi verilməlidir:

«əmlakı müsadirə olunmaqla altı ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.».

«əmlakı müsadirə olunmaqla on ildən on üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.».

«əmlakı müsadirə olunmaqla on üç ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.».

Yekun olaraq Cinayət Məcəlləsinin 144-1-ci maddəsinin aşağıdakı redaksiyada verilməsini təklif edirik:

«Maddə 144-1. İnsan alveri

144-1.1. İnsan alveri, yəni zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla insanların alqı-satqısı və ya onlara sahibliklə əlaqədar digər əqdlərin bağlanması, yaxud onların istismar məqsədi ilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi (razılığının olub-olmamasından asılı olmayaraq uşağın alqı-satqısı və ya ona sahibliklə əlaqədar digər əqdlərin bağlanması, yaxud onun istismar məqsədi ilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi) əmlakı müsadirə olunmaqla altı ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

144-1.2. Bu Məcəllənin 144-1.1-ci maddəsində göstərilmiş üsullarla və ya bunsuz istismar məqsədilə cəlb edilmiş, əldə edilmiş, saxlanılmış, gizlədilmiş, daşınmış, verilmiş və ya qəbul edilmiş şəxsin istismar edilməsi –

əmlakı müsadirə olunmaqla səkkiz ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

144-1.3. Bu Məcəllənin 144-1.1-ci və 144-1.2-ci maddələrində göstərilən əməllər:

144-1.3.1. iki və ya daha çox şəxs barəsində törədildikdə;

144-1.3.2. təkrar törədildikdə;

144-1.3.3. təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadın barəsində törədildikdə;

144-1.3.4. qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə;

144-1.3.5. təqsirkar şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

144-1.3.6. həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədildikdə;

144-1.3.7. zərərçəkmiş şəxsə işgəncə verməklə və ya onunla qəddar, qeyri-insani, yaxud onun ləyaqətini alçaldan rəftar etməklə törədildikdə;

144-1.3.8. hüquqi şəxs yaratmaqla törədildikdə;

144-1.3.9. zərərçəkmiş şəxsin yaxın qohumu tərəfindən törədildikdə;

144-1.3.10. uşaq istismar məqsədilə övladlığa götürüldükdə əmlakı müsadirə olunmaqla on ildən on üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

144-1.4. Bu Məcəllənin 144-1.1-ci, 144-1.2-ci və 144-1.3-cü maddələrində göstərilən əməllər:

144-1.4.1. ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda;

144-1.4.2. törədilmə üsulundan, istismara razılığın olub-olmamasından asılı olmayaraq yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə;

144-1.4.3. əvvəllər insan alveri cinayətini törətməyə görə iki dəfə və ya daha çox məhkum edilmiş şəxs tərəfindən törədildikdə əmlakı müsadirə olunmaqla on üç ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.».

144-1.5. Şəxsin istismar məqsədilə cəlb edildiyini, əldə edildiyini, saxlanıldığını, gizlədildiyini, daşındığını, verildiyini və ya qəbul edildiyini bilə-bilə onun xidmətlərindən istifadə edilməsi min beş yüz manatdan iki min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya eyni müddətə müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Açar sözlər: insan alveri, zor tətbiq etmə, zor tətbiq etməklə hədələmə, insanların istismarı, Azərbaycan Respublikasının dövlət sərhədi, uşağın alqı-satqısı, uşağın istismar məqsədilə övladlığa götürülməsi və s.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası. Bakı, «Digesta», 2011.
2. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. 2010, № 5, maddə 384.
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi.

Бахруз КЕРИМОВ

ТОРГОВЛЯ ЛЮДЬМИ КАК СОСТАВ ПРЕСТУПЛЕНИЯ: АНАЛИЗ ЗАКОНОДАТЕЛЬСТВА, СОВЕРШЕНСТВОВАНИЕ НОРМ УГОЛОВНОГО ЗАКОНА

Резюме

В статье анализируется диспозиция статьи 144-1 Уголовного кодекса Азербайджанской Республики, предусматривающей уголовную ответственность за торговлю людьми. В ней сравнивается понятие «торговля людьми», предусмотренное в Уголовном Кодексе и Законе Азербайджанской Республики от 28 июня 2005 г. «О борьбе с торговлей людьми», а также выделяются положительные и отрицательные стороны обоих нормативных актов.

Автор выдвигает конкретные предложения по совершенствованию диспозиции статьи 144-1 Уголовного Кодекса Азербайджанской Республики, а также по согласованию этой статьи нормам международно-правовых актов в области борьбы с торговлей людьми.

Статья в целом направлена на достижение идеальной модели нормы Уголовного кодекса Азербайджанской Республики, предусматривающей уголовную ответственность за торговлю людьми.

Ключевые слова: торговля людьми, угроза применения силы, эксплуатация людей, государственная граница Азербайджанской Республики, покупка и продажа ребенка, усыновление ребенка с целью эксплуатации и т.д.

Bakhruz KARIMOV

COMPOSITION OF THE CRIME OF TRAFFICKING: AN ANALYSIS OF LEGISLATION, IMPROVEMENT OF THE CRIMINAL LAW

Summary

This article analyzes the disposition of Article 144-1 of the Criminal Code, stipulating criminal responsibility for trafficking persons. The paper compares the concept of trafficking under the Criminal Code and the Law of Azerbaijan Republic dated June 28, 2005 on «Combating Trafficking in Human Beings», as well highlights the positive and negative features of both normative acts.

The paper puts forward concrete proposals to improve the disposition of Article 144-1 of the Criminal Code, as well as to harmonize standards of this article, the international legal instruments to combat human trafficking.

The article in general is aimed at achieving an ideal model rules of the Criminal Code, stipulating responsibility for criminal trafficking.

Keywords: human trafficking, the use of force, threat of force, human exploitation, the state border of the Azerbaijan Republic, the purchase and sale of a child, adoption of a child for purposes of exploitation, etc.

UOT 32-027.21(091)

Mirafərim SEYİDOV
AMEA FSHİ,
a.e.i., hüquq üzrə f.d.

XV ƏSRDƏ AZƏRBAYCANDA DÜNYƏVİ QANUNVERİCİLİK VƏ HÜQUQ MƏNBƏLƏRİNİN ÜMUMİ XARAKTERİSTİKASI*

Hər bir dövlətin hüquq sistemi, qanunları və qanunvericiliyi araşdırılarkən dövrün hüquq mənbələri ətraflı öyrənilməlidir. XV əsrdə Azərbaycanda hüquq elmi, hüquq institutları, qanunvericilik sistemi əvvəlki dövrlərdə olduğu kimi fiqhin və onun əsas mənbələri olan Quran və Sünnənin bazasında formalaşmışdı. Bu təbii ki, dövrün hüquq mənbələrinə də öz təsirini göstərirdi. XV əsrdə Azərbaycanda hüquq mənbələrini xaraktekrizə edərkən ilk növbədə şəriət və onun əsas sahələri olan Quranın təfsiri, kəlam, fiqh və hədislərə istinad edilməlidir. Müsəlman hüquq mənbələri tədqiq edilərkən ilk növbədə islamın nəzəri əsası olan Qurani-Kərimdə toplanmış hüquq normaları əsas kimi götürülməlidir.

XV əsrdə Azərbaycanda islamın sünni və şiə qolları dominantlıq edirdi. Qaraqoyunlu dövlətində şiəlik məzhəbi üstün olduğu halda, Ağqoyunlu və Şirvanşahlarda sünnilik hakim mövqe tuturdu. Bununla bərabər qeyd olunmalıdır ki, Azərbaycan ərazisində mövcud olmuş dövlətlər arasında XVI əsrədək heç bir ciddi dini ixtilaf olmamışdır. İslamda məzhəb seçimi təbii ki, dövrün hüquq mənbələrinə, dövlətin siyasi, idarəçilik, maliyyə-vergi məsələlərinin həlli ilə bağlı qəbul edilən dünyəvi qanunvericilik aktlarına, şah və sultanların verdikləri fərmanlara da təsir göstərmişdir. XV əsrin hüquq mənbələrindən danışarkən ilk növbədə Əmir Teymurun «Tüzukəti-Teymuri» («Teymur Qanunnaməsi»), Uzun Həsənin «Qanunnamə»si, Gödək Əhmədin həyata keçirdiyi islahatları, Əbubəkr Tehraninin «Kitabi-Diyarbəkriyyə» əsərini, Cəlaləddin Məhəmməd Dəvaninin «Ərznamə» («Hərbi baxış kitabı») əsərini, dövrün hökmdarlarının ictimai-siyasi həyatın müxtəlif sahələrini əhatə edən fərman və təlimatlarını göstərmək olar.

Əmir Teymurun «Qanunnaməsi»* XV əsr Azərbaycan dövlətlərində öz təsirini qismən saxladığına görə əsas hüquq mənbələrindən biri kimi araşdırılmalıdır. Bu «Qanunnamə»dən əsasən dövlət idarəçiliyinin təşkili, müxtəlif səviyyəli dövlət məmurlarının vəzifə səlahiyyətlərinin müəyyən edilməsi, məhkəmə icraatı, ordu quruculuğu məsələlərində istifadə edilirdi. «Tüzukəti-Teymuri» əsərində dövlət quruculuğunun müxtəlif sahələrinə, məmur aparatının strukturuna, onun operativ və səmərəli işinin təşkilinə, məhkəmələrin fəaliyyətinə geniş yer ayrılmışdır. Əsərdə məmur aparatı iyerarxiyasında müvafiq yer tutan müxtəlif vəzifə sahiblərinə, məhkəmə qazilərinə, ordu başçılarına qarşı konkret tələblər irəli sürülür, onların fəaliyyətinin effektivliyinin artırılması yolları göstərilir. Əmir Teymur dini əsaslar üzərində qurulan dövlətdə qanunların aliliyinə böyük diqqət yetirir, qanunlara əməl edilməsini dövlətin məhək daşı hesab edirdi: «… əgər dövlət din və ayin üzərində qurulmazsa, qanun-qaydaya tabe olmazsa, bu səltənətin təntənəsi, qüdrəti və dözümü yox olacaqdır… Buna görə də mən səltənətimi islam dini, qanun və nizam əsasında qurdum. Səltənəti idarə edərkən rastlaşdığım hər hansı hadisəni, məsələni qanun və intizam əsasında yoluna qoydum». (3, s. 50).

«Tüzukəti-Teymuri» əsərində dövlət başçısının səlahiyyət və vəzifələri məsələsinə də geniş yer ayrılmışdır. Şübhəsiz ki, sonrakı dövrlərdə yaranmış dövlətlərin hökmdarları dünya tarixində

---

* Məqalə h.e.d. H.Qurbanov tərəfindən çapa məsləhət bilinib.

* Tarixi qaynaqlarda bu «Qanunnamə» «Tüzikəti-Teymuri» (Teymurun tüzikləri), «Məlfuzati- Teymuri» (Teymurun söylədikləri), «Vaqiəti- Teymuri» (Teymurun başına gələnlər) adlarıyla məlumdur. Bir sıra müəlliflər bu əsəri «Teymurun vəsiyyətləri» kimi də qələmə verir.

nəhəng şəxsiyyət olmuş Əmir Teymurun məsləhətlərindən istifadə etmiş, onun idarəçilik təcrübəsindən yararlanmışdılar. Əmir Teymur öz əsərində yazır:

1. Hökmdar gərək öz sözünün yiyəsi olsun, bildiyi işin arxasınca getsin,… başqalarının sözüylə iş görməsin;

2. Sultan hər bir şeydə ədalətli olmalı, yanında insaflı və ədalətli vəzirlər saxlamalıdır. Əgər padşah zülmkarlıq edərsə, ədalətli vəzir bu işin çarəsini tapmalıdır. Əgər vəzir zalım olarsa, çox keçməz ki, səltənətin evi yıxılar;

3. Bütün məmləkətdə buyruq-fərman vermək ixtiyarı padşahın özündə olmalıdır ki, hər işdə padşah özü hökm çıxartsın, heç kim onun işinə qarışıb, hökmünü dəyişdirməsin;

4. Padşah bir işi görmək qərarına gəlmiş olsa, həmin işin üzərində möhkəm dayansın, işi bitirməyincə ondan əl çəkməsin;

5. Nə cür hökm çıxarmış olsa belə, padşahın öz hökmünü yerinə yetirməsi zəruridir. Bir kəs, əgər padşahın hökmünü zərərli saymış olsa belə, padşaha maneçilik eləyə bilməməlidir;

6. Padşahlıq işlərini büsbütün başqasına tapşırmaq, ixtiyarı özgəsinin öhdəsinə buraxmaq olmaz… Əgər padşah öz səltənətinin ixtiyarını başqasına vermiş olsa, onun iştahından padşahlıq keçəcək, gözünü səltənətin taxtına yiyələnməyə tikəcək;

7. Səltənət işləri ilə bağlı olaraq hamının sözünü eşitmək, hər bir adamın fikrini öyrənmək lazımdır. Daha faydalı məsləhətləri könül xəzinəsində saxlamaq, məqamı çatanda xərcləmək lazımdır;

8. Səltənət işlərində, hərbi qulluqçularla, rəiyyətlə bağlı məsələlərdə başqalarının sözlərinə və əməllərinə baxıb, ölçü götürmək olmaz. Vəzirlər, əmirlər bir adamın haqqında yaxşı-yaman söz söyləmiş olsalar, onları dinləmək lazımdır, lakin ölçü götürəndə tələsmək olmaz, çatdırılan söz sınanmalı, yoxlanmalı, həqiqət ortaya gətirilməlidir;

9. Padşahın zəhmi hərbiçilərin və rəiyyətin ürəyində elə yer tutmalıdır ki, heç kəs onun əmrinin, fərmanının əleyhinə gedə bilməsin, ona itaət və tabeçilik göstərsinlər, başlarını qaldırmasınlar;

10. Padşah nə eləsə, öz iradəsincə eləməlidir., hər nə desə, sözünün üstündə möhkəm durmalıdır, çünki padşahların hökmlərindən başqa bəhrələnəcəkləri bir şey yoxdur. Padşahın padşahlığı hökmündədir. Xəzinə, qoşun, rəiyyət, səltənət – bunların hamısı onun hökmünə tabedir;

11. Səltənət məsələlərində və hökm yürütməkdə padşah özünü tək saymalıdır, heç kəsi özüylə bərabər səltənətə şərik etməməlidir;

12. Padşah məclis əhlindən agah olmalı və ayıq-sayıq olmalıdır ki, ətrafındakılar ondan daha çox ayıb axtararlar, səltənətin içinin sirrini bayıra çıxardarlar, padşahın sözünü, əməlini vəzirlərə, əmirlərə xəbər verərlər. (3, s. 62-63).

«Tüzukəti-Teymuri» əsərində hökmdarın qanunvericilik fəaliyyəti ən incə detallarınadək işlənmişdir. Hökmdarın müxtəlif hüquq institutları üzrə hökm və fərmanları da maraq doğurur. «Qanunnamə»də dövlətin iqtisadiyyatında mühüm rol oynayan karvan yollarının təhlükəsizliyinin qorunması, quldurluq hallarının qarşısının alınması, yolların mühafizəsinin təkmilləşdirilməsi məsələlərinə toxunulur, bu işlərin icrası üçün məsul şəxslərin vəzifə və səlahiyyət hüdudları müəyyən edilir. Konkret cinayət əməlinə, hüquq pozuntusuna görə müvafiq sanksiyaların tətbiq edilməsi tövsiyyə olunur: «Əmr etdim ki, rəiyyətdən zor ilə deyil, ağac vurmaq və şallaq zərbəsilə yox, qorxutmaqla vergi alsınlar. Əgər hakimin hökmü ağac və şallaq vurmaqdan daha az olsa, o, hakim hökmranlıq etməyə layiq deyildir. Əmr etdim ki, günahkardan cərimə alsalar, şallaq vurmasınlar. Şallaq vursalar cərimə almasınlar. Əmr etdim ki, övladlarımdan birisi şahlıq iddiasında olsa, onu öldürməyib, əl-ayağını bağlamayıb, bədən əzalarını naqis etməsinlər. Həbsdə saxlasınlar ki, öz iddiasından əl çəksin ki, Allah mülkündə fəsad törətməsin».(13, s. 108) (15, s 230-242). Əlamətdar haldır ki, qanun qarşısında hamının bərabərliyi prinsipi bəyan edilir: «Əgər böyüklər və məhəlli başçılar aşağı vəzifəli adama zülm etmiş olsalar, elədikləri zülmə müvafiq

olaraq onları cərimələsinlər. Əgər darğalar və hakimlər xalqa cəza versələr, zülm eləsələr, xalqı pisikdirmiş olsalar, həmin darğalara və hakimlərə tutduqları əmələ layiq cəza verilsin. Əgər bir kimsənin günahı sübuta yetiriləndən sonra onu cəriməyə salıblarsa, üstəlik onu zopa ilə döyməsinlər. Əgər onu zopa ilə cəzalandırıblarsa, ondan cərimə almasınlar» (3, s. 69).

«Qanunnamə»də şəxsiyyət və mülkiyyət əleyhinə, mənəviyyat və əxlaqa qarşı yönəlmiş cinayət törədənlərin, zinakarlıq edənlərin, cəmiyyətdə sosial narazılıq yaradan digər cinayət əməllərinin ciddi cəzalandırılmasına xüsusi diqqət verilir. Əmir Teymur bu barədə yazır: «Oğrular haqqında buyurdum ki, harada olur-olsun, kim onları tutub gətirsə, oğrular Yasanın tələblərinə müvafiq cəzalandırılsınlar. Hər kim başqasının malını əlindən zorla almış olsa, məzlumun malını zalımdan alıb, sahibinə qaytarsınlar. Əgər biri başqasının dişini sındırsa, gözünü kor eləsə, qulaq və burnunu kəssə, şərab içsə, zina işlər görsə, onu tutub divanxanadakı şəriət qazisinə, yaxud ehdas qazisinə tapşırsınlar. Şəriətə dair məsələlərin həllində hökmü islam qazisi çıxarsın, uruf-adət məsələlərini isə ehdas qazisi araşdırsın, sonra mənə çatdırsın». (3, s. 69). Göründüyü kimi şəriət məsələləri üzrə hökm çıxarılması islam qazilərinə tapşırıldığı halda, bədənə qəsdən xəsarət yetirmək, şərab içmək, zina etmək kimi cinayətlər üzrə şəriət yekun hökmün çıxarılması ürfi məhkəmələrə tapşırılırdı. Əmir Teymurun «Qanunnamə»sində irəli sürülən tələblərə XV əsrin dövlətlərində də əməl edilirdi. Burada göstərilən qanunvericilik müddəalarının əsas bazası dəyişməz qalmış, yalnız onun müəyyən tərəfləri bir qədər konkretləşdirməyə məruz qalmışdı.

XV əsr hüquq mənbələrindən biri də Ağqoyunlu hökmdarı Uzun Həsənin «Qanunnamə»sidir. Bu dövrdə Azərbaycanda Uzun Həsənin «Qanunnaməsi» xarakterik qanunvericilik aktı hesab olunurdu. (9, s. 213). 1470-1477-ci illər arasında tərtib edilən bu «Qanunnamə» Uzun Həsənin həyata keçirdiyi kardinal islahatların bazasını təşkil edirdi. Uzun Həsənin hakimiyyətinədək maliyyə sistemindəki qüsurlar, vergilərin müəyyən edilməsində və toplanmasında hökm sürən qanunsuzluq və özbaşınalıq dövlətin iqtisadi inkişafını ləngidir, əhalinin müxtəlif sosial təbəqələri arasında mərkəzi hakimiiyyətdən narazılığı artırırdı. Vergi və mükəlləfiyyətlərin qaydaya salınması, dəqiq sistemləşdirilməsi və bununla da özbaşınalıq hallarına son qoyulması zərurət halını almışdı. İ.P.Petruşevski haqlı olaraq yazır ki, Uzun Həsən əhalinin rəğbətini qazanmaq, yeni dövlətə rəğbətini təmin etmək üçün yeni qanunların verilməsinin zəruriliyini başa düşürdü. (12, s. 171).

Uzun Həsənin «Qanunnamə»sinin bir sıra maraqlı cəhətləri var idi. İlk növbədə dəftərxana kitabında qeydə alınmış, mülk sahiblərinin xidmətində olan kəndlilərin öz torpaqlarını tərk etmələri qadağan olunurdu. Kəndlilər bu torpaqları yalnız tam becərib başa çatdırandan sonra digər ərazilərə gedə bilərdi. Əks təqdirdə o əlavə töycü ödəməli idi. Torpağı becərmədən atıb gedən kəndlilər yeni torpaqdan əlavə həmin torpaq üçün də torpaq vergisi və töycü verməli idi. Hər kəndli ailəsi ildə 3 gün, qeyri-müsəlmanlar isə 10 gün biyar işləməli idilər. Biyar müddətinin və qaydalarının pozulması üçün də cərimələr müəyyən edilmişdi. Tranzit karvan yollarından və daxili ticarətdən toplanan vergilər də qaydaya salınmışdı. Vergilərin əyalət hakimləri tərəfindən mənimsənilməsinin qarşısı alındı və onlar barbaşa xəzinəyə daxil olurdu. «Qanunnamə»də şəxsi mülkiyyətin qorunması məsələlərinə xüsusi diqqət verilirdi. Belə ki, hər hansı bir kəndlinin təsərrüfat heyvanları digər bir kəndlinin bağ və ya bostanına, əkin sahəsinə zərər vurardısa, həmin mal-qara sahibinin cismani, yaxud maddi cəzalandırılması nəzərdə tutulurdu. Ümumiyyətlə, Uzun Həsənin «Qanunnamə»sində 44 növ vergi və mükəlləfiyyət müəyyən edilsə də, vergi sisteminin stabil inkişafı üçün şərait yaradılmış oldu.

Beləliklə, vaxtilə Qazan xanın həyata keçirdiyi islahatları Uzun Həsən də tətbiq etməklə Ağqoyunlu dövlətinin əsaslarını xeyli möhkəmləndirmiş oldu. Tarixçi Şərəfxan yazır ki, Uzun Həsən «… rəiyyətdən vergi almaq üçün elə bir qanun qoymuşdu ki, İran, Fars və Azərbaycan padşahları indi də (XVI əsrdə-müəl.) bu qanuna əməl edirlər». (14, s. 116-118). Y.Mahmudov Uzun Həsənin «Qanunnamə»si haqqında yazır: «… Uzun Həsən bir sıra islahatlar keçirdi. O, hərbi-köçəri əyanlara deyil, oturaq əhaliyə əsaslanmaq xətti götürdü. Cəmiyyətin əsası olan

istehsalçı kəndlilərin, habelə sənətkarların vəziyyətini nisbətən yaxşılaşdırmaq və bununla da məhsuldar qüvvələrin canlanmasını təmin etmək məqsədilə xüsusi «Qanunnamə» hazırladı. Sonralar «Həsən padşahın qanunları» adı ilə məşhurlaşan, hətta bütün XVI əsr boyu qüvvədə qalan bu «Qanunnamə»yə əsasən kəndlilərdən alınacaq vergilər müəyyənləşdirildi və onların miqdarı dəqiqləşdirildi. Vergi yığımı nisbətən sistemə salındı. Vergi yığan məmurların özbaşınalığı azaldıldı. Kəndlilərin, sənətkarların vəziyyəti müvəqqəti olsa da, yüngülləşdirildi. Nəticə etibarı ilə Uzun Həsənin qanunları ölkədə məhsuldar qüvvələri müəyyən dərəcədə canlandırdı, kəndli və sənətkarlardan alınan vergilərin birbaşa xəzinəyə axması təmin olundu. Dövlət iqtisadi cəhətdən xeyli qüvvətləndi». (10, s. 90).

Beləliklə Uzun Həsən hazırladığı bu Qanunnamə ilə yoxsul kəndli və sənətkar kütləsinin nəzər diqqətini mərkəzləşmiş dövlətə cəlb edə bildi.

Son dərəcə mükəmməl hazırlanmış «Qanunnamə» XVI əsrin I yarısında Səfəvilər dövlətində, hətta Osmanlı dövlətinin şərq vilayətlərində qüvvədə olmuşdur. (12, s. 153) (4, s. 200). Xüsusilə, Səfəvilər dövlətində Uzun Həsənin «Qanunnamə»si XVI əsrin ortalarınadək, yəni 1556-ci ildə Şah Təhmasib tərəfindən «Dəstur-ül əməl şah Təhmasib» adlı yeni qanunnamə verilənə qədər qüvvədə qalmışdı. «Qanunnamə»ni verməkdə Uzun Həsənin əsas məqsədi mərkəzi hakimiyyəti və inzibati aparatı möhkəmləndirmək, vergi sistemini tənzimləmək və dövlət xəzinəsinə daxil olan vergilərin miqdarını artırmaq idi. (7, s 39-40). Eyni zamanda Ağqoyunlu dövlətinin əsas gəlir mənbəyi olan xarici ticarətin tənzimlənməsi üçün yeni gömrük qaydaları tətbiq edildi. XV əsrin II yarısında Asiyanı Avropa ilə əlaqələndirən ticarət yolları Ağqoyunlu dövlətinin ərazisindən keçirdi. Bu karvan yollarının Qərbi Avropa ölkələrinin xam və toxunulmuş ipəklə, habelə başqa Şərq malları ilə təmin olunmasında böyük rolu var idi. Ağqoyunlu dövlətinin paytaxtı Təbriz şəhəri isə, demək olar, bu yolların hamısının qovşağında olmaqla, sanki Asiya-Avropa ticarətini tənzim edirdi. Uzun Həsənin fərmanı ilə bütün iri ticarət mərkəzlərində gömrükxanalar yaradılmışdı. (11, s. 12). Uzun Həsənin gömrük qanunlarından bir neçəsi görkəmli türk tədqiqatçısı Fəxri Dalsar tərəfindən nəşr edilmişdir. (6).

Cəlaləddin Məhəmməd Dəvvaninin «Ərznamə» («Hərbi baxış kitabı») əsəri də XV əsrin mühüm hüquq mənbələrindən hesab oluna bilər. H. 908 (1502-1503) cü ildə vəfat etmiş və Uzun Həsən sarayında yüksək vəzifələrdə olmuş Cəlaləddin Məhəmməd Dəvvani, Uzun Həsən ordusuna Bənde Əmir* səhrasında payız vaxtı baxış keçirərkən orada iştirak etmiş, ordunun sayı və silah təchizatı barədə ətraflı məlumat vermişdir. (2, s 15) «Ərznamə» də əsas diqqət hərbi quruculuq məsələlərinə yönəlsə də, Ağqoyunlu dövlətində inzibati idarə sistemi, idarəetmə aparatının müvafiq təsisatlarının bəzi xüsusiyyətləri, vəzifəli şəxslərin səlahiyyətləri haqqında fikirlər öz əksini tapmışdır.

Dövrün əhəmiyyətli hüquq mənbələrindən biri kimi Əbubəkr Tehraninin «Kitabi-Diyarbəkriyyə» əsəri göstərilməlidir. «Kitabi-Diyarbəkriyyə» istər həcminə, istərsə də məzmununa görə Ağqoyunlu dövlətinin və bütövlükdə araşdırılan dövrün tarixinə, hüququna dair ən qiymətli abidələrdən biri kimi qiymətləndirilməlidir. Əsərdə hökmdar səlahiyyətlərinin, dövlət məmurlarının hüquq və vəzifələrinin araşdırılmasına geniş yer verilir, vergi və mükəlləfiyyətlər, maliyyə sistemi, müxtəlif idarəçilik məsələləri barədə məlumatlara rast gəlinir. «Kitabi-Diyarbəkriyyə» əsasən siyasi hadisələrə həsr edilsə də, hökmdarlıq institutunun geniş işlənməsi baxımından diqqəti cəlb edir (5, s 28-280).

Dövrün hüquq mənbələri arasında hökmdar fərmanlarının, bir sıra normativ-hüquqi sənədlərin araşdırılmasının da böyük əhəmiyyəti vardır. Bu sənədlər də qanuni qüvvəyə malik olduqları və dövlətin siyasi-iqtisadi həyatında vacib rol oynadıqları üçün qanunvericilik bazasının öyrənilməsində xüsusi əhəmiyyətə malikdirlər. Uzun Həsəndən sonra digər Ağqoyunlu hökmdarları da bir sıra qanunlar və fərmanlar vermiş və islahatlar həyata keçirmişlər ki, bunları da

* Bənde Əmir Fars əyalətinin İstəxr adlı bölgəsində yerləşir.

dövrün hüquq mənbələri kimi təqdim etmək mümkündür. Belə ki, Ağqoyunlu Gödək Əhməd 1497-ci ildə mərkəzi hakimiyyəti möhkəmləndirmək məqşədi ilə bir sıra islahatlar həyata keçirmişdi. Mənbələrdə göstərilir ki, Sultan Əhməd əsas istehsalçı qüvvə olan rəiyyətin və əkinçilərin vəziyyətini yaxşılaşdıran bəzi qanunlar vermişdi. Məmurların əhalini incitməsinin qarşısı alınmışdı. Uzun Həsənin hakimiyyəti illərində möcud olan bir sıra vergilər və mükəlləfiyyətlər – ixracat, şiltaqat, biyar, adambaşı və ailəbaşı vergilər isə, ümumiyyətlə, ləğv edilmişdi. Cəmi 20-yə qədər vergi və mükəlləfiyyət ləğv edildi. Hərbi-köçəri feodal əyanlarının separatçılıq meyllərinin qarşısını almağa çalışan Gödək Əhməd daha radikal bir addım ataraq, əyanlara həmişəlik verilən soyurqalların ləğv edilməsi barədə xüsusi fərman da vermişdi. Soyurqal sahiblərinin məhkəmə, inzibati və vergi yığmaq hüquqları əllərindən alındı. Onların toxunulmazlığı aradan qaldırıldı, özlərinin soyurqal paylamaları qadağan edildi. Lakin əyanların mənafeyinə ağır zərbə vuran bu islahatlar son nəticədə Gödək Əhmədin devrilməsinə səbəb oldu. Ağqoyunlu şahzadəsi Qasım Mirzənin 1498-ci ildə verdiyi soyurqal fərmanında vergi və mükəlləfiyyətlərin adları sadalanır. Uzun Həsənin «Qanunnamə»sində nəzərdə tutulan 44 növ vergi və mükəlləfiyyət əvəzinə, cəmi 31 növ vergi və mükəlləfiyyətin adı çəkilir (8, s. 145).

Şirvan hökmdarlarının XV əsrə aid olan, bizə gəlib çatmış fərmanlarında əsasən hökmdar və feodal bəxşişlərindən, vəqf əmlakından, qala divarlarının, saray binalarının, sərdabələrin tikilməsindən söhbət açılır. Bu fərmanlarda dövlətin idarə üsulunun müəyyən cəhətləri nəzərə çarpmaqla, cəmiyyətin müxtəlif sosial təbəqələri, onların hüquqi vəziyyəti, bir sıra vergilər və mükəlləfiyyətlər, müvafiq hüquq institutları haqqında məlumatlara da rast gəlmək olar. Lakin bu məlumatlar son dərəcə kasad olduğundan konkret nəticələrə gəlməyə imkan vermir.

Şirvanın hökmdar fərmanlarının öyrənilməsi baxımından vəqf əmlakı və mütəvəlli vəzifəsi haqqında 1699-cu il fərmanı xüsusilə mühüm sənəddir. Belə ki, bu sənəddə I Xəlilüllahın oğlu şirvanşah Fərrux Yasarın 1490-1491-ci il vəqfnaməsinin mətninin əsli qalmışdır. Bu Şirvanşahların XV əsrdə müəyyən şərtlərlə türbəyə bağışladıqları vəqf əmlakının sadalandığı və dövrümüzədək gəlib çatmış yeganə vəqfnamə nümunəsidir. Vəqfnamə məqbərəyə verilən əkin yeri, üzüm bağları, meşə yeri feodal torpaq sahibliyinin xüsusi kateqoriyasını təşkil edir. Gəlirlərin bir hissəsinin xeyriyyə işlərinə, kasıbların ehtiyaclarının ödənilməsinə, dərvişlərin yedirdilməsinə sərf olunması tövsiyyə edilir. Habelə göstərilir ki, «… Hərbçilərə və varlılara, vəsait sahiblərinə ondan bəhrə və pay verməsinlər. Hakimlər, amillər, habelə divan və vəqf mübaşirləri qeyd olunan vəqflərin mütəvəllilərindən bir dinar pul və ya bir batman məhsul tələb etməsinlər…». Göründüyü kimi vəqfin gəlirlərinin böyük bir hissəsi mütəvəllilərə çatırdı. Dini vəzifələrin irsiliyi qaydasına görə həmin vəqf irsi mülkiyyətə çevrilirdi (1, s. 354-355).

Açar sözlər: Quran, Qanunnamə, Qanunvericilik, Ağqoyunlu, Fərman, Ərznamə.

İstifadə olunmuş ədəbiyyat

1. Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı. 1997.
2.Cəlaləddin Məhəmməd Dəvvani. Ərzi Sipahi Uzun Həsən. (Ərznamə) Tehran, 1335 (1956).
3. Əmir Teymurun vəsiyyətləri. Bakı, 1991.
4. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993.
5. Əbubəkr Tehrani. Kitabi Diyarbəkiriyyə. Ankara, 1962.
6. Fahri Dalsar. Türk sanayi ve ticaret tarihinde Bursada ipekçilik. İstanbul, 1960.
7. Ибрагимов Дж. Феодальные государства на территории Азербайджана в XB веке Баку, 1962.
8. İbrahimov C. Azərbaycanın XV əsr tarixinə dair oçerklər. Bakı, 1958.
9. İsmayılov X. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı, «Nurlan», 2006.

10 Mahmudov Y. Azərbaycan diplomatiyası. Bakı. 1996.
11. Mahmudov Y. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri. Bakı. 1986.
12. Петрушевский И. П. Государства Азербайджана в XV веке. Сборник статей по истории Азербайджана. Баку. 1949.
13. Seyidov M.N. XV yüzillikdə Azərbaycanda dövlət və hüquq. Bakı, «Nurlan», 2004.
14. Şərəfxan. «Şərəfnamə». II cild. SPb. 1862.
15. Tüzikat–i Teymuri. Təhriri Əbutalib Hüseyni-ye Torbəti be farsi. Əz ruye çape 1773 şəhre Oksford, Tehran, 1342 (1963).

Мирафирим СЕИДОВ

СВЕТСКОЕ ЗАКОНАДАТЕЛЬСТВО АЗЕРБАЙДЖАНА В XB ВЕКЕ И ОБЩАЯ ХАРАКТЕРИСТИКА ПРАВОВЫХ ИСТОЧНИКОВ

Резюме

«Светское законадательство Азербайджана в XB веке и общая характеристика правовых источников» настоящая статья посвящена одной из актуальных проблем государственности Азербайджана. Автор анализирует такие важнейшие источники рассматриваемой эпохи, как законадательства. Эмира Тэймура, Узун Гасана, «Книга Диярбекирские» Абубекр Техрани, «Книга военного осмотра» Джелаледдина Деввани. Научные выводы автора представляют большой научный и практический интерес.

Ключевые слова: Коран, Фирман, законодательство, свод законов, Аккоюнлу, Арзнаме.

Mirafirim SEIDOV

SECULAR LEGISLATION IN AZERBAIJAN IN THE XV th CENTURY AND GENERAL CHARACTERISTICS OF LAW SOURCES

The present article is dedicated to one of the actual problems of statehood in Azerbaican. The author analyses such importante sources of the considered epoch as legislations of Emir Teymur, Uzun Gasan, «Book of Diyarbekiriyya» by Abubekr Tekhrani, «Book of the military inspection» by Jalaladdin Devani. The scientific conclusions of the author present a great scientific and practical interest.

Keywords: the Koran, Firman, legislation, Code of Zaws, Akkoyunlu, Arznameh.

UOT 32-027.21(091)

Fikrət NƏBİYEV
AMEA FSHİ, b.e.i., fəlsəfə üzrə f.d.

HÜQUQİ TƏFƏKKÜRƏ KONSEPTUAL YANAŞMA VƏ AZADLIQ İDEYASI*

Bəşəriyyətin inkişaf tarixi sübut edir ki, hər bir fərdin daşıdığı əxlaqi, dini, siyasi və hüquqi dəyərlər daha çox ruhi-mənəvi tələbatlar əsasında müəyyənləşir.

Materializmə görə materiya, onun maddi əsas olan məhsuldar qüvvələr bütün hüquqi sistemlərin və dəyərlərin mütləq determinantı kimi çıxış edir, bazis əsas element kimi üstqurumu müəyyənləşdirmiş olur. Şübhəsiz ki, bu cür yanaşma fəlsəfi və hüquqi tədqiqatların metodoloji əhəmiyyətinə müəyyən təsir göstərir. Ümumiyyətlə, bütün humanitar elmlərin metodologiyasının müəyyənləşdirilməsində mühüm rol oynayır. Bununla belə ehtiraf edilməlidir ki, hüquqi təfəkkürün nəzəri, ideoloji, sosial və siyasi determinantları indiyə kimi yetərincə tədqiq edilməmişdir. Müasir dövrün hüquqi təfəkkürü əsasında hüququn sırf ruhi mənəvi ideoloji bir hadisə olduğu barədə fikirlər qəbul edildiyindən hüquqi təfəkkürün problemləri fərqli müstəvidə ciddi şəkildə araşdırılmalıdır. Tədqiqatın əsas istiqamətləri barədə dolğun təsəvvür yaratmaq üçün bəzi məqamları diqqətə çatdırmaq lazımdır.

İeremiya Bentama (XVIII əsr mütəfəkkiri) görə qanunverici orqan törədilmiş əməlin kriminallığını müəyyən edərək insanların davranışını arzu edilən istiqamətə yönəltmək istəyir. Hər bir ictimai təhlükəli əməl qanunla cəzalandırılmalıdır. O halda törədilmiş əmələ haqq qazandırmaq olar ki, onun tədbiq edilməsi ilə müqayisədə yetirilən zərər arasında fayda olsun. Müəllifə görə mənəvi-əxlaqi normaların köməyi ilə davranış qaydalarına əməl etmək mümkündürsə, onu cəza hədəsi ilə tənzimləməyə ehtiyac yoxdur.

İ.Bentam qanunların tədbiqi məsələsilə, məsuliyyətlə bağlı qanunların aydın verilməsinə, kriminallığın müəyyən edilməsi zamanı düzgün olmayan ifadələrdən istifadə edilməsinin əleyhinə olmuşdur. Müəllifə görə insanların öz şəxsi mənafelərinə qarşı törətdikləri əməllərə görə cinayət hüquqi yolla mübarizə aparmaq yolverilməz haldır. Belə ki, şəxsin müəyyən oyunlarla məşğul olması, sərxoşluq etməsi, ləzzət alması kimi hərəkətlərin kriminallığının müəyyən edilməsi nə dərəcədə düzgün olardı? Əvvəla həmin əməllərin qeydə alınması çətindir. Sonra isə törədilən əməlin yetirdiyi zərərdən az olması faktı vardır. Bu mənada əməlin yuxarıda göstərilən fakta əsasən kriminallığının müəyyən edilməsi düzgün olmayan nəticələrə gətirib çıxara bilər. Müəllif o dövrdə qüvvədə olan qanunlardan nigaha girməməyi, həddən artıq gözəl həyat tərzini, ümumi formada paltar geymə qaydalarını pozma kimi əməllərin kriminal əməl hesab edilməsinə qarşı çıxırdı (7, s.47).

O, hesab edir ki, insanlara başqalarının mənafeyinə ziyan vurmayacağı ölçüdə fəaliyyət azadlığı verilməlidir. Qanunun tədbiqi insanların bir-birinə və cəmiyyətə zərər vuracağı hallarda lazımdır.

İ.Bentam hər bir xalqın adət və ənənələrini güclü selə bənzədərək qeyd edir ki, qanun özünü belə bir selə qarşı qoymamalıdır. Müəllifin fikrincə qanunlar bəzən müəyyən zərərli adət və ənənələrə qarşı yönəldilə bilər. Ancaq, bu halda ehtiyatlı olmaq lazımdır, tədricilik gözlənilməlidir. O, qeyd edir ki, qanun ancaq ictimai rəyə əsaslanmamalıdır. Çünki ictimai rəyə əsaslanan qanun bu günlə yaşayan qanundur. Qanun eləcə də sabahın qanunu olmalıdır. Ona görə qanun ictimai rəyin tam təsiri altında olmamalı və eyni zamanda ondan

* Məqalə h.e.d. Ə.Hüseynov tərəfindən çapa məsləhət bilinib.

uzaqlaşmamalıdır (7, s. 67). Beləliklə, İ.Bentam öz hüquqi ideyaları ilə müasirlərindən fərqlənirdi.

İntibah dövrünün mütəfəkkiri Hobbs isə qeyd edir ki, sahil çayın qarşısını kəsmək üçün deyil, onu istiqamətləndirmək üçün olduğu kimi qanun da insanın azadlığını məhdudlaşdırmamalı və qanun daxilində onun azad fəaliyyəti üçün imkanlar yaratmalıdır. Qanun xalqa elan edilməlidir; cinayətlərin qarşısının alınmasına üstünlük verilməlidir; qanunla cinayət sayılmayan əmələ görə cəza tətbiq edilə bilməz; qanun qarşısında vətəndaşlar bərabər olmalıdır; cəza törədilən cinayətə uyğun tətbiq edilməlidir; cinayət törətmiş şəxsə verilən cəza onun ailə üzvlərinə tətbiq edilə bilməz; cinayət haqqındakı qanunda analogiyaya yol verilməməlidir. İngiltərədə burcua inqilabları dövründə yeni siyasi hüquqi ideyalardan biri levellernlərin, yəni bərabərlik tərəfdarlarının siyasi-hüquqi ideyalarıdır. Levellerlərin ideoloqu Con Lilbern (1618-1657) kəndlilərin və xırda burcuaziyanın tərəfdarı idi, çünki onlar feodal mütləqiyyətinin və iri zadəganların oliqarxiya hakimiyyətinə qarşı çıxırdılar. Lilbern qeyd edirdi ki, bütün hakimiyyət xalqa məxsusdur. Xalqın azad surətdə seçmək və seçilmək hüququ hər cür ədalətli idarəetmənin yeganə üsuludur. Levellernlər şəxsiyyət azadlığını, mülkiyyət hüququnu, vicdan və mətbuat azadlığını, sənaye və ticarət fəaliyyəti azadlığını, hamının məhkəmə və qanun qarşısında bərabərliyinin yaranması prosesini tədqiq edirdilər. Levellernlər qanunçuluğun daha yaxşı təmin edilməsi üçün qanunverici və icraedici hakimiyyətin ayrılıqda fəaliyyət göstərməsini səmərəli hesab edirdilər. Məqsəd isə burcua demokratik qanunçuluğunda demokratik hüquq və azadlıqları möhkəmləndirmək, bürokratik hakimiyyətin özbaşınalığını aradan qaldırmaq idi. Həmin dövrdə İngiltərədə siyasi fikirlə bağlı olan digər istiqamət Cerard Uinstenlinin adı ilə bağlıdır. O "Azadlıq qanunu" adlı əsərində parlamentə müraciətində qeyd edirdi ki, əsl azadlıq torpaqdan azad istifadə ilə bağlıdır (1, s.217-219).

V.N.Tatişevin (1686-1750) "Rusiya tarixi" adlı çox cildlik əsərində dövlət, hüquq və siyasət məsələləri araşdırılmışdır. Burada dövlətin mənşəyi, sosial bərabərlik, ədalət kimi məsələlər nəzərdən keçirilmişdir. Müəllif göstərirdi ki, insanın təbii vəziyyəti onun azadlığından və müstəqilliyindən ibarətdir. Ona görə də cəmiyyətin mənafeyi əsas götürülməli və bu əsasda heç kimin azadlığı məhdudlaşdırılmamalıdır. V.N.Tatişevə görə azadlıq zəkaya əsaslanmalıdır, yəni insan öz mənafeləri naminə itaətkar olmalıdırlar. Bu isə üç yolla: 1. təbii yolla, yəni insan təbiətən itaətkardır, 2. insanın iradəsinə görə və ya müqavilə əsasında, 3. məcburetmə yolu ilə təzahür edə bilər. V.N.Tatişev təhkimçilik hüququnu müdafiə edir və qeyd edirdi ki, körpə uşağı oda yaxınlaşdırmağa imkan vermək nə deməkdirsə, kəndliyə azadlıq vermək də o deməkdir. V.N.Tatişev Aristotelin təklif etdiyi üç həqiqi düzgün olan və üç qeyri həqiqi düzgün olmayan dövlət formalarını məqsədəuyğun hesab edir. Müəllifə görə yaxşı idarəetmə formasının seçilməsi hər bir ölkədəki spesifik şəraitlə bağlıdır. O, Rusiyadakı şəraiti nəzərə alaraq hesab edirdi ki, Rusiya üçün ən münasib dövlət forması mütləqiyyətdir və Rusiyanın ərazisi çox böyük olduğundan orada demokratiyanın mövcudluğu qeyri mümkündür, aristokratiyaya gəldikdə isə bu əsasda tarixi təcrübə olmadığına görə həmin idarəetmə formasını V.N.Tatişev Rusiya üçün qənaətbəxş hesab etmirdi (1, s.189-192).

İtaliyada burcua ideoloqu Cambattista Viko (1668-1744) belə hesab etmişdir ki, ayrı-ayrı ictimai hadisələr müəyyən vaxtlarda meydana gəlir və onları yaradan **mühit** mövcud olmaqda davam edir. Müəllif cəmiyyətin tarixini dövrlər üzrə dəyişməkdə davam edən qanunauyğun proses hesab edirdi. Onun hüquqa dair baxışları "Millətin ümumi təbiəti haqqında yeni elmin əsasları" kitabında şərh edilmişdir. Digər maarifçi ideoloqlardan onun fərqi ondadır ki, o dövlətin hüquqi təsisatlarının öyrənilməsini tarixi müqayisəli təhlil metodu və determinizm nəzəriyyəsi əsasında həll etmişdir. Vikoya görə tarixi inkişaf üç mərhələdən ibarətdir. Birinci mərhələ ilahi qüvvələrə əsaslanır. Bu dövrlərdə dövlət və hüquq olmadığından insanları Allahın iradəsini həyata keçirən kahinlər idarə etmişdir. İnsanların bir-birinə uyğun olmayan münasibətləri, mövqeləri qanunların və dövlətin yaranması üçün əsas olmuşdur. Viko təbii hüquq məktəblərinin, dövlətin

və hüququn mənşəinə dair mühakimələrin və dövlətin müqavilə əsasında yaranması haqqında olan nəzəriyyələrin əsassız olduğunu bildirir və belə qənaətə gəlir ki, hər bir dövlətin özünəməxsus yaranma səbəbləri olmuşdur.

İkinci mərhələdə dövlət aristokratiya hakimiyyəti formasında olmuşdur. Bu dövrlərdə hakimiyyətin ən amansız hüquq normaları tətbiq edilir. Bu hüquq normaları plebeylərə qarşı yönəldilmiş və kobud formada həyata keçirilən güc hüququdur. Bu mərhələ qəhrəmanlıq mərhələsi kimi qiymətləndirilir. Üçüncü mərhələyə demokratik idarəçilik sistemi aid edilir. Bu mərhələdə insana xas olan hüququ, azadlıq və suverenliyi təmin edən nümayəndəli monarxiya qərarlaşır. Bu dövrdə qəbul edilən düşünülmüş qanunlar insanların ümumi və xüsusi mənafelərini bir-biri ilə düzgün əlaqələndirir (1, s.188-189).

Hər üç mərhələnin sonu cəmiyyətin böhranı və tənəzzülü ilə başa çatır və sonda anarxiyaya gətirib çıxarır. Beləliklə, inkişaf yenidən primitiv birgə yaşayışı formasında yenidən mövcud olur.

İtaliyanın maarifçi ideoloqlarından olan Çezare Bekkariya (1738-1794)."Cinayətlər və cəzalar" adlı kitabına görə hüquq elminin banisi kimi şöhrət qazanmışdır. Bekkariya qeyd edir ki, insanlar daim müharibələrə məruz qalmış və təbii azadlıqlarının təmin edilməsinin nəticəsi olaraq, ümumi-rifah naminə birləşməyə məcbur olmuş və təhlükəsizliyin təmin edilməsi naminə öz azadlıqlarının müəyyən hissəsini qurban vermişlər. Məqsəd isə heç omasa azadlığın qalan hissəsindən sakit və təhlükəsiz şəraitdə istifadə etmək olmuşdur. İnsanların öz xoşbəxtlikləri naminə qurban verdikləri azadlığın əsasını ali hakimiyyət orqanlarının yaradılması təşkil edir. Bu hakimiyyət orqanlarının vəzifəsi isə ədalətli qanunlar verməklə insanların normal yaşamasını təmin etməkdir. Bekkariya insanların eyni cinayət əməlinə görə dövlətli və kasıb olmalarından asılı olaraq müxtəlif cəzalara məhkum edilmələrinin əleyhinə idi. Mütəfəkkir belə vəziyyətin ədalətsiz prinsiplərə əsaslandığını qeyd edir və o, ədalətin ilahi, təbii və insani olaraq üç növünü qəbul etdiyini bildirir. Ədalətin ilahi və təbii növü ilahi və təbii qruplara əsaslanır. İnsani ədalət isə - dövlət qanunları ilə həyata keçirilən müqavilə əsasında müəyyən edilir. Eyni zamanda o vaxtaşırı dəyişir və insanın ümumi rifahının yaxşılaşmasına xidmət edir. İnsani ədalət haqqında düzgün olmayan ideyalar isə ona gətirib çıxarır ki, dövlətin qanunları "bir qrup" insanın əlində silaha çevrilir. Bekkariya belə hesab edirdi ki, mövcud qanunlar yalnız zorakılığı ört-basdır etmək üçün lazımdır. Bütün bu haqsızlıqların səbəbini xüsusi mülkiyyətdə görən müəllif qeyd edir ki, qanunlar birinə hakimiyyət və gözəl yaşayış, digərinə isə yoxsulluq və hüquqsuzluq verir. Yuxarıdakı mülahizələrdən çıxış edən Bekkariya "Cinayətlər və cəzalar" adlı kitabında belə qənaətə gəlir ki, cinayətin səbəbləri sosial şəraitlə, insanların yoxsulluğu və onların mənafeyinin pozulması ilə bağlıdır. Ona görə də verilən cəzanın məqsədi yeni yaranmalı olan cinayətin qarşısını almağa və cinayətkarın düzgün yola qayıtmasına nail olmaqdan ibarətdir. Bekkariya feodalizm dövründə tətbiq edilən sərt cəzaların əleyhinə idi və ölüm cəzasının ləğv edilməsini istəyirdi. Eyni zamanda ölüm cəzasının fövqəladə şəraitdə, əsasən mövcud idarəetmə hakimiyyətinin saxlanması zərurəti olduqda və ya xalqın azadlığı uğrunda mübarizəsi ilə bağlı olduqda tətbiq olunmasını vacib hesab edirdi. Bütün başqa hallarda ölüm cəzasını ədalətsizlik hesab edən mütəfəkkirə görə ölüm cəzasına millətin vətəndaşla müharibəsi kimi baxırdı. Bekkariya ağır cinayət törətmiş şəxsi ölüm cəzası ilə deyil, ömürlük azadlıqdan mərhum etmə cəzası ilə cəzalandırılmasını daha düzgün hesab edirdi. Bekkariya cəmiyyətdəki bərabərsizliyin və sosial ədalətsizliyin maddi kökünü araşdırmağa cəhd edərək qeyd etmişdir ki, bunların səbəbini mülkiyyət hüquq münasibətlərində axtarmaq lazımdır. Müəllif sosial ədalətsizliyin aradan qaldırılmasını yalnız ağıllı hökmdarın xeyirxah əməlləri nəticəsində baş verəcəyini qeyd edir (2, s.214-219).

Monteskye «Qanunların ruhu» haqqındakı kitabında respublika idarəçilik formasına üstünlük verir. O, qeyd edirdi ki, Romada respublika idarəçilik formasının olması onun bütün başqa dövlətlərdən yüksəkdə durmasını şərtləndirir. Romanın süqutu prosesini isə orada azadlığın ləğv edilməsi ilə əlaqələndirir. Mütəfəkkir dövlətin və hüququn mənşəyi məsələsinə tarixi aspektdən yanaşaraq qeyd edir ki, qanunların və təsisatların müxtəlifliyi istibdad və zorakılığın

nəticəsi deyil, məhz müəyyən tarixi şəraitin nəticəsidir. Qanunların obyektiv xarakterli olması fikri Monteskyenin ən mühüm siyasi-hüquqi kəşfi sayılır. O, tarixi şəraitin, şeylərin təbiətinin hansı amillərlə şərtlənməsi probleminə də öz münasibətini bildirmişdir. Mütəfəkkir hər bir xalqın əxlaqi simasının coğrafi mühitlə şərtlənməsi fikrini irəli sürmüşdür. Monteskyeyə görə hər bir xalqa məxsus olan qanunların xarakteri iqlim, torpaq, yer səthinin quruluşu, ərazinin böyüklüyü kimi coğrafi amillərlə müəyyən edilir. Mütəfəkkirin qanunların təbiətinə dair fikirləri onun böyük nailiyyəti sayılır. O, həyat vasitələrinə nail olmaq üsulunu coğrafi mühitlə bağlayırdı. Monteskye hesab edirdi ki, təbii qanunlar hələ cəmiyyət yaranmamışdan əvvəl mövcud olmuş və cəmiyyətin təşəkkülü müəyyən dəyişikliklərə səbəb olmuşdur. O, həmin qanunlara bərabərlik, sülh, yaşamaq arzusu kimi məsələləri aid edirdi. Mütəfəkkirə görə, insanlar təbii vəziyyətdən uzaqlaşır və beləliklə də bərabərlikdən və sülhdən uzaqlaşmış olurlar. Ona görə də insanlar arasında münaqişələr və müharibələr baş verir. Müəllif belə bir cəhəti də qeyd edir ki, insanlar arasındakı ziddiyyətlər, xüsusilə münaqişə və müharibələr düzgün müsbət qanunların yaranmasına səbəb olur. Müəllifə görə nəticədə təbii vəziyyətlərdən çıxan insanlar cəmiyyətdə yaşadıqları dövrlərdə hüquq qaydalarının yaranmasına tələbat hiss edirlər. Beləliklə, xalqlar arasındakı münasibətləri nizama salan beynəlxalq hüquq, idarə edənlərlə idarə olunanlar arasındakı münasibətləri nizamlayan siyasi-hüquq və vətəndaşlar arasındakı münasibətləri qaydaya salan mülki hüquq yaranır. Monteskye qanunların yaradılması zamanı coğrafi amillərin rolunu, ilk növbədə isə iqlim şəraitini nəzərə almağı məsləhət görürdü. Mütəfəkkirə görə isti iqlim istibdad-despot idarəçilik sisteminin, soyuq iqlim isə azadlığın qərarlaşmasını şərtləndirir. O, eyni zamanda iddia edirdi ki, cəmiyyətdə qərarlaşan hər hansı dövlət forması qanunların məzmununa və onların həyata keçməsinə həlledici təsir göstərir. Mütəfəkkirə görə qanunlar eyni zamanda mövcud hökumətin təbiətinə, prinsiplərinə uyğun olmalıdır. Bütün bunlarla bərabər müəllifin fikrincə dövlət idarəçilik formaları da onların müəyyən olunduğu ərazinin miqyası ilə də bağlı təşkil edilir. Başqa sözlə, kiçik dövlətlərdə respublika, orta miqyasda olan dövlətlərdə monarxiya, böyük dövlətlərdə isə istibdad idarəetmə forması təşkil edilməlidir.

Monteskye qanunlara ciddi riayət olunması məqsədilə qanunverici, icraedici və məhkəmə hakimiyyətinin zəruriliyini qeyd edirdi. O, monarxiyanın əksi olan xalq hakimiyyətinin yaradılmasını istəyirdi. Qanunla monarxiyanı məhdudlaşdıran idarəçilik forması İngiltərədə yaradılmış konstitusiyalı monarxiya hesab edilirdi. Mütəfəkkirə görə monarxiya siyasi azadlığı həyata keçirmək iqtidarına malikdir. Azadlıq qanunlar əsasında həyata keçirilən hər cür hərəkət etmək hüququdur. Azadlıq qanunçuluğa, təhlükəsizliyə təminat verilməsində vətəndaşın inamını müəyyən edir.

Azərbaycanın görkəmli mütəfəkkiri M.F.Axundov azadlığı insanın təbii hüququ hesab edirdi. Müəllifə görə insan azadlığı üçün onun tam təmin olunması lazımdır. Buradan da o belə nəticəyə gəlirdi ki, insanın hüququnu pozan cəmiyyət məhvə məhkum edilməlidir. O, xalqa zülüm edən feodallara qarşı çıxaraq qeyd edirdi ki, xalqın soyulmasına, onlara zülm edilməsinə səbəb cəmiyətdə adi qanunların olmamasıdır. Müəlifə görə zülmü aradan qaldırmaq üçün ya zalım zülmdən əl çəkməli, ya da məzlum zülmə dözməlidir. Təfəkkürümüzə görə zülmü dəf etməkdə bu iki yoldan başqa heç bir yol yoxdur. Ədaləti yerinə yetirmək və zülmü aradan qaldırmaq üçün millətin özü elm sahibi olmalı, yekdillik və ittifaq əsasında zalıma deməlidir ki, səltənət və hökumət busatından əl çək (3, s.310).

Marksist təlimə görə dövlət hüquqdan yüksəkdə durur və o hakim sinfin iradəsini əks etdirir.

Lakin hüququn dövlətdən əvvəl yaranması məsələsi tarixi faktlara əsaslanmır. Dövlət yaranmamışdan əvvəl hüququn şüurda və davranışda mövcudluğu fikri qəbul edilə bilməz. Şüurda və davranışda yaşayan hüquq deyil, hüquqi şüurdur.

Hüququn dövlətdən yüksəkdə durması haqqında mülahizələr o vaxt qəbul edilə bilər ki, dövlət hakimiyyət orqanları həmişə hüquqi normativ aktlara riayət etmiş olsun. Belə hal isə real qəbul edilmir.

Bu məsələyə aid problemin həlli praqmatik modelə əsaslanır. Bu konsepsiyaya əsasən hüquqi dövlət yaradır, ancaq dövlətin fəaliyyəti yalnız hüquqla bağlı olur. Bu forma liberal konsepsiyaya uyğun olsa da daha çox reallıqdan xəbər verir (4, s. 7-9).

Burada hüququ dövlət yaradır ifadəsi onu göstərir ki, hüququn dövlət tərəfindən yaradılması nəzərdə tutulur. Dövlət hüquqla bağlıdır ifadəsi isə onu qeyd etməyə əsas verir ki, hüquqi normalar vətəndaşlar, onların yaratdıqları birliklər, dövlət orqanları, vəzifəli şəxslər üçün də məcburidir.

Azərbaycan Respublikasının Konstitusiyasının preambulasına və cinayət məcəlləsinin 8-ci maddəsinə əsasən qanunlar Konstitusiyanın müddəalarına zidd ola bilməz. Qanunların tətbiqi və icrası bütün vətəndaşlar, icra və məhkəmə hakimiyyət orqanları, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir. Yəni, dövlət özünün qəbul etdiyi qanunları pozmamalıdır. Bununla bərabər qəbul etdiyi qanunları lazım bildikdə dəyişdirə və ləğv edə bilər (5, s.3).

Dövlət özünün qanunvericilik orqanı tərəfindən yaratdığı hüquqi normativ aktlarında cəmiyyətdə ədalətlilik prinsipi əsasında formalaşmış fikirləri təsbit edir (6, s.23).

Hazırda ictimai hüquqi şüurda hüququn mənəvi anlamı əsas kimi qəbul edilir. Yeni təşkil edilən cəmiyyətdə hüquq sisteminin yenidən qurulması başa çatdırılmamışdır. Bazar iqtisadi münasibətləri ilə uyğunlaşmayan qanunların hələ də qüvvədə olması şəraitində qanunçuluğun həyata keçirilməsinə cəhd edilir. Bu gün hüququ tətbiq edən vəzifəli şəxslərin şəxsi mövqeyindən (əhval-ruhiyyəsindən) asılı olması haqqında təsəvvür cəmiyyətin hüquqi şüurunda hakim rəyi formalaşdırmışdır. Hüququn qanunla mühafizəsinə yönəldilmiş etibarsızlığın təsirindən insanlar çox vaxt pozulan hüquqlarının bərpası üçün hüquq mühafizə orqanlarına deyil, vəzifədə olan dostlarına, mətbuat orqanlarına müraciət edirlər.

Yuxarıda araşdırılan problemin həlli göstərir ki, hələlik hüquq elmi öz inkişafının istiqamətini praktiki olaraq müəyyən edə bilməmişdir. Nəzəri təlimlərin heç biri sona qədər elmi əsasda işlənib hazırlanmamışdır.

Beləliklə, hüquqi təfəkkürə konseptual yanaşaraq aşağıdakı nəticəni əldə etmiş olarıq.

Hüquqi təfəkkürün predmeti kimi çıxış edən pozitiv hüquq maddi səbəblərdən daha çox ruhi-mənəvi səbəblərlə bağlıdır. Odur ki, hüquqi təfəkkürün genezisini təşkil edən azadlıq və ədalət, humanizm və bərabərlik ideyalarının uyğun nəzəriyyələrini hüquqi təfəkkürün əsas determinantları kimi tədqiq etməsi qarşıya məqsəd qoyulmuşdur. Məlumdur ki, hüquq azadlığın ölçüsü kimi çıxış edir və bizim davranışımızı müəyyən çərçivədə saxlamaqla azadlığımızı təmin edir. Deməli, azadlığın məhdudlaşdırılması ədalətli və humanist olmalıdır. Əgər bu qanunauyğunluq hüquqyaratma prosesində rəhbər tutulmazsa, onda pozitiv hüquq öz funksiyasını nəinki yerinə yetirə bilməz, üstəlik cəmiyyətin inkişafına mane olan ciddi problemlər yaradar.

Açar sözlər: hüquqi sistemlər və dəyərlər, hüquqi təfəkkür, azadlıq ideyası, maddi səbəbli əlaqə prinsipi, təbii hüquq nəzəriyyəsi, idarəçilik sistemi.

İstifadə olunmuş ədəbiyyat

1. Əfəndiyev M. Siyasi və hüquqi təlimlər tarixi. Bakı, «Elm», 2009.
2. Беккария Ч. О преступлениях и наказаниях. М., 1939.
3. Axundov M.F. Əsərləri. II cild, Bakı, 1988.
4. Кудрявцев В.Н. О правопонимании и законности. //Государство и право. М., 1994, № 3.

5. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun, 2011.
6. Лившиц Р.З. Современная теория права. М., 1992.
7. Иеремия Бентам. Принципы законодательства. О влиянии условий времени и места на законодательства. М., 1896.

Фикрет НАБИЕВ

КОНЦЕПТУАЛЬНЫЙ ПОДХОД К ПРАВОВОМУ МЫШЛЕНИЮ И ИДЕЯ СВОБОДЫ

Резюме

Идеи свободы, справедливости, гуманизма и законности существуют давно. В период Возрождения на основе утопических, демократических и гуманистических идей были созданы классические школы права. Эти правовые идеи выступали в качестве фундамента для будущих законов государств, опережая социально-правовое суждение на несколькие века.

«Декларация о правах и свободах человека и гражданина» 1789 года была основана именно на этих идеях. Для реализации функций права используются принципы законности, равенства перед законом справедливости и гуманизма. Эти принципы опираются на историческую практику человечества и обладают общечеловеческими ценностями.

Ключевые слова: правовые системы и ценности, правовое мышление, идея свободы, принцип связи с материальной причиной, теория естественного права, система управления.

Fikret NABIYEV

THE CONSEPTUAL APPROACH TO LEGAL THINKING AND IDEA OF FREEDOM

Summary

The ideas of liberty, custice, humanity and custice are long. During the period of Revival, the classic law schools based on the utopian, democratic and humanistic ideas were created. These legal ideas came out as a foundation for future laws of the States ahead of the socio-legal opinion for some centuries. "Declaration of Rights and Freedoms of the Human and Citizen" in 1789 was based on these ideas. To implement the functions of law there were used the principles of legality, equality before the law, custice and humanism. These principles rely on historical practice of the mankind and bear human values.

Keywords: law systems and values, legal thinking, idea of freedom, the principle of link with material reason, conception of natural right, governing system.

УДК 343.1

Наил МАМЕДОВ
ИФСП НАНА,ст.н.с,
д.ф.по праву

ИЗВИНИТЕЛЬНОЕ ПРЕВЫШЕНИЕ ПРЕДЕЛОВ НЕОБХОДИМОЙ ОБОРОНЫ*

Согласно ч. 3 ст. 36 УК Азербайджанской Республики превышением пределов необходимой обороны признаются умышленные действия, явно не соответствующие характеру и степени общественной опасности посягательства.

Исходя из закона, одним из признаков определения превышения пределов необходимой обороны является явное несоответствие между защитой и посягательством.

По этому вопросу в юридической литературе высказаны различные точки зрения.

Так, по мнению Р.Р.Галиакбарова, « под явным несоответствием защиты характеру и степени общественной опасности посягательства понимается причинение нападающему чрезмерного, не вызываемого в сложившихся обстоятельствах необходимостью, тяжкого вреда здоровью либо смерти» (1, с. 283).

«Явными, с точки зрения А.Н.Игнатова, будут очевидные, значительно превосходящие по интенсивности, средствам, характеру вреда действия защищающегося, не вызванные необходимостью защиты» (2,с.317).

По утверждению Ф.Ю.Самандарова, явность между защитой и посягательством при превышении пределов необходимой обороны предполагает внешнее различие между одним и другим вредом. Такое несоответствие со всей очевидностью ясно обороняющемуся лицу (3, с. 294).

По мнению В.В.Орехова, ни закон, ни судебная практика не дают каких-либо четких и ясных критериев явного, очевидного несоответствия защиты характеру и опасности посягательства (4, с. 83).

В частности, он считает неудачным такой критерий отграничения превышения пределов необходимой обороны от правомерной, выдвинутый еще в советское время как несвоевременную оборону, когда обороняющийся превышает временные границы необходимой обороны против не начавшегося («преждевременная» необходимая оборона), или завершённого нападения («запоздалая» необходимая оборона»).

Критикует В.В.Орехов и предложение А.Н.Попова о возможности отграничения правомерной обороны от превышения ее пределов, исходя из категорий преступлений, так как при наличии посягательств небольшой или средней тяжести вполне возможна защита с причинением тяжкого вреда здоровью посягающему, которая относится к категории тяжкого или особо тяжкого преступления.

Не соглашается В.В.Орехов и с другой рекомендацией А.Н.Попова, который рассматривает как превышение пределов необходимой обороны случаи причинения смерти или тяжкого вреда здоровью посягающего если можно было пресечь эти посягательства иным способом. По мнению В.В.Орехова, это предложение ограничивает право граждан на активную борьбу с преступлениями.

Критерий интенсивности, выдвигаемый рядом авторов, с точки зрения В.В.Орехова, также имеет недостаток, ибо «для его установления требуется детальное исследование и сопоставление всех конкретных обстоятельств дела, включая, в частности, объекты посягательства и защиты, физические силы участников события, их вооруженность, место

* Məqalə hüquq üzrə f.d. R.Gülalıyeva tətəfindən çapa məsləhət bilinib.

и время события и т.д., т.е. всего того, на основании чего на практике делаются выводы о правомерности необходимой обороны, либо о превышении ее пределов» (4, с. 87).

Исходя из вышеизложенного, ссылаясь на В.Ф.Кириченко, В.В.Орехов совершенно правильно отмечает что определение превышения пределов необходимой обороны – это вопрос факта, т.е. только на основании анализа и оценки всех конкретных обстоятельств дела можно определить пределы необходимой обороны (4, с. 87).

Некоторые авторы предлагают исключить или ограничить институт превышения пределов необходимой обороны в законодательстве. Такую точку зрения, в частности, высказывает В.В.Меркурьев. «...Исключение института превышения пределов необходимой обороны из УК, - пишет В.В.Меркурьев, – возродит в целом институт необходимой обороны: граждане в случае необходимости защиты правоохраняемых интересов от общественно опасных насильственных посягательств, названных непосредственно в норме закона, будут использовать свое субъективное право, твердо веря в правомерность своего поведения и не опасаясь привлечения к уголовной ответственности за последствия, причиненные посягающему оборонительными действиями» (5, с. 119). По его мнению, «право на необходимую оборону не должно быть урезанным, ограниченным неопределенными пределами. Это право должно быть полным и безусловным» (5, с. 116). Он отмечает, что следует исключить институт превышения пределов необходимой обороны из законодательства, когда речь идет о защите от агрессивно-насильственных посягательств. С его точки зрения, причинение смерти посягающему допустимо только при условии, если общественно опасное посягательство представляет собой опасность непосредственного лишения жизни обороняющегося или третьего лица, а также при защите от общественно опасных посягательств, представляющих собой: похищение человека, незаконное лишение свободы при отягчающих признаках, изнасилование или насильственные действия сексуального характера, нападение на граждан с проникновением в их жилище или обитаемое помещение, насильственный грабеж или разбой, вымогательство при отягчающих обстоятельствах, неправомерное овладение автомобилем, сопряженное с насилием, опасным для жизни или здоровья, терроризм, захват заложника, бандитизм, особо злостное хулиганство, вооруженный мятеж, диверсия, применение насилия в отношении представителя власти и некоторые другие насильственные посягательства (5, с. 118).

Следующим признаком превышения пределов необходимой обороны является наличие умысла.

Как известно в советской юридической литературе вопрос о характере субъективной стороны превышения пределов необходимой обороны долгое время относился к одному из дискуссионных. Одни авторы считали, что превышение пределов необходимой обороны предполагает лишь наличие умышленной вины (А.А.Пионтковский, И.С.Тишкевич, М.Д.Шаргородский). Другие, наоборот, считали, что при совершении этих преступлений возможна только неосторожная вина (М.И.Якубович, В.П.Гахраманов). Наконец, третьи полагали, что при совершении указанных преступлений возможна как умышленная, так и неосторожная вина (В.Ф.Кириченко и И.И.Слуцкий).

Новый УК Азербайджана положил конец длительной дискуссии о субъективной стороне превышения пределов необходимой обороны. Согласно ч. 3, ст. 36 УК Азербайджанской Республики превышением необходимой обороны признаются умышленные действия, т.е. такие, при которых лицо осознает общественно опасный характер своего поведения, предвидит общественно опасные последствия, желает, либо сознательно допускает их наступление.

Такое умышленное превышение необходимой обороны противоправно и поэтому влечет за собой уголовную ответственность.

В двух случаях превышение пределов необходимой обороны рассматривается как самостоятельное преступление: это умышленное убийство при превышении пределов необходимой обороны (ст.123.1. УК Азербайджанской Республики) и умышленное нанесение тяжкого вреда здоровью при превышении пределов необходимой обороны (ст.130.1. УК Азербайджанской Республики). Санкции этих статей значительно мягче по сравнению с санкциями за соответствующие преступления, совершенные вне связи с необходимой обороной.

Одним из недостатков нового УК Азербайджана является то, что в нем не учитывается психическое состояние обороняющегося, вызванное посягательством. В то время как превышение пределов необходимой обороны может сопровождаться состоянием сильного душевного волнения и может служить основанием для освобождения обороняющегося от наказания вследствие отсутствия вины.

По нашему мнению, это положение удачно закреплено в § 33 УК ФРГ («Превышение необходимой обороны»), согласно которому, если лицо превышает пределы необходимой обороны из-за замешательства, страха или испуга, то оно не наказывается. Иными словами, такое превышение пределов необходимой обороны является извинительным.

Не учитывает психического состояния обороняющегося, вызванное посягательством при превышении пределов необходимой обороны, в принципе и новый УК России. Ч. 2. 1., ст. 37 УК РФ в редакции Федерального Закона от 8 декабря 2003 г. указывает, что превышения пределов необходимой обороны не будет, если лицо вследствие неожиданности посягательства не могло объективно оценить характер и степень опасности нападения. Не указывется в силу каких субъективных причин лицо не могло объективно оценить степень и характер опасности нападения, иными словами не указывается состояние лица, обусловленное в данном случае неожиданностью посягательства.

В.В.Орехов вполне справедливо по этому поводу пишет: "... не самое неожиданное посягательство вызывает состояние, когда обороняющийся не может объективно оценить характер и опасность нападения и превышает пределы необходимой обороны, а вызванное им состояние испуга, страха, чувство сильного душевного волнения. И это должно быть основанием для освобождения обороняющегося от уголовной ответственности» (4, с. 92). Следует отметить, что аналогично гласил законопроект о дополнении ст. 37 УК РФ, представленный в 2002 г. в Государственную Думу: „Не являются превышением пределов необходимой обороны действия обороняющегося, вызванные волнением, страхом или испугом вследствие неожиданности посягательства». Однако, к сожалению, впоследствии этот законопроект не был принят.

На основании изложенного, предлагаем закрепить в УК Азербайджанской Республики норму об извинительном превышении пределов необходимой обороны и изложить содержание этой нормы в следующей редакции: „Если лицо превышает пределы необходимой обороны из-за замешательства, страха или испуга, то действует без вины".

Превышение необходимой обороны является извинительным при наличии двух условий. Первое условие состоит в том, что превышение необходимой обороны должно быть интенсивным, когда обороняющийся превышает пределы необходимой защиты. Под превышением пределов необходимой защиты имеется в виду такое несоответствие защиты характеру и опасности посягательства, при котором вне всякого сомнения, было видно что обороняющийся имел возможность отразить нападение более мягкими средствами, но не воспользовался ею.

При экстенсивном превышении необходимой обороны, когда обороняющийся превышает временные границы необходимой обороны против не начавшегося («преждевременная» необходимая оборона) или завершённого нападения («запоздалая» необходимая оборона»), право на необходимую оборону отпадает.

Это объясняется тем, что если посягательство ещё не началось или уже окончилось, то нет того, против чего допустима оборона, следовательно, нет и состояния необходимой обороны.

Второе условие заключается в том, что причиной такого интенсивного превышения необходимой обороны должно быть замешательство, страх или испуг (так называемый астенический аффект). Это связано с тем, что обороняющийся, превышая пределы необходимой защиты в состоянии замешательства, страха или испуга, вызванного посягательством не может точно взвесить характер и степень опасности посягательства и не проявляет никакого опасного, враждебного правопорядку настроения, следовательно не должен подлежать наказанию из-за отсутствия вины.

Ключевые слова: преступление, превышение пределов необходимой обороны, сильное душевное волнение, посягательство.

Список использованной литературы

1. Уголовное право России. Общая часть. (Под ред. Л.Л.Кругликова) М., 1999.
2. Курс Российского уголовного права. Общая часть. Т. 1. (Под ред. А.Н.Игнатова и Ю.А.Красикова) М., 2001.
3. Ф.Ю.Самандаров. Уголовное право. Общая часть. Баку. 2007.
4. В.В.Орехов Необходимая оборона и иные обстоятельства, исключающие преступность деяния. СПб., 2003.
5. В.В.Меркурьев. Состав необходимой обороны. СПб., 2004.

Nail MƏMMƏDOV

BAGIŞLANMALI OLAN ZƏRURİ MÜDAFİƏ HƏDDİNİN AŞILMASI

Xülasə

Məqalədə cinayət hüququnda zəruri müdafiə həddinin aşılması təhlil edilir.

Müəllifin fikrinə görə zəruri müdafiə həddinin aşılması çox vaxt güclü ruhi vəziyyətində törədilir. Bu da cəzadan azad edilməsinə səbəb ola bilər.

Müəllifə əsasən bu müddəa Almaniya Federativ Respublikasının Cinayət Məcəlləsinin 33 Paraqrafında uğurla təsbit edilmişdir. Bunu nəzərə alaraq müəllif Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə bağışlanmalı olan zəruri müdafiə həddinin aşılması haqqında normanın daxil edilməsini təklif edir.

Açar sözlər: cinayət, zəruri müdafiə həddini aşma**,** güclü ruhi vəzıyyəti, bagışlama, qəsd.

Nail MAMMADOV

EXCUSABLE EXCEEDING THE LIMITS OF NECESSARY DEFENCE

Summary

Exceeding the limits of necessary defence is analysed in the article. According to the author exceeding the limits of necessary defence in many cases occurs in a strong emotional state. It may be a ground for discharding defender from punishment. To the authors′ thought this position is successfully embodied in the paragraph 33 of the Criminal Code of Germany. Taking into account the above mentioned the author proposes to include the norm of exceeding the limits of necessary defence as excuse into the Criminal Code of Azerbaijan Republic.

Keywords: crime, exceeding the limits of necessary defence, excuse, infringement.

УДК 340.12

Ильхам АЛИЕВ
ИФСП НАНА, м.н.с.

К ВОПРОСУ РЕЛИГИОЗНЫХ НОРМ В ОБЩЕСТВЕ*

Общеизвестно, что религиозные нормы, содержащиеся как в Библии, так и в источниках шариата не исчерпываются чисто догматическими и культовыми вопросами, предопределяющими внутренний мир верующего (или полагающего себя таковым), его религиозную совесть. Не меньше, а возможно даже больше в религиозных источниках уделяется внимание вопросам и проблемам повседневной жизни людей. Различные религиозные учения являются не только определенными идеологиями, религиозно-этическими учениями, но и в значительной степени - особой культурой, цивилизацией. Определяя специфику регулирования социальных явлений посредством воздействия на них религиозных норм, необходимо иметь в виду главную особенность - влияние религии на общественную жизнь в качестве духовного фактора. В принципе, данная черта регулятивного процесса свойственна и праву, и другим духовным, идеологическим формам и средствам (агитации, пропаганде, воспитательной и образовательной деятельности и т.д.) (1, с.209). Вместе с тем рассмотрение механизма регулирования общественных отношений посредством религиозных норм должно учитывать следующее.

Религия не остается в замкнутой сфере, она обращается к субъекту, создает для него предписания, относящиеся к его религиозной жизни, но распространяющиеся также и на его деятельность в целом. Поскольку религиозная община имеет собственность, совершает культовые действия и держит для этого священнослужителей, она переходит из своей внутренней области в область светского, тем самым в область государства, а следовательно, непосредственно подпадает под его законы. «Присяга, вообще нравственные отношения, такие, например, как отношения в браке, влекут, правда, за собой внутреннее проникновение и возвышение умонастроения, которое благодаря религии получает глубочайшее обоснование; так как нравственные отношения - по существу отношения действительной разумности, утверждены в них должны быть прежде всего ее права, к которым церковное обоснование присоединяется в качестве только внутренней, более абстрактной стороны» (2, с. 299).

Поскольку религиозная общность людей существует в рамках государства, то она естественно находится в сфере государственного внимания. Но само религиозное учение, его нормы и, соответственно, сфера регулирования относится, прежде всего к области совести, к сфере внутренней жизни, которая в качестве таковой не подчинена государству. Соответственно этому та или иная религия может довести различие этих двух сфер до резкого антагонизма.

Итак, религиозное регулирование может отличаться и отличается от основных положений государственно-правового регулирования.

При всех сложностях относительного сравнения и сопоставления библейских и коранических норм все же полагаем возможным поставить следующий вопрос, относящийся к рассматриваемым двум религиям: предусматривают ли их источники готовые нормы, подходящие ко всем жизненным случаям, включают ли они более или менее точные к однозначные правила поведения верующих по значительному числу поводов.

---

* Məqalə hüquq üzrə f.d. Z.Qasımov tərəfindən çapa məsləhət bilinib.

По-видимому, в одном случае речь может идти о религиозных нормативных предписаниях как о правилах, имеющих ясный смысл и однозначно понимаемых в основных религиозных источниках. Например: « ... Не следуй за большинством на дело, и не решай тяжбы, отступая по большинству от правды; и бедному не потворствуй в тяжбе его... Не суди превратно тяжбы бедного твоего. Удаляйся от неправды и не умерщвляй невинного и правого, ибо Я не оправдываю беззаконника. Даров не принимай, ибо дары слепыми сделают зрячих и превращают дело правых. Пришельцев не обижай: вы знаете душу пришельца, потому что сами были пришельцами в земле Египетской» (Библия. Исход. (3, 73-75).

К другой разновидности относятся те религиозные предписания, которые отличаются многозначностью и устанавливают лишь общие рамки поведения. Причем по вопросам взаимоотношений людей такие многозначные положения заметно преобладают. Так вопросы терпимости к юридическим гарантиям инакомыслия, а также терпимости к человеку, по мнению некоторых толкователей Библии, не связаны с терпимостью к самим идеям оппонента. «Люби грешника и ненавидь грех», - говорили подвижники православного христианства в прежние годы. «Будь терпим к человеку и нетерпим ко лжи», - можно сказать сегодня. Другое толкование: «...Наличие у одного человека иных взглядов не обязывает другого отказаться от них».

Таким образом, речь идет о поиске правил поведения на основе рационального толкования достаточно общих постулатов. В исламе этот метод получил название иджтихада (буквально «усердие, устойчивость»). И в христианстве значительное число религиозных норм поведения вырабатывается именно данным образом. Однако такая свобода в формировании религиозных норм и их применении дана лишь церковным иерархам, известным теологам (например, в исламе - муджтахид, т.е облеченный правом на иджтихад знаток Корана). При этом, согласно изученной литературе, речь идет не о создании новой нормы, а об обнаружении решения, изначально содержащегося в религиозном источнике (аналогично: известные формы толкования норм права).

Однако подобное толкование не может не иметь ограничений, среди которых, как представляется, главное - соответствие целям, ориентирам, исходным началам той или иной религии. При этом главная особенность таких целей и ориентиров заключается в тесном переплетении в них религиозно-нравственного и правового начал, в чем проявляется своеобразный «универсализм» религиозных норм с точки зрения рассмотрения их как регулятора общественных отношений.

Поскольку и Коран и Библия смотрят на верующих, как на людей, ведущих светскую жизнь, среди их целей и ориентиров обнаруживаются такие, в которых религиозно-этические критерии сочетаются с вполне «земными» интересами, лежащими в основе поведения человека, и нередко конкретизируются в правовых оценках. Так, специалисты по исламу полагают, «что любая исламская норма нацелена на поддержание и защиту одной из пяти ценностей шариата - религии, жизни, разума, продолжения рода и собственности. Нетрудно заметить, что лишь первая из этих ценностей непосредственно выражает богооткровенную природу шариата, а остальные больше подчеркивают его мирскую направленность» (4, 10-11).

Небезынтересно что, по Корану и Библии при коллизии двух норм предпочтение отдается той, применение которой сопряжено с меньшим усилием. Например, приведем положения из Корана: «Аллах хочет для вас облегчения, а не хочет затруднения для вас» (2: 181-185) или «Он избрал вас и не устроил для вас а религии никакой тяготы» (22: 77-78). Тексты Корана приводятся: Коран в переводе И.Ю. Крачковского М. 1996. (Первая цифра - номер суры (главы), цифра после двоеточия - номер айата (стиха)). (5)

Можно назвать и другие ориентиры, ограничивающие свободу толкования и применения религиозных норм: забота о том, чтобы индивидуальное право не использовалось во вред другим, отрицание формального различия между людьми по социальным или этническим признакам, имущественному положению. Разумеется, часто идет речь лишь о своеобразных декларациях и остается весьма неоднозначная практика их реализации.

Отмеченные цели и ориентиры толкования и применение соблюдения и использования религиозных норм, таким образом, лежат как бы между религией, нравственностью и правом. Они, тем самым, свидетельствуют о том, что религия - это не только религиозные нормы, содержащиеся в основных источниках, но и достаточно гибкая система регулирования отношений: реальной жизни.

Таким образом, религиозные нормы могут быть интерпретированы и применены с учетом условий жизни людей и могут находить конкретные решения, соответствующие времени. Вобрав в себя многовековой опыт поколений, традиции Азербайджана и других стран, представления миллионов об идеале и гармонии во взаимоотношениях людей, они стали значительным явлением духовной культуры народа. Иначе говоря, и ислам и христианство, (как и другие религии народов, населяющих Азербайджан) могут считаться и важной частью мирового наследия в сфере социально-нормативной культуры. В свете сказанного видится роль религиозных норм в решении собственно правовых вопросов, касающихся регулирования повседневной жизни верующих или тех, кто полагает себя таковыми. Речь идет, главным образом, об упоминавшихся ранее правах и свободах человека, провозглашенных Конституцией Азербайджана высшей ценностью, которую государство обязано признавать, соблюдать и защищать (ст.12 Конституции АР) (6).

Это, естественно, относится и к верующим Азербайджана. Прежде всего, обращение к религиозным нормам неизбежно для осуществления их прав как верующих. Потому деятельность государства по гарантированию свободы вероисповедания и беспрепятственного использования людьми своих религиозных обязанностей, принятие им конкретных организационно-правовых мер (например, по созданию условий для совершения молитвы, осуществления паломничества или соблюдения поста) обязательно предполагают учет соответствующих религиозных предписаний.

Но дело не ограничивается только этими вопросами. Не меньшее, а возможно даже большее значение приобретает вопрос использования отдельных религиозных норм в интересах развития правовой системы Азербайджана.

Yetkinlik yaşına çatmayanların həyat tərzinə onların məşğulluq problemi də təsir göstərir. Cinayət işlərinin təhlili göstərir ki, yetkinlik yaşına çatmayanların içərisində məhkum olunanların əksəriyyəti adətən ya heç yerdə təhsil almırlar və ya heç yerdə işləmirlər. Məsələn, əgər 2008-ci ildə məhkum olunmuş 267 nəfər 14-17 yaşlılardan 94 nəfəri heç yerdə işləməyən və oxumayanlar idisə, 2009-cu ildə məhkum olunan 222 nəfər yetkinlik yaşına çatmayanın 129 nəfəri heç yerdə oxumamış və işləməmişlər (2,s.12). Yetkinlik yaşına çatmayanların vəziyyəti belə bir faktla daha da ağırlaşır ki, onlar həyat təcrübələrinin olmamasına və zəif peşə hazırlıqlarına görə işə düzələ bilmir və işsiz statuslu fiziki şəxslərə çevrilirlər.

Son illərin hadisələri göstərir ki, yetkinlik yaşına çatmayanların məşğulluq problemləri kəskinləşdikcə onların arasında cinayətkarlıq daha da artır. Əmək bazarında rəqabət apara bilmək imkanlarının olmaması baxımından əksər yetkinlik yaşına çatmayanlar adətən gizli biznes strukturlarına daxil olur və yaxud da dərhal və ya yüngül üsullarla gəlir gətirən cinayətkarlıq yolunu seçirlər.

Bu problemi şərh edərkən A.V. Bıkov və N.A.Filippov qeyd edirlər ki, müasir dövrdə yetkinlik yaşına çatmayanlar leqal yaşamaq imkanlarını yaşamağın kriminal üsulu ilə əvəzləyirlər (5, s.57).

Digər tərəfdən, son onilliklərdə televiziyada yetkinlik yaşına çatmayanların mənəvi inkişaf səviyyəsini yüksəldən, elmi-idraki proqramların, yetkinlik yaşına çatmayanların dünyagörüşünün formalaşmasına yönəldilmiş məqsədəyönlü proqramların sayı kəskin surətdə azalmışdır.

Yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın artmasına cəmiyyətdə mövcud olan ideoloji boşluqlar da özünün mənfi təsirini göstərir.

Yetkinlik yaşına çatmayanlar arasında alkoqolizm, uşaq fahişəliyi, narkomaniya kimi neqativ meyllər də artmışdır ki, bu da ümumi fonda cinayətkarlığın artmasına şərait yaradır. Belə ki, məsələn, narkotik maddələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar məhkum olunmuş yetkinlik yaşına çatmayanların sayı 2003-cü ildə 8 nəfər (1, s. 41), 2008-ci ildə 4 nəfər, 2009-cu ildə 4 nəfər olmuşdur (3, s.14).

Yetkinlik yaşına çatmayan cinayətkarın cinayət əməlləri müxtəlif həyati situasiyalarda bir halda səbəb kimi, o biri halda isə bu əməllərin həyata keçirilməsinə kömək edən şərait kimi çıxış edə bilər.

Şübhəsiz ki, yuxarıda sadalanan hallar yetkinlik yaşına çatmayanların cinayətkarlığının əsasında duran səbəblərin hamısını özündə birləşdirən bütöv bir kompleksi təşkil etmir. Lakin buna baxmayaraq müasir dövrdə məhz belə faktlar yetkinlik yaşına çatmayanların cinayətkarlığına daha çox təsir edən səbəb və şəraitlərdir.

Yetkinlik yaşına çatmayanların cinayətkar hərəkətlərinin müəyyən edilməsi dövlət tərəfindən onun qarşısının alınmasının mühüm faktorlarından biridir.

Şübhəsiz ki, səbəbsiz cinayət yoxdur, yetkinlik yaşına çatmayanın cinayətkar fəaliyyətinin formalaşmasına həmişə bir sıra amillərin məcmusu təsir edir ki, bu da onları bu və ya digər cinayətkar davranışa sürükləyir. Bunları üzə çıxararaq, qeydə alaraq və təhlil edərək yetkinlik yaşına çatmayanların arasında cinayət əməllərinin sayını azalda bilərik.

Belə tədbirlərin görülməməsi isə yetkinlik yaşına çatmayanların cinayətlərinin qarşısının alınması məqsədilə həyata keçirilən cinayət-hüquqi tədbirlərin səmərəsini aşağı salır.

Açar sözlər: yetkinlik yaşına çatmayan, cinayət, səbəb, nəticə, şərait.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar. Bakı, 2004.
2. 2009-cu ildə Azərbaycanda məhkumetmə və məhkəmələrdə baxılan işlər haqqında (statistik bülleten). Bakı, 2010.
3. 2010-cu ilin birinci yarısında Azərbaycanda cinayətkarlıq. Bakı, 2010.
4. Quliyeva S.M.Yetkinlik yaşına çatmayanların yaş psixoloji xüsusiyyətləri və onların törətdiyi cinayətlərə görə cəzaların tətbiqində nəzərə alınması //Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. 17-ci buraxılış. Bakı, 2007.
5. Быков А.В., Филиппов Н.А. Преступность и наркомания //Криминологический журнал. 2003, № 2 (5).
6. Криминология. Учебник / Под ред. В.Н.Кудрявцева, В.Е.Эминова. М., 2002.
7. Прозументов Л.М. Групповая преступность несовершеннолетних и ее предупреждения. Томск, 1993.
8. Ратинов А.Р. Психология личности преступника: ценностно-нормативный подход. М., 1979.
9. Семенюк Л.М. Психологические особенности поведение подростков и его коррекция. М., 2003.
10. Шаргородский М.Д. Преступность, ее причины и условия в социалистическом обществе. Л., 1966.

Мохаммеди Солтанали ЭЙРАВАНЛОУ

К ПРИЧИНАМ ПРЕСТУПНОСТИ СРЕДИ НЕСОВЕРШЕННОЛЕТНИХ В СОВРЕМЕННОМ ПЕРИОДЕ

Резюме

С точки зрения обеспечения эффективности в судебной практике в последнее время повышена потребность выявить на законодательном уровне причины преступности среди несовершеннолетних. Поэтому особое значение приобретают такие философские понятия как «причина», «результат», «условие» и т.д. Своевременное выявление причины и условий совершения преступлений дают возможность изыскать разные формы предупреждения преступности среди несовершеннолетних.

В уголовно-правовой литературе нет единого мнения в вопросах причины, результата и условий преступности среди несовершеннолетних.

Ключевые слова: несовершеннолетние, преступление, причина, следствие, условие.

Mohammadi Soltanali EIRAVANLOU

TO THE REASONS OF CRIMINALITY AMONG THE MINORS IN THE MODERN PERIOD

Summary

Recently from the standpoint of efficiency mainenance in judiciary practice the need of exposing the reasons of criminality among the minors on legislative level in creases. Therefore such philosophical conceptions as a «reason», «result», « condition» and etc. acquire a particular importance. Timely exposing the reasons and conditions of crimes committing affords an opportunity to find out the different forms of preventing criminality among the minors. In criminal law literature there does not exist a single opinion in the issues of reason, result and conditions of criminality among the minors.

Keywords: minors, crime, reason, consequence, condition.

UOT 347.08

Ceyhun ƏZİZOV
BDU, magistr

HƏRBİ HİSSƏNİ VƏ YA XİDMƏT YERİNİ ÖZBAŞINA TƏRK ETMƏ ƏMƏLİNƏ GÖRƏ MƏSULİYYƏT MƏSƏLƏLƏRİ*

Azərbaycan Respublikasının Konstitusiyası Vətənin müdafiəsini onun hər bir vətəndaşının borcu, qanunla müəyyən edilmiş qaydada hərbi xidmət keçməni isə vətəndaşların əsas vəzifələrindən biri kimi müəyyən edir [1]. Hərbi qulluqçular Azərbaycan Respublikasının qanunlarında və hərbi nizamnamələrində müəyyən edilmiş hərbi intizama ciddi riayət etməyə borcludurlar. Lakin məhkəmə təcrübəsinə nəzər saldıqda aydın olur ki, bir qrup vətəndaşın konstitusion vəzifəsini şərəflə yerinə yetirməkdən imtina edərək, hərbi xidmət keçmədən boyun qaçırması, qulluğa səhlənkar yanaşması, fərarilik və sair hərbi cinayət əməllərini etməsi halları heç də az deyildir. Qanunverici tərəfindən hərbi xidmət əleyhinə olan cinayət əməllərinin müəyyən edilib cəzalandırılmasının şərtləndirilməsi ilk növbədə hərbi intizamın möhkəmləndirilməsinə xidmət edir.

Azərbaycan Respublikasının 1999-ci il Cinayət Məcəlləsində (daha sonra – CM) hərbi xidmət əleyhinə olan cinayətlərə görə məsuliyyət ənənəvi olaraq Xüsusi hissənin sonunda - XII bölmədə (fəsil 35, 327-353 maddələr) təsbit edilmişdir [2].

Azərbaycan Respublikası CM-in 333-cü maddəsində hərbi xidmətdə olan hərbi qulluqçunun öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etməsinə, o cümlədən üzrlü səbəb olmadan öz xidmət yerinə vaxtında gəlməməsinə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Bu cinayətin ictimai təhlükəliliyi ondan ibarətdir ki, təhlil edilən hüquqazidd əməllərin törədilməsi ilə hərbi xidmət keçmənin qanunla müəyyən edilmiş qaydalarına qəsd edilir. Belə ki, hərbi xidmət keçmədən yayınmanın uzun müddət davam etməsi Silahlı Qüvvələrdə (daha sonra – SQ) nizam-intizamın aşağı düşməsinə, ordunun döyüş qabiliyyətinin zəifləməsinə səbəb olur.

Təhlil edilən cinayətin obyekti hərbi xidmət keçmənin qanunvericiliklə tənzimlənmiş qaydasıdır. CM-in 333.1-ci maddəsinin obyektiv cəhətini hərbi qulluqçunun öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etməsi, o cümlədən üzrlü səbəb olmadan öz xidmət yerinə vaxtında gəlməməsi təşkil edir (uzanan cinayət). Hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə dedikdə, komandirin (rəisin) icazəsi olmadan hərbi qulluqçunun hərbi hissənin ərazisini və ya xidmət yerini özbaşına tərk etməsi başa düşülür. Xidmət yerinə vaxtında gəlməmə isə hərbi hissənin ərazisindən və ya xidmət yerindən qanuni əsaslarla kənara buraxılmış hərbi qulluqçunun hərbi hissəyə, yaxud xidmət yerinə üzrlü səbəblər olmadan müəyyən edilmiş müddətdə gəlməməsindən ibarətdir. Hərbi hissəni özbaşına tərk etmənin əvvəli hərbi qulluqçunun hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etdiyi andan, xidmət yerinə vaxtında gəlməmənin əvvəli isə xidmət yerinə qayıtmalı olduğu müddətin bitdiyi andan hesablanır. Təhlil edilən cinayət hərbi qulluqçunun hərbi hissəyə və ya xidmət yerinə gəldiyi, yaxud onun tutulub saxlanıldığı andan bitmiş hesab olunur.

CM-in 333.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin obyektiv cəhətinin zəruri əlamətlərindən biri də hərbi hissəni (xidmət yerini) özbaşına tərk etmənin və vaxtında gəlməmənin müddətidir. CM-in 333.1-ci maddəsinin dispozisiyasında, göstərilən əməllərin cinayət məsuliyyətinə səbəb olması üçün hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə, yaxud vaxtında gəlməmə:

1) 3 gündən 10 günədək olmalı;

---

* Məqalə hüquq üzrə f.d., dosent C.Quliyev tərəfindən çapa məsləhət bilinib.

2) 3 gündən az olsa belə, 6 ay ərzində təkrar törədilməlidir.

Qeyd olunmalıdır ki, çağırış üzrə hərbi xidmətdə olan hərbi qulluqçu öz hərbi hissəsini və ya xidmət yerini 3 gündən az müddətdə ilk dəfə özbaşına tərk etdikdə və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlmədikdə Azərbaycan Respublikası SQ-in İntizam Nizamnaməsinə (maddə 48) əsasən ona məzəmmət; töhmət; şiddətli töhmət; hissənin yerləşdiyi yerdən kənara, yaxud gəmidən sahilə növbəti buraxılmadan məhrumetmə; növbədənkənar xidmət naryadına təyin etmə (qarovula, növbəyə və döyüş növbətçiliyinə göndərmək istisna edilməklə) – 5 xidmət naryadına qədər; hauptvaxtda saxlanılmaqla 10 sutkayadək həbs; əlaçı döş nişanlarından məhrumetmə; baş əsgər (baş matros) hərbi rütbəsindən məhrumetmə cəzaları verilə bilər [3].

Xidmət yeri dedikdə, hərbi qulluqçu tərəfindən hərbi xidmət üzrə vəzifələrin faktiki olaraq yerinə yetirildiyi yer başa düşülür (hərbi hissənin ərazisi ilə üst-üstə düşmədiyi hallarda). Xidmət yeri hərbi hissənin mövqeyinin yerləşdiyi ərazidə deyilsə, hərbi qulluqçunun müəyyən müddət ərzində hərbi vəzifələrini icra etdiyi, yaxud komandirin əmri və ya icazəsi ilə olduğu yer başa düşülür (məsələn, hissənin mövqeyindən kənarda təsərrüfat işlərinin görüldüyü yer, təlim dərslərinin keçirildiyi yer və sair).

Xidmət yerinə vaxtında gəlməmə dedikdə, hərbi hissənin ərazisindən (gəmidən) və ya xidmət yerindən qanuni əsaslarla buraxılmış (qısamüddətli məzuniyyətə, ezamiyyətə, müalicəyə və sair) hərbi qulluqçunun hərbi hissəyə, yaxud xidmət yerinə üzrlü səbəblər olmadan müəyyən edilmiş müddətə qayıtmaması başa düşülür. Bu halda hərbi xidmət üzrə vəzifələri yerinə yetirməkdən yayınma cinayətkarcasına hərəkətsizlik yolu ilə həyata keçirilir.

Hərbi qulluqçunun özünün və ya yaxın qohumlarının xəstəliyi, son zərurət vəziyyəti, hakimiyyət orqanları tərəfindən tutulub saxlanma, təbii fəlakət, habelə hərbi qulluqçunun iradəsindən asılı olmayaraq onun vaxtında qayıtmasını qeyri-mümkün edən digər hallar xidmət yerinə vaxtında gəlməmənin üzrlü səbəblərinə aid edilir. Hərbi hissəyə və ya xidmət yerinə vaxtında gəlməmə üzrlü səbəblərlə əlaqədar olduqda cinayət tərkibi yaranmır. CM-in 333-cü maddəsində nəzərdə tutulmuş cinayətlərə görə məsuliyyət yalnız hərbi qulluqçunun hərbi hissənin mövqeyini və ya xidmət yerini komandirin (rəisin) icazəsi olmadan tərk etdiyi hallarda yaranır. Eyni hərbi hissənin ərazisində bir bölmədən digərinə xüsusi icazə olmadan getmə, həmin hissənin ərazisini tərk etmə ilə müşayiət olunmadıqda bu əməl hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə cinayəti kimi tövsif oluna bilməz.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin «Azərbaycan Respublikası CM-in 333.1-ci maddəsinin şərh edilməsinə dair» 18 iyul 2005-ci il tarixli qərarına əsasən Azərbaycan Respublikası CM-in 333.1-ci maddəsində göstərilən müddətlərin əvvəli hərbi qulluqçunun öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etdiyi andan və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə müəyyən edilmiş müddətdə gəlmədiyi vaxtdan hesablanır [4].

Təqsirkarın öz hərbi hissəsinə (xidmət yerinə) qayıtma vaxtı və ya hakimiyyət orqanı, hərbi komendantlıq, qarnizon növbətçisi, hissədən göndərilən patrul xidməti tərəfindən tutulub saxlandığı vaxt müvafiq olaraq hərbi hissənin ərazisini özbaşına tərk etmənin və xidmət yerinə vaxtında gəlməmənin başa çatma anı hesab olunur.

Subyektiv cəhətdən şərh edilən cinayət yalnız birbaşa qəsdlə törədilir. Bu cinayətin ehtiyatsızlıqdan törədilməsi mümkün deyildir.

CM-in 333.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyekti yalnız hərbi xidməti çağırış üzrə keçən hərbi qulluqçular ola bilərlər.

«Hərbi xidmət haqqında» Azərbaycan Respublikası qanununa əsasən (maddə 5), müddətli həqiqi hərbi xidmət keçən hərbi qulluqçular çağırış üzrə hərbi xidmət keçən hərbi qulluqçular hesab edilirlər. Çağırış üzrə həqiqi hərbi xidmət keçən əsgər, matros və çavuşlardan başqa, çağırış üzrə hərbi qulluqçu statusu hərbi tədris müəssisələrinin kursantlarına da (zabitlərdən başqa) şamil olunur [5]. «Hərbi xidmətkeçmə haqqında əsasnamə» də müəyyən edilmiş qaydada (maddə 9)

hərbi xidmətə çağırılmış ehtiyatda olan zabitlər də CM-in 333.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyektləri hesab edilirlər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin ««Hərbi qulluqçuların statusu haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin birinci hissəsinin və 3-cü maddəsinin, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333-cü maddəsinin şərh edilməsinə dair» 26 oktyabr 2001-ci il tarixli qərarına əsasən, «Hərbi qulluqçuların statusu haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində göstərilən hərbi xidmətə çağırılmış şəxslərin Respublika toplanış məntəqəsindən özbaşına getməsi və ya orada tibbi müayinə keçdikdən sonra hərbi qulluğa getməkdən yayınması Azərbaycan Respublikası CM-in 333-cü maddəsində nəzərdə tutulan cinayətin tərkibini yaratmır [6]. Lakin qeyd etmək lazımdır ki, hərbi qulluqçu statusuna Azərbaycan Respublikasının Silahlı Qüvvələrində, Azərbaycan Respublikasının Sərhəd qoşunlarında və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun yaradılmış başqa silahlı birləşmələrdə (o cümlədən, Xüsusi Dövlət Mühafizə Xidmətində) həqiqi hərbi xidmətdə olan Azərbaycan Respublikası vətəndaşları və başqa dövlətlərin vətəndaşları, habelə toplanışlarda olan hərbi vəzifəlilər hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etməyə görə Azərbaycan Respublikası CM-in 333-cü maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilməlidirlər [7].

CM-in 333.2-ci maddəsində nəzərdə tutulmuş cinayətin obyektiv cəhəti 10 gündən artıq, lakin 1 aydan çox olmayan müddətə hərbi hissəni və ya xidmət yerini özbaşına tərketməni və ya üzrlü səbəblər olmadan xidmət yerinə vaxtında qayıtmamağa görə cinayət məsuliyyətini nəzərdə tutmuşdur. Obyektiv cəhətin bütün qalan (müddətdən başqa) əlamətləri CM-in 333.1-ci maddəsinin obyektiv cəhətinin əlamətləri ilə eyniyyət təşkil edir.

CM-in 333.2-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyekti çağırış və ya kontrakt üzrə hərbi xidmət keçən hərbi qulluqçulardır.

Kontrakt (bağlaşma) üzrə hərbi xidmət keçən hərbi qulluqçu dedikdə, Azərbaycan Respublikasının SQ-nə könüllü daxil olmuş və müvafiq kontrakt bağlamış həm Azərbaycan, həm də xarici dövlətlərin vətəndaşları başa düşülür [8].

CM-in 333.3-cü maddəsində nəzərdə tutulmuş cinayətin obyektiv cəhəti hərbi hissəyə və ya xidmət yerinə özbaşına tərketmənin, vaxtında qayıtmamanın 10 gündən 1 ayadək müddətdə davam etməsindən, yaxud özbaşına tərk etmənin və ya vaxtında qayıtmamanın 3 gündən 10 günədək müddətə, lakin 1 il ərzində təkrar törədilməsindən ibarətdir.

CM-in 333.3-cü maddəsində nəzərdə tutulmuş cinayətin subyekti zabit heyətindən olan şəxs, gizir, miçman, müddətdən artıq hərbi xidmətdə olan və ya kontrakt üzrə xidmət edən hərbi qulluqçudur.

CM-in 333.4-cü maddəsində təhlil edilən cinayətin tövsifedici əlaməti – CM-in 333.2-ci və 333.3-cü maddələrində nəzərdə tutulmuş əməllərin bir aydan artıq, lakin üç ay müddətindən çox olmayaraq törədilməsinə görə cinayət məsuliyyətini nəzərdə tutmuşdur. Bu əlamətin mövcud olması üçün CM-in 333.2-ci və 333.3-cü maddələrində nəzərdə tutulan cinayətlərin subyekti olan hərbi qulluqçunun hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmənin, yaxud xidmət yerinə vaxtında qayıtmamanın müddəti 1 aydan 3 ayadək olmalıdır. Həmin müddət 3 aydan artıq olduqda əməl CM-in 334-cü maddəsi ilə fərarilik kimi tövsif edilməlidir.

CM-in 333.5-ci maddəsində nəzərdə tutulmuş cinayətin obyektiv cəhəti intizam xarakterli hərbi hissədə cəza çəkən hərbi qulluqçunun belə hərbi hissədən özbaşına getməsindən ibarətdir. Bu halda hərbi hissədən özbaşına getmənin müddəti əməlin tövsifinə təsir göstərmir. Beləliklə, 333.5-ci maddədə əsas tövsifedici meyar kimi cinayətin törədilməsinin yeri (intizam xarakterli hərbi hissə) çıxış edir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının məhkəmələri tərəfindən barələrində həbs qətimkan tədbiri seçilmiş və hauptvaxtda saxlanılan hərbi qulluqçunun cinayət məsuliyyətindən və ya cəzadan yayınmaq məqsədilə həbsdən qaçması azadlıqdan məhrumetmə

yerindən, həbsdən və ya mühafizə altından qaçma cinayətinin tərkibini yaradır və bu əməl CM-nin 304-cü maddəsi ilə tövsif olunmalıdır.

CM-in 333.6-cı maddəsində təhlil edilən cinayətin xüsusilə tövsifedici əlaməti – CM-in 333.1 – 333.4-cü maddələrində nəzərdə tutulmuş əməllərin müharibə vaxtı və ya döyüş şəraitində törədilməsinə görə cinayət məsuliyyətini nəzərdə tutmuşdur. Göstərilən xüsusilə tövsifedici əlamətlərin anlayışı cinayət qanunvericiliyində verilmişdir (328-ci maddənin qeydində). Müharibə vaxtı dedikdə, Azərbaycan Respublikasının xarici dövlətlərlə müharibə vəziyyətində olması başa düşülür. Bu baxımdan müharibənin başlanğıc və başa çatma anının dəqiq müəyyən edilməsi tövsif üçün son dərəcə vacibdir. Müharibənin elan olunmasının və ya hərbi əməliyyatların faktiki aparılmasının ilk günü (saatı) müharibənin başlanması, hərbi əməliyyatların faktiki olaraq dayandırıldığı gün (saatı) isə müharibənin sonu hesab olunur. Döyüş şəraiti dedikdə isə hərbi hissənin və ya bölmənin bilavasitə düşmənə qarşı durması və faktiki olaraq döyüş əməliyyatları aparması başa düşülür. Amma xüsusi olaraq qeyd etməliyik ki, bizim qanunvericilikdə müharibə-nin sonunun anlayışı beynəlxalq hüquqdakı anlayışla üst-üstə düşmür [10, s.161].

Qeyd edilən maddənin qeyd hissəsində CM-in 333.1-333.4-cü maddələrində nəzərdə tutulmuş əməllərə görə cinayət məsuliyyətini istisna edən xüsusi hal – əməl ilk dəfə ağır şərait zəminində törədildikdə şəxsin cinayət məsuliyyətindən azad olunması nəzərdə tutulur. CM-in 333-cü maddəsinin qeydində nəzərdə tutulmuş ağır şəraitə aşağıdakılar aid edilə bilər: a) hərbi qulluqçunun özünün və ya onun yaxın qohumlarının ağır xəstəliyi; b) ciddi ailə münaqişələri; c) hərbi qulluqçunun yaxın qohumlarının yaşadığı yerdə baş vermiş təbii fəlakət; d) hərbi qulluqçunun xidmət yerində yaranmış əlverişsiz, qeyri-sağlam şərait və sair. Hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə ayrı-ayrı hallarda komandirlərin (rəislərin) qanunazidd əmrləri, nizamnamədən kənar rəftar edilməsi, mütəmadi surətdə hörmətsizlik, fiziki və psixi məcburiyyət və bu kimi digər hərəkətlərlə əlaqədar ola bilər. Belə hallarda müəyyən edilmiş konkret vəziyyətdən asılı olaraq əməlin son zərurət vəziyyətində törədilmiş hərəkət olub-olmamasına hüquqi qiymət verilməlidir [9].

Beləliklə, CM-in 333-cü maddəsi altı cinayət tərkibini müəyyən edir. Cinayətlərin təsnifatına əsasən, qeyd edilən tərkiblər müvafiq olaraq böyük ictimai təhlükə törətməyən (maddə 333.1; 333.2; 333.3,), az ağır (maddə 333.4; 333.5) və ağır cinayətlər (maddə 333.6) kateqoriyalarına aiddir [10, c.160].

Qüvvədə olan Rusiya Federasiyasının CM-də hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etməyə görə cinayət məsuliyyəti CM-in 337-ci maddəsində qeyd edilmişdir. Dispozisiyasının əksər hissəsinin Azərbaycan Respublikasının cinayət qanunvericiliyinin müvafiq maddəsi ilə eyniyyət təşkil edən Rusiya Federasiyasının CM-də bir sıra fərqlər mövcuddur (o cümlədən sanksiyalarında). Belə ki, Azərbaycan Respublikasının CM-dən fərqli olaraq Rusiya Federasiyasının CM-yə görə hərbi qulluqçunun 2 gündən az müddətdə təkrarən hərbi hissəni və ya xidmət yerini tərk etməsi cinayət məsuliyyətinə səbəb olmur [11].

Zənnimizcə, müharibə şəraitində olan Azərbaycan Respublikası üçün sözügedən cinayət əməlinə görə nəzərdə tutulan sanksiya kifayət qədər yumşaqdır və qeyd edilən cinayət əməlinə görə nəzərdə tutulan sanksiyanın ağırlaşdırılması daha məqsədəmüvafiq hesab edilir.

Açar sözlər: hərbi hissəni özbaşına tərk etmə, xidmət yerini özbaşına tərk etmə, hərbi xidmət əleyhinə olan cinayət, cinayət məsuliyyəti, müharibə şəraiti, hərbi vəziyyət, fərarilik.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstutusiyası /2011/www.e-qanun.az
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi /2011/www.e-qanun.az
3. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsi /23.09.1994 /www.e-qanun.az
4. Azərbaycan Respublikasi Cinayət Məcəlləsinin 333.1-ci maddəsinin şərh edilməsinə dair Azərbaycan Respublikasi Konstitusiya Məhkəməsi Plenumunun qərarı /18.07. 2005-ci il /www.e-qanun.az
5. Hərbi xidmətkeçmə haqqında əsasnamə /03.10.1997/ www.e-qanun.az
6. Hərbi qulluqçuların statusu haqqında Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin birinci hissəsinin və 3-cü maddəsinin, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333-cü maddəsinin şərh edilməsinə dair Azərbaycan Respublikasi Konstitusiya Məhkəməsi Plenumunun qərarı /26.10.2001/www.e-qanun.az
7. Hərbi qulluqçuların statusu haqqında Azərbaycan Respublikasının Qanunu /25.12.1991/ www.e-qanun.az
8. Hərbi xidmət haqqında Azərbaycan Respublikasının Qanunu /03.11.1992/ www.e-qanun.az
9. Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarı / 01.11.2001
10. Самедова Ш.Т. Уголовное право Азербайджанской Республики. Особенная часть. Баку: Адыльоглу, 2008, 184 с.
11. Уголовный Кодекс Российской Федерации / http://www.ug-kodeks.ru

Джейхун АЗИЗОВ

ВОПРОСЫ ОТВЕТСТВЕННОСТИ ЗА САМОВОЛЬНОЕ ОСТАВЛЕНИЕ ВОИНСКОЙ ЧАСТИ ИЛИ МЕСТА СЛУЖБЫ

Резюме

Уголовная ответственность за самовольное оставление воинской части или места службы предусмотрена в ст.333 Уголовного Кодекса, которая расположена в системе преступлений против военной службы. В статье дается уголовно-правовой анализ состава преступления, рассматриваются квалификационные и особо квалифицирующие признаки данного преступления. Автор также обращает внимание на сложные вопросы квалификации самовольного оставления воинской части или места службы со смежными преступлениями.

Ключевые слова: самовольное оставление воинской части, самовольное оставление места службы, преступления против военной службы, уголовная ответственность, военные условия, военное положение, дезертирство.

Jeyhun AZIZOV

WILLFUL ABANDONMENT OF UNIT OR PLACE OF SERVICE

Summary

The criminal liability for willful abandonment of the military unit or place of service is provided in article 333 of the Criminal Code which is arranged in the system of crimes against military service. In article 333 the criminally-legal analysis of structure of a crime is given, qualifying and especially qualifying signs of the given crime are considered. The author pays attention also to complicated questions of qualification autocratic willful abandonment of unit or place of service with adcacent crimes.

Keywords: willful abandonment of unit, willful abandonment of place of service, a crime against military service, a criminal liability, war conditions.

УДК 343.9

Тарана ИСАЕВА
ИФСП НАНА, диссертант

УСЛОВИЯ И ПРЕДЕЛЫ ПСИХОЛОГИЧЕСКОГО ВОЗДЕЙСТВИЯ ПРИ РАССЛЕДОВАНИИ ПРЕСТУПЛЕНИЙ*

Сохранение волевой регуляции поведения участника следственного действия, является необходимым условием правомерного получения криминалистической информации. Когда следователь, воздействуя на психику участника следственного действия, не оставляет ему возможности волевого выбора вариантов поведения, то это является неправомерным принуждением, что в свою очередь ведет к искажению объективной истины по делу.

Однако, в современных условиях не всякое психологическое воздействие на допрашиваемого со стороны лица, осуществляющего расследование, следует считать неправомерным. В криминалистической тактике выработаны приемы воздействия, которые решают задачи установления психологического контакта, распознания и изобличения лжи, преодоления возникающих и профилактики потенциальных конфликтов и пр., и при этом не нарушается волевая регуляции поведения участников следственных действий. В этой связи актуальность приобретают условия и пределы психологического воздействиях при расследовании преступлений.

Представляется, что наиболее точно и полно пределы психического воздействия определил А.Р. Ратинов, указав: «Правомерное воздействие отличается от психического насилия наличием у подвергающегося воздействию лица свободы выбора той или иной позиции» (9, с. 21).

Изложенное требование не означает свободы лжи и противодействия в целом со стороны участников уголовного процесса. В криминалистической науке разработаны тактические приемы, которые при умелом их применении способны существенно сузить возможности противодействия установлению объективной истины по делу. Как справедливо отмечает И.К. Седой, свобода выбора позиции означает сохранение волевого и рационального интеллектуального контроля за своим поведением. Психическое насилие ведет к неадекватному восприятию, сохранению и воспроизведению информации, что обуславливает искажение «объективной» истины по делу (10, с. 16).

В связи с этим А.А. Базилевич указывал, что неадекватное понятийное наполнение отдельных тактических приемов не только создает трудность в нравственной их оценке, но и делает едва заметными этические критерии использования имеющихся и разработки новых научных рекомендаций по его производству (1, с. 51).

Новейшие достижения экспериментальной психологии и исследований в области влияния психического воздействия на осознанность регуляции поведения человека и его соматическое состояние обуславливают определенную нравственную оценку целого ряда предлагаемых рекомендаций по производству допроса. Более чем очевидно, что в криминалистической тактике ряд наиболее дискуссионных проблем возникают на основе разработки рекомендаций, связанных с передачей, или сокрытием информации, которой располагает следствие. Так, одной из форм передачи информации является внушение.

Под внушением в криминалистической литературе принято понимать такое психическое воздействие, при котором реципиент «принимает определенную идею без

* Məqalə h.e.d. D.Süleymanov tərəfindən çapa məsləhət bilinib.

рационального обоснования и некритически следует ей» (9, с.24). А. Р. Ратинов отметил в числе необходимых признаков внушающего воздействия отсутствие со стороны реципиента критической оценки получаемой информации (9, с. 32).

Возникает проблема допустимости внушающего воздействия в процессе производства допроса. Внушение связано с нерациональным некритическим восприятием получаемой информации. Этот факт может свидетельствовать об отсутствии свободы выбора того или иного варианта поведения, кроме того, внушение может оказывать негативное воздействие на формирование, сохранение и воспроизведение показании.

Степень внушающего воздействия в формируемых вопросах может существенно различаться. Так, в наводящих вопросах, содержащих в себе ответ, степень внушающего воздействия такова, что способна привести к неадекватному воспроизведению показаний, не оставляя свободы выбора вариантов поведения допрашиваемому. В конструкции наводящих вопросов уже формулируется желаемый ответ, поэтому их применение искажает показания.

В теории и практике производства следственных действий возникают проблемы разграничения допустимых и наводящих вопросов. Б.М. Шавер и А.Н. Винберг под наводящими вопросами понимали «такие, в постановке которых уже до известной степени содержится ответ на поставленный вопрос» (12, с. 21). С тех пор понятие наводящего вопроса не изменилось, но дифференциация наводящих и допустимых вопросов остается одной из важнейших проблем криминалистической науки и уголовного процесса.

Проблемы определения места альтернативных вопросов, субъективных и объективных факторов, способствующих формированию наводящих вопросов и структуризации последних, являются по настоящий день весьма актуальными.

Гаджиева Н.Г. предлагает разграничивать наводящие и допустимые вопросы по соотношению ряда объективных и субъективных факторов внушающего воздействия. При этом к объективным факторам она относит: информационную насыщенность вопроса, на основе которой допрашиваемый может построить ответ, не обращаясь к своей памяти; дополнения вербальной информации невербальной; логическую структуру вопроса в системе (2, с. 16-21).

Данный способ разграничения наводящих и допустимых вопросов представляет интерес в плане раскрытия содержания факторов, обуславливающих внушающее воздействие. Однако подобный подход является спорным, поскольку наличие вполне допустимой формулировки вопроса не делает его наводящим, даже если процесс его постановки характеризуется каким-либо «несвойственными» жестами.

С нашей точки зрения, единственным реальным критерием разграничения наводящих и допустимых вопросов является их смысловая насыщенность, а наводящий вопрос всегда содержит в части или в целом подсказку, желаемый ответ.

Общение представляет собой взаимодействие на уровне субъект-субъектные отношения, строящееся по направлению передачи информации от коммуникатора к реципиенту. Поэтому процесс обмена информацией в ходе производства допроса ставит следователя то на место коммуникатора, то на место реципиента. Таким образом, вряд ли возможно признать обоснованным отнесение к объективным факторам, влияющим на внушающее воздействие, информационную насыщенность, логическую структуру и пр., поскольку последние определяются субъективно самим коммуникатором.

Получение показаний теряет всякий смысл, если превращается в процесс подтверждения желаемых ответов, которые следователь формулирует в самом вопросе. Такой «способ собирания доказательств» не приносит ничего нового в процессе познания по уголовному делу, искажая объективную истину субъективным отношением к собираемым фактическим данным лица, производящего расследование.

Различная трактовка этики производства допроса приводит к противоречивым взглядам в литературе. Так, Г.Ф. Горский, Л.Д. Конорев, Д.П. Котов склонны рассматривать формирование у лица целей, попытка достижения которых поставит его в невыгодное положение, недопустимым с точки зрения этики, поскольку подобное поведение находится на грани провокации (4, с. 71). Подобные взгляды представляются спорными, поскольку данная концепция относит к числу недопустимых рекомендаций те, которые не вызывают сомнений в их допустимости. Так, тактический прием «допущение легенды» предусматривает фиксацию вымышленной, придуманной допрашиваемым версии случившегося, после чего ложь изобличается. Данный метод является действенным средством изобличения лжи, и соответствует требованиям закона и морали, а значит, не может быть исключен из числа криминалистических тактических приемов. Следует, тем не менее, согласиться с тем, что формирование у противодействующего лица целей, попытка достижения которых поставит его в невыгодное положение, не должно быть основано на невежестве, обращении к низменным качествам, и других незаконных методах воздействия, а также не может провоцировать к противоправным действиям, поскольку уголовное судопроизводство должно способствовать укреплению законности и правопорядка, предупреждению и искоренению преступлений, охране интересов общества, прав и свобод граждан. Формирование целей на противоправное поведение противоречит самому назначению уголовного судопроизводства и поэтому недопустимо ни с этической точки зрения, ни с точки зрения закона.

В криминалистической науке вызывает возражение с позицией этики использование фактора внезапности. Так, С.Г. Любичев считает, что использование фактора внезапности при производстве допроса приводит к стрессовому состоянию и дезорганизации психических процессов у допрашиваемого, и поэтому является недопустимым (7, с. 13). Думается, что фактор внезапности обладает избирательностью, и в этом смысле лицу, дающему правдивые показания, опасаться нечего. Кроме того, стресс, связанный с дезорганизацией психических процессов, длителен по времени протекания, а внезапность носит одномоментный характер и не может вызвать стрессового состояния. Элемент внезапности очень важен в плане предотвращения противодействия расследованию. Так, немедленный допрос свидетеля нередко не дает последнему возможности построить логически непротиворечивую вымышленную легенду.

Думается также, что необходимо отличать использование фактора внезапности от неожиданных действий следователя. Как отмечает И.А. Гольдин, внезапность выступает в качестве характеристики действий лиц, организующих ее применение, а неожиданность является следствием внезапных действий (5, с. 29-30).

Фактор внезапности должен использоваться не для создания стрессовой ситуации, а в целях не дать возможности недобросовестному допрашиваемому подготовить и осуществить меры противодействия расследованию. Учитывая данное обстоятельство, необходимо признать то, что фактор внезапности нередко сводит к минимуму тактический риск и способствует профилактике конфликтных ситуаций. В этой связи представляется абсолютно верным замечание, которое сделал А.Б. Соловьев о том, что при производстве допроса фактор внезапности не позволяет допрашиваемому подготовится к ложным измышлениям, и создаваемый эмоциональный фон благоприятствует даче правдивых показаний (11, с. 21).

Предъявление вещественных доказательств в целях изобличения или актуализации ассоциативных связей и помощи в воспоминании забытого является вполне допустимым тактическим приемом. Использование же дубликата (модели) в тактических целях вызывает споры и неоднозначное понимание в науке. Думается, что использование аналога вещественного доказательства либо иного предмета в целях помощи в припоминании

забытого является вполне допустимым, когда допрашиваемый занимает бесконфликтную позицию. Передача предметной аналоговой информации в данном случае направлено на возбуждение ассоциаций с выясняемыми фактами и не носит характера обмана. Однако здесь необходимо отметить, что подобный прием может продемонстрировать неосведомленность и отсутствие доказательств в условиях латентной конфликтной ситуации. В такой обстановке у следователя складывается ошибочное представление о бесконфликтности, и недобросовестный допрашиваемый может оценить передаваемую аналоговую предметную информацию как знак неосведомленности и отсутствия доказательств у лица, осуществляющего расследование. В целом же ни с этических позиций, ни с точки зрения закона использовании аналоговой предметной информации для оказания мнемической помощи допрашиваемому не вызывает возражений. В данном случае и допрашиваемый и следователь знают о том, что в целях наилучшего припоминания используется аналог предмета. Так, В.Ю. Шепитько в числе приемов, направленных на актуализацию забытого, отмечает показ вещественных доказательств, демонстрацию иной материализованной информации, использование изобразительных возможностей допрашиваемого (14, с. 52).

Этические требования, предъявляемые к рекомендациям по ведению допроса находятся в тесной связи с научной обоснованностью последних. Во-первых, следует отметить, что не все рекомендации, разработанные отдельными науками, применимы в криминалистической тактике. Во-вторых, появился целый ряд разработок псевдонаучного характера, внедрение которых в криминалистическую тактику, следственную и судебную практику способно нанести существенный ущерб достижению целей уголовного судопроизводства.

Так, отдельные ученые предлагают внедрить в процесс расследования отдельные технические разработки и приборы, способные якобы давать оценку поведению человека (10, с. 11-12). К подобным предложениям примыкают рекомендации в части использования полиграфа, которые оцениваются неоднозначно. Так, В.А. Митричев и Ю.П. Холодный считают, что необходимы серьезные научные исследования в области испытаний на полиграфе (8, с. 41). В психологии уже есть подобные исследования по поводу возможностей полиграфа в разоблачении лжи. По словам известного психолога Ж. Годфруа, даже сторонники применения полиграфа для диагностики лжи отмечают, что данный метод верен лишь на 90%, кроме того, замечено, «что субъект, который находится в состоянии напряжения или просто не знает, что его ждет, может создать впечатление, что он лжет, если будет настороженно реагировать на некоторые вопросы, смысл которых ему совсем непонятен» (3, с. 51-52). Полиграф регистрирует лишь физиологические изменения, отражая ритм сердца, дыхания, артериальное давление и изменения электропроводности кожи, но не ложь как таковую. Эмоциональные переживания и связанные с ними физиологические изменения могут зависеть от ряда причин: усталость, болезненное состояние, повышенный уровень тревожности, неизвестность и опасения по поводу происходящего и пр. Поэтому, если даже признать точность определения ложных высказываний с помощью полиграфа на 90%, нет оснований в каждом конкретном случае полностью доверять результатам такого рода исследований как доказательству. В этой связи Б.Ъ. Шадрин отмечал, что «в силу недостаточной надежности данных, полученных при проведении «инструментальной диагностики эмоциональной напряженности» испытуемых лиц, использование их в доказывании по уголовным делам не представляется возможным» (13, с. 41). Полиграф служит цели выявления эмоциональных различий на основе фиксации физиологических изменений, но причины последних остаются за пределами исследований, на которые способна техника. Поэтому название полиграфа детектором лжи является весьма условным.

Тем не менее, трудно согласиться с А.М. Лариным, который пишет, что «манипуляции с полиграфом умножат следственные и судебные ошибки, усугубят страдания их жертв и прибавят работы судам, прокураторам и следователям, адвокатам по выявлению и исправлению этих ошибок» (6, с. 52). Думается, что использование полиграфа как средства собирания доказательственной информации ни в коем случае нельзя признать допустимым, поскольку нет оснований доверять полученным в результате этого своеобразного лабораторного эксперимента сведениям на все сто процентов. Однако применение полиграфа в качестве средства получения ориентирующей информации в ходе осуществления оперативно-розыскных мероприятий представляется в ряде случаев весьма целесообразным.

Невозможность использования полиграфа, гипноза, психотропных препаратов при производстве следственных действий в целях получения доказательств обусловлено тем, что такое воздействие не оставляет человеку возможности сознательного выбора позиции и вариантов поведения, превращая его в бесправный объект исследования, а данные, полученные с помощью этих методов нельзя признать достоверными. Криминалистическая наука не только должна отметать лженаучные методы, но и способствовать в борьбе недопустимым применением обоснованных методов других наук, которые не могут безоговорочно использоваться в уголовном процессе. Таким образом, и психологические, и криминалистические исследования данной проблемы приходят к одному и тому же выводу: детектор лжи применим только для получения вероятностной информации, которая, тем не менее, может быть использована для выдвижения и проверки криминалистических версий.

Экспериментальные психологические исследования подтвердили негативное влияние стрессовой ситуации на нормальное функционирование организма. Эксперименты над животными и исследования стрессовых ситуаций в человеческом обществе убедительно доказывают, что стресс способен повлечь ряд тяжелых органических заболеваний (3, с. 11-12). В криминалистической и иной литературе продолжают встречаться рекомендации по использованию тактического приема создания состояния напряжения, которое, по мнению отдельных авторов, может быть инициировано напоминанием «об отвратительности совершения преступления, разъяснения недостойности поведения на допросе» (5, с. 51-52). Представляется, что такая рекомендация не способствует установлению психологического контакта, а с нравственной точки зрения нельзя рассматривать данный прием как средство создания состояния крайней напряженности, представляющей собой стрессовую ситуацию, поскольку в результате такого воздействия возникает угроза здоровью участника следственного действия. Следует также сказать, что создание состояния напряжения способно перерасти в конфликт. Поэтому применение такого тактического приема должно быть поставлено в зависимость от рекомендаций по поддержанию психологического контакта и недопущению конфликтных ситуаций.

С учетом названных ограничений думается, что создание напряжения определяет дополнительные возможности уличающего воздействия. Однако, само название термина представляется некорректным, поскольку сложно представить действия следователя направленные только на создание напряжения. Такое состояние является необходимым следствием ряда других тактических приемов уличающего характера, которые направлены не столько на создание напряжения, сколько на то, чтобы противодействующее лицо убедилось в бессмысленности отпирательства, в безнравственности занимаемой им позиции.

Ключевые слова: допрос, преступление, полиграф, гипноз, тактика, следствие.

Список использованной литературы

1. Базилевич А.А. Проблемы допустимости тактических приемов допроса. СпБ, Авангард, 2009.
2. Гаджиева Н.Г. Тактика допроса в конфликтной ситуации. Наука и образования, Баку, № 33, 2008.
3. Годфруа Ж. Что такое психология? / Соч. В 2-х Т. Пер. С франц. Н.Н. Алинова, А.В. Перелау и Т.Я. Эстриной. М.: Изд-во: «Мир», 1992, Т.1.
4. Горский Г.Ф., Кокорев Л.Д., Котов Д.П. Судебная этика. Воронеж: Изд-во Воронежского университета, 1973.
5. Гольдин И.А. Тактика допроса: проблемы и тенденции. Киев, Святошино, 2008.
6. Ларин А.М. Криминалистика и паракриминалистика. М.: 1996.
7. Любичев С.Г. Этические основы следственной тактики, Ростов, 1992.
8. Митричев В., Холодный Ю. Полиграф как средство получения ориентирующей криминалистической информации // Записки криминалистов. Выпуск 1. М.: Изд-во: «Юрикон», 1993.
9. Ратинов А.Р. Судебная психология для следователей. М.: Юрлитинформ, 2001.
10. Седой И.К. Пределы воздействия на участников процесса. Тверь, Темп, 2006.
11. Соловьев А.Б. Использование доказательств при допросе на предварительном следствии. Методическое пособие. М.: Юрлитинформ, 2001.
12. Шавер Б.М., Винберг А.Н. Криминалистика. /Учебник для юридических школ. – М.: Юридическое издательство НКЮ СССР, 1945.
13. Шадрин В.С. Обеспечение прав личности при расследовании преступлений: М.: Юрлитинформ, 2000.
14. Шепитько В.Ю. Допрос несовершеннолетних: психология и тактика. Харьков: Харьковский юридический институт, 1994.

Təranə İSAYEVA

CİNAYƏT İŞİNİN İSTİNTAQ ZAMANI PSİXOLOJİ TƏSİR ŞƏRAİTİ VƏ ONUN HÜDUDLARI

Xülasə

Kriminalistika taktikasında təsir fəndləri işlənib, hazırlanmışdır. Bu fəndlərin vasitəsilə istintaq əməllərinin iştirakçılarının iradi davranışlarına müdaxilə etmədən, psixoloji əlaqənin yaradılması, yalanların üzə çıxarılması, potensial konfliktlərin və s. profilaktikası və dəf olunması kimi məsələlər həll olunur. Bununla əlaqədar, cinayətin tədqiqatı zamanı psixoloji təsir şəraiti və hüdudları aktuallaşır.

Məqalə cinayət prosesinin, kriminalistika və psixologiyanın cinayət işinin tədqiqatı zamanı onlar arasındakı münasibətlərdə icazə verilmiş psixoloji təsir sahələrini əhatə edir.

Açar sözlər: istintaq, cinayət, poliqraf, hipnoz, taktika, əməliyyat.

Tarana ISAYEVA

CONDITIONS AND LIMITS OF PSYCHOLOGICAL IMPACT WHEN INVESTIGATING CRIMES

Summary

In criminalistics tactics methods of influencing have been developed. By means of these ways, not interfering into the interrogation, participants actions, such problems as establishing psychological relations, exposing the lies, profilactics of potential conflicts and other, and their prevention are being solved. With this connection during the investigation of a crime, condition of psychological influence and limits are actualized.

The article covers the spheres of psychological influence permitted in relations between crime process, criminalistics and psychology during investigaling crime case.

Keywords: interrogation, crime, polygraph, hypnosis, tactics, effect.

UOT 343.1

Əli Yusif ŞAHBAZİ
BDU, dissertant,
Rəşt Azad İslam Universiteti (İran), müəllim

QƏTL CİNAYƏTLƏRİNİN NÖVLƏRİ*

İran İslam Respublikasının qüvvədə olan qanunvericiliyi faktiki olaraq cinayətlərin ağırlıq kateqoriyaları baxımından təsnifatını verməmişdir. Lakin adam öldürmə cinayəti özünün ictimai təhlükəliliyinə və xarakterinə görə ən ağır cinayətlərdən biri hesab olunur. Hətta İranda hakim olan şəriət hüquq sisteminin əsası olan müqəddəs Qurani Kərimdə də müsəlman olan möminin öldürülməsi ən ağır cinayət hesab olunur və təqsirkarın cəzası əbədi olan cəhənnəmdə yer tutmağı kimi göstərilmişdir. Qəsdən adam öldürmə cinayətinin obyektini hər hansı bir şəxsin həyatı təşkil edirsə, obyektiv cəhətini bir şəxsin qanunsuz olaraq həyatdan məhrum edilməsi ifadə edir. İran İslam Respublikasının İslam Cinayət Cəzaları haqqında Qanunu, istər Azərbaycan Respublikası-nın, istərsə də Rusiya Federasiyasının Cinayət Məcəllələrindən fərqlənir. Belə ki, cinayətlər və cəzalar eyni qanunda birləşdirilmiş, lakin vahid sistem müəyyən olunmamış və cinayətlər öz obyektinə görə Cinayət Məcəlləsində qruplaşdırılmamışlar. Belə ki, göstərilən qanunun üçüncü hissəsinin birinci bölməsinin 204-210-cu maddələri qəsdən adam öldürmə cinayətinə həsr edilmiş, 5-ci hissənin 17-ci bölməsi isə şəxsiyyət əleyhinə cinayətlərə həsr edilmişdir. Islam Cinayət Cəzaları haqqında qanununun 204-cü maddəsinə əsasən qəsdən adam öldürmənin 3 növü müəyyən olunmuşdur:

1. qəsdən adam öldürmə;
2. qəsdən adam öldürməyə bənzəyən əməl (kvazi adam öldürmə);
3. təsadüfi adam öldürmə [11,s.147].

İslam Cinayət Cəzaları haqqında qanunun 205-ci maddəsinin məzmunundan belə görünür ki, törədilməsinə görə birmənalı olaraq ölənin yaxınlarına qisas almaq hüququnu nəzərdə tutan əməl qəsdən adam öldürmə hesab olunur. İslami Cinayət Məcəlləsində göstərilmiş təsnifatdan başqa hüquq nəzəriyyəsinə nəzər salsaq və orada olan fikirləri təhlil etsək qəsdən adam öldürmə cinayətinin aşağıdakı növlərini göstərmək olar:

- adi vəziyyətdə adam öldürmə cinayəti
- yüngülləşdirici hallarda adam öldürmə;
- ağırlaşdırıcı hallarda adam öldürmə cinayətləri [12,s.178].

İran İslam Respublikasıının cinayət qanunvericiliyinin maraqlı və Azərbaycan Respublikasının cinayət qanunvericiliyindən fərqləndirən tərəfi ondan ibarətdir ki, qəsdən adam öldürmə cinayətinin obyektinin müəyyən olunması həmin əməlin ictimai təhlükəliliyinin və xarakterinin müəyyən edilməsinin əsasını təşkil edir. Məsələn, Azərbaycan Respublikasının cinayət qanunvericiliyində ölənin kim olması deyil, sadəcə ölüm faktının olması adam öldürmə cinayətinin tərkibinin yaranması üçün kifayət edir. Ən azından isə sadə qəsdən adam öldürmə cinayəti üçün ağırlaşdırıcı formalar da var ki, bu maddənin tövsifedici hissəsində göstərilmişdir. Lakin İran İslam Respublikasının cinayət qanunvericiliyi ölənin kimliyinə xüsusi əhəmiyyət verir. Məsələn, zina üstündə tutulan qadının öldürülməsi faktı. Zahirən baxsaq, əməl konkret olaraq adam öldürmə cinayətidir. Cinayətin obyekti qadının həyatı, obyektiv cəhətdən adam öldürmə cinayətini maddi tərkibli cinayət kimi nəzərə alsaq qadının meyitinin hadisə yerində olması, subyekt qismində anlaqlı və müəyyən olunmuş yaş həddinə çatmış həmin zina edən qadının əri, subyektiv cəhətdən isə intiqam motivi və təqsirin qəsd formasıdır. Lakin Iran qanunvericiliyi zina

* Məqalə hüquq üzrə f.d. R.Şəmsizadə tərəfindən çapa məsləhət bilinib.

edən qadının əri tərəfindən dərhal öldürülməsini cinayət hesab etmir və tökülən qana görə də Quranda buyrulmuş qisas cəzası tətbiq olunmur.

Adam öldürmə cinayətinin obyektiv cəhətinə görə olan əlamətlər özünü həm İslam Cinayət Cəzaları haqqında qanunda, həm də şəriət qaydalarında öz əksini tapmışdır. Göstərilən qanunun birinci bölməsində 204-210-cu maddələri qətlin növləri, ikinci fəsil qətli törətməkdə qəsdin əlamətlərinin olmamasını və könülsüzlüyü əks etdirən 211-ci maddəni, üçüncü fəsil isə 212-218-ci maddələr olmaqla qətldə iştirak məsələsinə həsr edilmişdir. Obyektiv əlamətinə görə və eləcə də ağırlaşdırıcı hallarına görə qətl cinayətinin sistemləşdirilməsi aparılmamışdır. Zənnimizcə, isə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 120-ci maddəsində olduğu kimi ağırlaşdırıcı hallarda qəsdən adamöldürmə kimi əlamətlərin ayrılması daha məqsədəmüvafiq olardı. Lakin bununla belə qanunun mətnindən də görünür ki, müsəlman olan şəxsin, müsəlman olan ağıllı şəxsin, ölən şəxsin zina üstündə öldürülməsi kimi əlamətlər mövcuddur. Göründüyü kimi qanun adam öldürməyə və həmin əmələ görə təqsirkar şəxsin cəzalandırılması məsələsinə təxminən 90 maddə ayırmışdır. Yəni qisas almaq hüququnun verilməsi üçün İslam Cinayət Cəzaları haqqında qanunun 206-cı maddəsinə əsasən xüsusi şərtlərin olması zəruridir.

Bundan başqa İslami Cinayət Cəzaları haqqında qanunun 209-cu maddəsində yenə də qadınla kişinin arasında qeyri-bərabərliyi təsbit edən cinayət hüquq norması təsbit edilmişdir. Həmin maddəyə əsasən müsəlman kişi tərəfindən öldürülmüş müsəlman qadının yaxınlarına və qohumlarına o halda təqsirkardan qisas almaq hüququ verilmir ki, təqsirkar olan müsəlman kişi ölən müsəlman qadının yaxınlarına adi qaydada müsəlman kişinin öldürülməsi üçün ödənilən təzminatın – viranın yarısını ödəmiş olsun. Məhz qadının həyatına görə ödənilən viranın kişi üçün ödənilən viranın yarısını təşkil etməsi qanunvericinin mövqeyindən çıxış edərək belə nəticəyə gələmyə əsas verir ki, qadın həyatına nisbətən kişinin həyatı daha vacibdir. Lakin həmin qanunun 210-cu maddəsində imperativ xarakterli göstəriş ondan ibarətdir ki, qeyri-müsəlman olan şəxs tərəfindən öldürülən qeyri müsəlmanın qohumları və yaxınlarının onlara viranın ödənilib-ödənilməməsindən asılı olmayaraq qisas almaq hüququ vardır. Zənnimizcə, qanunun bu mövqeyi məqsədəmüvafiq hesab edilməməlidir. Belə ki, bəzi kateqoriya cinayətlərə görə ya qisas almaq hüququ, ya da vira və ya digər təzminat ödənilməsini nəzərdə tutuduğu halda bu kateqoriya cinayətlərdə həm qisas, həm də vira ödənilməsi nəzərdə tutulmuşdur. Ancaq maddədə digər bir göstəriş isə ölənin qadın olduğu təqdirdə kişi üçün ödənilən viranın yarısının ödənilməsi nəzərdə tutulmuşdur. Belə görünür ki, qanunverici hər bir halda qadın hüququnu tapdalayır, onun həyatını qoruyan ictimai münasibətləri olduqca son növbədə tənzim edir.

Azərbaycan Respublikasının qüvvədə olan Cinayət Məcəlləsinin 120-ci maddəsi adam öldürmə cinayətinə həsr edilmişdir. Həmin maddəyə əsasən digər şəxsin qəsdən həyatdan məhrum edilməsi qəsdən adam öldürmə hesab edilməlidir. Görkəmli hüquqşünas Şarqorodski də adam öldürmə cinayətinə yalnız şəxs tərəfindən qəsdən digər şəxsi həyatdan məhrum etmə kimi anlayış vermişdir. Bununla da ehtiyatsızlıqla əlaqədar adam öldürmə cinayəti həm praktiki, həm də nəzəri baxımından qəsdən adam öldürmə cinayətindən ayrılmış oldu. Göstərilən maddədə nəzərdə tutulmuş cinayətin subyekti 14 yaşına çatmış olan istənilən anlaqlı fiziki şəxs ola bilər. Subyektiv cəhətdən isə göstərilən cinayət yalnız birbaşa qəsdlə törədilə bilər. Cinayət törədən şəxs törətdiyi əməlin ictimai təhlükəliliyini dərk etmiş, baş verə biləcək nəticəni görmüş və həmin nəticəni arzu etmişdir.

Qəsdən adam öldürmə cinayətləri ənənəvi olaraq 3 qrupa bölünür:

- ağırlaşdırıcı və yüngülləşdirici əlamətləri olmadan qəsdən adam öldürmə;
- ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə;
- yüngülləşdirici hallarda qəsdən adam öldürmə.

Ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə cinayəti digər qətl cinayətləri ilə müqayisədə daha ictimai təhlükəlidir. Ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə cinayət tərkibinin yaranması üçün əməldə Cinayət Məcəlləsinin 120-ci maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş tövsifedici

əlamətlər mövcud olmalıdır. Cinayət Məcəlləsinin 120-ci maddəsinə əsasən qəsdən adam öldürmə, yəni digər şəxsi qəsdən həyatdan məhrum etmə yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Ağırlaşdırıcı hallara isə aşağıdakılar aid edilmişdir: qəsdən bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən adam öldürmə; xuliqanlıq niyyəti ilə adam öldürmə; zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özünü və ya yaxın qohumlarını öldürmə; xüsusi amansızlıqla və ya ümümi təhlükəli üsulla adam öldürmə; tamah məqsədi ilə və ya sifarişlə, habelə zərərçəkmiş şəxsin orqanlarından və ya toxumalarından istifadə etmək məqsədi ilə adam öldürmə; başqa cinayəti gizlətmə və ya onun törədilməsini yüngülləşdirmə məqsədi ilə, habelə zorlama və ya seksual xarakterli başqa zorakı hərəkətlərlə əlaqədar adam öldürmə; iki və ya daha çox şəxsi öldürmə; təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadını öldürmə; təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı öldürmə, habelə adam oğurluğu və ya girov götürülməsi ilə bağlı adam öldürmə; təkrar adam öldürmə; quldurluq, hədə-qorxu ilə tələb etmə, terrorçuluq və ya banditizmlə əlaqədar adam öldürmə; milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə adam öldürmə— on iki ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır [4,s.267].

Hüquq ədəbiyyatının görkəmli nümayəndəsi olan S.V.Borodin özünün «Kvaliфikaüiя prestupleniy protiv jizni» adlı monoqrafiyasında qəsdən adam öldürmə cinayətinin ağırlaşdırıcı hallarının subyektiv xüsusiyyətlərinə aid edir:

- tamah məqsədi ilə qəsdən adam öldürmə;
- xuliqanlıq niyyəti ilə adam öldürmə;
- zərərçəkmiş şəxsin öz xidməti vəzifələrini icra etməsi və ya ictimai borcunu yerinə yetirməsi ilə bağlı qəsdən adam öldürmə;
- başqa cinayəti gizlətmə və ya onun törədilməsini yüngülləşdirmə məqsədi ilə, habelə zorlama ilə bağlı qəsdən adam öldürmə;
- əvvəllər qəsdən cinayət törətmiş şəxs tərəfindən qəsdən adam öldürmə;
- qan intiqamı motivi niyyəti ilə qəsdən adam öldürmə;
- xüsusi təhlükəli residivist tərəfindən qəsdən adam öldürmə [18,s.39].

Lakin həmin təsnifatda eyni zamanda müəllif ağırlaşdırıcı hallarda adam öldürmə cinayətinin obyektiv xüsusiyyətlərinə də yer ayırmışdır. Obyektiv xüsusiyyətlərə aid edir:

- xüsusi amansızlıqla qəsdən adam öldürmə;
- bir çox şəxsin həyatı üçün təhlükəli ola biləcək üsulla qəsdən adam öldürmə;
- təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadını öldürmə;
- iki və ya daha çox şəxsin qəsdən öldürülməsi;

Cinayət hüququ üzrə görkəmli hüquqşünas olan Firudin Səməndərov isə özünün «Şəxsiyyət əleyhinə edilən cinayətlərin tövsif məsələləri» adlı dərs vəsaitində adam öldürmə cinayətinin subyektiv xüsusiyyətinə aid olan ağırlaşdırıcı hallara tamah motivi ilə qəsdən adam öldürməni, xuliqanlıq məqsədi ilə qəsdən adam öldürmə, zərərçəkən şəxsin öz qulluq və ya ictimai vəzifəsini yerinə yetirməsi ilə əlaqədar olaraq qəsdən adam öldürmə, başqa cinayəti gizlətmə və ya onun törədilməsini yüngülləşdirmə məqsədi ilə, habelə zorlama ilə əlaqədar qəsdən adam öldürmə, əvvəllər qəsdən adam öldürmüş (CM-nin 96-99-cu maddələrində nəzərdə tutulan cinayələr istisna olmaqla) şəxs tərəfindən qəsdən adam öldürmə (təkrarlıq) əməllərini aid edir.

Yüngülləşdirici hallarda qəsdən adam öldürmə cinayətlərinə Cinayət Məcəlləsinin 121-ci maddəsi olan ananın yeni doğduğu uşağı doğuş vaxtı və ya doğuşdan dərhal sonra qəsdən öldürməsi, zərərçəkmiş şəxs tərəfindən edilən zorakılıq, ağır təhqir və sair qanunsuz və ya əxlaqsız hərəkətlər (hərəkətsizlik) nəticəsində, habelə zərərçəkmiş şəxsin mütəmadi qanunsuz və ya əxlaqsız davranışı ilə əlaqədar yaranmış uzun sürən dözülməz psixi şərait nəticəsində qəflətən baş vermiş güclü ruhi həyəcan (affekt) vəziyyətində qəsdən adam öldürmə (122-ci maddə), zəruri

müdafiə həddini aşmaqla və cinayət törətmiş şəxsin tutulması üçün zəruri həddi aşmaqla qəsdən adam öldürmə (123-cü maddə) və evtanaziya, yəni xəstənin xahişi ilə onun ölümünü hər hansı vasitə, yaxud hərəkətlə tezləşdirmə və ya onun həyatının davam etməsinə kömək edən süni tədbirləri dayandırmaqla qəsdən adam öldürmə (135-ci maddə) əmələri daxildir.

Ananın yeni doğduğu uşağı doğuş vaxtı və ya doğuşdan dərhal sonra qəsdən öldürməsi həmin cinayət əməlinin obyektiv cəhətini təşkil edir. Uşağın doğuş vaxtı öldürülməsi doğum prosesində – hələ uşaq ana bətnindən tam kənarlaşana qədər öldürülməsini nəzərdə tutur. Göstərilən cinayət əməlinin hansı üsulla törədilməsinin əməlin tövsifinə heç bir təsiri yoxdur. Həmin əməl həm fəal hərəkətlərlə müşahidə oluna bilər, həm də hərəkətsizliklə. Məsələn, uşağa zərbələr endirməklə və ya uşağın doğulması üçün doğum prosesində və ya sonra zəruri olan hərəkətlərin edilməməsi.

Ağır təhqir və sair qanunsuz və ya əxlaqsız hərəkətlər (hərəkətsizlik) nəticəsində, habelə zərərçəkmiş şəxsin mütəmadi qanunsuz və ya əxlaqsız davranışı ilə əlaqədar yaranmış uzun sürən dözülməz psixi şərait nəticəsində qəflətən baş vermiş güclü ruhi həyəcan (affekt) vəziyyətində qəsdən adam öldürmə yüngülləşdirici hallarda adam öldürmə cinayətinin bir növüdür. Affekt latın sözü olub, ruhi təlatüm, həyəcanlanma mənasını verir. Elmi ədəbiyyatda affektin özünün iki növü fərqləndirilir. Onlardan birincisi fizioloji affektdir. Bu zaman şəxsin psixi fəaliyyəti müəyyən müddətə pozulur və o, anlaqsız vəziyyətə düşür. Patoloji affekt isə öz tibbi meyarına əsasən beyində möhkəm ləngimə prosesi ilə müşahidə olunur, nitqin və təfəkkürün pozulması halı baş verir, hərəkətlər üzərində şüurlu nəzarət yox olur və iradəvi fəaliyyət neytrallaşır.

Yüngülləşdirici hallarda qəsdən adam öldürmə cinayətinin digər növünü isə zəruri müdafiə həddini aşmaqla və cinayət törətmiş şəxsin tutulması üçün zəruri həddi aşmaqla qəsdən adam öldürmə cinayətləri təşkil edir. Obyektiv cəhətdən həmin əməldə müdafiə həddi aşağıdakı formada aşılmış hesab edilir:

- hücumda və müdafiədə istifadə edilən vasitələrin uyğun olmaması;
- müdafiənin qəsdlə müqayisədə daha intensiv formada həyata keçirilməsi;
- müdafiə zamanı qəsdlə müqayisədə açıq uyğun olmayan tədbirlərin seçilməsi.

Beləliklə, yol verilən hərəkətlərin zəruri müdafiə vəziyyətində törədilən əməl hesab edilməsi və cinayət məsuliyyətinin aradan qalxması üçün zəruri müdafiə institutuna xarakterik olan iki qrup şərtlərə riayət edilməlidir: a) qəsd əməli ilə bağlı zəruri müdafiənin hüquqi şərtləri; b) müdafiə hərəkətləri ilə bağlı zəruri müdafiənin hüquqilik şərtləri.

Cinayət törədən şəxsin tutulması zamanı zəruri müdafiə həddini aşmaqla törədilən adam öldürmə cinayətinin xüsusiyyəti ondan ibarətdir ki, təqsir olan şəxs tutma vəziyyətində olmalıdır. Cinayət Məcəlləsinin 37-ci maddəsinə əsasən cinayət törətmiş şəxsin səlahiyyətli dövlət hakimiyyəti orqanlarına gətirilməsi və ya yeni cinayətlər törətməsinin qarşısının alınması məqsədi ilə tutulduğu zaman ona zərər yetirilməsi, əgər həmin məqsəd üçün bütün digər təsir imkanlarından istifadə lazımi nəticə verməmişsə və bunun üçün zəruri olan tədbirlərin həddi aşılmamışdırsa, cinayət sayılmır. Cinayət törətmiş şəxsin tutulması üçün tətbiq edilən vasitələrin və üsulların törədilmiş əməlin və həmin əməli törətmiş şəxsin ictimai təhlükəlilik dərəcəsinə, habelə tutulmanın hallarına aşkar surətdə uyğun gəlməməsi və zərurət olmadan şəxsə açıq-aşkar həddən artıq zərər vurulması şəxsin tutulması üçün zəruri olan tədbirlərin həddini aşmaq hesab olunur. Həddi bu qaydada aşma, yalnız qəsdən zərər vurulduqda cinayət məsuliyyətinə səbəb olur.

Yüngülləşdirici hallarda qəsdən adam ölürmə cinayətinin xüsusi növünü evtanaziya təşkil edir. Evtanaziya özü yunan sözü olub mənası xeyirxah ölüm deməkdir [16,s.171]. Zərərçəkmiş şəxsin dözülməz ağrılarının olması və sağalmaz xəstəliyə mübtəla olması təqsirkar şəxsdə ona qarşı mərhəmətlilik niyyəti ilə cinayət etməyə sövq edir. Belə ki, burada başlıca amil rolunda həm də zərərçəkmiş şəxsin özünün xahişinin olmasıdır. Ancaq hər bir halda göstərilən əməl yüngülləşdirici olsa da qəsdən adam öldürmə kimi tövsif olunur. Göstərilən əməldə xüsusi ictimai təhlükəli niyyət təqsirkar şəxsdə formalaşmış olmur. Subyektiv cəhətdən əməl qəsdin dolayı növü

ilə törədilir. Çünki şəxs törətdiyi və xəstəni həyatdan məhrum etməklə ifadə olunan qəsdən adam öldürmə cinayətinin ictimai təhlükəliliyini dərk edir, onun nəticəsini görür, həmin nəticənin baş verməsini arzu etməsə də onun baş verməsinə şüurlu surətdə yol verir. Zərərçəkmiş şəxsin ağrı və əzablarına son qoymaq üçün təqsirkar şəxsdə yalnız mərhəmətlilik niyyəti formalaşmış olur.

Istər hüquq ədəbiyyatında, istərsə də təcrübədə mühüm əhəmiyyət kəsb edən hal qəsdən adam öldürmə cinayəti ilə sağlamlığa ağır zərər vurma nəticəsində zərərçəkmiş şəxsin ölümü arasında olan fərqin müəyyən edilməsidir. Obyektiv cəhətinin bir çox əlamətləri və o cümlədən də kriminal nəticəsi (insanın ölümü) eyni olan bu iki oxşar cinayət tərkibinin bir-birindən fərqləndirilməsi bu kateqoriyadan olan cinayətlərin düzgün tövsif edilməsində mühüm rol oynayır. Göstərilən cinayətlər bir-birindən həm obyektiv və həm də subyektiv cəhətlərinə görə fərqlənirlər. Lakin onların fərqləndirilməsində aparıcı meyar kimi bu cinayətlərin subyektiv cəhətinin elementləri: təqsir və niyyət daha böyük rol oynayır. CM-nin 120.1-ci maddəsi qəsdən adam öldürmənin təqsirin yalnız qəsd formasında törədilməsini birbaşa nəzərdə tutur. Bu cinayəti törətmiş şəxs digər şəxsi qəsdən həyatdan məhrum etməyə yönəlmiş əməlinin ictimai təhlükəli olduğunu dərk edir və onun ictimai təhlükəli nəticələrini qabaqcadan görür. Plenumun qərarının 2-ci bəndinə görə qəsdən adam öldürmə cinayəti həm birbaşa, həm də dolayı qəsdlə törədilə bilər. CM-nin 126.3-cü maddəsinin dispozisiyasından isə bilavasitə görünür ki, qəsdən sağlamlığa az ağır zərər vurmağa yönəlmiş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda, bu maddədə nəzərdə tutulmuş cinayətə görə məsuliyyət yaranır. Bu iki cinayət tərkibinin bir-birindən fərqləndirilməsinin meyarları Plenumun qərarında da nəzərdə tutulmuşdur. Belə ki, qərarın 3-cü bəndinə görə «... qəsdən adam öldürmədə təqsirkarın niyyəti zərərçəkmişi həyatdan məhrum etməyə yönəldiyi halda... CM-nin 126.3-cü maddəsində nəzərdə tutulan əməldə ölümün baş verməsinə münasibəti ehtiyatsızlıqla ifadə olunur...». Ölümə səbəb olan qəsdən sağlamlığa ağır zərər vurma sağlamlığa ağır zərər vurulmasından və zərərçəkmiş şəxsin ölümündən ibarət olan iki kriminal nəticəni nəzərdə tutur. Bu cinayətin törədilməsi zamanı təqsirkar şəxsin sağlamlığa ağır zərər vurulmasına psixi münasibəti təqsirin yalnız qəsd formasında və zərərçəkmiş şəxsin ölümünə psixi münasibəti isə təqsirin yalnız ehtiyatsızlıq formasında təzahür edir. [4,s.285].

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 126-cı maddəsinin dispozisiyasında sağlamlığa ağır zərər vurma dedikdə, qəsdən sağlamlığa ağır zərər vurma, yəni insan həyatı üçün təhlükəli olan görmə, eşitmə, nitq qabiliyyətinin və ya hər hansı bir orqanın, yaxud bu orqanın funksiyasının itirilməsinə, psixi pozuntuya və ya sağlamlığın başqa cür pozulmasına, əmək qabiliyyətinin üçdə bir hissəsindən az olmamaqla uzun müddətə itirilməsi ilə və ya təqsirkar üçün aşkar surətdə zərərçəkmiş şəxsin peşəkar əmək qabiliyyətinin tam itirilməsi ilə əlaqədar olan yaxud hamiləliyin pozulmasına, şəxsin narkomanlıqla və ya toksikomanlıqla xəstələnməsinə səbəb olan, yaxud sifətin silinməz dərəcədə eybəcərləşdirilməsi nəzərdə tutulmuşdur. İran İslam Respublikasının İslami Cinayət Cəzaları Məcəlləsinin 9-cu bölməsi bədənə yetirilən zərərvurmaya görə ödənilən viradan bəhs edir. Həmin Məcəllənin 294-cü maddəsinə əsasən vira insan həyatına və sağlamlığa qəsd edən əməllərə görə ödənilən maddi təzminat formasıdır. Həmin bölmədə göstərilən əlamətləri təhlil edərək görürük ki, sağlamlığa vurulan ağır dərəcəli xəsarətlərlə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin yuxarıda qeyd olunan qaydalarında olan xəsarətlər demək olar ki, üst-üstə düşür. Lakin başlıca fərq ondan ibarətdir ki, həmin məsələlər İran İslam Respublikasının Cinayət Qanunvericiliyi ilə tənzimləndiyi halda Azərbaycan Respublikasında həmin məsələ Səhiyyə Nazirliyinin Əmri ilə təsdiq olunur və həmin normalar blanket xarakterli normalar kimi çıxış edir. İran Cinayət Qanunvericiliyinə əsasən vira cəzasının tətbiqi zərərçəkmiş şəxsin yaxınlarına təqsirkar şəxsdə qisas almaq hüququnu istisna edir. Sağlamlığa vurulan və dərəcəsinə görə həyat üçün təhlükəli hesab olunan ağır dərəcəli zərərvurmaya görə vira yalnız təqsirkarın zərərçəkmiş şəxsi öldürmək və ya ağır xəsarət yetirmək niyyətinin olmadığı halda,

kvazi adam öldürmə cinayətlərində - məsələn, ov zamanı obyektdə səhv edilərək heyvanın yerinə insanın vurularaq öldürülməsi və s.

Dövlətin törədilmiş hər bir cinayətə görə cəzaların təyin edilməsi ilə onların lazımi qaydada icrasını təmin edən penallaşdırma siyasəti məhz cinayət qanunvericiliyinə daxil olunmuş və cəza təhdidi altında nəzərdə tutulan ictimai təhlükəli əmələin törədilməsinə görə müəyyən etdiyi sanksiyalarda özünü biruzə verir. Əmələin ictimai təhlükəliliyi nə qədər çox olarsa, deməli həmin əmələ görə nəzərdə tutulan sanksiya da bir o qədər ağır olmalıdır. Sanksiya müəyyən olunarkən birinci növbədə törədilmiş əmələin ictimai təhlükəliliyi və eləcə də təqsirləndirilən şəxsin şəxsiyyətini xarakterizə edən hallar nəzərə alınmalıdır. Sanksiya müəyyən növ cinayətə görə cəzanın növünü və həddini nəzərdə tutan normanın hissəsinə deyilir. S.Q.Kelina haqlı olaraq qeyd edir ki, ədalət və humanizm kimi prinsiplər «cinayət hüquq prinsiplərinin məcmusunu təşkil edir və cinayət hüququnun cinayət məsuliyyətinin əsaslarının nədən ibarət olmasına, törədilmiş cinayətə görə konkret şəxsin məsuliyyətinin formasının, həmçinin də həcminin necə müəyyən edilməsinə cavab verir.

Açar sözlər: adam öldürmə, Cinayət Cəzaları Qanunu, İran İslam Respublikası, cinayət tərkibi, qətlin növləri.

İstifadə olunmuş ədəbiyyat

1. Ağayev İ.B. Cinayət tərkibi. Dərs vəsaiti. Bakı: Təhsil, 2005, 496 s.
2. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası /Prof. F.Y. Səməndərovun redaktəsi ilə. Bakı: Digesta, 2009, 1012 s.
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Qanun, 2010, 356 s.
4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası /F.Y.Səməndərovun redaktəsi ilə. Bakı: Digesta, 2007, 960 s.
5. İmanlı M.N. Cinayət hüququ. Xüsusi hissə. Təcrübi materiallar toplusu ilə birgə dərslik. Bakı: Zərdabi, 2009, 656 s.
6. Məmmədov İ.P. Şəxsiyyət əleyhinə olan cinayətlər. Bakı, 1971, 227 s.
7. Naumov A.V. Cinayət hüququ. Bakı: Qanun, 1998, 640 s.
8. Səmədova Ş.T. Cinayətlərin kateqoriyaları. Bakı: Adiloğlu, 2007, 314 s.
9. Səməndərov F.Y. Cinayət hüququ: Ümumi hissə. Dərslik. Bakı: Digesta, 2009, 700 s.
10. Səməndərov F.Y. Şəxsiyyət əleyhinə edilən cinayətlər (tövsif məsələləri). Dərs vəsaiti. Bakı: BDU, 1997, 191 s.
11. İran İslam Respublikasının İslami Cinayət Cəzaları haqqında Qanunu. Tehran: Törə. Əlhuda nəşriyyatı, 2008, 153 s.
12. Mənsur G. İslami Cinayət Məcəlləsi. Tehran: Tehran Universitetinin nəşriyyatı, 2008, 319 s.
13. Nokəndei A. Qəsdən adamöldürmənin hüququ təhlili. Tehran: İğbal, 2004, 206 s.
14. Qolduzian F. İxtisaslaşdırılmış Cinayət Hüququ. Tehran: Şəhid Behşeddin, 1989, 336 s.
15. Qolduzian F. İranın Ümumi Cinayət Hüququ. Tehran: İğban, 2004, 289 s.
16. Pad A. İxtisaslaşdırılmış cinayət hüququ. Tehran: İğbal, 1973, 380 s.
17. Şambiani H. Ümumi Cinayət Hüququ. Tehran: Tehran Universitetinin nəşriyyatı, 1997, 5732 s.
18. Бородин С.В. Квалификация преступлений против жизни. М.: Юридическая литература, 1977, 237 с.
19. Брайнин Я.М. Уголовная ответственность и ее основание в советском уголовном праве. М.: Юридическая литература, 1963, 276 с.

Али Юсиф ШАХБАЗИ

ВИДЫ ПРЕСТУПЛЕНИЙ ПО УБИЙСТВАМ

Резюме

В статье были исследованы разные виды убийство. Простые виды убийств, убийства при отягчающих обстоятельствах и убийство при смегчающих обстоятельствах. Квалифицировать (от лат. гуаилс – качество) значит относить некоторое явление по его качественным признакам, свойствам к какому-либо разряду, виду, категории. Квалифицировать преступления – значит дать ему юридическую оценку, уголовно-правовую норму, предусматривающую это деяние. Понятно, что такой вывод появляется в результате сложной, подчас длительной и кропотливой работы органов дознания, следователя, прокурора, суда; эта работа предполагает детальное изучение обстоятельств дела, уяснение смысла закона, выбор соответствующей уголовно-правовой нормы, сопоставления содержащихся в ней признаков состава преступления с признаками фактически совершенного деяния и, наконец, построение вывода, который закрепляется в правовых документах. Убийство относится к числу тех преступлений, при квалификации которых встречаются нередко значительные трудности, обусловленные многообразием различных ситуаций совершения этих преступлений, с одной стороны, и определенной сложностью признаков, характеризующих различные виды убийства, - с другой.

Ключевые слова: убийство, Закон об уголовных наказаниях, Иранская Исламская Республика, состав преступления, виды убийств.

Ali Yusif SHAHBAZI

THE TYPES OF MURDER CRIME

Summary

In the paper the different types of murder have been studied: simple types of murder, aggravated murder and murder by estanuating circumstances. To qualify (from the Latin quails – quality) means to refer some events on its qualitative characteristics, properties to any class, type, category. To define a crime means to give it a legal assessment, criminal law norm, foreseeing that act. It is clear that such a conclusion is a result of a complex, often long and painstaking work of the inquiry body, investigator, prosecutor, court, this work involves detailed study of the circumstances of the case, understanding the meaning of the law, the choice of a proper criminal law provision, comparing elements of the crime containing in it the signs of actually committed offense and finally, construction of which is sealed in legal documents. Murder is one of those crimes, at gualification of which considerable difficulties due to a variety of different situations of these crimes are frequently encountered, on the one hand, and the complexity of certain symptoms that characterize the different types of murder, on the other hand.

Keywords: murder, the Law on Criminal Punishments, Iranian Islamic Republic, corpus delicti, murder kinds.

UOT 341

Ofeliya MAHMUDOVA
AMEA FSHİ, dissertant

MİLLİ REJİM PRİNSİPİNİN AZƏRBAYCAN VƏ TÜRKİYƏ RESPUBLİKALARI ARASINDA YARANAN MÜNASİBƏTLƏRİN BEYNƏLXALQ XÜSUSİ HÜQUQİ TƏNZİMLƏNMƏSİ PROSESİNDƏ ROLU*

Beynəlxalq xüsusi hüquqi tənzimetmənin normativ qaydada təsbit olunan prinsiplərindən biri də milli rejim (national treatment) prinsipidir. Dövlətlərin hüquq bərabərliyi, insan hüquqlarına hörmət və s. kimi ümumtanınmış prinsiplərə əsaslanan, dövlətlər arasında dinc, işgüzar əməkdaşlığı şərtləndirən milli rejim prinsipi beynəlxalq xüsusi hüququn ümumtanınmış prinsiplərindəndir. Milli rejim prinsipi dövlətlərlə xarici şəxslər arasındakı münasibətlərlə yanaşı, həmin şəxslərin mənsub olduğu dövlət arasındakı münasibətləri də tənzimləyir.

Türkiyə-Azərbaycan münasibətlərinin beynəlxalq xüsusi hüquqi tənzim edilməsinin hüquqi əsasını təşkil edən milli rejim prinsipi, hüquq bərabərliyinə malik olan Türkiyə və Azərbaycan dövlətlərinin fiziki və hüquqi şəxslərinin hüquq bərabərliyini şərtləndirir. Bu baxımdan milli rejim prinsipi insan hüquqlarının müdafiəsinin beynəlxalq xüsusi hüquqa məxsus təminat formasıdır. Milli rejim prinsipinin hüquqi məzmunu ondan ibarətdir ki, Türkiyə Respublikası və Azərbaycan Respublikası birtərəfli qaydada (qanun əsasında) və ya ikitərəfli qaydada (beynəlxalq müqavilə əsasında) qarşılıqlı olaraq digər tərəfin fiziki və hüquqi şəxslərinin hüquqi vəziyyətini öz fiziki və hüquqi şəxslərinin hüquqi vəziyyətinə bərabərləşdirir.

Azərbaycan Respublikasının və Türkiyə Respublikasının qanunvericiliyini müqayisə etsək, Türkiyə-Azərbaycan münasibətlərində milli rejim prinsipinin birtərəfli qaydada tətbiqinin bir sıra xüsusiyyətlərə malik olmasının şahidi olarıq. Birinci xüsusiyyət - milli rejim prinsipinin hər iki dövlətin Konstitusiyası ilə müəyyən edilməsidir. Belə ki, Türkiyə Respublikasının 1982-ci il Konstitusiyasında (Anayasasında) «Əsas haqlar və vəzifələr» adlanan hissəsində nəzərdə tutulan əsas haqq və azadlıqlardan vətəndaş və ya xarici (əcnəbi) olmasından asılı olmayaraq hər kəsin istifadə etməsini müəyyən edir. Xaricilər üçün bəzi məhdudiyyətlərin zəruriliyini nəzərə alan Anayasa bu haqq və azadlıqların xaricilər üçün yalnız beynəlxalq hüquqa uyğun məhdudlaşdırıla bilməsini təsbit edir.

Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyasında qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa qayda nəzərdə tutulmadıqda, Konstitusiyanın ikinci bölməsində nəzərdə tutulan əsas hüquq və vəzifələrin Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər olaraq xaricilərə (əcnəbilərə) və vətəndaşlığı olmayan şəxslərə də şamil olunduğunu qeyd edir. Konstitusiyanın bu müddəası Azərbaycan Respublikasının beynəlxalq hüquq qanunvericiliyi aktlarında, məsələn, «Beynəlxalq xüsusi hüquq haqqında» qanunda «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında» Qanunda (m.4) (1, s.284), o cümlədən mülki qanunvericilik aktlarında, məsələn, «Əmtəə nişanları və coğrafi göstəricilər haqqında» Qanunda (m.36) (1, s.284) təsbit olunur.

İkinci xüsusiyyət - hər iki dövlətin qanunvericiliyi ümumi formada milli rejimin qarşılıqlı şərtinə əsaslanmadan müəyyən olunmasını nəzərdə tutur. Əlbəttə ki, ayrı-ayrı qanunlarda bu şərtdən istifadə edilməsi, məsələn, Türkiyənin 1985-ci il «Banklar haqqında Qanunu» (m.6/2) (2, s.56) və ya müəyyən hallarda həmin şərtə əsaslanaraq cavab tədbirlərinin həyata keçirilməsi istisna edilmir. Məsələn, Azərbaycan Respublikasının «Beynəlxalq xüsusi hüquq haqqında» Qanunu (m.15).

---

* Məqalə h.e.d., prof. R.Məmmədov tərəfindən çapa məsləhət bilinib.

Üçüncü xüsusiyyət - hər iki dövlətin qanunvericiliyində milli rejimdən istisnaların mümkün olması və bu istisnaların qanun və ya beynəlxalq müqavilə ilə həyata keçirilməsinin nəzərdə tutulmasıdır. İstər Türkiyə Respublikasının Konstitusiyasında (m.16), istərsə də Azərbaycan Respublikasının Konstitusiyasında (m.69) məhdudiyyət və ya istisnaların yalnız qanunla mümkünlüyü göstərilir. Müqayisə etsək görərik ki, Azərbaycan Respublikasının Konstitusiyasında istisna və ya məhdudiyyətin qanunla, həm də beynəlxalq müqavilə yolu ilə edilə bilməsi qeyd olunursa (m.69), Türkiyə Respublikasının Konstitusiyasında məhdudiyyətin yalnız qanunla olması (m.16) təsbit olunur. İlk baxışda bunu terminoloji fərqlilik kimi müəyyən etmək olar. Əslində, «istisna» və «məhdudlaşdırma» eyni məzmunlu anlayışlar deyil. Belə ki, «məhdudlaşdırma» dedikdə, əcnəbilərin hüquqi vəziyyətinin vətəndaşlara nisbətdə azaldılması başa düşülür. «İstisna» anlayışını həm bu mənada, həm də əks mənada başa düşmək olar. Məsələn, ola bilər ki, əcnəbilərə daha əlverişli rejim də tətbiq olunsun. Bu rejim milli rejimdən istisna təşkil edir və əcnəbiyə vətəndaşa nisbətdə daha yaxşı hüquqi vəziyyətin verilməsini də şərtləndirir. Bu rejim isə, bir qayda olaraq, beynəlxalq müqavilələrə müəyyən olunur. Bu baxımdan Azərbaycan Respublikasının Konstitusiyasının mövqeyini daha düzgün hesab etmək olar.

Əcnəbilərə münasibətdə tətbiq olunan istisna və məhdudiyyətlərin kökündə cəmiyyətin sağlamlığı, ictimai təhlükəsizlik, publik qayda və s. səbəblər dura bilər (3, s.117). Bu baxımdan istisna və ya məhdudiyyətlər heç də qeyri-hüquqi hesab olunmur. Məsələn, siyasi hüquqlar, dövlət qulluğu ilə bağlı məhdudiyyətlər artıq ümumi qəbul olunan haldır. Bundan başqa, milli rejim iki dövlətin fiziki və hüquqi şəxslərini hüquqi baxımdan bərabər etsə də, bəzi hallarda faktiki qeyri-bərabərlik yaradır. Belə ki, iqtisadi qeyri-bərabərlik şəraitində milli rejim iqtisadi baxımdan daha güclü olan əcnəbi tərəfdaşa daha çox üstünlük verə bilər və faktiki olaraq milli hüquqi şəxslərin rəqabət qabiliyyətini məhdudlaşdıra bilər. Qeyd etdiyimiz bu və ya digər səbəblərdən dövlət milli rejimdən müəyyən istisnalar müəyyən edir. Azərbaycan Respublikasının «Sığorta haqqında» 1999-cu il Qanununa görə xarici sığortaçıların Azərbaycan Respublikasında bilavasitə sığortaçı qismində fəaliyyəti qadağandır, onlar yalnız Azərbaycan Respublikası milli hüquqi və fiziki şəxsləri ilə birgə sığorta təşkilatlar yarada bilərlər. Bu təşkilatların Nizamnamə kapitalında xarici hüquqi və fiziki şəxslərin məcmu iştirak payı, 49 faizdən artıq ola bilməz (m.23) (4, s.175). Məsələn, 1996-cı ildə yaradılan «Başak-inam sığorta şirkəti»nin - Azərbaycan-Türkiyə Sığorta və Təkrar Sığorta Qapalı Səhmdar cəmiyyətinin səhmlərinin 49%-i Türkiyə tərəfindən Başak Sığorta AS-nə məxsusdur.

Bundan başqa «Torpaq icarəsi haqqında» 1998-ci il Azərbaycan Respublikasının Qanununda əcnəbilərin icarə münasibətlərində yalnız icarəçi və subicarəçi kimi iştirak edə bilməsi qeyd olunur (m.8) (4, s.22).

Dördüncü xüsusiyyət - hər iki dövlətin qanunvericiliyində əcnəbilərə münasibətdə həyata keçirilən məhdudiyyətlərin beynəlxalq hüquqa müvafiq olması zərurətinin təsbit edilməsidir. Belə ki, Türkiyə Respublikasında əcnəbilərin hüquq və azadlıqları beynəlxalq hüquqa uyğun olaraq (Konstitusiya, m.16), Azərbaycan Respublikasında yalnız beynəlxalq hüquq normalarına və qanunlarına uyğun olaraq məhdudlaşdırıla bilər (Konstitusiya, m.69, II). Göründüyü kimi, hər iki dövlətin qanunvericiliyində beynəlxalq hüquqa uyğun olmaqla əcnəbilər üçün bəzi hüquqların tanınmasında şərtlər qoyulması, bəzi hüquqların isə heç tanınmaması mümkündür (2, s.55).

Maraq doğuran odur ki, Azərbaycan Konstitusiyası məhdudlaşdırma üçün hüquqi əsas kimi qanunu və beynəlxalq hüquq normalarını qeyd edir. Başqa sözlə, Azərbaycan bu məsələdə yalnız tərəfdar çıxdığı beynəlxalq müqavilələri deyil, həm də ümumtanınmış prinsipləri və digər beynəlxalq hüquqi adətləri rəhbər tuta bilər. Göründüyü kimi, əcnəbilərə münasibətdə tətbiq edilən istisnaların yalnız beynəlxalq müqavilələrə və qanunlara əsaslanmasını qeyd edən qanunverici, məhdudiyyətlərin tətbiqində yalnız beynəlxalq müqavilələrlə məhdudlaşmamağı göstərir. Bu baxımdan beynəlxalq əsas kimi müqavilə və adətlərlə yanaşı, köməkçi mənbə

qismində beynəlxalq məhkəmə qərarları da çıxış edə bilər (4, s.55). Digər tərəfdən qanunauyğun məhdudlaşdırma beynəlxalq hüquq normalarına zidd ola bilməz.

Milli rejim əsasən dövlətdaxili qanunvericiliklə müəyyən olunsa da, beynəlxalq müqavilələrdə də təsbit olunur. Azərbaycan və Türkiyə arasında bağlanan bir sıra ikitərəfli müqavilələrdə milli rejim prinsipi təsbit olunub. Məsələn, «Sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında» 2004-cü il Sazişində (m.3), «mülki və ticarət işləri üzrə hüquqi əməkdaşlıq haqqında» 2002-ci il Müqaviləsində (m.2), «sosial müdafiə sahəsində əməkdaşlıq haqqında» 1998-ci il Sazişində (m.4) və s. bir tərəfin fiziki və hüquqi şəxslərinin digər tərəfin ərazisində milli qanunvericiliyə uyğun olaraq həmin tərəfin fiziki və hüquqi şəxslərinə verilmiş hüquqlardan istifadə edəcəyi nəzərdə tutulur.

Milli rejim prinsipi Azərbaycanın və Türkiyənin iştirak etdikləri bir çox beynəlxalq xüsusi hüquqi sferasındakı çoxtərəfli beynəlxalq müqavilələrdə də təsbit olunub. Məsələn, «Ədəbi və bədii əsərlərin mühafizəsi haqqında» 1886-cı il Bern Konvensiyası (m.5.1) (5, s.95). Azərbaycan Respublikası 1998-ci ildən, Türkiyə Respublikası 1951-ci ildən üzvüdür. «Sənaye mülkiyyətinin mühafizəsi haqqında» 1983-cü il Paris Konvensiyası (m.2) (5,s.134) - Azərbaycan Respublikası 1995-ci ildən, Türkiyə Respublikası 1957-ci ildən üzvüdür.

Milli rejim prinsipinə əsasən Türkiyənin fiziki şəxsləri həm hüquqlardan istifadədə, həm də vəzifələrin yerinə yetirilməsində Azərbaycanın vətəndaşlarına bərabərləşdirilirlər. Onlar qanunvericilik aktlarının tələblərinə riayət etməklə yanaşı, Azərbaycan xalqının adət və ənənələrinə hörmətlə yanaşmalıdırlar («Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında» Qanun, m.4). Əcnəbilər yalnız maddi hüquq sferasında bərabərlik əldə etmirlər, onların münasibətlərinə kolliziya normaların tətbiqi də bərabər şəkildə həyata keçirilir. Bundan əlavə, əcnəbilər prosessual sferada da vətəndaşlarla bərabər hüquqlardan istifadə edir və vəzifələr daşıyırlar (Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsi, m.439.2) (6, s.469).

Dövlətdaxili qanunla və ya beynəlxalq müqavilə ilə müəyyən edilməsindən asılı olmayaraq milli rejim prinsipi dövlət üçün öhdəlik yaradır. Bu öhdəliyin mahiyyəti digər dövlətin fiziki və hüquqi şəxslərinin hüquqi vəziyyətini öz fiziki və hüquqi şəxslərinin hüquqi vəziyyətinə bərabərləşdirməkdən ibarətdir. Dövlətlərin fiziki və hüquqi şəxsləri arasında mövcud olan hüquq bərabərliyi, dövlətlər arasındakı vətəndaşlıqdan irəli gələn hər hansı fərqi aradan qaldırmaqla onların siyasi və iqtisadi inteqrasiyasını təmin edir. Bu baxımdan milli rejim prinsipi Türkiyə-Azərbaycan münasibətləri üçün daha xarakterik və səmərəlidir. Belə ki bu prinsip, bir tərəfdən Türkiyə və Azərbaycan arasında mövcud olan və yaradılmasına cəhdlər edilən iqtisadi, siyasi, hüquqi, mədəni və dil birliyinin hüquqi əsasını təşkil edə bilər, digər tərəfdən Azərbaycan Respublikasının Avropanın təsərrüfat sisteminə inteqrasiyasında, Ümumdünya Ticarət Təşkilatı və digər beynəlxalq qurumlara daxil olmasında Türkiyə Respublikasının dəstəyi üçün hüquqi zəmin yarada bilər.

Açar sözlər: milli rejim prinsipi, Türkiyə-Azərbaycan münasibətləri, «istisna» və «məhdudlaşdırma» anlayışı, sığorta təşkilatları.

İstifadə olunmuş ədəbiyyat

1. AR-in Qanunlar Külliyyatı. II kitab.
2. Aysel Çelikel. Yabançılar hukuku.
3. Багусловский М.М. Международное экономическое право. М., 1986.
4. AR-in Qanunlar Külliyyatı. III kitab.
5. Международное частное право /Сборник норматив. актов/. Сост.Т.К.Дмитриева, М.В.Филимонова. М., 2006.
6. AR-in Məcəllələr Külliyyatı.

Офеля МАХМУДОВА

РОЛЬ ПРИНЦИПА НАЦИОНАЛЬНОГО РЕЖИМА В ПРОЦЕССЕ МЕЖДУНАРОДНО-ЧАСТНОПРАВОВОГО РЕГУЛИРОВАНИЯ ОТНОШЕНИЙ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ И ТУРЕЦКОЙ РЕСПУБЛИКОЙ

Резюме

В статье освещается принцип национального режима. Автор исследует правовое содержание и особенности применения данного принципа в двусторонних отношениях между Азербайджанской Республикой и Турецкой Республикой. Сравниваются внутригосударственные нормативные акты и двусторонние договоры обоих государств. Также отмечаются ограничения принципа национального режима по отношению к иностранцам.

Ключевые слова: принцип национального режима, турецко-азербайджанские отношения, понятия «исключение» и «ограниченность», страховые организации.

Ofelya MAHMUDOVA

ROLE OF THE PRINCIPLE OF NATIONAL REGIME IN THE PROCESS OF INTERNATIONAL-PRIVATE-LAW REGULATION OF THE RELATIONS BETWEEN THE AZERBAIJAN REPUBLIC AND REPUBLIC OF TURKEY

Summary

The article highlights the principle of national regime. Author investigates the legal maintenance and features of application of this principle of national regime in bilateral relations between the Azerbaijan Republic and Republic of Turkey. The internal normative acts and bilateral agreements of both states are compared. As well the restrictions of the given principle concerning the foreigners are indicated.

Keywords: principle of national regime, Turkey-Azerbaijan relations, notions «exclusion» and «restrictness», insurance organizations.

УДК 343.1

Лала МЕХТИЕВА
Институт прав человека НАНА, диссертант

ДИНАМИКА И СТРУКТУРА ПРЕСТУПНОСТИ НЕСОВЕРШЕННОЛЕТНИХ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ*

Диалектика связи между единичным, особенным и всеобщим в криминологической науке обуславливает выделение различных видов преступлений, составляющих единое понятие «преступность». В частности, исследователи анализируют корыстную и насильственную преступность; преступность взрослых лиц и несовершеннолетних и т.д., что вполне объяснимо, поскольку, как отмечает В.И. Муравьев, само явление «преступность» - многогранно, многокачественно и познать его можно только путем глубокого изучения различных сторон данного явления (4, с. 9). Выбор конкретного предмета анализа определяется исходя из цели конкретного исследования. Мы рассматриваем преступность несовершеннолетних, как систему, состоящую из подсистем (отдельных видов преступности несовершеннолетних), находящихся во взаимосвязи и взаимозависимости, поэтому такое определение предмета исследования обуславливает и соответствующие границы основных признаков, относящихся к предмету.

С нашей точки зрения, основным системным элементом преступности несовершеннолетних является групповая преступность, которую, в свою очередь, условно можно подразделить на корыстную, насильственную и т.п.

Как справедливо отмечает А.Ф. Бойко, групповая преступность всегда бывает корыстной или насильственной, однако последние не всегда являются групповыми (3, с. 129-132). В связи с этим, в нашем исследовании акцент делается на групповую преступность несовершеннолетних, как наиболее опасную, что позволяет рассмотреть ее корыстные и насильственные аспекты, как разновидности преступности несовершеннолетних.

При проведении исследования использовались данные Государственного комитета по статистике Азербайджанской Республики за 1996-2010 г.г., которые, с нашей точки зрения, не являются системными и не в полной мере отражают действительность. Восполнить недостатки официальной статистики мы попытались путем анализа информации по 250 уголовным делам, изученным по специальной анкете.

Прежде чем перейти к анализу официальных статистических данных и результатов исследования, считаем необходимым процитировать положения из великолепного труда Х.Д.Алекперова и Р.И.Расулова, которые несмотря на давность издания, не менее актуальны и в настоящее время и позволят более полно, а главное, объективно, оценить проводимые нами статистические выкладки.

В частности, Х.Д.Алекперов и Р.И.Расулов отмечают, что «...было бы ошибочно, объясняя низкий уровень преступности в Азербайджане, обойти молчанием и тот факт, что в республике вместе с этим, сильно распространена и латентная преступность, уровень которой, как это показывает анализ, с каждым годом стремительно растет. Сказанное в первую очередь относится к сфере корыстной преступности, уровень латентности которой в республике непомерно высок.

---

* Məqalə h.e.d., prof. R.Məmmədov tərəfindən çapa məsləhət bilinib.

Поэтому официальная статистика преступности не отражает реальную ситуацию в этой области социальной жизни республики: далеко не все совершенные преступления выявляются и не все выявленные преступления, в свою очередь, регистрируются. Вследствие этого по некоторым видам преступления цифры официальной статистики, как правило, занижены» (2, с. 11).

Прежде чем приступить к анализу преступности несовершеннолетних, рассмотрим общие показатели преступности в Азербайджане за период с 1996 г. по 2010 г., поскольку они находятся в непосредственной связи с исследуемой проблемой. Указанный период условно делится нами на три этапа: 1996-2000, 2001-2005 и 2006-2010 г.г., объяснение чего будет дано ниже.

Согласно официальным данным Государственного комитета по статистике Азербайджанской Республики, всего в 1996 г. было совершено 17528 преступлений, в том числе 400 убийств, 145 покушений на убийство, 350 умышленных причинений тяжкого вреда здоровью, 73 изнасилований и покушения на изнасилование, 3741 краж, 254 грабежей, 320 разбоев, 626 мошенничеств, 1176 хулиганств, 1936 преступлений, связанных с незаконными оборотом наркотиков (психотропных веществ, прекурсоров), 832 нарушений правил дорожного движения, в том числе 359 повлекших смерть потерпевшего. В сумме перечисленные преступления составляют 9853 факта, в связи с чем следует полагать, что 7675 (17528-9853) являются иными преступлениями (1).

По данным Госкомстата, в 1996 году 17528 преступлений совершили 16730 человек, в том числе 785 несовершеннолетних, что составляет 4,7% (4,69%) от общего количества.

Попытаемся разобраться, много ли 4,7% от общего количества лиц, совершивших преступления и 3,98% от общего количества совершенных преступлений.

Для сравнения обратимся к данным нашего северного соседа – России, с которой мы привыкли сверять все наши успехи, достижения и неудачи, что естественно, учитывая время нахождения в едином государстве.

По данным Федеральной службы статистики Российской Федерации, в 1996 году всего было совершено 2625081 преступлений, в том числе 202935 преступлений совершено несовершеннолетними в возрасте от 14 до 18 лет. Это составляет 7,73% (6).

Зарегистрированные преступления значатся совершившими 1618394 человека, в том числе 145622 несовершеннолетних, что составляет 8,9%.

В числе 698 преступлений, совершенных в Азербайджане в 1996 г. несовершеннолетними и при их участии, 160 тяжких и особо тяжких, в том числе 17 убийств и попыток убийств, 31 причинение тяжкого вреда здоровью, 4 изнасилования и их попыток, 402 кражи (105 краж с проникновением в жилище), 19 грабежей, 13 разбоев, 4 мошенничества, 35 хулиганств, 22 преступления, связанные с незаконным оборотом наркотиков и 3 нарушения правил безопасности движения и эксплуатации транспортных средств (7).

За совершение умышленных убийств и их попыток в 1996 г. было привлечено к уголовной ответственности 20 несовершеннолетних, за умышленное причинение тяжкого вреда здоровью – 42 несовершеннолетних, за изнасилование и попытку – 8 человек, за кражи – 415 человек, за грабежи – 27, разбои – 20, мошенничество – 6, хулиганство – 49 несовершеннолетних, преступления, связанные с незаконным оборотом наркотиков – 25 и 3 несовершеннолетних – за нарушение правил безопасности движения и эксплуатации транспортных средств.

Необходимо помнить, что 1996 г. в Азербайджане был первым годом относительного спокойствия и стабильности после разоружения большей части незаконных военных формирований, прекращения пьяной стрельбы в общественных местах, совершаемой группами вооруженных людей, фланирующих по улицам. Этот же год знаменуется

продолжающимися провокациями со стороны армянских бандформирований, обострившимися после избрания Р. Кочаряна «президентом НКР».

Вместе с тем, 1996 г. стал годом возрождения Азербайджана, годом, когда наше государство вступило в фазу макроэкономической стабильности и динамического экономического развития. Темп роста ВВП в 1996 г. составил 1,3%, в 1997 г. – 5,8%, в 1998 г. – 10%, а к 2010 г. вырос на 14%.

В декабре 1996 г. состоялся Лиссабонский саммит ОБСЕ, на котором была подтверждена территориальная целостность Азербайджана. Продолжилось укрепление вооруженных сил, совершенствование законодательства, реформы в правоохранительных органах и судах.

Естественно, что все это отразилось на состоянии преступности в Азербайджане, в том числе и преступности несовершеннолетних, для предупреждения которой был предпринят ряд действенных решений и мероприятий.

По официальным данным, в 1996 г. представителями из числа 785 несовершеннолетних, совершивших преступления, 770 являлись мужского пола, а 15 – женского. Из них 162 человека находились в возрасте от 14 до 15 лет, а 623 – от 16 до 17 лет.

769 несовершеннолетних имели полное или неполное образование, 16 – высшее и среднее специальное, 195 человек учились в различных учебных заведениях, 465 – нигде не учились.

316 несовершеннолетних совершили преступления в составе групп, а 25 человек – в состоянии алкогольного опьянения.

Как видно из приведенных данных, в 1996 г. несовершеннолетними было совершено 438 корыстных преступлений, что составляет более половины из всех преступлений, совершенных несовершеннолетними в 1996 г.

В связи с изложенным, следует учесть утверждение В.И. Потехиной о том, что корыстная преступность несовершеннолетних это первый шаг к взрослой преступности, когда не приходится говорить о шалостях, приведших к преступлениям, а есть предварительный умысел на незаконное обогащение, удовлетворение своих материальных потребностей (5, с. 16-17).

Вместе с тем, необходимо отметить, что среди преступлений, совершенных несовершеннолетними в 1996 г. имели место такие, которые являлись результатом возрастных особенностей и лишь эксцессы исполнителей стали следствием возбуждения уголовного дела и судебного разбирательства.

Несовершеннолетние А. и Р. договорились проникнуть в квартиру одноклассника и похитить оттуда макет пистолета иностранного производства, полученный последним в подарок от родственника из Германии. А. остался сторожить на улице, а Р. через форточку проник в квартиру, отыскал игрушку, благо знал где она хранится, и заодно прихватил запертую на ключ шкатулку с вращающейся на ней танцовщицей.

Взломав в подвале шкатулку, несовершеннолетние обнаружили, что она заполнена ювелирными изделиями с драгоценными камнями и несколькими дорогостоящими часами, лишь стоимость которых составляла несколько десятков тысяч манат.

Пока А. и Р. решали что сделают с внезапно привалившим богатством, были задержаны работниками полиции, вычислившими похитителей по словам потерпевшего одноклассника.

Что касается 22 преступлений, связанных с незаконным оборотом наркотиков, то представляется, что они не отражают истинной картины в данной области. С нашей точки зрения, проблема участия несовершеннолетних в незаконном обороте наркотиков намного сложнее и опаснее, поскольку состоит в масштабах употребления, а не сбыта.

Отдельную проблему составляет привлечение несовершеннолетних, не достигших 14 лет к торговле наркотиками, что систематически осуществляется взрослыми членами преступных групп.

По данным Государственного комитета по статистике Азербайджанской Республики, всего в 1997 г. было совершено 16402 преступления, в том числе 284 убийства, 165 покушений на убийство, 304 умышленных причинений тяжкого вреда здоровью, 66 изнасилования и покушения на изнасилование, 2923 кражи, 186 грабежей, 244 разбоев, 770 мошенничеств, 1359 хулиганств, 1904 преступлений, связанных с незаконными оборотом наркотиков (психотропных веществ, прекурсоров), 740 нарушений правил дорожного движения, в том числе 251повлекших смерть потерпевшего. В сумме перечисленные преступления составляют 9480 фактов, в связи с чем получается, что 6922 (16402-9480) являются иными преступлениями (1).

По этим же данным, в 1997 году 16402 преступления совершили 15424 человека, в том числе 716 несовершеннолетних, что составляет 4,4% (4,36%) от общего количества.

По данным Федеральной службы статистики Российской Федерации, в 1997 году всего было совершено 2397311 преступлений, в том числе 182798 преступлений совершено несовершеннолетними в возрасте от 14 до 18 лет, что составляет 7,62%. По этим же данным зарегистрированные преступления значатся совершенными 1372161 лицом, в том числе 151862 несовершеннолетними, что составляет 11% (11).

В числе 710 преступлений, совершенных в 1997 г. в Азербайджане несовершеннолетними и при их участии, 149 тяжких и особо тяжких, в том числе 21 убийств и попыток убийств, 27 причинений тяжкого вреда здоровью, 1 изнасилование, 368 краж (127 краж с проникновением в жилище), 15 грабежей, 28 разбоев, 4 мошенничества, 56 хулиганств, 21 преступление, связанное с незаконным оборотом наркотиков и 10 нарушений правил безопасности движения и эксплуатации транспортных средств.

В 1997 г. за совершение умышленных убийств и их попыток было привлечено к уголовной ответственности 24 несовершеннолетних, за умышленное причинение тяжкого вреда здоровью – 30 несовершеннолетних, за изнасилование и попытку – 2 человека, за кражи – 314 человек, за грабежи – 19, разбои – 28, мошенничество – 5, хулиганство – 83 несовершеннолетних, преступления, связанные с незаконным оборотом наркотиков – 27 и 12 несовершеннолетних – за нарушение правил безопасности движения и эксплуатации транспортных средств (7).

В 1997 г. в Азербайджане продолжилась фаза макроэкономической стабильности и динамического экономического развития, темп роста ВВП составило 5,8%, по-прежнему развивалось законодательство, улучшилась работа правоохранительных органов и судов.

Согласно данным Госкомстата, в 1997 г. из числа 716 несовершеннолетних, совершивших преступления, 699 являлись мужского пола, а 17 – женского. Из них 110 человек находились в возрасте от 14 до 15 лет, а 606 – от 16 до 17 лет (7).

707 несовершеннолетних имели полное или неполное образование, 9 – высшее и среднее специальное, 172 человека учились в различных учебных заведениях, 466 – нигде не учились.

306 несовершеннолетних совершили преступления в составе групп, а 20 человек – в состоянии алкогольного опьянения.

Как видно из приведенных данных, в 1997 г. несовершеннолетними было совершено 415 корыстных преступлений, что как и в предыдущем году составляет более половины из всех преступлений, совершенных несовершеннолетними в 1997 г.

В 1997 г. среди преступлений, совершенных несовершеннолетними продолжали иметь место такие, которые явились результатом возрастных особенностей и находились на грани детского озорства, но к сожалению завершились судом.

В 1997 г. на один случай по сравнению с 1996 г. уменьшилось количество преступлений, связанных с незаконным оборотом наркотиков, однако, представляется, что это не отражает истинной картины в данной области, а явилась следствием манипулирования учетными данными в целях «улучшения» показателей в работе.

В 1997 г. всего к различным наказаниям было осуждено 469 несовершеннолетних, в том числе 18 – за убийства, 28 – умышленное причинение тяжкого вреда здоровью, 3 – изнасилование, 196 – кражи, 18 – грабежи, 20 – разбои, 41 – хулиганство, 26 – незаконный оборот наркотиков и 119 несовершеннолетних за совершение других преступлений. Среди осужденных 50 человек находилось в возрасте 14-15 лет, 419 человек – в возрасте 16-17 лет, в том числе 9 девочек.

Из общего количества осужденных, 72 несовершеннолетних воспитывались в семье с одним родителем, 5 – в интернатах и детских домах. 354 несовершеннолетних нигде не работали и не учились, 32 – совершили преступления в нетрезвом состоянии.

374 несовершеннолетних осуждено за совершение преступлений в составе групп, в том числе 24 с участием взрослых. 171 несовершеннолетний осужден к лишению свободы, из них 71,3% сроком до 5 лет, а 28,7% - на срок от 5 до 10 лет.

Если сопоставить показатели преступности несовершеннолетних за 1996 г. и 1997 г., то виден ее относительный спад, уменьшение количества тяжких и особо тяжких преступлений, однако при увеличении на 12 фактов общего количества преступлений, совершенных несовершеннолетними.

Теперь попытаемся проанализировать состояние преступности несовершеннолетних в Азербайджане путем укрупнения интервалов, суммируя данные за последние пять лет, т. е. за 2001 – 2005 г.г. и 2006 – 2010 г.г., а также сопоставляя их с результатами использования базисного и цепного методов.

По данным Госкомстата Азербайджанской Республики всего в период с 2001 г по 2005 г. было совершено 78387 (14607 + 15520 + 15206 + 15005 +18049) преступлений, в том числе 1001 убийство (218 + 212 + 183 + 196 + 192), 475 покушений на убийство (100 + 103 + 102 + 74 + 96),1272 умышленных причинений тяжкого вреда здоровью (291 + 245 + 259 + 260 + 217), 203 изнасилований и покушений на изнасилование (41 + 39 + 49 + 30 + 44), 9397 краж (2088+1619+1819+1720+2151), 883 грабежей (179 + 182 + 168 + 158 + 196), 837 разбоев (198 + 173 + 155 + 146 + 165), 5729 мошенничеств (1346 +1114+ 1166 + 1170 + 933), 6306 хулиганств (982 + 1285 + 1336 + 1345 + 1358), 9502 преступлений, связанных с незаконным оборотом наркотиков (2004 + 1919 + 1818 + 1800 + 1961), 2514 нарушений правил дорожного движения (797 + 919 + 1099 + 1000 + 1514), в том числе 2260 повлекших смерть потерпевшего (303 + 389 + 437 + 405 + 726).

Зарегистрированные в 2001 – 2005 г.г. преступления совершили 71803_человека (13589 + 14555 + 14447 + 14400 + 14812), в том числе 2231_несовершеннолетних (446 + 420 + 395 + 445 + 525), что составляет 3,1% от общего количества.

Особо следует отметить, что с 2001 г. в отчетах Госкомстата появились данные, которые ранее не фигурировали, а вернее отмечались как отсутствующие. Так, за период с 1996 г. по 2000 г. в отчетах значатся не имевшими место совершения преступлений в сговоре группой лиц, организованной преступной группой, рецидивные преступления, преступления, совершенные в состоянии наркотического опьянения и наркоманами.

По данным за 2001–2005 г.г. значится, что 4172 лиц совершили преступления в сговоре с группой (939 + 861 + 771 + 700 + 901), 357 (126 + 42 + 84 + 70 + 35) – организованной преступной группой, 304 (103 + 54 + 28 + 25 + 94) – рецидивные преступления, 33 (6 + 2 + 6 + 5 + 14) в состоянии наркотического опьянения и 243 (17 + 17 + 9 + 18 + 182) наркоманами.

Резкий «всплеск» совершения преступлений наркоманами (182) и организованной преступности в 2005 г. по сравнению с 1996 – 2000 г.г., когда такие факты значатся не имевшими место, вызывает сомнение и, скорее всего, обусловлен недостатками статистики или обстоятельствами, отмеченными Х.Д.Алекперовым и Р.И. Расуловым.

По данным Федеральной службы статистики Российской Федерации в 2001 – 2005 г.г. всего было совершено 14699506 преступлений (2968255 + 2526305 + 2756398 +2893810 + 3554738), в том числе 779576 преступлений (185379 + 139681 + 145368 + 154414 + 154734) совершено несовершеннолетними в возрасте от 14 до 18 лет, что составляет 5,3%.

Зарегистрированные в России в 2001-2005 г.г преступления совершили 6658302 человека (1644242 + 1257700 + 1236733 + 1222504 + 1297123), в том числе 761364 несовершеннолетних (172860 + 140426 + 145567 + 151900 + 150611), что составляет 11,4% от общего количества (6).

В числе 2231 преступлений совершенных в 2001 – 2005 г.г. несовершеннолетними в Азербайджане, 455 тяжких и особо тяжких (194 + 69 + 58 + 57 + 77), в том числе 54 убийств и попыток убийства (15 + 11 + 8 + 10 + 10), 68 причинений тяжкого вреда здоровью (16 + 16 + 13 + 10 + 13), 9 изнасилований и их попыток (0 + 3 + 2 + 1 + 3), 899 краж (209 + 177 + 159 + 158 + 196), в том числе 277 краж из квартир (жилищ) (80 + 46 + 39 + 47 + 65), 79 грабежей (14 + 13 + 11 + 17 + 24), 59 разбоев (14 + 6 + 14 + 10 + 15), 27 мошенничеств (12 + 0 + 9 + 4 + 3), 188 хулиганств (20 + 45 + 38 + 44 + 41), 47 преступлений, связанных с незаконным оборотом наркотиков (3 + 11 + 7 + 16 + 10), 32 нарушения правил дорожного движения (5 + 5 + 5 + 2 + 15).

В 2001 –2005 г.г. за совершение умышленных убийств и их попыток в Азербайджане было привлечено к уголовной ответственности 79 несовершеннолетних (17 + 15 + 14 + 14 + 19), за умышленное причинение тяжкого вреда здоровью – 87 несовершеннолетних (20 + 18 + 18 + 16 + 15), за изнасилование и его попытку – 12 (0 + 4 + 4 + 2 + 2), за кражи 754 (180 + 134 + 123 + 154 + 163), за грабеж – 88 (17 + 15 + 14 + 17 + 25), за разбой – 70 (15 + 10 + 17 + 11 + 17), мошенничество – 16 (3 + 1 + 6 + 4 +2), хулиганство – 277 (36 + 56 + 52 + 67 + 66), преступления, связанные с незаконным оборотом наркотиков – 35 (5 + 9 + 7 + 8 + 6) и за нарушение правил дорожного движения – 51 (9 +8 + 9 + 9 + 16).

По данным Госкомстата Азербайджанской Республики всего в период с 2006 г по 2010 г. было взято на учет 105244 (19045 + 18667 + 21692 + 22830 +23010) преступления, в том числе 892 убийства (190 + 176 + 168 + 164 + 194), 392 покушения на убийство (77 + 93 + 68 + 72 + 82), 1206 умышленных причинений тяжкого вреда здоровью (250 + 235 + 215 + 239 + 267), 145 изнасилований и покушений на изнасилование (35 + 34 + 25 + 35 + 16), 14999 краж (2139 + 1951 + 3401 + 3640 + 3868), 1473 грабежей (238 + 218 + 369 + 354 + 294), 860 разбоев (160 + 142 + 202 + 184 + 172), 6251 мошенничеств (1216 +1223 + 1294 + 1330 + 1188), 6300 хулиганств (1321 + 1232 + 1185 + 1301 + 1261), 13163 преступления, связанных с незаконным оборотом наркотиков (2140 + 2272 + 2675 + 3027 + 3049), 8213 нарушений правил дорожного движения (1687 + 1688 + 1662 + 1601 + 1575), в том числе 3775 повлекших смерть потерпевшего (766 + 835 + 775 + 712 + 687).

Зарегистрированные в 2006 – 2010 г.г. преступления совершили 78608 человек, в том числе 2362 несовершеннолетних (487 + 485 + 498 + 453 + 439), что составляет 3% от общего количества.

По данным за 2006–2010 г.г. значится, что 4172 лиц совершили преступления в сговоре с группой (887 + 880 + 799 + 895 + 711), 630 (111 + 58 + 118 + 265 + 78) – организованной преступной группой, 675 (121 + 97 + 149 + 150 + 158) – рецидивные преступления, 94 (17 + 20 + 15 + 12+ 30) в состоянии наркотического опьянения и 1646 (196 + 220 +367 + 398+ 465) наркоманами.

Повторяем, что как и в предыдущем этапе резкий «всплеск» совершения преступлений наркоманами (1646) и организованной преступности в 2006 – 2010 г.г. вызывает сомнение и, скорее всего, обусловлен субъективными причинами.

По данным Федеральной службы статистики Российской Федерации в 2006 – 2010 г.г. всего было совершено 16271395 преступлений (3855373 + 3582541 + 3209862 +2994820 + 2628799), в том числе 571068 преступлений (150264 + 139099 + 116050 + 94720 + 70955) совершено несовершеннолетними в возрасте от 14 до 18 лет, что составляет 3,5%.

Зарегистрированные в России в 2006-2010 г.г преступления совершили 6265575 человека (1360860 + 1317582 + 1256199 + 1219789 + 1111145), в том числе 631441 несовершеннолетних (148610 + 132410 + 179510 + 85511 + 85400), что составляет 10% от общего количества.

В числе 2102 (431 + 428 + 487 + 381 + 375) преступлений совершенных в 2006 – 2010 г.г. несовершеннолетними в Азербайджане, 274 тяжких и особо тяжких (69 + 46 + 69 + 53 + 37), в том числе 47 убийств и попыток убийства (14 + 4 + 9 + 10 + 10), 68 причинений тяжкого вреда здоровью (16 + 15 + 18 + 11 + 8), 4 изнасилования и их попыток (1 + 1 + 1 + 0 + 1), 764 кражи (127 + 144 + 205 + 121 + 167), в том числе 246 краж из квартир (жилищ) (64 + 43 + 55 + 42 + 42), 66 грабежей (16 + 16 + 15 + 12 + 7), 48 разбоев (15 + 9 + 13 + 7 + 4), 22 мошенничества (7 + 1 + 5 + 4 + 5), 167 хулиганств (35 + 34 + 23 + 38 + 37), 26 преступлений, связанных с незаконным оборотом наркотиков (10 + 4 + 6 + 4 + 2), 54 нарушения правил дорожного движения (6 + 18 + 10 + 9 + 11).

В 2006 –2010 г.г. за совершение умышленных убийств и их попыток в Азербайджане было привлечено к уголовной ответственности 68 несовершеннолетних (16 + 9 + 16 + 12 + 15), за умышленное причинение тяжкого вреда здоровью – 96 несовершеннолетних (23 + 17 + 26 + 17 + 13), за изнасилование и его попытку – 6 (2 + 1 + 1 + 1 + 1), за кражи 682 (112 + 141 + 154 + 130 + 145), за грабеж – 105 (14 + 22 + 34 + 24 + 11), за разбой – 63 (14 + 15 + 18 + 9 + 7), за мошенничество – 17 (5 + 0 + 6 + 1 +5), за хулиганство – 257 (54 + 56 + 41 + 48 + 58), преступления, связанные с незаконным оборотом наркотиков – 27 (11 + 4 + 5 +5 + 2) и за нарушение правил дорожного движения – 75 (12 +20 + 11 +15 + 17).

Выше отмечалось, что при рассмотрении общих показателей преступности несовершеннолетних в Азербайджане, период с 1996 г. по 2010 г. мы условно поделили на три этапа: 1996 – 2000 г.г., 2001 – 2005 г.г. и 2006 – 2010 г.г., т.е. для вычисления динамики использовали метод укрупнения интервалов. Вместе с тем, при исследовании также были применены базисный и цепной методы, что, с нашей точки зрения, позволило более четче и рельефнее определить закономерности и тенденции преступности. По причинам, указанным выше, базисным нами определен 1996 г., а не 1995 г., разница между которыми весьма существенна и была способна необоснованно представить полученные результаты в радужном свете.

При этом, мы исходили из утверждения С.И.Праастенэ, что при определении динамики преступности несовершеннолетних, всегда надо сопоставлять близкие величины, т.к. противное является самообманом (8, с. 14).

Анализ показателей преступности несовершеннолетних в Азербайджане за 1996 – 2010 г.г. позволяет утверждать, что по основным позициям они соответствуют действительности и в целом не отягощены субъективными проблемами латентности, хотя методологические положения труда Х.Д.Алекперова и Р.И. Расулова в этой части нами были учтены (2, с. 11).

После 1997 г. общее количество преступлений несовершеннолетних стало уменьшаться и в 2000 г. в сравнении с базисным 1996 г. составило разницу в 139 фактов.

В количественном отношении структурную картину преступности несовершеннолетних в 1996 -2000 г.г. определяют корыстные преступления (1748 – кражи,

76 – грабежи, 157 – разбои и 15 – мошенничество), составляющие 63,5% (1996 фактов) от общего количества (3142) преступлений, совершенных несовершеннолетними в указанный период.

В период с 2001 г. по 2005 г. количество корыстных преступлений, совершенных несовершеннолетними – 1064 (899 + 79 + 59 + 27) в сравнении с 1996 – 2000 г.г. сократилось, также как с 54 до 47 фактов уменьшилось количество убийств и покушений на убийство. Всего же количество тяжких и особо тяжких преступлений в 2006 – 2010 г.г. по сравнению с 2001 – 2005 г.г. сократилось почти в два раза, с 455 до 274 случаев.

Представляется, что сокрытие преступлений в данном случае роль играть не могло, поскольку речь идет о деяниях, которые практически невозможно утаить.

Вместе с тем, полностью исключить латентность из характеристики преступности несовершеннолетних нельзя, поскольку кроме дефектов регистрации, преступления несовершеннолетних остаются за пределами статистики вследствие других причин. Так, многие преступления совершаются несовершеннолетними в среде сверстников и знакомых и против них, которые предпочитают скрывать происшествия от взрослых. В частности, по изученным нами 25 делам об убийствах и причинении тяжких телесных повреждениях, первоначально 15 потерпевших несовершеннолетних и молодых людей совершеннолетнего возраста заявили о несчастных случаях (упал на заостренный предмет, споткнулся и ударился головой и т.п.) (см. приложение №1).

Кроме того, нередко родители и педагоги не предают огласке известные им факты совершения преступлений несовершеннолетних, не желая негативной оценки ошибок собственной воспитательной деятельности и из других субъективных соображений.

Рядом ученых (В.И. Муравьев, С.И. Яблоков и др.) уровень преступности несовершеннолетних в целом оценивается в 3 – 4 раза больше отражаемого статистикой (4, с. 91; 9, с. 16-17). С нашей точки зрения, которая обосновывается вышеприведенными показателями, латентность преступности несовершеннолетних в Азербайджане, не считая незаконный оборот наркотиков без цели сбыта, составляет не более 5%, что более подробно будет освещено в последующих разделах диссертации.

Резюмируя изложенное, можно сделать следующие выводы:

1. Официальные статистические данные о состоянии преступности несовершеннолетних в Азербайджане в период с 1996 г. по 2010 г. в целом соответствуют действительности.

2. Погрешность в показателях преступности составляет в целом не более 5%, которые не касаются тяжких и особо тяжких преступлений, а также незаконного оборота без цели сбыта наркотических средств, психотропных веществ и их прекурсоров.

3. В период с 1996 г. по 2010 г. в Азербайджане сохраняется тенденция к сокращению преступности несовершеннолетних - в целом, тяжких и особо тяжких преступлений, в том числе корыстных – в частности.

4. В период с 1996 – 2010 г.г. в Азербайджане имела место тенденция увеличения цены преступности несовершеннолетних, её организованности и технической оснащенности.

5. В исследованный период в Азербайджане имело место увеличение уголовно наказуемых нарушений правил безопасности движения и эксплуатации транспортных средств со стороны несовершеннолетних.

Ключевые слова: преступность несовершеннолетних, групповая преступность, статистические данные, тяжкие преступления, динамика и структура преступности.

Список использованной литературы

1. Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar. Statistik məcmuə. Bakı, Səda, 2004.
2. Алекперов Х.Д., Расулов Р.И. Понятие и причины латентной преступности. Бакинский СРШМ им. Н.К.Ризаева. Баку, 1989.
3. Бойко А.Ф. Причины преступности несовершеннолетних: Проблемы и тенденции. СПб., Питер, 2005.
4. Муравьев В.И. Криминологические проблемы борьбы с преступностью несовершеннолетних. Пермь, «Аврора», 2007.
5. Потехина В.И. Причины и условия преступности несовершеннолетних. СПб., «Старт», 2006.
6. Сайт Федеральной службы статистики Российской Федерации http://www.gks.ru/dbscripts/Cbsd
7. Сайт Государственного Комитета Статистики Азербайджанской Республики http://www.azstat.org/statinfo/crimes/az
8. Праастенэ С.И. Особенности преступности несовершеннолетних. М., «Комиссия», 2004.
9. Яблоков С.И. Предупреждение групповой преступности несовершеннолетних. Таллин, Старт, 2008.

Lalə MEHDİYEVA

AZƏRBAYCAN RESPUBLİKASINDA YETKİNLİK YAŞINA ÇATMAYANLARIN CİNAYƏTKARLIĞININ DİNAMİKASI VƏ STRUKTURU

Xülasə

Məqalədə 1996-2010-cu illərdə Azərbaycanda yetkinlik yaşına çatmayanların cinayətkarlığının yuksək olduğu, lakin azalmağa doğru gedən tendensiyanın özünü büruzə verdiyi qeyd olunur. Bu onu göstərir ki, hüquqi tənzimetmənin kəmiyyət və keyfiyyət resepsiyaları problemləri ləng də olsa, həll edilirdi. Həmçinin Azərbaycanda və Rusiya Federasiyasında yetkinlik yaşına çatmayanların cinayətkarlığının göstəricilərinin nisbəti nəzərdən keçirilir.

Açar sözlər: yetkinlik yaşına çatmayanların cinayətkarlığı, qrup şəklində cinayətkarlıq, statistik göstəricilər, ağır cinayətlər, cinayətkarlığın dinamikası və strukturu.

Lala MEKHDIYEVA

DYNAMICS AND STRUCTURE OF JUVENILE CRIMINALITY IN THE REPUBLIC OF AZERBAIJAN

Summary

In the article the author notes that juvenile crimes in Azerbaijan in 1996-2010 were high, but showed a downward trend. This shows that though the problems of quantitative and qualitative reception of legal regulation was lingering but, they were being resolved.

As well, the is considered a ratio of rates of juvenile criminality in Azerbaijan and the Russian Federation.

Keywords: juvenile crimes, crime group, statistics, violent crime, dynamics and structure of crime.

UOT 34.01

Mehran Şərifi KLARİCANİ
BDU, aspirant

MÜSƏLMAN HÜQUQU ANLAYIŞI VƏ XÜSUSİYYƏTLƏRİ*

Müsəlman (islam) ölkələrində milli və etnik dəyişikliklər kəskinləşdikcə bu ölkələrin hüquq sistemində islam hüququnun təhlili, onun strukturunun və əsas prinsiplərinin xüsusiyyətlərinin üzə çıxarılması, İslam hüquq konsepsiyasının beynəlxalq hüquqla qarşılıqlı təsirinin öyrənilməsi İslam hüquq nəzəriyyəsinin mühüm problemlərindən birinə çevrilmişdir. Müasir dövrün reallıqları kimi qloballaşmanın təsiri ilə müsəlman ölkələrinin hüquq sistemlərinin universal hüquq qaydalarının və beynəlxalq hüquq normalarının təsirinə məruz qalması da həmin məsələnin aktuallığını şərtləndirməkdədir.

Müsəlman hüququ ilə, eləcə də milli-dini birlik əsasında bu ölkələr özlərinin geopolitik, iqtisadi və sosial problemlərini həll etməyə çalışırlar. Müsəlman ölkələrinin hüquq sistemlərinin xarakterik xüsusiyyətləri ondan ibarətdir ki, bu ölkələrin qanunvericiliyi doktrinal hüquqdan, Qərbi Avropa hüquq sistemlərinin resepsiyasından keçərək müasir dövrdə şəriətin dövlətin milli qanunvericiliyinin əsas mənbəyi kimi hesab edilməsinədək uzun bir yol keçmişdir.

Müasir dövrdə İslam hüququnun öyrənilməsi, eyni zamanda, onun beynəlxalq hüququn təsirinə məruz qalmasıdır. Beynəlxalq hüquq normalarının dövlətlərin daxili qanunvericilik sistemində tətbiqinin mühüm şərtlərindən biri dövlətdaxili hüquqda, o cümlədən ölkələrin konstitusiyalarında bu normaların bilavasitə tətbiqi imkanlarının təsbiti ilə əlaqədardır. Beynəlxalq hüquq normalarına ümumi istinad nəticəsində bu normalar dövlətlərin ərazisində müvafiq subyektlər üçün hüquqi qüvvəyə malik olurlar (20, s.19).

İslam hüquq sisteminə həsr edilmiş elmi ədəbiyyatda əsasən hüquqla dinin ayrılmaz əlaqəsinə geniş yer verilməkdədir. Müsəlman hüququ universal siyasi-hüquqi doktrina xüsusiyyəti kəsb edir. Ümumi mövqeyə görə İslam hüququ hər şeydən əvvəl dindir, sonra isə dövlət və mədəniyyətdir (21, s.20).

"Bu gün İslam dünyasının bir çox sahələrində, tamamilə olmasa belə, qismən" pozitiv hüquq "əsaslarından biri olaraq yaşayan, yüz milyonlarla insanın hüquqi münasibətlərinin tənzimlənməsində bir rol oynayan və bir çox müsəlman məmləkətlərində «législatif» fəaliyyətin əsasını təşkil edən fiqhin gələcəkdə necə bir təkamülə məruz qalacağı haqqında indidən bir şey deyilə bilməz. Dini əsaslara söykənən nəzəri və ideal bir sistem olması etibarı ilə, mahiyyətində yerləşdirilmiş olan dəyişməzlik xarakteri, hər cür "pozitiv hüquq" həyat zərurətləri qarşısında daimi bir dəyişməyə məruz qalacağına görə, xüsusilə ictihad qapısının artıq bağlandığını qəbul edən sünni məzhəblərin əksinə olaraq bu qapını açıq tutan məzhəblərin hakim olduğu yerlərdə, yeni ictihadlar ilə dəyişərək bu günün ictimai və iqtisadi zərurətlərinə uyğun yeni bir məcra alacaqmı, yoxsa digər islam məmləkətləri də, kontinental hüquq yolu tutmuş Türkiyə kimi, fiqhə əsaslanan köhnə hüquqi ənənələrlə əlaqələrini kəsmək kimi radikal bir inqilab etmək məcburiyyətində qalacaqlar? Bu barədə bir şey söyləməyə hələlik imkan yoxdur. Lakin hər nə olursa olsun, insanlıq tarixinin böyük hüquq sistemlərindən biri olmaq etibarı ilə fiqh tədqiqləri hüquqi əhəmiyyətlərini daim mühafizə edəcəklər (11)."

Prof. Körpülü qanunvericilik və tətbiqdə bir qaynaq olaraq fiqhin həyatiliyini qoruyub-qoruyamayacağı mövzusunda hələlik bir şey söyləməməklə birlikdə bunun ictihad qapısını açaraq, yeni ictimai və iqtisadi tələblərə cavab verməsinə bağlı olduğunu bildirir. Digər tərəfdən

---

* Məqalə h.e.d. Ə.Sadıqov tərəfindən çapa məsləhət bilinib.

müqayisəli hüquq araşdırmalarında və milli hüquq tarixinin yazılmasında fiqhin daim əhəmiyyətini qoruyacağı və araşdırma mövzusu olacağı həqiqəti də ifadə edilməkdədir (11).

Fransız hüquqşünas alimi A.R.David İslam hüququnun mənşəyindən danışarkən hesab edir ki, İslam hüquq konsepsiyası rasional deyil, ilahi təbiətə malikdir (17, s.29). İslam hüququnun ilahi təbiəti haqqında ərəb hüquqşünas-tədqiqatçıları da danışırlar. İslam hüququ bir təbii hüquq səviyyəsinə qaldırılaraq adət və dinə əsaslanan hüquq sistemi kimi ifadə edilir (16). Hüququn icrası dövlət məcburetməsi ilə dəstəklənən bir tənzimləmə qaydası olması onun məcburilik xarakteri qazanmasında və həyata keçirilməsindədir (2). İslam hüququ da özünəməxsus sistemə malikdir. Hüququn sistemi dedikdə cəmiyyətin iqtisadi, siyasi, sosial–mədəni quruluşu ilə şərtlənən hüququn daxili strukturu, hüquq normalarının bir-biri ilə nisbi vəhdəti və müstəqilliyi, onların sahələrə və institutlara ayrılması başa düşülür (18, s.248).

Daxili quruluş hüquqi tənzimetmənin predmeti və metodunda, hüquqyaratma prosesində, subyektlərin dairəsində, hüquq düşüncəsində, hüquqi ideologiyada və s. sistemlərin məzmununda ifadə edilir.

Hüququn sisteminə obyektiv hüquqla yanaşı, hüquqtətbiqedənin fərdi aktları, hüquq münasibətlərini əmələ gətirən subyektiv hüquq və vəzifələr, dövlət məcburetmə tədbirləri, hüquq düşüncəsinin fəal formaları aiddir.

İslam hüququ dövlət tərəfindən sanksiyalaşdırılan məcburi normaların sisiemi kimi VII əsrdən başlayaraq meydana gəlsə də, ilahi başlanğıca, müsəlman hüququnun dəyişməz əsasları prinsipinə söykənir. «Müsəlman hüququ» termini geniş mənada sosial həyatın bütün sahələrində tənzimləyici funksiyaya malik olan dini, hüquqi, mənəvəi və d. qaydaların, adətlərin, məcmusu kimi çıxış edən «şəriət» (izlənməli yol) anlamı kəsb edir. Qeyd etmək lazımdır ki, «şəriət» yalnız dini anlamda olmayıb, həm də hüququn bütün sahələrinə – mülki, cinayət, ailə-nikah, dövlət, prosessual hüquqa əhəmiyyətli təsirə malikdir (14, s.12; 6, s.26-27). «Müsəlman hüququ» termini dar mənada dini xüsusiyyət kəsb etsə də, əsasən dövlət tərəfindən təmin edilən sırf hüquq normalarının məcmusu kimi çıxış edir.

J.Şaxt yazır ki,"... İslamın mülkiyyət, əqdlər və öhdəlikləri hüququnun açarlarını islamdan əvvəl ərəblərin adət hüququnun bir parçasının təşkil etdiyi sanılmamalıdır. Belə bir fərziyyənin söykəndiyi düşüncə İslam hüququ tarixinə aid yeni araşdırmalar nəticəsində etibarlılığını itirmişdir" (12, s.18).

J.Şaxt onun mənşəyi ilə bağlı qeyd edir ki, "İslam fiqhi mövcud olan bir hüquqdan doğulmamış, özü-özünü yaratmışdır" (12, s.118). Lakin, şübhəsiz ki, digər hüquq sistemləri İslam hüquq sisteminə öz təsirini göstərmişdir. Dəyişən qaydalar, iqtisadi əlaqələr dövlətlərin xarici siyasətlərində bir-birlərinə bağlı olmasına yol açır. Millətlərin mədəniyyət, din, dil fərqləri, yenə bu özəlliklər baxımından bənzər olanların ortaq çıxarlar ətrafında birləşməsini yaradır. Özəlliklə din və mədəniyyət bənzərlikləri vacib rol oynayır (5). Bu halda müxtəlif din və mədəniyyətdə olan ölkələr üçün ortaq davranış qaydalarının formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Lakin bunun üçün daxili normaların, müsəlman hüququnun özünəməxsus xüsusiyyətlərinin müəyyən edilməsi zərurəti yaranır.

Tədqiqatımızın obyekti baxımından bizi daha çox «müsəlman hüququ»nun dar anlamı maraqlandırır. Bir qayda olaraq tədqiqatçılar müsəlman hüququnda bir-biri ilə qarşılıqlı əlaqədə olan iki qrup normaları fərqləndirir. Birinci qrupda Qurani-Kərimin və Məhəmməd peyğəmbərin (ə.s.) hüquqi əhəmiyyət kəsb edən baxışlarının (hədislərin) məcmusu kimi sünnə çıxış edir. İkinci qrupu formalaşdıran mənbələrə isə müsəlman-hüquq doktrinası tərəfindən formalaşdırılan normalar addir. Bunlardan «icma» (icma-əl-ümma- icmanın ümumi baxışı, razılaşması) qanunverilcilik sahəsində islam alimlərinin (müctəhidlərinin) fkirlərinin hüquqi qərar və göstərişləridir (7).

Hüquqtətbiqetmə prosesində qeyd edilən mənbələrlə yanaşı analogiya üzrə mühakimə (qiyas) də mühüm yer tutur. Müsəlman hüququ avtoritetə əsaslandığı üçün analogiya üzrə

mühakiməyə (qiyasa) yeni hüquq normasının yaradılması kimi deyil, yalnız hüquq normasının təfsiri və tətbiqi üsulu kimi baxılır. Fransız komparativisti R.David bu faktdan çıxış edərək qeyd edir ki, müsəlman hüquqşünası ümumi hüquq sisteminin hüquqşünasından fərqli düşüncə tərzinə malikdir. Müsəlman hüquqşünasının psixologiyası hüququ sistemləşdirilmiş və məcəllələşdirilmiş keyfiyyətdə olan roman sisteminin hüquqşünasının mövqeyindən də fərqlidir (17, s.388). Müsəlman hüquqşünası abstraksiyadan, sistemləşdirmə və məcəllələşdirmədən imtina etməkdədir. O, ümumiləşdirmədən də qaçmaqdadır (17, s.389).

İslam hüququ, "islam" və "hüquq" sözlərinin bir araya gəlməsindən ibarət olan və bu gün ilahiyyat fakültələrində bir ana elm sahəsi olaraq qiymətləndirilir və İslam tarixində fiqh olaraq bilinən elm budağından başqa bir şey deyildir. O səbəblə burada hüquqdan daha geniş əhatəli olaraq qiymətləndirilməsi mümkün olan fiqhin anlayışı üzərində dayanılması yerinə düşər. Lüğətdə fiqh «bilmək, anlamaq, bir şeyi şüurlu bir halda dərk etmək, bir şeyin mahiyyətinə vaqif olmaq, bağlı bir şeyin həqiqətinə düşüncəni nüfuz etdirmək, gizli bir mənanı qavramaq» kimi mənaları ifadə edir. Terminoloji cəhətdən «insanın əməl istiqamətində lehinə və əleyhinə olan şəri hökmləri bir bacarıq halında bilməsi "deməkdir. Digər bir tərifə görə, fiqh «əməliyyata, yəni ibadətlər, cəzalar və şəxslərarası əlaqələrə dair şəri hökmləri tək-tək dəlillərilə bilməkdən ibarətdir," (1, s.13-14) deyə təyin olunmuşdur. Klassik İslam hüququ ədəbiyyatındakı anlayışa əsasən, fiqh müsəlman fərdin gündəlik həyatını davam etdirərkən bilmək ehtiyacında olduğu əsas məlumatı əldə edə biləcəyi intizamın adıdır. İslam hüquqşünasları fiqhin müxtəlif tərifləri vermişlər. Bu təriflərdən bəziləri belədir: Fiqh "mükəlləflərin davranışları ilə bağlı olaraq sabit olan şəri hökmləri bilməkdir" (8, s.4). Fiqh "müctəhidlərin, təfsilat şəri dəlillərindən istifadə etdiyi şəriət hökmləridir" (15, s.23). «Müctəhidlərin, hər bir əməli məsələni maraqlandıran dəlilləri tək-tək araşdırıb onlardan çıxardıqları hökmlərə "fiqh" deyilir». Fiqh "şəri-əməli hökmlərə, təfsil (ayrı-ayrı) dəlillərinə söykənərək bilməkdir" (3, s.13). – Amma (gündəlik həyatda istifadə olunana fiqh sahəsi) və fərd həyatının və ticarət münasibətlərinin hər sahəsi, dinin qəbul etdiyi ehkama görə, tənzim edilməsində, özündən faydalanan ehkama fiqh deyilir (9). – Dini qaydaları, əməli həyata aid məlumatları və hökmləri ehtiva edən elm sahəsinə fiqh deyilir (13). "Ən geniş mənasıyla fiqh İslamı bir bütün olaraq şəriətin məqsədinə uyğun şəkildə doğru qavramaq və onu dövrün şərtlərinə uyğun və ehtiyacları qarşılayacaq bir şəkildə, insanlara anlaya biləcəkləri bir dillə, asanca yaşaya və yaşadıqlarından da axirətə gedən dünya həyatlarında xoşbəxt olacaqları bir şəkildə praktik həyata keçirmə qabiliyyət və müvəffəqiyyətidir (4; 10 s.55).

İslam hüquq tarixi, araşdırmalarının kifayət qədər inkişaf etmədiyi, zamanlarda bəziləri, qısa bir zamanda doğulub fövqəladə bir inkişaf göstərən İslam hüququ üçün xarici bir kök, bir mənbə axtarışında, Roma-Bizans, Yəhudi, Cahiliyyə, İran və s. qaynaqları üzərində dayanmış, İslam hüququnun onların biri və ya bir neçəsində iqtibas edilmiş olduğu fikrini irəli sürmüşlər, lakin bu iddialarını elmi dəlillərlə sübut edə bilməmişlər. Bu iddiaya qarşı çıxan elmi fikirlərə, tarixi faktlara və İslam hüququnun xarakterinə söykənən, bu nöqtələrdən hərəkət edən yerli və xarici tədqiqatçıların bəziləri isə haqlı olaraq İslam hüququnun orijinal, vəhy qaynaqlı, öz dinamikası ilə inkişaf edən bir hüquq olduğu iddiasını irəli sürmüşlər. Əsrlər boyu dünyanın böyük bir qisminə hökm etmiş, şəxslər və birliklər arasındakı əlaqələri təşkil edən bir sistemin, qarşılıqlı təsirdən uzaq qalması qeyri-mümkündür. İslam hüququ və müəssisələri hökmran olduğu ölkələrin bəzi hüquq qaydalarını və müəssisələrini əxz etmişdir. İslam hüququ da öz növbəsində Şərqdə və Qərbdə bir çox ölkələrin hüququna az və ya çox dərəcədə təsir etmişdir. Bütün bunlar doğru olmaqla bərəbər bir başqa həqiqət də İslam hüququnun bütün halında (xüsusi və ümumi hüquq olaraq) vəhyə söykənən, ilahi irşad işığında işləyən fəqihlər ictihadından (ağılından) doğulmuş, inkişaf etmiş bir hüququn olmasıdır (11).

Qeyd edilənlərə baxmayaraq, müsəlman hüququnun mənbələrini, o cümlədən Quranı, sünnəni, icmanı və qiyası yalnız müəyyən bir ardıcıllığı, hüquqi sistemləşdirməni gözləməklə təmin etmək olar. Müsəlman hüquqşünaslığı – fikh (ərəbcədən – başa düşmək, mühakimə)

olmadan müvafiq mənbələrin məzmunu açıqlana bilməz. Təsadüfi deyil ki, onların arxasında müsəlman hüququnun avtoritetləri (müctəhidləri) də dayanmaqdadır.

İlk müctəhidlər kimi hakimlər çıxış etmişlər. Lakin sonradan müsəlman hüququnun əsas mənbələri olan Quran və sünnə ilə tənzimlənməyən münasibətlər üçün yeni normayaradıcılığı prosesi hüquqşünas alimlərə keçmişdir. «İctihad» (təşəbbüskarlıq) sözündən formalaşan müctəhidlik məzhəblərdən asılı olaraq yeni hüquq normasının yaradılmasında müəyyən bir hüquqi-texniki metodlar sisteminə əsaslanmaqla, həm də müəyyən bir elmi təsnifat dərəcəsini təsbit edir. Bilavasitə «ictihad» nəticəsində müsəlman hüquqşünaslığı özünün yüksək elmi səviyyəsinə, çevikliyinə nail olmuş, Quran və sünnənin eyni zamanda dinamik təbiət kəsb etdiyini göstərmişdir. «İctihad»dakı sərbəstlik müsəlman hüququnun dəyişən ictimai münasibətlərə uyğunlaşmasını təmin etmişdir (23; 24).

Hazırda istər sünni, istərsə də şiyəlik məzhəbləri (məktəbləri) arasında nə qədər fərqlər olsa da, onlar üçün ümumi başlanğıc mövcuddur. Ümumi başlanğıc kimi bütün məzhəblər Quran və sünnəyə əsaslanmaqdadır. Bu da müsəlman hüququndakı məzhəblərin obyektiv tərəfini formalaşdırır.

Müsəlman hüquq nəzəriyyəsinə görə islam hüquq normaları özlərinin başlanğıcını birbaşa Qurandan və sünnədən götürməklə bərəbar, həm də hüquqşünasların baxışına görə digər mənbələrdən seçilmişdir. Müsəlman hüququnun tətbiqində də islam alimlərinin baxışı hakimlər üçün meyar kimi çıxış etməkdədir. Hakim Quranı təfsir etmək səlahiyyətinə malik deyil. Bu kitabın təfsiri səlahiyyətli hüquq doktorlarına mənsubdur. Hakimlər isə onların əsərlərinə əsaslanmalıdırlar (17, s.388). Təsadüfi deyil ki, müsəlman hüququ hüquqşünasların hüququ kimi də adlandırılır (22, s.189). Müsəlman hüququnda doktrinaya xüsusi əhəmiyyət verilməsi ictimai münasibətin tənzimlənməsində vicdanlılıq və ədalətlilik prinsiplərinin gözlənilməsi zərurəti ilə bağlıdır. Hər bir halda hər bir şəxs üçün fərdi keyfiyyətlərin nəzərə alınması ilə ədalətlilik təmin edilə bilər. Bu xüsusiyyət Qərb hüququ üçün, eləcə də beynəlxalq insan hüquqları üçün xarakterikdir.

Müsəlman hüququnun geniş doktrin əsası və kazus xarakteri onun davamlı inkişafını və çevikliyini təmin etmişdir. Bu hüququn kazual göstərişlərinin daha səmərəli tətbiqi üçün formalaş-dırılan ümumi hüquqi prinsipləri də müsəlman hüququnun doktrin əsası kimi çıxış etməkdədir. Müsəlman hüququnun ümumi prinsipləri Quranın bu və ya digər müddəalarının deyil, bütövlükdə müsəlman hüququnun bütün mənbələrinin və konkret normaların tətbiqi praktikasının analizi əsasında formalaşdırılmışdır. Müsəlman hüququnun ümumi prinsiplərinin formalaşdırılması yalnız həmin hüququn düzgün tətbiqi və təfsiri üçün deyil, həm də onun sistemliliyi, digər hüquqi sistemlərlə, o cümlədən beynəlxalq hüquqla qarşılıqlı əlaqəsinin təmin edilməsi üçün əhəmiyyətlidir. Müsəlman hüququnun ümumi prinspləri ayrı-ayrı dövlətlərin konstitusiya (dövlət) hüququnda, İslam Birliyi ölkələrinin beynəlxalq hüququnda da təsbit edilməkdədir. Bir qisim müsəlman dövlətləri (məsələn, İran, Pakistan, Mərakeş, Suriya və b.) isə eyni zamanda sahəvi (mülki məcəllə) atktları ilə islam hüququnun ümumi prinsiplərinə bağlılığını ifadə edir və hüquqda boşluğun doldurulması zamanı başlıca meyar kimi həmin normalara əsaslanmağı nəzərdə tutur. Əsas qanunu Qərb hüquq modelinə əsaslanan İran İslam Respublikasının konstitusiyasında da islam hüququnun prinsiplərinə uyğunlaşdırma proseduru nəzərdə tutulur. Bu hal onu göstərir ki, müsəlman ideologiyası və hüququnda olan dövlət tədricən cəmiyyətdəki ictimai münasibətlərin beynəlmiləlləşməsi ilə inteqrasiya proseslərinə məruz qalmaqdadır. Beynəlmiləlləşmə, həmçinin qloballaşma hüquq ailələrinə də ciddi formada təsir etməkdədir. Nəticədə komporativliyin köməyi ilə hüquqi sistemlər bir-birinin müsbət elementlərini təsbit etməkdədir. Məsələn, roman-german hüququndakı sistemləşdirmə, məcəllələşdirmə müsəlman hüququna da transformasiya edilməkdədir. Ümumi hüquq sistemi üçün xarakterik olan hakim təcrübəsi(məhkəmə presedenti) baxışları ilə oxşarlıq təşkil etməkdədir. Bu hal bütün hüquq sistemləri üçün xarakterikdir. Beləliklə, bu gün müsəlman hüququ dedikdə yalnız dini-ənənəvi

mənbələrin məcmusuna əsaslanan sistem başa düşülməməli, müxtəlif hüquqi sistemlərilə qarşılıqlı əlaqədə olan bu və ya digər elementləri ilə başqa hüquq ailələri ilə fərqlərlə yanaşı oxşarlıq təşkil edən müsəlman ölkələrinin pozitiv hüquqi sistemləri nəzərdə tutulmalıdır.

Açar sözlər: müsəlman hüququ, İslam, fiqh, istihad, Quran, şəriət.

İstifadə olunmuş ədəbiyyat

1. Bilmen Ö. Hukuk-i İslamiyye ve İstılahat-ı Fıkhiyye Kamusu, İstanbul, 1985, I.13-14.
2. Dr. Ali Duman "Hüquq və İslam hüququ".
3. Ebu Zehra Muhammed. İslam Hukuku Metodolojisi (Fıkıh Usulü), çev. Abdulkadir Şener, Ankara, 1986, s.13.
4. Erdoğan M., Sözlük, Ankara, s.112.
5. Figen Y. "Devletin Özgürleşmesi Sorunu – Bağımsızlık ve Dış Politika", http://www.islamhukukusayfasi.com/
6. Əs-Səbuni Əbdül Rəhman. Müsəlman hüququnun örənilməsinə giriş. I h. Müsəlman hüququnun mənbələri və ümumi prinsipləri. Dəməşq, 1981-1982, s.26-27 (ərəb dil.)
7. Əz-Züheyli Bahba. Müsəlman hüququnun əsasları. Dəməşq, 1h. Rasional mənbələr. 2h. İctihad və onunla əlaqəli məsələlər. Dəməşq, 1981-1982.
8. Gazali Ebu Hamid, Mustasfa min İlmi'l-Usul, Bulak, I.4.
9. Goldziher, Ignaz, "Fıkıh" mad., İslam Ansiklopedisi, IV.601.
10. Hallaf Abdulvahhab. İslam Hukuk Felsefesi (İlmü Usuli'l-Fıkh), çev. Hüseyin Atay, Giriş, s.55.
11. Hayrettin Karaman "İslâm Hukuk Tarihi" İz yayıncılık, İstanbul, 1999.
12. İslâm Hukukuna Giriş, Çev. Prof. Şener, Prof. Dağ, Ankara, 1977, s. 18.
13. Karaman, Hayreddin, "Fıkıh" mad., Türkiye Diyanet Vakfı, İslam Ansiklopedisi (TDVİA), XIII.1
14. Subhi as-Saleh. Müsəlman hüququnun təsnifləndirici əlamətləri. Beyrut, 1978, s.12 (ərəb dil.)
15. Şaban Zekiyyüddin. İslam Hukuku İlminin Esasları (Usulü'l-Fıkh), çev. İ. Kafi Dönmez, Ankara, 1990, 23.
16. Али Абдулвахед Уви. Права человека в исламе. Каир,1979 (на араб. яз.)
17. Давид Р. Основные правовые системы современности. М.,1967, ъ.29.
18. Керимов Д.А. Методология права: предмет, функции, проблемы философии права.. 3-е изд..Перераб. и доп. М., СГА, 2003, с.248.
19. Маудиду С.А. Права человека в исламе. Казань. 1995.
20. Милославский Г.В. Интеграционные процессы в мусульманском мире. М., 1991.
21. Шарл Р. Мусульманское право. М., 1959.
22. Ard Gamal Moursi. Islamic Law: Its relationsto Other Legal Systems. The Journal ob Comporative Law. 1978, v.26, p.189.
23. Himmich Ben Salem. De la Formation ideologique en Islam. Ictihadat et histoire. P.1980.
24. Weiss B. Interpretation in Islamic Law: The Theory of Ictihad. The American Journal of Comparative Law. 1978. v.26.

Мехран Шарифи КЛАРИДЖАНИ

ПОНЯТИЕ И ОСОБЕННОСТИ МУСУЛЬМАНСКОГО ПРАВА

Резюме

Мусульманское право является одним из основных правовых систем мира. В этой статье исследуются проблемы происхождения и основные системные элементы мусульманского права. Раскрываются наиболее важные тождественные и различные аспекты мусульманского права с другими правовыми системами мира.

Ключевые слова: мусульманское право, ислам, фикх, иджтихад, Коран, шариат.

Mehran Sharifi KLARISANI

THE NOTION AND THE PECULIARITIES OF ISLAMIC LAW

Summary

Islamic law is one of the principal legal systems of the world. In this paper the issues of origin and the main system elements of Islamic law are investigated. The most important identical and different aspects of Islamic law with other legal systems around the world are exposed.

Keywords: Moslem law, Islam, fikh, ijtihad, the Quran, Sharia.

UOT 343.12

Rza Məhəmməd MƏSUDİFƏR
BDU, aspirant

QƏSDƏN ADAM ÖLDÜRMƏ CİNAYƏTLƏRİNİN İSTİNTAQINDA MÜSTƏNTİQİN ƏMƏLİYYAT-AXTARIŞ ORQANLARI İLƏ QARŞILIQLI ƏLAQƏSİNİN XÜSUSİYYƏTLƏRİ*

Qəsdən adam öldürmə ilə bağlı cinayətlərin ibtidai araşdırılmasında qarşılıqlı əlaqə dedikdə, təşkilati cəhətdən müstəqil subyektlər tərəfindən ümumi vəzifələrin kompleks həllinə istiqamətlənmiş qanunvericilikdə nəzərdə tutulmuş qaydada hər bir tərəfin malik olduğu metod və vasitələrdən istifadə etməklə həyata keçirilən birgə razılaşdırılmış fəaliyyət başa düşülür (1, s. 37).

Qəsdən adam öldürmə ilə bağlı cinayətlərin açılması və araşdırılması fəaliyyətini həyata keçirən subyektlərin qarşılıqlı əlaqəsi zərurəti aşağıda göstərilən əsas hallarla şərtləndirilir:

- qəsdən adam öldürmə ilə bağlı cinayətlərə qarşı mübarizə üzrə ümumi vəzifələrin mövcudluğu;
- onlar tərəfindən tətbiq edilən metod və vəzifələrin müxtəlifliyi, həmçinin cinayət-prosessual və əməliyyat-axtarış funksiyalarının bir araya sığmaması. Belə ki, müstəntiq həyata keçirdiyi istintaq və digər prosessual hərəkətləri Azərbaycan Respublikası CPM-ə, əməliyyat işçiləri isə əməliyyat-axtarış fəaliyyətinin metod və vasitələrini tətbiq edərkən digər qanunlara, əmrlərə və təlimatlara əsaslanırlar. Bu zaman müstəntiq əməliyyat-axtarış tədbirlərini müstəqil olaraq həyata keçirmək hüququna malik deyildir. Mütəxəssislər isə öz növbəsində informasiyaların maddi daşıyıcılarının təhqiqatının (fiziki, kimyəvi, riyazi, bioloji və s.) metod və vasitələrini tətbiq edirlər;
- qəsdən adam öldürmə ilə bağlı işlər üzrə cinayət işlərinin ibtidai araşdırılması prosesində cinayət-prosessual və əməliyyat-axtarış fəaliyyətinin nəticələrinin hüquqi əhəmiyyətinin müxtəlifliyi. Belə ki, istintaq hərəkətlərinin həyata keçirilməsi zamanı müstəntiq cinayət işi üçün məhkəmə sübutları, əməliyyat-axtarış tədbirlərinin keçirilməsi nəticəsində isə əməliyyat işçisi sonrakı prosessual yoxlanılmalı olan əməliyyat məlumatı əldə edirlər;
- qəsdən adam öldürmə ilə bağlı cinayətlərlə əlaqədar informasiya alan subyektlə, bu informasiyanı istifadə edən subyektin funksiyaları arasında olan uyğunsuzluq. Belə ki, bu işlər üzrə bir çox hallarda müstəntiq tərəfindən istintaq hərəkətlərinin aparılması zamanı əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi ilə nəticələnən informasiyalar əldə edilir. Əməliyyat-axtarış tədbirlərinin tətbiqi nəticəsində isə istintaq hərəkətlərinin təşkili və aparılması prosesində müstəntiq tərəfindən istifadə edilməli olan informasiya (məsələn, cinayətin digər iştirakçılarının və ya terrorçuluq əməlinin törədilməsi alətinin yeri haqqında məlumat və s.) əldə edilir.

Qəsdən adam öldürmə ilə bağlı cinayətlərin ibtidai araşdırılması prosesində subyektlər – müstəntiq, əməliyyat işçisi, mütəxəssis və s. arasında qarşılıqlı əlaqənin hüquqi əsası qismində cinayət, cinayət-prosessual, inzibati-hüquqi normalar və qanun qüvvəli normativ aktlar (müəssisədaxili əmrlər, təlimatlar və s.) çıxış edirlər.

Qəsdən adam öldürmə ilə bağlı cinayət işləri üzrə ibtidai araşdırma zamanı qarşılıqlı əlaqə aşağıdakı mərhələlərdən ibarətdir: narkotiklə bağlı cinayətlər haqqında siqnalların əməliyyat (istintaqa qədər) yoxlanması; əməliyyat yoxlama materialları üzrə (narkotiklə bağlı cinayəti əlamətləri mövcud olduqda) cinayət işinin başlanılması; konkret narkotiklə bağlı cinayət işi üzrə ibtidai araşdırma.

---

* Məqalə h.e.d., prof. K.Səlimov tərəfindən çapa məsləhət bilinib.

Qəsdən adam öldürmə ilə bağlı cinayət işləri üzrə ibtidai araşdırma prosesində müstəntiq, əməliyyat işçisi, mütəxəssis və s. arasında qarşılıqlı əlaqənin səmərəliliyini artırmaq məqsədilə aşağıdakı prinsiplərə əsaslanmaq lazımdır: qanun və digər normativ-hüquqi aktların müddəalarına ciddi riayət olunma; birgə fəaliyyətin həyata keçirilməsi prosesində qarşılıqlı əlaqənin bütün iştirakçıları tərəfindən məxfiçiliyə riayət olunma; qarşılıqlı əlaqə üzrə fəaliyyətə vahid rəhbərliyin məsul əməkdaş tərəfindən həyata keçirilməsi; qarşılıqlı əlaqənin müxtəlif növ və formalarının ən münasib qaydada istifadə edilməsi; qəsdən adam öldürmə ilə bağlı cinayətlərə qarşı mübarizə aparan müvafiq icra hakimiyyəti orqanlarının qarşılıqlı əlaqə prosesinə cəlb edilməsi və subyektlərin fərdi təhlükəsizliyinin təmin olunması. Bu tələblərə səhlənkarlıqla yanaşma isə faciəli nəticələrə, maddi sübutların məhv edilməsinə və s. gətirib çıxarır; konkret istintaq hərəkətlərinin və taktiki əməliyyatların keçirilməsi zamanı subyektlərin funksiyalarının, onların səlahiyyətlərinin və fərdi məsuliyyətinin göstərilməsi ilə qarşılıqlı əlaqənin planlaşdırılması; qəsdən adam öldürmə ilə bağlı cinayətlər üzrə istintaq əməliyyat qrupu üzvləri tərəfindən hadisə yerinə baxış zamanı və icraatında olan cinayət işi üzrə ibtidai araşdırma prosesində qarşılıqlı əlaqəni həyata keçirən zaman müstəntiqin aparıcı rolunun təmin edilməsi; qəsdən adam öldürmə ilə bağlı cinayətlərin ibtidai araşdırılması prosesinə cəlb edilmiş müxtəlif orqanlar arasında qarşılıqlı əlaqənin başlanması və başa çatmasının əlverişli vaxtının səmərəlilik nöqteyi-nəzərdən seçilməsi; texniki-kriminalistik və əməliyyat-texniki vasitələrin kompleks tətbiqi.

Qəsdən adam öldürmə ilə bağlı cinayətləri üzrə ibtidai araşdırmada qarşılıqlı əlaqənin effektivliyini təmin etmək üçün müəyyən şərtlərə riayət etmək lazımdır. Bunlara aiddir: qarşılıqlı əlaqədə iştirak edən hər bir orqan və ya konkret şəxs tərəfindən işlə bağlı birgə müzakirə üçün sualların qoyulmasında təşəbbüskarlıq; bu müzakirələr zamanı, prosessual və xidməti vəziyyətindən asılı olmayaraq bütün qarşılıqlı əlaqə iştirakçılarının bərabərliyi; birgə qəbul olunmuş qərarlar üzrə hər bir qarşılıqlı əlaqə subyektinin (orqan və ya qrup üzvünün) bu qərarların realizəsində müstəqilliyi; qarşılıqlı əlaqədə olan proses iştirakçılarının bir-birinə zəruri köməkliyin göstərilməsi.

Zənnimizcə, hər hansı qarşılıqlı əlaqənin effektivliyi həm də bu prosesdə iştirak edən hər bir tərəfin lazımi səviyyədə aktivliyi ilə sıx bağlıdır (2,s. 24). Bu cür aktivliyin əsas metodlarına isə aşağıdakıları aid etmək olar:

- qəsdən adam öldürmə ilə bağlı cinayətlərin kriminalistik xarakteristikası haqqında dərin biliklər, bu cinayətlərin ibtidai araşdırmasının təşkili, zəruri istintaq hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi taktikası, texniki kriminalistik metod və vasitələrin tətbiqi bacarığı;
- qarşılıqlı əlaqə prosesində bu fəaliyyətin ümumi məqsədləri haqqında məlumatın olması (şübhəli şəxsin cinayət başında yaxalanması, cinayətkar qrupun başçısının nüfuzdan salınması, qanunsuz narkotik vasitə və ya psixotrop maddə anbarının məhv edilməsi və s.);
- hər bir qarşılıqlı əlaqə iştirakçısında yüksək məsuliyyət hissinin mövcudluğu.

Onu qeyd etmək yerinə düşərdi ki, qarşılıqlı əlaqənin nəticələri keçirilən birgə iclasların sayına görə deyil, real həyata keçirilən birgə tədbirlərin keyfiyyəti ilə qiymətləndirilməlidir.

Beləliklə, adam öldürmə ilə bağlı cinayətlərin ibtidai araşdırılmasında qarşılıqlı əlaqə yarana biləcək paralelizmi (təkrar, paralel fəaliyyəti) aradan qaldırır, qüvvələrin parçalanmasının (səpələnməsinin) qarşısını alır, həmçinin müntəzəm surətdə birgə iclasların keçirilməsini, qarşılıqlı informasiya mübadiləsini və birgə planların işlənməsini şərtləşdirir. Bu isə öz növbəsində, birincisi, adam öldürmə ilə bağlı cinayətlərin tez və tam açılması, araşdırılması və qarşısının alınması məqsədinə nail olmaq üçün istintaq, əməliyyat işçilərinin və mütəxəssislərin biliklərindən daha əlverişli surətdə istifadə edilməsinə, ikincisi, ümumi birgə fəaliyyət planına əsasən hər bir qarşılıqlı əlaqə iştirakçısının ayrı-ayrı funksiyalarının icrasını aktivləşdirməyə, yaranmış kriminalistik şəraitin vaxtında və obyektiv qiymətləndirilməsini stimullaşdırmağa, onlar arasında təşəbbüsün yaranmasına imkan verə bilər.

Hüquq-mühafizə orqanlarının istintaq və əməliyyat (təhqiqat) orqanlarının qarşılıqlı fəaliyyəti cinayətlərin açılmasına, araşdırılmasını və qarşısının alınmasına yönəldilmiş müvafiq məsələlər həll edilərkən istintaq hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin qarşılıqlı əlaqəsi və asılılığı əsasında yaranır. Əməliyyat-axtarış hərəkətləri yerinə yetirilərkən alınmış məlumatların tədqiq edilməsinin müəyyən mərhələsində bu və ya digər istintaq hərəkətinin aparılması zəruri olur. Eyni zamanda həmin cinayət işi üzrə sübutların toplanılması da öz növbəsində əməliyyat-axtarış hərəkətlərinin həyata keçirilməsini tələb edə bilər. Bu istintaq və əməliyyat (təhqiqat) orqanlarının qarşılıqlı fəaliyyəti üçün zəmin yaradır.

Cinayət–prosessual qanun normalarında cinayətlərin araşdırılması zamanı istintaq və əməliyyat (təhqiqat) orqanlarının qarşılıqlı fəaliyyətini əks etdirən və ümumi müddəalarını təşkil edən "qarşılıqlı fəaliyyət" terminina rast gəlinmir. Lakin qanunun müvafiq maddələrində cinayətlərin açılması, araşdırılması və qarşısının alınması gedişində bu orqanlara həvalə edilmiş fəaliyyətin mahiyyəti müvəffəqiyyətlə açılmışdır.

Azərbaycan Respublikasının konkret hüquq-mühafizə orqanının əməliyyat və istintaq bölmələri arasında qarşılıqlı əlaqə müxtəlif qanunqüvvəli normativ hüquqi aktlarda təsbit olunmuşdur. Bu sənədlərdə göstərilir: «…istintaq bölməsi və əməliyyat bölmələri arasında qarşılıqlı əlaqə – araşdırılması qanunvericiliklə konkret hüquq-mühafizə orqanının səlahiyyətlərinə aid edilmiş cinayətlərin aşkar edilməsi, qarşısının alınması, açılması, həmin cinayətlərin törədilməsinə şərait yaradan halların müəyyən edilməsi və aradan qaldırılması, habelə cinayətkarlıqla mübarizədə onların üzərinə düşən başqa vəzifələrin yerinə yetirilməsi ilə bağlı müəyyən edilmiş fəaliyyəti ifadə edir».

İbtidai istintaqın aparılması məcburi olan bütün işlər üzrə istintaq və əməliyyat (təhqiqat) orqanlarının prosessual münasibəti yarana bilər. Əməliyyat (təhqiqat) orqanı istintaq hərəkətlərinin aparılmasını cinayət işi başlanılan vaxtdan etibarən on gündən gec olmayaraq qurtarmalı və işi müstəntiqə verməlidir, cinayət etmiş şəxsin tapılması mümkün olmadan iş müstəntiqə verildikdə əməliyyat (təhqiqat) orqanları cinayətkarı müəyyən etmək üçün əməliyyat-axtarış tədbirləri görməkdə davam edərək bunun nəticələri haqqında müstəntiqə məlumat verir.

İstintaq və əməliyyat (təhqiqat) orqanlarının qarşılıqlı fəaliyyəti cinayət işi başlanılana kimi də yarana bilər. Azərbaycan Respublikası CPM-də göstərilmişdir ki, (3) təxirəsalınmaz hallarda hadisə yeri cinayət işi başlananadək yoxlanıla bilər. Bu hərəkət həyata keçirilərkən müstəntiq əməliyyat (təhqiqat) orqanı işçisinə tapşırıq və göstərişlər verməyə səlahiyyətlidir. Cinayət prosessual qanuna görə cinayət işləri üzrə ibtidai istintaqı qanunla müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının prokurorluq, Daxili işlər nazirliyinin müstəntiqləri öz səlahiyyətləri dairəsində aparırlar. Bu orqanlar öz fəaliyyətlərində həm də müvafiq idarə təlimatlarını da rəhbər tuturlar.

Azərbaycan Respublikası CPM-də göstərilən təhqiqat (əməliyyat) orqanları bütün cinayət işləri üzrə, əgər qanunla təhqiqatın aparılması başqa orqana həvalə edilməmişsə, təhqiqat aparmaq, cinayət işi başlamaq və təxirəsalınmaz istintaq hərəkətlərini həyata keçirmək hüququna malikdir. Əməliyyat orqanlarının bütün fəaliyyəti cinayət-prosessual qanunvericiliyinin normaları ilə nizama salınmasa da onlara zidd olmamalıdır. İstintaq və əməliyyat (təhqiqat) orqanlarının qarşılıqlı fəaliyyətinin cinayət-prosessual qanunvericiliyin normaları əsasında daha da gücləndirilməsi cinayətlərin qısa vaxtda, daha az qüvvə və vəsait sərf etməklə açılmasına şərait yaradır.

Qarşılıqlı fəaliyyətin formaları müxtəlif ola bilər. Onların təsnifləşdirilməsi iki əsas cəhətlə: müstəntiqin tapşırığı ilə əməliyyat (təhqiqat) orqanının həyata keçirdiyi fəaliyyətin xarakteri və qarşılıqlı fəaliyyətin həyata keçirilməsi müddəti ilə əlaqədardır.

Azərbaycan Respublikası CPM-ə müvafiq olaraq cinayətlərin istintaqı zamanı istintaq və əməliyyat (təhqiqat) orqanlarının qarşılıqlı fəaliyyətinin formalarına aşağıdakılar aid edilir: istintaq bölmələri tərəfindən əməliyyat bölmələrinə əməliyyat-qeydiyyat işləri (ƏQİ) açıldıqdan

başa çatanadək əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində cinayət-hüququ və cinayət-prosessual xarakterli məsləhətlərin verilməsi sahəsində metodiki köməklik göstərilməsi; törədilmiş və ya hazırlanan cinayətlər barədə fiziki, hüquqi (vəzifəli) şəxslərin, həmçinin kütləvi informasiya vasitələrinin məlumatlarına baxılarkən birgə fəaliyyətin həyata keçirilməsi; cinayət işləri üzrə, onların başlanıldığı (icraata qəbul edildiyi) andan istintaqı başa çatanadək ibtidai istintaqın əməliyyat təminatı; icraatı dayandırılmış cinayət işləri tərtib edilmiş birgə plana əsasən fəaliyyət; əməliyyat (təhqiqat) orqanının istintaq hərəkətlərinin aparılması haqqında müstəntiqin tapşırıqlarını və göstərişlərini yerinə yetirməsi; əməliyyat (təhqiqat) orqanının müstəntiqin axtarış hərəkətlərinin aparılması haqqında tapşırıqlarını və göstərişlərini yerinə yetirməsi; ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasında (hadisə yerinə baxış, axtarış, ifadənin yerində yoxlanılması və s.) əməliyyat (təhqiqat) orqanının müstəntiqə kömək etməsi; hüquqi yardım göstərilməsi haqqında Azərbaycan Respublikasının tərəfdar çıxdığı müqavilələrə əsasən xarici dövlətlərin müvafiq hakimiyyət orqanlarının sorğuları əsasında əməliyyat-axtarış tədbirlərinin və istintaq hərəkətlərinin həyata keçirilməsində razılaşdırılmış fəaliyyət.

Bu orqanların qarşılıqlı fəaliyyət formaları bununla məhdudlaşmır. Belə ki, istintaq və əməliyyat bölmələrinin təklifi və konkret hüquq-mühafizə orqanının rəhbərliyinin müvafiq göstərişi əsasında konkret məsələlərin həlli üçün qarşılıqlı əlaqənin digər istiqamətləri də müəyyən edilə bilər.

Qəsdən adam öldürmə ilə bağlı cinayətlərin istintaqı zamanı tətbiq olunan qarşılıqlı fəaliyyət formaları müddətinə görə də fərqləndirilir: birdəfəlik, vaxtaşırı və daimi (ibtidai istintaq başa çatana qədər). İstintaq və əməliyyat (təhqiqat) orqanlarının qarşılıqlı fəaliyyəti prosessual və təşkilati cəhətdən də fərqləndirilir.

Qarşılıqlı fəaliyyəti prosessual cəhət aid etmək olar: ibtidai istintaqın aparılması məcburi olan cinayətin əlamətləri aşkar edildikdə əməliyyat (təhqiqat) orqanının cinayət işi başlaması, cinayətin izlərini müəyyən etmək və möhkəmləndirmək üçün təxirəsalınmaz istintaq aparması və işi müstəntiqə verməsi; cinayət işi başlanması haqqında məsələnin həll edilməsi üçün əməliyyat-axtarış tədbirləri vasitəsilə əldə edilmiş, cinayətin əlamətləri olan materialları müstəntiqə verməsi; əməliyyat (təhqiqat) orqanının ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasında müstəntiqə kömək etməsi; əməliyyat (təhqiqat) orqanının ayrı-ayrı istintaq və ya axtarış hərəkətlərinin aparılması haqqında müstəntiqin tapşırıqlarını yerinə yetirməsi; istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində əldə edilmiş məlumatların mübadilə edilməsi.

Müstəntiq istintaqı aparılan iş üzrə əməliyyat (təhqiqat) orqanına lazımi istintaq və axtarış hərəkətlərinin aparılmasını tapşırmağa və istintaq hərəkətləri aparılarkən ona kömək edilməsini tələb etməyə haqlıdır. Əməliyyat (təhqiqat) orqanı müstəntiqin tapşırığını yerinə yetirməyə borcludur

Beləliklə, istintaq və əməliyyat (təhqiqat) orqanlarının birgə fəaliyyətinin formasından asılı olmayaraq onlar həmişə müxtəlif müstəqil funksiyalı orqanlar kimi fəaliyyət göstərirlər. Bu orqanların birgə fəaliyyətinin yeganə uyğun cəhəti onların fəaliyyətinin razılaşdırılmış formada planlaşdırılması, ümumi məqsədə xidmət edəcək istintaq və əməliyyat qruplarının yaradılması, istintaq və əməliyyat hərəkətlərinin aparılacağı yerə birgə getmənin təşkil olunması, qarşılıqlı məlumat mübadiləsi, istintaq və əməliyyat-axtarış məlumatlarının birgə müzakirə edilməsidir. Eyni zamanda qeyd etmək lazımdır ki, alınmış məlumatların qiymətləndirilməsində qarşılıqlı əlaqə subyektləri arasında yaranan fikir ayrılığı (cinayət işi üzrə sübutların qiymətləndirilməsində prosessual qərarların qəbul edilməsi istisna olmaqla) konkret hüquq-mühafizə orqanının rəhbərliyi tərəfindən həll olunur.

Yuxarıda göstərilənlərdən belə nəticəyə gəlmək olar ki, adam öldürmə ilə bağlı cinayətlərin açılması və araşdırılması üzrə müstəntiqə kömək məqsədilə bir qrup əməliyyat işçisinin ayrılması haqqında qərar (yaxud istintaq-əməliyyat qrupunun yaradılması haqqında qərar) tamamilə özünü doğruldur, ümumi işin öhdəsindən layiqincə gəlməyə şərait yaradır.

İran İslam Respublikasının cəza qanunvericiliyində müxtəlif orqanlar arasında qarşılıqlı əməkdaşlığın zəruri olması barədə hər hansı bir aydın və dolğun məqam mövcud deyildir. Yalnız bir neçə maddədə polis qüvvələrinin ədliyyə müfəttişləri kimi məhkəmə orqanlarının sərəncam və göstərişlərinə əməl etmələri, polis qüvvələrinin məhkəmə orqanları tərəfindən istiqamətləndirilməsi işi, eləcə də məhkəmə qərarlarının həyata keçirilməsi məqsədilə dövlət qurumları və özəl təşkilatlar arasında qarşılıqlı əməkdaşlığı vurğulanmışdır. Buna misal olaraq İran İslam Respublikasının Cəza Məcəlləsinin 570-cı maddəsini göstərmək olar (4). Belə ki, bu maddələrdə qeyd olunanlara əsasən cinayət işinin araşdırılması istiqamətində polis qüvvələri və digər müvafiq qurumların məhkəmə qüvvələrilə münasib əməkdaşlıq etmədikləri təqdirdə həbs cəzası tətbiq olunur. Bundan başqa ekspertlər və peşəkarlar mütəxəssis rəyi və texniki dəstəyə ehtiyac duyulan hallarda məhkəmə orqanlarının əmrinə uyğun olaraq, öz mütəxəssis rəylərini bildirməlidirlər (5, mad. 78, 83).

Açar sözlər: istintaq, cəza, informasiya, əməliyyat-axtarış, cinayət prosessual.

İstifadə olunmuş ədəbiyyat

1. Тяжкие и особо тяжкие преступления: квалификация и расследование: Руководство для следователей / Под общ. ред. С.Г.Кехлерова; Науч. ред. С.П.Щерба. – М.: Спарк, 2001, 494 с.
2. İbraxim Salkini. Usul al-fikx al-islami. Damask, 1981-1982.
3. Azərbaycan Respublikasının CPM Bakı, 2011.
4. İran İslam Respublikasının Cəza Məcəlləsi. Tehran, 1996.
5. قانون آئين دادرسي كيفري جمهوري اسلامي ايران مصوّب 1378
Qanunə ainə dadirəsiye keyfəriye cumhuriye İslamiye İran mussəvəbe 1999-cu il (İran İslam Respublikasının cinayət prosessual məcəlləsi, 1999-cu il).

Рза Мухамед МАСУДИФЕР

ОСОБЕННОСТИ ВЗАИМОДЕЙСТВИЯ СЛЕДОВАТЕЛЯ С ОПЕРАТИВНО-РОЗЫСКНЫМИ ОРГАНАМИ ПРИ РАССЛЕДОВАНИИ УБИЙСТВ

Резюме

В статье рассматриваются особенности взаимодействия оперативно-розысных органов при раскрытии и расследовании убийств. Подробно рассматриваются факторы, обуславливающие этот вид деятельности.

Ключевые слова: следствие, преступление, информация, следствие-поиск, преступно-процессуальное.

Reza Mohammad MASUDIFER

FEATURES OF INTERACTION OF THE INVESTIGATOR WITH THE OPERATIONAL-SEARCH AGENCIES IN THE INVESTIGATION OF THE MURDER

Summary

The article deals with the peculiarities of interaction between the operative search at the disclosure and investigation of murder. Factors causing this type of activity are considered in detail.

Keywords: investigation, crime, information, operational-search, criminal procedure.

UOT 340.1 (091)

İlhamə BAYRAMLI
BDU

«ANTROPOLOJİ» TƏLİMİN YARANMASI VƏ İNKİŞAFINA DAİR*

Cinayət hüququnda «antropoloji» təlim ilk dəfə İtaliyada meydana gəlmiş, burada özünə çoxsaylı tərəfdar toplamışdır. Yeni təlimin yaradıcısı italyan psixiatr-həkimi Çezare Lombrozo (1835-1909) olmuşdur. O, 1876-cı ildə «Cinayətkar adam və onun antropologiya, hüquq və hüquqşünaslıq ilə münasibəti» əsərini çap etdirmişdir. Bu əsərində Lombrozo anadangəlmə cinayətkar haqqında nəzəriyyəni işləyib hazırlamış, cinayətin təbii hadisə olduğunu elan etmişdir. Onun fikrincə, cinayətkar meyllər şəxsdə anadangəlmə xüsusiyyətdir, hər bir cinayətkar özünün anatomik, fizioloji və psixoloji xüsusiyyətlərinin təsiri altında kriminal əməli törədir. Cinayət törədən şəxsdə kriminogen vərdişlər formalaşmır, o, cinayətkar kimi doğulur. Lombrozonun fikrincə, cinayətkarın təqsirindən deyil, onun xəstəliyindən danışmaq olar. Cinayətkar iki ayaqlı, vəhşi şirə bənzəyir, qana hərisliyinə görə onu məzəmmət etməyə dəyməz. Müəyyən əlamətlər əsasında cinayətkar insanlar seçilməlidir.

Qeyd edək ki, Lombrozonun və onun həmfikirlərinin baxışları nə antropologiyada, nə də cinayət hüququnda heç bir yeniliyi ifadə etmirdi. Belə ki, hələ XVIII əsrin sonları XIX əsrin əvvəllərində Avropada frenologiya təlimi geniş yayılmışdı. Avstriyalı Qalla məxsus olan bu təlimə görə insanın psixi xüsusiyyətinin mənbəyi onun beyninin quruluşundan asılıdır, bu da öz əksini kəllənin quruluşunda tapır. Qalla görə, beynin quruluşu qüsurlu olan adamlar cinayətkardır. Buna görə cinayətkarları onların kəllələrinin quruluşuna görə aşkar etmək olar. Qall həmin adamların kəllələrini öyrənib, onların islaholunmaz cinayətkarlar olduğuna əmin olduqdan sonra məhv etməyi təklif edirdi.

«Antropoloji» təlimin sələflərindən biri fransız psixiatrı Despin idi. Onun fikrincə cinayətkarlar «əxlaqca havalanmış» adamlardır, yəni sağlamdırlar, ancaq beyinlərinin quruluşu qüsurludur. Bu «əxlaqca havalanma» əxlaqi hissin, çox güclü əxlaqi hissiyyatsızlığın, vicdan əzabının anadangəlmə olmamasında və hədsiz ehtiyatsızlıqda ifadə olunur. «Antropoloji» təlimin çox mühüm mənbələrindən biri də fransız həkimi Morelin fikirləri idi. Bu fikirlər öz əksini ruhi xəstəliklərin və cinayətkarlığın irsən ötürülməsində tapan insan irqinin getdikcə artan cırlaşma nəzəriyyəsində tapmışdı.

Beləliklə, «antropoloji» təlimin bir çox əsas müddəaları cinayət hüququnda Lombrozo, Ferri və Qarofalodan çox-çox qabaq formalaşmışdır. Lombrozonun və onun tərəfdarlarının əsərlərində bu müddəalar artıq cinayət-hüquqi təlimin «əsas» dərəcəsi kimi yaradıldı və onlardan cinayət repressiyası üçün radikal nəticələr çıxarıldı. Özünün sələflərindən fərqli olaraq Lombrozo «hadisələri» qabaqlayaraq, elə vaxtda çıxış etdi ki, burcuaziya «klassik» məktəbinin məşəqqətli irsindən imtina etməyin zəruriliyini dərk etməyə başlamışdı.

Burcua cinayət hüququnda «antropoloji» təlimin ən mühüm postulatlarından biri cinayətin «əbədi» və «təbii» hadisə kimi izah edilməsidir. Belə ki, Lombrozo yazırdı: «cinayət... mayalanma, doğulma, ölüm, ruhi xəstəlik kimi zəruri fenomendir». «Antropoloqlar» cinayətə bu cür «təbii» izah verməklə, onun sosial təbiətini, cinayətkarlığın cəmiyyətin sinfi ziddiyyətləri ilə birbaşa əlaqəsini gizlətməyə cəhd edirdilər. «Antropoloqlara» görə cinayətkarlıq istənilən cəmiyyətə, bəşəriyyətin inkişafının istənilən mərhələsinə xasdır. «Antropoloqların» bütün əsərlərində belə bir fikir qırmızı xətlə keçir ki, cəmiyyət cinayətkarlıq bəlasından xilas olmaq imkanında

* Məqalə h.e.d., prof. F.Səməndərov tərəfindən çapa məsləhət bilinib.

deyildir, yalnız cinayətkarlığın vurduğu zərəri bu və ya digər dərəcədə zəiflədə bilər. Beləliklə, «antropoloqlar» istismarçı cəmiyyətin qüsurlarını istənilən cəmiyyətin adına yazırlar.

Cinayətkarlığın bioloji mahiyyəti, onun «təbii və əbədi» olması haqqında yalan mövqedən çıxış edərək Lombrozo özünün fiziki və psixi göstəricilərinə görə adi adamlardan fərqlənən insanın xüsusi tipinin, «anadangəlmə cinayətkarın» mövcud olması fikrini irəli sürürdü. «Antropoloqlar» «anadangəlmə cinayətkarlara» bəşəriyyətin qalan hissəsindən kəskin surətdə fərqlənən, ondan Çin səddi ilə ayrılan adamların tamamilə müstəqil tipi kimi baxırdı. Belə yanaşmada Lombrozonun davamçısı, alman alimi Kurellanın fikri daha xarakterikdir. O, bildirirdi ki, «normal quruluşlu adamın cinayətkara çevrilməsi, şimpanzenin qorillaya çevrilməsinin mümkün olmadığı qədər mümkün deyildir».

Lombrozonun tədqiqatının əsasında dünyasını dəyişmiş 383 adamın kəllə sümüyünün, 3839 nəfər həyatda yaşayan adamın kəlləsinin, eləcə də 26886 cinayətkarın, 25447 nəfər tələbənin, əsgərin və s. cinayətdən uzaq olan şəxsin müayinəsinin yekunlarından əldə edilən məlumatların ümumiləşdirilməsi və müqayisəsi dururdu (6, 47). Lombrozo həbsxanalarda cəza çəkən məhbuslarla «adi» vətəndaşların (əsgərlərin, yanğınsöndürənlərin, tələbələrin) müqayisəli tədqiqini apararaq bildirdi ki, müəyyən fiziki əlamətlərinə görə asanlıqla aşkar edilə bilən «anadangəlmə cinayətkar» tipini (təxminən məhbusların 40%-i bura daxil idi) müəyyən etmişdir. Lombrozo belə əlamətlərə hər şeydən əvvəl kəllənin quruluşunu - dərin alın tağlarını, çox böyük almacıq sümüyünü, böyük göz hədəqəsini, peysərdə dərin çuxuru, quş şəklində burun deşiyini, irəli çıxan çənəni və s. aid edirdi. Lombrozoya görə «anadangəlmə cinayətkarın» sifəti aşağıdakı əlamətlərə malikdir: sallaq qulaqlar, ensiz gözlər, əyri burun, əyilmiş alın, nazik dodaqlar, başda gur saçlar və seyrək saqqal.

Lombrozonun göstərdiyi az qala hər bir əlamət «böyük italyanın» çoxsaylı ardıcıllarının xüsusi tədqiqat predmeti oldu. Məsələn, Ottolenqi kəllənin burun sümüyünü tədqiq edib, müəyyən nəticələr çıxardı. O, hesab edirdi ki, bu nəticələrə əsasən cinayətkarları və «adi» adamları fərqləndirməkdən başqa, həm də oğruları, qatilləri və başqalarını tanımaq mümkündür. Həmçinin Ottolenqi oğruların əksəriyyətində qısa, enli, yastı, bir çox hallarda «yana meyl edən» burun olduğunu aşkar etdi.

Ottolenqi sifətdəki qırışları müfəssəl şəkildə öyrənərək, «anadangəlmə cinayətkarı» yanağın ortasından keçən və «qırış qüsuru» adlandırılan xüsusi qırışa görə aşkar etməyin mümkün olması nəticəsini çıxardı.

Lombrozonun digər ardıcılı Frigerio özünü tamamilə, xüsusi olaraq ixtira etdiyi «otometr» (latınca «oto» - «qulaq» sözündən əmələ gəlmişdir) adlı qurğunun köməyi ilə cinayətkarların qulaqlarını öyrənməyə həsr etdi. Cinayətkarların əllərinin öyrənilməsi ilə Marro adlı başqa bir «alim» məşğul oldu. O, müəyyən etdi ki, adətən qatillərin dolu və qısa qolları, oğruların isə tərsinə nazik və uzun qolları olur.

Lombrozo və digər «antropoloqlar» cinayətkarların sırf «zahiri» əlamətlərini öyrənməklə kifayətlənmədilər. Onlar bildirdilər ki, cinayətkarın beyninin çəkisi və qırışlarının sayı normal adamlarda olduğundan azdır; onlar hətta cinayətkarların mədəsində, ürəyində və digər daxili orqanlarında xüsusi əlamətlər tapırdılar; onların fikrinə görə cinayətkar öz çəkisinə və boyuna görə normal adamlardan fərqlənir və s. «Antropoloqlar» həmçinin təsdiq edirdilər ki, cinayətkarın ağrıya hissiyatı normal adamlarda olduğundan fərqlidir, özü də bəzilərinin fikrincə, bu hissiyyat normal adamlarda olduğndan yüksək, başqalarının fikrinə görə isə aşağıdır. Lombrozo cinayətkarların görmə, dadbilmə, iybilmə, lamisə qabiliyyətini, qan-damar sisteminin inkişafını, hətta yanağının qızarmasını tədqiq edib, belə bir nəticəyə gəldi ki, cinayətkarların bütün hissiyyat orqanları kütləşmişdir. Bütün bunların əsasında «antropoloqlar» aşağıdakı nəticəyə gəldilər:

«Bütün əsl cinayətkarlar sübut edilə bilən bir sıra bədən, psixoloji, ruhi və psixofizioloji əlamətlərə malikdirlər, bu əlamətlər insanın xüsusi antropoloji tipini xarakterizə edir, bu əlamətlərə malik olması insanı bütün qalan sosial və fərdi həyat şəraitindən tamamilə asılı olma-

yaraq, cinayət daşıyıcısı edir (ola bilsin bu cinayət aşkar edilməmişdir)» (5, 76). Qeyd etmək lazımdır ki, Lombrozoya görə, «anadangəlmə cinayətkarın» cizgiləri əsas cinayətkar tipləri - oğrular, dələduzlar və qatillər üçün müxtəlif şəkildə təzahür edir. Bu zaman Lombrozo bildirirdi ki, ən təhlükəli «cinayətkar tip» olan qatillərdə «anadangəlmə cinayətkarın» bütün xarakterik cizgiləri cəmlənmişdir.

«Antropoloji» təlimin fiziki və psixi əlamətlərə malik xüsusi «anadangəlmə cinayətkar» tipin mövcud olması haqqında müddəası hələ XIX əsrin sonlarında faktların və statistikanın köməyi ilə bir çox burcua kriminalistləri tərəfindən rədd edildi. Həmçinin onlar göstərdilər ki, guya «anadangəlmə cinayətkarı» fərqləndirən əlamətləri heç vaxt cinayət törətməmiş, əxlaqı və davranışı hətta «antropoloqların» nöqteyi-nəzərindən qüsursuz olan adamlarda çətinlik çəkmədən aşkar etmək olar. Eyni zamanda faktlarla göstərildi ki, analarını öldürən, residiv oğrular arasında elə adamlara rast gəlinir ki, «antropoloqların» fərqləndirici xüsusiyyət kimi göstərdiyi «anadangəlmə cinayətkara» məxsus çoxsaylı əlamətlərdən tamamilə məhrumdur.

«Antropoloji təlim» «anadangəlmə cinayətkarın» meydana çıxmasının səbəbini nədə görürdü? «Antropoloqlar» saxtalaşdırılmış məlumatların köməyi ilə sübut etməyə çalışırdılar ki, cinayətkar beyinin və kəlləsinin quruluşuna görə ibtidai adama yaxındır. Belə ki, cinayət antropologiyasının 1911-ci ildə Kölndə keçirilən VII beynəlxalq konqresində professor Klaatçem tərəfindən qoyulmuş belə bir məsələ müzakirə olundu: «Müasir avropalının cinayətə meylliliyində onun neandertal irqindən törəməsi durmur ki?» (4, 345).

«Antropoloqlar» həmçinin cinayətkarla Afrikanın, Avstraliyanın və Okeaniyanın bir sıra rayonlarının sakinləri arasında oxşarlığı sübut etməyə çalışır, bu zaman müxtəlif elmi məlumatları təhrif edirdilər. Belə oxşarlığın «sübutlarından» biri kimi hətta cinayətkarların tatuirovkaya (bədənə şəkillər döydürməyə) meylliliyi göstərilirdi. Ancaq aydındır ki, bəzi xalqlarda yayılmış tatuirovka müəyyən mədəni inkişafla, ənənələrlə, dini təsəvvürlərlə bağlıdır və tatuirovkanın cinayətkarlarla heç bir əlaqəsi yoxdur. Tatuirovkanın (bədənə şəkillər döydürmək) yaranmasına səbəb heç də cinayətkarların pis keyfiyyətləri deyil, həbsxana həyatında mövcud olan şəraitdir. Bu burcua kriminalistlərindən birinə ağıllı şəkildə belə deməyə imkan vermişdi: «Qəribədir, anadangəlmə cinayətə meylli cinayətkarda tatuirovka yalnız o, həbsxanaya düşdükdən sonra meydana çıxır».

Lombrozo və onun həmfikirləri islahatlar və inqilabi mübarizə yolunu mədh edirdilər. Lombrozo və onun yaxın silahdaşı Laski «Siyasi cinayətkarlıq» əsərində belə yazırdılar: «İnqilabla qiyam arasında, təkamül və kataklizm, təbii artım və şiş xəstəliyi arasında olan qədər çox böyük fərq vardır... İnqilab və üsyan demək olar ki, bir-birinə tam ziddir» (3, 9). «İnqilab» dedikdə onlar burada kiçik, tədrici islahatları, «qiyam» dedikdə isə kütlələrin əsl inqilabi hərəkatını nəzərdə tuturdular. «Antropoloqlar» qiyamı (yəni, əsl inqilabi hərəkatı) cəmiyyətin həyatında çirkin, qeyri-normal hesab edərək, kütlələri burcuaziyadan sədəqə istəyərək, əhəmiyyətsiz islahatlar yoluna sürükləmək istəyirdilər. Zəhmətkeşləri burcuaziya ilə mübarizədən imtina etməyə və bununla kapitalizmdə sinfi ziddiyyətləri zəiflətməyə məcbur etməyə can ataraq Kurella yazırdı: «Lombrozonun əsas nöqteyi-nəzərinə görə, bütövlükdə cəmiyyətin maraqları uğrunda mübarizənin daşıyıcısı deyil, sinfin müstəsna marağı uğrunda mübarizənin daşıyıcısı olan əxlaqi quruluşa əxlaqi çaşqınlıq kimi baxılmalıdır» (5, 79). Başqa sözlə, cinayət hüququnda «antropoloji» təlim burcuaziyanın özlərini istismar etməsinə dinməz-söyləməz imkan verən fəhlələri «normal», inqilabi hərəkatın bütün iştirakçılarını «əxlaqi çaşqın» elan edirdi.

«Antropoloqlar» siyasi cinayətkarlığın səbəbi olaraq, guya «siyasi dəlilikdən», «siyasi epilepsiyadan» əziyyət çəkən adamların xüsusi növünün mövcudluğunu elan etdilər. Lombrozo və onun həmfikirləri Paris Kommunasının iştirakçıları haqqında xüsusi qəzəblə danışır, kommunarları məqsədsiz qətllərdə, amansızlıqlarda və digər işlərdə günahlandıraraq, onlara böhtan atırdılar. Məsələn Lombrozo və Laski Paris Komunnasının iştirakçıları haqqında belə deyirdi: «Cinayətkarlar, dəlilər, sərxoşlar özlərinin əxlaqsız iştahaları naminə üsyana qalxdılar». «An-

tropoloqlar» siyasi cinayətlərin səbəbini izah edərkən ön plana, guya siyasi cinayətlərə meylli olan anadangəlmə qüsurlu irqin mövcudluğunu və onun təsirini çəkirdilər. Lombrozo və Laski yazırdı: «Siyasi cinayətkarlığın antropoloji amilləri sırasında birinci yerdə irqin təsiri durur» (3, 56). «Antropoloji» təlimin əsl istiqaməti siyasi cinayətkarlıqla mübarizədə onun təklif etdiyi tədbirlərdən aydın görünür.

Beləliklə, siyasi cinayətlərin xarakteri və onunla mübarizə metodları məsələsində burcua cinayət hüququnun «antropoloji» təliminin irticaçı mahiyyəti çox aydın şəkildə üzə çıxır.

Antropoloji təlim cinayətkarlığın səbəblərinin insanın anatomik-bioloji xüsusiyyətləri ilə bağlılığını elan etməklə, cinayətkarlığın profilaktikası üzrə son dərəcə mürtəce təkliflər irəli sürürdü. Bu təlimin müəlliflərinin fikrincə, insanların cinayət törətməsini gözləmək lazım deyil, anatomik-bioloji xüsusiyyətlərinə görə onları seçmək, cəmiyyətdən təcrid etmək, müəyyən qismini cismani surətdə məhv etmək, bəzilərini ömürlük cəmiyyətdən ayırmaq, müəyyən hissəsi üzərində tibbi əməliyyat aparmaq, zorlayanları axtalamaq və s. tədbirlər tətbiq etmək lazımdır. Təsadüfi deyildir ki, İkinci Dünya müharibəsində Almaniya və İtaliyada antropoloji təlim cinayətkarlıqla mübarizədə dövlət təlimi kimi qəbul edilmişdi. Alman faşistləri yüz minlərlə insanı qaz kamerasında məhv edərkən ilk növbədə antropoloji təlimə istinad edirdilər.

Sonrakı elmi araşdırmalar antropoloqların nəzəriyyəsini inandırıcı surətdə təkzib etdi. Belə ki, məsələn, 1918-ci ildə ingilis hüquqşünası Torinq Lombrozonun nəzəriyyəsini praktikada yoxlamaq məqsədilə məhbusların böyük bir qrupunu Kembric, Oksford və Aberdin universitetlərinin tələbələri, habelə hərbi qulluqçular və kollec müəllimləri ilə müqayisə etmişdir. Məlum olmuşdur ki, bu adamlarla cinayətkarlar arasında heç bir cismani fərq yoxdur. Bu cür araşdırmalar başqa alimlər tərəfindən də aparılmış və eyni nəticələr əldə edilmişdir.

Bununla belə, antropoloji təlimin ideyaları indiyə qədər yaşamaqdadır. Məsələn, bəzi tədqiqatçılar hazırda cinayətkarlığın səbəblərini bioloji-psixoloji nəzəriyyələrin köməyilə genetik mövqedən izah etməyə cəhd göstərilir. Bu müddəaları əsasən «ailə», «əkizlər» və «xromosom» metodlarından istifadə etməklə sübuta yetirməyə çalışırlar.

Cinayət törətməyə meyilliliyin təhlili zamanı «ailə» metodundan istifadə edilmişdir. Genetik amillərin kriminal davranışın səbəbləri arasında ola bilməsi mövqeyi 14427 övladlığa götürülmüş məhkum uşaqlarla bağlı, onların bioloji valideynləri və övladlığa götürən valideynləri ilə müqayisədə yoxlanılmışdır. Övladlığa götürülən uşaqlarla onları övladlığa götürən valideynlər arasında heç bir korrelyasiya müşahidə edilməmişdir. Ancaq uşaqların cinayət məsuliyyətinə cəlb edilməsinin tezliyi ilə məhkum edilmiş bioloji ataların sayı arasında dəqiq korrelyasiya müəyyən olunmuşdur. Beləliklə, övladlığa uşaq götürən ailələrdə olan şərait övladlığa götürülmüş uşaqlarda cinayətkar davranışa meyilliliyin inkişafına az təsir göstərmişdir.

Bir çox tədqiqatçılar «əkizlər» metodu ilə əkiz cinayətkarların talelərinin birgəliyini, ümumiliyini onların genetik quruluşlarının oxşarlıq dərəcəsi əsasında müəyyən etməyə cəhd göstərmişlər. XX əsrdə Almaniya (Lanqe, 1929; Krans, 1936;Ştumpfl, 1939), Hollandiya (Lenqa, 1932), Finlandiya (Borqsterm, 1939), Yaponiya (İosimasu, 1957; Xayyasi, 1967), ABŞ (Rozanov və b., 1941) və Danimarkada (Xristiansen, 1968) bu istiqamətdə doqquz tədqiqat işi aparılmış, ümumilikdə 249 monoziqot əkizlər (eyni genotipə malik) cütü, 264 diziqot əkizlər (fərqli genotipə malik) cütü öyrənilmişdir. Məlum olmuşdur ki, 249 monoziqot əkizlər cütündən 156-nın (62,6%) biri cinayət törədirsə, onun əkiztayı da cinayət törədir. 264 diziqot əkizlər cütü üçün bu göstərici isə 69-a (25,4%) bərabərdir. Göründüyü kimi, cinayət törətməsi ehtimalı monoziqot əkizlər üçün diziqot əkizlərdə olduğundan xeyli yüksəkdir (2, 504).

Qeyd edək ki, «əkizlər» metodunun tətbiqi zamanı belə bir adi həqiqət unudulur ki, adətən əkizlər eyni, yaxud oxşar sosioloji mühitdə tərbiyə alırlar. Cinayət törədilməsində isə genetik səbəblər deyil, bu hal həlledici rol oynayır.

Tədqiqatçılar cinayətkarlığın bioloji mənbələrini, «anadangəlmə» cinayətkarlığın mövcudluğunu «xromosom» metodunun köməyi ilə də müəyyən etməyə çalışırlar. Məlumdur ki, qadının

hüceyrəsi «XX» xromosomlarından, kişinin hüceyrəsi isə «XY» xromosomlarından ibarətdir. Hüceyrədə xromosom çatışmazlığı insanı fiziki və psixi cəhətdən qeyri-normal edir. Hüceyrədə xromosomların normadan artıq olduğu, məsələn, «XY» xromosomları əvəzinə, bəzən «XYY» xromosom quruluşuna malik olan kişilərə rast olunur. Xromosomu artıq olan kişilər yüksək dözümə, böyük gücə və enerjiyə malik olur. Dünya dövlətlərinin həbsxanalarında cəza çəkən kişi məhbusların bir qismi «XYY» xromosomuna malik olanlardır. Belələrinin kriminal əməli, onların hüceyrəsində xromosom artıqlığı ilə izah edilir. Lakin «xromosom» metodu da elmi cəhətdən əsaslandırılıb sübut edilməmişdir. Amerika Psixoloji Sağlamlıq Milli İnstitutunun cinayətkarlığın öyrənilməsi mərkəzində ABŞ, Kanada və Avropa ölkələrinin cəzaçəkmə müəssisələrində saxlanılan 6432 cinayətkar üzərində müayinə aparılmışdır. Özü də «xromosom» nəzəriyyəsinə uyğun olaraq xüsusi qruplar seçilmişdir. Tədqiqata yekun vuran tədqiqatçılar öz elmi hesabatlarında belə bir nəticəni vurğulamışlar: «Geniş yayılmış rəyə baxmayaraq, XXU xromosom anomaliyası olan şəxslərin normal xromosomlu adamlardan daha təcavüzkar olması müəyyən edilməmişdir».

Beləliklə, tədqiqatlar göstərir ki, normal xromosom quruluşuna malik olan şəxslərin (hətta zorakılıq zəminində törətdiyi cinayət əməli ilə), normadan artıq xromosoma malik olan şəxslərin törətdiyi cinayət əməli arasında fərqli cəhət qeydə alınmamışdır (1, 622).

Lakin bununla yanaşı hazırda hüquq elmində hes kəs cinayətkarın tibbi-bioloji xarakteristikalarının, onun psixi xassələri, anomaliyaları, hallarının müayinəsi və uçotunun zəruriliyini inkar etmir. «Biologizmin» cinayətkarlığın səbəbi kimi qəti inkarı heç də o demək deyildir ki, ümumiyyətlə, insanın davranışına, o cümlədən cəmiyyətə zidd davranışına qiymət verilərkən, onun fizioloji keyfiyyətləri və patologiyası nəzərə alınmamalıdır. Belə ki, məhz bunlar insanın daxili cizgiləri ilə xarici mühitin qarşılıqlı əlaqəsi mexanizmini aydınlaşdırmağa imkan verir. Bununla belə, insanın cinayətkar davranışının anlamı baxımından onun sosioloji əsasları həlledicidir, tibbi-bioloji xarakteristikalar isə mühüm əhəmiyyətə malik olsalar da, hər halda sosioloji əsaslara tabedirlər.

Açar sözlər: təlim, antropologiya, cinayət, cinayətkar insan, əkizlər, xromosom.

İstifadə olunmuş ədəbiyyat

1. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Bakı, Digesta, 2009.
2. Инге-Вечтомов С.Г. Генетика с основами селекции. М., Высшая школа, 1989.
3. Ломброзо и Ласки. Политическая преступность. СПб., 1906.
4. Люблинский П. Международные съезды уголовного права. Петроград, 1915.
5. Решетников Ф.М. Уголовное право буржуазных стран. М., Изд-во Университета «Дружба Народов», 1985.
6. Читаков С.М. Зарубежная криминология. М., 1997.

Ильхама БАЙРАМЛЫ

О ЗАРОЖДЕНИИ И РАЗВИТИИ АНТРОПОЛОГИЧЕСКОГО УЧЕНИЯ

Резюме

В статье рассматриваются вопросы зарождения и развития антропологического учения. Отмечается, что это учение было создано итальянским психиатром Цезаре Ламброзо и в дальнейшем получило развитие его учениками.

Согласно этому учению, криминальные наклонности у людей появляются с самого рождения, люди совершают преступления под воздействием физиологических и психологических факторов. В дальнейшем исследования доказали ошибочность этого учения. Но даже в наше время некоторые ученые стараются доказать правильность данного учения на основе методов «семья», «близнецы» и «хромосомы».

Ключевые слова: учение, антропология, преступление, преступник, близнецы, хромосома.

Ilhama BAYRAMLY

ABOUT CREATION AND DEVELOPMENT OF THE ANTHROPOLOGICAL DOCTRINE

Summary

In article the questions of the formation and development of the anthropological doctrine are considered. It is noticed that this doctrine was created by the Italian psychiatrist-doctor Chesary Lambrozo and in the future was developed by his pupils. According to this doctrine, criminal bents at people appear since a very birth, and they commit crimes under the influence of physiological and psychological factors. Further the researches have proved erraneousness of this doctrine. But even nowadays some scientists try to prove the correctness of this doctrine on the basis of the methods "family", "twins" and "chromosomes".

Keywords: doctrine, anthropology, crime, criminal person, twins, chromosome.

УДК 343.1

Лала РАГИМЛИ
БГУ, диссертант

ПРЕДОТВРАЩЕНИЕ ДИСКРИМИНАЦИИ КАК ОДНО ИЗ УСЛОВИЙ ОБЕСПЕЧЕНИЯ РАВНОПРАВИЯ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ ОБЩЕСТВЕ*

Обретение Азербайджанской Республикой в 1991 г. государственной независимости способствовали ускорению процесса демократических преобразований в республике. Принятая 12 ноября 1995 года новая Конституция вобрала в себя конституционный опыт ведущих демократических стран мира и явилась основным законодательным актом, закрепившим широкий перечень конституционных принципов, где принципу равноправия отведено обособленное место (2, ст. 25).

В нынешних современных условиях развития азербайджанского общества и успешно реализуемого руководством страны процесса интеграции во многие ведущие европейские институты, вопрос равенства с учетом большого спектра социально-правовых, социально-психологических, политико-экономических, а также этических аспектов ее проявления, представляет собой важное значение. Принцип равенства не порождает каких-либо конкретных субъективных прав и обязанностей для людей, а представляет собой, скорее, правило, обращенное к государству, которое должно противодействовать любой дискриминации граждан со стороны своих органов (1, с. 94).

Важно указать, что осуществление прав граждан, гарантированная защита их законных интересов, есть важное условие эффективного функционирования государственной политико-правовой системы, где равноправие, как принцип, служит одиним из важнейших постулатов справедливого общественного устройства.

Равенство прав и свобод, как человека, так и гражданина – равноправие – Конституция понимает как равенство возможностей, а не как фактическое равенство, которое в жизни реально недостижимо (3, с. 115). Государство различными способами (налоговым законодательством, социальным законодательством и др.) старается не допускать и держать под контролем фактическое неравенство, чтобы оно не достигло угрожающих пределов (9, с. 146). Однако, несмотря на то, что искоренение фактического неравенства в обществе невозможно, государство не допускает дискриминацию одного индивида по отношению к другому.

На современном этапе развития мирового сообщества каждое государство на законодательном уровне устанавливает универсальную правосубъектность, т.е. возможность осуществления прав, свобод и обязанностей индивидов в полном объеме. Все люди равны и основания, по которым их права не могут быть ограничены с каждым годом растут, тем самым, не допуская и предотвращая всякого рода дискриминацию. Вместе с тем, кроме человеческих прав, могут быть также ущемлены права какого-либо государства или юридического лица, что также является дискриминацией. Например, на уровне международных отношений дискриминацией является предоставление гражданам, организациям какого-либо государства меньших прав и привилегий, чем гражданам и организациям других государств (4, с. 395).

---

* Məqalə h.ü.f.d., prof. Ziyafət Əsgərov tərəfindən çapa məsləhət bilinib.

В правовой науке под дискриминацией принято понимать ограничение прав и обязанностей человека по определенному признаку, объективно не влияющего на способность человека к воплощению этих прав и обязанностей. Говоря другими словами, дискриминация есть форма насилия над человеком, которая заключается в попрании и ограничении его прав по признакам расовой, социальной, языковой или национальной принадлежности, пола, возраста, религии, цвета кожи, политических и иных убеждений, имущественного или иного положения (1, с. 94).

Как известно, в результате исторического развития человечества появились расы, которые объединили группы людей, общие в силу их наследственных, физических признаков, например, такие как цвет и строение глаз, кожи, волос и т.д. В ходе эволюции расовая дискриминация становится международным правонарушением, в основе чего лежит дискриминационная идеология и поведение, которое в итоге ведет к расовому неравенству. Именно поэтому положения расово-дискриминационного характера появляются в законодательстве и правоприминительной практике некоторых стран, где проводится, идущая в разрез с международными нормами права, национальная политика, в основе которой лежит, базирующееся на взглядах о неравноценности человеческих рас учение - расизм.

В свою очередь национальность, в качестве политико-правовой категории, указывает на принадлежность индивида к обладающей присущей только ей культурой, языком, обычаями, традициями и т.д. определенной этнической группе людей. Довольно часто под национальностью подразумевают гражданство т.е. принадлежность индивида к тому или иному государству. С подобным утверждением трудно согласиться т.к. принадлежность индивида к определенной этнической группе не всегда совпадает с гражданством данного индивида: к примеру, некоторые народы, проживающие на территории Азербайджанской Республики (лезгины, авары и татары), являясь ее гражданами, по национальности не являются азербайджанцами. Таким образом, этническая дискриминация предполагает наличие определенных привилегий и прав у людей, принадлежащих одной этнической общности, и отсутствие таковых у членов другого или других этносов, обращение с представителями той или иной этнической общности как с существами низшими, преследование их культуры и языка, навязывания им культуры и языка господствующего этноса (5, с. 43).

В истории формирования человечества были периоды, когда дискриминация тем или иным образом оставляла отпечаток на общественной жизни тех стран, в которых оно имело свое яркое проявление. К примеру, в последнее время одной из форм проявления национальной нетерпимости, выраженной во враждебном отношении к другим этнически-религиозным группам, является политика этнических чисток - направленная на насильственное изгнание с одной территории лиц другой этнической группы. Так, в результате широкомасштабных этнических чисток, сопровождавших гражданские войны в бывшей Югославии, а также после бомбежек сил НАТО, в ходе которых пострадали жители Сербской Краины и восточной Хорватии, практически всей Боснии и сербской провинции Косово, привели к изгнанию с родных мест десятков тысяч хорватов, сербов, албанцев и боснийских мусульман. В конце 80-х годов XX века заметное ослабление в СССР центральной власти и в последующем распад союза привел к обострению конфликтов на межнациональной почве и к развязыванию гражданских войн в бывших республиках, некогда составляющих пространство СССР, в ходе которых также производились этнические чистки. В процессе оккупации армянскими военными формированиями 20% территории Азербайджанской Республики, около миллиона мирного населения было изгнано из родных мест. Этнические чистки

осуществляемые армянскими националистами переросли в открытый геноцид мирного азербайджанского населения Нагорного Карабаха, а резня в Ходжалы стала его жестокой кульминацией.

Как и во многих развитых странах мира в нашей республике также обеспечивается равноправие, защита прав и законных интересов граждан вне зависимости от их отношения к религии, декларируется, что граждане, вне зависимости от их отношения к религии, равны перед законом во всех областях политико-экономической, культурной и социальной жизни (7, ст. 3-4), а также что все религии и религиозные образования равны перед законом (7, ст. 5). Каждый индивид самостоятельно определяет свое отношение к религии, обладает правом единолично или вместе с другими исповедовать любую религию (7, ст. 1), выражать и распространять свои убеждения в связи с отношением к религии (2, ст. 48). Вместе с тем закон не предусматривает установления ограничений или преимуществ для одной религии и религиозного образования по отношению к другим. Таким образом, религиозная дискриминация означает ограничение индивида в правах из-за религиозной принадлежности.

Рассматривая равноправие независимо от убеждений индивидов, следует отметить, что большинство убеждений человек получает с детства, в результате влияния воспитания родителей, учителей и вообще окружающих его людей. Именно убеждения человека определяют его жизнь и влияют на его поведение, формируют и изменяют уровень умственных, творческих способностей и степень жизненного успеха. Например, в Азербайджанской Республике запрещается принуждать кого-либо обнародовать свои убеждения и мысли, либо же отказаться от своих мыслей и убеждений, а также пропагандировать национальную, расовую, социальную и религиозную рознь и вражду (2, ч.2,3, ст. 47).

Язык же, являясь одним из определяющих национальных признаков, как средство общения, также может быть основанием для дискриминации. К примеру, согласно национальному законодательству (6, ст. 1) в нашей стране неотъемлимым условием государственного суверенитета является употребление азербайджанского языка, который, в свою очередь, является государственным языком Азербайджанской Республики. Несмотря на вышеуказанное, народностям и этническим группам, компактно проживающим на территории Азербайджана, предоставляется право посредством государственных органов республики на своем родном языке организовывать дошкольные учреждения, средние общеобразовательные школы и отдельные классы на родном языке (6, ст. 3). В то же время на территории Азербайджанской Республики в средствах массовой информации, кроме государственного языка, могут использоваться и другие языки (6, ст. 3).

Учитывая вышеизложенное, следует заключить, что сегодня обеспечение прав человека, вне зависимости от национальной, расовой и иной принадлежности, призвано стать первостепенной задачей деятельности государства, которое должно с помощью эффективных мер содействовать еще большему обеспечению свободы и равенства, а также способствовать созданию человеку достойных жизненных условий и социальной защищенности.

Сегодня как никогда, вопросы обеспечения равноправия, своей актуальностью, являясь частью процесса модернизации, осуществляемых в республике реформ, позволяют проводить аналогии с некоторыми этапами формирования азербайджанского государства. Ведь еще в начале прошедшего столетия молодая Азербайджанская Демократическая Республика (АДР), стоявшая у истоков демократических процессов,

вела активный диалог с Западом. В указанное время Азербайджан, являясь авангардом как тюркского, так и исламского мира в процессе интеграции в Европу и освоения европейских ценностей, первым на Востоке создал парламентскую республику, раньше многих передовых стран мира предоставил женщинам необходимые политические права. Так, на состоявшемся 28 мая историческом заседании Национального Совета была принята «Декларация о независимости», которой Азербайджан провозглашался полноправным независимым государством с республиканской формой правления и народы, населяющие его территорию, носителями суверенных прав. В четвертом и пятом пунктах указанного документа четко прописывалось, что АДР гарантирует в своих пределах всем гражданам, без различия вероисповедания, национальности, социального положения и пола политические и гражданские права, всем населяющим её территорию народностям, предоставлять широкие возможности для свободного развития.

Ключевые слова: различие, дискриминация, равенство, права.

Список использованной литературы

1. Конституционное право зарубежных стран. Под.ред. Баглая М.В., Лейбо Ю.И., Энтина Л.М. М.: 2000.
2. Конституция Азербайджанской Республики от 12 ноября 1995 года.
3. Конституционное право Под.ред. Козловой Е.И., Кутафина О.Е., М.,2001.
4. Советский энциклопедический словарь/Гл. ред. Прохоров Л.М., 3-е изд.-М.: Сов. энциклопедия, 1985.
5. Семенов Ю.И. Философия истории. (Общая теория, основные проблемы, идеи и концепции от древности до наших дней). М.: «Современные тетради», 2003.
6. Закон «О государственном языке» от 30 сентября 2002 г.
7. Закон «О свободе вероисповедания» от 20 августа 1992 г.
8. Уголовный кодекс Азербайджанской Республики от 8 февраля 2000 г.
9. Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik. Bakı, 2006.

Lalə RƏHİMLİ

DİSKRİMİNASİYANIN QARŞISININ ALINMASI MÜASİR AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ BƏRABƏRHÜQUQLULUĞUN TƏMİNATININ ŞƏRTLƏRİNDƏN BİRİ KİMİ

Xülasə

Məqalə şəxsiyyətə və ya bir qrup insanlara qarşı qabaqcadan yönəldilmiş yanlış qənaətə əsaslanan milliyyət, dil, irq, cins, din, əlillik və s. kimi amillərdən asılı olmayaraq ayrı-seçkiliyə yol verilməzlikdən bəhs edir. Eyni zamanda ayrı-seçkiliyə yol verilməzliyə şəxsiyyətin hüquqi statusunun mühüm amillərindən biri olan hüquq bərabərliyi prinsipinin vacib tərkib hissəsi kimi baxılır. Məqalədə həmçinin milliyyət, din və irq kimi amillərə dair ayrı-seçkilik, o cümlədən mədəniyyət və dil fərqliliyinə dair məsələlər müəllif tərəfindən müzakirə edilir.

Açar sözlər:ayrı-seçkilik, diskriminasiya, hüquq bərabərliyi, haqq.

Lala RAGIMLI

PREVENTION OF DISCRIMINATION AS ONE OF CONDITION OF ENSURING EGUAL RIGHTS IN MODERN AZERBAIJAN SOCIETY

Summary

This article discribes the discrimination which means treating a person or group less favourably than another in the same situation, usually on account of their race, nation, language, gender, disability, or religion. The author considers the prohibition of discrimination as a main part of constitutional principle of equality of rights as one of the basic and important principle of the legal status of person. At the same time the racial, national, religious discrimination, and also diversity of language, cultural diversity were also discribed by author in this article.

Keywords: distinction, discrimination, eguality, right.

UOT 347.965.3

Vəli ŞİRPUR
AMEA FSHİ, dissertant, İİR Ərdəbil
«Peyame Nur» Universiteti, müəllim

VƏKİLİN DİGƏR PROSES İŞTİRAKÇILARI İLƏ QARŞILIQLI MÜNASİBƏTLƏRİNİN ETİK ƏSASLARI*

Vəkillərə qarşı irəli sürülən tələblərin təhlili göstərir ki, bu tələblər peşəkarlıqla bağlı müddəalarla yanaşı etik və mənəvi-psixoloji aspektləri də əhatə edir. Odur ki, vəkilin peşəkarlığı və mənəvi-psixoloji keyfiyyətləri ilə bağlı tələbləri müəyyən ardıcıllıqla nəzərdən keçirməyi lazım bilirik.

Tədqiq ediləcək amillər məhz Beynəlxalq Hüquqşünaslar Assosiasiyası vəkillərinin baş etik prinsiplərində əks olunmuşdur. 1995-ci ildə Edinburqda (Şotlandiya) qəbul olunmuş bu sənədə əsasən, vəkillər aşağıdakı tələblərə riayət etməlidirlər:

1) əlaqədə olduqları şəxslərə münasibətdə etimadın və qarşılıqlı fəaliyyətin ən yüksək standartlarına riayət etməli;

2) məhkəmə qarşısında olan vəzifələrini yerinə yetirmək, ədalət mühakiməsinin tələblərinə və peşə etikası standartlarına riayət etmək şərtilə öz müştərilərinin maraqlarına ən böyük əhəmiyyət verməli;

3) peşə vəzifələrinin icrası zamanı götürülmüş istənilən öhdəliklərə onlar icra olunana, yaxud ləğv edilənə kimi hörmətlə yanaşmalı;

4) müştərilərin maraqları vəkillərin özlərinin, onların tərəfkeşlərinin, yaxud digər müştərilərinin maraqları ilə ziddiyyət təşkil etdiyi halda onların tapşırıqlarını qəbul etməməli;

5) qanunla nəzərdə tutulmuş hallar istisna olunmaqla, əvvəlki və hazırkı müştərilərlə münasibətdə həmişə konfidensiallığa riayət etməli;

6) müştərinin müstəqil vəkil seçmək hüququna hörmətlə yanaşmalı;

7) müştərilərin etibar edərək saxlanması üçün onlara verdikləri pulları dəqiq hesablamalı və həmin pulları özünün şəxsi pullarından ayrı saxlamalı;

8) müştərilərə qərəzsiz məsləhət vermək imkanına malik olmaq üçün özünün şəxsi müstəqilliyini yüksək səviyyədə qoruyub saxlamalı;

9) işlərinin mümkün ola biləcək nəticəsi barədə müştərilərə qərəzsiz rəy söyləməli və haqqı müştəri tərəfindən ödənilən lazımsız işlərə şərait yaratmamalı;

10) öz işini səriştəli və ləngimədən icra etmək üçün var gücü ilə çalışmalı və yüksək keyfiyyətlə yerinə yetirəcəyinə əmin olmadığı tapşırığı icraata qəbul etməməli;

11) öz işinə görə ağlabatan qonorar təyin etməli (qonorar tələbi zəruri olduğundan artıq vaxt aparan, yaxud vəkilin lazım olmayan hərəkətləri ilə müşayiət edilən işin yerinə yetirilməsi ilə şərtləndirilməməlidir);

12) öz həmkarlarına həmişə hörmət, əməkdaşlıq və ədalətlilik ruhunda münasibət göstərməli [8].

Göründüyü kimi, həmin prinsiplərdən bəzilərində hüquqi və mənəvi tələblər bir birini tamamlayır. Təqsirləndirilən şəxsin müstəqil olaraq vəkil seçmək hüququnu buna misal göstərmək olar. Digər prinsiplərə gəldikdə isə, bir biri ilə qarşılıqlı əlaqədə olduqlarına görə onların ayrı-ayrılıqda deyil, kompleks şəkildə təhlil edilməsi məqsədəuyğundur. Hər şeydən

* Məqalə h.ü.f.d. F.Xəlilov tərəfindən çapa məsləhət bilinib.

əvvəl vəkil və müdafiə olunanı bir biri ilə bağlayan vəkilin sonuncunu onun barəsində yaranmış şübhədən və formalaşdırılmış ittihamdan müdafiə etmək, müdafiə olunanın məsuliyyətini yüngülləşdirən halların mövcudluğunu, onun təqsirsizliyini, yaxud daha az dərəcədə təqsirli olmasını sübut etmək, ona digər hüquqi yardım göstərmək vəzifəsidir. Vəkil bu vəzifələri özünün bütün gücünü, biliklərini və təcrübəsini sərf edərək ən vicdanlı şəkildə və səriştəli olaraq yerinə yetirməlidir. Əgər o, buna qadir deyilsə, ən yaxşısı onun müdafiədən imtina etməsidir. Lakin əgər vəkil artıq müdafiəni öz üzərinə götürmüşdürsə, nə hüquqi baxımdan (Azərbaycan Respublikası CPM-nin 92.10.3-cü maddəsi), nə də mənəvi cəhətdən müdafiədən imtina etməyə haqlı deyil.

Zənnimizcə, konfidensiallıq və müstəqillik vəkilin fəaliyyətinin mənəvi-hüquqi prinsiplərinin əsasını təşkil edir desək yanılmarıq. Odur ki, 5-ci bənddə göstərilən qeyd-şərtlə razılaşmırıq. Belə ki, bu «qanunla nəzərdə tutulmuş hallar» anlayışının genişləndirilməsi istiqamətində sərbəst şərh olunmasına, nəticədə konfidensiallığın pozulmasına şərait yaradır. Hesab edirik ki, vəkil sirrinin qorunmasında geri çəkilməyə heç bir halda yol verilməməlidir.

Təəssüflə qeyd etməliyik ki, sovet hakimiyyətinin ilk illərindən başlayaraq müdafiə institutuna olan neqativ münasibət hələ də tam aradan qalxmamışdır. Lakin bununla bağlı müəyyən müsbət addımların atıldığını da inkar edə bilmərik. Məsələn, insanın, onun hüquq və azadlıqlarının ali dəyərlər elan olunması Azərbaycan Respublikası Konstitusiyasının 2-ci maddəsində, İran İslam Respublikası Konstitusiyasının 2-ci maddəsinin 6-cı bəndində, müdafiənin ancaq qanunla müəyyən edilmiş vasitə və üsullarla aparılmalı olması Azərbaycan Respublikası CPM-nin 92.11.1-ci maddəsində, Vəkillər və vəkillik fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanununun 16-cı maddəsində, İran İslam Respublikası Mülki Qanununun 41-ci maddəsi və Vəkillik haqqında qanununun 27-ci maddəsində qeyd olunmuşdur [1, 2, 3, 4, 6,7].

Məhz konfidensiallıq (onun əsasını vəkillə şübhəli (təqsirləndirilən, məhkum olunmuş) şəxs arasındakı tam qarşılıqlı etimad təşkil edir) vəkillik fəaliyyətinin əsas şərtidir. Onun məzmununu müştərinin müdafiə olunmaq və hüquqi yardım almaq üçün vəkilə müraciət etməsi faktı, eləcə də vəkilin müdafiə olunan şəxsin hüquq və maraqlarının müdafiəsi üzrə olan bütün fəaliyyəti (bütün xırdalıqları da daxil olmaqla) təşkil edir. Hesab edirik ki, vəkillə müdafiə olunan arasındakı hüquqi münasibətlər başa çatdıqdan sonra belə vəkillik sirri öz əhəmiyyətini itirmir. Onun məzmunu barəsində ancaq müdafiə olunan şəxs sərəncam verə bilər. Bu onun sırf subyektiv hüququdur, heç bir halda pozula, yaxud başqa təsirə məruz qoyula bilməz. Vəkillə müdafiə olunan şəxs arasındakı münasibətlərin konfidensiallığı cinayət-prosessual qanunvericiliklə qorunur. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.11.8-ci maddəsinə əsasən, vəkil şəxsi həyatın toxunulmazlığına, ailə, dövlət, peşə, kommersiya və qanunla qorunan digər sirlərə toxunan hallar barədə məlumatları yaymamalıdır. Vəkillər və vəkillik fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanununun 17-ci maddəsinin IV hissəsinə uyğun olaraq, vəkil hüquqi yardımın göstərilməsi ilə əlaqədar olaraq ona məlum olmuş hallar barədə şahid kimi çağırıla və dindirilə bilməz. Vəkil göstərilən hallar barədə izahat verməməli və ona etibar edən şəxsin bildirdiyi məlumatı yaymamalıdır. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 114-cü maddəsində müdafiəçiyə etiraz edilməsinə əsas verən hallar sadalanır. Həmin halların əksəriyyəti vəkillə müdafiə olunan arasındakı qarşılıqlı etimadın, konfidensiallığın qorunması zərurəti ilə bağlıdır.

Konfidensiallıq prinsipinin tam həyata keçirilməsi ancaq vəkilin müdafiə etdiyi şəxslə təklikdə görüşmək hüququnun təmin olunduğu halda mümkündür. Göstərilən prinsipin həm mənəvi, həm də hüquqi məzmunlu olmasına baxmayaraq, o, obyektiv və subyektiv səbəblərdən tez-tez pozulur. Obyektiv səbəb belə görüş üçün kifayət qədər otağın olmamasından irəli gəlir. Beynəlxalq Hüquqşünaslar Assosiasiyası baş etik prinsiplərinin 8-ci bəndində nəzərdə tutulan

«müştərilərə qərəzsiz məsləhət vermək imkanına malik olmaq üçün özünün şəxsi müstəqilliyini yüksək səviyyədə qoruyub saxlamaq» qaydası konfidensiallıq prinsipi ilə sıx əlaqədədir. Bu mənəvi tələbə riayət olunması hər şeydən əvvəl cinayət işini araşdıran şəxslər, prokurorlar və hakimlər tərəfindən vəkillərə hər hansı bir təsir göstərilməməsini, iş üzrə icraatın bütün mərhələlərində sübut edilməli olan halların, ilk növbədə, irəli sürülmüş ittiham üzrə şəxsin təqsirsizliyini, yaxud təqsirin az əhəmiyyətli olmasını, yüngülləşdirici halların mövcudluğu üzrə öz mövqeyini müəyyən etməyi və qoruyub saxlamağı nəzərdə tutur. Bu tələb şübhəli və ya təqsirləndirilən şəxsin (məhkumun) müdafiəsinin təsirli olaraq həyata keçirilməsi üçün Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.11.1-ci maddəsi ilə müəyyən edilən üsul və vasitələrdən istifadə edilməsini nəzərdə tutur.

Bu prinsipin uğurla həyata keçirilməsinə kömək edən amillər əsasən subyektiv xarakter daşıyır. Onların sırasına vəkilin yüksək peşəkarlığı, onun öz təyinatına və ona həvalə olunmuş prosessual vəzifələrə vicdanla yanaşması, əməksevərliyi, inadkarlığı, vicdanlı və şərəfli olması, psixoloji cəhətdən dayanaqlı olması aiddir.

Əsas prinsiplərin 4-cü bəndində göstərilən prinsip maraqlı və eyni zamanda kifayət qədər mürəkkəbdir. Həmin prinsipə əsasən, müştərilərin maraqları vəkillərin özlərinin, onların tərəfdaşlarının (həmkarlarının), yaxud digər müştərilərinin maraqları ilə ziddiyyət təşkil etdiyi halda vəkil onların tapşırıqlarını qəbul etməməlidir. Şərti olaraq bu prinsipi iki hissəyə bölmək olar. Birinci hissə vəkillə onun müdafiə etdiyi şəxs arasındakı qarşılıqlı münasibətlərlə bağlıdır. Onlar arasında qarşılıqlı etimad olmadığı halda vəkil belə şəxsin müdafiəsini öz üzərinə götürməməlidir. İkinci hissə isə vəkillərin öz aralarındakı və onların həmkarlarının müdafiə etdikləri şəxslərlə olan qarşılıqlı münasibət məsələlərinə aiddir. Məsələ ondadır ki, hər bir vəkil ancaq öz müştərisinin hüquq və maraqlarını müdafiə etməli, digər vəkillərin də bunu etməsinə heç bir formada mane olmamalıdır.

Sübutların və onların mənbələrinin, əldə edilmə üsullarının qiymətləndirilməsi üzrə də vəkilin fəaliyyəti etik məzmunludur. Məsələn, istər mənəviyyat, istərsə də qanunilik baxımından sübutların əldə edilməsi aşağıdakı kimi şərtləndirilir: a) konkret iş üzrə cinayət-prosessual sübutetməni həyata keçirməyə səlahiyyətli olan subyekt tərəfindən əldə edilməsi; b) cinayət-prosessual qanunu ilə nəzərdə tutulan mənbələrdən alınması; c) müvafiq prosessual formalara riayət etməklə əldə olunması. Sadalanan tələblərdən hər hansı birinin pozulması ilə əldə edilən məlumatlar Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 125.2-ci maddəsinə əsasən, hüquqi qüvvəsini itirir. Odur ki, onlar konkret iş üzrə sübut qismində istifadə oluna bilməz. Ancaq ibtidai istintaqda araşdırılan, yaxud məhkəmədə baxılan cinayət işi üzrə sübut ediləcək hallara aid sübutların toplanılması və yoxlanılması etik sayıla bilər. Sübutetmənin etik məzmunu sübutların, onların mənbələrinin və sübut məzmunlu məlumatların toplanılması üsullarının qiymətləndirilməsində çox parlaq şəkildə öz əksini tapır. Qiymətləndirməni aparan prosessual şəxsin daxili inamı və hüquq düşüncəsi kimi kateqoriyalar hər şeydən əvvəl mənəvi dəyərlər olmaqla yanaşı, eyni zamanda hüquqi tələblərə çevrilmişdir. Vəkil də cinayət-prosessual sübutetmənin əldə olunmuş nəticələrini onların hüquqi və etik normalara uyğunluğu baxımından qiymətləndirməyə bilməz [9, s. 53; 10, s. 107-124; 11, s. 45-96].

Vəkilin fəaliyyətinin uğuru çox vaxt onun insanlarla davranmaq bacarığı ilə müəyyən olunur. Söhbət müdafiə edilən şəxslə, müstəntiqlə, hakimlərlə, cinayət prosesinin istənilən digər iştirakçısı ilə normal psixoloji əlaqə yaratmaqdan gedir. Göstərilənlər isə əlaqə qurmaq bacarığının məzmununu təşkil edir. Belə bacarıq cinayətin törədilməsinin psixoloji səbəblərinin dərindən təhlil edilməsinə, təqsirləndirilən şəxsin şəxsiyyətinin səciyyələndirilməsinə, prosessual və ümumi insani əlaqələrin qurulmasına, müsbət və mənfi

halların xarakterinin tədqiqinə, cinayət işinin ibtidai araşdırılmasına, yaxud məhkəmə baxışı zamanı ortaya çıxan münaqişəli şəraitin səbəblərinin müəyyən edilməsinə imkan verir. Bütün bunlara isə vəkilin nəzakətli olması, xeyirxahlığı, təmasda olduğu şəxsi dinləməyə və başa düşməyə çalışması kömək edir. Əksinə, onun qaraqabaqlığı, öz fikrini izah etmək bacarığının olmaması və ifadə tərzinin son dərəcə zəifliyi belə əlaqələrin qurulmasına mənfi təsir göstərir. Ünsiyyət qurmaq bacarığını xarakterizə edərkən uyğunlaşma problemini də nəzərdən qaçırmaq olmaz, belə ki, təqsirləndirilən şəxsin özünə müdafiəçi seçməsi və ya ondan imtina etməsi, müdafiəçinin təqsirləndirilən şəxsə psixoloji cəhətdən yanaşması və onun psixoloji əlaqə qurması məhz bu prinsipə əsaslanır. Təqsirləndirilən şəxsin bu və ya digər vəkildən imtina etməsinə təsadüf edilən halların əsasını çox vaxt məhz psixoloji uyğunsuzluq təşkil edir.

Təşkilatı amillər də müdafiə fəaliyyətində böyük rol oynayır. Vəkilin ən mükəmməl müdafiə taktikası və metodikası hazırlaması da həmin amillər sırasına daxildir. Vəkilin müəyyən fərdi iş üsulu formalaşdırması da onlar sırasına daxil edilməlidir. Keyfiyyətli müdafiə fəaliyyətinin şərtlərindən biri də müdafiənin ən yaxşı nəticələrinin əldə olunması üçün işə yaradıcı münasibət göstərilməsi, ən təsirli üsulların axtarışı və şəxsi keyfiyyətlərin nəzərə alınmasıdır.

Əlbəttə, vəkildən tələb olunan mənəvi-psixoloji keyfiyyətlərdən bəhs edərkən vəkillik fəaliyyəti üçün səciyyəvi olan ümumi məsələlərin təhlili ilə kifayətlənmək olmaz. Bu halda vəkilin müdafiə etdiyi şəxslə, öz həmkarları ilə, eləcə də ibtidai istintaq, məhkəmə orqanları, həmin orqanların müvafiq vəzifəli şəxsləri ilə qarşılıqlı münasibətlərini əks etdirən davranış etikasını nəzərdən qaçırmaq olmaz.

Bu baxımdan, vəkillə müdafiə edilən şəxs arasındakı münasibətlər daha çox diqqət tələb edir. Belə ki, göstərilən münasibətlər ilk növbədə yaranır, ibtidai istintaq və məhkəmə orqanları, habelə müvafiq vəzifəli şəxslərlə münasibətlərin yaranması və lazımi səviyyədə qurulmasını üçün zəmin yaradır.

Bu iki prosessual şəxsin qarşılıqlı münasibətlərinin əsasını onların bir-birinə olan inam təşkil edir. Qarşılıqlı inamın yaranması və inkişafı hər iki şəxsin davranışından əhəmiyyətli dərəcədə asılıdır. Lakin həlledici məqam əsasən müdafiəçinin şəxsi keyfiyyətlərindən, xüsusilə də onun səmimiliyindən, müdafiə etdiyi şəxslə ünsiyyət qurmaq bacarığından, nitq qabiliyyətindən, xüsusi hazırlığından və sair bu kimi amillərdən asılıdır. Müdafiəçi özünü elə aparmalıdır ki, müdafiə edilən şəxs başa düşsün ki, onun qarşısındakı şəxs prokuror, yaxud hakim deyil, müvafiq şəraitdə ona kömək edə biləcək, onun düçar olduğu problemin həllinə çalışacaq və buna nail ola biləcək ən yaxın bir insandır. Əks təqdirdə ondan səmimiyyət gözləmək mənasızdır.

Müştəriyə məsləhət verərkən vəkil yadda saxlamalıdır ki, onun vəzifəsi təkcə düzgün məsləhət vermək deyil, eyni zamanda həmin məsləhətin düzgün başa düşüldüyünə əmin olmaqdır. Vəkilin məsləhəti başa düşülən və dəqiq, mövcud şəraitin müsbət və ya mənfi tərəfləri, eləcə də məsələnin məhkəmə baxışının mümkün nəticələri barədə onun açıqcasına nə düşündüyünü aydın əks etdirən olmalıdır [10, s. 60].

Aşağıda qeyd olunan hallarda vəkil cinayət işinin aparılması barədə tapşırığı qəbul etməməlidir:

– işin ibtidai araşdırılmasında, yaxud məhkəmə baxışında onunla qohumluq əlaqəsində olan şəxs iştirak edirsə;

– vəkil əvvəllər həmin işdə hakim, müstəntiq, təhqiqatçı, prokuror, ekspert, tərcüməçi, şahid, hal şahidi, zərərçəkən, mülki iddiaçı, yaxud cavabdeh kimi, eləcə də məhkəmə iclasının katibi qismində iştirak etmişdirsə;

– maraqları müraciət etmiş şəxsin maraqlarına zidd olan şəxsə əvvəllər hər hansı formada hüquqi yardım göstərmişdirsə;

– başqa işlərlə məşğul olması ilə əlaqədar baxışa təyin olunmuş işdə iştirak edə bilməyəcəyi vəkilə qabaqcadan məlum olmuşdursa;

– iş üzrə şahid qismində çağırıla biləcəyi vəkilə məlumdursa [9, s. 175-176].

Vəkil müdafiə etdiyi şəxslə artıq razılaşdırılmış olan müdafiə mövqeyini özbaşına olaraq dəyişdirməməli, əgər sonuncu təqsirli olmasını inkar edirsə, onun təqsirli olduğunun sübuta yetirildiyini qəbul etməməli, əksinə, cinayət işinin materiallarına, işin həqiqi hallarına, məhkəmə istintaqı zamanı əldə olunmuş, təqsirləndirilən şəxsin xeyrinə olan sübutlara əsaslanaraq, başqa sözlə desək, qanunla müəyyən olunmuş bütün üsul və vasitələrdən istifadə edərək müdafiə tərəfinin mövqeyinin möhkəmləndirilməsinə çalışmalıdır.

Təqsirləndirilən şəxsin özünü təqsirli bildiyi bütün hallarda vəkil məsələyə xüsusi diqqət göstərməli, təqsirləndirilən şəxsin cinayəti etirafına tənqidi yanaşmalı, onu işin materialları və məhkəmə istintaqı nəticəsində təhlil etməli və müvafiq nəticə çıxarmalıdır. Təqsirləndirilən şəxsin etirafı digər sübutlarla təsdiq olunmursa, müdafiəçi bunun mahiyyətini müdafiə etdiyi şəxsə izah etməli və müstəqil mövqedən çıxış edərək ittihamın əsassız olduğunu sübut etməyə çalışmalıdır.

Təcrübə göstərir ki, bir çox hallarda təqsirləndirilən şəxsin özünü cinayət törətməkdə təqsirli bilməsi ona qarşı yol verilmiş qanunsuz təsirlə bağlı olur. Elə bu səbəbdən də yuxarıda qeyd etdiyimiz kimi, müdafiəçinin belə halda məsələyə xüsusi diqqət yetirməsi tələb olunur. Odur ki, hər hansı formada qanunsuz təsir göstərilməsi nəticəsində təqsirləndirilən şəxsin etirafedici ifadə verməyə məcbur edildiyi barədə məlumat aldıqda müdafiəçi ondan asılı olan bütün tədbirlərə əl atmaqla belə qanunsuz təsir faktının müəyyən edilməsinə və onun məhkəmənin iclas protokolunda əks olunmasına çalışmalıdır.

Məlum olduğu kimi, vəkilin əməyinin ödənişi iki formada həyata keçirilir. Aztəminatlı şəxslərə hüquqi yardımın göstərilməsinə görə vəkilə dövlət hesabına ödənilən hüquqi yardım haqqının məbləği və ödənilməsi qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunur («Vəkillər və vəkillik fəaliyyəti haqqında» Azərbaycan Respublikası qanununun 19-cu maddəsinin III hissəsi). Vəkillik fəaliyyəti ilə məşğul olmaq üçün yaradılmış qurumun əməkdaşı olan vəkilin və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin qonorarının məbləği vəkilin yardımından istifadə edən şəxs və onu vəkil yardımı ilə təmin edən qurum və ya fərdi qaydada fəaliyyət göstərən vəkil arasında bağlanmış, göstərilən yardımın və qonoraran məbləğini və şərtlərini əks etdirən müqavilə əsasında ödənilir (həmin Qanunun II hissəsi, Vəkillik haqqında İran İslam Respublikası qanununun 23, 24 və 32-34-cü maddələri).

İkinci halda qonoraran məbləği müəyyən edilərkən vəkil işin mürəkkəbliyini, sərf olunan vaxtı (prosesin, yaxud müvafiq məsləhətləşmənin uzunluğu) və bu işə görə digər işlərin aparılmasından imtina olunması ehtimalını, müştərinin maddi vəziyyətini, həmin regionda qonoraran ödənilməsi sahəsində mövcud olan ənənəni, öz təcrübəsini və hüquqi nüfuzunu və ödənişli mütəxəssislərin iştirakı ilə tədqiqat aparılması zərurətini nəzərə almalı və bu zaman qonoraran razılaşdırılmış məbləği ədalətli və ağlabatan olmalıdır. Həmin məbləğ müəyyən edilərkən vəkil müştərinin xahişi ilə onun müəyyən edilməsi prinsipini ona izah etməlidir. [9, s. 178].

Vəkilin müdafiə etdiyi şəxslə qarşılıqlı münasibətlərinə əhəmiyyətli dərəcədə təsir göstərən məsələlərdən biri də vəkil sirrinin qorunmasıdır. Müştərinin vəkilə müraciət etməsi faktı da öz-özlüyündə vəkil sirrinə aid edilən məsələlərdəndir. Odur ki, vəkil belə müraciət barədə məlumatları yaymamalı, vəkil sirri kimi qorumalıdır.

Vəkilin öz həmkarları ilə münasibətləri səmimiyyət, qarşılıqlı hörmət və bir-birinin işinə maneçilik törətməmək prinsipləri üzərində qurulmalı və vəkillərin eyni, yaxud müxtəlif qurumların tərkibində fəaliyyət göstərmələrindən asılı olmayaraq həmin prinsiplərə daim riayət

olunmalıdır. Konkret kollektivin üzvü olan hər bir vəkil həmkarına məsləhət xarakterli yardım göstərməkdən çəkinməməlidir. Aydındır ki, adətən məsləhət üçün bu və ya digər məsələdə səriştəli olan vəkilə müraciət edilir. Belə halda səriştəli vəkil öz həmkarına sual doğuran məsələnin həlli yolunu göstərməli və problemli məsələyə dair nəzəri biliklərin əldə edilməsi üçün müvafiq ədəbiyyatla tanış olmağı ona təklif etməlidir. Eyni zamanda vəkil gənc vəkillərin xahişlərinə xüsusi diqqət yetirməlidir.

Eyni vəkil qurumunun üzvü olmayan vəkillərin də vəkil etikasına riayət edərək müştəri ilə söhbət zamanı, açıq çıxışlarda, tərtib olunmuş sənədlərdə və digər müvafiq şəraitdə digər vəkillərin işgüzar, yaxud şəxsi keyfiyyətləri barədə hörmətsiz və sayğısız ifadələrə yol verməməlidir.

Müdafiənin həyata keçirilməsi və digər hüquqi yardımın göstərilməsi ilə bağlı müqavilənin bağlanması zamanı da hər bir vəkil diqqətli olmalı, müqavilənin predmeti olan iş üzrə əvvəllər başqa vəkilin iştirak etdiyi müəyyən edildiyi halda sonuncunu bu barədə məlumatlandırmalıdır.

Bir qayda olaraq, işin müştərək aparılması zamanı vəzifə bölgüsü aparılır, kimin hansı funksiyanı icra edəcəyi həmkarlar arasında razılaşdırılır. Qonorar məsələsinin müştəri ilə müzakirəsində işdə iştirak edən hər bir vəkil iştirak etmir, yəqin ki, buna zərurət də olmur. Lakin bütün belə hallarda maliyyə məsələləri vəkillər arasında şəffaf olmalı, işdə iştirak edən vəkillərin hər biri müştəridən alınacaq qonoraron ümumi məbləği və onun bölünməsi prinsipləri ilə bağlı məlumatlara malik olmalıdır.

Göstərilən etik prinsiplərə riayət olunması vəkillər arasında sağlam münasibətlərin formalaşmasına və sonrakı inkişafına xidmət edir.

Vəkil etikasının tərkib elementlərindən biri də vəkilin nəzarət funksiyalarını həyata keçirmək səlahiyyətinə malik olan orqanların (vergi və sosial müdafiə), eləcə də ibtidai istintaq orqanları və məhkəmə ilə olan münasibətləridir.

İbtidai istintaqda və inzibati münasibətlərdən yaranan icraatda iştirak edən vəkil özünü elə aparmalıdır ki, onun hərəkətləri, prosessual sənədləri, habelə verdiyi suallar hüquq-mühafizə orqanlarının nüfuzuna xələl gətirməsin, həmkarlarını nüfuzdan salmasın və proses iştirakçılarının ləyaqətini alçaltmasın [9, s. 179].

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.9.5-ci maddəsi ilə müəyyən edilmiş hüquqlardan istifadə edərək sübutları təqdim edən vəkil onların mötəbərliyinə zəruri tələbkarlıq göstərməli və yolverilməz sübutlardan istifadə etməməlidir. Bununla belə, nəzərə almaq lazımdır ki, göstərilən tələblər vəkilin iş üçün əhəmiyyətli olan məlumatları toplamaq və təqdim etmək hüququnu məhdudlaşdırmır.

İbtidai istintaq zamanı müdafiəni həyata keçirən vəkil prosessual normaların istənilən formada pozulması hallarına qarşı barışmaz olmalı, müdafiə etdiyi şəxsin hüquqlarının pozulmasının qarşısını almaq üçün qanunda nəzərdə tutulmuş bütün üsul və vasitələrdən istifadə etməli, lakin bu zaman müvafiq vəzifəli şəxslərlə etik qaydalar çərçivəsində davranmalı, onların düzgün olmayan hərəkətlərinə qarşı öz etirazını etik tələblər çərçivəsində və prosessual formada bildirməlidir.

Qeyd olunduğu kimi, müdafiənin lazımi səviyyədə təmin olunması məqsədilə vəkil həbsdə olan təqsirləndirilən şəxslə görüşlərin sayı və müddəti məhdudlaşdırılmadan təklikdə görüşməyə nail olmalı, lakin bu zaman ona qadağan olunmuş hər hansı bir əşya (məktub, spirtli içkilər, narkotik maddələr, kəsici, deşici alətlər və s.) verməməli, hətta ondan da başqalarına verilməsi üçün belə əşyaları qəbul etməməlidir.

Təsadüfi deyil ki, vəkilin məhkəmə ilə olan münasibətlərinin etik tərəfi daha ciddi yanaşma, daha yüksək tələblərə cavab verən davranış nümunəsi tələb edir. Belə ki, M.Y.Barşevskinin qeyd etdiyi kimi, «***vəkil özünün bütün hərəkətləri, mülahizələri, açıq***

çıxışları ilə bütünlükdə məhkəmə-hüquq sisteminə və o cümlədən də onun ayrı-ayrı nümayəndələrinə cəmiyyətdə hörmətli münasibətin formalaşdırılmasına kömək etməlidir» [10, s. 22-23].

Hər şeydən əvvəl qeyd etməliyik ki, vəkil iştirak etməli olduğu məhkəmə iclaslarına vaxtında gəlməli, üzrsüz səbəbdən məhkəmə prosesinə gəlməmə, yaxud gecikmə hallarına yol verməməlidir. Onun məhkəməyə gəlməsini istisna edən ciddi problemlərlə üzləşdikdə isə o, bu bərədə məhkəməyə müvafiq qaydada məlumat verməlidir.

Məhkəmə prosesinin gedişində vəkil sədrlik edənin göstərişlərinə tabe olmalı, ona və məhkəmə kollegiyasının tərkibinə daxil olan digər hakimlərə hörmətli münasibət göstərməli, onların hərəkətləri müdafiə hüququnu məhdudlaşdırdığı halda belə həmin hərəkətlərə qarşı qanunla müəyyən olunmuş qaydada etiraz edərkən təmkinli və nəzakətli olmalı, məhkəmə iclasının qaydalarını pozmamalıdır.

Ümumiyyətlə, vəkil məhkəmə prosesinin iştirakçısı kimi bütün proses iştirakçılarına, o cümlədən də, dövlət ittihamçısına hörmətlə yanaşmalı, onların sözünü kəsməməli, bu və ya digər məsələ üzrə öz fikrini bildirmək məqsədilə çıxış edərkən etik tələblər çərçivəsindən kənara çıxmamalı, kobud və qıcıqlandırıcı ifadələrə yol verməməlidir.

Müdafiəçi və ya nümayəndə funksiyasını icra edən vəkil öz xarici görkəminə diqqət yetirməli, səliqəli olmalı, Vəkillər və vəkillik fəaliyyəti haqqında Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin II hissəsinin tələbinə uyğun olaraq məhkəmə iclaslarında xüsusi geyimdə iştirak etməlidir. Analoji normalar İran İslam Respublikasının Vəkillik haqqında qanununda da nəzərdə tutulmuşdur [6, 7].

Müdafiə funksiyasını həyata keçirən vəkilin malik olmalı olduğu əsas mənəvi-psixoloji keyfiyyətlər məhz bunlardan ibarətdir.

Zənnimizcə, qeyd olunan etik qaydalara riayət olunması vəkilin öz vəzifə borclarını, o cümlədən də, müdafiə etdiyi şəxslər qarşısında götürdüyü öhdəlikləri yüksək peşəkarlıq səviyyəsində yerinə yetirməsi üçün son dərəcə zəruridir.

Açar sözlər: vəkil, müdafiəçi, vəkillik fəaliyyəti, vəkil etikası, vəkil sirri, konfidensiallıq prosesinin iştirakçısı.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Hüquq ədəbiyyatı, 2002.
2. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı, Hüquq ədəbiyyatı, 2004.
3. Asuri Məhəmməd. Cinayət-Prosessual Məcəlləsi, I cild. Tehran, İslam irşadı və mədəniyyəti nazirliyinin nəşriyyatı, 1993.
4. İran İslam Respublikasının Konstitusiyası. Tehran, Aban, 1979.
5. İmami, Doktor Seyyid Həsən. Mülki (sivil) hüquq. 2ci cild. Tehran, İslamiyyə kitab mağazası nəşriyyatı, 1991.
6. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanunu. Bakı, Hüquq ədəbiyyatı, 2005.
7. "Vəkillik haqqında" İran İslam Respublikası qanunu. Tehran, 2007.
8. Генеральные принципы этики адвокатов Международной ассоциации юристов [Электронный ресурс]. URL: **http://www.taxcoach.ru/index.php/article/archive/236?Printable Version= (müraciət tarixi**: 06.07.2011).

9. Зинатуллин Т.З. Этические основы уголовно-процессуальной деятельности адвоката-защитника. Дисс. ...канд. юрид. наук. Ижевск, 2003.

10. Кручинин Ю.С. Участие адвоката-защитника в уголовно-процессуальном доказывании. Дисс... канд. юрид. наук. Ижевск, 1997.

11. Москалькова Т.Н. Этика уголовно-процессуального доказывания. М., 1996.

Вели ШИРПУР

ЭТИЧЕСКИЕ ОСНОВЫ ВЗАИМООТНОШЕНИЙ АДВОКАТА С ДРУГИМИ УЧАСТНИКАМИ ПРОЦЕССА

Резюме

Статья посвящена проблемам взаимоотношения адвоката с другими участниками уголовного процесса. Автор анализирует научные взгляды ряда ученых по проблемам взаимоотношения участников уголовного процесса, и приходит к выводу, что соблюдение этических норм крайне необходимо для выполнения адвокатами на высоком профессиональном уровне своих функциональных обязанностей, в том числе и обязательств перед подзащитными.

Ключевые слова: адвокат, защитник, адвокатская деятельность, адвокатская этика, адвокатская тайна, конфиденциальность, участник процесса.

Vali SHIRPOUR

THE ETHICAL FOUNDATIONS OF THE LAWYER RELATIONSHIP WITH OTHER ACTORS

Summary

Paper is devoted to the problems of relations between a lawyer with the other participants in criminal proceedings. The author analyzes the scientific views of some scholars on the problems of relations between parties to the proceedings, and comes to the conclusion that the observance of the ethical norms for the lawyers of their duties, including obligations to their clients on high professional lever is absolutely essential.

Keywords: lawyer counsel, defense counsel, advocacy, attorney ethics, attorney secrets, confidentiality, participant in the process.

OXUCU RƏYİ

BÖYÜK ƏHƏMİYYƏTLİ ELMİ NƏŞR

Dövlət müstəqilliyinin 20 illiyini böyük təntənə ilə qeyd etmiş Azərbaycan Respublikası bu gün öz inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoyur. Analoqu olmayan iqtisadi inkişaf, əhalinin sosial rifahının gündən-günə yüksəlməsi, insan amilinin ön plana çəkilməsi bu günkü Azərbaycan dövlətinin xarakterik xüsusiyyətlərindəndir.

Belə bir şəraitdə ictimai və humanitar elmlərin də qarşısında yeni vəzifələr qoyulur. Sevindirici haldır ki, həmişə göstərilən sahədə fundamental tədqiqatlar aparılması ilə fərqlənmiş AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu zamanın ruhunu duyaraq düzgün qiymətləndirir, ölkəmizin sosial-iqtisadi, siyasi-hüquqi inkişafının elmi təminatını müvəffəqiyyətlə həyata keçirir.

İnstitutun nəşr etdiyi «Elmi əsərlər» beynəlxalq elmi-nəzəri jurnal kimi ölkəmizdə gedən və proqnozlaşdırılan ictimai-siyasi, sosial-iqtisadi proseslərlə bağlı elmi tədqiqatların ümumiləşdirilməsini aparır, öz səhifələrində qabaqcıl dünya təcrübəsinin öyrənilməsinə xüsusi yer ayırır. Çox nüfuzlu beynəlxalq redaksiya heyətinə, işgüzar əməli heyətə malik jurnalın səhifələrində fəlsəfə, sosiologiya, siyasi, psixologiya, hüquq, ilahiyyat elmləri üzrə dəyərli elmi əsərlər dərc edilir.

«Elmi əsərlər» vasitəsilə Azərbaycan oxucusu müasir dünyanın fəlsəfə, sosiologiya, hüquq sahəsində tanınmış alimlərinin əsərləri ilə tanış olur, eyni zamanda ölkəmizin görkəmli elm xadimlərinin, həmçinin gənc alim və tədqiqatçıların elmi yaradıcılıq nümunələrinin beynəlxalq miqyasda yayılmasına şərait yaradılır. Belə qarşılıqlı zənginləşmə AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu rəhbərliyinin məqsədyönlü və böyük əməyi nəticəsində baş verir.

Azəraycanın elmi ictimaiyyəti adından jurnalın nəşrində əməyi olan bütün əməkdaşlara öz minnətdarlığımızı bildirir, onlara böyük yaradıcılıq uğurları arzulayırıq.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət quruculuğu və hüquq kafedrasının müdiri, hüquq elmləri namizədi, dosent F.Nağıyev

ELMİ HƏYAT

AMEA FSHİ-də dövlət müstəqilliyinin bərpasının iyirmi illiyinə həsr olunmuş elmi konfrans keçirilmişdir. Konfransı giriş sözü ilə institutun direktoru, professor İlham Məmmədzadə açaraq ölkə Prezidenti cənab İlham Əliyevin 21 yanvar 2011-ci il tarixli Sərəncamının icrası məqsədilə dövlət müstəqilliyimizin bərpasının 20-ci ildönümünə həsr olunmuş silsilə tədbirlərin keçirildiyini bildirmişdir. Çıxışında Azərbaycanın ötən 20 ildə əldə etdiyi nailiyyətlərdən, dövlət müstəqilliyimizin bərpasının ilk illərində qarşılaşdığımız problemlərdən bəhs etmişdir. O, azadlığa, müstəqilliyə gedən yolun heç də asan olmadığını bildirdi. İ.Məmmədzadə diqqətə çatdırdı ki, XX yüzillik Azərbaycan tarixində çox böyük mübarizələr əsri olmuş, azadlıq və istiqlaliyyət uğrunda çoxlu qanlar tökülmüş, xalqımız saysız-hesabsız şəhidlər vermişdir. Professor İ.Məmmədzadə 20-ci ildönümü qeyd olunan Azərbaycanın yeni müstəqillik dövrünün tariximizin ən parlaq və şanlı səhifələrindən olduğunu bildirdi.

Bu gün Azərbaycanın dünyaya bütün istiqamətlər üzrə – istər iqtisadiyyatı, istər sabitliyi, istərsə də bütün sahələrin paralel inkişafına görə nümunə olduğunu vurğulayan direktor Azərbaycanın dünyanın əsas tərəfdaş ölkələrindən birinə çevrildiyini və inamla, əzmlə dünyaya inteqrasiya etdiyini vurğuladı.

Daha sonra Rusiyadan gələn həmvətənlimiz - Ekologiya və İnkişaf İnstitutunun direktoru, UNESCO-nun eksperti, f.e.d., professor Nizami Məmmədov, AMEA Memarlıq və İncəsənət İnstitutunun direktoru, sənətşünaslıq doktoru, professor Ərtegin Salamzadə, AMEA İqtisadiyyat İnstitutunun direktoru, iqtisad elmlər doktoru, professor İsa Əliyev, AMEA FSHİ-nin direktor müavini, h.e.d., professor Bəhram Zahidov, AMEA FSHİ-nin direktor müavini, fəlsəfə doktoru Roida Rzayeva, fəls.e.d. Rəna Mirzəzadə, t.e.d., professor Həsən Əlibəyli, fəls.e.d., professor Adil Əsədov, fəls.e.d. Füzuli Qurbanov, fəls.e.d. Rəfiqə Əzimova, h.e.d., professor İsaxan Vəliyev və b. çıxış edərək Azərbaycanın müstəqilliyi ilə bağlı fikirlərini iştirakçılarla bölüşdülər. Bütün məruzəçilər ulu öndər Heydər Əliyev və onun layiqli davamçısı Prezident İlham Əliyevin sayəsində Azərbaycanın 20 ildə dünyanın tanınan dövlətlərindən birinə çevrildiyini qeyd etdilər.

Tədbirdə çıxış edən iştirakçılar mövzu ətrafında fikirlərini bölüşdülər, müasir Azərbaycanın 20 illik tarixinə nəzər salaraq bu illər ərzində ulu öndər Heydər Əliyevin gördüyü işlərdən, onun əvəzsiz xidmətlərindən danışdılar. Tədbirin sonunda professor İ. Məmmədzadə və A.N.Çumakovun redaktəsi ilə hazırlanan " Qloballaşma dövründə mədəniyyətlərin dialoqu" Rusiyanın "Kanon+" nəşr evi tərəfindən çap edilən kitabın təqdimatı keçirildi.

* * *

AMEA FSHİ-də "Fəlsəfə məsələləri" ("Вопросы философии") jurnalının baş redaktoru, fəlsəfə elmləri doktoru, professor **Boris Prujininin** iştirakı ilə "Postsovet məkanında fəlsəfə və sosiologiya" mövzusunda elmi sessiya keçirilmişdir. Elmi sessiyada FSHİ-nin direktoru, fəlsəfə elmləri doktoru, professor İlham Məmmədzadə rəhbərlik etdiyi institutun yaranma tarixi və fəaliyyətinin əsas istiqamətləri, qazandığı elmi nailiyyətlər, burada aparılan mühüm elmi araşdırmalar haqqında məlumat vermişdir. Müstəqillik qazandıqdan sonra ölkənin iqtisadi sferada qazandığı uğurlardan, mövcud problemlərdən söz açan İ.Məmmədzadə FSHİ-nin REA Fəlsəfə və Hüquq İnstitutu ilə beynəlxalq elmi əməkdaşlıq münasibətlərindən, ölkələrimiz arasındakı elmi əlaqələr və bu əlaqələrin gələcək inkişafından danışdı. O son zamanlar "Fəlsəfə məsələləri" ("Вопросы философии") jurnalında institutun əməkdaşlarının məqalələrinin də dərc olunduğunu xüsusilə vurğuladı.

Sonra professor B.Prujininin baş redaktoru olduğu jurnalın fəaliyyəti haqqında ətraflı məlumat verdi. Akademik elmi nəşrin Rusiyanın əsas fəlsəfə məcmuəsi olduğunu söyləyən

B.Prujinin dərginin 1947-ci ildən işıq üzü gördüyünü, ayda bir dəfə çap olunduğunu, beynəlxalq lisenziyalı jurnallar siyahısına daxil edildiyini bildirdi. O, jurnalın tarixən REA Fəlsəfə və Hüquq İnstitutu ilə sıx bağlı olduğunu nəzərə çatdırdı.

2007-ci ildə jurnalın kollektivinin "Elm simvolu" medalı ilə mükafatlandırıldığını söyləyən B.Prujinin jurnalın İnternet saytının 2009-cu ilin mayından istifadəyə verildiyini bildirərək qeyd etdi ki, jurnalın saytında seçilmiş əsərlər, eləcə də jurnala məqalələrini göndərmək istəyən müəlliflərə məsləhətlər öz əksini tapır. Gün ərzində jurnalın saytına təxminən 4000 nəfər daxil olur.

Çıxışının sonunda B.Prujinin elmi əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsinin vacibliyini, bu əlaqələrin ölkələrimiz arasında yeni münasibətlərin formalaşmasında əhəmiyyətli rol oynayacağına əminliyini bildirdi.

Tədbirdə institutun elmi katibi, fəlsəfə doktoru Səidə Əliyeva, fəlsəfə elmləri doktorları Zümrüd Quluzadə, Əli Abasov, Azər Mustafayev, Rəfiqə Əzimova və başqaları mövzu ilə bağlı suallarla çıxış etdilər.

* * *

AMEA FSHİ-də "Dünya fəlsəfəsi kontekstində İslam regionu fəlsəfə tarixinin tədrisi və tədqiqi problemləri" mövzusunda beynəlxalq elmi-nəzəri konfrans keçirilmişdir.

UNESCO-nun təsis etdiyi "Ümumdünya Fəlsəfə Günü"nə həsr olunmuş konfransda Azərbaycan alimləri ilə yanaşı Türkiyə, Misir, İran İslam Respublikası, İordaniya, Mərakeş və Fransadan olan alim və mütəxəssislər iştirak etmişlər.

"Şərq Fəlsəfəsi Problemləri" beynəlxalq elmi jurnalının təşəbbüsü, UNESCO-nun Azərbaycan üzrə Milli Komissiyasının dəstəyi ilə təşkil olunmuş konfransı giriş sözü ilə institutun direktoru, fəlsəfə elmləri doktoru, professor İlham Məmmədzadə açmışdır. O keçirilən tədbirin məqsəd və əhəmiyyəti, Azərbaycanda fəlsəfə sahəsində qazanılan nailiyyətlərdən söz açmış, "Ümumdünya Fəlsəfə Günü"nə həsr olunmuş silsilə tədbirlərin keçirildiyini nəzərə çatdırmışdır. Azərbaycan elmi-fəlsəfi fikrinin dünya elminə inteqrasiyasının qarşıda duran ən aktual vəzifələrdən biri olduğunu söyləyən İ.Məmmədzadə alimlərimizin beynəlxalq elmi miqyasda fəaliyyəti və çağdaş fəlsəfi proseslərin ölkəmizdə işıqlandırılması məsələlərinə böyük önəm verdiyini bildirmişdir.

Sonra UNESCO üzrə Azərbaycan Milli Komissiyasının birinci katibi Günay Əfəndiyeva təmsil etdiyi qurumun baş direktoru İrina Bokovanın Ümumdünya Fəlsəfə günü ilə bağlı müraciətini səsləndirmişdir.

Tədbirdə çıxış edən İordaniya Haşimilər Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Adel Adeylah İslam fəlsəfəsinin mahiyyəti, tədrisi məsələləri, onun dünya mədəniyyətinə verdiyi töhfələrdən və s. söz açmışdır.

Tədbirdə Mərakeş Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri, professor Həsən Hami "Ərəb hadisələri (sosial-fəlsəfi təhlil)", İ.Məmmədzadə "Fəlsəfə günü və fəlsəfə tarixinə yeni yanaşma", fəlsəfə elmləri doktoru Lüsi Campos (Fransa) "Fransada fəlsəfənin və Şərq sivilizasiyası problemlərinin tədrisi", fəlsəfə elmləri doktoru Leyla Xəlifə (İordaniya) "Əbu-əl-Həsən ibn Yusif əl-Əmir əl amad ala əl-abadın (X əsr) əsərlərində fəlsəfənin tədrisi haqqında", fəlsəfə elmləri doktoru Zümrüd Quluzadə "İslam bölgəsi fəlsəfə tarixinin tədqiqinin perspektivləri haqqında" mövzusunda məruzələrlə çıxış etmişlər. Konfransda müasir dövrdə fəlsəfənin qarşısında duran bir sıra vacib və zəruri məsələlər ətrafında müzakirələr aparılmışdır.

* * *

AMEA FSHİ-nin direktoru, fəls.e.d., prof. İlham Məmmədzadənin Argentinada "Casa de Rusia"da "Azərbaycanın modernləşməsi və elmin vəzifələri" məqaləsi işıq üzü görmüşdür. Məqalə rus və ispan dillərində nəşr olunub. Məqalədə İlham Məmmədzadə olkə Prezidenti cənab İlham Əliyevin modernləşmə kursunun xüsusiyyətlərindən, müasir şəraitdə modernləşmənin sosio-mədəni mərhələsindən bəhs edərək elmin vətəndaşların şüuruna təsir gücünü vurğulayıb, ölkənin modernləşməsi və vətəndaş cəmiyyətinin inkişafında iştirakının əhəmiyyətini qeyd edib. Məqalədə elmdə və ilk növbədə ictimai elmlərdə islahatların aparılmasının zəruriliyinə diqqət çəkilərək fəlsəfənin qarşısında duran mühim vəzifənin məhz müasir proseslərlə elmin, o cümlədən ictimai elmlər arasında dialoq qurulmasında görür.

* * *

AMEA FSHİ-də məişət zorakılığının qarşısının alınmasına həsr olunmuş beynəlxalq tədbir keçirilmişdir. Tədbirdə Paris şəhərinin prokuror müavini, xanım Fransuaz Giyo, Fransa Viktimologiya İnstitutunun direktoru, cənab Jerar Lopez, habelə Bakı şəhəri Mərkəzi Kliniki Psixiatriya Xəstəxanasının baş həkimi, psixiatr Şaiq Sultanov iştirak etmişdir. Tədbiri institutun direktoru, fəls.e.d., prof. İlham Məmmədzadə açaraq son illər dünyada gedən qloballaşma proseslərinin ailə ilə bağlı problemlərin çoxalmasına və genişlənməsinə əhəmiyyətli dərəcədə təsir göstərdiyini qeyd etmişdir. O ailə, qadın və uşaq hüquqlarının tənzimlənməsi, bu sahədə problemlərin kriminoloji, psixoloji, sosioloji, fəlsəfi və digər istiqamətlərdə elmi-nəzəri tədqiqinə elmi ictimaiyyətin diqqətinin artdığını və bu istiqamətdə bizim ölkəmizdə də əhəmiyyətli tədbirlərin həyata keçirildiyini bildirmişdir.

Tərəflər elmi əməkdaşlığın davam etdirilməsinin zəruriliyini qeyd etmişlər. Görüşdə institutun hüquqşünasları, genderşünasları, sosioloqları, psixoloqları və filosofları mövzu ilə bağlı öz fikir və mülahizələrini bölüşmüşlər.

YENİ NƏŞRLƏR

Əlikram Tağıyev. Siyasətdən müntəxəbat.
Bakı, «Təknur», 2011, 152 s.

Kitab müasir politologiyanın aktual problemlərinə həsr olunmuşdur. Burada siyasi lider və demokratiya məsələləri, tarixi və müasir siyasətşünaslığın bəzi problemləri və onların qiymətləndirilməsi özündə yer almışdır.

Artur Şopenhauer. Dünya iradə və təsəvvür kimi.
I cild. Tərcümə edən: f.e.d. Adil Əsədov.
Bakı, «Təknur», 2011, 367 s.

Dahi alman filosofu Artur Şopenhauerin bu əsəri dünya fəlsəfi irsinin ən möhtəşəm nümunələrindən biridir. Əsər ilk dəfədir ki, Azərbaycan dilində nəşr olunur.

Солмаз Рзакулизаде. Из истории философской мысли Азербайджана.
Баку, «Текнур», 2010, 574 с.

Настоящее юбилейное издание представляет собой собрание как ранее опубликованных, так и впервые публикуемых научных трудов известного историка азербайджанской философии Солмаз Рзакулизаде о некоторых методологических, гносеологических и онтологических вопросах азербайджанской философии от ее истоков до XIX века. В книге изложены основные положения философских школ Азербайджана, интерес к которым в последние десятилетия на Западе возрастает. Философские системы отечественных суфийских мыслителей и перипатетиков откроют перед читателем глубины неисчерпаемой мудрости.

Лала Мовсумова. Женское начало в истории человечества.
Баку, «Элм», 2011, 224 с.

В работе делается попытка проанализировать эволюцию женского начала в мифе как с социологической, так и с позиции внутренней логики мифа, а также раскрывается сущность культа Великой Матери в процессе постепенной эволюции в контексте религиозного аткретизма: показывается, что и развитие общества и внутреннее развитие мифа привели к одному результату – секуляризации прав женщин-богинь в мифологии, к ограничению их влияния в обществе.

Müasir fəlsəfə, elm və mədəniyyət: postqeyri-klassik epistemologiya (Respublika konfransının materialları, 18 may 2011-ci il)
Bakı, «Təknur», 2011, 632 s.

Üç bölmədən ibarət olan kitabda tanınmış alimlərdən V.S.Stepin, Ə.S.Abasov, Ə.F.Abbasov, Y.N.Knyazeva, V.Q.Fedatova, N.M.Məmmədov, T.B.Allahyarova, F.M.Qurbanov, Z.Q.Məmmədəliyev, O.Y.Baksanskiy, V.Y.Lepskiy, N.Meldi, P.Ulusel, M.Ə.Mahmudov və b. postneoklassik ideyaların təşəkkülü və mahiyyəti, sosial özünütəşkilin xüsusiyyətləri, həqiqət və rasionallıq problemi, postneoklassik konsepsiyada humanizm və fəlsəfənin başqa istiqamətləri barədə maraqlı məqalələr öz əksini tapmışdır.

Əziz Məmmədov, Azər Mustafayev. Təbii-elmi idrak və insan dünyası.
Bakı, «Təknur», 2011, 463 s.

Müasir elmi biliklər sistemində ön plana çəkilən, mühüm dünyagörüşü, metodoloji və idraki əhəmiyyət kəsb etməklə fəlsəfi fikrin inkişafını istiqamətləndirən ən aktual problemlərdən biri insan problemidir. Yüksək elmi həqiqətlər və sarsılmaz idealı naminə həyatını inkvizisiya məhkəməsinin tonqalında başa vurmuş XVI əsrin böyük mütəfəkkiri G.Bruno demişdir: «Bütün elmlər içərisində mən yeganə bir elm tanıyıram və sevirəm; bu – insanlıq elmidir».

Əli Rzayev. Dövlət qulluğunun hüquqi əsasları.
Bakı, «Elm», 2011, 480 s.

«Dövlət qulluğunun hüquqi əsasları» adlı dərs vəsaiti dövlət qulluğunu sosial-hüquqi və təşkilatı institut kimi, xarici ölkələrin bu sahədə təcrübəsini müqayisəli metoddan istifadə edilməklə tarixi, nəzəri və praktiki aspektlərinə həsr olunur. Dövlət qulluğu dövlət hüquq təzahürləri – dövlət, dövlət hakimiyyəti, dövlət apparatı, dövlət idarəetməsi ilə bir sırada, qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdə vahid sistemdə tədqiq olunur.

Azərbaycanda qadın məsələsi (XX əsrin 40-60-cı illəri).
Gender kitabxanası (17-ci buraxılış), Bakı, «Təknur», 2011, 154 s.

Topluda XX əsrin 40-60-cı illərində Azərbaycanda ədib, şair və dramaturqların qadın məsələsi barədə fikirləri təhlil olunur, onların ideyalarına münasibət bildirilir.

İlham Mirzəyev. Ailənin sosial psixologiyası.
Bakı, «Çaşıoğlu», 2011, 640 s.

Kitabda ailə problemləri və onun sosial psixoloji mahiyyəti açıqlanır, şəxsiyyətin formalaşmasında ailənin roluna münasibət bildirilir, ailədaxili konfliktlərin yaranma səbəbləri araşdırılır, dini dəyərlərin ailə həyatına mənəvi-psixoloji təsiri tədqiq olunur. Bununla yanaşı cəmiyyətdə gender astimmetriyasının başlıca xüsusiyyətləri təhlil edilir.

Faiq Ələkbərov. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış (I hissə).
Bakı, «Təknur», 2011, 408 s.

Monoqrafiyada ilk dəfədir ki, milli ideologiya problemi bütün aspektləri ilə tədqiqata cəlb edilmişdir. Burada öncə milli ideologiya ilə bağlı etnos, millət, milliyyət, xalq, mili mənəvi dəyər, mili ideya və s. anlayışların şərhləri verilmişdir. Eyni zamanda kitabda Azərbaycan xalqının formalaşması, etnogenezi, dini-fəlsəfi dünyagörüşü, dili, «Azərbaycan» sözünün tarixi-coğrafi və siyasi-ideoloji mənası və s. geniş şəkildə tədqiq olunmuşdur. Monoqrafiyanın birinci hissəsində, əsasən milli ideologiyanın bazisi, onun elementləri tədqiqata cəlb edilərək, ikinci hissə üçün zəmin rolunu oynayır.

Aqşın Quliyev. Ömər Xəyyamın ictimai-siyasi görüşləri.
Bakı, «Qanun», 2011, 128 s.

Əsər görkəmli mütəfəkkir, Yaxın və Orta Şərqin klassik ədəbiyyatı tarixində rübai ustası kimi tanınan və bütün dünyada məşhur olan Ömər Xəyyamın ictimai-siyasi görüşlərinin təhlilinə həsr edilmişdir. Əsərdə Xəyyamın cəmiyyətə baxışları, sosial ədalətin və insan azadlığının tərənnumünə dair ideyaları tədqiq edilir.

Əbu Hamid Qəzali. Ey oğul. Tərcümə edən: İradə Zərgan.
Bakı, «Təknur», 2011, 80 s.

Kitabda İslam mədəniyyəti, fəlsəfə və ictimai fikir tarixinin görkəmli nümayəndəsi Əbu Hamid Qəzalinin «Ey oğul» və «Hökmdarlara nəsihət» əsərindən müəyyən hissələrin tərcüməsi verilmişdir. Əsərdə insanın mahiyyət və xisləti, onun kamilləşmə yolları dünya qarşısındakı məsuliyyəti önə çəkilir, dünya və axirət səadətinə nail olma yolları göstərilir.

İlham Mirzəyev. Müharibənin tərs üzü: psixoloji sarsıntı və həyat itkisi.
Bakı, «Elm və təhsil», 2011, 344 s.

Monoqrafiyada müasir şəraitdə kəskin ekstremal vəziyyətlərlə üzləşmiş, xüsusən müxtəlif hərbi münaqişələrin, müharibələrin iştirakçısı olmuş şəxslərin sosial-psixoloji adaptasiyası məsələləri müxtəlif aspektdə araşdırılmışdır.

Aqşın Quliyev. Sufiliyin sosial-siyasi ideyaları.
Bakı, «Qanun», 2011, 76 s.

Kitabda İslam dini zəminində təşəkkül tapmış sufiliyin sosial-siyasi ideyaları təhlil edilmişdir. Əsərdə sufilik anlayışı, sufiliyin yaranmasının tarixi şəraiti, sufiliyin müasir dövrdəki mövqeyi kimi məsələlərə də diqqət yetirilmişdir.

Azərbaycanda qadın məsələsi (60-90-cı illər).
Gender kitabxanası (18-ci buraxılış), Bakı, «Təknur», 2011, 159 s.

Məqalələr toplusunda XX əsrin 60-90-cı illərində Azərbaycan poeziyasında, nəşrində qadına münasibət, qadının problemləri, ölkənin ictimai-siyasi həyatında qadının rolu araşdırılmışdır.

Müasir mərhələdə sosial fəlsəfənin aktual problemləri. (Məqalələr toplusu)
Bakı, «Təknur», 2011, 176 s.

Adı çəkilən topluda AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu sosial fəlsəfə şöbəsinin əməkdaşlarının və BDU-nun tanınmış filosoflarının məqalələri təqdim edilir. Oxucuların diqqətinə çatdırılan məcmuda sosial fəlsəfənin bir sıra aktual problemləri, o cümlədən, sosial fəlsəfənin mahiyyətinə və məzmununa dair araşdırmalar, fəlsəfədə insan problemi, yeni dünyagörüşü, multimədəni cəmiyyətlərdə dil siyasəti, cəmiyyətin inkişafında sosial idarəetmə, elita və ideologiya, sosial siyasətdə həyat səviyyəsi məsələləri, müharibə və sülh, fəlsəfə və sosiologiyanın ortaq və fərqli cəhətləri, qlobal təkamülçülük və XXI əsrin sosial-mənəvi həyatında onun rolu, Qərb sosial fəlsəfəsində siyasi realizm ənənələri, azərbaycançılıq məfkurəsi və s. məsələlər təhlil edilir.

İlham Mirzəyev. Liderlik zirvəsi. Siyasətin sosial psixologiyası.
İstanbul, «Doğu Kütüphanesi», 2011, 418 s.

Kitabda ümummilli lider Heydər Əliyevin şərəfli ömür yolu, onun siyasət olimpinin zirvəsinə yüksəlməsi, müdrik şəxsiyyətin dünya standartlarına cavab verən siyasi islalahları araşdırılır, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi kursu və milli dövlətçilik mənafelərinə xidmət edən diplomatiyası təhlil olunur.

Азимова Р.Д. Человековедение – наука XXI века.
Баку, Тэкнур, 2011, 167 с.
Человековедение как система знаний о человеке актуализирована социологией жизни XXI века. В книге в порядке постановки вопроса рассматриваются основные смыслообразующие константы предмета Человековедения как синтетической науки. Философия жизни, психологический потенциал человеческой природы и антропологическая педагогика анализируются в качестве базовых взаимопроникающих знаний Человековедения.

Makkarti C., Makkarti K. Türklər və ermənilər. Erməni məsələsi üzrə rəhbərlik.
Bakı, Səda, 2011, 192 s.
Kitabda amerikalılar və avropalılar XIX və XX əsrlərdə ermənilər və türklər arasında baş vermiş münaqişələr və onların tarixi kökləri barədə yalnız erməni və ermənipərəst mənbələrə əsaslanan məlumatlar almışlar.

ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan elm ictimaiyyətinə ağır itki üz vermişdir. Amansız ölüm Bakı Dövlət Universitetinin Humanitar fakültələr üzrə fəlsəfə kafedrasının müdiri, f.e.d., prof. ***Həmid Rza oğlu İmanovu*** *aramızdan aparmışdır. Qayğıkeşliyi, humanizmi və vətənpərvərliyi ilə həmişə fərqlənən filosofun çox zəngin və ibrətamiz həyat tarixçəsi vardır.*

Həmid İmanov 1932-ci ildə Gədəbəy rayonunda anadan olmuşdur. 1948-ci ildə orta məktəbi bitirdikdən sonra BDU-nun Tarix fakültəsinin fəlsəfə şöbəsinə daxil olmuşdur. 1953-cü ildə oranı fərqlənmə diplomu ilə bitirmiş, AMEA-nın fəlsəfə bölməsində aspiranturaya qəbul olunmuş, 1956-1958-ci illərdə həmin bölmədə kiçik elmi işçi vəzifəsində çalışmışdır. 1958-ci ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. Həmin ildə BDU-nun fəlsəfə kafedrasında dosent vəzifəsini tutmuşdur. 1971-ci ildə isə doktorluq dissertasiyasını müdafiə etmiş və kafedranın professoru, 1976-cı ildən ömrünün sonunadək kafedra müdiri vəzifəsində çalışmışdır.

«Azərbaycanda təhsil və onun proqnozlaşdırılması», «Azərbaycanda sosial strukturun dəyişmə meyilləri və ona təsir edən amillər», «Sosial gərginliyi törədən obyektiv və subyektiv amillər və onların həlli yolları» və başqa mövzular filosofun tədqiqat sahəsini təşkil edib.

Azərbaycan fəlsəfə elmini zənginləşdirən «Azərbaycan kəndinin mənəvi simasının dəyişilməsi», «Orta əsr İslam Şərqində fəlsəfi fikir», «Etnik və dünya dinləri», «Xalq kütlələrinin və şəxsiyyətin tarixdə rolu», «Fəlsəfə», «Fəlsəfənin əsasları», «Orta əsrlərdə ərəb-müsəlman fəlsəfi fikri, «İnsan amili, mahiyyəti və fəallaşdırılması yolları» və s. kitabları oxucuların rəğbətini qazanmışdır.

Uzun illər ərzində elmi-pedaqoji fəaliyyətinə görə professor H.R.İmanov Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə «Şöhrət» ordeni ilə təltif edilmişdir.

Həmid İmanovun əziz xatirəsi onu tanıyanların yaddaşından heç vaxt silinməyəcəkdir.

«Elmi Əsərlər»
beynəlxalq elmi-nəzəri jurnalının
Redaksiya heyəti

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında məqalələrin qəbulu ilə bağlı qoyduğu tələblər:

1. Məqalələr Azərbaycan, rus, türk və ingilis dillərində çap olunmuş şəkildə və elektron variantda təqdim olunmalıdır. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasəsi verilməlidir. Məqalələrin həcminin 8-10 səhifə, xülasələrin 5-8 sətir olması tövsiyə olunur.
2. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır. Xülasələr elmi və qrammatik baxımdan ciddi redaktə olunur.
3. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, [1] və ya [1, s.119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.
4. Məqalə müəllifin işlədiyi kafedrada yaxud şöbədə müzakirə olunmalı və iclasın protokolundan çaxarış redaksiyaya təqdim edilməlidir
5. Məqalələrin mətnləri Azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində ingilis (ABŞ) əlifbası ilə Times New Roman – 14 şrifti ilə 1,5 intervalla yığılmalıdır.
6. Məqalələr rəyçilərin gizli rəyindən sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa təqdim olunur.
7. Elmi məqalələrin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.
8. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə verilməlidir.
9. Məqalələrdə müəllif(lər)in adı və soyadı, işlədiyi müəssisə və onun ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.
10. Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalar və s. istinadlara üstünlük verilməlidir.
11. Jurnalda baxılan elm sahəsində qabaqçıl olan dünya ölkələrindən daxil olan məqalələrin çapına da yer verilir.
12. Jurnal yalnız öz profilinə uyğun məqalələri dərc edir.

Yuxarıda göstərilən şərtlərə uyğun olmayan məqalələr redaksiya

heyəti tərəfindən qəbul edilmir

Требования Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики к научным изданиям при приеме статей, отражающих основное содержание диссертации:

1. Статьи должны быть представлены на азербайджанском, русском, турецком, английском языках в напечатанном виде и электронном варианте. К статье, написанной на одном языке, должны быть даны резюме на двух языках. Рекомендуется статьи представлять объемом 8-10 страниц, а резюме 5-8 строчек.
2. Резюме к статьям на различных языках должны быть идентичные и соответствовать содержанию статьи. Статьи должны быть тщательно отредактированы с научной и грамматической точек зрения.
3. Должны быть ссылки на научные источники, связанные с темой. Список литературы, приведенный в конце статьи должен быть дан не в алфавитном порядке, а пронумерован в порядке встречающейся в тексте ссылки на литературу, как например, (1) или (1, с.119). Если в статье встречаются повторные ссылки на одну и ту же литературу, тогда эта литература должна быть дана под предыдущим номером.
4. Статья должна быть обсуждена на кафедре или отделе, где работает автор и выписка из протокола собрания должна быть представлена редакции.
5. Текст статей на азербайджанском языке должен быть дан латинским алфавитом; на русском языке – кириллицей; английском языке – английским алфавитом (США), Times New Roman – 14 шрифтом 1,5 интервала.
6. Статьи могут быть представлены к печати после получения тайного отзыва со стороны отраслевого редактора или специалиста из членов редакционного совета.
7. В конце статьи автор должен сказать о научной новизне работы, прикладном значении, экономической пользе, соответсвующей характеру статьи.
8. В каждой статье должны быть даны индексы типа УДК и PACS, а также ключевые слова на трех языках.
9. В статье должны быть указаны имя и фамилия, место работы и его адрес и электронная почта.
10. В списке литературы предпочтение должно быть дано ссылкам из статей, монографий и т.д., написанных за последние 5-10 лет.
11. В журнале помещаются статьи, поступающие из разных стран мира с развитой наукой.
12. Журнал печатает статьи, соответствующие его профилю.

Статьи, не отвечающие вышеизложенным требованиям, не принимаются редакционным советом.

Requirements of the Supreme Attestation Commission under the Azerbaican Republic President to be fulfilled at acceptance of the articles comprising the basic conclusions of the theses by the scientific editions recommended for publication

1. Articles should be submitted in Azerbaicani, Russian, Turkish, English languages in printed form and electronic version. In addition to the article written in one language, two summaries of it in other languages are to be presented. It is recommended to present an 8-10 page articles and summary in 5-8 lines.

2. Summaries to articles in different languages should be identical and in conformity with the contents of the article. The articles should be carefully edited from the scientific and grammar point of view.

3. There should be references to the scientific sources connected to the theme. Literature list cited at the end of the article is to be given not alphabetically, but numbered in order of reference to literature met in the text, as for instance (1) or (1, p.119). If in the article there are met the repeated references to one and the same literature, this literature should be given under the previous number.

4. Article is to be discussed in a chair or department where the author works, an extract from the minutes is to be submitted to the editorial board.

5. Text of the articles in Azerbaicani should be typed by Latin alphabet, in Russian – by Cyrillic alphabet, in English – by English alphabet (USA), Times New Roman – 14 font, 1,5 line spaced.

6. Articles may be submitted to the press after receiving the secret reference on the side of the branch editor or an expert from the members of the editorial staff.

7. In conclusion of the article the scientific innovation of the work, importance of applying, economic advantage corresponding to the scientific field and character of the work should be clearly indicated.

8. In every article the indices of UDC and PACS type, as well the keywords in three languages should be indicated.

9. In article an author's name, surname, his work and home addresses and e-mail are to be indicated.

10. In Literature List the preference should be given to references from the articles, monographs and oth. written for last 5-10 years.

11. In the cournal there is a room for the articles coming in from the different countries of the work with advanced science.

12. The cournal publishes only those articles which are in conformity with its profile.

Articles not meeting the above mentioned reguirements are not accepted by the editorial board.

ELMİ ƏSƏRLƏR

Beynəlxalq elmi-nəzəri jurnal

№ 2 (17), 2011

Redaktorlar:

ŞURA MƏMMƏDOVA
XURAMAN TURABOVA
SVETLANA CABBARLI
SOLMAZ QURBANOVA
GƄLARƏ AXUNDOVA
RAYA ƏFƏNDİYEVA
MƏLAHƏT TAĞIYEVA
RƏHİLƏ HƏSƏNOVA
ŞƏFƏQ HACIYEVA
ALMAZ HƏSƏNOVA
SƏBİNƏ MUSTAFAZADƏ

Yığılmağa verilmişdir: 12.10.2011
Çapa imzalanmışdır: 16.12.2011
Kağız formatı: 60x84 16/1.
Çap vərəqi: 25,6. Tirajı 200.

Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun İnformasiya və Nəşriyyat şöbəsində nəşr olunmuşdur.
Şöbə müdiri: fəlsəfə doktoru Adil Həşimov, tel.: 050-337-74-33
Ünvan: H.Cavid pr-ti 31.
Tel.: (99412)539-28-74
E-mail: phillaw@phill.ab.az

SCIENTIFIC WORKS

The international scientific and theoretical journal

№ 2 (17), 2011

Editors:
SHURA MAMMADOVA
KHURAMAN TURABOVA
SVETLANA JABBARLY
SOLMAZ GURBANOVA
GULARA AKHUNDOVA
RAYA EFENDIYEVA
MALAHAT TAGIYEVA
RAHILA HASANOVA
SHAFAG HAJIYEVA
ALMAZ HASANOVA
SABINA MUSTAFAZADE

Submitted to collection: 12.10.2011
Sent to the press: 16.12.2011
Paper format: 60x84 16/1
Print sheet: 25,6
Copies: 200
Published in the Information and Publishing department of IPSL of ANAS
Department chief: doctor of philosophy Adil Hashimov, phone: 050-337-74-33
Address: H.Javid ave. 31.
Phone: (99412) 539-28-74
E-mail: phillaw@phill.ab.az